# AZƏRBAYCAN NƏSRİ ANTOLOGİYASI

BEŞ CİLDDƏ

IV CİLD

"ŞƏRQ-QƏRB"
BAKI–2006

Tərtib edənləri: **Zaman Əsgərli**
**Mətanət Fərzəliyeva**

**894.361’3’008-dc22**
**AZE**

**Azərbaycan nəsri antologiyası.** Beş clddə. IV cild. Bakı, “Şərq-Qərb”, 2006, 312 səh.

Kitabda XX əsrin ortaları (1940-1950-ci illər) Azərbaycan nəsrinin nümayəndələrindən Süleyman Rəhimov, Qılman İlkin, Süleyman Vəliyev, Bayram Bayramov, İsmayıl Şıxlı, Məmməd Aranlı, Hüseyn Abbaszadə, Fəthi Xoşginabi, Salam Qədirzadə, Gülhüseyn Hüseynoğlu, Məmmədrza Afiyət, Vidadi Babanlı, İsa Hüseynov, Sabir Əhmədov, İsi Məlikzadə, Yusif Səmədoğlunun nəsr əsərlərindən nümunələr verilmişdir.

**ISBN10 9952-34-106-7**
**ISBN13 978-9952-34-106-5**

© “ŞƏRQ-QƏRB”, 2006

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
“**Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında**”
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# AZƏRBAYCAN NƏSRİ XX ƏSRİN ORTALARINDA

Azərbaycan nəsrinin inkişaf tarixində XX əsrin 40-50-ci illəri xüsusi mərhələ kimi seçilir. Başqa dövrlərdə olduğu kimi, bu mərhələnin də ideya-estetik özünəməxsusluğunu və təkrarsızlığını zaman özü müəyyənləşdirir. Müharibə dövrünün sərt fəlsəfi, hərbi-siyasi tələbləri bədii prosesi əvvəlki qurama ritorikadan, saxta pafosdan azad edir. Nəsrin güzgüsü hər cür süni inikas formalarından təmizlənərək, insanı təbii qiyafəsində canlandırır. Ədəbiyyatın başqa sahələri kimi nəsrin də baş məfkurəsini, ana xəttini faşizmə üsyan təşkil edir. Bu ideya özünün aydın, görümlü ifadəsini bədii sənət aləminə XX əsrin 20-30-cu illərdə gəlmiş nasirlərin – Süleyman Rəhimov, Əli Vəliyev, Əbülhəsən, Mir Cəlal, Mirzə İbrahimov, Mehdi Hüseyn, Sabit Rəhman, Ənvər Məmmədxanlı, İlyas Əfəndiyev, həmçinin ədəbiyyatda artıq oturuşmuş sənətkar kimi tanınan Məmməd Səid Ordubadi və mətbuatda ilk əsərlərini çap etdirən Yusif Əzimzadə, Qılman Musayev, Hüseyn Abbaszadə, Ənvər Yusifoğlu, İsmayıl Şıxlı, İsa Hüseynov kimi yazıçıların əsərlərində tapır.

1941-1945-ci illərin Azərbaycan ədəbiyyatında nəsrin, istisnasız olaraq, bütün formalarında əsərlər yazılmışdır. Bu əsərlər arasında roman, povest və hekayələrlə yanaşı, bir sıra cəbhə xatirələri, yol qeydləri, oçerklər və gündəliklər də var idi. Lakin müharibə dövrünün nəsrində əsas, aparıcı forma hekayə idi. Yazıçılar müharibənin tələblərinə vaxtında cavab vermək üçün bu janrdan uğurla istifadə edirdilər. Müharibə dövrü hekayələrinin əsas, aparıcı ideyasını doğma vətəni düşməndən qorumaq uğrunda fədakarlıqla vuruşan döyüşçünün yüksək bəşəri keyfiyyətlərinin, nəcib əxlaqi sifətlərinin tərənnümü təşkil edir. Bu döyüşçülərin heç biri “anadangəlmə” hazır qəhrəman deyil. Onların ürəyi ayrı düşdükləri doğma ellərdə, yarımçıq qoyub gəldikləri dinc əməyinin, ailəsinin, uşaqlarının, sevgililərinin yanında, özləri isə hər günü, hər saatı gözlənilməz vəziyyətlərlə dolu cəbhədədir. Döyüşçü vuruşmaq, qərar qəbul etmək, onu yerinə yetirmək məqamında xəyalpərvər deyil, məhz döyüş adamıdır, təşəbbüskar və cəsurdur. Lakin o həm də yüksək mənəvi keyfiyyətlərə malik insandır, ailəsinin başçısı, uşaqlarının atası, sevgilisinin yarıdır, bir həyat mücahididir, insanın, insanlığın taleyini təhlükədən qurtarmağı özünə böyük məqsəd götürmüş humanistdir. Bütün bu keyfiyyətlər M.S.Ordubadinin “Serjant İvanov adına körpələr evi”, Əbülhəsənin “Görüş yeri”, “Yaralı”, “Oxu, bülbülüm, oxu”, Ənvər Məmmədxanlının “Ulduz”, “Buz heykəl”, S.Rəhimovun “Torpağın səsi”, “Qardaş qəbri”, Y.Şirvanın “Həyat poeması”, Y.Əzimzadənin “Xatirə”, “Sənsiz” və onlarca digər hekayənin ideya-məzmun və bədii sənətkarlıq planında aydın görünür.

Müharibə dövrü Azərbaycan nəsrində arxanın təsviri geniş yer tutur. Mehdi Hüseynin "Nişan üzüyü", Mir Cəlalın "Anaların üsyanı", "Vətən yaraları", Əli Vəliyevin "Qərənfilin sovqatı", "Xədicənin dərdi" hekayələrində arxa cəbhə adamları, xüsusilə analar böyük məhəbbətlə təsvir edilir. Qəzəbindən göz yaşı qurumayan bu insanlar həqiqi vətənpərvərliyin və insanlığın uca zirvəsi kimi diqqəti çəkir və yadda qalırlar. Mehdi Hüseynin "Nişan üzüyü", Mir Cəlalın "Vətən yaraları" hekayələrində təsvir olunan ana surətləri bu baxımdan olduqca səciyyəvidir.

"Nişan üzüyü"ndə təsvir olunan Əminə xala oğlunu dərin, sonsuz bir məhəbbətlə sevən ana olmaqla yanaşı, həm də yüksək şüurlu vətəndaşdır. İşlədiyi toxuculuq fabrikində fədakar əməyi ilə hamının ehtiramını qazanmış bu qadın aydın şəkildə başa düşür ki, xalq özünün bütün gücünü səfərbərliyə almazsa, ordu vaxtında düşmənə sarsıdıcı zərbə endirə bilməz, elin üzü gülməz; o zaman heç bir şənlikdən, onun oğlunun da xeyir işindən söhbət gedə bilməz. Buna görə Əminə xala müdafiə fonduna təkcə hər ay beşgünlük məvacibini, evdəki mis qablarını deyil, ən qiymətli əşyasını – oğlu üçün aldığı nişan üzüyünü də böyük məmnunluqla yazdırır.

Əminə xala, xarakterinin psixoloji incəliklə işlənməsi baxımından Mir Cəlalın "Vətən yaraları" hekayəsində təsvir etdiyi ana surətinə yaxındır. Oğlu cəbhədə vuruşan bu tənha qadın özündən başqa qapısını kimsənin açmayacağını bildiyi halda, yenə də işə gedərkən evin açarını bir zaman oğlu ilə nişanladığı yerdə qoyur. Ürəyinin dərin guşəsində bəslədiyi qüvvətli bir hiss, sanki dilə gəlib ona pıçıldayır ki, uzaq səfərə gedən oğlun birdən gəlib çıxa bilər, açarı qoy get, sən işdən qayıdanacan o, qapıda qalmasın... Bu yalnız ana ürəyinin zənginliklərinə dərindən nüfuz etməyi bacaran bir yazıçının kəşfi ola bilər. Burada bədii həqiqət əqli mühakimədən daha çox hisslərin, duyğuların məntiqinə əsaslanır.

Müharibə dövrü nəsrinin janrlarından biri kimi miniatür hekayələri də qeyd etmək lazımdır. Bu hekayələrdə həyat həqiqəti gah rəmz, gah da xitab yolu ilə təsvir edilir. Mir Cəlal, Mehdi Hüseyn, Yusif Şirvan, Seyfəddin Dağlı, Yusif Əzimzadənin bir sıra hekayələri buna misaldır. Məqsəd və fikir aydınlığı, sözə qənaət, yığcamlıq, rəvan bədii dil həmin hekayələrin səciyyəvi əlamətləri idi. Sonralar maraqlı roman, povest və pyeslər müəllifi kimi tanınan Yusif Əzimzadə müharibə illərində yaradıcılığa həmin hekayələrlə başlamışdır. Onun "Xatırlayacaqsan" və "Sənsiz" hekayələri buna yaxşı misaldır. Həcmcə kiçik, bəzən lap bir-iki səhifəlik bu əsərlərdə sədaqət, etibar motivləri diqqət mərkəzindədir. Xüsusən "Sənsiz"də yazıçı rəmzlərdən istifadə yolu ilə qəhrəmanlarının duyğular aləminə dərindən nüfuz edə bilir.

Hekayədəki rəmz gənc bir əsgərin cəbhəyə getmək ərəfəsində sevgilisinin bağçasında əkdiyi bir gül koludur. Müəllif bu gülün bəzən xoş saatlarını (günəşli bahar günündə budağında yuva qurmuş bülbüllə həsb-halını), bəzən də gərgin

dəqiqələrini (qışın soyuğunda çovğunlu küləyə sinə gərməsini) təsvir etməklə uzaqlarda, qarlı səngərlərdə vuruşan həmin əsgərin taleyini, onun keçdiyi cəbhə yollarının eniş-yoxuşunu göstərmək istəmişdir.

1943-cü ildə yazdığı "Rahat yat, əziz balam!" əsərində Y.Əzimzadə qələbə duyğularını ifadə etmişdir. Haradasa özü kimi milyonlarla körpənin səadəti naminə ölüm-dirim mübarizəsi aparıldığından xəbəri olmayan qızcığaza xitab forması təsirli bədii vasitədir. Əsərin ekspozisiyasında səhər-səhər öz yumşaq yatağında xumarlanan bir körpə təsvir olunur. Bu canlı təsvirdə oxucu "bəzən incə dodaqlarını qaçırıb, totuq yanaqlarından işıq saçan" körpənin xəfif təbəssümünü aydın görür. Elə buradaca müəllif həmin təsvirdəki dinclik əhvali-ruhiyyəsinə əsla bənzəməyib, ona tamamilə zidd olan başqa dramatik bir vəziyyətin təsvirinə keçir, qızcığaza müraciətini davam etdirərək yazır: "Sən bilmirsən ki, indi buradan uzaqlarda... od və alov içində həyatın hər dürlü zövqünü, nemətini, istirahətini özünə haram edən yüz minlərlə insan sənin rahatlığını dəhşət və fəlakətdən qoruyur, gələcək səadətin üçün ölümlə qarşılaşırlar... Sən bilmirsən ki, bu saat sənə dadlı bir yuxu gətirən səhərin bu erkən çağında, güllə yağmuru altında səngərlərdə uzanıb aramsız bir ürək çırpıntısı ilə hücum əmri gözləyən əsgər səni düşünür"[1].

Müharibənin gedişində yazıçılar cəbhəni və arxanı daha ətraflı öyrənir, insan psixologiyasının dərin qatlarına nüfuz etməklə onun fəaliyyətini, fikir və düşüncələrini geniş planda, panoramlı epik lövhələrlə canlandırırdılar. S.Rəhimovun "Medalyon", M.Hüseynin "Fəryad", Əbülhəsənin "Oğullar və atalar", Mir Cəlalın "Açıq kitab" povestlərində xalqın nikbinliyi, intiqam hissi, qələbəyə inamı, işğala məruz qalmış torpaqlardakı partizan mübarizəsi, müharibənin uşaqlarda əmələ gətirdiyi müdriklik, faşizmə qarşı mübarizədə onların iştirakı canlı epik lövhələrlə təsvir edilirdi.

Azərbaycan nəsrində Böyük Vətən müharibəsi mövzusunda yazılmış ilk irihəcmli əsər S.Rəhimovun "Medalyon" povestidir. Birinci çapının epiqrafından görünür ki, bu əsər vətən yolunda canlarını verən qəhrəmanların körpə balalarına ithaf olunmuşdur. Povestdə cəbhə xəttindən Şərqə köçürülmüş balaca Rozanın başına gələnlər izlənir, vətəni faşist işğalçılarından qoruyan Əli və Arkadi kimi təyyarəçilərin igidliklərindən bəhs edilirsə də evdə uşağını yalnız qoyub səngərə atılan tibb bacısı Valyanın, silah konstruktoru Anisim və onun meşşan təbiətli arvadı Alyanın surətləri əsərin mərkəzində durur.

Valideynin uzunmüddətli ayrılıq ərəfəsində öz övladına bazubənd, qolbaq, medalyon, üzük, kəmər və s. yadigar verməsi Şərq, eləcə də Azərbaycan ədəbiyyatında zəngin ənənəsi olan motivlərdəndir. S.Rəhimov cəbhədəki hadisələri arxa ilə bağlamaq üçün medalyon epizodundan bir vasitə kimi istifadə etmiş və onun əsasında maraqlı kompozisiya qurmuşdur. Ailə yadigarı

[1] Y.Əzimzadə. Rahat yat, əziz balam! "Ədəbiyyat qəzeti", 2 fevral 1943-cü il.

olan medalyonu oddan-alovdan keçirib öz qoynunda bəsləyən rus qızı Roza Azərbaycan torpağına qədəm qoyduğu gündən burada hamı ağuşunu açıb, ana məhəbbəti ilə onu bağrına basır.

Povestdəki Anisim və Alya surətləri müharibənin müxtəlif görüşlü, müxtəlif təbiətli adamlarda necə ziddiyyətli əhvali-ruhiyyə oyatdığını göstərmək baxımından maraqlıdır. Arxada yaşadığına baxmayaraq, cəbhənin ən vacib tapşırıqlarını yerinə yetirən ixtiraçı bir an belə özünü cəbhədən, Vətən müharibəsinin böyük məqsəd və vəzifələrindən ayrı təsəvvür etmir. O, gecəni gündüzə qatıb işləyir; gərgin əmək və axtarışlar sayəsində düzəltdiyi yeni qumbaranın hesablamalarını daha da dəqiqləşdirir. Yüksək vətəndaşlıq hissləri və məsuliyyəti ilə yaşayan bu ixtiraçıdan fərqli olaraq, onun arvadı Alyanın bütün məşğuliyyəti yeni paltar modaları arxasınca sürünməkdən, müxtəlif məclislərdə nəşələnməkdən ibarətdir. Buna görə Anisim onun hərəkətlərini "vətənə xəyanət" adlandırır. Təəssüf ki, öz şəxsi rifahını ümumi mənafedən üstün tutan bu qadına Anisimin münasibəti həddindən artıq mülayimdir. Halbuki münasibətlərin kəskinləşdirilməsi xarakterlərin daha dərindən açılmasına şərait yaradar, əsərdə aydın görünən kompozisiya dağınıqlığının aradan qaldırılmasını təmin edərdi. Belə sənətkarlıq kəsirlərinə baxmayaraq, "Medalyon" povesti o dövrün insanlarını real əks etdirdiyinə görə həm arxa, həm də ön cəbhədə geniş yayılmış və oxucuların rəğbətini qazanmışdı[1].

Azərbaycan ədəbiyyatında Böyük Vətən müharibəsinin gedişini, ayrı-ayrı cəbhələrdə döyüşçülərin və partizanların göstərdiyi qəhrəmanlıqları geniş epik lövhələrlə əks etdirən əsərlərin bir çoxu müharibə qurtardıqdan sonra – 1940-cı illərin ikinci yarısı və 1950-ci illərdə yazılmışdır. Məmməd Aranlının "Morava sahilində", İsmayıl Şıxlının "Kerç sularında", Məhərrəm Bayramovun "Müharibə günlərində", Əbülfəz Bağırovun "Səadət mübarizləri", Həmid Axundlunun "Ağır günün dostları", Hüseyn Abbaszadənin "General", Əbülhəsənin "Müharibə" və s.

Həmin əsərlərin müəllifləri müharibədə bilavasitə iştirak etmiş, əldə silah düşmənə qarşı döyüşmüş, hərbin dəhşətlərini öz gözləri ilə görmüş döyüşçülər idilər. Onlar qələmə aldıqları hadisələrin, demək olar, hamısının birbaşa şahidi və iştirakçısı olmuş, təsvir etdikləri surətlərin prototiplərini şəxsən görmüşdülər. Buna görə də onların əsərlərində döyüş səhnələri, uğurlar və itkilər, əsgərlərin keçirdiyi psixoloji yaşantılar – sevinc və iztirablar olduqca təbii və təsirli əks etdirilir, oxucunu da həyəcanlandıra bilirdi.

Qələbədən sonra müharibə mövzusunda yazılmış ilk əsərlərdən biri Məmməd Aranlının "Morava sahilində" (1948) povestidir. Burada müharibənin son mərhələsinə aid əməliyyatlardan biri təsvir olunur. Əsərin qəhrəmanları düşməni torpağımızdan qovub çıxarmış, faşistləri tamamilə məğlub etmək,

[1] Bəkir Nəbiyev. Kamalın təntənəsi. Bakı, 1981, səh.145-147.

Yuqoslaviya xalqlarını da əsarətdən qurtarmaq üçün bu ölkənin sərhədini keçmişlər. Povest Yuqoslaviyanın Serbiya vilayətindəki qəsəbələrdən birində, Morava çayı sahilindəki təpədə yerli əhalinin xüsusi ehtiram göstərdiyi əsgər qəbrinin təsviri ilə başlayır. Həmin qəbir Morava sahillərinin faşistlərdən təmizlənməsində müstəsna igidliklər göstərmiş azərbaycanlı serjant İsmayılındır. Onun fədakar bir kəşfiyyatçı olması, xüsusən bu qəsəbənin azad edilməsi uğrunda vuruşlarda böyük qəhrəmanlığı haqqında İsmayılın vaxtı ilə ölümdən xilas etdiyi serb qızı Marika danışır. Tənha məzar, ona dərin ehtiram göstərilməsi, bu məzardakı əsgərin taleyi və igidlikləri haqqında hadisələrin şahidi olmuş bir adamın məlumat verməsi kompozisiya cəhətdən müharibə mövzusunda yazılmış əsərlər üçün yeni deyildi. Lakin burada diqqəti cəlb edən başqa bir cəhətdir; döyüş səhnələri, xüsusən kəşfiyyatçıların işi canlı müşahidələr əsasında yazıldığından lap ilk sətirlərindən oxucunu ram edib öz aləminə aparır.

"Morava sahilində" olduğu kimi, İsmayıl Şıxlının "Kerç sularında" əsərində də real hadisələr təsvir olunur. Müəllif döyüş səngərlərində baş vermiş əhvalatları, cəbhə yoldaşlarının əhvali-ruhiyyəsini müharibə həqiqətlərinin kiçik bir epizodunda – güclü atəş altında Krım sahillərinə desant çıxarılması əməliyyatının təsvirində əks etdirir. Aparılan döyüşlərin ağırlığı, vəziyyətin gərginliyi, əldə edilən xırdaca bir üstünlüyün belə böyük məhrumiyyətlər və çoxlu qurbanlar bahasına başa gəlməsi əsərdə xüsusi bir təmkinlə göstərilir. Yazıçı vuruşanlar, ölənlər və öldürənlər içərisindən seçdiyi topçu İlyas, kapitan Aslan, miçman Abbas, sükançı Dmitriyev kimi surətləri böyük rəğbət və məhəbbətlə təqdim edir.

"Morava sahilində" və "Kerç sularında"n sonra XX əsrin 40-50-ci illərində hərbi vətənpərvərlik mövzusunda yazılan "Müharibə günlərində" (M.Bayramov), "Dostluq qalası" (Ə.Əbülhəsən), "Səadət mübarizləri" (B.Əbülfəz), "Ağır günün dostları" (H.Axundlu), "Buludlar arasında" (H.Razi) kimi povest və romanlarda da müharibənin qanlı-qadalı səhnələri, partizan hərəkatı reallıqla təsvir edilmiş, həmin qanlı-qadalı səhnələrdən hünərlə, igidliklə çıxan, yaxud orada mərdliklə ölən döyüşçülərin canlı bədii surəti məhəbbətlə yaradılmışdır. Bu əsərləri səciyyələndirən məziyyətlərdən biri də budur ki, onların müəllifləri öz vəzifələrini yalnız döyüş səhnələrini, yaxud kəşfiyyat əməliyyatlarını göstərməklə kifayətlənmir, yeri gəldikcə surətlərin daxili-mənəvi aləminin təsvirinə də yer ayırır, onların bütöv təqdim olunmasına səy edirlər.

Müharibə mövzusu, faşizmə üsyan ideyası 1940-1950-ci illər nəsrinin əsas, aparıcı istiqamətlərindən biri olsa da yeganə problemi və qayəsi deyildi. Azərbaycan nasirləri müharibə dövrünün hadisələrini, onların bəşəri mahiyyətini bədii təhlilin mərkəzinə gətirməklə yanaşı, dinc quruculuq işləri ilə məşğul olan fəhlə və kəndlilərin iş, təsərrüfat qayğılarını, tikib ucaltmaq

arzularını da təsvir edirdilər. İstər kiçik, istərsə də irihəcmli nəsr əsərlərində Azərbaycan kəndində və sənaye mərkəzlərində gedən quruculuq işləri, bu prosesdə iştirak edən insanların yaradıcılıq əzmi, əmək cəbhəsindəki uğurları, şəxsi problemləri, mənəvi dünyası geniş epik lövhələrlə verilirdi. Mehdi Hüseynin "Abşeron", "Qara daşlar", Manaf Süleymanovun "Yerin sirri", Mirzə İbrahimovun "Böyük dayaq", Əli Vəliyevin "Gülşən", "Çiçəkli", İlyas Əfəndiyevin "Söyüdlü arx", "Körpüsalanlar", İsmayıl Şıxlının "Ayrılan yollar", "Dağlar səslənir", Sabit Rəhmanın "Böyük günlər", Həsən Seyidbəylinin "Kənd həkimi", Salam Qədirzadənin "Sarmaşıqlı aynabənd", Əli Əsgərovun "Pozulmaz naxışlar" povest və romanları, onlarca hekayə və oçerk İkinci Dünya müharibəsindən sonrakı dövrdə qurub-yaradan insanların əmək fədakarlığından, uğur və qələbələrindən bəhs edirdi.

1940-1950-ci illər nəsrinin bir sıra nümunələri Cənubi Azərbaycanda demokratik hərəkatın, vətənpərvərlərin acı taleyinin təsvirinə həsr olunmuşdur. Mirzə İbrahimovun "Azad", "İztirabın sonu", "Tonqal başında", İlyas Əfəndiyevin "Xəncər", Mir Cəlalın "Badam ağacları", Pənahi Makulunun "Qırmızı işıqlar", "Təbriz gecələri", Fəthi Xoşginabinin "Otaq", Məmmədrza Afiyətin "Alov", "Ehtiyac", "Biz yenə qayıdacağıq" hekayələrində, habelə M.S.Ordubadinin "Dumanlı Təbriz", M.İbrahimovun "Gələcək gün", Fəthi Xoşginabinin "Ata", Pənahi Makulunun "Səttarxan" romanlarında epik təhkiyənin mərkəzinə Cənubi Azərbaycan xalqının həyat-yaşayış tərzi, güzəranı, azadlıq uğrunda mübarizəsi, bu yolun liderlərinin qarşılaşdığı məşəqqətlər gətirilmişdir.

XX əsrin 40-50-ci illərində, xüsusilə müharibə qurtardıqdan sonra Azərbaycan yazıçıları öz yaradıcılıqlarında tarixi mövzulara geniş yer ayırırdılar. Xalqın mədəni-siyasi keçmişinə müraciət edən nasirlər onu müasirlik ruhu ilə işıqlandırır, tarixi olayları bəşəri dəyərlər prizmasından qiymətləndirirdilər. M.S.Ordubadinin "Qılınc və qələm", "Gizli Bakı", S.Rəhmanın "Nina", M.Hüseynin "Səhər", "Komissar", Q.İlkin "Həyat yollarında" povest və romanlarında tarixi həqiqətlər real hadisə və surətlərin canlı təsviri yolu ilə göstərilirdi.

Azərbaycanın uzaq və yaxın tarixi keçmişindən bəhs edən bu əsərlərin bəzilərinin baş qəhrəmanı xalqın sənətkar oğulları – şair və yazıçılardır; iki hissədən ibarət "Qılınc və qələm" romanında hadisələr XII əsrdə yaşamış dahi şair Nizami Gəncəvinin ətrafında, yaxud onunla sıx təmasda cərəyan edir. "Həyat səhifələri" povestində isə məşhur dramaturq Nəcəf bəy Vəzirovun yeniyetməlik və ilk gənclik illəri – onun Şuşadan Bakıya gəlib, real gimnaziyaya daxil olması və orada təhsil alması dövrü təsvir edilir. Hər iki əsərdə surətlər fərdi xüsusiyyətləri ilə seçilir və yadda qalırlar.

1940-1950-ci illərdə Azərbaycan nəsri üslub-janr baxımından bir sıra yeni keyfiyyətlərlə zənginləşir. Hadisələri obrazların daxili mənindən keçirməklə təqdimat üsulu orijinal bədii keyfiyyət kimi möhkəm vətəndaşlıq hüququ

qazanır. İlyas Əfəndiyevin əsərləri ilə lirik-psixoloji romanın klassik nümunələri meydana gəlir. Bu dövrdə qurub-yaradan insanın xeyirxah əməllərini real həyati faktlarla təqdim etmək üsulu sənədli nəsrin inkişafına səmərəli təsir göstərir; milli nəsrdə oçerk, xatirə, sənədli hekayə janrları inkişaf edir. İsa Hüseynovun "Anadil ötən yerdə", Əvəz Sadığın "Dağlar qoynunda", Mehdi Hüseynin "Dəniz qəhrəmanları", İlyas Əfəndiyevin "Şamama", Həsən Seyidbəylinin "Kür sahillərində", İsmayıl Şıxlının "Daşkəsən", Süleyman Vəliyevin "Dağlar ətəyində", Seyfəddin Abbasovun (Dağlının) "Dəniz kəşfiyyatçısı" kimi oçerklərində zəhmət, əmək cəbhəsinin müxtəlif yerlərində çalışan insanların həyat və fəaliyyətindən maraqlı söhbətlər açılır.

Əksəriyyəti kitab şəklində çapdan çıxmış həmin oçerklərin mərkəzində İkinci Dünya müharibəsinin dəhşətlərini görmüş, hiss etmiş sülhsevər insan surəti dayanır. Onların hamısı əmək qəhrəmanları, istehsalat qabaqcıllarıdır. Yazıçılar yüksək sənətkarlıqla onların şəxsiyyəti, tərcümeyi-halı ilə yanaşı, əhatə olunduqları mühiti, kollektivi də göstərirdilər. Mövzu dairəsinin genişliyi, forma rəngarəngliyi, bədii təsvir vasitələrinin təbiiliyi, yaddaqalan peyzajlara yer verilməsi, xalq danışıq dilindən səmərəli istifadə kimi xüsusiyyətlər həmin oçerklər üçün səciyyəvi məziyyətlər idi. Lakin həmin oçerklərdə obrazlar çox vaxt yarımçıq, natamam təqdim edilirdi. Onların əksəriyyəti qəhrəmanın hansı sahədə işlədiyi, planı neçə faiz yerinə yetirdiyi, hətta hansı məktəbi, ya neçənci sinfi qurtardığı da verilir, ancaq bunlarda ümumiləşdirilmiş tip yaratmaq təşəbbüsü az görünür, nəticədə surətlərin əksəriyyəti prototipindən zəif çıxırdı"[1].

XX əsrin ortaları Azərbaycan nəsrində xatirə, yol qeydləri, sənədli hekayə, mənsur şeir kimi epik janrların da bir sıra nümunələri yaranmışdır. M.İbrahimov, Ə.Vəliyev, İ.Şıxlı, S.Vəliyev, H.Seyidbəyli, G.Hüseynoğlu və başqa yazıçıların yaradıcılığı ilə təmsil olunan həmin əsərlərin bir qismində müharibə dövrünün hadisələri, başqa qismində yazıçıların doğma Vətənin müxtəlif guşələrinə, yaxud xarici ölkələrə səfər zamanı aldığı təəssürat, nəhayət, üçüncü qismində müasir insanın daxili yaşantıları əks edilirdi.

Əlbəttə, həm kəmiyyət, həm də həcm etibarilə çox sanballı olan 1940-1950-ci illər nəsrinin nəinki əksər, heç ən yaxşı nümunələrini də bir cildə toplamaq mümkün deyil. Mövcud cild üçün həmin dövrdə yazılmış hekayə, povest və oçerklərin tarixilik və bədiilik baxımından ən səciyyəvi nümunələri daxil edilmişdir.

***Bəkir Nəbiyev***
***Zaman Əsgərli***

---

[1] Azərbaycan sovet ədəbiyyatı tarixi. 2 cilddə, II cild. Bakı, 1967, səh.119-120.

*1940–1950-ci illər*

# AZƏRBAYCAN NƏSRİ

## SÜLEYMAN RƏHİMOV

(1900-1983)

*XX əsr Azərbaycan ədəbiyyatı tarixində böyük nasir-romançı kimi tanınan Süleyman Rəhimov Zəngəzur mahalının Əyin kəndində yoxsul kəndli ailəsində doğulmuşdur. İbtidai təhsilini ikisinifli kənd məktəbində almış, Aprel çevrilişindən sonra Şuşada pedaqoji kurslarda müdavim olmuş, 1928-1931-ci illərdə ADU-nun tarix fakültəsində oxumuş və oranı bitirmişdir.*

*Əmək fəaliyyətinə 13-14 yaşlarında muzdurluqla başlamış, 1920-ci ilə qədər doğma kəndlərində mal-qara otarmışdır. Aprel çevrilişindən sonra Qubadlıda inqilab komitəsində işləmiş, 1921-1926-cı illərdə Zəngəzur, Qubadlı və Laçın rayonlarında müəllim, məktəb müdiri olmuşdur. Ali təhsil aldıqdan sonra Azərbaycanın Laçın, Samux, Şahbuz və Noraşen rayonlarında rəhbər partiya işlərində, Azərbaycan Sovet Yazıçılar İttifaqında sədr (1939-1940; 1944-1945; 1954-1958) Azərbaycan KP Bakı Şəhər Komitəsində katib, Azərbaycan KP MK-da təbliğat və təşviqat şöbəsinin müdir müavini, Marksizm-leninizm İnstitutu Azərbaycan filialında direktor, Azərbaycan SSR Nazirlər Soveti yanında Mədəni Maarif İşlər İdarəsi Komitəsində sədr vəzifələrində çalışmışdır. O, Xalq yazıçısı və Sosialist Əməyi Qəhrəmanı adlarına layiq görülmüşdür. Ədib 1983-cü il oktyabr ayının 11-də Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.*

*S.Rəhimov ədəbi fəaliyyətə 1920-ci illərin sonlarında başlamışdır. Onun ilk əsəri "Şamo" romanı 1931-ci ildə "Azərnəşr"də çapdan çıxmışdır. Sonralar yazıçı bu əsər üzərində yaradıcılıq işini davam etdirərək, böyük bir epopeya yaratmışdır. Bundan başqa, yazıçının "Saçlı", "Ağbulaq dağlarında", "Mehman", "Ana abidəsi", "Qafqaz qartalı" kimi irihəcmli romanları, habelə "Medalyon", "Mahtaban", "Uğundu", "Pirqulunun kürkü", "Kəpəz", "Kəsilməyən kişnərti" və s. povestləri çap olunmuşdur. "Küp qarısı" povesti "Ötən günlər dəftərindən" kitabından (B., Azərnəşr, 1946) götürülmüşdür.*

## KÜP QARISI

Onlar ikisi də bir gündə anadan oldu, hər ikisinin göbəyini qarı bir bıçaqla kəsdi, qurşağındakı köhnə parçadan yandırıb qara qayırdı və qanlarını qurutdu. Sonra qarı bir cin duası oxuyub hər ikisinin üzünə və ətraf divara pilədi. Üçüncü günü qarı onların adlarını yaraşdırıb birinə Heydər, o birisinə Səfdər adını qoydu. Heydərlə Səfdər yavaş-yavaş böyüməyə, yeri düşəndə bir-birinin anasının

döşündən süd əmməyə başladı. Bu süd qardaşları birlikdə baldırı açıq gəzər, birlikdə quşlara cələ qurar, ikisi bir yerdə meşəyə gedər, yuvalardan birlikdə bala çıxarardılar. Onlar böyüyüb bir az caydaqlaşanda qonşudakı Zöhrə arvadın bir cüt – əkiztay qızı oldu. Qarı bunların da göbəyini həmin bıçaqla kəsdi, həmin əsgidən yandırıb qara qayırdı və göbəklərini bağladı. Heydərlə Səfdərin anaları görüşə gəldi. Yanları qız qundaqlı arvad bükülüb ağladı:

– Birisi oğlan olsaydı, yenə də atasının ocağı sönməzdi. Özləri bu dünyaya gəlməmişdən baş əyib atalarını o dünyaya göndərdilər. Görəsən hələ bu qızların başında nə bəlalar var?

– Nə bəlası olacaq! Qızlar ana bətnində atalarını öldürməyiblər ki?! Allahın əmri, məsləhəti görünür belə olubdur.

Zöhrə arvad uzun-uzadı ağlayıb kirimədi, arvadlar ona çox toxtaqlıq verdilər.

Qarı içəriyə girdi, söhbətə qarışdı, qızların adlarını yaraşdırdı – birisinə Məstan, o birisinə Gülüstan adını qoydu. Sonra qarı təklif edib Məstanı Heydərin anasının gəlini olmağa, Gülüstanı isə Səfdərin anasının gəlini olmağa razılıq aldı.

– Gün o gün olsun ki, toylarını da eləyək, – deyə qarı onların üzüklərini çıxarıb qızların biləyinə bağladı. Bir xeyli söhbət və xeyir-duadan sonra onlar ayağa qalxıb evdən çıxdılar.

Qarı qapıda oynayan Heydərlə Səfdəri yanına çağırıb:

– Daha evli kişisiniz, – dedi, – sizə uşaqlıq yaramaz!

Anaları oğlanlarını sevdilər və evlərinə döndülər.

Bir neçə il keçdi. Heydərlə Səfdəri bədbəxtlik tutdu, hər ikisinin anası ölüb bu dünyadan getdi. Uşaqlar göbək nənəsindən uzaqlaşmadılar. Onlar qarının məsləhətini aldılar, yeri gəldikcə bu bir cüt bacının evlərinə getdilər, qızların həyətdə, bacada evcik qurub oynamaqlarına tamaşa etdilər.

* * *

Yan-yörədə bir xeyir-şər oldumu qazı arvadı yığışılıb çıxar, evi də qarıya tapşırardı:

– Ay qız qarı, toyuq-cücədən muğayat ol, qazıya da qulaq as, mən də tez qayıdıram!..

Gedənlər qayıdar, ancaq günlər gəlib keçər, qazı arvadı evə dönmək bilməzdi. Qarı, qazının zəhmətini çəkər, onun lapçınlarını

düzəldərdi. Qarı get-gedə qazının qılığına girər, onun ürəyinə qədəm qoyardı. Qazı özü də qarıya isinişərdi. Bir gün qazı qarının biləyindən yapışıb:

– Dul arvadın halına mən həmişə yanaram, – dedi.

Qarı yaşmanıb:

– Allahın əmrilə, – deyə cavab verdi. – Şəriətə nə sözüm ola bilər!

– Allahın əmri və şəriət nə eləsin, sən razı, mən razı, neyləsin burada daha bu yazıq qazı!

Qarı qazının əlindən çıxmaq üçün kənara dartındı:

– Əyər qazı da şəriəti pozsa, – dedi, – heç bu dünyada bir daş bir daşın üstündə durarmı?

Qazı güldü və onun saqqalı arasından qırmızı dil-dodağı göründü.

– Səni inandırıram ki, – dedi, – bir daş da bir daşın üstündən yumalanıb düşməz, hələ bir az da möhkəmlənər.

Qarı damarları çırpan biləyini qazının əlindən çıxarıb:

– Allahın əmrilə, – dedi, – savab işə bu dünyada kim qol qoymaz?

Arvad evə gəlmədiyindən qazı bərk təntimişdi. O, dizləri üstə döşəkçədə dikəlib həsrətlə qarıya baxdı.

– İndi bəs nə olsun, ay dünyanın maralı?

– Nə olacaq, ay qazı, siğəsiz nə ola bilər?

Qazı dayana bilmədiyindən siğəni cari eləyib qarının biləyindən halal-halal tutdu. Qarı özü də quzu kimi yavaşıyıb qazının yanında oturdu. Qazı qarı ilə və qarı qazı ilə çox şirin söhbət etdi və savab iş də başa çatdı. Qarı qalxıb ayna qabağında özünə sığal verdi. Qazı qarıya baxıb onun adını "Sığallı" qoydu. Bu ad qarının həm siğəli, həm də sığallı olmağına işarə idi. Qarı güldü. Bu ad onun çox xoşuna gəldi.

Qarı su asdı, qazı qüsl elədi, onlar hər ikisi yuyundu və hər biri ayrı-ayrı küncdə namaz qılıb salavat çəkdi. Sonra onlar durub ocağın qırağına gəldilər. Bu halda qazı arvadı qapıda atdan aşırılıb düşdü və içərini səslədi. Qarı və qazı bayıra çıxdılar. Onların qaçıq bənizi qazı arvadının gözündən keçdi. O bunlara şübhəli-şübhəli söz atdı və bir azdan qarını evinə yola saldı. Qazı arvadı ərinə yaxınlaşdı, qazı isə dünəndən başının bərk ağrıdığını bildirib arvadın şıltağına cavab vermədi.

– Olmuya... gönü suya vermisən? Siğə əlində...

Qazı tündməzac olub:

– Nə danışırsan, məlunə? – deyə bərk qəzəbləndi.

– Məlun sənsən, kafər! Bəs sənə nə dərd dəyib ki, belə başağrısına düşmüsən?

Qazı arvadı mətləbi anlayıb bir fənd işlətmək qərarına gəldi. O, zahirdə bu işə əhəmiyyət verməyərək adəti üzrə xeyir-şərinə davam etdi. Bir dəfə axşamdan bir az keçmiş xəlvəti evə qayıtdı, qapıda pusquya durdu, qulaq verdi, içəridən xısıltı gəlirdi.

– Bəlkə mənim qulağım pis alır? – Qazı arvadı qapını yavaşca açıb içəriyə girdi, qarı şütüyüb öz yerinə çəkildi.

– Ay qız, qarı? – deyə qazı arvadı onu ucadan çağırdı. – Bəs çıraq hardadır?!

– Bu saat yandırım, – deyə qarı tumanını başına atıb çırağı yandırdı. Arvad qarını süzdü.

– Ay qız, nə əcəb öz evində deyilsən?

– Qazı dedi saqqalıma şəvə qoy, mən də qaldım.

– Bəs sonra niyə getmədin, qız?

– Gözüm görür ki, gedəm də.

– Bəs niyə görmür? – deyə qazı arvadı qarıya söz atdı. – Sən ki ömründə qızsan?

Qarı hıqqıldayıb:

– Vallah, – dedi, – dünyada mənim ibadətdən savayı əlimdən heç zad gəlməz!

Qazı dinməyib səsini içinə saldı. Bu tarixdən qazı arvadı ilə qarı arasında çəkişmə başladı. Bir ay keçməmiş qarı bir fənd işlədi, qazı arvadını o dünyaya yola saldı. Qazı göyərib şişmiş arvadın meyiti üstündə saqqalını yoldu, ancaq haray hara çatardı? Arvadı dəfn edib qayıdandan sonra qazı evinin boş və xaraba qaldığını gördü:

– Məlunə! – dedi. – Bu cəvanə sənin qurbanın oldu, – qazı qarıya nifrin elədi.

Qarı özünü onda qoymayıb qaşlarını çatdı:

– Nə mənim qurbanım oldu, qadam?

– Belə də oldu. Evim yıxıldı, mənim xanəm, bu gündən suyu sovulmuş dəyirmana döndü.

– Öləni diriltmək olmaz! – deyə qarı ah çəkdi və bir neçə damla da göz yaşı axıtdı. Əlbət, Allahın könlü belə istəyirmiş!

– Allahın könlü neyləsin? Sən mənim diriliyimi puç elədin!

Qarı göz yaşları içində şaqqa çəkib güldü:

– Sən ki siğə ustasısan!

* * *

Günlərin bir günü qarı damın üstünə çıxıb Heydərlə Səfdəri öz yanına çağırdı.

– Qız qarpızdır, bala, – dedi, – vaxtında kəsdin kəsdin, kəsmədin quruyacaqdır. Nədənki qarpız içini yeyər, bildinizmi?

Cavanlar utandı, qarı üstünü gəldi.

– Utanmayın, balalarım, utanmayın, utananın oğlu olmaz. Subay-subay gəzib obanın itlərini döymüş nə qazanacaqsınız? Cavanlığın bir gecəsi yüz qızıl, qocalığın yüz gecəsi bir qara pul!

Səfdər utana-utana dilləndi:

– Axır, qarı nənə, qızlar körpədir?

Qarı güldü, onun kələ-kötür dişləri göründü.

– Qızın nə körpəsi, ay balam, papaqla vurdun, yıxılmadı, götür qaç, özü də yalquzaq canavar kimi! Mən düzəldərəm, qazı da kəbinlərini kəsər!

Qarı çox danışıb Heydərlə Səfdəri qızışdırdı. Bir gün Səfdər başına bir dəstə cahil toplayıb bulaqdan Gülüstanı götürüb qazının evinə qaçırdı. Sahibsiz qız tərəfindən heç bir kəs də ayaq basıb qazının evinin üstünə gəlmədi. Qarı Gülüstanı gərdəyin dalına salıb onu dilə tutdu, qız haşa edib kiriмədi.

– Ağlama, qızım, ağlama. Bir vaxt uşaq şəkərə ağlayan kimi sən də ər dalınca ağlayacaqsan.

Qarının öyüd-nəsihəti qızın qulağına girmədi. Qazı gərdək dalına keçib qızın çənəsini tərpətdi:

– Ağlama, quzum, könülsüz kəbin düşməz!

Qarı gözlərini qurut kimi ağardıb:

– Könlü olmasa buraya niyə gəlirdi, – deyə qazını bir də çəp-çəp gözdən keçirdi.

Üç gün keçdi. Qarı qazıya bildirdi ki, qız könülə gəlibdir. Sonra o, Səfdəri çağırdı, kəbin barəsində üzləşmə başladı. Qazı başda, Səfdər ayaqda, qızla qarı da gərdəyin dalında idilər. Gülüstan hikkəsindən yaman tutulmuşdu. Qazı uca səslə sorğu-suala girişdi:

– Qızım, Gülüstan, sən özün öz xahişinlə bu Səfdər namə ərə getməyə razısanmı?

Gülüstan iki dəfə hıçqırdı. Qarı gərdəyin dalından pıçıldadı:

– Hə!

– Razısanmı, quzum?

– Razıyam!
– Razısanmı?
– Razıyam.
– Sənin kəbinini, quzum, bu Səfdər namə kəsimmi?
– Kəs!
– Sənin kəbinini bu Səfdər namə kəsimmi?
– Kəs!
– Kəsimmi?
– Kəs!

Qazı buradaca dönüb qəraətlə ucadan oxuyub kəbini əqd elədi.

Qarı gərdəyin dalından çıxdı və uca səslə Səfdərə:

– Allah xeyir versin! – dedi.

Bir gün sonra qarı qızı köçürüb Səfdərin evinə apardı. Gülüstan bilmədi haraya qaçsın? O oturdu. Qarı qazının yanına qayıtdı. Qazı qarıya çəpəndazı baxıb soruşdu:

– Bəs sığallı xanım, bizim zəhmətimiz?

– Tələsmə, mənim quzum, qız əmələ gəlib gəlin olanda göbək duasına özü gələcək.

Qarı qəribə bir hırıltı ilə güldü:

– Dəmirim gedir, yoxsa kömürüm? Səndən hərəkət, məndən bərəkət. Təki səndə ərdəm olsun!

Qazı, qarının bu rəhmi qabağında təbəssümlə onu sevdi və xıtıcılıq edib yalvardı ki, onu ölənə kimi bu dünyada körpə quzu ətindən məhrum qılmasın!

– Vaxta ki yalvarırsan, quzu deyirsən, o mənim gözlərim üstə.

Qarı bu sözləri and-amanla deyib qazını ümid elədi. Qazı dizləri üstə qalxıb əlini əlinə sürtdü: – “Tərki adət bə mocibi mərəzəst!”

* * *

Növbə Heydərə çatdı. Heydər dəstə toplamadan Məstanın razılığını aldı və onu götürüb qazıgilə gətirdi. Qazı, Məstanın kəbinini Heydərə kəsdi. Qarı öz göbək balalarını evləndirdi, ev etdi və onların işinə ağbirçəklik etməyə başladı.

Səfdər evləndiyi gündən Gülüstanla qaba rəftar etdi, Heydər isə Məstanın baş-gözünü yuyub, saçını hördü və onu böyütdü. Buna görə

də Məstan Heydərə alışdı, özü də gülüstan kimi açıldı. Gülüstan isə günbəgün saralıb-soldu. İki bacı dayandıqda Gülüstan Ərəbistan quruluğunu, Məstan isə Qafqaz gülüstanını andırırdı. Məstan gül-çiçək, ətir-ənbər qoxur, onda hər bir aləm görünürdü. Heydər bəxtindən çox razı qaldı, elə bil ki, axtarıb yeni bir dünyanı tapmışdı. Ancaq nə isə Heydərin işi düz gətirmədi. Onun qazancını cahil-cuhul oğurladı, onu kasıb salıb arvadını ələ keçirməyə cəhd etdi. Axırda Heydər qonşu qəsəbədə kərpic işinə girdi. O oxuya-oxuya kərpic kəsir, tikilən uca imarətlərə yerdən kərpic tullayır, birbaş ustaya çatdırırdı. Heydərin kərpic atmaq şöhrəti aləmə yayılır, gündə adam olan dəstə-dəstə tamaşaya çıxırdı:

– Zalım oğlu gör kərpici necə də ulduza qaldırır.

– Sən öl, yəqin arvadı göyçəkdir!

– Özü ki kərpicçidir.

– Hambal olam, təki üzüm o kifir tısbağanı görmüyə.

– Əqlin harada idi?

– Topuğumda!

– Düz deyirsən, uzun adamın ağlı elə orada olar!

– Yanırsanmı?

– Sən öl, yanıram da sözdü?! Başıma bir qapaz!

Hamı belə danışır, Heydərə həsəd aparır və bəxtəvərlik verirdi. Heydər kefindən qalmır, Məstanın eşqi ona hər bir zəhməti unutdururdu. Heydər işdən çıxıb evə gələndə yolun kənarındakı meşəyə dönərdi. Odunlar Heydərin baltası qabağında pendir kimi kəsilərdi. Bir an içində Heydər şələsini düzəldib çuxasının cəmbərəsinə götürər, bazardan aldığı ət-çörək, noxud və səbzəvatı yanından asar, evinə gələrdi. Məstan bazarlığı bişirər, ər-arvad süfrə salıb ləzzətlə yeyib, ləzzətlə yaşar və ləzzətlə durardılar. Get-gedə Məstanın gözəlliyi aləmə yayılıb, xəbəri mahalı götürdü. Get-gedə Səfdərin qaşqabağından zəhər yağar, o dünya var-yoxuna nifrət edər və öz bədbəxtliyindən şikayətlənərdi.

– İki bacının biri belə ceyran, o biri də belə bir tısbağa?!

O, son günlər qarını tapıb taleyindən şikayətləndi. Məstanı misal gətirdi, qarı yerə baxıb başını qaldırdı:

– Olmuya baldızından kəsirsən? – dedi.

Səfərin dodağı qaçdı.

– Kəssəm əlimə nə gələr?

– Niyə gəlməz?

– Bəs Heydər, süd qardaşım! Axır, bir döşdən süd əmmişik!

– Gözəl cana nə döş, nə süd, nə qardaş?.. Bu yolda oğul da atasının başını kəsər.

Qarı burada bir neçə misal çəkib axırda belə bir əhvalat nəql elədi:

– Bir gün qoca atanın arvadı ölür, o dönüb cavan şamama kimi bir qız alır. Lap əvvəl gündən oğlunun, analığına gözü düşür. Kişi işə gedir, evdə oynaşma başlayır. Bir gün söz bir yerə qoyub kişinin başını əzib meyitini peyinlikdə gizləyirlər. Bir az keçir işin üstü açılır.

– Doğrudan?

– Əlbəttə, doğrudan! Gözəl can adamı susuz səhralara salar.

Qarı heç bir sifət görmədiyi Gülüstandan intiqam almaq üçün, Səfdərin beynində Gülüstanın pisliyini, Məstanın gözəlliyini bərk-bərk yerləşdirməyə çalışırdı. Axşam-səhər Səfdər, Heydərin ocağının qırağından əl çəkmirdi. Gülüstan çağırmayınca gecələr o, evinə dönmürdü. Heydər öz süd qardaşı və bacanağı Səfdəri açıq sifətlə qonaq eləyib yola salırdı. Məstan isə Heydərin gözlərini ona zilləməsindən bir məna çıxara bilmirdi.

Qarı işə düşdü, Məstangili suyolu elədi.

– Ay bala, hərçənd mən də baisdən biriyəm, ancaq rəhmətlik anan qundaqda səni oda atdı. Sənin kimi gəlinin əri gərək küçənin o başından çıxanda, atının kişnərtisi gərək bu başından qayıtsın, bütün kəndi ayağa qaldırsın. Nəinki beli şələli hıqqana-hıqqana, tər tökə-tökə gəlsin?

– Nə olar, xoşdur, Allahın qisməti belədir!

– Qismət qismətdir, ancaq fərasət də fərasətdir. Dünya yeyənə quyruqdur. Kaş sənin, Gülüstan kimi bir evin ola, bu gözəlliyə o var yox, bir zər-ziba da gələ, görəsən dünyanın ağzı necə əyilə qalır? Vallah onda bir tamaşan min can alar! Lap aya deyərsən, sən çıxma mən çıxım, günə deyərsən, sən çıxma mən çıxım. Qədrini biri yox, mini bilər. Hələ bir durub sinəsini də ayağının altında fərş eliyər. Kərpickəsənin birinin çarığını çıxarmaq, ondan bir gün görmək, adına nə deyərlər?

Qarı üç ay gecə-gündüz vird elədi, bu danışıqlardan Məstanın beyninə damcı-damcı damızdırdı. Bir gün Məstan fikir içində qaldı, Heydərin gətirdiyi bazarlığı bişirmədi. Heydər axşam evə qayıtdı. Ocağın üstünü boş, evin içini qaranlıq gördü. O təəccüb etdi:

– Nə olub, Məstan, belə yas saxlayırsan?

Məstan çiyinlərini atdı:

– Heç!

– Axı niyə bir şey bişirməmisən, sən bilirsən ki, mən acqarına kərpic ata bilmərəm, şələ qaldıra bilmərəm.

Heydər çox danışdı, Məstandan düz-əməlli bir cavab ala bilmədi. O soğan-çörək yeyib yatdı. Məstan fikir içində ocağın qırağında oturdu, elə də sabahı açdı.

– Nə var, Məstan, bəlkə sənə bir şey olub?

– Nə olacaq?.. Bəs biz nə vaxtı bu dünyada bir ağ gün görəcəyik? Onun dərdini çəkirəm.

– Ağ gün nəyə deyirsən?

– Ağ gün vara-dövlətə deyirəm. Qapımızda inək sağılmır, sənin altında at kişnəmir, eyvanımızdan əl şaqqası asılmır. Bir şələ, bir kərpic, nə olsun?

Heydər başını yerə dikdi.

– Deməк, sən kasıbçılıqdan şikayət eləyirsən?

– Hə, bəxtimdən şikayət eləyirəm.

– Arada hansı cadu olub belə danışırsan?

– Heç bir cadu olmayıb.

– Bəlkə sənə qurdyağı sürtüblər?

Məstan lal dayanıb evdən çıxdı. Heydər yenə qəsəbəyə yönəldi. Usta yuxarı mərtəbədən – "kərpic!" – deyə çağırdı. Adamlar səf-bəsəf dayanıb tamaşa etdi. Heydər kərpici götürüb altdan-yuxarı atdı. Kərpic yarı yoldan yerə düşüb pul-pul oldu. O kor-peşman döndü, adamlar dağılışdı.

Heydər meşəyə girdi, baltanı ağaca vurdu, ağac dilləndi, balta geriyə qayıtdı. O, meşəyə tökülmüş çır-çırpıdan bir qoltuq düzəldib evə döndü.

Ocağın üstü yenə boş idi. İki gün qabaq alınmış yağlı ət isə pişiyin qabağında idi.

* * *

Səfdərin soyuduğunu görən Gülüstan bir əmlik quzu saxlayır və gününü onunla keçirirdi. Gülüstan əmliyin boğazından qumrov asmışdı. O, axşam-səhər quzunu oxşayır və onun boynunu qucaqlayıb ağlayırdı. Quzu da Gülüstana baxıb yasa batırdı. Getdikcə Səfdər Gülüstanın gününü göy əsgiyə düyürdü.

– Nə ölən kimi ölürsən, nə də dirilən kimi dirilirsən! Bir sümük, bir dəri! Elə bil ki, gordan indi xortlamısan, özün də dönüb dirigözlü məni qapacaqsan!

Bu sözləri Səfdər vird eləmişdi. Bir gün Səfdər yenə də Gülüstanın barəsində sözlər quraşdırdığı zaman o, dişlərini qıcayıb:

– Sən ki qarını almısan, – dedi, – məndən nə istəyirsən?

Səfdər qəribələşdi:

– Nə qarısı?

– Küp qarısı!

– Necə?! Küp qarısı?!

– Məni qəhər tutmuşdu. Mən ölsəm də sənə razı deyildim. Qarı gərdəkdən dilləndi. O sənə ərə getdi. Qazı da onun kəbinini sənə kəsdi.

– Bəs onda sən niyə gəldin?

– Qaçmağa yer tapmadım. Namusuma boğuldum.

– Demək, sən məni sevməmisən?

– Səni görmək də istəməmişəm!

– İndi necə?

– İndi daha beşbetər!

– Bəs niyə ölüb-itmirsən?!

– Ürəyim gəlmir! Bu çıxıb-batan gündən əl üzə bilmirəm.

– Vərəm yeyən ürəkdə haradan cürət olar?

– Mənim ürəyimi vərəm yox, sən yemisən!

– Bəs Məstan niyə sənin kimi deyil? İkiniz bir qarında yatıb, bir gündə doğulmusunuz. O maya budlu, köşəkgözlü bir gəlin, sən isə qotur çəpiş!..

– Gözün harada idi?

– Kor idim.

– Bəs indi niyə açılmır?

– Açılar, mən də eləsini alaram, lap sənin acığına onun özünü alaram, açılar.

– Kimi?

– Məstanı!

Gülüstan eşitdiyinə inanmadı, onu dəhşət götürdü.

– Kimi alarsan?!

Səfdər dartınaraq:

– Məstanı! – dedi.

Gülüstan əlini atıb kuzəni götürdü və bütün əsəbi qüvvəti ilə Səfdərin başına çırpdı.

– Qurumsaq!
Kuzə Səfdərin başında pul-pul oldu. Onun baş-gözünün qanı süzələndi.
– Öləsən də, qalasan da!..
– Oğraş! – deyə Gülüstan qəşş edib yerə sərildi, qumrovlu quzu onun başının üstünü alıb dilsiz dayandı və gözlərinin yaşını axıtmağa başladı.

* * *

Səfdər başını dəsmalla birtəhər sarıyıb özünü qarının evinə saldı.
– Bu nə əhvalatdır, oğul?
– Sənin bəyəndiyin, gətirib gəldiyin o şamama tağlı Gülüstandan soruş.
– O ölət, o Gülüstan, ay sənin şivəninə oturum belə arvad! Ondan isə bir ala çənbər qancıq yaxşıdır. O məni də tutur. Qorğanır, dörd yanını qapır.
Qarı Səfdərin saxsı qırıntıları dolmuş başına baxıb:
– Hələ nə yaxşı gözünü tökməyib, – dedi.
– Elə az qala tökmüşdü.
– Bəs niyə öldürmədin o öləti?!
– Elə öz hikkəsindən ölüdən bədtər oldu.
– Axı oturub-durub nə deyir?
– Öz doğma bacısından darılır.
– Sən də onun acığına əldən buraxma!
– Axı namusuma boğuluram.
– “Namusuma”?! – qarı xırıltı ilə güldü. – Namus! Dünyanın canını alan bir maral! Bacındır, yoxsa nə? Həmişə baldız ehtiyat arvadıdır.
– Bu ölsə demirsən?
– İstəsən ölər!
– Deyirsən əlimi onun murdar qanına bulayım.
Qarı qırışıq əlini gözünün üstünə qoyub:
– Bu iş nənəyin gözləri üstə, – dedi və altdan-altdan Səfdərə baxdı: – Onda nənəyə nə verərsən?
– Bir balalı inək!

– Axşam ötür qapıya, qarı nənən salsın onu küpüyə!

Axşam mal-qara gələndə Səfdər buzovu açıb inəyə qoşdu və gətirib qarının qapısına ötürdü.

– Bu da sənin inəyin!

Ömründə qapısı inək görməyən qarı, şadlığından şənlik elədi və çırtıq vurub göyün yeddi qatına qalxdı.

– Bütün dünyanın gözəllərini düzəldərəm, gəzərəm, bəzərəm, düzərəm, yığaram, gətirrəm tökərəm başından üzü aşağı!

Səfdər qapıdakı qara daşın üstündə oturdu. Qarı onun yanını kəsdirdi.

– Allahdan gizlin deyil, səndən nə gizlin, ay qarı nənə, düzü, Məstan yamanca beynimə düşüb. Baldızım deyil, lap bacım da olsa, çəkinə bilmirəm. Allah şeytana min lənət eləsin.

Qarı əda ilə gülüb:

– Yeyərsən qaz ətini, görərsən ləzzətini, – dedi. – Alasan qucağına elə bir canı, doluyasan boynuna şahmar ilanı, qoqulayasan ənbərəşfanı, deyəsən mən də gördüm dünyanı... Nəinki bir tısbağa, bir çəyirtgə, bir ölət! Bu gözü yumursan o biri gözə heç bir işıq düşürmü?

Bu dünya yeyənə qaldı,
"Mənəm" deyənə qaldı...

Götür, oğul, götür! Dünya nazəninin bir gecəsi bir dünya sultanlığına dəyər. Nə tac, nə taxt?!

Qarı çox deyib, çox bağladı. Səfdər yerindən oynadı.

– İndi tədbir qarı nənə?!

– Tədbir məndə!

– Bəs nə vaxt?!

– Qoy hələ bir az bişirim!..

* * *

Heydərin işi qarışmış, olan səliqəsi də pozulmuşdu. Ev zibillənmiş, eşik sökülüb-tökülmüşdü. Onun komasından acı bir qar yağırdı. Heydər toqqasını bir kənara atıb, yaxasını açmışdı. Onun üzünü tük basmış, dik eşilən bığları üzü aşağı sallanmışdı. Heydər, ətrafını kül basmış ocağın qırağında oturmuşdu. Qarı başını içəriyə salıb evi süzdü və:

– Gəldim görəm ki, – dedi, – balalar necədir?! Bəs Məstan?

Heydərin dərdi bir dağ kimi ürəyinə yüklənmişdi. O bu yükü aşırmaq və dərdini boşaltmaq istəyirdi.

– Məstanı heç soruşma, nənə!

– Niyə bala?

– Məstan bir qaçağan ahuya dönüb, indi kəməndə gəlmir.

– Bəyəm hansı dağa vurubdur?

– Allah bilir.

– Bıy, niyə balalarım! Hansı imansız, quransız sizə qurdyağı sürtüb? Bıy, mənim körpə balalarım, gözəl, göyçək balalarım! Sizin göbəyinizi mən kəsmişəm, nəvələrim olsun, onların da göbəyini mən kəsdim, onları da sizin kimi bu əllərimdə atım-tutum. Dələduzlar, sizi evləndirib ev elədim ki, dönüb adam olasınız, yoxsa təpikləşəsiniz? Bəs mənim Məstanım hanı? Bəs indi o haradadır?

– Qarı nənə, tapana mən özüm də muştuluq verərəm!

Qarı, Heydərin qarşısında oturdu.

– Sən zarafat eləyirsən, bala? Damağını niyə sallamısan? Bəlkə sən də o gic Gülüstanın sözündən incimisən, hə?

Səfdər soruşdu:

– Gülüstanın nə sözü, nənə?

– Lap gic söz, bala. Yəqin yazıq Məstan da elə bu sözü eşidib hövlindən baş alıb gedib.

Heydər təkidlə soruşmağa və dərəcəsinə çatmağa çalışdı:

– Gülüstanın nə sözü axı?

– Boş, lap boş bir söz!.. Qarğa beyin bir söz. Onun vayınaşivəninə oturum. Ağlı başında olsa, oturub yeyər-içər, o da adam olub ətə-qana gələr. Bəzənər, düzənər, yoxsa gündən-günə hirsindən heç quruyarmı? Axırda da sarsaqlayıb rüsvayçı-rüsvayçı qələtlər eliyər? Elə gəlmişdim danışam, danlayam, deyəm, bala, bacını çağır, onun başına bir ağıl qoy. De ki, eldən-obadan eyibdir. Axır bir dost, bir düşmən də var.

– Bəyəm belə nə olub ki?..

– Bəd əməl bir söz, qarğa beyin bir qələt. Nə qədər eşitməsən, o qədər qanın duru qalar. Qeyrətsiz bacıdan namussuz hərəkət çıxar. Durub əri Səfdərin başını yarıb, aləmin içində qışqıra-qışqıra yayıbdır ki, it gəlib örkən aparıbdır.

– Nə örkən, axır?

– Çox gülünc, ay bala! Səfdərə deyib ki, sən niyə Heydərgilə gedirsən?

– Bizə?! Nə olar ki, bacanaq bacanağın evinə getməsə, daha hara getmək olar.

– Heç nə, qəlbi qara ölmüşdür də...

– Nədən qaralır ki?

– Onu deyən gərək də. Məni yanına qoymur. Yal üstündə küçükləmiş qancıq kimi məni tutur. Görən kim başına haradan, hansı bir fəsadı salıbdır.

Heydərin rəngi qaçdı, onun təbi dəyişdi. Qarı əlavə elədi:

– Fəsad! Başdan-ayağa, ayaqdan-başa fəsad! Qırx qazanın mayası!.. Görün bacı da bacıya belə baxarmı? Yerdən göyə, göydən yerə bədnamçılıq!

Heydər özünü saxlaya bilməyib küncə atıldı. Ovxarlı odun baltasına baxıb:

– Bədnamçılıq, – dedi və baltanı qapdı.

Qarı ayağa qalxıb əl atdı:

– Bir baltanı ver, baltanı ver!.. Dəli-dəli danışma! Baltanı ver. Dağdan ağır bir oğlan, fəsad bir sözün üstündə özündən çıxacaqsan?

Qarı söyüb-söyləndi və qanırıb baltanı Heydərin əlindən aldı.

– O qalmışdı, bir xata çıxardasan? Gülüstandır, qızdırması tutub sayaqlayıb, sən də gedib bir balta küpü ilişdirərsən qanı cəhənnəmə olsun, onun qurumsaqçılığını bizim boynumuza tökərsən!

– Mən heç o fikirdə deyiləm!.. Ancaq heç bilmirəm ki?..

Qarı, Heydəri bərk danladı, baltanı çiyninə alıb qapıdan çıxdı və yollandı.

Yolda qarı Məstana ürcah gəldi və bəri başdan deyinməyə başladı.

– Vayına oturasan elə qızın, elə bacının, – deyib Məstanın yanından ötüb-keçdi. Məstan gəlib evə çıxdı. Heydər hiddətlə soruşdu.

– Xanım, belə haradan təşrif gətirirsən?

– Gəzməkdən! – deyə Məstan acıqlı və deyintili cavab verdi. – Bəyəm buxovlayacaqsan! Ərsiz arvad, yüyənsiz at – deyiblər.

– Bəyəm sən dulsan, balam?

– Dul ya qız, evdən çıxmaq qadağandır bəlkə?

– Hara getmişdin?

– Gəzməyə!

– Doğrudan harada idin? – Heydər acıqlı-acıqlı və acı-acı yuxarıdan Məstanı süzdü. – Doğrudan da gəzməkdə? Kefdə, damaqda?..

– Nə kefində, nə damağında? – deyə Məstanın rəngi ağardı və Heydərin baxışları qabağında: – Allah sən saxla, – dedi. – Şərdən, fəsaddan, fitnədən sən saxla!

– Allah saxlasın!.. Arvadlar... – Heydər əlini əlinə sürtüb qapıya yönəldi. Məstan ayılmış kimi onun qabağını kəsib yaxaladı.

– Nə olar ki, Heydər? Nə olar ki... Adam üç gün üz görməyəndə beləmi olar? – O, mütərəddid bir hərəkətlə: – Nə olub ki, Heydər? – dedi.

– Özündən soruş!

– Özüm neyliyim?! Başıma... zəhər damanda... – O boğuldu.

– Başına zəhər yox, ürəyinə qara qurd düşəndə...

Heydər, Məstanın yaxasından tutub:

– Namusuna qara ləkə düşəndə... – deyib yolundan fırlatdı və evindən çıxdı. O, qəsəbəyə tərəf yön aldı. Onun dalınca düşüb əli qoynunda dayanan Məstan Heydəri gözdən itincəyə qədər süzdü.

– Allah, sən saxla! – dedi. – Allah, sən qandan, fitnədən fəsaddan, saxla!..

* * *

Qarı qabağına gələnə "pıçı-pıçı" elədi, əhvalat isə ağızdan-ağza yayılırdı. Səfdər bu əhvalatdan təngə gəlib özünü qarının üstünə atdı.

– Ay qarı nənə, bir əlac!

Qarı gözlərini qıyıb:

– Əlac hərəkətdədir, bala, – dedi.

– Nə hərəkət, qarı nənə?

Qarı ona çığınıb:

– Məstan bulağa gələndə götür qaç qazıgilə, – dedi, – hilləsini qarı nənən düzəldər.

Səfdər bir an fikirləşib başını qaldırdı:

– Yekə rüsvayçılıqdır, – dedi, – böyük bədnamçılıqdır.

Qarı qırışıq üzü ilə əcaib güldü:

– Təzədən? Xı... xı... Aləmə zurna çalınandan sonra?

Səfdər sapsarı saraldı:

– Bəs Heydər nə olsun?!

Qarı Səfdərin dizini basıb:

– Var qabağında Heydər qanı bir qotur keçi, – dedi. – Çağırarsan cayılbaşını, xirtdəyini doldurarsan, o da bir güllə, taq, qurtardı.

Səfdər sükuta getdi, qarı əlavə etdi:

– Sahibsiz adamdır. Kim itirib-axtaracaqdır?

– Axır, çörək kəsmişik... Axır, biz qohumuq... Axır, biz bir döşdən süd əmmişik?.. Allah sən özün kömək elə. – Səfdər gicəlləndi, başını tutdu.

Qarı gözlərini qıyıb:

– Onda get öz əlinlə öz qəbrini qaz, – dedi, – özü də neçə gündür ki, yoxdur, xəbər gəzir ki, o açılan axtarır.

– Heydər elə iş eləməz.

– Namus yükü ağır olar. Adam qardaşından da adlamaz. Sən vaxt ikən qarı nənəyin sözlərinə bax. Tap cayılbaşını. Kəsdir başını, vəssalam!

– Cayılbaşı ağzıbütöv olmazsa?

– Müqəssir sirr açmaz. Bildinmi? Sonrasını mən özüm deyərəm!

Səfdər gicəllənmiş halda qalxdı. O, kənara çəkildi, xeyli fikirləşdi – “mən onu, ya o məni. Şübhədən nə çıxar. Lənətə gəlsin şeytanı, min lənətə gəlsin şeytanı, on min lənətə, yüz min lənətə, milyon lənətə gəlsin qara şeytanı...”. Səfdər oturdu, qaraldı, sonra ayağa durub “mən onu!” deyib gəzdi və cayılbaşını tapdı. Onu kənara çəkdi:

– Ə, cayılbaşı, axır, bir iş var!

– Nə iş, Səfdər?

– Heç xərcliyin varmı?

– Ayə, mənə pul verməkdən pul alırsan? – deyə cayılbaşı ağzı yelli danışdı.

Səfdər onun ağzını tutub:

– Sus! Yavaş, səssiz! – dedi.

Cayılbaşı, Səfdərin əlini itələyib:

– Ə, bu dünyada mənim, – dedi, – heç Allahdan da qorxum yoxdur, sən niyə mənim ağzımı tutursan? Kim nəçidir ki?.. O Allah haqqı beynini qatıq kimi göyün yeddi qatına dağıdaram!..

– Ə, bir yavaş, kiri! Soruşuram pulun var, ya yox?

– Ə, kişidə də pul olarmı? Mən mal yeməz zadam, balam?

Səfdər əlini cibinə atıb:

– Pul məndə, – dedi.

Cayılbaşı yavaşıdı.

– Atan oldu behiştdə, bu başqa məsələ. Ver pulu, keçi qulun olsun! Bax beləəə!..

– Bu qədər cibiboşsan?

– Ə, cayıllığa cib nə qayırsın? Kefdir özümüz üçün çəkirik. Heç cayılbaşı da bu dünyada bir varlığa darlıq eləyərmi? Sən öl, o

Həzrəti-Abbas haqqı, dünyanın bütün var-yoxunu yığıb versələr mənə, üç gündə kül eləyib sovuraram göyə, mən belə oğlanam! Çayda balıq yan gedər!

– Onu bilirəm!

– Sən bilirsən ki, bütün dünya məndən tük salır. Bir balaca göz vursam, bir gecədə cayıllar on tüstünü keçirər. Bunu külli-aləm bilir. Heç kəs də yel olub yanımdan ötə bilmir. Sən bilmirsənsə, sən də bil!

Cayılbaşı əlini belindəki təməsinə atdı, sonra belindəki tapançaya vurub:

– Biri doğrayır, – dedi, – biri də atır. Cayıllara da ki, yalquzaq canavar kimi bir fit versəm, əzrailin özünü də boğazlayıb parçalarlar.

Səfdər cayılbaşını yavaşıdıb onun qulağına pıçıldadı, cibindən xeyli pul çıxardıb onun ovcuna basdı.

Cayılbaşı ciddən soruşdu:

– Doğru sözdür, yoxsa zarafat?

– Heç belə də zarafat olar?

Cayılbaşı pulu sanayıb başını buladı.

– Bu hələ üçdə bir payı!

– Olsun beşdə bir payı. Sən iş gör!

– Sən öl, adamın sözündə yalan olsa sonra mən qayıdıb onun arvadını dul qoyaram. Məsəl üçün deyirəm, – cayılbaşı qansız güldü. Sən də bizim birimiz, mən həmişə uşaqlara deyirəm, Səfdər lotu cayıldır. Ancaq dünya varı onu boğub bizdən kənarda tutub. Ona görə o da bizim kefə qarışmır.

Səfdər cayılbaşının kürəyinə vurdu. Cayılbaşı gedib gecə cayılları topladı və sabah tezdən onlar yola çıxdılar.

* * *

Qəsəbənin kənarındakı kərpicxananın yanında əmələlər olurdu. Heydər də bunlarla birlikdə burada gecələyir, gündüzləri kərpic palçığı eləyirdi.

Axşam qaranlığı hər yeri bürümüşdü. Çiy kərpicli daxmalardan alov çıxırdı. Gündüzdən bələdləyən cayıllar özünü daxmalara tərəf verir, əyilə-əyilə keçirdilər. Birdən onlardan biri Heydəri ocağın qırağında oturan görüb yavaşcadan o birisinin əlindən tutdu və Heydəri göstərdi. Heydərin sinəsi açıq idi. Onun dümqara saqqalı

solğun sifətini örtürdü. Başqa əmələlər deyib-gülür, şaqqıldayırdılar. O isə məlul-məhzun baxırdı.

– Bax, Heydər odur!

– Ədə, axı çox fağırdır.

– Fağır, ya zalım içindən pul çıxsın!

– Axır, adamın yazığı gəlir.

– Cayılbaşı adamı atdırar.

Cayıllar xısıldaşıb danışdı, girəvə axtardılar, ancaq Heydəri atmaq üçün fürsət tapmadılar. Onlar ətrafda gecələyib sabahı açdılar, yan-yörədə hərləndilər. Əmələlərdən növbət ilə gündə biri işdən qalıb yaxın meşəyə gedir, axşama bir şələ odun gətirirdi... Gətirilən odun dörd daxmanın arasında qucaq-qucaq bölünür, ocaqlara qalanırdı. Əmələlər ocağın qırağında həm isinir, həm əppəklərini yeyib, sularını içib, Allaha şükür edib, sonra da yıxılıb yatırdılar. Odun növbəti Heydərə çatdı. Heydər balta və ip götürüb meşəyə yönəldi. Cayıllar göydə axtardıqlarını yerdə tapmış oldular. Heydər meşəyə gircək onlar qarabaqara onu izlədilər. Həmişə bir an içində odun doğrayıb, şələ vurub yolun dabanını qıran Heydərin ürəyi qubar elədi. Onu bir ağır qəm-qüssə bürüdü. O mızıldandı, sonra yanıqlı-yanıqlı oxuyub meşəyə səs saldı. Heydər ağacdan-ağaca keçdi, meşənin dərininə getdi. O ipi yerə atdı, baltanı əlinə götürdü, oxumağını kəsmədi. Heydər, dikələn quru ağacı kəsmək və sonra doğrayıb odun eləmək istədi. Heydər baltanı ağaca vurdu, balta dəmirə dəyən kimi cingildədi və geriyə qayıtdı. O, oxumağını kəsib qüvvətsizliyini gördü. Ah çəkib "vəfasız Məstan!" – dedi. Heydər bir neçə balta endirdi. Marığa duran cayıllar ağacların daldası ilə yeriyib Heydərin on addımlığına çatdılar. Onlar dayanıb özlərini toxtatdılar. Hər ikisinin əli birdən tüfənglərin şeytanısını çəkdi, qoşa güllə Heydəri yerə sərdi, balta kənara atıldı. Cayıllar cəld yaxına gəldilər və Heydərin başının üstünü aldılar. Atılan güllələr tutarlı yerdən dəydiyinə görə Heydər güllələrlə keçinmişdi. Cayıllar boylandı. Onlar səssiz-səmirsiz ipi Heydərin ayağına salıb tezcə sürütləyib bir qədər aralıqdakı yarğana çatdılar. Onlar Heydəri aşağı atıb yarğanı üstünə uçurdular. Sonra da üstdən bir neçə çürük ağac-uğac atıb uzaqlaşdılar. Onlar meşədən çıxmamış göy guruldayıb yağış yağdı, Heydərin qanını itirdi. Yaralanmış ağacın dibində yalnız bircə balta nişana qaldı.

* * *

Günlər gəlib keçdi. Təklik Məstanı pəncəsinə alıb boğdu. O durub qəbiristana yönəldi. Anasının tikanlı kol basmış qəbri üstündə əldən düşüncə ağladı, qəsəbəyə yönəldi. O kərpic kəsilən yeri tapdı, əmələlərdən Heydəri soruşdu. Bir həftə qabaq Heydərin meşəyə oduna getdiyini və hələ də qayıtmadığını bildi. Əmələlər onun evə gedib çıxmadığını görüb təəccüb etdilər. Məstanı qəhər boğdu. O dayana bilməyib meşəyə döndü. Məstan ağacdan-ağaca adladı və "Heydər!" – deyə çığırıb ağladı. O, yaralanmış ağacın dibinə çatdı, yerə atılmış baltanı gördü. Məstan diqqətlə ağacın dibinə baxdı. Ancaq heç bir şeydən baş tapa bilmədi. O, ürəyinə dammış kimi baltanı götürüb bir az aşağı yeridi, yarğanın başına çatıb burada dayandı, çox bərk ağladı və qəşş edib qaldı. Gecəyarısı ayıldı, meşədə olduğunu görüb Məstan səsi dolusu "Heydər!" – deyə çağırdı, meşədən isə öz səsi qayıtdı. O, gecə meşədə əlləşib sabahı özünü evə çatdırdı. Onun ürəyi tab gətirib durmadı. Məstan sənəyi götürüb, çeşməyə yönəldi. O, sənəyi kənara qoyub duru, qaynar çeşməyə baxdı və taleyini suda aradı. Onun gözlərində muncuq kimi bir cüt yaş göründü.

Qarının qurğusu ilə hərəkət edən cayıl dəstəsi qəflətən arxadan Məstanın qolundan yapışdı. Elə bil ki, Məstanın sapdan asılmış ürəyi qırılıb yerə düşdü.

Cayılbaşının və Səfdərin köməyi ilə Məstan qollar üstündə qazı evinə gətirildi. Qarı onları qarşılayıb, yer göstərib, gərdək açdı. Cayılbaşı dəstəsini çəkib qayıtdı. Evdə qarı, qazı, bir də Səfdər qaldı.

– Qazı, isti-isti kəbinini kəs, dul arvaddır, qoy savab olsun!

Qazı, qarıya tərəf çiyinlərini çatıb:

– Onun heç nitqi yoxdur ki, – dedi, – bir də ki iddəsi çıxmayıb...

– Bir qədər utancaqlıq eləyir, sən qurtar, qoy başları bir yerə cəm olsun. Qalan-qulanı da özün yola ver!

– Hər halda özü öz dili ilə razılığını bəyan etməlidir ki, kəbin cari edilsin!

– Bu saat! – deyə qarı gərdəyin arxasına keçdi. O, Məstanın uzanılısına fikir vermədən öskürdü. Qazı sual-cavaba girişdi, qarı – "hə, razıyam, hə, kəbinimi kəs!" sözləri ilə qazını inandırdı, qazı onun kəbinini əqd elədi. Qarı gərdəkdən çıxıb Səfdərlə birlikdə qazı evini tərk etdi. Qazı gözü ilə onları ötürüb gərdəyin dalısına keçdi, "qızım", – deyə Məstanı çağırdı, səs gəlmədi. O, Məstanın soyumuş biləyini əlinə aldı, nəbz vurmadı.

Səfdər yolun yarısında qarıdan qoparılıb qaldı. Qarı özünü başı alovlu Gülüstanın yanına çatdırdı.

– Bıy, başıma daşlar, – dedi, – belə də həyasızlıq olarmı? Sən dəli-dulunu başına topla, götür bacını bacının üstünə qaçırt. Görün bundan sonra göydən yağış əvəzinə nə qədər hələ qan yağacaqdır?..

Qarının hay-küyü və canfəşanlığı qabağında Gülüstan dillənməyib onun qolundan yapışıb bayıra atdı.

– Get, küp qarısı! Cəhənnəm qarısı! – deyib heybətlə qışqırdı.

Qarı geriyə döndü, yolda Səfdərə rast gəldi:

– Nə var, qarı nənə?

– Elə bir şey yoxdur, yumşalar!

– Mən gedim, ya yox?

Qarı tövyüşə-tövyüşə:

– Hələ gözünə görünmə, – dedi, – bir qədərdən daş da, dəmir də olsa yumşalar.

Qarı, Səfdəri buraxıb qazının qapısına çatdı. Adam olan çaxnaşıb bir-birinə dəymişdi.

Qarı qısqana-qısqana qazıdan soruşdu:

– Necədir quzu?

– Onun nəbzi vurmur, qorxuram bir fəlakət olsun.

– Sənin onun nəbzində nə işin var idi?

– Çağırdım, dillənmədi, baxdım ki, nəfəssizdir.

– Sən ona baxma, – deyə qarı cavab verdi. – Özü bicliyindən nəfəsini udubdur.

Qarı içəriyə girib gərdəyi qaldırdı, əyilib Məstanı çağırdı. Cavab gəlmədi, çünki onun nəfəsi əbədilik batmışdı. Qarı çəkilib, "qoy dincəlsin", – dedi və bayıra çıxdı. Səfdəri aramaq üçün geriyə döndü.

Qarını qovan andan Gülüstanı şiddətli bir titrətmə tutdu və "Namusu bürüb-büküb itə atıblar, it yeməyib", – deyə o uçuna-uçuna kəndiri tapdı. Gülüstan böyük bir həyəcan içində kötüyü ayağının altına itələyib evin tirindən kəndiri keçirib hazırladı. Sonra o, yaylığını öz üzünə rübənd eləyib sifətini örtdü. Titrək kəndiri boğazına keçirdi. O, ayağını tərpədib kötüyü itələdi, özünü boşluq və uçurumda duydu. Gülüstan əlini kəndirə atıb qıvrıldı, sonra onun qolu boşalıb yanına düşdü. Quzu, Gülüstana baxıb, baxıb mələrti qopardı. Qarı, Səfdəri aramaq, camaat arasında onun abrısını alıb danlamaq bəhanəsilə başını bir də içəriyə saldı, qayıdıb hay-haray qopardı. Qulağı səsdə olan adam tökülüb gəldi. Qarı təlaş içində

hönkürüb ağladı. Adamların içində dayanan çiyni çuxalı, ağ saqqallı Həmzə dayı cinayətin izini aramaq üçün diqqətlə baxırdı. Qara donlu qarı, qara İblisi andırırdı! Sanki Həmzə dayı əfsanələrdən bildiyi qarının yeni fəsadlar çıxarmaq üçün küpə girdiyini, hələ min cür fitnə-fəsad törətmək üçün başını küpdən kənara uzatdığını görürdü. İnsan dalğası və təlatümü içərisində Həmzə dayı özünü yeyib-tökən qarını nəzərindən qaçırmırdı. O, qarıya baxdıqca sanki bütün qurğuların izini görür və bircə-bircə sezirdi. Həmzə dayı çox baxdı, axırda yırğalandı və sonra da:

– Lənət bu dünyada qırx qazanın mayasına! – dedi. – Lənət bu dünyanın gözü yaşlı fəsadına!..

Bu an bir güllə açıldı. Adamlar çığırışdı. Səs gəldi ki, "Səfdər də özünü vurdu". Adamlar güllə açılan səmtə qaçdı. Həmzə dayı yerində dayandı, bir də təkrar:

– Lənət bu dünyada qırx qazanın mayasına! – dedi. – Lənət bu dünyanın gözü yaşlı fəsadına!..

*03.11.1942*
*Ustar-Qardoy* (*Qroznı yaxınlığı*)

# QILMAN İLKİN

(1914)

*Qılman İlkin Bakı yaxınlığındakı Mərdəkan qəsəbəsində anadan olmuşdur. Doğulduğu kənddə ibtidai təhsil almış, sonra Bakı Pedaqoji Texnikumunda oxumuş* (*1926–1929*), *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsini bitirmişdir* (*1936*).

*Əmək fəaliyyətinə 1929-cu ildə Xaçmaz rayonundakı Əhmədoba kəndində məktəb müdiri və müəllim kimi başlamışdır. Sonra "Gənc işçi" qəzeti redaksiyasında ədəbi işçi, "Uşaqgəncnəşr"də məsləhətçi, baş redaktor, direktor, "Azərnəşr"də baş redaktor, direktor, "Azərbaycan" jurnalının baş redaktoru vəzifələrində çalışmışdır. 1974-cü ildən fərdi təqaüdçüdür.*

*Bədii yaradıcılığa XX əsrin 40-cı illərində başlamışdır. "Qalada üsyan", "Şimal küləyi" romanlarını və "Həyat yollarında" povestini oxucular maraqla qarşılamışlar. O, 2005-ci ildə Azərbaycanın Xalq yazıçısı fəxri adı almışdır. "Həyat yollarında" povesti yazıçının ikicildlik "Seçilmiş əsərləri"nin I cildindən (B., Azərnəşr, 1966) götürülmüşdür.*

## HƏYAT YOLLARINDA

(*Povest*)

Gecədən xeyli keçmiş fayton karvansaraya çatdı. İri taxta darvazalar bağlı idi. Bütün yolu zümzümə etmiş olan qoca faytonçu birdən-birə susdu və yerə enərək taxta darvazanı şiddətlə döyməyə başladı. İçəridən karvansara sahibinin boğuq, xırıltılı səsi eşidildi:

– Bu saat!

Darvaza cırıltı ilə taybatay açıldı. İçəridən alçaqboylu, şişman gövdəli və ayaqyalın bir qoca çıxdı. O, yuxulu gözlərini ovuşdura-ovuşdura qapının dalından çıxartdığı iri dirəyi bir tərəfə qoydu. Fayton fənərinin işığından qamaşan gözlərini bir qolu ilə örtərək:

– Çox bivaxt gəlmişsiniz, – deyə narazılıqla səsləndi.

Faytonçu cavab vermədi, atların cilovunu dartdı. Yorğun atlar yerlərindən tərpənmək istəmirdilər. Faytonçu qəzəbləndi və burnunun altında nə isə mırıldandığı zaman, əlindəki qamçı kürən atın

sağrısında şappıldadı. Fayton bərk silkindi. Atlar durduqları yerdən sıçradılar və fayton bir an içərisində darvazadan içəri girdi.

Həyət palçıqlı idi. Zığ faytonun çarxları altında xırçıldayırdı. Faytonda oturmuş qara geyimli, başında iri, dairəvi zənbil papaq olan yaşlı qadın, həyətdən qalxan üfunətə davam gətirə bilmədi. Çantasından ağ, ipək dəsmalını çıxartdı, burnuna dayadı. Başını isə yanında əyləşmiş və özündən xeyli cavan görünən ərinə tərəf əydi. Faytonun silkənməsindən mürgüdən ayılmış Nəcəf isə həyətə boylanmağa başladı. Həyət çox böyük idi. Lap dib tərəfdə dəvə karvanı mənzil salmışdı. Yatmış dəvələr boyunlarını uzadaraq gövşəyirdilər. Onların yanında isə, iri yük tayları bir-birinin üstünə qalanmışdı. Sol tərəfdə, həyətin qismən quru yerində isə faytonlar açılmışdı. Uzun bir axura bağlanmış atlar tez-tez fınxırırdılar. Nəcəf ətrafa çökmüş alaqaranlıq içərisində həyətdə bundan artıq bir şey görə bilmədi.

Onların faytonu da həyətin ən axırında cərgə ilə açılmış faytonların yanında durdu. Zənbilpapaqlı qadın həyətə nəzər gəzdirdi və hədələyici bir tərzdə söyləndi:

– Niyə buraya sürdünüz? Palçığın içinə düşməyəcəyik ki?!

Arvadının səsinə mürgüdən ayılmış kişi üzəri tozdan ağarmış qara şlyapasını çıxardaraq faytondan boylandı və ətrafdakı palçıqlığı gördükdə elə bil partladı:

– Niyə karvansaraya sürdün?! – deyə faytondan düşmək istəyirdi ki, arvadı onun ətəyindən yapışaraq yerinə oturtdu. Faytonçu isə ər və arvadın etirazlarına əhəmiyyət vermədən atların yüyənlərini açmaqla məşğuldu.

Faytonun içərisindən sərnişin kişinin hədələyici səsi yenə eşidildi:

– Sənə dedim ki, şəhərə sür.

Faytonçu kefini pozmadan:

– Ağa, mən də sizə dedim ki, şəhərə gedə bilməyəcəyəm, atlar yorğundur. Burada hamballar çoxdur, istəsəniz, yükünüzü onlara çata bilərsiniz.

Arvad:

– Elə isə bizi qapıdan bayıra çıxart, bu palçığı keçib getmək olmaz.

Faytonçu:

– Narahat olmayın, xanım, bu yandan da qapı vardır, düz şəhərə açılır.

Əlacsız qalmış ər və arvad faytondan yerə endilər, arvad uzun tumanının ətəklərini qaldıraraq barmaqları üstündə karvansara sahibinin mənzili qarşısındakı qır səkinin üstünə çıxdı. Nəcəf də yerə düşdü. Kişi iri çamadanı faytondan yerə düşürdü və onu arvadının yanında, qapının ağzına qoydu. Faytonçu atları açıb axura tərəf apardı. O geri qayıtdığı zaman:

– Ağa, hambalı yuxudan ayıltdım, bu saat gələr, – deyə yenə haraya isə getdi.

Çox çəkmədi ki, başında dik papaq, sallaq bığlı, bir qolundan palan asılmış orta yaşlı bir kişi gəldi. Sərnişinlər ağır çamadanı onun dalına çataraq, həyətdən çıxdılar. Xanım yenə burnunun altında faytonçunu söyməkdə davam edirdi. Nəcəf faytona qalxdı. Faytonun yumşaq söykənəcəyinin dal tərəfindəki gözdən çörək torbasını çəkib çıxartmaq istəyirdi ki, əli ağır bir şeyə toxundu. Qaldırdı. Xanımın çantası idi. Yaddan çıxıb qalmışdı. Nəcəf onu yerə düşürdü və faytonçuya göstərmək üçün tövləyə yüyürdüsə də, onu tapa bilmədi. Sonra da ər-arvadın çıxmış olduqları qapıya tərəf yüyürdü. Qapı açıq idi. O, küçəyə çıxdı və uzaqdan 3 nəfərin qaralan kölgəsini seçdi. Nəcəf bərkdən çığırdı:

– Əmi, şeyiniz qalmışdır!

Gedənlər durdular və Nəcəf yüyürüb onlara çatdı. O, əlindəki çantanı uzadan kimi xanım bərkdən təəccüb və sevinclə qarışıq bir nida ilə içini çəkdi:

– Ey vay! Tamam yaddan çıxmışdı.

Sonra sevincindən Nəcəfi bağrına basdı və qara əlcəkli əli ilə sumkasını qurdalamağa başladı. Oradan gümüş bir abbasılıq çıxarıb Nəcəfə uzatdı:

– Al, – dedi, – faytonçunun əlinə düşsəydi, yəqin ki, qaytarmazdı!

Xanımın əli uzana qaldı. Nəcəf çiyinlərini ehmalca dartaraq, pulu almayacağını bildirdi. Xanım təəccüblə ərinə tərəf döndü və rusca: “Görürsənmi, uşaq belə olar”, – dedi.

Nəcəf karvansaraya qayıtdığı zaman faytonçunu yenə həyətdə görmədi. Karvansara sahibinin mənzilindən zəif bir işıq gəlirdi. Nəcəf yaxınlaşdıqda hisli çırağın işığında faytonçunun divara əks etmiş kölgəsini sezdi və içəri girdi. Kiçik mənzilin alçaq tavanı və divarları başdan-ayağa his çəkmişdi. Otağın üç tərəfinə düzülmüş taxtların üzərində bir neçə adam yatırdı. Onlardan biri bərkdən xoruldayırdı. Qapının ağzındakı kiçik mizin üzərində qədim bir mis samovar qoyulmuşdu. Faytonçu mizin qabağında oturmuşdu və üzərində rəngli

şəkillər çəkilmiş armudu stəkanda çay içirdi. Karvansara sahibi isə başını böyük və kirli bir balışa dayayaraq yenə də mürgüləyirdi. Faytonçu Nəcəfi görən kimi soruşdu:

– Harada idin, niyə gecikdin?

Nəcəf əhvalatı ona danışdı. Faytonçu narazı tərzdə üzünü qırışdırdı və burnunun altında mırıldandı: "Verməsən də olardı, yaxın gəl, çay iç".

Faytonçu stəkana çay süzüb, onun qabağına qoydu.

Balışa dayanıb mürgüləyən karvansara sahibi otaqdakı söhbətə oyandı və göz qapaqlarını güclə qaldıraraq xırdaca, dəyirmi gözlərilə Nəcəfi süzdü. Sonra başını yan tərəfə çevirdi və sanki yatanlara mane olmasın deyə ahəstədən:

– Qara, bu uşaq kimdir, oğlundurmu? – deyə soruşdu və gözlərini təkrar yumdu.

Faytonçu gülümsündü və əlində tutduğu armudu stəkanı birbaşa başına çəkib:

– Yox, – dedi, – qarabağlı balasıdır, evlərindən qaçıbdır.

Karvansara sahibi yerində qımıldandı, gərnəşdi və ucadan əsnəyərək: "Qaçıbdır?" – deyə təəccüblə soruşdu.

Faytonçu yenə bığaltı gülümsədi, başını qaşıdı, stəkana çay süzdükdən sonra, əlini Nəcəfin çiyninə qoyub dedi:

– Bəli, qaçıbdır, evlərini qoyub qaçıbdır. Görünür oxumağa həvəsi çoxdur. Yoxsa bu cür əziyyətə kim dözüb Bakıya gələr.

Karvansara sahibi qarşısında oturmuş solğun bənizli, cılız oğlanı diqqətlə süzdü:

– Atan varmı?

– Var.

– Nə iş görür?

– Xəstədir. Bir ildən artıqdır ki, yorğan-döşəkdə yatır.

Karvansara sahibi Nəcəfin cavabını gözləmədən mürgülədi. Otağa yenə sükut çökdü. Faytonçu 4-cü stəkanı içib qurtardıqdan sonra ayağa qalxdı.

– Hə, – dedi, – səhərə az qalıbdır, bir az yatmaq lazımdır.

O, uzun çuxasını əynindən çıxarıb Nəcəfə verdi və hər ikisi həyətə çıxdılar. Bayır aydınlıqdı, ay çıxmış və həyətin hər tərəfini işıqlandırmışdı. İndi qatarla diz çökmüş dəvələr, uzun axura bağlanmış atlar və elə bil bir-birinin böyrünə girmiş faytonlar daha aydın görünürdü. Faytonçu küçəyə açılan qapının yanındakı dama uzadılmış ensiz nərdivanı göstərdi:

– Bax, oradan qalx, Bakıda damda yatmağın başqa ləzzəti var, – dedi və özü təkrar içəri girdi, uzun taxtların üstündə yatanlardan birisinin böyrünə sıxılıb uzandı.

Nəcəf ensiz nərdivanla dama qalxdı. Damın bir tərəfində iki-üç adam quru həsirin üzərində uzanıb yatmışdı. Hər tərəf sakit idi. Uzaqdan yatmış şəhərin zəif işıqları görünürdü. Uzanan dar döngələr bomboş idi. Lap yaxında, qonşu həyətlərdən birisində itlər bərkdən hürüşürdülər. Nəcəf faytonçunun verdiyi çuxanı altına saldı və əlindəki boş çörək torbasını başının altına qoyub uzandı. Ayın işığından süd rəngi almış göydə ulduzlar bir-birinin dalınca sayrışırdı. O xeyli müddət dibsiz boşluğa, süzülən bu ulduzlara tamaşa etdi. Gözünə yuxu getmədi, həm aclıq, həm də quru yer yuxunu, elə bil, gözlərindən qovub çıxarmışdı.

Çoxdan bəri arzusunda olduğu Bakı onu ilk gecə belə qarşıladı.

Nəcəf payız gecəsinin saf səmasını seyr edərkən evləri yadına düşdü. Anası, elə bil, ulduzların arasında duraraq ona baxırdı. Onun gözləri yaşlı idi. Oğlunun qaçmaq xəbərini eşitdiyi üçün ağlayırdı. Axı o, Nəcəfi hamıdan çox sevirdi. Onu bir dəqiqə də olsun gözündən iraq qoymurdu. Hətta Nəcəf atası ilə çay kənarına odun qırmağa getdiyi zaman anası onun üçün darıxar, qaş qaralarkən artırmanın qabağında oturub həsrətlə yollara baxardı. Bəs indi o, Nəcəfin ayrılığına necə dözəcək?! Xəstə atası da yəqin onun üçün qüssələnir, pis ayaqda, bütün ümidləri ona gəldikləri zaman evdən qaçdığı üçün onu məzəmmətləyirdi. Demək, Nəcəf atasına vəfasız çıxmışdı. Nəcəfin gözləri yaşardı, lakin o öz-özünə təsəlli verməyə başladı. O ki fərsiz övladlar kimi evdən boş yerə qaçmamışdır. O, anasının göz yaşlarına, yalvarışlarına baxmayaraq, yalnız bir şey üçün, yalnız bir şey xatirinə evdən qaçmışdı: oxumaq, bilik sahibi olmaq üçün. Bunu da yalnız öz xəstə atasına kömək məqsədilə etməmişdimi? Nəcəf bilirdi ki, onun başı çox bəlalar çəkəcəkdir, ac qalacaq, çılpaq gəzəcək, bəlkə də yatmağa yeri olmayacaqdır. Lakin o özünün xoş arzusu və ümidləri xatirəsinə bu əziyyətlərə qatlaşacaqdır. Nə olursa olsun, dözəcək, ancaq geri qayıtmayacaqdı. Onu da bilirdi ki, əziyyətli illər, ağır günlər tez ötüb keçəcəkdir. Ən nəhayət, günlərin bir günündə öz məqsədinə çatacaqdır. O, köksünü dərindən ötürdü və xəyalında yaratmış olduğu o xoşbəxt günləri təsəvvür etməyə başladı. Həmin bu gün onun üçün ən böyük bayram olacaqdı, Şuşaya, evlərinə məktub yazacaq, qayıdacağı günü xəbər verəcəkdi. Atası

və anası onun yolunu səbirsizliklə gözləyəcəklər. Evlərinin qapısına çatarkən astanada anasının boynuna sarılacaq və artıq dən düşmüş saçlarından hey öpəcək və öpəcəkdir...

Bu şirin xəyalların təsirilə o, quru, narahat yerdə və ac qarnına yuxuya getdi.

Artıq dan yeri ağarmışdı, küçədə şəhərlərə məxsus ilk canlanma və səs-səmir eşidilməyə başlanmışdı.

* * *

Nəcəf faytonçu ilə görüşüb ayrıldı. Karvansaradan çıxdığı zaman, meydançadakı qələbəlik onun təəccüb və heyrətinə səbəb oldu.

Səs-küydən qulaq batırdı. Nəcəf əlini cibinə saldı və səliqə ilə bükülmüş kiçik kağız parçasını təkrar çıxarıb baxdı. Şuşadan çıxdığı müddətdə o bu kağızı azı yüz dəfə çıxarıb yoxlamışdı. Bu, Bakıda yaşayan xalasıgilin ünvanı idi. Evdən qaçdığı zaman hər şeydən çox bu kağızın qeydinə qalmışdı. Çünki bələd olmadığı bu şəhərdə pənah gətirəcəyi yer yalnız xalasıgil idi. O bütün ümidlərini buraya bağlamışdı. Nəcəf ünvanı göstərib xalasıgilin məhəlləsini öyrənmək istəyirdi. Lakin o, ötüb-keçənlərdən bəzilərinə yaxınlaşmağa cürət etmir, bəziləri isə onun sualına etina etmədən, ötüb-keçirdilər. Bu zaman meydançanın ortasında bir polis göründü. O, əllərini belinə vurub durmuşdu. Belinə bağladığı kəmər, iri, piyli qarnını elə bil güclə saxlayırdı. Uzun, sallaq bığları az qala döşünə dəyirdi. Nəcəf ehtiyatla ona yaxınlaşdı və əlindəki ünvanı uzatdı.

– Mən buraya gedəcəyəm, – dedi, – ancaq tanımıram.

Polis yoğun boynunu yana çevirərək, qızarmış gözləri ilə Nəcəfə acıqlı bir nəzər saldı.

– Nə deyirsən? – deyə o, hədələyici bir tərzlə soruşdu. Nəcəf kağız parçasını bir az da qabağa uzatdı və astadan:

– Mən bu ünvana gedəcəyəm, ancaq tanımıram.

Polis kağız parçasını aldı. Onun çuğundur kimi qırmızı üzü qırışdı və qalın, qara qaşlarını çatıb kağızı bir neçə dəfə o yan-bu yana çevirdi.

– Nə pis yazılmışdır, oxumaq olmur.

Nəcəf polisin kağızı tərs tutduğunu gördü:

– Axı siz onu tərs tutmuşsunuz. Tərs oxumaq olmaz ki?!

Polis gözlərini bərəldərək, Nəcəfə baxdı. Onun çatılmış qaşları altından qəzəblə parıldayan dəhşətli gözlərindən Nəcəf qorxan kimi oldu və hətta bir addım geri çəkildi. Polis kağızı əsəbi halda əlində çevirdi və Nəcəfə qaytardı.

– Bakıda belə küçə yoxdur.

– O, arxasını Nəcəfə çevirdi və bərkdən əsnəməyə başladı. Nəcəf polisin savadsız olduğunu başa düşdü və ondan ayrıldı. Polisin yuxarı dartılmış süpürgə bığları lap ağzına girmiş, xırda girdə gözləri iri, kobud sifətində elə bil tamamilə itmişdi.

Nəcəf izdihamın içindən çıxdı və adamların buraya axışıb gəldikləri yola tərəf getdi. Buradan şəhərin bütün evləri aydın görünürdü. Şəhər çuxurda idi. Uzaqdan üfüqlə birləşmiş kimi görünən dənizin mavi suları şəhəri elə bil dövrəyə almışdı. Kilsə zəngləri aramsızcasına döyülürdü.

* * *

Xalası Afərin, Nəcəfi çox mehribancasına qarşıladı. Onu qucaqlayıb gözlərindən öpdü. Tez samovara od saldı. Nəcəf süfrənin ardında oturub evlərindən nə üçün qaçdığını və Şuşadan buraya nə cür gəldiyini xalasına nağıl etməyə başladı. Xalası Nəcəfə təəccüblə qulaq asırdı. Nəcəf atasının hələ də xəstə olduğunu dediyi zaman, xalasının mehriban gözlərini elə bil incə bir duman bürüdü və nəzərləri məchul bir nöqtəyə dikilib qaldı. Axşama qədər arvadın üzü açılmadı.

Qaş qaralarkən xalası Nəcəfi qonşuları Kəblə Nəbigilə apardı. Kəblə Nəbinin iri taxta qapısını döydükləri zaman onların qarşısına 15-16 yaşlarında əynində gimnazist paltarı olan qırmızıyanaq bir oğlan çıxdı. Bu, Kəblə Nəbinin kiçik oğlu Mərdan idi. O, gimnaziyanın ikinci sinfində oxuyurdu. Mərdan Nəcəfin xalasını gördüyü zaman ona heç etina etmədən:

– Anam evdədir, – dedi özü isə küçəyə çıxmaq istədi.

Afərin gülümsədi və Mərdandan soruşdu:

– Oğlum, necəsən?

Mərdan:

– Yaxşıyam, anam evdədir, – dedi və yenə bayıra çıxmaq istədi.

Afərin:

– Oğlum, – dedi, – mənə elə sən lazımsan. Səndən bir şey soruşacağam.

Mərdan könülsüz halda içəri girdi və onlar ensiz taxta pilləkənləri yuxarı qalxdılar. İşıqlı bir otağa daxil oldular. Döşəməyə gözəl xalılar döşənmişdi. Tavandan asılan böyük çılçırağın dövrəsinə səliqə ilə şamlar keçirilmişdi. Lap girəcəkdə, divara qapı bərabərində iri bir ayna vurulmuşdu. Kəblə Nəbinin arvadı aynanın yanındakı yan qapıdan çıxaraq onlara tərəf gəldi və hal-əhval tutdu. Nəcəf dinməz-söyləməz durur və otağın gözəlliyinə tamaşa edirdi. Afərin əhvalatı onlara danışdı və sözünün axırında üzünü Mərdana tərəf tutaraq dedi:

– Oğlum, Mərdan, indi sənin yanına bir xahişə gəlmişəm, sabah məktəbə gedəndə qoy Nəcəf də səninlə getsin, məktəbi tanısın.

Mərdan diqqətlə Nəcəfi süzdü. Onun dizə qədər çəkilmiş qırmızı corablarını, palçıqdan boz bir rəng almış ayaqqabısını və başındakı açıq-qəhvəyi rəngli, tüklü papağını gördükdə özünü gülməkdən güclə saxladı. Nəcəf gözlərini ona zilləyib durmuşdu. O, elə bil, Mərdanın ona gülmək istədiyini və rişxəndlə ona baxdığını başa düşmüşdü. Mərdan sanki Nəcəfin baxışlarındakı acıq və qəzəbdən qorxduğu üçün gözlərini tez yana çevirdi və Afərindən soruşdu:

– Rusca bilirmi?

Nəcəf xalasına cavab verməyə imkan vermədi. O, qürurlu bir səslə yüksəkdən “bilirəm” dedi. Mərdan tez, aynalı kitab dolabına yaxınlaşdı və oradan cildi şəkilli olan bir kitab götürüb Nəcəfə uzatdı.

– Oxu, – dedi.

Nəcəf kitabı əlinə almadı və kiçik, qonur gözlərini Mərdana zilləyərək yaşına məxsus olmayan bir soyuqqanlılıqla dedi:

– Mən ancaq müəllimə imtahan verərəm.

Əli uzana qalmış Mərdan Nəcəfin bu hərəkətindən pərtləşdi, lakin bunu sezdirməmək üçün gülümsündü:

– Özün bilərsən, – dedi və kitabı təkrar aynalı dolaba qoydu.

Araya sükut çökdü. Xalası da Nəcəfin bu hərəkətindən razı qalmadı. O, narazılıqla Nəcəfi süzərək dedi: “Gedək, sabah Mərdan dərsə gedəndə, sənə xəbər verər”.

Onlar xudahafizləşib pilləkənləri aşağı endilər. Qapıdan bayıra çıxdıqları zaman, Nəcəf dönüb geriyə baxdı. Mərdan da pilləkənlərin üstündə durub onlara baxırdı.

Yolda xalası Nəcəfi xeyli məzəmmət elədi: “O, kəblə Nəbinin oğludur, – deyirdi. – Atasının hər yerdə hörməti vardır. Məhəllədə də hamı onun hörmətini saxlayır. Sən onun oğlu ilə bir az qabiliyyətlə danış, adam elə cavab verməz”.

Xalası dedikcə Nəcəf başını aşağı dikib cavab vermirdi. Axşam Nəcəf ertədən yatağa girib uzandı. O, nazik mələfəni başına çəkib fikirləşirdi. Bu zaman həyət qapısı döyüldü. Afərin tez yerindən qalxıb həyətə çıxdı. Az müddətdən sonra həyətdən yoğun bir kişi səsi eşidildi. Gələn Nəcəfin xalası əri İbrahim idi. O, həyətdəki kiçik hovuzda əl və üzünü yuduqdan sonra, evə daxil oldu. Nəcəf mələfənin altında hərəkətsiz uzanıb nəfəsini belə çəkmirdi. İbrahim Afərindən soruşdu:

– Bu kimdir?

Xalası həmişə olduğu kimi mülayim səslə cavab verdi:

– Nəcəfdir, Şuşadan gəlib.

– Kimilə gəlibdir?

– Özü tək gəlib.

– Tək? – deyə İbrahim təəccüblə soruşdu.

Afərin:

– Bəli, tək, sözün doğrusu, qaçıb gəlibdir.

İbrahimin səsi elə bil qəzəblə guruldadı:

– Qaçıb? Nə üçün?

– Oxumağa gəlibdir.

– Şuşada oxuya bilməzdi?!

Nəcəf İbrahimin danışığından başa düşdü ki, kişi onun buraya gəlməsindən narazıdır. Onun hər bir sualında Nəcəfə qarşı elə bil bir qəzəb və nifrət gizlənmişdi. İbrahim səsini yüksəltdikcə, Afərin səsini alçaldır və ərinə daha mehribancasına cavab verməyə çalışırdı.

Xalası həlim bir arvaddı. O, insanlara həmişə xeyirxahcasına yanaşardı, həssas və kövrək idi. Qapısına gələn dilənçiləri heç vaxt boş yola salmazdı. Böyük ehtiyac içərisində olduğu zaman belə, axırıncı tikəsini başqasına verməyə hazır idi. Əri İbrahim isə çox bədxasiyyət və xəsis bir adam idi. O, qəssab idi. Qəssab bazarında dükanı vardı. Hələ Şuşada ikən, Nəcəf anasının İbrahim haqqındakı söhbətlərini eşitmişdi. "İbrahim Afərini çox incidir, – deyə anası İbrahimdən gileylənərdi, – qız yazıq oldu, bütün ömrü zəhərə dönübdür". Lakin Nəcəf o zaman anasının bu sözlərinə əhəmiyyət verməzdi. İndi isə İbrahimin sualları və səsindəki hiddət onun haqqında deyilənlərin doğru olduğunu göstərirdi.

İbrahimlə Afərin axşamdan xeyli ötmüşə qədər söhbət etdilər. Xalasının hər sualına acıqlı cavab verən İbrahimə qarşı Nəcəfin ürəyində bir nifrət hissi oyanırdı. Söhbətin axırında xalasının mülayim və bir az da titrək səsi yenə eşidildi.

– Sabah onu məktəbə apararsanmı?

İbrahimdən səs çıxmadı. Nəcəf nəfəsini tıxayıb İbrahimin cavabını gözləyirdi. Xeyli vaxtdan sonra İbrahim dedi:

– Deməк, sabah dükanı açmayıb, onu məktəbə aparaq da! Yox, mən dükanı bağlaya bilmərəm. Özü getsin, Şuşadan buraya yol tapan adam, məktəbi də tapar.

Afərin artıq bir söz deməyib susdu. Nəcəf xalasının halına acıdı. Onun xahişi yerə düşmüşdü.

Ertəsi gün Nəcəf məktəbə getmədi. Xalası nə qədər gözlədisə də, Mərdan gəlib çıxmadı. Nəcəf xalasının təşvişə düşdüyünü və onun tez-tez həyət qapısına çıxdığını gördükdə, ona yaxınlaşdı:

– Xala, – dedi, – narahat olma. Mən özüm gedərəm.

Xalası təəccüblə ona baxdı. Onun qeydkeşliklə parlayan gözləri həmişəki kimi kədərli idi.

– Necə gedərsən? – dedi, – oranı tanımaq çox çətindir, bələd adam olmasa, gedə bilməzsən.

– Taparam, xalacan, taparam, – deyə Nəcəf inadkarlıqla sözündə israr etdi.

O günü axşamadək onlar bu barədə artıq bir kəlmə də danışmadılar, yalnız ertəsi gün səhər tezdən xalası Nəcəfi yuxudan oyadıb dedi:

– Dur, oğlum, vaxtdır.

Nəcəf yatağından qalxdı. İbrahim getmişdi. Xalası samovarı qaynadıb süfrəyə qoymuşdu. Onun vızıltılı səsi otağı doldurmuşdu. Nəcəf geyindi və cəld bir stəkan çay içib bayıra çıxdı. Xalası onu qapıyadək ötürdü. Bayırda şiddətli külək əsirdi. Külək ensiz küçənin ortasında dəlicəsinə burularaq, zibil və kağız qırıntılarını bir yerə toplayır və sonra onları qabağına salaraq, harın bir at kimi bütün küçə boyu baş götürüb gedirdi. Küçə sakit idi. Adam yox idi. Yalnız qoca bir dalandar kiçik nərdivana qalxaraq, fənərlərin lampalarını söndürməklə məşğul idi. Payız günəşinin ilk zəif işıqları ikimərtəbəli evlərin arasından süzülür və küçəni işıqlandırırdı. Çox tez idi. Mərdangilin qapıları da bağlı idi. Nəcəf xalasıgilin qapısında bir xeyli durub gözlədi. O, Mərdanın evdən çıxmasını gözləyirdi. Mərdanın gözünə görünmədən, onun dalısınca düşüb, məktəbin yerini öyrənmək istəyirdi. Elə bu zaman şiddətli külək onun tüklü papağını başından alıb qaçırtdı. Nəcəf papağın dalısınca qaçmağa başladı. Papaq yüngül bir kağız parçası kimi küçə ilə yuvarlanırdı. Nəcəf çatıb papaqdan yapışdığı zaman, arxa tərəfdən bir qəhqəhə səsi

eşitdi. Geri dönüb baxdı. Mərdan qoltuğunda çanta qapılarında durub ona gülürdü. Nəcəf acıqlı-acıqlı onu süzdü. Mərdan isə gülməyində davam edirdi. Nəcəf papağını başına qoydu və hədələyici bir tərzdə: "Dişlərini niyə ağardırsan?" – dedi.

Pərt olmuş Mərdan çantasını qaldırıb onu vurmaq istədi. Nəcəf sinəsini qabağa verdi və acıqlı gözlərini ona zillədi. Mərdanın havada qalmış əli yanına düşdü və heç bir söz demədən yoluna düzəldi.

Mərdan uzaqlaşıb getmişdi. Nəcəf isə yerindəcə durub onun dalısınca baxırdı. Birdən yadına düşdü ki, məktəbi tapmaq üçün Mərdanın dalısınca getməlidir. O tez yerindən sıçradı və artıq döngəni dönmüş Mərdanın dalısınca qaçmağa başladı. Yalnız xuşgəbar mağazalarının qabağında ona çatdı və gözünə görünməmək üçün Mərdanın dalısınca gedən şişman bir kişinin arxasına düşdü. Mağazalar bitdiyi zaman şişman kişi sağa tərəf buruldu. Bu zaman Mərdan geri baxsa idi, Nəcəfi görə bilərdi. Nəcəf Mərdanın bir qədər ötüb uzaqlaşması üçün rəngli kağızlar satan bir dükanın qabağında durdu. Dükanın aynalı qapısından hər cür əlvan kağızlar və şəkillər asılmışdı. Şəkillərə həsrətlə baxmağa başladı. Şəkillər və əlvan kağızlar onu o qədər cəlb etmişdi ki, Mərdanı tamamilə yadından çıxarmışdı. Şəkillərdən başı ayıldığı zaman Mərdan artıq gözdən itmişdi. Nəcəf durub baxmasından peşman oldu və ancaq yenə ümidini kəsməyərək onun dalısınca yüyürdü. Geniş bazarın içərisilə çox axtardı, tapa bilmədi. Geri qayıtmaq istədi, elə bu zaman Mərdanın irəlidə bir dükanın qabağında durduğunu gördü. O, qoz alırdı. Nəcəf özünü bir küncə verib gözlədi və Mərdan dükandan ayrıldığı zaman, onu izləməyə başladı. Bu dəfə Nəcəf artıq ondan bir addım da uzaqlaşmamağı qərara aldı. Mərdan bazardan sağa tərəf dönüb bir küçəyə çıxdı. Bu uzun və enli bir küçə idi. Buradakı evlərin çoxusu üç mərtəbə idi. Hətta dörd mərtəbə evlər də vardı.

Mərdan, kənarlarında ağac əkilmiş səki ilə düz yuxarı qalxırdı. Ağaclar saralmış yarpaqlarını tökürdülər. Daş döşəmələrin üstünə sərilmiş sarı yarpaqları isə külək qabağına qataraq qovurdu.

Mərdan ikimərtəbəli böyük bir binanın qapısından içəri girdi. Nəcəf qapının üstündə vurulmuş uzun lövhədə rus dilində yazılmış bu sözləri oxudu: "Bakı gimnaziyası". O, köksünü dərindən ötürdü və bununla elə bil çoxdan bəri çiynində daşıdığı ağır yükün altından çıxıb yüngülləşdi. O, axtardığını tapmışdı. Lakin, onun üçün ən qorxulu iş hələ qabaqda idi. "Bəlkə məktəbə qəbul etmədilər?" Bayaqdan bəri ancaq məktəbin binasını tapmaq fikrilə yaşamış

Nəcəf, indi əsil və qəti bir məsələ ilə üz-üzə gəlmişdi. O hələ Şuşadan çıxarkən bu məsələni düşünmüşdü. Ancaq öz-özünə demişdi: "Qəbul olunmalıyam, nə olur olsun, əliboş geri qayıtmayacağam". O, sübhün gözü hələ açılmamış, evlərinin astanasından bayıra qədəm qoyarkən bu sözləri təkrar etmişdi. İndi isə, inadkarlıqla öz-özünə aşılamış olduğu arzuları həyata keçirməyin vaxtı çatmışdı. Onu böyük çətinliklər, əziyyət və iztirablar gözləyirdi.

Mərdanın içəri girməsindən bir xeyli vaxt keçmişdi, ondan sonra bir çox uşaq da qapıdan içəri girmişdi. Bu uşaqlar, elə bil, Nəcəfin də qəlbini və arzularını özləri ilə bərabər içəri aparmışdılar. İçəridən zəng səsi eşidildi. Dərs başlanırdı. Nəcəf ağır addımlarla qısa daş pilləkəni qalxaraq, məktəb qapısından içəri girdi.

Bu addımlar gözlə seçilməyən bir inamla atılmışdı.

* * *

Nəcəf dar dəhlizdən keçdikdən sonra, geniş və işıqlı bir koridora çıxdı. Koridorda sakitlikdi. Gimnazistlər siniflərə girmişdilər. Koridorun o biri başında orta yaşlarında olan bir kişi göründü, müəllimə oxşayırdı. O, Nəcəfin yanından keçdiyi zaman durdu və Nəcəfə yaxınlaşdı, "kimi istəyirsən, bala?" – deyə soruşdu. Onun mülayim və mehriban bir sifəti vardı. Səliqə ilə vurulmuş saçlarına yenicə dən düşmüşdü. Alnındakı qırışıqlar sıx və dərin idi. Nəzərə yorğun kimi çarpan gözləri mehribanlıqla parıldayırdı. Nəcəf qarşısında durmuş bu adamın sualında nədənsə böyük bir xeyirxahlıq duydu.

– Oxumağa gəlmişəm, – deyə Nəcəf utancaqcasına ahəstədən cavab verdi və başını aşağı dikdi.

Müəllim:

– Haradan gəlmisən?

Nəcəf başını qaldırmadan cavab verdi:

– Şuşadan!

Müəllim:

– Heç məktəbdə oxumusanmı?

Nəcəf başını qaldırdı. Müəllimin danışıq tərzi, xoş səsi və bütün görkəmi Nəcəfdəki ümidi daha da artırdı.

– Şuşanın mülkiyyə məktəbində oxumuşam. Ancaq oradan qaçıb buraya gəldim, – dedi və bütün əhvalatı müəllimə danışdı.

Müəllim bir qədər fikirləşdi və sonra əlini Nəcəfin çiyninə qoyub dedi:

– Gedək!

Onlar koridordan keçərək müəllimlər otağına daxil oldular. Otaqda heç kəs yox idi. Yalnız qoca xidmətçi qadın uzun, qırmızı mahudla örtülmüş masanın üzərindəki güldanlara su tökürdü. Müəllim Nəcəfi qapı ağzında bir kürsüyə əyləşdirdi.

– Burada otur, məni gözlə, – dedi və getdi.

Nəcəf zəng çalınanadək yerində oturub qımıldanmadı. Zəng vuruldu. Müəllimlər bir-bir gəlməyə başladılar. O hamıdan sonra gəldi, içəri girən kimi, Nəcəfə yaxınlaşdı və gülər üzlə dedi:

– Hə, bala, dur gedək!

Nəcəf onun dalınca getdi. Onlar müəllimlər otağından sağ tərəfə açılan bir qapıya yaxınlaşdılar. Qapının üzərində iri hərflərlə "direktor" sözü yazılmışdı. O, qapını açaraq:

– İvan İvanoviç, icazə verin! – dedi.

İçəridən boğuq bir səs eşidildi. Onlar içəri daxil oldular. Otaq Avropa tərzində bəzənmişdi. Hündür arxalı, yumşaq kürsülər cərgə ilə otağın hər iki tərəfinə düzülmüşdü. Yerə salınmış və rəngi xeyli solmuş xalı üzərində əfsanəvi bir Şərq quşu təsvir olunmuşdu. Küncə qoyulmuş geniş və bir qədər alçaq masanın dalında haça saqqallı, gözlərinə qızıl haşiyəli eynək taxmış daz bir kişi oturmuşdu. Onun yaşı altmışdan artıq olmazdı. Direktor onları görən kimi başını yuxarı qaldırdı və xırda, mavi gözlərilə burnunun az qala ucuna enmiş eynəyin altından baxaraq soruşdu:

– Buyurunuz, Həsən bəy, nə lazımdır?

Nəcəf onun qeydinə qalmış bu xeyirxah adamın Həsən bəy olduğunu öyrəndi. Həsən bəy əhvalatı direktora danışdı. O danışdıqca direktor əlindəki yoğun, qırmızı rəngli karandaşı aramla masanın üstünə vurur və eynəyin altından daha yaxşı görmək üçün başını yana əyərək Həsən bəyə baxırdı. Nəcəf Həsən bəyin rus dilində dediklərini tamamilə başa düşürdü. O, Nəcəfin məktəbə qəbul olunmasını direktordan təkidlə xahiş edirdi: "Bilirsinizmi, İvan İvanoviç, onda elmə qarşı böyük həvəs vardır. O bircə elmin xatirəsinə evlərini qoyub Şuşadan buraya qaçmışdır. Elə gözlərindən də düşüncəli uşağa oxşayır".

Xeyli danışdıqdan sonra direktor Nəcəfin imtahana buraxılmasına razılıq verdi. Nəcəf sevincindən nə edəcəyini bilmədi. O, qulaqlarına inanmaq istəmirdi. "Doğrudanmı icazə verdi?" O, dövlətli uşaqları üçün olan gimnaziyaya qəbul edilmənin nə qədər çətin olduğunu bilirdi.

* * *

Nəcəf bir neçə gün ərzində ikinci sinfə imtahan verib qurtardı. O imtahan verərkən Həsən bəyin ona necə kömək etdiyini, onun haqqında bütün müəllimlərlə uzun-uzadı danışdığını bilir və görürdü. Həsən bəyin bu qeydkeşlik və səyi Nəcəfdə ona qarşı dərin bir məhəbbət yaratmışdı. O çox alicənab idi. Nəcəf, yalnız sonralar bu adamın Həsən bəy Məlikov Zərdabi olduğunu öyrəndi.

O şəxsən özü Nəcəfi ikinci sinfə gətirib müəllimə təqdim etdi. Dərs yenicə başlanmışdı. Onlar içəri girən kimi, gimnazistlər ayağa qalxdılar. Həsən bəy yazı taxtasının qabağına keçərək, müəllimə ahəstədən nə isə dedi və o da Nəcəfi arxa cərgələrin birisində boş yerdə əyləşdirdi. Həsən bəy sinifdə çox qalmadı, o keçib skamyada əyləşmiş Nəcəfi nəzərdən keçirib sinifdən çıxdı, uşaqlar yerlərinə oturdular və uzunboylu, qara libaslı müəllim dərsinə davam etdi. Dərs ana dilindən idi. Müəllim yazı taxtasında məşğul olduğu zaman, uşaqlar tez-tez geri dönüb Nəcəfə baxırdılar. Nəcəf onların heç birinə etina etmirdi. Heç kəsi görməyirmiş kimi gözlərini yazı taxtasına zilləyərək, müəllimin səliqə ilə yazmaqda olduğu sözlərə baxırdı, fikri isə tamamilə başqa yerlərdə dolaşırdı. O indi arzusuna çatmışdı. Dözdüyü əziyyətlər, aclıq və danlaqlar indi öz gözəl məhsulunu verirdi. Onun bundan artıq heç bir arzusu yox idi və ona bu dəqiqə elə gəlirdi ki, dünyanın ən xoşbəxt adamlarından birisidir.

Zəng çalındı. Ana dili müəllimi əlindəki tabaşiri yerə qoydu və titrək əllərilə tutmuş olduğu kitabdan evə tapşırıq verdikdən sonra, sinifdən çıxdı. Sinfi səs-küy bürüdü. Nəcəf yerindən qalxaraq koridora çıxmaq istədi. Elə bu zaman arxadan eşidilən tanış bir səs onu saxladı.

– Külək daha papağını aparmır ki?

Nəcəf Mərdanı gördü. O, əlində iri bir alma tutaraq gəvələyir və gözlərini hiyləgərcəsinə süzərək, Nəcəfə baxırdı. Nəcəf yerində durdu və acıqlı nəzərlərlə Mərdana elə baxdı ki, Mərdan tez sovuşub getdi. Nəcəf koridora çıxdı. Uşaqların səs-küyündən heç bir şey eşidilmirdi. O, pəncərəyə yaxınlaşdı və küçəyə tamaşa etməyə başladı. Ağaclar yarpaqlarını tökürdü. Hava dumanlı idi. Şuşa, evləri Nəcəfin yadına düşdü. Gözüyaşlı anasının xəyalı yenə onun gözləri qarşısında canlandı. Anası nigarandı. Şuşadan çıxdığı iki ay olardı, lakin bu müddətdə evə heç bir xəbər göndərməmişdi. Çünki məktəbə

qəbul olunmayınca o, evə heç bir məlumat yazmamağı qərara almışdı. İndi isə artıq çoxdan bəri gözlənilən gün gəlib çatmışdı. Gözləri yolda qalmış anasına xəbər vermək, onu ovutmaq lazım idi. Anası onun məktəbə, həm də birdən-birə ikinci sinfə qəbul olunmasını eşitdikdə yəqin sevinəcək və Nəcəfin günahından keçəcəkdi. Nəcəfin düşüncələri ağaclardan tökülən və küləyin ağzına alıb apardığı yarpaqlar tək haraya isə baş alıb gedir və onu tərk edirdi. Lap yaxında eşidilən qəhqəhə səsləri onu xəyalatdan ayırdı. Üç nəfər gimnazist qol-qola girərək onun yanından ötüb-keçirdi. Onlardan birisi Mərdan idi. O, yoldaşlarına nə isə danışırdı. Yoldaşları da tez-tez dönüb Nəcəfə baxır və bərkdən gülürdülər. Nəcəfin qəlbində Mərdana qarşı alovlanan hiss onu təhqir olunduğu üçün intiqam almağa çağırırdı.

Nəcəf məktəbin ikinci sinfinə qəbul olunduğunu və Mərdanla bir sinifdə oxuduğunu evdə söylərkən, xalası sevincindən az qala ağlamışdı. Elə o günü axşam xalası onu evlərinə məktub yazmağa məcbur etdi. Nəcəf uzun bir məktub yazdı və hətta anasına təsəlli vermək üçün yay tətili zamanı mütləq Şuşaya gələcəyini də əlavə etdi.

Payızın ilk ayları idi. Lakin havalar soyuq keçirdi. Tez-tez yağış yağırdı. Küçələrdə dizə qədər palçıq var idi. Bütün gimnazistlər qalın və isti paltar geyinmişdilər. Nəcəfin isə əynində Şuşadan gətirdiyi nazik arxalıq vardı. Nəcəfi daha çox narahat edən ayağındakı çustun yırtılması idi. Yağışlı günlərdə çust su buraxırdı. Evdən çıxıb məktəbə gəldiyi zaman, çustları ağırlıqdan qaldıra bilmirdi. Gil palçıq ağır daş kimi onların altına yapışıb qalırdı. O hamıdan xəcalət çəkirdi, heç kəsin gözünə görünmək istəmirdi. Xüsusilə direktorun nəzərinə çarpmamaq üçün az qala gizlicə məktəbə gəlir və tənəffüs zamanı koridorda gözə çarpmayan bir yerə çəkilərək zəngin vurulmasını səbirsizliklə gözlərdi. Hamıdan çox direktordan ehtiyat edirdi. Hələ də gimnazist paltarında olmaması hər bir dəqiqə onun qəzəbini doğurar və gimnaziyadan qovula bilərdi. Budur, bu gün də Nəcəf üçün ən ağır günlərdən birisi idi. Səhərədək arası kəsməyən yağış küçələrdə böyük gölməçələr əmələ gətirmişdi. Nəcəfin ayaqqabıları palçıqdan qəribə bir görkəm almışdı və altı da az qala qopurdu. O heç kəsin nəzərinə çarpmamaq üçün tənəffüslərdə sinifdən bayıra çıxmamağa çalışırdı. Üçüncü dərsə qədər yaxşı keçdi, çust heç kəsin nəzərini cəlb etmədi. Üçüncü dərs Həsən bəyin dərsi idi. Bədbəxtlikdən, Həsən bəy lövhəyə birinci Nəcəfi çağırdı. Nəcəf özünü itirdi, azca pərt oldu, dərsi hazırlamadığını bəhanə etmək istədi, lakin Həsən

bəydən utandı. O, yerində ləngidiyi üçün uşaqların çoxusu geri çevrilib ona baxdılar. Nəcəf ona dikilən və onun dərdindən xəbəri olmayan bu nəzərlər qarşısında ürkək baxışlarla karıxıb qalmışdı. Sinif jurnalına nə isə qeyd etməklə məşğul olan Həsən bəy Nəcəfin lövhəyə gəlmədiyini gördükdə, təkrar çağırdı:

– Nəcəf Vəzirov!

Bütün sinif bir an içərisində Nəcəfin gözü qarşısında hərləndi və elə bil alt-üst oldu, sonra ona elə gəldi ki, lövhəyə gedən yol birdən-birə on dəfə uzanmışdı. O, gözlərini ancaq lövhəyə zilləyərək irəlilədi və müəllimin yanında durdu. Çust indi onun yadından çıxmışdı. Bu saat o bütün düşüncəsini toplamağa, ona zillənmiş baxışlar altında karıxmamağa və dərsi düzgün söyləməyə çalışırdı. O öz hissləri ilə mübarizəyə girişmişdi. Hər şeyi, hər şeyi unutmaq, ancaq karıxmamaq, müəllimə yaxşı cavab vermək istəyirdi. Buna görə o nə müəllimi, nə də uşaqları görməmək üçün gözlərini tavana dikərək, dərsi danışmağa başladı. O hər dəqiqə guya özünün otaqda tək olduğunu və heç kəsin onu görmədiyinə özünü inandırmağa çalışırdı. Bu fikri özünə aşıladıqca, səsindəki titrəyiş, həyəcan keçir və əsəbi hərəkətləri də soyuyurdu. Nəcəf xəyalında yaratmış olduğu bu süni aləmə o qədər qapılmışdı ki, Həsən bəyin "Mərhəba, kifayətdir, keç əyləş!" sözlərini az qala eşitməmişdi.

Dərsdən sonra Həsən bəy Nəcəfi yanına çağırtdırdı. O artıq heç bir söz demədən, cibindən çıxartdığı pulu Nəcəfə uzatdı və dedi: "Ver qohumlarına, sənə paltar və ayaqqabı alsınlar".

O gün axşam Nəcəf pulu xalasına verdi. Lakin sinifdə keçirmiş olduğu həyəcan haqqında ona heç bir söz demədi. Yatağa girib uzandı, gözünə yuxu getmədi. Xalası əri evə gələnədək gözləri yumulu halda uzanıb, gündüz keçirdiyi dəqiqələri təzədən xatırlamağa, bəzi yerlərini isə daha aydın təsəvvür etməyə çalışırdı. İbrahim şam etdikdən sonra, Afərin müəllimin verdiyi pul haqqında ona xəbər verdi. İbrahimin üzünü görməsə də, susmasından başa düşürdü ki, o yenə də Nəcəfin evdə qalmasından narazıdır. Nəcəf bunda yanılmamışdı. İbrahim elə o dəqiqə burnunda mızıldanan kimi oldu: "Çörəyini də versələr, yaxşı olar".

Bununla da ər və arvadın axşamkı söhbətləri bitmiş oldu.

* * *

Bir həftə olardı ki, Nəcəf gimnaziyada oxuyurdu. Hələ də öz nazik yay paltarında idi. O, tənəffüs zamanı koridora çıxdıqda gimnazistlərdən dərhal fərqlənir və nəzəri cəlb edirdi. Buna görə o çox zaman bir bəhanə ilə sinifdə oturub, tənəffüsə çıxmırdı. Bir dəfə, necə oldusa, direktor İvan İvanoviç onu koridorda gördü. Nəcəf onun gözündən yayınmaq istədisə də, direktor hədələyici bir səslə onu yanına çağırdı. İvan İvanoviç əvvəlcə onu yad bir uşaq zənn etdi. Nazik qaşlarını çataraq, eynəyin üstündən onu diqqətlə süzüb dedi:

– Sən burada nə qayırırsan, kimin yanına gəlmisən? Səni kim içəri buraxmışdır?

Nəcəf özünü itirdi, direktora nə cavab verəcəyini bilmədi. O tezliklə bir neçə nəfərin onların başına toplandığını gördükdə ahəstədən cavab verdi:

– İvan İvanoviç, mən burada oxuyuram, ikinci sinifdəyəm.

Direktorun qaşları təəccüblə dartıldı və Nəcəfi təkrar başdan-ayağa süzdü.

– Adın nədir? – deyə o, səsini ucaldaraq soruşdu.

– Nəcəf Vəzirov.

Direktor heç bir şey başa düşmürmüş kimi, çiyinlərini dartdı və Nəcəfə onun dalısınca gəlməsini əmr etdi.

Onlar direktor otağına getdilər. İvan İvanoviç öz masasının dalına keçərək əyləşdi və masanın üstündə pərakəndə halda olan kağızları nizama saldıqdan sonra üzünü Nəcəfə tutdu:

– Hə, bu nə üçün belə olub?

Nəcəf onun sualını başa düşmədi.

– İvan İvanoviç, heç bir şey olmayıb, mən sualınızı başa düşmürəm.

Direktor azca qəzəblənən kimi oldu.

– Yəni necə olub ki, bizim məktəbdə oxuyan şagird gimnazist paltarında deyildir.

Nəcəf başını aşağı dikdi və güclə eşidilən bir səslə dedi:

– Tikdirəcəyəm, İvan İvanoviç.

– Tez tikdirmək lazımdır, gimnaziyada bir aya yaxındır ki, dərs başlanıb, bu müddətdə formasız oxumaq heç yerdə görünməmişdir. Mən təəccüb edirəm, biz buna necə yol vermişik.

Nəcəf, atasının yoxsul və xəstə olduğunu və buna görə paltar tikdirə bilmədiyini söyləmək istədi, lakin tez fikrindən daşındı.

Bundan ötəri onu məktəbdən tamamilə çıxara bilərdilər. Çünki gimnaziyada oxuyanların əksəriyyəti varlı uşaqları idi. Nəcəf isə uzun əziyyətdən sonra çatmış olduğu bu nemətdən əlini üzmək istəmirdi.

Direktor ayağa qalxdı və masanın dalından keçərək Nəcəfə yaxınlaşdı.

– Hə, get, – dedi, – beş gün sənə vaxt verirəm. Bu müddətədək gimnazist paltarı tikdirməsən, səni gimnaziyadan çıxarmalı olacağam.

Bu söz elə bil ağır bir daş kimi Nəcəfin ürəyinə çökdü. O hər cür ağır xəbər eşitməyə hazır idi, lakin məktəbdən çıxarılması xəbəri onun üçün ən dözülməz bir fəlakət idi. O, fikirli halda direktorun otağından çıxdı. Koridorda heç kəs yox idi. Zəng sinfə vurulmuşdu. Nəcəf sinfə girdi. Hesab dərsi idi. Müəllim Nəcəfi gördükdə təəccübləndi:

– Harada idin?

– İvan İvanoviçin yanında idim.

Bu zaman orta cərgədən Mərdanın səsi eşidildi:

– Xeyr, müəllim, düz demir, papağını yel aparmışdı, onu tutmağa getmişdi.

Sinifdəkilərin hamısı gülüşdü. Nəcəf dinməz yerinə keçib əyləşdi.

Zəng vurulduqdan sonra o, Mərdanın oturduğu partaya yaxınlaşdı. Mərdan başını əyərək skamyanın gözündən nə isə çıxarırdı. O, düzəldiyi zaman Nəcəfi yanında görən kimi özünü itirdi və qorxurmuş kimi geri çəkildi.

Nəcəf:

– Sən naqqallıqdan nə vaxt əl çəkəcəksən? Əgər bunu özünə bir əyləncə etmişsənsə, bu iş sənə çox-çox baha oturacaqdır. Nə qədər gec deyil, oyunbazlıqdan əl çək! – dedi.

Sinifdə onlardan başqa heç kəs qalmamışdı. Mərdan elə bil oturduğu yerdən qalxmağa ehtiyat edirdi. O, yanında yoldaşları olduğu zaman Nəcəflə dalaşmaqdan həzz alardı. Lakin, Nəcəflə üz-üzə gəldiyi vaxt susur və ondan ehtiyat edirdi. İndi də Nəcəf onun başı üstündə oturub cavab gözlədiyi zaman, o nə söyləyəcəyini bilmirdi.

Nəcəf bir dəqiqəyədək onun yanında durub gözlədi, lakin Mərdandan heç bir cavab ala bilmədi. Mərdan başını aşağı salıb guya çəkməsinin bağlarını bağlamaqla məşğuldu!

* * *

Direktorun təyin etdiyi vaxt yaxınlaşırdı. Nəcəf bütün gecələri yatmır, fikirləşirdi. Onun heç kəsə ümidi gəlmirdi. İşıq gələn bir yer də yox idi. Xalası əri ona nəinki kömək etmək istəmirdi, hətta onun öz evində qalmasına belə razı deyildi. Nəcəfin yeganə təsəllisi xalası idi. Şəfqət hissləri ilə dolu olan bu qadın ağır həyat yollarında onu müşayiət edən bir çıraq, bir ümid idi. Ürəyinin sirdaşı da, iztirablarının həmdəmi də yenə o idi. Nəcəf direktorun sözlərini xalasına danışdı və beş gün vaxt təyin etdiyini söylədi. Xalası çox fikirləşdi, ancaq əlindən nə gələ bilərdi? O, köməksiz və zavallı bir qadın idi. Afərin axşama kimi düşündü, qaş qaralarkən Nəcəfi də özü ilə götürərək qohumlarından birisinin evinə getdi. Bu ev Əmənulla adlı yaşlı bir kişinin evi idi. O, körpüdə İrandan portağal, narınc daşıyan gəmilərdə işləyirdi. Afərin onlara çatdığı zaman Əmənulla yenicə işdən gəlmişdi. Afərin nə üçün gəldiyini ətraflı surətdə Əmənullaya danışdı. Əmənulla axıradək ona qulaq asdıqdan sonra Nəcəfdən soruşdu:

– Bala, saymaq bilirsənmi?

– Bilirəm.

– Neçəyə qədər saya bilirsən?

– Milyona qədər.

Əmənulla Afərinə tərəf döndü və ona təskinlik vermək məqsədilə başını arxayın bir tərzdə tərpətdi.

– Düzələr, – dedi, – ona balaca bir iş taparam, dərsdən sonra qəpik-quruş qazanar.

Afərin sevincindən Əmənullaya necə minnətdarlıq edəcəyini bilmədi, elə bil boğazı qəhərlənmişdi. Titrək bir səslə ancaq bunu deyə bildi:

– Əmənulla qardaş, gümanım ancaq sənə gəlir.

Afərin və Nəcəf evə döndülər. Afərin tələsirdi. İbrahimin bazardan qayıdan vaxtı idi. O, Əmənullagilə getdiyini İbrahimə bildirmək istəmirdi, çünki onun acığı tutar və Nəcəfi evdən qova bilərdi.

Bazar günü Nəcəf tezdən yerindən qalxdı və Əmənullagilə getdi. Əmənulla onu gözləyirdi. Nəcəfin gəldiyini gördükdə fərəhlə əlini onun çiyninə qoydu.

– Hə, qarabağlı balası, vaxtında gəldin, gedək.

Hava soyuq idi. Xəzri şiddətlə əsirdi. Dəniz kənarına çatanadək Nəcəf soyuqdan gömgöy kəsilmişdi. Sahil boyu uzanan küçədə

həddi-hesabı olmayan dükan var idi. Bu dükanlarda gəmilərlə Mazandaran və Gilandan gətirilən iri və dadlı portağallar, yumşaq həsirlər və müxtəlif zənbillər satılırdı. Bəzi dükanların qabağında taxta yeşiklərdə əkilmiş və budaqları sarı limonlardan az qala sınmağa gələn limon ağacları düzülmüşdü. Onlar sahilboyu salınmış dükanların qabağından keçərək, İçərişəhərə burulan bir döngəyə girdilər. Buradakı dükanların hamısında portağal, narınc və limon satılırdı. Əmənulla dükanların birisinin aynabənd qapısını açıb içəri girdi. Qapının lap ağzında qoyulmuş alçaq masa dalında şişman, dəyirmi saqqallı, əynində qara mahuddan arxalıq olan bir kişi oturmuşdu. O, qəlyanın çubuğunu ağzında tutub sümürürdü. Dükanda hər şeydən qabaq nəzəri cəlb edən kişinin başı üzərində divardan asılı olan çirkli kordonda pis xətlə yazılmış "Nisyə moquf"[1] sözləri idi. Əmənulla salamlaşdı. Kişi isə heç etina etmədi. Nəcəf Əmənullanın kişiyə qarşı mülayim davranışından, onun dükan sahibi olduğunu başa düşdü.

– Hacı, yeşikləri saymaq üçün bu uşağı gətirdim, təmiz və düz uşaqdır, əyriliklə arası yoxdur.

Hacı qəlyanın çubuğunu ağzından çıxarmadan, diqqətlə Nəcəfi süzdü və başını tərpətdi. Bu, razılıq əlaməti idi. Əmənulla və Nəcəf dükandan çıxıb körpüyə tərəf getdilər.

Körpüdə çoxlu adam var idi. Hamballar, körpüyə yenicə yan almış gəmilərin yüklərini bayıra daşıyırdılar. Əmənulla və Nəcəf körpünün lap qurtaracağında suların üzərində ehmalca yırğalanan bir gəmiyə yaxınlaşdılar. Körpüdən gəmiyə atılmış ensiz bir pilləkənlə qalxıb gəmiyə girdilər. Burada çoxlu adam var idi. Əmənulla tez-tez qədəm saxlayıb onlarla danışırdı. Nəhayət, onlar yenə ensiz bir pilləkənlə gəminin anbarına endilər. Bura alaqaranlıq bir yer idi. Hisli lampanın işığında bir neçə adam işləyirdi. Anbarda çoxlu yeşik var idi. Yeşiklərin arasında döşəməyə tökülmüş portağal və narınc qalıqlarından xoş bir qoxu ətrafa yayılırdı. Əmənulla yeşiklərdən birisinin üzərində oturmuş arıq və eynəkli bir cavana müraciət etdi:

– Ağa Muxtar, Hacı ilə danışdım ki, bu oğlan sənə kömək etsin, kasıb oğlandır, qəpik-quruş qazanar.

Cavan oğlan əlindəki dəftərçəyə nə isə qeyd edə-edə Nəcəfə tərəf dönərək:

---

[1] "Nisyə verilmir" (*farsca*).

– Savadın varmı? – deyə soruşdu.

Nəcəf cəsarətlə cavab verdi:

– Vardır.

– Yaxşı, sabah saat 3-də gəl, gəmi gələn kimi işə başlarsan.

Əmənulla əyilib yerdən yarıçürümüş bir portağal götürüb Nəcəfə uzatdı:

– Al, – dedi, – Ənzəli portağalıdır. Qarabağda belə şey tapılmaz.

Nəcəf portağalı aldı. Əmənulla yenə Ağa Muxtara müraciət etdi:

– Ağa Muxtar, istəyirsən indi sənin yanında qalsın, işə bələd olsun. Sabahdan isə özü təkbaşına hesab aparar.

Ağa Muxtar razılıq verdi və Nəcəf axşamadək onun yanında qalıb görəcəyi işə bələd oldu.

* * *

Üçüncü gün idi ki, Nəcəf gimnaziyadan çıxan kimi körpüyə gedirdi. İvan İvanoviçin təyin etdiyi vaxta da çox az qalırdı. Nəcəf bu barədə Ağa Muxtarla danışmaq istədi. Onu buna həvəsləndirən və cürətləndirən bu üç gün içərisində Ağa Muxtardan gördüyü mehribanlıqdı. Ağa Muxtar onda xoş bir təsir buraxmışdı. O, mülayim, xoşxasiyyət və əliaçıq bir cavan idi. O hər gün işdən sonra 5-10 portağal ayırıb Nəcəfə verərdi. “Apar”, – deyirdi, – bununla Hacının dövlətinə heç bir zərər gəlməz. Bir də, yeməyənin malını yeyərlər – demişlər”. Nəcəf isə portağalları çəkinə-çəkinə güllü yaylığına bağlar və bir tərəfə qoyardı. Ağa Muxtar Nəcəfin gimnaziyada oxuduğunu da bilirdi. Nəcəf, Ağa Muxtarın bütün bu hərəkətlərini öz uşaq zəkası ilə dərindən təhlil edib, nəhayət, qəti bir qərara gəldi: “Hər şeyi Ağa Muxtara açıb demək lazımdır, o mənim köməyimə çatar”. Bu qərarla körpünün anbarına endiyi zaman Ağa Muxtarı orada görmədi. İşin axırında, Ağa Muxtarın Hacı tərəfindən işdən qovulduğunu öyrəndi.

Ertəsi gün körpüyə gələrkən Əmənullaya rast gəldi. O, Nəcəfi görən kimi dedi: “Nəcəf Hacını zorla razı salmışam, donluğunu qabaqcadan sənə verəcəkdir. İndi dükana get, pulunu al”. Bu söz Nəcəfi sevindirdi. Tez dükana getdi və yenə birinci dəfə gördüyü kimi uzun qəlyanını xoruldadan və çiyninə sarı, Xorasan kürkü salıb oturmuş Hacı, əlini daxıla apardı və oradan təzə bir kağız pul çıxarıb verdi. Sonra Nəcəfin adını soruşub uzun dəftərçəyə qeyd etdi.

Haman gün xalasının xahişi ilə Əmənulla bəzzaz bazarından ucuz bir mahud alıb gətirdi.

Tanış bir dərzi iki günə mahuddan Nəcəf üçün qəşəng bir paltar tikdi. Xalası isə öz hesabına Nəcəfə gimnazist furajkası aldırdı.

Gimnaziya direktoru İvan İvanoviçin təyin etdiyi beşinci gün Nəcəf gimnazist paltarında məktəbə gəldi.

Dərsin başlanmasına hələ çox qalmışdı. Koridorda sakitlikdi. Yalnız iki gimnazist koridorun geniş pəncərəsi qarşısında duraraq söhbət edirdilər. Nəcəf öz siniflərinə girdi. Heç kəs yox idi. Bir azdan sonra onunla bir skamyada oturan yoldaşı Əhməd gəldi. Onlar coğrafiya dərsini təkrar etməyə başladılar. Çox çəkmədi ki, sinif gimnazistlərlə doldu.

Hamı diqqətlə Nəcəfə baxırdı. Gimnazist paltarı ona çox yaxşı yaraşırdı. Zəng vuruldu. Gimnazistlər yerlərində oturdular. Nəcəfin sağ tərəfindəki skamyada Mərdanın yeri boş idi. Coğrafiya müəllimi də dərsə başlayan kimi onu soruşdu. Bununla ikinci dəfə idi ki, Mərdan coğrafiya dərsinə gəlmirdi. Müəllim keçmiş dərsi soruşurdu. Bütün gimnazistlər coğrafiya müəllimindən gileylənirdilər. Çox tələbkar idi. O ancaq tək-tək hallarda gimnazistlərə yüksək qiymət verərdi. Bu gün də üç nəfər gimnazistdən ancaq Nəcəf dərsi yaxşı danışdı. Məktəbə qəbul olunarkən coğrafiyadan o qədər də yaxşı bilməyən Nəcəfin cavabına müəllim heyrət etdi. Onun qəribə bir adəti var idi, heç kəsə dərsi axıradək danışmağa imkan vermirdi, bir-birinin ardınca verdiyi suallarla şagirdin söhbətini kəsir və onun elə bil bütün biliyini yoxlamaq istəyirdi. İndi də Nəcəf mövzunu danışıb qurtardıqdan sonra müəllim ona suallar verməyə başladı. Bu sualların bəzisi hətta birinci sinif proqramına aid idi. Lakin Nəcəf sualların hamısına yaxşı cavab verdi. Müəllim hamının gözü qarşısında sinif jurnalında ona "5" qiymət yazdı.

Hamının gözü Nəcəfdə idi. Ona həsəd edənlər də vardı.

Coğrafiya müəllimi sinifdən çıxmışdı. Gimnazistlərin əksəriyyəti isə hələ sinifdə idi. Birdən açıq qalmış qapıdan coğrafiya müəlliminin qəzəbli səsi eşidildi. O kimə isə yüksəkdən acıqlanırdı. Gimnazistlər qapıya tərəf cumdular, onlar koridorda dövrə vurub durmuşdular. Lap ortada isə Mərdan əlində çantası dayanmışdı. Müəllim ona hirsləndikcə o, başını aşağı salıb susurdu. Müəllim deyirdi: "Əgər bir də coğrafiya dərsində olmasan, direktora məlumat verəcəyəm. Get, hazırlaş, gələn dərs birinci səndən soruşacağam".

Mərdan pörtmüş halda sinfə girdi. Gimnazistlərdən birisi ona yaxınlaşıb dedi: "Ancaq yaman yerdə yaxaladı ha!" Mərdan başını qaldırıb ona acıqlı bir nəzər saldı və nə isə demək istəyirdi ki, birdən təzə paltar geymiş Nəcəfi gördü və üzünü yana çevirdi. Həmişə Nəcəfə istehza ilə baxan Mərdan indi onu gördükdə, elə bil, utanır və xəcalət çəkirdi.

Nəcəf yenə də hər gün dərsdən sonra körpüyə gedirdi. Təzə geydiyi gimnazist paltarı ilə indi körpüdə hamıdan seçilirdi. Körpünün girəcəyində dəstə ilə toplaşan dilənçi uşaqlar birinci gün Nəcəfi gimnazist paltarında gördükdə bərkdən gülüşdülər. Nəcəf isə onlara etina etmədən düz keçib getdi. Sonralar dilənçi uşaqlar Nəcəfə alışdılar.

Ağa Muxtarın yerinə Vasili adlı cavan bir rus təyin edilmişdi. O, Azərbaycan dilini də yaxşı bilirdi. Əvvəllər Vasili öz qalın saçları, gözündəki dəmir haşiyəli eynəyi ilə Nəcəfdə yaxşı təsir buraxmamışdı. Nədənsə Nəcəfə elə gəlirdi ki, belə adamlar çox zaman qəzəbli və bədxasiyyət olur. Lakin günlər keçdikcə, Nəcəf Vasili ilə yaxından tanış oldu və o öz fikrində yanıldığını başa düşdü. Vasili körpüdə hamı ilə mehribancasına dolanırdı. Hamı onun xatirini istəyirdi, sakit və söhbətcil adam idi.

Gəmi gecikən zamanlarda işçilər körpüdəki talvarın altına toplaşırdılar. Talvar bərk soyuq olurdu. Xüsusilə xəzri əsdikdə talvarda durmaq olmurdu. Belə hallarda Vasili gözəl hekayə və nağıllar danışardı. İşçilər də bir-birinə sıxılıb ona qulaq asardılar. Vasili köhnəlmiş və bir neçə yerdən yamağı olan xaki rəngli paltosunun boynunu qaldırar və əllərini onun uzun qolları içərisində gizlədərək təmkinlə danışardı. Onun nağılları çox şirin və cazibəli idi. Hamı onu böyük maraqla dinlərdi. Bəzən elə olurdu ki, körpüyə yan almış gəminin səsi belə onları Vasilinin nağıllarındakı gözəl, xeyirxah insanlardan, xəyali bolluq aləmindən ayıra bilmirdi.

Vasilinin yanında həmişə kitab olurdu. Nahar vaxtı bir də görürdün ki, özünü bir tərəfə çəkib kitab oxuyur. Bu zaman o, elə bil, ətrafında olanları nə görür və nə də eşidirdi. O hər bir boş dəqiqəsini belə kitab oxumaqla keçirərdi. Onun həyatda sevdiyi bir şey vardısa, o da kitab idi. Aldığı qəpik-quruş maaş da elə buna gedirdi. Nəcəf Vasilidə kitaba olan bu ehtirasa heyran qalmışdı. Bir dəfə ondan soruşdu:

– Vasili, bu qədər kitab oxumaq nəyinə lazımdır?

Vasilinin bu suala nə cavab verəcəyini Nəcəf əvvəldən bilirdi. Kitablar Vasilinin çörəyi, həyatı idi. Lakin o, kitablar haqqında bəlkə daha xeyirli məlumat almaq üçün bu sualı vermişdi.

Vasili köksünü dərindən ötürdü:

– Eh, – dedi, – yaşamağı öyrənmək lazımdır. Bizim gördüyümüz bu həyat ancaq səfalət bataqlığıdır. Əsil həyat kitablardadır. Kitab adama hər şeyi öyrədir, bəzən də ancaq onunla təsəlli tapırsan.

Vasilinin sözləri Nəcəfi elə bil yuxudan ayıltmışdı. Bu sözlər Nəcəfin kitaba olan şövq və həvəsini qat-qat artırdı. O şəxsən Vasilinin oxuduğu kitablarla daha artıq maraqlanmağa başladı. O da Vasilini özünə bu qədər cəzb edən kitablardakı mənanı və həqiqəti öyrənmək istəyirdi. Bir dəfə oxuduğu kitablardan birisini ona verməyi Vasilidən xahiş etdi. Vasili ciblərindən üç kitab çıxarıb onlardan ən naziyini seçib Nəcəfə verdi.

– Al, – dedi, – sənin üçün bu yaxşıdır. Bu kitabda hər şeyi görəcəksən.

Nəcəf kitabı alıb üstünə baxdı. V.Qoqolun "Şinel" adlı əsəri idi. O, kitabı üç gündə oxuyub qurtardı. Əsərin qəhrəmanı Akaki Akakiyeviçin qəmgin həyatı Nəcəfi çox düşündürdü. Onun, soyuq qış gecələrindən birisində heç kəsin xəbəri olmadan ölməsi Nəcəfin həssas qəlbini kövrəltdi. Nəcəf kitabı qaytararkən Vasili ona dedi:

– Hə, gördünmü, insanlar nə cür çətin yaşayırlar, həyat nə qədər əziyyətli və ağırdır. Elə biz hamımız da Akaki Akakiyeviçik.

Nəcəf Vasilidən başqa kitablar da alıb oxuyurdu. Bu kitablar içərisində onun daha çox xoşuna gələn Ostrovskinin "Tufan" əsəri idi. Bu əsərdə də insanlar düşdükləri ağır mühit içərisində yaralı quş kimi çırpınırdılar. Həyat onları boğurdu. Onların xoş arzuları ürəklərində daş bağlamışdı və bu xoş arzular qaranlıq həyat yollarında onlara işıq saçmaqdan da aciz idi. Xüsusilə Katerina Nəcəfin xoşuna gəlmişdi. Ona elə gəlirdi ki, Katerina bir qədər onun xalasına da oxşayır. Axı xalası da Katerina kimi ağır mühitin qurbanı olmuşdu. Heç kəs onun qəlbindəki arzu və istəkləri başa düşmürdü. Katerinanın özünü Volqaya atması xeyli müddət həqiqi bir hadisə kimi Nəcəfin gözləri qarşısında canlanıb durdu. Əsəri oxuduqdan sonra, Nəcəfin xalasına olan məhəbbəti daha da artdı.

– Yazıq xalam, – deyirdi, – sən də Katerina kimi məhkumsan.

Kitablar Nəcəfi özünə o qədər cəlb etmişdi ki, o, dərsarası tənəffüslərində də onlardan əl çəkə bilmirdi. Vasilidən təzə bir kitab aldığı zamanlarda o, zəng vurulan kimi hamıdan qabaq sinifdən çıxır

və koridorun lap qurtaracağında məktəb həyətinə açılan pəncərənin qabağına gəlirdi. Bura adətən sakitlik olardı. Çünki koridorun qurtaracağı olduğu üçün tənəffüs zamanı gimnazistlərdən heç kəs buraya gəlib çıxmazdı. Nəcəf də asudəliklə kitabını oxuyardı.

Sinif yoldaşları da Nəcəfin hər gün qəribə kitablar oxuduğunu bilirdilər. Lakin onun bu kitabları haradan və nə cür ələ keçirdiyini heç kəs bilmirdi.

Bir gün sinif yoldaşlarından kim isə məktəbin direktoru İvan İvanoviçə Nəcəfin guya yaramaz kitablar oxuduğunu xəbər vermişdi. İvan İvanoviç də haman gün dərsin ortasında qəzəbli halda sinfə girdi. Dərs keçən rus dili müəllimi özü tez ayağa qalxmaqla, gimnazistlərin də qalxmasına işarə etdi. İvan İvanoviç isə gimnazistlərin oturmasına icazə verdikdən sonra qabaq cərgədəki skamyanın yanında durdu və eynəyinin altından sinfi diqqətlə nəzərdən keçirdi. Gimnazistlər mühüm bir hadisə baş verdiyini duydular. Çünki, ancaq belə hallarda İvan İvanoviç dərsin ortasında sinfə girər və bir neçə dəqiqə susaraq qəzəbindən danışa bilməzdi.

Nəhayət, o, cır səsi ilə soruşdu:

– Vəzirov kimdir?

Orta cərgədə oturan Nəcəf ayağa qalxdı:

– Vəzirov mənəm, cənab direktor!

– Kitablarını buraya gətir.

Nəcəf heç bir şey başa düşmədən kitablarını İvan İvanoviçin qabağında skamyanın üstünə tökdü. İvan İvanoviç əlləri əsə-əsə kitabları yoxladı. Axtardığını tapmadığı üçün bir az daha da qəzəbləndi.

– Sonra, daha nə kimi kitabların var? – deyə soruşdu.

Nəcəf:

– Bütün dərs kitablarım bunlardır. Başqası yoxdur, cənab İvan İvanoviç!

İvan İvanoviç başını azca dala əydi və eynəyinin altından bərəlmiş xırda gözləri ilə Nəcəfi hirslə süzdü.

– Dərs kitablarından əlavə səndə başqa kitablar da varmı?

Nəcəf özünü itirmədən cavab verdi:

– Var, İvan İvanoviç.

İvan İvanoviç:

– Göstər, – dedi.

Nəcəf cibindən kiçik bir kitab çıxarıb ona verdi. İvan İvanoviç kitabı Nəcəfin əlindən hirslə alıb yoxladı. Qoqolun "Revizor"

komediyası idi. İvan İvanoviç əsəbi bir halda kitabın vərəqlərini çevirməyə başladı.

Gimnazistlər direktorun bütün hərəkətlərini böyük diqqətlə izləyirdilər. Sinfə dərin bir sükut çökmüşdü. Rus dili müəllimi də əllərini dalına qoyaraq bir kənarda durmuş və İvan İvanoviçin əsəbi hərəkətlərinə sakit tamaşa edirdi. İvan İvanoviç kitabı çox vərəqlədikdən sonra skamyanın üstünə atdı:

– Yenə varmı? – deyə təkrar soruşdu.

Nəcəf:

– Xeyr, daha yoxdur.

Nəcəfin ürəyi sakit idi. O bilirdi ki, məktəbə gətirdiyi kitablardan heç birisi qadağan edilmiş kitab deyildi, gimnazistlərdən kim isə direktora yalan məlumat vermişdi.

İvan İvanoviç cibindən təmiz, səliqə ilə bükülmüş güllü bir yaylıq çıxarıb alnını sildi və onu qəzəbindən əzişdirərək cibinə qoydu.

– Eşitdiyimə görə sən gimnazistə yaraşmayan kitablar oxuyursan və habelə onları gimnazistlərin arasında yayırsan.

Nəcəf bu xəbərin düzgün olmadığını söyləmək istədisə də direktor ona danışmağa imkan vermədi.

– Gimnazist bir dəfə bilməlidir ki, ona hər kitabı oxumağa icazə verilmir. Hər cür kitabı məktəbə gətirmək qadağandır. Gimnazist üçün müəyyən kitablar vardır, o ancaq bu kitabları da oxumalıdır.

İvan İvanoviç səsini getdikcə daha da ucaldırdı.

Sənə və bütün gimnazistlərə axırıncı dəfə tapşırıram ki, bir daha belə şeylər eşitsəm, sinfi bağlatdıracağam.

Nəcəf başını aşağı dikib susurdu. O, yalnız bir şey fikirləşirdi: onun hər gün kitab oxuduğunu direktora kim xəbər verə bilərdi? O çox fikirləşdikdən sonra bu qərara gəldi ki, bunu Mərdandan başqa heç kəs etməz. Yalnız Mərdan belə işlərlə məşğul ola bilərdi. Doğrudan da belə idi.

Sinifdə yerində oturub hamıdan çox narahat olan Mərdan idi. O, Nəcəfin kitabları içərisində İvan İvanoviçin qorxulu heç bir şey tapmamasından təşvişə düşmüşdü. Qorxurdu ki, yalan məlumat vermək üçün İvan İvanoviç onun özünü danlayacaq və beləliklə, bütün sinif onun xəbərçi olduğunu biləcəkdi.

İvan İvanoviç sözünü qurtardı və hirslə Nəcəfə dedi:

– Keç əyləş!

Mərdan rahat nəfəs aldı. Demək, İvan İvanoviç sinfin qabağında onu utandırmaq istəmirdi.

Nəcəf yenicə yerinə əyləşmişdi ki, zəng çalındı.

Haman gün Nəcəf məktəbdə başına gələn əhvalatı Vasiliyə nağıl etdi. Vasili onu dinləyib istehza ilə gülümsündü: "Çünki bu onların xeyrinə deyildir, – dedi, – onlar kitabda özlərini görürlər, öz eyiblərini görürlər. Axı o da çinovnikdir. Kitablardan ancaq bizim kimilər qorxmaz. Buna görə də biz kitabı sevirik. Sən mənim sözümə qulaq as. Oxu, nə qədər bilirsən çox oxu. İndi bəzi şeyləri başa düşməsən də, böyüyəndən sonra başa düşərsən".

Nəcəf Vasilinin gətirdiyi kitabları oxumaqda davam edirdi. Lakin İvan İvanoviçin hədəsindən sonra, onları özü ilə məktəbə apara bilmirdi. İşdən tez çıxdığı vaxtlarda xalasının səliqə ilə saxladığı kürsüyə oturur və böyük həvəslə oxuyurdu. Bəzən körpüdə işin arasında da oxumağa vaxt tapırdı.

* * *

Qış qurtarırdı. İrandan portağal daşıyan gəmilərin arası kəsilmişdi. Buna görə də Vasili ilə Nəcəfə elə bir gündə xəbər verdilər ki, mal gəlmədiyi üçün işdən azad olunurlar. Vasilidən ayrılmaq Nəcəfə ağır gəlirdi. Onun söylədiyi əfsanəvi nağılları, xüsusilə gətirdiyi gözəl kitabları Nəcəfi özünə valeh etmişdi. Lakin çarə yox idi. Onlar istər-istəməz ayrılmalı idilər. Vasili ondan ayrılarkən kədərlə dedi: "Eybi yoxdur, həyat yolları çox dolaşıqdır. Biz bu dolaşıq yollarda tez-tez görüşərik".

Vasilidən ayrılması Nəcəfi çox sıxırdı. Sanki o bütün təsəlli və arzulardan məhrum olmuşdu. Eh kitablar, kitablar! Siz ki əsil həyatsınız.

Nəcəfə o vaxtadək elə gəlirdi ki, Vasilinin kitablarından məktəbin kitabxanasında tapmaq olmaz, səliqə ilə dolablara düzülmüş təmiz cildli, bəzən heç oxunmamış olan kitablar içərisində belə kitablar haradan ola bilər? Bir də əgər beləleri olmuş olsaydı, əldən-ələ gəzər, çox oxunmaqdan Vasilinin kitabları kimi yıpranmış olardı. Lakin Nəcəf məktəb kitabxanasına yaxından bələd olduğu zaman, burada hər cür kitaba rast gəldi. Vasilidən alıb oxumuş olduğu kitablardan da burada var idi. Ancaq fərq orasında idi ki, bu kitablar

təmiz və səliqəli qalmışdı. Lakin Vasilinin kitablarını unutmaq mümkün idimi?..

Yox, heç zaman. Məgər həyatı o ilk dəfə Vasilinin gətirdiyi kitablardan öyrənməmişdimi? Yıpranmış vərəqlərdə çox oxunmaqdan silinib pozulmuş sətirlərdə gizlənmiş mənalar onun gözünü açmış, insanları ona tanıtmışdı. Buna görə də Nəcəf bir uşaq sadəliyi ilə belə düşünürdü ki, məhz əldən-ələ gəzmiş, köhnəlmiş, sətirləri az qala pozulmuş kitabları insan daha böyük həvəslə oxuyur, ona qapılır.

Dərs ilinin axırı yaxınlaşdığı üçün müəllimlər Mərdanı çox sıxışdırırdılar. O, bir neçə dərsdən "2" qiymət almışdı. Coğrafiya müəllimi də Mərdana axırıncı dəfə xəbərdarlıq etmişdi ki, bu biliklə 3-cü sinfə keçə bilməyəcəkdir. Mərdan qəmgin və pərişan idi. Dərs günü müddətində heç kəslə danışmır və tənəffüslərdə tək-tənha koridorda gəzirdi. Onun bu vəziyyətinə Nəcəfin ürəyi yanırdı.

Bir gün axşamdan xeyli ötmüş, Mərdanın anası Afərinin yanına gəldi. İbrahim evdə deyildi. Nəcəf isə lampanın zəif işığında yazı yazmaqla məşğuldu. Mərdanın anası Afərinlə xeyli danışdı. Nəcəf onların söhbətinə diqqətlə qulaq asırdı. Mərdanın anası xahiş edirdi ki, Nəcəf Mərdana kömək etsin, dərslərini bir yerdə öyrənsinlər. Afərin Mərdanın anasını axıracan dinləyib dedi:

– Arxayın ol, Nəcəf əlindən gələn köməyi edər.

Nəcəf xalasının belə cavab verəcəyini əvvəlcədən bilirdi. Axı o heç kəsi boş yola salmağa öyrəşməmişdi. Hamını razı salmaq, əlindən gələn yaxşılığı etmək onun adəti idi. Afərin Nəcəfə müraciət etdi. Nəcəf xalasının həmişə ona müraciət edərkən gözlərində cilvələnən mərhəmət duyğusu ilə yenə üz-üzə gəldi. Onun bütün pak və xeyirxah duyğularına ehtiram edən Nəcəf indi də bir pərəstişkar kimi gözlərini yerə dikdi və astadan dedi:

– Baş üstə, bacardığım köməyi edərəm.

Afərin incə bir təbəssümlə Mərdanın anasına tərəf döndü. Lakin heç bir söz demədi. Bu dilsiz hərəkəti ancaq Nəcəf başa düşdü. Afərin Nəcəfə bağladığı ümidlərin saçdığı rayihələrdən sərxoş olmuşdu.

Ertəsi gün səhər Nəcəf məktəb pilləkənlərini qalxarkən Mərdana rast gəldi. Mərdan salam vermədən, onun yanından ötüb aşağı enmək istəyirdi ki, Nəcəf onu saxladı:

– Dünən anan bizə gəlmişdi, – dedi.

Mərdan başını aşağı dikib cavab vermədi.

Nəcəf:

– Eybi yoxdur, – dedi. – Mən sənin etdiklərinin hamısını ürəyimdən silib atıram, hətta oxuduğum kitablar haqqında sənin direktora xəbər verməyini də bağışlayıram.

Mərdan başını qaldırıb bərəlmiş gözlərilə Nəcəfə baxdı və onun dediklərini inkar etmək istədi. Lakin Nəcəf ona macal vermədi:

– Nahaq yerə boynundan atmaq istəyirsən, mən hər şeydən xəbərdaram.

Mərdan pörtmüş halda yenə başını aşağı dikdi.

Nəcəf:

– Yaxşı, axşam bizə gəl, – dedi və pilləkənlərlə cəld yuxarı qalxdı.

O gündən Nəcəf Mərdanla məşğul olmağa başladı. Dərs ilinin axırına cəmi ay yarım qalmışdı. Nəcəfin böyük səyi nəticəsində Mərdan qısa müddətdə bütün dərslərdən "3" qiymətlə imtahan verib üçüncü sinfə keçdi.

* * *

Həsən bəy Məlikovun köməyi ilə Nəcəf bir ildən sonra hökumət xərcinə olaraq məktəbin pansionuna qəbul edildi. İndi Nəcəf bir sıra xərclərdən azad olmuşdu. Həftədə bir dəfə xalasını gedib yoxlayırdı. Bütün boş vaxtlarını isə məktəbin geniş qiraətxanasında keçirirdi.

Pansionda onun Rəhim adlı yaxın bir yoldaşı var idi. Yataqxanada onların çarpayıları da yanaşı qoyulmuşdu. Bütün günü birlikdə keçirirdilər. Nəcəf bazar günləri xalasının yanına gedəndə də Rəhim ilə bərabər gedirdi. Rəhim Nəcəflə yaşıd idi. Atası Şamaxıda müəllimliklə məşğuldu. Evdən tez-tez məktub alırdı. Hər iki aydan bir evdən aldığı kiçik sovqatı Nəcəflə bərabər bölüşdürürdü.

Onlar axşamdan xeyli ötmüşə qədər yerlərində uzanaraq kitab oxuyardılar. Yataqxana növbətçisi qoca Mkrtıç onların əlindən zara gəlmişdi. "Yenə oxuyursunuz, bala, bu qədər oxumağın zərəri var?" – deyə hər dəfə narazılıqla deyinər və çırağı keçirərdi.

Bir gün dərsdən sonra Nəcəf və Rəhim şəhər bağına gəzintiyə çıxmışdılar. Payız fəsli idi. Ağaclar yarpaqlarını tökmüşdülər. Bağın xiyabanına döşənmiş sarı yarpaqlar Nəcəf və Rəhimin ayaqları altında

xışıldayırdı. Ağacların dibindən rütubət qoxusu qalxırdı. Onlar xeyli müddət gəzişdikdən sonra, bağın ağ daşdan tikilmiş geniş qapılarından küçəyə çıxdılar. Onlar qapıdan azca aralanmışdılar ki, bir səs eşidildi:

– Nəcəf!

Geriyə baxdılar. Qapı ağzında durub əlində bir yığın köhnə kitab tutmuş saqqallı rusdan başqa küçədə heç kəs yox idi. Onlar təkrar yollarına davam etmək istəyirdilər ki, səs yenə eşidildi.

– Nəcəf, məni tanımadın?

Onları çağıran saqqallı rus idi. Nəcəf və Rəhim onun yanına gəldilər. Nəcəf diqqətlə baxdı. O isə sakit durub gülümsəyirdi. Nəcəf bərkdən "Vasili" deyə qışqırdı.

Vasili başını buladı:

– Eh, – dedi, – tanımadın, mən isə dərhal tanıdım.

Nəcəfin sevincinin həddi yoxdu. Elə bil ən yaxın istəkli adamına rast gəlmişdi.

– Vasili, qocalmışsan, – dedi, – ona görə tanımadım, az müddətdə də adam bu qədər dəyişərmi?

Vasili başına gələn əhvalatı danışdı. O, üç aya qədər xəstə olmuşdu; başına çox bəlalar gəlmiş, günlərlə ac və susuz qalmışdı. Nəcəf ona qulaq asdıqca, içərisində əmələ gələn bir ağrı onu üzürdü. Vasili pis günlərində də kitabdan əl çəkməmişdi. Ağır həyat yollarında kitablar hər saat, hər dəqiqə onu müşayiət etmiş, ona təsəlli olmuşdu.

– Bunlar olmasa idi, mən bəlkə də, həyatla vidalaşacaqdım, – deyə Vasili kədərlə səsləndi, – mən ancaq onlarla tənəffüs etmişəm.

Nəcəf Vasilinin əlindəki kitablara baxdı.

Vərəqələri pərakəndə halda olan bu köhnəlmiş kitabların çoxusu indi ona tanış idi. Bunların bəzisini hələ Vasili ilə birlikdə körpüdə işlədiyi zaman, bəzilərini isə məktəbin kitabxanasında oxumuşdu. Ancaq köhnə bir dost kimi onlarla görüşmək nə qədər fərəhli idi! Nəcəf onları nəzərdən keçirdikdə, körpüdəki günlərini xatırladı. Budur, ağır yük altında ikiqat olmuş tanış sifətlər, suyun üzərində yırğalanan türkman gəmiləri elə bil kitabın səhifələrində təzədən canlanır, soyuq xəzri küləyinin vıyıltısı eşidilirdi. Nəcəf kitabların içərisindən oxumamış olduğu bir pyesi seçib ayırdı:

– Vasili, – dedi, – bu yaxşı kitabdırmı?

Vasili:

– Yaxşıdır, yaxşıdır, apar oxu, sonra qaytararsan, mən həmişə burada oluram.

Nəcəf kitabı fərəhlə qoltuğuna vurdu. O çoxdan bəri həsrət qaldığı kitablara yenə qovuşmuşdu.

Nəcəf və Rəhim Vasilidən ayrıldıqda qaş qaralmışdı. Küçəyə ağ duman çökmüş, çiskin səpələyirdi.

Nəcəf və Rəhim elə o gecə Vasilinin kitablarını oxudular. Çırağı söndürdükləri zaman gecə saat 12-dən ötmüşdü.

Xeyli vaxt gözlərinə yuxu getmədi. Yoldaşlarına mane olmamaq üçün ahəstədən söhbət edirdilər. Nəcəf deyirdi: "Çox təəssüf ki, bizdə belə pyeslər yoxdur. Pyes mənə hər şeydən yaxşı gəlir, romanlar çox uzun olur. Bəzən də insan onlara inanmır. Pyesdə isə, elə bil, hər şeyi görür və eşidirsən".

Rəhim onun sözlərini təsdiq etdi. O, Nəcəfi dinlərkən, bəzən elə bil, öz qəlbinin səsini eşidirdi. Onların həyata, mühitə və şeylərə olan münasibətlərində də bir eynilik və yaxınlıq var idi. Gimnaziya müəllimləri haqqında onların tez-tez söhbətləri olardı. Bir müəllim haqqında danışarkən axırda hər ikisi eyni nəticəyə gəlib çıxardı. Məsələn, gimnaziyanın təbiət müəllimi Həsən bəy Məlikov hər ikisi üçün müqəddəs və nəcib bir şəxsiyyət idi. Onun xeyirxah niyyətləri, xalqının səadəti yolundakı fədakar səy hər iki gəncin ürəyində silinməz iz buraxmışdı. Elə bu gecə söhbət yenə Həsən bəyin üzərinə gəlib çıxdı. Nəcəf köksünü dərindən ötürüb dedi:

– Mən yazıçı olmağa çalışacağam, məhz belə adamları xalqa tanıtdırmaq üçün yazıçı olacağam. Vasilinin kitablarındakı xeyirxah adamları görərkən, öz-özümə deyirəm, məgər bizdə belə adamlar azdır? Əlbəttə yox, ancaq onları heç kəs tanımır. Çünki onları tanıtdıran adam yoxdur. Belə halda isə onlara heç kəs qiymət vermir.

Rəhim:

– Elədir, elədir, – dedi, – ancaq bu işə çoxlu səy və zəhmət lazımdır.

Nəcəf:

– Əlbəttə, elədir, – dedi. – Bizi daha çətin və ağır günlər gözləyir, ancaq biz hər cür əziyyətə tab gətirməliyik.

Onlar qaranlıq otaqda gecədən xeyli ötənədək söhbət etdilər.

* * *

Fayton axırıncı gədiyi dönürdü. Atlar lap taqətdən düşmüşdü. İrəlidə qırmızı kirəmit damlı ağ evlər artıq görünməyə başlamışdı. Qalaya[1] on beş dəqiqəlik yol qalırdı. Yol qısaldıqca, Nəcəfin ürəyi quş kimi çırpınır, səbri tükənirdi. O, iki il idi ki, Şuşadan, doğma evlərindən çıxmışdı. Bu müddətdə evlərindən tez-tez məktub alırdısa da, daxilən rahat ola bilmirdi. Elə bil evlərində nə isə bir bədbəxtlik üz vermişdi, lakin ondan gizlədirdilər. O hər şeydən çox xəstə atasından nigaran idi. Bəlkə də onun başına bir şey gəlmişdir. Bunları fikirləşdikcə, Nəcəfin qəlbi sıxılır, evə tez çatmaq istəyirdi. Atlar isə elə bil onun arzusu əleyhinə olaraq, sürətlərini daha da azaldırdılar.

Budur, onlar tamamilə durdular. Faytonçu qamçını şaqqıldatdı, atlar isə yerindən tərpənmirdilər. Qəzəblənən faytonçu yerə endi və hər iki atın cilovundan möhkəm yapışaraq, qıçlarına bir-birinin dalınca üç qamçı endirdi. Atlar irəliyə tərəf dartındı, fayton yerindən tərpəndi. Faytonçu isə atların yanı ilə bir qədər piyada getdikdən sonra, təkrar faytona atıldı. Gün batmaq üzrə idi. O indi çox aşağıda qalmış yamaclardan son şüalarını toplayaraq, qan rənginə bulaşmış mavi pərdələr dalında qərq olurdu. Günəş gözdən itincə Qala tərəfdən sərin bir meh əsməyə başladı. Biçilmiş ot qoxusu havanı doldurdu.

Fayton şəhərə girdiyi zaman şər qarışmışdı. Çayçı dükanlarının qabağından asılmış çıraqların bəzisi yandırılmışdı. Şuşa! İki il tozlu, küləkli Bakıda üzünə həsrət qaldığı doğma şəhər, Nəcəfi axşamın xoş, sərin mehi ilə qarşılayırdı. O, faytondan yerə düşdü və dərindən nəfəs aldı. Sinəsi saf, dağ havası ilə qabardı. Küçələrdə qələbəlik idi. Bu il görünür yaylağa gələn çox idi. Nəcəf Xanqızı bulağının yanından dik yuxarı qalxdı. Adam boyu hündürlükdə böyürtkən kolluqları bitmiş dar cığırla yoxuşu qalxıb, susuz çeşməyə çatdıqda ayaq saxladı. Buradan evləri aydın görünürdü, onun hündür taxtapüştü, əvvəlki kimi öz heybətli görünüşü ilə irəlidə qaralırdı. Aynabənddə lampa yandırılmışdı. Nəcəf artıq dura bilmədi. Sürətlə yoluna davam etdi. Evlərinə çatdıqda həyət qapısını açıq gördü. Taxta pilləkənləri ürək döyüntüsü ilə qalxıb aynabəndə girdiyi zaman, heç kəsi görmədi. Evə kədərli bir sükut çökmüşdü. Çıraq sürahinin

[1] Şuşa şəhərinin əsil adı Şuşa qalasıdır. Xalq arasında şəhərə adətən "Qala" deyirlər.

qırağında tüstülənirdi. Otağa girdikdə atasını gördü. Yenə də yorğan-döşəkdə idi. Hövlnak hisslərini, elə bil, sərin bir meh oxşadı, ürəyi sakitləşdi, demək, atası sağ-salamat idi. Atası işığın qabağını kəsən bu adamın kim olduğunu bilmək üçün əlini gözünün üstünə qoyub baxdı, lakin heç bir şey görə bilmədi. Nəcəf özünü saxlaya bilmədi:

– Ata, mənəm, Nəcəfəm! – dedi.

Atası yerindən qalxmağa təşəbbüs etdi, lakin bacarmadı.

– Nəcəf, oğlum! – deyə səsi titrədi.

Nəcəf atasının yanına gedib onu qucaqladı. Alnından, üzündən öpdü. Atası Nəcəfin başını iki ovucu arasına alıb diqqətlə baxdı, heç bir söz deyə bilmədi. Boğazı qəhərlənmişdi. Göz yaşı ixtiyarsız olaraq tökülürdü. İki il ərzində Nəcəf çox dəyişmişdi, boy atmış, cılız bədəni qana-cana gəlmişdi, danışığında da bir qəribəlik hiss olunurdu.

Nəcəf anasını soruşdu.

Atası:

– Qonşu üçün çörək yapır, – dedi, – bu saat gələr. Eh, oğul, bizim işimiz tək Allaha qalıbdır, elə sən gedəndən şil-zəliləm, ayaqlarımı tərpədə bilmirəm, yataqda düşüb qalmışam, yenə yaxşıdır, anan varmış, yoxsa günlərlə qapımız bağlı qalardı.

Atası çox zəifləşmişdi. Nəcəfə elə gəldi ki, iki il müddətində atası on yaş qocalmışdır. Onun saçı tamam ağarmış, hətta həmişə şəvə kimi qara olan bığlarına da indi dən düşmüşdü.

Nəcəf anası gələnədək paltarını soyunub, toz basmış üzünü, əllərini yudu. Sonra atasının yanında əyləşib səbirsizliklə anasının yolunu gözlədi. Anasının gəlməsi uzun çəkmədi. Onun taxta başmaqları pilləkənlərdə eşidilərkən, Nəcəf özünü aynabəndə saldı və qapının ağzında onun boynuna sarıldı. Arvad sevincindən özünü itirdi və əlindəki güvəci salıb sındırdı: "Oğul, – dedi, – yoluna qurban olum nə vaxt gəldin ki, mən canı çıxmış bilmədim".

Nəcəf anasının ətəyindən yapışıb onu içəri dartdı. O isə ətəyini üzünə tutub ağlayırdı:

– Bəsdir, kifayətdir, ana, ağlama, – deyə Nəcəf ona təsəlli verir və ağarmış saçlarını oxşayırdı. Anası gözünün yaşını silib, Nəcəfi təkrar bağrına basdı, onu duz kimi yalamağa başladı. Xəstə atası da ana və balanın bu görüşünə baxır, baxdıqca sevinirdi.

Gecədən xeyli ötmüşdü. Nəcəfgilin çırağı hələ də yanırdı. Anası süfrəyə təzə isti çörək, motal pendiri qoymuşdu. Nəcəf iştaha ilə yeyir və Bakıda keçirdiyi ağır günlərindən, Afərin xalasının ona etdiyi

yaxşılıqlardan uzun-uzadı danışırdı. Ata və ana isə gözlərini evlərinin neməti olan Nəcəfə həsrətlə dikərək, onun söhbətinə böyük maraqla qulaq asırdılar.

Gecədən xeyli keçdiyi və yorğun olduğu üçün Nəcəfin gözləri qeyri-ixtiyarı örtülməyə başladı. Anası onun üçün aynabənddə yer saldı. Nəcəf sərin havada yorğanı üstünə çəkərək uzandı... Ay Şuşanın üstündə bədrlənmiş halda durmuşdu. Onun süd kimi ağ şüaları şəhərin küçələrini, evlərini... nura qərq eləmişdi. Qala yatmışdı. Həyətlərdə itlər hürüşürdülər. Min bir gecə nağılları kimi, əfsanəvi görünən bu gecədə Nəcəf özünü ən xoşbəxt hesab edirdi. O, doğma evlərində idi, anasının şəfqət hissləri ilə isinirdi.

* * *

Nəcəfin gəldiyini məhəllədə hamıdan qabaq, qonşuları Muradın oğlu Əliqulu xəbər tutmuşdu. Nəcəf səhər yerindən qalxarkən həyətdə, uçuq hasarın üstündə bir nəfərin oturduğunu gördü. Bu, Əliqulu idi. Onun əynində rəngi solmuş güllü parçadan köynək var idi. Ayağı yalın idi. Göy şalvarı dizləri bərabərində cırılmış və dizləri bayıra çıxmışdı. O, Nəcəfi görən kimi gülümsədi. Nəcəf onu yuxarı çağırdı, Əliqulu boyun qaçırtdı: "Burada səni gözləyirəm", – dedi və armud ağacının altında, göy otların üstündə uzandı. Nəcəf nahar edib aşağı endikdə, Əliqulu yerindən sıçrayıb onu qabaqladı və əlini möhkəm sıxdı, sonra onlar möhkəm qucaqlaşdılar, ancaq öpüşmədilər.

Əliqulu Nəcəfin ən yaxın yoldaşlarından idi. Onlar hələ kiçik yaşlarından dostlaşmış, bir yerdə böyümüşdülər. Onların həyətlərini alçaq daş bir hasar ikiyə bölmüşdü. Bu hasarın bir tərəfi tamamilə uçulmuşdu. Bura uşaqlar üçün daimi əyləncə yeri idi. Səhər gün çıxandan, gün batanadək uşaqlar uçulmuş hasarın daşları arasında oynar, ev tikər, palçıqdan oyuncaq düzəldərdilər. Əliqulu sakit və dinc idi. O çox az danışardı. O, küçə və yaxud bazarla gedərkən, başını aşağı dikər və həmişə fikirli görünərdi. Yoldaşları onu bu hərəkətindən ötəri "dəli Əliqulu" deyə çağırardılar. Əliqulunun həddindən artıq iri, qara gözləri var idi. Əliqulunun atası yoxsul bir kişi idi. Ömrünün 40 ildən çoxunu bənnalıqla keçirmişdi. Şəhərdə elə bir ev tapmaq olmazdı ki, onun üstündə Murad kişinin əli gəzməmiş olsun. O, səhərdən axşamadək yorulmaq bilmədən işlər və

öhdəsində olan böyük ailəni bir qarın ac, bir qarın tox dolandırardı. Onun iki böyük oğlu lap kiçik yaşlarında ikən ölmüşdü, indi ailədə Əliqulu böyük oğul hesab olunurdu. Bir il bundan qabaq Murad kişi rəhmətə getdiyi üçün, ailənin bütün ağırlığı Əliqulunun üstünə düşmüşdü. Yaxın qohumlarından birisi onu... bəzzaz[1] yanında xidmətə düzəltmişdi.

Bəzzazın verdiyi qəpik-quruşla böyük ailə çətinliklə dolanırdı. Evin bütün şeylərini satıb-sovmuşdular. Nəcəf Əliqulunun gözlərinə baxarkən, orada əvvəlki uşaq qayğısızlığından heç bir əsər görmədi. Onun üzünə elə bil qayğı və kədər tozu qonmuşdu. Gözlərində yorğunluq və üzüntü var idi.

– Sənin gəlməyini, dünən kiçik qardaşım mənə xəbər verdi, – deyə Əliqulu əlini Nəcəfin çiyninə qoyub sözə başladı. – Dünən axşam gələrkən səni görmüşdür. Bu gün bekaram, dükan-bazar bağlıdır. Ona görə səhər tezdən səni görməyə gəldim.

Onlar armud ağacının şaxəli kölgəsində oturub, xeyli söhbət etdilər. Əliqulu danışdıqca, Nəcəf onun halına acıyırdı. Xüsusilə onun tez-tez Nəcəfin üst-başına baxıb dərindən ah çəkdiyini gördükdə, içəridən nələr çəkdiyini ürəkyanğısı ilə hiss edirdi. Əliqulunun öhdəsinə böyük bir külfət düşmüşdü. Hamısı da körpə idi. Birdən-birə ürəyinə çökən bu ağırlığa onun nə cür davam gətirə biləcəyini Nəcəf təsəvvür edə bilmirdi.

Nəcəf Şuşada tətildə olduğu müddətdə Əliqulu ilə çox az-az görüşürdü. Çünki Əliqulu yalnız bazar günləri bekar olurdu. Bəzi vaxtlarda isə bazar günü də görünmürdü. Anasının dediyinə görə, qışa taxıl tədarükü görmək üçün yaxın kəndlərə gedirdi.

Bir dəfə cümə günü Nəcəf səhər tezdən bazara gedirdi. Misgər dükanlarının qabağından keçərkən, tanış bir səs eşitdi. Geriyə baxdı. Əliqulu idi.

– İndicə sənin yanına gəlmək istəyirdim, – dedi, – gəl, gedək Cıdır düzündə bir az gəzək.

Nəcəf razı oldu. Onlar Cıdır düzünə qalxdılar. Orada özlərindən başqa heç kəs yox idi. Əliqulu qayalıqlardan birisinin üstündə oturdu və aşağıda gümüş şərid kimi uzanan çayın gurultulu səsinə qulaq asırmış kimi, gözünü bir nöqtəyə dikdi.

Onlar susmuşdular. Əliqulu elə bil sifətini Nəcəfdən gizlətməyə çalışaraq, yan tərəfə baxırdı. Əliqulunun belə susub oturması Nəcəfi

---

[1] Bəzzaz – arşın malı satan

təəccübləndirdi, əgər belə qaradinməz oturub susacaqdısa, daha Nəcəfi bura çağırmanın nə mənası vardı?

Nəcəf, ürəyindən keçirdiyi bu dolaşıq suallar içərisində əlini ahəstədən Əliqulunun çiyninə qoydu.

– Sənə nə olmuşdur? – deyə soruşdu.

Əliqulu cavab vermədi. Nəcəf əyilib onun üzünə baxdı. Gözləri yaşarmışdı. Bayaqdan bəri Əliqulunun üzünü yana çevirib oturmasının səbəbini ancaq indi başa düşdü. Dərd ona üz vermişdi. Lakin həmişəki kimi az danışmağı sevdiyindən, indi də dərdini ancaq göz yaşları ilə bildirirdi.

– Axı nə olmuşdur, evinizdə nə var? – deyə Nəcəf təkrar soruşdu.

– Heç bir şey... – Əliqulu sözünü tamamlaya bilmədi, boğazı qəhərləndi.

Nəcəf artıq öz sualları ilə onu narahat etmək istəmədi. O daha da kövrələ bilərdi. Hər ikisi susmuşdu. Uzaqdan baxan olsaydı, onları küsülü hesab edərdi. Əslində isə onların ürəkləri elə bu dəqiqələrdə bir-birinə daha mehriban, daha yaxın idi.

– Mən də arada sənin kimi evdən qaçmaq istədim. Dedim baş götürüb bir tərəfə gedərəm... ancaq hara gedəydim, bəs qardaşlarımı kimin yanında qoyaydım? Onların günahı nədir?.. Mən çıxıb getsəydim, onlar acından qırılmazdılarmı?

Əliqulu danışdıqca daha da kövrəlirdi.

Göyün üzünü qara buludlar bürüməyə başladı. Qarşıdakı meşəli dağdan qopan soyuq külək əynində təkcə nazik bir köynək olan Nəcəfi üşütdü və o, evə dönmək üçün bir bəhanə axtardı.

– Deyəsən yağış tökəcəkdir?

Əliqulu göyə baxdı, qara buludlar doğrudan da qəlizləşirdi.

– Elədir, səpələyəcək, – dedi, – gedək.

Onlar evə qayıtdılar.

Yolda Əliqulu Nəcəfdən soruşdu:

– Sən yenə Bakıya qayıdacaqsanmı?

Əliqulu Nəcəfin yay tətilinə gəldiyini, payızda isə təkrar Bakıya qayıdacağını bilirdi. Buna görə də onun bu sualı nə məqsədlə verdiyini Nəcəf başa düşmədi.

– Əlbəttə, gedəcəyəm, hələ beş il də oxumalıyam.

Əliqulu köksünü ötürdü:

– Eh, – dedi, – sən heç olmazsa, baş götürüb gedirsən, dərslərlə başın qarışacaq, gözün görməyəcək, ürəyin bulanmayacaqdır.

Əliqulu bu sözlərlə Nəcəfgilin ailəsinə işarə edirdi, o, Nəcəfgilin də pis yaşadığını yaxşı bilirdi. Lakin Əliqulu, Nəcəfin ürəyindəkiləri görə və duya bilsəydi... Nəcəf uzaqda olsa da, doğma evləri, anası, xəstə atası bir dəqiqə də olsun xəyalından silinmirdi, həyat dərdi içəridən onu üzür, ümid və yaşamaq ehtirası isə onu gələcək üçün yaşadırdı.

– Eybi yoxdur, dözərik, – deyə Nəcəf Əliquluya təsəlli vermək istədi, – görünür, bizim də taleyimiz əzəldən belə yazılıb, insan bərkdə-boşda möhkəmlənməlidir. Nə edə bilərik. Hələlik hər şeylə razılaşmalıyıq. Külfətinizin sənin üstünə düşməsindən narazısanmı?

Əliqulu:

– Narazı niyə olum?! Mən olmasaydım, onların vəziyyəti daha pis olardı. Özün bilirsən ki, anam xəstədir, o bu böyük külfəti heç zaman dolandıra bilməyəcəkdir.

– Elədir, hamımızın dərdi elə birdir, kasıblar bir-birinə oxşayırlar, hamı ac və paltarsızdır. Elə bil hamı bir atadan, bir anadan olubdur.

Yağış səpələməyə başlamışdı, onlar sürətlərini artırdılar.

– Yağış da kasıbın düşmənidir, – deyə Əliqulu qaşlarını çatdı, – mən hər şeydən daha çox yağışdan qorxuram, evimiz bərk damır, güclü bir yağış gəlsə, evi uçurda bilər.

Onlar evə qayıtdıqları zaman hər ikisinin köynəyi tamamilə islanmışdı. Əliqulu xudahafizləşib ayrıldı. O, bir neçə addım getməmişdi ki, döngədən qonşu uşaqlarından birisinin səsi eşidildi: "Dəli Əliquluya bax, yağışın altında elə bil çimibdir". Əliqulu isə ona etina etməyib həyət qapılarından içəri girdi. Bu söz Nəcəfin ürəyinə toxundu: "Nə üçün ona dəli deyirlər. Əgər onun qəlbinə bələd olsaydılar, onu təhqir etməzdilər, onun dərdi bizim dərdimizdən çox böyükdür. O çox şeyləri də bizdən yaxşı başa düşür. Həyat vaxtından qabaq onu qeydkeşlik daşı ilə yüklədiyindən, üzü gülməmiş, həmişə qüssəli, fikirli olmuşdur".

Axşamüstü bərk dolu düşdü, bir az sonra isə şiddətli yağış tökməyə başladı. Küçədən, iri döşəmə daşlarının üstündən sel axırdı. Nəcəf aynabəndin axşam qaranlığı ilə torlanan şüşələrindən bayıra baxırdı. Göyün üzü bütöv bir pərdəyə oxşayırdı. Şuşa üzərində tez-tez şığıyan şimşək hər tərəfi ani, qorxunc bir aydınlığa qərq edir və yenə axşam qaranlığı içərisində əriyirdi. Onun dalısınca eşidilən göy gurultusu isə elə səslənirdi ki, sanki göy indicə uçulacaqdır. Şuşanın bu təbiətinə öyrənmiş olan əhali ertədən evlərinə çəkilmişdi.

Nəcəf isə Şuşa təbiətinin bu dəliliyinə uşaqlıqdan valeh idi. Xüsusilə yay aylarında yağışdan sonrakı rəngarəng göy qurşağına tamaşadan heç doymazdı.

Yağış ara vermirdi. Ertədən Əliqulunun dediyi sözlər indi Nəcəfin zehnində qorxunc bir əks-səda kimi səslənirdi: "Güclü bir yağış gəlsə, evi uçurda bilər". Bəlkə də evləri artıq uçulmuşdur, bəs onlar necə olmuşlar, bundan sonra beş nəfər külfətlə Əliqulu necə edəcəkdir? Harada qalacaq? Kim onlara kömək edəcək? Bu fikirlər, bir dəqiqə də olsa, Nəcəfi rahat buraxmırdı. Əgər atasıgilin imkanı olsaydı, Nəcəf Əliquluya kömək etmək üçün heç bir şeyi əsirgəməzdi, lakin bu vəziyyətdə Əliquluya necə kömək edə bilərdilər? Xüsusilə Nəcəfin Bakıda olduğu iki il içərisində atası var-yoxdan çıxmışdı. Nəcəf tətil zamanı bunun şahidi oldu. Həmişə buxarının yanında divardan asılı olan xalının yeri indi boş idi. Nənəsindən yadigar olan bu əlvan xalı, atasının cavanlıq dövründən saxladığı gümüşlü yəhər satılıb, xəstə atasına xərc edilmişdi. Lakin ehtiyacın ağzı bununla bağlansaydı, dərd yarı idi, kim bilir, irəlidə daha nə kimi bəlalar onları gözləyirdi. Bütün bunlar Nəcəfi düşündürür və atasına kömək etmək üçün yollar axtarmağa sövq edirdi.

Nəcəf tətildə olduğu müddətdə anasına çox kömək etdi. O, gündüzlər meşədən odun qırıb gətirir, çırpı toplayır, qışa tədarük üçün anasına hər cür kömək edirdi. Axşamlar isə armud ağacının altında fənər işığında oturub kitab oxumaqla məşğul olurdu... Günlər gəlib-keçdi. Payızın ilk günlərindən birisində Nəcəf Şuşadan ayrıldı. Səhər tezdən onunla görüşməyə gəlmiş Əliqulu Nəcəfi yola saldıqdan sonra, gözləri yaşarmış halda xeyli müddət durub onun dalısınca baxdı. Onun ümidi də, elə bil, Nəcəflə ayrılıb gedirdi.

* * *

Nəcəf Bakıya çatdığı zaman dərslərin başlanmasına hələ bir neçə gün qalmışdı. Lakin, məktəbin geniş koridoru hər gün gimnazistlərlə dolu olurdu. Xüsusilə təzə qəbul olunmaq üçün gələnlər daha çoxdu. İkinci gün Nəcəf müəllimlərdən də bir neçəsini gördü. Həsən bəy isə hələ yaylaqdan qayıtmamışdı, tezliklə gələcəyini söyləyirdilər. Ertəsi günü o, doğrudan da gəlib çıxdı. Bütün gimnazistlərin sevimlisi olan Həsən bəy hamı ilə mehribancasına görüşdü. Nəcəfi gördükdə isə əlini onun çiyninə qoydu.

– Hə, tətili Şuşada necə keçirdin? – deyə soruşdu.

Nəcəf Şuşada keçirdiyi günləri ətraflı surətdə müəlliminə təsvir etməyə başladı. Atasının xəstəliyindən, anasının bütün günü işləyərək evi saxladığından və sairədən danışdıqca, Həsən bəy Nəcəflə yanaşı olaraq ağır addımlarla koridorda gəzişir və öz yetişdirməsinin söylədiklərinə diqqətlə qulaq asırdı. Onun həmişə xoş təbəssümlü sifəti ciddi bir tövr almış, qaşları çatılmışdı.

Nəcəf sözünü qurtardıqda, Həsən bəy koridorun ortasında ayaq saxladı və hər iki əlilə Nəcəfin çiyinlərindən tutaraq dedi:

– Daha sən onlara kömək edə bilərsən. Bu ildən öz övladlıq borcunu ödəmək sənə vacibdir.

Gimnazistlərdən birisi direktorun Həsən bəyi çağırdığını söylədi.

– Hə, başa düşdünmü, – deyə Həsən bəy elə bil təkidlə Nəcəfdən soruşdu.

– Başa düşdüm.

Həsən bəy ayrılıb direktorun kabinetinə tərəf getdi. Nəcəf isə hələ də fikirli halda yerində durmuşdu: "Nə cür, hansı yol ilə kömək etmək?" Bu sualı verməyə Nəcəf macal tapmadı.

Aradan bir az keçməmişdi ki, Həsən bəy bir gün dərsdən sonra Nəcəfi yanına çağırdı və onun fikirləşdiyi sualına özü cavab verdi:

– Sənin üçün dərsdən sonra yüngül bir iş tapılmışdır. Qubernatorun tərcümanı Camal bəyin qızına hesabdan kömək etmək lazımdır. Hər gün iki saat onunla məşğul olarsan.

Həsən bəy Camal bəyin mənzil ünvanını yazıb Nəcəfə verdi və əlavə olaraq tapşırdı ki, alacağı haqdan çox qismini Şuşaya, evlərinə göndərsin.

Ertəsi gün Nəcəf dərsdən sonra Camal bəyin mənzilini axtarıb tapdı. Qapını açan 11-12 yaşlarında bir qız idi. Nəcəf Camal bəyin evdə olub-olmamasını soruşdu. Qız içəri getdi və bir azdan sonra əyninə xara jilet geymiş orta yaşlarında bir kişi gəldi.

– Kimi istəyirsən?

Nəcəf, Həsən bəy Məlikov tərəfindən göndərildiyini bildirdi.

Kişi:

– Aha, çox yaxşı, içəri gəl, – deyə onu xoşhallıqla qarşıladı. Bu adam Camal bəy özü idi.

Nəcəf içəri girdi. Kişi dəhlizdən iri işıqlı salona keçərək qapıda durmuş qıza:

– Qızım, budur, hesab müəllimi gəldi.

Qız Nəcəfə baxdı və qımışdı.

Nəcəf əhəmiyyət vermədən Camal bəyin dalınca salona girdi; Camal bəy ona tanış gəlirdi. Onu elə bil harada isə görmüşdü. O, qızının qabiliyyətli, zəkalı olub, lakin hesabı pis bildiyindən danışdıqca, Nəcəf onu harada görmüş olduğunu fikirləşməklə məşğuldu. Nəhayət, tapdı. O və arvadı düz iki il qabaq onunla bir faytonda Yevlaxdan Bakıya gəlmişdilər. Camal bəy dərs vaxtlarını təyin etdikdən sonra, Nəcəf özünü tanış verdi. Camal bəy tanıdı və çox sevindi və həm də təəccüblə:

– Çox dəyişmisən, maşallah, böyük oğlan olmusan.

Söhbət əsnasında Camal bəyin arvadı salona daxil oldu. Nəcəf onu dərhal tanıdı. Camal bəy Nəcəfi göstərib soruşdu:

– Gövhər xanım, tanıyırsanmı?

Xanım boynundan asılı olan eynəyi gözünə qoyub diqqətlə baxdı.

Camal bəy gülümsədi və təəccüblə soruşdu:

– Gövhər xanım, sən ki adam tanımaqda başqalarından fərqlənirsən, təəccüb! Mən isə dərhal tanıdım.

Nəcəf isə susub gülümsəyirdi. Gövhər xanım eynəyi yenə də gözünə tutub diqqətlə baxdı:

– Tanıya bilmədim, de görüm kimdir?

Camal bəy:

– Yadındadırmı, iki il əvvəl Yevlaxdan gələrkən, faytonda bizimlə bərabər bir kəndli balası oturmuşdu?

– Yadımdadır.

Camal bəy tez onun sözünü təsdiq etdi:

– Haman oğlandır, – deyə sözünü bitirdi.

Gövhər xanım bir az irəli gəldi və eynəyini gözünə qoyub diqqətlə Nəcəfi başdan-ayağa qədər süzdü:

– Zolot,[1] – deyə o, birdən sevinclə səsləndi, – sumkanı qaytaran oğlan!

Camal bəy tez onun sözünü təsdiq etdi:

– Odur, odur.

Beləliklə, Nəcəf Camal bəyin ailəsində çox səmimiyyətlə qarşılandı. Gövhər xanım qızı Lalənin xasiyyətlərindən uzun-uzadı danışdı. Nəcəf isə yumşaq kürsünün küncündə sıxılaraq onun söhbətlərinə qulaq asır və ürəyi sıxılırdı. Nəcəf arada imkan tapıb ayağa qalxdı və getməyə icazə istədi. Gövhər xanım qoymadı.

[1] Rusca "qızıl" deməkdir, mehribanlıq mənasında işlənir. Yəni "əzizim, gözüm, canım-ciyərim" deməkdir.

Ondan bir az da əyləşməyi xahiş etdi və tez yan otaqdan cürbəcür şirniyyat və mürəbbə gətirib süfrəyə qoydu. Lalə də əlində iki stəkan çay gətirib süfrəyə qoydu. Gövhər xanım hər şeyi səliqəyə saldıqdan sonra oturdu və yenə də lüzumsuz şeylərdən söhbət etdi.

Nəcəf Camal bəygildən çıxdığı zaman qaş qaralırdı.

* * *

İki aydan artıq idi ki, Nəcəf Camal bəyin qızı ilə məşğul olurdu. Bu müddətdə aldığı maaşını bütünlüklə Şuşaya, evlərinə göndərirdi. “Pul mənim nəyimə lazımdır, – deyirdi. – Ürək sakitliyi mənim üçün hər şeydən qiymətlidir”.

Lalə anasının dediyi qədər də qabiliyyətli deyildi. Nəcəf onu başa salmaq üçün çox əziyyət çəkirdi, fikri həmişə öz gəlincikləri ilə idi. Lakin Nəcəfi daha çox narahat edən məşğələdən sonra Gövhər xanımın onu saxlayıb uzun-uzadı danışması idi. Yataqxanaya tələsən Nəcəf, ev sahibəsinin onu ləngitməsini gördükdə az qala hirslənirdi. Çünki öz dərslərinə də hazırlaşmalı idi.

Həsən bəy tez-tez Nəcəfin işlərindən xəbər tuturdu. Onu gah müəllimlər otağına yanına çağırar, gah da geniş koridorda saxlayıb Camal bəyin qızı ilə necə məşğul olmasından xəbər tutardı. Axırda isə özü bu haqda Camal bəylə söhbət etdiyini və onun Nəcəfdən çox razı qaldığını söylədikdə, Nəcəf başını aşağı dikib susardı.

Bir gün yenə Həsən bəy Nəcəfi yanına çağırtdırdı. Nəcəf elə güman etdi ki, Həsən bəy yenə Camal bəyin evindəki məşğələdən soruşacaqdır. Lakin, onun düşündüyü kimi olmadı. Həsən bəy dedi:

– Deyirlər, sən dram əsərləri oxumağı çox sevirsən? Doğrudurmu?

Nəcəf utanan kimi oldu:

– Doğrudur, – dedi.

Həsən bəy:

– Çox yaxşı, elə isə Azərbaycan dilində də dram əsəri oxumaq istəyirsənmi?

Nəcəf təəccüblə soruşdu:

– Məgər Azərbaycan dilində də dram əsəri varmı?

Həsən bəy gülümsədi və əlində tutduğu kitabı Nəcəfə uzatdı:

– Al, oxu, – dedi. – Azərbaycan dilindədir.

Nəcəf kitabı aldı və sevinclə bayıra çıxdı. Kitabın adı “Təmsilat” idi. Mirzə Fətəli Axundov yazmışdı. Nəcəf və Rəhim ikisi də

birlikdə iki gün içərisində kitabın içindəki pyesləri oxudular və çox xoşlarına getdi. Nəcəf çoxdan bəri arzuladığı bir şeyə nail olmuşdu. Bu da Azərbaycan dilində dram əsəri görmək idi. Xüsusilə "Hacı Qara" komediyası Nəcəfin dram əsərlərinə olan həvəsini daha da artırdı və qabaqlar Rəhimlə yazıçı olmaq arzusu haqqında söylədiyi sözləri indi daha tez-tez və həm də böyük inamla təkrar edirdi. O, çoxdan bəri bu arzunun eşqilə yaşayırdı. Axundovun əsərləri isə onun bu həvəsini daha da artırdı. Bəzi vaxtlar, axşamdan xeyli ötmüşə qədər oturub, yazacağı əsərlər üçün mövzu düşünməyə başladı.

* * *

Həsən bəy xəstələnmişdi. Beşinci gün idi ki, dərsə gəlmirdi. Bütün gimnazistlərin sevimlisi olan Həsən bəyin yoxluğu hər addımda hiss edilirdi.

Dərsdən sonra Nəcəf və Rəhim Həsən bəyi yoxlamağa getdilər. Həsən bəy İçərişəhərdə yaşayırdı. Onlar şəhərin darısqal və ilan kimi qıvrılan döngələrini dönərək Həsən bəyin yaşadığı evə çatdılar. Həsən bəy iki mərtəbəli evdə yaşayırdı. Evin bayır tərəfə geniş aynabəndi var idi. Yuxarı mərtəbəyə qalxmaq üçün həyətdən keçmək lazım idi. Nəcəf və Rəhim pilləkənlərdən qalxıb aynabəndə daxil olduqda, onların qabağına orta yaşlarında bir qadın çıxdı. O, gimnazist paltarında olan bu cavanları gördükdə nə üçün gəldiklərini başa düşdü və heç bir söz soruşmadan onları içəri dəvət etdi.

Həsən bəy pəncərələri küçəyə açılan işıqlı bir otaqda uzanmışdı. Onun başı üzərində böyük bir əks asılmışdı. Həsən bəy tələbələrini görən kimi yatağında dirsəkləndi və onlardan çarpayıya yaxın gəlməyi xahiş etdi. Xəstəlik onu çox zəif salmışdı. Geniş, açıq alnındakı qırışıqlar elə bil daha da dərinləşmişdi. Gözlərində bir üzüntü və yorğunluq var idi. Danışanda səsi xırıldayırdı.

Nəcəf və Rəhim iki saata qədər Həsən bəyin yanında qaldılar. Həsən bəy onlara çox şey danışdı. Nəcəf və Rəhimin çoxdan bəri onda sezdikləri nəcabət və xeyirxahlıq indi də onun bütün söhbətlərində özünü büruzə verirdi. Həsən bəy Azərbaycan xalqının vəziyyətindən can yanğısı ilə danışırdı. O deyirdi:

– Biz çox geridə qalmışıq. Başqa millətlər hər sahədə böyük kəşflər, ixtiralar edibdir. Cəhalət isə bizə inkişaf etməyə imkan verməmişdir. Xalqın səadəti uğrunda vuruşan adamlarımız çox əziyyətlərə, məhrumiyyətlərə məruz qaldılar. Bax, birisi elə O! – deyə barmağı

ilə divardan asılmış əksi göstərdi və sözünə davam etdi, – Mirzə Fətəli Axundov, nə cür maneələrlə üz-üzə gəldi. Ancaq onun mərd iradəsi hər şeyi yıxıb keçirdi.

Nəcəf divardakı əksə baxdı. O, Həsən bəyin "Mirzə Fətəli Axundov" adlandırdığı bu adamın "Hacı Qara" komediyasının müəllifi olduğunu bilib sevindi. Onun ciddi, lakin səmimi siması, mənalı gözləri var idi. Nəcəfin ürəyində istər-istəməz şəkildəki adama qarşı məhəbbət hissi yarandı. Doğrudur, onu tanımırdı, lakin təkcə Həsən bəyin o şəxs haqqında dedikləri və "Hacı Qara" komediyası kifayət idi.

Həsən bəy yatağında yanı üstə çevrildi və dərindən bir ah çəkdi:

– Eh, – dedi, – təkcə bir qəzetəyə icazə versəydilər. Qəzet mədəniyyətin ən vacib və təsirli vasitələrindəndir. Qəzet vasitəsilə bütün xalqla danışmaq olar...

Həsən bəyin dərdi təzələnmişdi. O, xalqının halına acıyan, onun səadət və inkişafı üçün hər cür fədakarlığa hazır idi. Həssas və qeydkeş idi. Elm və mədəniyyətin yolunda heç bir şeyini əsirgəməzdi.

Həsən bəy bir qədər susduqdan sonra sözünə davam etdi:

– Bizim üzərimizə düşən vəzifəni şərəflə yerinə yetirəcəyik. Lakin, bu azdır. İşin ən ağır hissəsi sizin, gənclərin üzərinə düşür. Gələcəyin sahibləri sizsiniz, onu özünüz arzuladığınız kimi qurmalısınız.

Həsən bəy xeyli söhbət etdi. Nəcəf və Rəhim ondan ayrıldıqları zaman kövrək və səmimi bir səslə: "Məndən bütün uşaqlara salam yetirin!" – dedi.

Nəcəf və Rəhim bayıra çıxdılar. Lakin Həsən bəyin sözləri hələ də qulaqlarında səslənirdi. Nəcəf Həsən bəyin hər bir sözünü təhlil etdikcə, ona elə gəlirdi ki, artıq uşaqlıq sahillərindən uzaqlaşır, fırtınalı dənizlərdən keçərək başqa bir sahilə yaxınlaşır. Bu, gənclik sahilidir. Burada da onu çox şeylər gözləyir. Lakin nə olur olsun hörmətli müəllimi Həsən bəyin onun yaxın dostu və bəlkə də müəllimi Mirzə Fətəli Axundovun yolundan çıxmayacaq, onların yolunu davam etdirəcəkdir.

Qabaqdan əsən şiddətli xəzri küləyi, dinməz halda küçədə gedən bu iki gəncin üzünə çırpırdı. Fənər dirəklərindən asılmış lampaların titrək işıqları onların üzünü azca aydınladırdı. Hər ikisinin qaşları çatılmışdı, onların fikri gələcəklə məşğuldu.

*1947*

# SÜLEYMAN VƏLİYEV

(1916-1991)

*Görkəmli nasir Süleyman Vəliyev Bakı yaxınlığındakı Ramana qəsəbəsində doğulmuşdur. İbtidai təhsilini Ramana, orta təhsilini Sabunçu qəsəbə məktəbində almış, 1946-1949-cu illərdə M.F.Axundov adına Pedaqoji İnstitutda oxumuşdur.*

*Əmək fəaliyyətinə yeniyetmə yaşlarında başlamış, orta məktəbi bitirdikdən sonra neft mədənlərində fəhləlik etmişdir. Az sonra mətbuat aləminə gələn S.Vəliyev Lökbatanda çıxan çoxtirajlı "Neft uğrunda", "Kommunist", "Azərbaycan gəncləri" qəzetlərinin, "İnqilab və mədəniyyət" jurnalının redaksiyalarında ədəbi işçi, Azərbaycan Yazıçılar İttifaqında ölkə müdafiə ədəbiyyatı şöbəsinin müdiri, məsləhətçi (1963-1989), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında redaktor (1958-1963) vəzifələrində işləmişdir. İkinci Dünya müharibəsində iştirak edən ədib əsir düşmüş, Almaniya, İtaliya, Misir və başqa ölkələrdə olmuşdur. Vətənə qayıtdıqdan sonra Sibirə sürgün edilmiş, bir müddət orada yaşamışdır. Ədib 1991-ci ildə Bakıda dünyasını dəyişmişdir.*

*S.Vəliyev bədii yaradıcılığa XX əsrin 30-cu illərində başlamışdır. Onun "Əmanət kassası" adlı ilk hekayəsi 1932-ci ildə "Hücum" jurnalında dərc olunmuşdur. Sonralar yazıçının "Bığlı ağa", "Mübahisəli şəhər", "Düyünlər", "Həyatın dadı", "Daşlı bulaq" və s. roman və povestləri çapdan çıxmışdır. Ədibin bu kitaba daxil edilən "Dağlar ətəyində" hekayəsi onun "Səadət yollarında" kitabından (Bakı, Azərnəşr, 1957) götürülmüşdür.*

## DAĞLAR ƏTƏYİNDƏ

(*Hekayə*)

O gün boz, çılpaq çöllərə ilk dəfə ayaq basarkən qarşısından üç ceyran qaçdı. Bu ona qəribə təsir bağışladı, gülümsünüb öz-özünə dedi: "Bu ceyranlar niyə məndən qaçır, mən ki onları ovlamağa gəlməmişəm, mən başqa şeyin ovçusuyam..."

Bu uca boylu, qıvraq, sağlam gənc aramla yeriyir, bəzən ayaq saxlayıb durur, əlindəki kiçik çəkiclə yeri qazır, torpaq süxurundan

götürüb diqqətlə baxır, cib dəftərinə nə isə yazır, təkrar yoluna davam edirdi. O bu yerlərlə çoxdan tanışdı. Ancaq indi qarşıda ciddi məsələ durmuşdu: yerin altındakı nefti üzə çıxarmaq. Buna bütün əsaslar vardı. Geoloqları bu sahədə əla nəticələr əldə etmişdilər. Neft – bu yerlər üçün yeni və qiymətli bir tapıntı idi.

Başlanan bu mühüm işi davam etdirmək İsmayıla tapşırılmışdı. O, keçən il öz dəstəsi ilə bu yerləri bir neçə dəfə yoxlamış, təpə və çöllərin bütün xüsusiyyətləri ilə dərindən tanış olmuşdu. Bu çöllərdə heç bir gözəl mənzərəyə, yaşıl çəmənə rast gəlməzsiniz. Xüsusilə bu ətraf əsas bir şeydən – təbiətə can verən şirin sulardan məhrumdur. Nə göl var, nə bulaq. Təpələrdən damcı-damcı axaraq gələn qar və yağış suları da tez yerə hopur. Yay vaxtları bəzən torpaq istidən çatlayır... Burada yalnız qoyunların yemi olan yonca və çayır kimi xırda otlar bitir. Cənuba tərəf getdikcə, bu otlar daha da seyrəkləşir, yer təbəqəsində üzə çıxan kükürdlü duzlu maddələr bitkiləri inkişaf etməyə qoymur. Bu çöllər dəniz səthindən 150-200 metr hündürdədir. Ancaq buna baxmayaraq, bu yerlərin havası isti, həm də küləkli olur. Külək buraya Yevlax düzənliklərindən qum yığınları gətirir. Bu çöllərdə kəşfiyyat qəsəbəsi salınmışdır. Neft geoloqları, qazmaçı fəhlələr burada yaşayırlar. Onlar geologiyanın özünə məxsus taktika-strateji əməliyyatı və yer təbəqəsinə ediləcək həmləni də burada düşünürlər. Geoloji qəsəbə adama bu yerlərin boş qərargahını andırır. Bu çöllərdə neft axtarışı işi ilə məşğul olmaq o qədər də asan deyildir. Burada neft çıxışlarının olduğuna baxmayaraq, quyuların yerini təyin etmək çox çətindir. Bu vaxtadək qazılan quyuların verdiyi nəticələr bu yerlərdə məhsuldar çöküntülərin varlığını sübut etmişdisə də, neftin hansı dərinlikdə daha zəngin olması kifayət qədər öyrənilməmişdi. Bunu yeni qazılan kəşfiyyat buruqları həll edəcəkdi. Məsələ hələlik aydın olmadığı üçün İsmayılın qəlbi indi bu sirri açmaq eşqilə çırpınırdı. O, hər şeydən əvvəl, yeni salınacaq kəşfiyyat quyularının yerini təyin etməli idi. Son dərəcə məsuliyyətli və ciddi olan bu iş geoloqu heç də qorxutmurdu. O, zəngin həyat təcrübəsinə malik idi. Bu təcrübə ona ən çətin məsələlər qarşısında dəyanətli, mübariz olmağı öyrətmişdi.

Hələ 7 yaşında ikən o, atasını itirmiş, 11-12 yaşlarında müxtəlif peşələrdə – rəngsaz, bənna şagirdi sifətilə işləyərək, anasına kömək etməyə başlamışdı. Təvazökar və çalışqan olduğuna görə təkcə ailəsi deyil, bütün qohum-əqrəbası ona hörmət edirdi. 1935-ci ildə Əziz-

bəyovneft Trestinin 2-ci mədənində işlərkən o, az bir zamanda özünü qabaqcıl çilingərlər sırasına çıxarmış, ümumun rəğbət və məhəbbətini qazanmışdı. O, işinin ağırlığına baxmayaraq, eyni zamanda, Azərbaycan Qızıl Bayraqlı Neft İnstitutuna daxil olmuş, oxumağa başlamışdı. İnstitutun üçüncü kursunda ikən o, Orconikidzeneft Trestinin mədənlərinin birində geoloq müavini vəzifəsini ifa edirdi. İnstitutu bitirdikdən sonra isə İsmayıl müstəqil olaraq geoloq vəzifəsində işləməyə başlamışdı.

İndi biz onu yenə də çöllərdə görürük. O, tez-tez burada olur. Öz həyatını, taleyini, gələcəyini bu çöllərlə bağlamışdır.

İrəlidəki təpənin arxasından gələn xoş, həzin bir tütək səsi geoloqun diqqətini cəlb etdi. O, təpənin başına qalxdıqda, qarşıdakı düzənlikdə böyük qoyun sürüsü və öz qara yapıncısı üzərində uzanaraq, tütək çalan bir çoban gördü. Tütəyin məlahətli, ürəkoxşayıcı səsini daha yaxından eşitdi. Geoloq bu təpəni enib, çobana tərəf irəlilədi. Çoban orta boylu, enli kürəkli, sağlam bir kişi idi. Vüqarlı görünüşündən, cəld və şən baxışlarından onun hələ qocalığa meyil etmədiyi sezilirdi. Yurdu, evi olan bu dağ yamacları onu çox gümrah saxlamışdı. O indi təpəni enən bu gənc adamı gördükdə, yoxlayıcı nəzərlərlə ona baxıb düşündü: "Görəsən bu kimdir? Günün günorta vaxtı niyə buralarda gəzir? Fermadan gələn olmaya?"

– Salam, əmican!

Çoban şirin dillə onu qarşıladı.

– Əleykümsalam, oğlum! Hər kimsən, nəçisən, bizim bu yerlərə xoş gəlib, səfa gətirmişsən!

– Sağ ol, əmi!

– Oğlum, yəqin bizi yad etməyə gəlmişsən?

– Elədir, əmi.

– Elə isə, soruşmaq ayıb olmasın, haralısan, kimlərdənsən?

– Tanımazsan, əmi.

– Bizim bu yaxın kəndlərdən deyilsənmi?

– Xeyr, əmi, mən bu yerli deyiləm.

Bu cavab da çobanı təmin etmədi. O, istədiyinə nail olmasaydı, İsmayıldan əl çəkməzdi.

– Oğlum, sənə başağrısı da verirəm, – deyə o sözə başladı. – Bu yaxın yerlərdə elə adam olmazdı ki, mən onun ya atasını, ya da babasını tanımayım... Ancaq mənə elə gəlir ki, siz mərkəzdənsiniz.

– Elədir, əmi, Bakıdanam.

– Bakıdan... Belə de! – O, bir an fikrə getdikdən sonra: – Bəs bura gəlməyiniz... xeyir olsun? – deyə bir daha xəbər aldı və təbəssümlə ona baxdı.

– Xeyirdir, əmi, – deyə İsmayıl da gülümsəyərək çobana cavab verdi.

İsmayıl özünün geoloq olduğunu və burada neft axtarışına çıxdığını söylədi.

– Belə de, oğlum! Demək, bizim bu çöllərdə neft axtaransan. Sizin buralarda iş apardığınızdan xəbərdaram. Bu yaxın yerlərdə quyular qazımışsınız. Mənim ordudan qayıdan oğlumun sizdə işləməyə çox həvəsi var. Ancaq qorxuram əzabı heçə gedə, avara qala, kəndçiliyi yaddan çıxara. Axı bu dağ, çöllər hara, neft hara? Hardan bu sizin ağlınıza gəlib?

– Əmi, bu yer qatlarının sirrini bilən alimlər var, bunun da bir elmi var.

– Oğlum, mən eşitmişəm ki, göydən xəbər verən adamlar olub. Onlar heç olmasa göyü, ayı, ulduzu görürlər. Siz isə bu yerin altını necə görürsünüz? Odur ki, oğlum, heç ağlım kəsmir. Bir də ki, bu qazıdığınız quyulardan da bir şey çıxmadı. Olmaya yenə başqasını qazmaq istəyirsiniz?

– Əmi, bunun üçün vaxt və səbir lazımdır. Neft quyusu qazmaq su quyusu qazmaq kimi asan deyildir. Dayaz quyular yalnız təcrübə üçündür. Bu yaxınlarda biz bu yerlərdə dərin quyu qazmaq fikrinə gəlmişik. Sağlıq olar, əmi, neftin lap özünü görərsiniz. Bura zəngin, gözəl yerlərdir.

– Sözün düzü, mən burada sən deyən gözəlliyi görmürəm.

– Bu yerlər daxilən zəngindir, ancaq biz onu zahirən də gözəl edəcəyik. Elə ki, neft çıxdı, bütün işlər düzələr.

– Axır ki, nə deyim, təki Allah ağzından eşitsin. Nefti kim sevməz! Onda ocağımız bu neftlə işıqlanar. Əgər belə olarsa, oğlum, mən sizə də yerlərin alimi deyərəm.

Geoloq gülümsədi.

Çoban daha ona etiraz etmədi. O bu yerlərdə neftin ola bilməyəcəyini təkid edərək, oğlu ilə mərc də çəkmişdi. Oğlu ilə onlar belə şərtləşmişdilər: əgər bu yerlərdə neft tapılarsa, atası onun nə qədər dost-aşnası var, hamısını qaymağa qonaq edəcəkdi. Çobanın indi öz fikrinə inamı çox da möhkəm deyildi. “Yox, birdən onlar deyən düz olar, iki dəfə uduzaram. Bu yeniyetmələrlə bacarmaq çətindir”, – deyə öz-özünə düşündü.

– Əmi, vaxt olar, bu yerlər də abadlaşar, buralarda da həyat dirçələr, neft bu yerləri də şöhrətləndirər.

Geoloqun belə cəsarət və inamla danışması çobanı böyük heyrət içərisində qoydu. O, qeyri-ixtiyari dedi:

– Oğlum, sən arzu etdiyin kimi olsa, bu çöllərimizin qədri-qiyməti olmaz.

Çoban birdən nə isə unutmuş kimi, ayağa qalxdı, heybəsindən böyük bir cam çıxarıb sürüyə girdi və çox çəkmədi ki, geri qayıtdı.

– Al iç, oğlum, – deyə camı geoloqa uzatdı. – Şəhərliliyini yaddan çıxar, çiy olmasından qorxma, bu çiy südün xeyrini mən öz canımda sınamışam.

Geoloq südü alıb içdi və çobana təşəkkür etdi.

– Oğlum, birini də iç. Sərin havadır, qorxma, zərər eləməz.

– Sağ ol, əmi, kifayətdir. Dadlı südünüz varmış!

– Bəli, oğlum, bizim yerlərin südü belə olur.

– Əmi, sizin neft də belə əla olacaq.

Çoban bu dəfə etiraz etməkdən özünü saxlaya bilmədi.

– Oğlum, lap ağ eləmə də... Hələ heç neft çıxmamış, bunu hardan bilirsən?

– Əmi, inan ki, düzünü deyirəm, bu yer çöküntülərindən bizə çox şey bəllidir. Bu yerlərdə bol neft ehtiyatı var... – Sonra geoloq getməyə hazırlaşıb dedi: – Əmi, səninlə görüşdüyümə çox şadam, sağlıq olsun, yenə də görüşüb söhbət edərik. Biz dəstəmizlə bu çöllərə tez-tez gələcəyik.

– Əlbəttə, oğlum, yenə bu tərəflərə bir yolunuz düşər; dağ dağa rast gəlməz, insan insana rast gələr.

– Əmi, tez-tez bu yerlərə baş çəkəcəyəm.

– Mən oğlumun xeyir işinə hazırlaşıram. Səni onun toyuna çağırsam, gələrsənmi?

– Niyə gəlmirəm? Sağlıq olsun, bu yerlərdə neft çıxanda daha böyük şənliklər düzəldərik. Bu günə çox qalmamışdır, əmi!

Çoban mənalı-mənalı gülümsədi, nə isə demək istədi, ancaq son dərəcə xoşuna gəldiyi bu sarışın, göygöz oğlanı yolundan saxlamaq istəmədi.

– Əmi, sözümüz sözdür. Dediklərim həqiqət olacaq.

– Nə deyirəm ki, oğlum, Allah ağzından eşitsin.

Geoloq qocaya əl verib, ondan köhnə bir dost kimi ayrıldı. Çoban öz xeyirxahlıq ifadə edən xoş, mehriban baxışları ilə bir müddət

onun ardınca baxıb öz-özünə dedi: "Cavanlar, siz dağı dağ üstə qoyarsınız!.."

Hava birdən-birə dəyişdi. Heç gözlənilmədən şimşək çıxmağa başladı, hava qaraldı. Gənc geoloq nə edəcəyini bilmədi. O, bu təpədə və çöllərdə əsas işini qurtara bilməmişdi. Bir-birinin qucağına girmiş buludlar sıxılmağa və yerə nar giləsi kimi iri damcılar axıtmağa başladı.

İş çətinləşdi. Açıq hava altında qalıb islanmaq böyük dərd deyildi. Geoloqu narahat edən yaş torpaq süxurlarını təhlil etməyin çətinliyi idi. "Görəsən işin nəticəsiz qalmasından da pis şey olar?" – deyə kəşfiyyat qəsəbəsinə gedən yolun kənarında bir-birinin yanına sıra ilə düzülmüş gənc iydə ağaclarına tərəf yeridi. Burada onun avtomaşını durmuşdu. O, sürətlə qaçdığına baxmayaraq, yenə də islanmışdı. Bunu görən çatmaqaş, qaragöz şofer dərhal kabinkanın qapısını açdı.

– Yoldaş Əliyev, plaş geyməyin vaxtı idi... – dedi.

İsmayıl heç bir söz demədən onun yanında oturdu. Şofer daha nə isə demək istədi, ancaq onun yorğun və narazı sifətini görcək durdu. İsmayıla daha rəsmi olaraq müraciət etməyi qət etdi:

– Yoldaş Əliyev, qayıdaqmı?

– Necə, nə dedin, qayıdaq? Bu nə sözdür? Nəticəsiz qayıtmaq olarmı? – deyə İsmayıl heyrətlə onun üzünə baxdı. – Yox, dostum, bu dərə-təpələri bir daha gözləməyin. Nəticəsiz heç bir vəchlə geri dönmək olmaz.

– Bəs bu yağış, bu hava?!

– Birdən başlanan yağış birdən də durar. Ancaq gərək bu yağış olmayaydı... Nə etməli!

– Yoldaş İsmayıl, deyəsən yağış əhvalını yaman pozmuşdur?

– Əlbəttə, ovçu ovdan boş qayıdanda necə olar? Axı bu yerlərin taleyi bizə tapşırılmışdır. Biz tələsməliyik, dostum.

– Torpaq elmində nə tələsmək, yoldaş İsmayıl! Torpaq ki heç bir yerə qaçmır, burada hər iş bəxtəbəxtdir...

İsmayıl onun sözünü kəsib etiraz etdi:

– Sənə belə köhnəlmiş, çeynənmiş sözlər danışmaq yaraşarmı?

– Yoldaş Əliyev, mən nə deyirəm ki? Sözüm odur ki, tələsmək bəzən zərərli olur. Belə şeyləri siz məndən yaxşı bilərsiniz!

– Dostum, hər yerdə olmasa da, burada indi tələsmək lazımdır. Bu yerlərdə neftin varlığına daha şübhə yoxdur. Məşhur neft alimi

Qubkin vaxtilə bu yerlərdə neftin olduğunu qeyd etmişdir. Daha sonra Azərbaycan geoloqları bunu elmi əsaslarla sübut etdilər...

Bir az əvvəl İsmayıl şoferə nə qədər rəsmi görünmüşdüsə, indi bir o qədər səmimi gəldi. Elə bil ki, o bir an içərisində daha söhbətcil, daha şirindil oldu. İsmayıl indi o qədər fərəhlə və ruh yüksəkliyi ilə danışırdı ki, birdən-birə öz ailəsindən bəhs etməyə başladığını, ehtimal ki, heç özü də hiss etmədi...

Şofer İsmayılın sifətində özünə yaxın, tanış, xoş ifadələr sezdi. Belə və yaxud buna oxşar ifadələri o, Böyük Vətən müharibəsindən qabaq geoloq Babazadənin sifətində də görmüşdü. Babazadə də o zaman Buzovnaneftdə kəşfiyyat işlərinə başlarkən, İsmayıl kimi belə həyəcanlı, düşüncəli, gərgin, işgüzar və söhbətcildi.

Yağış birdən başlandığı kimi, birdən də kəsildi.

– Bu susuzluqdan yanan yerlərdə yağışın belə tez kəsilməsinə sevinməzlər, – deyə İsmayıl ayağa qalxıb maşından düşdü və bu dəfə plaşını geyməyi unutmadı.

– Deməк, yenə kəşfiyyat? – deyə şofer təəccüblə soruşdu.

– Bəli, bəli, kəşfiyyat, – deyə o, "kəşfiyyat" kəlməsini xüsusi bir vüqarla tələffüz etdi. Bu an onun sifətində mənalı və ciddi ifadələr göründü. Nədənsə Vətən müharibəsində 416-cı Azərbaycan diviziyasında Taqanroqun azad edilməsində iştirak edərək, kəşfiyyata getdiyi günləri xatırladı. Cəbhə həyatı!.. Ölüm-dirim məsələsinin həll olunduğu dəqiqələr! Dəhşətli, həm də maraqlı günlər!

Cəbhədə kəşfiyyata getməyin də özünə məxsus məziyyətləri var. Dumanlı gün, qaranlıq gecələrdə yol getmək, bəzən nəfəs çəkmədən saatlarla gözləmək, çəldlik göstərib, qəflətən düşmən üstünə atılmaq, ölümlə üz-üzə gəlmək... Bütün bunlar nə qədər ağır olsa da, böyük bir maraq və iftixar hissilə xatırlanır. "İndi mən yenə kəşfiyyatçıyam, ancaq sakit, xoşbəxt, sülh dövründə neft kəşfiyyatçısıyam", – deyə İsmayıl fərəhlə düşündü.

Doğrudan da kəşfiyyatçı-döyüşçü ilə geoloq arasında böyük oxşarlıq vardır. İsmayıl öz-özünə diqqətlə nəzər yetirib gülümsədi. Budur o, yenə çiynindən səhra çantası asmış, özü ilə yer kompası, topoqrafiya xəritəsi gətirmişdir. Cəbhədə olduğu kimi, onun qarşısında yeni, mühüm və çətin vəzifələr durmuşdur. Ancaq bunlar böyük, ağır döyüşlərdə sınaqdan çıxmış geoloqu qorxutmurdu. "Xırda işi görüb başa çatdırmaq asandır. Ən böyük hünər çətin və mürəkkəb

məsələləri həll etməkdir. Bax, əsil sevinc və ləzzət də bundadır". Bu, İsmayılın ən çox sevib təkrar etdiyi söz idi.

İsmayıl sürətli addımlarla irəliləyirdi.

Qarşıda sirr dolu boz təpələr və başı dumanlı Qafqaz sıra dağları uzanırdı. Bu dağlar ucsuz-bucaqsız silsilələri və göylə birləşmiş kimi görünən hündür zirvələrilə insana əzəmətli görünürdü. Bu dağların ətəklərini yarmaq və dərin qatlarındakı zəngin sərvəti üzə çıxarmaq insana xəyal kimi gəlirdi. Ancaq bu xəyal geoloqlara heç də çətin görünmürdü.

İsmayıl iti və qəti addımlarla gedib qarşıdakı təpənin ətəyində durdu. Qayıdıb ətrafına baxındı. Bir neçə dəfə dərindən nəfəsini çəkib, təkrar yoluna davam etdi.

İsmayıl on dəfə ölçüb-biçməmiş qərara gəlmir, gah təpənin sağına, gah soluna tərəf addımlayır, gah aşağı enib, təpənin ətrafında fırlanırdı.

Çox çəkmədi ki, o bir sıra məsələləri özünə aydın etdi, sonra üzü güldü, bu an durub topoqrafiya xəritəsində yeni qazılacaq quyuların yerini qeyd etdi, yenə də o yan-bu yana hərlənərək, geri döndü.

Artıq qaş qaralır, ətrafa qaranlıq çökürdü.

* * *

İsmayıl hələ ilk gəncliyindən xatirat dəftəri tutmağı və onu səliqə ilə qorumağı sevərdi. Böyük Vətən müharibəsində müntəzəm olmasa da, bir sıra əhəmiyyətli məsələləri qeyd edə bilmişdi. Boş vaxtlarında bəzən xatirat dəftərini gözdən keçirmək onu xüsusi bir zövq verirdi.

İsmayıl bu axşam xatirat dəftərinə baxarkən, 1942-ci ildə yazdığı bir təəssüratını maraqla oxudu:

"Mius çayı ətrafındakı döyüşlərdə yaralandım. Yaram çox ağır deyildir. Burada Ə.Ənvər adlı bir döyüşçü – gənc Azərbaycan şairi tez-tez mənə baş çəkir. O mənə həyat yoldaşımdan ürəkaçıcı bir məktub gətirdi. Hər şey öz qaydasındadır. Bircə şeydən nigarançılığım varsa, o da yeni kəşfiyyata buraxdığım buruqların taleyindən indiyədək xəbərsiz olmağımdır".

İsmayıl bugünkü təəssüratını da yazmağa başladı:

"Kəşfiyyat qəsəbəsi. Təyin etdiyimiz yerlərdə bir neçə kəşfiyyat buruğu qazılır. Ümidim bu buruqlaradır. Buruq ustalarına tapşırmışam

mənə tez-tez süxur nümunəsi gətirsinlər. Əgər bu axırıncı təbəqələrdə də məhsuldar çöküntü əlaməti və neft nişanəsi görünərsə, o zaman bu məsələ tamam həll edilmiş olacaq. Bu süxur nümunələri bəlkə də burada neft kəşfiyyatının taleyini həll edəcəkdir. O zaman bu yerlərdə böyük dəyişikliklər baş verəcək. Bu yerlər cənnətə dönəcəkdir.

Çöldə təsadüfi tanış olduğum qoca çobanla dostlaşdım. Onun əsgərlikdən qayıdan oğlunu buruqda işə düzəltmişəm. O, bu son aylar ərzində özünü yaxşı bir işçi kimi göstərmişdir. Atası məni srağagün onun toyuna çağırmışdı. Mən də sözümə əməl edib getdim.

İndi məni hər şeydən çox maraqlandıran buruqdan gətiriləcək süxur nümunəsidir. Onu səbirsizliklə gözləyirəm".

Otağın havası isti idi. Pəncərəni açdı. Əsməkdə olan xəfif yel qəsəbədəki gənc iydə ağaclarının xoş, ətirli qoxusu ilə evi doldurdu. İsmayıl dərindən köksünü ötürdü, saata baxdı. Bu zaman qapı döyüldü. O, uca səslə:

– Buyur! – deyə səsləndi.

İçəriyə İsmayıl kimi hündür boylu, ancaq ondan dolğun, orta yaşlı bir adam girdi. O, 6 nömrəli kəşfiyyat buruğunun qazmaçısı Ağa idi. Cibindən kağıza bükülü bir şey çıxarıb İsmayıla uzatdı:

– Buruğumuzun süxur nümunəsidir! – dedi.

İsmayıl süxur nümunəsini aldı, dərhal burnuna yaxınlaşdırıb qoxuladı, sonra dilinə vurdu.

Ağa gülümsədi:

– Neft iyi verirmi? – dedi. – Necədir?

– Bəli, deyəsən işimiz yaxşıdır.

İsmayıl bu süxur nümunəsindən bir kiçik parça sındırıb şüşə boruya saldı, üstünə benzin tökdü, şüşə borunu çalxaladı və çox çəkmədi ki, borudakı maye açıq çay rəngini aldı. İsmayıl üzünü Ağaya çevirib, sevinclə dedi:

– Görürsənmi, dostum!

– Demək, neft olacaq?

– Bəli, dostum. Ümidlərim getdikcə canlanır. Mənə gətirdiyin bu süxur nümunəsinin xoşbəxtlik müjdəsi olacağını güman edirəm. – O, Ağaya yaxınlaşıb: – Sən yəqin iş növbəsini çəkib gəlmişsən, eləmi? – deyə xəbər aldı.

Ağa bu sualdan geoloqun nə demək istədiyini anladı. Diqqətlə İsmayıla baxdı.

– Bəli, işdən gəlmişəm. Ancaq bunun nə fərqi var ki, yoldaş geoloq! Əgər lazımsa, mən buradan təkrar buruğa qayıda bilərəm.

– Yox, yorularsan, gecənin bu vaxtında... Sənə yatmaq lazımdır.

– Bu şad xəbərdən sonra mənim gözümə yuxu gedərmi? Mən, yaxşı xəbər olarsa, qayıdacağımı fəhlələrə vəd etmişəm.

– Əgər o buruğa şose yolu olsaydı, şoferi göndərər, səni getməyə qoymazdım. İndi ki, belədir, dostum, get, usta Sergeyevə de ki, qazmanı sürətlə davam etdirsinlər.

Ağa cəld ayağa qalxdı. İsmayılla xudahafizləşib evi tərk etdi, ancaq həyət qapısına tərəf getmədi. Buradan yol bir az uzaq və dolamaydı. Yolunu qısa etmək məqsədilə qarşıdakı bağçaya endi, ətrafa xoş və ətirli qoxular saçan iydə ağaclarının yaşıl budaqları altından keçərək, bağçanın çəpərini aşdı. Haradansa şən musiqi və nəğmə səsləri gəlirdi:

Bir bülbüləm, yar aşığı,
Tərlan könlüm yar aşığı...

Ağa addımlarını daha da sürətləndirdi. Göydə bədirlənmiş kimi görünən ay, küçəyə xüsusi bir gözəllik verirdi. Hava saf, təravətli, ürəkaçıcı idi.

Ağa geologiya idarəsi qarşısından keçib, özünü qəsəbənin ortası ilə gedən araba yoluna saldı. Su arxını ötüb qəsəbədən aralandı, ancaq iydə ağaclarının qoxusu yenə də onun burnundan getmirdi.

Bir qədər də getdikdən sonra o, şose yoluna çıxdı. Qarşıdakı iydə ağaclarını arxada buraxıb irəlilədi. İndi artıq qazma buruqlarından gələn gurultulu səslər aydın eşidilirdi. Onun sevinci hədsizdi. Buna görə də gecənin fərqində deyildi. O, şad xəbərlə usta və fəhlələri bərk sevindirəcəkdir. Onlar üçün bundan daha böyük fərəhli və şad xəbər ola bilərdimi?

Ağa dünyagörmüş bir kişi idi. O, taleyini dəfələrlə sınaqdan çıxarmış, zəngin həyat təcrübəsinə malik olmuşdu. Ancaq 19 yaşı bitdikdən sonra o, yaxşı günə çıxmışdı. Onun əsil həyatı 1920-ci ildə Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra başlanmışdı. Əvvəllər fəhlə şagirdliyinə belə qəbul olunmayan bu adamın həyatında böyük dəyişikliklər əmələ gəldi. Ağa tez bir zamanda buruq qazmaçılığına irəli çəkildi. İşlədiyi Orconikidzeneft Trestinin Qazma İdarəsində yaxşı bir qazmaçı kimi şöhrət qazandı. Böyük Vətən

müharibəsi illərində onu işləmək üçün Siyəzənneftə səfərbərliyə aldılar. O, yaxşı sənətkar olmağın ləzzət və sevincini dərindən dərk etməyə başladı və nəhayət, bu yerlərdə kəşfiyyat işləri başlanarkən, onu da ezam etdilər. O, ən yaxşı ustalardan olan Sergeyevin briqadasında işlədi və burada artıq bir neçə kəşfiyyat buruğunun qazılmasında böyük iş nümunələri göstərdi. Ağa hiss edirdi ki, bu yeni 6 nömrəli buruqda da öz məharətini göstərərək, Azərbaycanda geologiya alimlərinin arzularını həyata keçirməkdə xüsusi rol oynayacaqdır.

Ağa öz dostlarına deyərdi: "Mənim ayağım yüngüldür, mən harada işləsəm, orada müvəffəqiyyət olar". Ancaq bu sözü bir dəfə ustası Sergeyevə deyərkən, o, Ağaya belə cavab vermişdi: "Mənə elə gəlir ki, bu, bəxtindən deyil, bacarığından, işə diqqətlə, həssas yanaşmağından və əməyi sevdiyindən irəli gəlir".

İşdən bir az əvvəl çıxmasına, getdiyi haman bu yolu ikinci dəfə getməsinə baxmayaraq, Ağa qətiyyən yorulmamışdı. İti addımlarla irəliləyir və bu şad xəbəri buruq işçilərinə mümkün qədər tez çatdırmağa çalışırdı.

* * *

Ağanı yola saldıqdan sonra İsmayılın gözünə uzun müddət yuxu getmədi. "Bu, doğrudanmı belədir? Demək, axtardığımız tapıldı. Bu yerlərin də artıq bəxti açılır. Deməli, az zamandan sonra mən respublika qəzetlərinin neft məlumatında buranın da adını axtaracağam".

İsmayıl dərin xəyala dalır, onun gözü qarşısında iri, böyük hərflərlə yazılan "Yeni trest" yazısı canlanırdı. Budur, bu yazının hərfləri get-gedə onun nəzərində böyüyür, bunların ardınca ucsuz-bucaqsız buruqlar meşəsi görünürdü...

Evin qarşısındakı ağacda bir xoruz zil səslə banladı. İsmayıl dalmış olduğu şirin xəyaldan ayıldı. Ancaq stolun üzərindəki çay rəngli şüşə borusunu gördükdə sevinclə: "Bu xəyallar həqiqət olacaq", – dedi. O hiss edirdi ki, daha gözünə səhərəcən yuxu getməyəcəkdir. Əvvəlcə süxur nümunəsindən aldığı sevinci xatirat dəftərinə qeyd etmək istədi. Ancaq nədənsə hələ buna qərarı gəlmədi. O, həyat yoldaşı və dostlarına sevindirici məktublar yazmağı da fikrindən keçirtdi. Ancaq bunun da hələ vaxtı deyildi. Bəs nə etsin?! Onun qəlbi öz sevincini yaxın yoldaşlarına bildirmək eşqilə çırpınırdı.

O istəyirdi ki, indi uca səsilə onlara desin: “Əzizlərim, siz də sevinin, Vətənimizin bir guşəsindən də neft tapıldı!” Həqiqətən indi ona elə gəlirdi ki, öz sevincini bir kəsə danışıb bildirməsə, ürəyi partlar. O özü ilə bir otaqda yatan şoferini xatırladı. Ona tərəf baxdı. Şofer bərk yatmışdı. Bəs onu necə oyatsın? Evin içində gəzişməyə başladı. Şoferin yanından keçərkən bərkdən öskürdü. Pəncərəni bağlayıb təkrar açdı. Şofer isə ayılmırdı. Əşi, bu uşaq oyunu nəyə lazımdır? Onu gedib sadəcə oyatmalıyam, heç acığı da gəlməz. O, taksi maşını sürən şofer deyil ki? Geologiyanı anlayan şoferdir. Qoy onu da sevindirim”, – deyə şoferə yanaşdı və qəti bir səslə:

– Yatmışsan, yatmışsan? – deyə onu üsulluca silkələdi.

Şofer gözlərini açıb, adəti üzrə:

– Gedirikmi? – deyə xəbər aldı.

– Əzizim, dur!

Şofer dik atıldı:

– Yoldaş İsmayıl, şad xəbərdirmi?

İsmayıl açıq çay rəngli şüşə borusunu ona göstərib dedi:

– Dostum, şad xəbər budur! Bu, süxur nümunəsinin benzində necə həll olunduğunu göstərir. Bu o deməkdir ki, süxurda neft var.

Şoferin gözləri parladı:

– Demək, buruq neft verəcək! Bu nə xoşbəxtlikdir, yoldaş İsmayıl!

– Bəli, dostum, məhsuldar çöküntü bu yerlərin də üzünü ağartdı.

– Yoldaş İsmayıl, sən həmişə məhsuldar çöküntüdən danışırsan. Axı bu nədir? – deyə şofer soruşdu və üstünü düzəldə-düzəldə İsmayıla lap yaxın gəldi.

– Bu saat, dostum, bu çöküntünün süxurunu sənə göstərim. Özüm də onu bir daha yoxlamalıyam. – O, stolun siyirtməsində olan süxur nümunəsini çıxarıb, Ağanın gətirdiyi süxur nümunəsi ilə yanaşı qoydu, hər ikisini tutuşdurdu. – İndi diqqətlə bax, bu gillə qarışıq qumlu süxurları görürsənmi?

– Görürəm.

– Bir-birlərinə oxşayırlarmı?

– Lap eynidirlər.

– Al, bir iylə!

Şofer süxur nümunəsini alıb iylədi və dedi:

– Lap neft iyi verir...

İsmayıl süxur nümunəsini təkrar aldıqda, birdən dedi:

– Bir dur, bir dur, ancaq...

– Nə oldu ki? – deyə şofer heyrətlə xəbər aldı.

İsmayıl duruxdu. Gözlərindəki şənlik əlamətləri dərhal çəkildi, sifəti kölgələndi, güclə eşidiləcək zəif bir səslə:

– Bu süxur nümunəsinin rəngi bozdurmu? – deyə xəbər aldı.

– Bozdur.

– Ancaq, o bir az açıq yaşıla da çalır: bu xüsusiyyət məhsuldar çöküntüdə də yoxdur. Bu, bax, zəif işıqda nəzərimə çarpmamışdı.

– Mən heç bir şey anlamıram. Bəs bu nə deməkdir?

– Bu, ağcağıl təbəqəsinə oxşayır. Ancaq bu barədə də fikirləşmək lazımdır. Bunu gedib laboratoriya təhlilindən də keçirərik. İndi isə sən get yat, mən səni yersiz narahat etdim.

Bir az əvvəl öz sevincini başqasına bildirməyə tələsən adam indi ancaq tək qalmağa çalışırdı. Bu necə ola bilər? Bəs süxur nümunəsinin şüşə boruda neft əlamətini bildirməsi nə deməkdir? Əgər bu məhsuldar çöküntüdürsə, bəs açıq yaşıllıq nə deməkdir?..

* * *

6 nömrəli buruqda qazma işi dayandırılmışdı. Hamı Ağanın nə nəticə ilə qayıdacağını gözləyirdi. Bekarçılıqdan iki fəhlə bir-birilə mübahisəyə girişmişdi. Onlardan biri tanıdığımız qoca çobanın oğlu idi. O, təzəcə toy eləmişdi. Hamı onu toydan sonra "təzəbəy" adlandırırdı. O da atası kimi sağlam və gümrah idi. O, mübahisəyə girişdiyi fəhləyə deyirdi:

– Bu yerlərin sərt və qənbərli olduğunu bilirəm. Ancaq mən eşitmişəm ki, "balıqquyruğu" baltası ilə sürətlə qazmaq olur. Gələcəkdə onunla qazarıq.

– Sən yenə öz fikrindən əl çəkməyirsən. Mənimlə nahaq mübahisəyə girişmişsən. Mənim iş stajım səninkindən çoxdur.

– Yenə də iş stajı?

– Bəs necə? Əgər o balta yaxşı olsaydı, onunla qazardılar da...

– İndi yox, əzizim. Bu yerlər nə vaxt tamamilə öyrənildi, o zaman...

– Heç fərqi yoxdur. Bu yerlər üçün hələ "üçşarlı" balta əlverişlidir. İnanmırsan, mərc edək!

– Mərc edək!

– Bəli, gedib usta Sergeyevdən soruşaq. O nə dedi, razıyam.

– Yaxşı, nədən mərc edək?

– Nədən istəyirsən.

– Axı bu çöl-biyabanda nə tapmaq olar?

– Qaymaq.

– Yaxşı, razıyam.

Bu zaman buruq ustası Sergeyevin özü bir neçə fəhlə ilə onlara yaxınlaşdı. Məsələni ustaya nağıl etdilər. O zarafatla dedi:

– Təzəbəy, işin pisdir. Bir cam qaymağı uduzdun.

Fəhlələr güldülər. Usta nə isə demək istəyirdi ki, buruğun taxta körpüsündən addım səsləri eşidildi.

– Bir durun, kim isə gəlir.

– Yerişindən Ağaya oxşayır.

– Elə lap özüdür.

Ağa buruğa gəlirkən hamı cəld ayağa qalxıb, sualedici nəzərlərlə onun üzünə baxdı. Onun tez qayıtmasından hiss etdilər ki, yaxşı xəbər gətirmişdir.

O, heç kəsə sual verməyə imkan verməyib dedi:

– Dostlarım, sizi sevindirə bilərəm. Süxur nümunəsi yaxşı nəticə verib.

Hamının sifətində xoşbəxt bir təbəssüm oynadı. Hətta bu zaman mübahisədə uduzaraq pərt olmuş "təzəbəy"in də kefi açıldı və ixtiyarsızcasına dedi:

– İndi, yoldaşlar, nəinki onu, hamınızı qaymağa qonaq edəcəyəm.

"Təzəbəy"lə mübahisəyə girişən fəhlə əlini onun çiyninə vurdu.

– Bax, belə! Bu şad xəbərdən ötrü adam qaymaq nədir, ondan da böyük şeyləri əsirgəməz. Asan deyil, biz mədənin ilk kəşfiyyatçıları oluruq.

– Bəli, hər şeyin birincisi olmaq yaxşıdır! – deyə Sergeyev də onun sözünə qüvvət verdi.

Sergeyev Ağanın şad xəbərindən ilhama gələn fəhlələrin ürəyini oxudu, onların böyük həvəslə işləmək arzusunu hiss etdi. Uca və ərkyana bir səslə:

– Haydı, iş başına, yoldaşlar! – deyib hamıdan əvvəl də özü işə girişdi.

Bir neçə dəqiqə keçmədi ki, buruqda qazma işi yenidən gurladı. Ağa yalnız bu zaman buruğu tərk etdi.

Günəş dağlar arxasından yenicə boylanırdı. Ağa bir az irəlilədikdən sonra dönüb iftixar hissi ilə buruğa baxdı və onun ətrafında

otlayan qoyun sürüsünü gördü. Öz-özünə dedi: "Bu buruq indi bu qoyun sürüsü içərisində nə qədər də qərib və tənha görünür! Ancaq vaxt olar, bu buruqlar göbələk kimi bir-birinin yanından çıxıb balalayar, onda qoyunlar bu buruqlar meşəsində qərib və tənha görünər".

Ağa yaşayış evinə yetişdi. Əl-üzünü yuyub, rahatca yataq yerinə uzandı və şirin yuxuya getdi.

* * *

Laboratoriya təhlilində də süxur nümunəsindəki açıq yaşıllıq özünü göstərdi. Bu, İsmayılın əhvalını xeyli pozdu. Bəs nə etsin? Qazma işini tamam dayandırsınmı? O, evin içində gəzişməyə başladı. Bir azdan sonra öz-özünə: "Yox, yenə səbr etməli", – deyə stolun arxasına keçdi. Akademik Qubkinin, Qolubyatnikovun və Azərbaycan geoloqlarının əsərlərini bir-bir gözdən keçirməyə başladı. "Bu necə ola bilər? Xeyr, yəqin mən səhv etmişəm".

İsmayıl əlinə aldığı əsərlərdə çöküntülər bəhsini daha diqqətlə oxuyub təhlil etməyə başladı. O, nəhayət, Qubkinin əsərlərinin bir yerində süxurlarda istisna və nadir hallar təşkil edən əlamətlərin və xüsusən məhsuldar çöküntünün aşağılarında açıq yaşıllığın mövcud olmasına aid bəhsə rast gəldi. Bu bəhs onu böyük bir ümidsizlikdən qurtardı, sanki ona nicat verdi.

İsmayıl akademik Qubkinin yalnız əsərləri ilə deyil, hətta onun özü ilə də şəxsən tanış idi. O da Qubkinin yetişdirmələrindən biri idi. O, neft sahəsinin bütün xüsusiyyət və sirlərini Qubkinin əsərlərindən öyrənmişdi. İsmayıla elə gəlirdi ki, o indi Qubkini, canlı Qubkini görür. Budur, ortaboylu, enlikürəkli, çalbaş, eynəkli, gülərüzlü Qubkin qarşısında durmuş, ata qayğısı ilə ona ürək verir: "Qorxma, öz işində ol! Bu yerlərdəki Maykop çöküntüsünə şübhə yoxdur. Mütləq neft olacaqdır".

* * *

İyun ayının axırları idi. Günortadan azca keçmişdi. Günəş çölləri od kimi qızdırmışdı. Dağlar başında arabir külək əsirdi. Əgər bu külək olmasaydı, burada istidən nəfəs almaq olmazdı. Boz təpələr arasında, çılpaq açıqlıqlar içərisində salınmış 6 nömrəli buruqda iş öz qaydası ilə gedirdi. Burada çalışanlar işə elə səylə yanaşırdılar ki, qızğın istini elə bil heç hiss etmirdilər. Onların içərisində bir an

belə durmadan hərəkət edən, hamıdan cavan görünən bir adam diqqəti xüsusilə cəlb edirdi. Bu adam son vaxtlar qazmaçılığa irəli çəkilmiş "təzəbəy" idi. Sergeyev başqa buruğa göndərildiyindən indi burada buruq ustası Ağa idi.

– "Təzəbəy", işlər sazdırmı?

– Sazdır, yoldaş usta Ağa.

– Sən yenə hərbi qayda ilə müraciət edirsən, – deyə Ağa yarızarafat, yarıgerçək irad tutdu.

– Usta, hərbi intizamın hər yerdə xeyri var, xüsusən indi burada.

– Elədir, əzizim. İndi bizim işimizin ən məsuliyyətli vaxtıdır. Biz bu gün buruqdan ayrılacağıq. Bu gün onun bəhərini də görəcəyik.

– Quyunu deşən perforator briqadası tezmi gələcək?

– Dünən o briqada Bakıdan yola düşmüşdür. Bir neçə saata burada olar. Demək, quyunun deşilməsi üçün bütün hazırlıq işləri görülmüşdür?

– Yoxlaya bilərsiniz.

Buruğun qarşısında bir avtomaşın durdu. Ondan bir neçə adam düşüb, buruğa tərəf gəldi. Bu gün yaxın kəndlərdən tamaşaya gələn kolxozçular da vardı.

Ağa quyunun deşilməsi üçün lazım olan bütün hazırlıq işlərini yoxladı. Quyunun yanında açıq fontanın qabağını almaq üçün siyirtmə ləvazimatı qoyulmuş, quyudan anbara neft yolu çəkilmiş, su borusu hazırlanmışdı. Ağa "təzəbəy"in növbəsində görülən işlərdən son dərəcə razı qaldı və mədən geoloquna hər şeyin öz qaydasında olduğunu xəbər verdi. Mədən geoloqu da buruqda görülən işləri diqqətlə yoxladı və heç bir nöqsan tapmadı.

Çox çəkmədi ki, elektrokəşfiyyat idarəsinin perforator briqadası özünü buraya yetirdi. Bu briqadanın işi olduqca məsul və son dərəcə dəqiqlik tələb edirdi. Perforator cihazından düzgün istifadə etməyin böyük əhəmiyyəti vardır. Bu cihaz yalnız qət olunmuş dərinlikdə partlayışlar əmələ gətirib quyunu deşməli, neftin çıxmasına yol açmalıdır. Əgər o, lazım olan yerdən aşağı və yuxarıda partlarsa, quyuda böyük qəza baş verə bilər.

İndi işin ən maraqlı vaxtı idi. Qayda üzrə quyu su ilə doldurulur və sonra perforatoru quyuya buraxmağa başlayırlar. Quyunun dibində gedən polad kanatların ölçüsü ilə indi mədən geoloqu məşğul idi. Ağa ilə "təzəbəy" böyük bir ciddiyyətlə bu işi izləyirdilər.

Mədən geoloqu cəbhədə hücuma keçən bir komandir kimi idi. O əmr verirdi.

Quyunun dibindən güclə eşidilən boğuq partlayış səsi gəldi. Bir az əvvəl quyuya tökülən su, neft qazının təsirindən təkrar quyunun ağzına qalxmağa başladı. Perforatoru quyuda çox saxlamaq olmazdı. Onu dərhal quyudan çıxartdılar. Fəhlələr cihazın ətrafına toplandı. Birdən onların simasında təbəssüm oynadı. Gözlər sevincdən parladı – perforatorun kənarında neft damcıları görünmüşdü.

Artıq yubanmaq olmazdı. Neft borusunu quyunun ağzına dayadılar. Çox keçmədi ki, yerin dibindən fəvvarə vuran neft borularla anbara tökülməyə başladı. Neftin güclü axımını görən Ağa öz sevincini gizlədə bilməyərək, "təzəbəy"in əllərindən tutub bərk sıxdı.

– Bax, əzizim, – dedi, – bu quyu gündə 200 tondan çox neft verəcək. Mən belə şeyləri gözəyarı ölçə bilirəm.

– Demək, 200 ton!

– Bəli, ondan da çox!

"Təzəbəy" ustasına nə cavab verəcəyini bilmədi. Onda Ağaya qarşı böyük minnətdarlıq və oğulluq məhəbbəti vardı. Öz-özünə dedi: "Doğrudan da mənim kimi çoban balasını qazmaçı etməkdə o, böyük iş görmüşdür".

Buraya tamaşaya gələn kolxozçular neft anbarının ətrafına toplaşıb güclü neft axınına heyrətlə baxırdılar.

– Bəs fontan niyə olmadı?

– Texnikamız, görün, necə artıb ki, iş onsuz da keçir. Bir damcı neft də hədərə getmir.

– Bu o yana qalsın. Görürsünüz nə duru neftdir! Lap bizim bağların bəhməzi kimi durudur.

– Bakının şanı doşabından duru doşab olmaz. Bu lap onun kimidir, – deyə Ağa onun sözünə qüvvət verdi və sonra üzünü "təzəbəy"ə çevirib dedi: – Bilirsən, dostum, bu yerlərin nefti ən əla neftdir. Rəngi yaşıla çalır. Bu yaxşı əlamətdir. 45 nömrəli buruğun fontanı Lökbatanın üzünü ağartdığı kimi, 6 nömrəli quyu da bizim bu çölləri dünyaya tanıdacaqdır.

"Təzəbəy"in qəlbi sevinclə çırpınırdı.

6 nömrəli tarixi buruq!.. Bu buruğun verəcəyi böyük nemətləri hiss edirdi. Bu parlaq müvəffəqiyyət kolxozçuların, bütün qohumlarının və xüsusən vaxtilə neftin olub-olmaması haqqında mərc çəkdiyi atasının qarşısında onun üzünü ağardacaqdı. O, atasının mərcdə uduzduğuna baxmayaraq, maaşından ona mahud kürk də tikdirəcəkdi.

Əsas iş qurtardıqdan sonra vaxtilə balta haqqında mübahisə edən fəhlə "təzəbəy"ə yanaşdı. Mərc edirkən uduzduğunu xatırlayıb dedi:

– Bəs bizim qaymağımızı havaxt verəcəksən?

– Bu saat, bu saat, – deyə "təzəbəy" cəld adamların içində atasını axtarıb tapdı.

– Ata, sən neft çıxarsa, bütün dostlarımızın hamısını qaymağa qonaq etməyə söz vermişdin, yadındadırmı? İndi nə deyirsən?

Çoban nəvazişkar gözlərilə oğlunu süzüb dedi:

– Belə şey adamın yadından çıxarmı, oğlum! Qaymaq nədir, bütün dostların üçün toğlu da kəsəcəyəm. Ancaq hələlik qaymaq istəyirsiniz, o da baş üstə!

– Əmi, bu istidə qaymaqdansa bizə ayran versən yaxşıdır, – deyə başqa bir fəhlə yerindən dilləndi.

– Bu saat sizə ürək sərinlədən ayran gətirim.

Çox keçmədi ki, o, ayranla dolu çürdək və cam gətirdi, ayranı cama töküb bir-bir buruq fəhlələrinə verdi.

– Qorxmayın, için! Öz qoyunlarımın südündən hazırlamışam. Belə istinin dərmanıdır.

Günəş artıq batmaq üzrə idi. Bürkü yavaş-yavaş azalırdı. Buruq fəhlələri döyüşdə qalib gəlmiş əsgərləri xatırladırdı, ortaya bir şənlik, ruh yüksəkliyi hakim olmuşdu. Hamı bir-birini təbrik edirdi.

Kolxozçular birinci dəfə gördükləri bu bağlı fontanla neft verən quyudan aldıqları qəribə intibahlarla öz kəndlərinə qayıtdılar.

Qoca çoban da adamlardan ayrılaraq, sürüsünü yerindən tərpətdi. Gənc geoloq İsmayılı, onunla ilk tanışlığını xatırladı və öz-özünə belə düşündü: "Demək, belə. Daha buna nə deyəsən! Kişilər dediklərinə həmişə əməl edirlər. Belə adamlara özləri ağırlıqda qızıl da versələr azdır. Yaşasınlar! Allah hamının işini avand eləsin! Mənim oğlumun da! O da yaxşı yol seçdi. Neft yolu – işıqlı yoldur".

Çoban sürüsünü kəndə doğru sürdü. Qoca, oğlunun yaxşı qazancı olduğunu düşündükcə sevinir, fəxr edirdi.

* * *

Gözəl və səfalı yay günlərindən biri idi. Kəşfiyyat qəsəbəsi yaşıl ağaclar və güllər içində qərq olmuşdu. Son illər ərzində qəsəbə öz simasını tamam dəyişmişdi. Kəşfiyyat qazma buruqlarının artması buranın əhalisini də bir xeyli artırmışdı.

Mədəndə işləyənlərin əksəriyyəti gənclərdi. Buranın yüksəlişində nəinki Bakı neftçiləri və yerli əhali, hətta başqa mərkəz şəhərlərinin əməkçiləri də fəal iştirak etmişlər. Bu yeni neft meydançasında onların da böyük əməyi var. Bunları Stalinqrad traktoru, Ural nasosu, Xarkov elektromotoru, Leninqrad dəzgahı cana gətirmişdir.

Qəsəbədə yeni yaşayış evləri, hamam, aşxana, klub inşa edilmişdir. Yeni çəkilmiş elektrik işığı kəndin küçələrini də gündüzə çevirmişdir. Gecə-gündüz, hər vaxt küçələrdə hərəkət etməkdə olan avtomobilləri görmək mümkündür. Son vaxtlar qəsəbədə böyük şənliklər olur. Radioqəbuledicilərin şən səsi bütün ətrafı bürüyür.

İsmayıl neft nazirliyində işlədiyinə baxmayaraq, yenə də tez-tez bu yerlərə gəlir. Yaxşı, maraqlı bir əsərin ikinci və sonrakı fəsillərini mütaliə etmək oxucu üçün nə qədər maraqlıdırsa, burada onun gedişindən sonra yaranmış yenilikləri görmək də İsmayıl üçün bir o qədər maraqlı idi.

Uzaqlarda görünən qocaman, əzəmətli dağlar!.. Bu dağlar indi adamların qüdrəti qarşısında diz çökür. Bunlar daha kimsəsiz, yiyəsiz deyildir. Bu dağların açıq sinəsində neft buruqları salınır, binalar inşa edilir, yeni şose yolları çəkilir. Buruqlardan gələn səslər təpələrdən əks-səda qoparır.

İsmayıl avtomaşından düşüb, qarşıdakı buruqlardan birinə tərəf yönəldi. Bu, həmin yerlərin üzünü ağardan tarixi 6 nömrəli buruq idi. Bu, yeni beşilliyin ilk qələbə müjdəçisi idi. İsmayılın qəlbini hədsiz bir sevinc bürüdü: "Xalqın etimadını qazanmaqdan da böyük səadət olarmı?"

İsmayıl indi bir daha inandı ki, qalibiyyət və onun açarı insanların, əməksevən, iş bacaran və heç bir çətinlikdən qorxmayıb, məqsədindən dönməyən qəhrəmanların öz əlindədir.

Bu xoş günlərində köhnə dostları ilə görüşmək İsmayıla xüsusi bir ləzzət verirdi. Vaxtilə buruqdan süxur nümunəsi gətirən, sonra 6 nömrəli buruğu müvəffəqiyyətlə istismara verən Ağa, ona indi əvvəlkindən də cavan və gümrah göründü. Ağa, İsmayılla səmimiyyətlə görüşdükdən sonra onu yeni qazdığı buruğa apardı. Burada vəziyyət çox yaxşı idi. İsmayıl burada qazma və istismar buruqlarının xeyli artdığını gördü. Mədəndə indi yeni emalatxana tikilmiş, yol çəkilmiş, yeni mədən idarəsi inşa edilmişdi... Burada işləyənlərin əksəriyyəti əmək sahəsində böyük iş nümunələri göstərən qəhrəman Bakı neftçiləri idi.

İsmayıl, mədənin yetişdirdiyi bakılı Ağa ilə, Sergeyevlə və tanıdığı başqa buruq ustaları və qazmaçılarla vidalaşdıqdan sonra şoferə yanaşıb dedi:

– Yaxşı, qayıdaqmı?

– Aha, indi sən deyirsən qayıdaq? – deyə şofer gülümsəyərək, ilk dəfə buraya gələrkən onunla etdiyi söhbəti xatırlatdı.

– Doğrudan da adam indi buradan qayıtmaq istəmir. Ancaq qarşımızda böyük və yeni vəzifələr durmuşdur. – Maşın yerindən tərpəndi, İsmayıl sözünə davam etdi: – Bu yerlərdə neftin olması respublikamızda yeni bir trestin əmələ gəlməsinə səbəb olacaqdır. 40 kilometrliyə yaxın bir məsafədə kəşfiyyat buruqları qazılır. Biz ümumiyyətlə, Kür çayının hər tərəfində – dağlarda, düzlərdə neft axtarırıq. Yeni beşilliyin sonu – 1960-cı ildə mədənlərimiz ölkəyə milyonlarla ton neft verməlidir.

İsmayıl yolun kənarında qoyun sürüsünü görcək, maşını saxlatdırdı. Qoca çobanı tapmaq üçün ətrafa göz gəzdirdi və dərhal çobanın uzaqdan iti addımlarla onun maşınına tərəf gəldiyini gördü.

– Xoş gördük, əmi!

– Sağ ol, oğlum, sağ ol! Afərin! – O, İsmayıla yanaşıb bir ata məhəbbətilə onun alnından öpdü. – Oğlum, ağıl yaşda deyil, başda imiş. Biz cavanlığımızda bu yerlərdə nə qədər quyu qazdıqsa, bir dəfə də şirin su çıxara bilmədik. Ancaq siz bizim çöllərimizdən zəngin xəzinə tapdınız. Hökumətimizin sizə çəkdiyi xərclər boş deyilmiş.

İsmayıl bir an ətrafı gözdən keçirdikdən sonra çobana müraciət edərək soruşdu:

– Bu yerlərdə yenə ceyran olurmu?

– Necə məgər? Olmaya ceyran ovuna çıxmaq istəyirsən? – deyə çoban maraqla xəbər aldı.

– Xeyr, əmi, mən başqa şeyin ovçusuyam... – İsmayıl yaxın bir keçmişi xatırlayıb dedi: – Bir vaxt var idi, buralarda ceyran gəzərdi. Bax, elə bu yerlərdə o zaman mənim qarşımdan üç ceyran qaçmışdı...

– Demək, o ceyranlar xoş qədəmmiş, – deyə çoban onun sözünə qüvvət verib gülümsədi. Sonra o, İsmayılı məlahətli tütək səsilə yola saldı.

*1956*

# BAYRAM BAYRAMOV

(1918-1994)

*Bayram Bayramov Yelizavetpol (Gəncə) quberniyasının Şixavənd kəndində əkinçi ailəsində anadan olmuşdur. İlk təhsilini doğma kəndində yeddiillik məktəbdə almış, sonra Ağdam Pedaqoji Texnikumunu (1938) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1950).*

*Əmək fəaliyyətinə 1938-ci ildə başlayan B.Bayramov Tərtər rayonundakı Quşanlı kənd natamam orta məktəbində müəllim, Müsəlmanlar kənd natamam orta məktəbitndə tədris hissə müdiri, Xoruzlu kənd yeddiillik məktəbində müdir işləmişdir. Böyük Vətən müharibəsində Mozdok uğrunda döyüşlərdə iştirak etmiş, ordudan tərxis edildikdən sonra doğma kəndlərindəki yeddiillik məktəbdə, ali təhsil aldıqdan sonra isə Bakı Kitabxanaçılıq Texnikumunda müəllim, "Azərbaycan" jurnalının redaksiyasında ədəbi işçi, Dövlətnəşrkomda sədr müavini işləmişdir. 1971-ci ildən təqaüdə çıxaraq bədii yaradıcılıqla məşğul olmuşdur.*

*O, 1994-cü il noyabrın 9-da Bakıda vəfat etmiş, II Fəxri xiyabanda dəfn olunmuşdur.*

*B.Bayramov ədəbi fəaliyyətə XX əsrin 50-ci illərində başlamış və istedadlı nasir kimi tanınmışdır. Onun "Yarpaqlar", "Xəzinə", "Bəlalı sevgim", "Ara-kəsmələr", "Fəhlə qardaş", "Gün batanda", "Cıdır düzü", "Karvan yolu" romanları və "Tək adam" povestlər kitabı milli bədii nəsri zənginləşdirən gözəl əsərlərdir. Yazıçının bu cildə daxil edilən "Tək adam" povesti eyni adlı kitabından (B., Uşaqgəncnəşr, 1956) götürülmüşdür.*

## TƏK ADAM

(*Povest*)

### 1

Dadaş, ferma müdirinin üçillik məktəbə getdiyini eşidib, erkən özünü kolxoz sədri Bəhmənin yanına yetirdi. Bəhmən yaşca böyük olmasa da Dadaş onu "qağa" deyə çağırırdı.

– Qağa, daha mənim bekar gəzdiyim bəsdir, özüm də xəcalət çəkirəm, məni bir işə qoysana...

Bəhmən gödək, qalın qaşlarını çatıb təəccüblə dedi:

– Bekar niyə olursan, Dadaş, kolxozda da işsiz adam olar?

Dadaş bu sualdan tutuldu, fikrini kolxoz sədrinə yaxşı çatdıra bilməmişdi.

– Bekar deyəndə ki... – o, boğazını arıtladı, – elə-belə ara işlərinə gedirəm, mən vəzifə adamıyam, axı mənim tay-tuşum hərəsi kolxozda bir vəzifədədir, bacarığım, savadım kimdən əskikdir?

Bəhmən ona mənalı-mənalı baxıb dedi:

– Dadaş, gileylənməyə haqqın yoxdur, səni biz də bacarıqlı, savadlı bilib briqadir qoyduq, cəmisi altı ay işləyəndən sonra gündə gəldin ki, bacarmıram. Bu mənim işim deyil, axırda da özün ərizə verdin, çıxartdıq, indi də gileylənirsən.

– Düzdür, çıxdım, – deyə Dadaş sədrin sözünü təsdiq etdi, – ərizəmi gətirin, oxuyun, mən yazmışam ki, təsərrüfat işini bacarmıram, mənim ixtisasım qoyunçuluq, maldarlıqdır. Hər kəs öz bacardığı işi görsə yaxşıdır.

Bəhmən "ixtisasım" sözünə çiyinlərini ata-ata güldü:

– O ixtisası harada qazanmısan, ay Dadaş?

Sədrin gülməyindən inciyən, öz yumşaqlığını saxlayan Dadaş ixtisasa nə vaxtdan sahib olduğunu söyləməyə başladı:

– Yadında deyil, Bəhmən qağa, hələ kolxozdan qabaq camaatın quzusunu otarırdım, sonra da orta məktəbi qurtardım, maldarlığa aid çoxlu kitab oxumağa, 10 gündə bir dəfə rayonda keçirilən maldarlıq seminarında könüllü olaraq iştirak etməyə başladım. Yaxın günlərdə zootexniklə söhbət edirdim, dedi: "Dadaş, canın üçün, əsil ferma işçisi səndən olar".

Kolxoz sədri alnını sol əlinin ovcuna söykəyib bir qədər duruxduqdan sonra:

– Yaxşı, deyək ki, ixtisasın maldarlıqdır, belə de görüm, hansı işi bacarırsan?

Dadaş bu suala tez cavab verə bilərdi, ancaq bir qədər dinməyib başını aşağı saldı:

– Mən nə deyim, yoldaş Bəhmən, özün bil, sən hansı vəzifəni layiq görsən işlərəm... Ferma müdiri də deyirlər oxumağa gedib...

Kolxoz sədri bir qədər düşündü, ayağa qalxıb əllərini göy qalife şalvarının cibinə qoydu və stolun arxasında gəzindi. Birdən üzünü maraqla gözləyən Dadaşa tərəf çevirərək, "Baxarıq", – dedi.

Dadaş kolxozun heyət idarə üzvlərinin hamısını bir-bir götürüb, özünün ferma müdiri düzəlməsini xahiş etdi. Sözü ötən adamlara üz tutdu, nəhayət, arzusuna çata bildi. "Vəzifəni aldım, Maralı da yəqin ovlaram", – dedi.

* * *

Bahar axşamının sərin mehi Sünbülün xurmayı qıvrım saçlarını oxşayır, onun pörtmüş girdə sifətinə xoş bir sərinlik gətirirdi. O özünün dediyi kimi, "otuz balasının" hamısını evlərə aparır, öpərək analarına tapşırdıqdan sonra, səfalı kənd axşamının ətirli havasından ciyər dolusu nəfəs ala-ala evlərinə dönürdü.

Mirov dağının buzlu zirvəsindən hələ enməmiş günəşin şüaları altında kəndin düzləri, bağları al-əlvan rəngə çalırdı. Otlar, güllər, ağaclar rəngarəng çiçək açaraq gətirəcəkləri bollu barın xəbərini indidən verirdi. Sünbül ətirli güllərə, əlvan çiçəklərə baxırdı. Bunların hamısı onun qəlbində baş qaldıran övlad arzusuna qol-qanad verirdi. "Hər şey bar verir, söyüd kimi ancaq kölgə salmaqla kifayətlənib, barsız qalmağın da mənası yoxdur", – deyirdi...

Ağ samovar süfrənin başında zümzümə edir, qalaylı qazanda buğlanıb daşan bişmişin iyi ətrafa yayılırdı; evdə ürək açan bir səliqə vardı. Bugünkü düşüncələrdən sonra Sünbülün üzündə xəfif bir kədər görünürdü. Üç ildir Dadaşla yaşayır, beş ildir uşaq bağçasında tərbiyəçidir, körpələrin nazını çəkməkdən artıq onun üçün böyük bir zövq yoxdur... Onlara həmişə mənim "otuz balam" deyir, indi onun qəlbində baş qaldıran uşaq arzusu daha da güclənir, o, ana olmaq istəyirdi.

Həyatda övladdan şirin bir şey varmı?! Bəlkə son zamanlar Dadaş da elə uşaq olmadığına görə ondan soyumuşdur?!

Sünbül gözlərini bir nöqtəyə zilləyib xəyala getmişdi. Sanki balıq kimi ağzını açıb üzünə gülən tumbul bir körpə ilə əylənir, onunla şirin ana dililə danışırdı. Gülüzlü körpə böyüyür, oturur, iməkləyir, saçları uzanıb qıvrılır, o yıxılıb-durur, qollarını açıb anasının döşünə sığınır... Ana öz balasını dərin və güclü bir ehtirasla öpür, dünyada heç bir şeylə əvəz edilə bilməyən ləzzət alır...

Sünbül, bu mənzərəni görürmüş kimi, sövq-təbii olaraq gülümsünür, qaşları çatılırdı. O, bu şirin düşüncələr içərisində Dadaşın yolunu gözləyir, müalicə etdirmək haqqında bu axşam onunla qəti danışmaq istəyirdi.

Axır vaxtlar qaşqabağı tökülü olan Dadaş, axşamdan xeyli keçmiş xüsusi bir nəşə ilə evə girdi. Onun sevinci bütün hərəkətlərində, xırda gözlərində, gülümsər sifətində, nazik dodaqlarını büzüb çaldığı fitində ifadə olunurdu. O, Sünbülə son iki ayda görünməyən bir mehribanlıq göstərirdi.

Yeyib-içdikdən sonra Dadaş Sünbülə tapşırıq verməyə başladı:

– Sünbül, mənim dəyişəyimi hazırla, üst paltarlarımdan da o qara qalife şalvarı, sarı yun köynəyi yanıma qoy, – dedi, – səhər tezdən çıxacağıq.

"Çıxacağıq" sözü Sünbülün ürəyindən oldu. Bir neçə gün idi ki, Sünbül ərindən onu müalicəyə aparmasını xahiş edirdi. Lakin Dadaş qaşqabağını töküb: "Keçi can hayındadır, qəssab piy axtarır, – deyirdi. – İki aydır işsiz-gücsüz qalmışam, heç onun dərdini çəkmir, təzədən uşaq eşqinə düşüb".

"Yəqin daha ona da təsir edir, necə olsa insandır, ürəyi var!" – deyə düşünən Sünbül sevinərək soruşdu:

– Bəs niyə qabaqcadan demirdin, hazırlıq görəydik. Mən də icazə alaydım, yerimdə adam qoyaydım?

Dadaş, Sünbülün fikrini başa düşüb üzünü yenə turşudaraq:

– Özgə yerə gedirəm, ay Sünbül, – dedi, – o hələ sonrakı işdir.

Sünbülün yenicə açılmış sifəti tutuldu, o, təəccüblə soruşdu:

– Bəs hara belə, Dadaş?

– Fermaya gedirəm.

– Orada nə işin var?

– Məni qoyunçuluq fermasına müdir göndərirlər.

Sünbül diksindi, hər şeyi ölçüb-biçən, ərinin və özünün hərəkətlərinə diqqət yetirən, çox vaxt ərinə yol göstərən Sünbül, Dadaşın bu gedişinin mənasını müəyyən edə bilmədi.

"Nə üçün Dadaş, mənə deməmişdir?" Lakin o, danışmağın daha gec olduğunu görüb:

– Dadaş, – dedi, – indi ki gedirsən, daha ağıllıbaşlı işlə, bəsdir gündə bir qulluq dəyişməyin!

Son üç ildə Sünbül ona az-çox təsir etmişdisə də, o, yenə beynindəki köhnə şüarını öz-özlüyündə təkrar edirdi: "Məhəbbətlə vəzifə müvəqqətidir, arvadın təzəsi, vəzifənin yağlısı".

Ağlı-qaralı qoyun sürüsü çay kənarındakı novlu bulağın üst tərəfində, "Qayışqıran" güneyə muncuq kimi səpələnmişdi. Qoyun sürüsündən bir az yuxarı, dik daşın üstündə oturub, sürüyə tərəf baxan çoban Heydər, yaz gecəsinin şehindən islanmış qırmızı naxışlı yun corablarını çıxarıb, daşın üstünə sərmişdi. Günəş qarşıdakı dağın üstündən bir adam boyu qalxmışdı. Çayın gün doğan sahilində ferma binəsinin alaçıqlarından, qoyunun arxacından seyrək duman kimi burula-burula buğ qalxırdı.

Maral, günəşin şüaları altında gümüş kimi parıldayan təzə qalaylanmış mis səhəngi götürüb dar cığırla novlu bulağa tərəf enirdi.

Son zamanlar Heydər sürünü tez-tez "Qayışqıran" güneyə verər, Maral da ağ sənəyi götürüb novlu bulağa gələrdi. Bunu müşahidə edən Dadaş şübhələnməyə başlamışdı. Bir dəfə o, əllərini arxasında çarpazlayıb başqa bir cığırla Heydərin yanına gəldi. Heydər, səhəngi bulağa söykəyən, hərdən gözaltı ona tərəf boylanan Marala baxa-baxa, yanıqlı səslə: "Yenə cilvələnib keçdi qarşımdan" mahnısını oxuyurdu. Maral ən çox sevdiyi bu məlahətli səsi eşidib fikrə getmişdi. Nova söykənən səhəng çoxdan dolmuş, bulağın duru suyu onun üstündən şırhaşırla axıb gedirdi...

Heydərin də gözləri novlu bulağa tərəf zillənmiş, bütün düşüncəsi orada mərkəzləşmişdi. O, Dadaşın yaxından "nə olub, ay zalım, Kərəm kimi alışmısan" dediyi sözləri güclə eşitdi. Özünü yığışdırdı. Bu yersiz gəlişdən narazı olsa da, Dadaşın üzünə gülümsündü və onun salam verdiyini zənn edərək:

– Əleykümməssalam! – dedi.

Dadaş novlu bulağa tərəf işarə edərək:

– Bərədə duran Maral, – dedi, – ovçunun ağlını yaman aparıb ha!

Maral səhəngi götürüb bulaqdan uzaqlaşdı.

Dilxor olmuş Heydər söhbəti başqa səmtə salmaq üçün:

– Səndən nə əcəb? – dedi. – Dadaş, belə tezdən durub qoyunun içinə çıxıbsan?

Heydərin sualı Dadaşa toxundu. Ancaq özünü sındırmayıb üstündən keçdi. Axı o, müəyyən məqsədlə gəlmişdi...

– Dedim, bir sənlə söhbət eləyim, ikimiz də cavanıq, dərdini-odunu bilim, – deyə Dadaş Heydərə dost kimi yanaşdı.

– Nə dərdim olacaq, ay Dadaş, keyfim kök, damağım çağ, qoyunlar da salamat, gümrah, – deyə Heydər yenə də gülümsündü.

Dadaş lap ortadan vurdu:

– Əyə, de görüm aranız necədir, işlər düzəlir, ya yox?

Heydər suala sualla cavab verdi:

– Mənim aram kimlə pisdir ki?

– Demirəm ha, pisdir, yəni bu yaxında toyunuzda oynayırıqmı?

– Sağlıq olsun, fikrim payızda toy eləməkdir.

Bu gözlənilməz söz elə bil Dadaşın belini sındırdı. Bəs o, fermaya bir də Maralın dərdindən gəlməmişdimi? Bu müddətdə gecə-gündüz düşünərək, öz "alovlu eşqini" Marala yazmamışdımı?

"Əzizim Maral, demə ki, Dadaşın başı xarab olub, evli adamdır, arvadı var. Əvvəla, onu bil ki, məhəbbət səksən yaşında adamın da qəlbini alışdırıb yandıra bilər. İkincisi, mənim evli olmağımın quruca adı var. Ruhum neçə aydır ki, sənin yanındadır. Məni Sünbülə bağlayan heç bir şey yoxdur, bilirsən ki, uşağı olmur. Mən də axı, yerimdə yurdçu, evimdə səs-küy salan istəyirəm. Sən bir kəlmə "hə" desən, sabahı boşanma haqqında elanı qəzetdə görərsən, özün bilirsən mən də cavanam. Səbirsizliklə cavabını gözləyirəm. Səni özündən artıq sevən D..."

İndiyə kimi üç-dörd məktub yazmışdısa da Maral hamısını alıb gözünün qabağında cırıb atmışdı. Bunları bir "şıltaqlıq" sayan Dadaşa indi aydın oldu ki, Maral Heydəri sevir. Özünü birtəhər doğruldub sual-cavaba girişdi:

– Maral da razıdırmı?

– Razıdır.

– Lap özü ilə danışmısan?

– Danışmışam.

– Bəs niyə bunu heç kəs bilmir?

– Elan-zad verəsi deyilik ha...

– Yaxşı, qızın ata-anası necə?

– Səndən başqa hamı bilir, yoldaş müdir, – deyə Heydər kinayəli cavab verdi.

Heydərin üzündəki və hərəkətlərindəki ifadələrə fikir verdikcə bu sözlər Dadaşa zarafat gəlirdi. Heydərin belə açıq danışması onu şübhələndirirdi. Lakin birdən onun gözü daşın üstünə sərilmiş qırmızı naxışlı corablara sataşdı. Onları bir neçə gün bundan əvvəl Maral əlində toxuduğu zaman görmüşdü. Daha şübhə yeri qalmadı...

Dadaş düşünürdü. Onun sifətində gah kədər, gah da ümid əlamətləri görünürdü. Kədərinin səbəbi aydın idi.

Naxışlı corab və Heydərin açıq danışığı Dadaşın Maral haqqında olan fikrini məhv edirdi. Bəs onun üzündə gəzən ümid ifadələri haradan, hansı səbəbdən əmələ gəlirdi? Dadaş "yüz ölçüb, bir biçməyi" bacarırdı. O, Heydər-Maral məsələsindən özünün başqa, əsas məqsədi üçün istifadə edə biləcəyini, "Heydəri tora salacağını" düşündükcə, gözləri ov görmüş pişik gözləri kimi bərəlirdi. O, Maralla Heydərin arasındakı sevgiyə çox razı olan və ən yaxın ürək adamı kimi Heydəri təbrik etməyə, ona dil tökməyə başladı:

– Mübarək olsun, ay zalım balası, canım üçün gül vurmusan, gül! Toyunu gərək özüm eləyəm.

Heydər razılığını bildirdi:
– Çox sağ ol!
Dadaş əsas məsələ üstünə gəlmək üçün:
– Keyfini pozma, Heydər, – dedi, – sən öləsən, gərək bir toy vurduram göy üzü tutula, düz bir həftə. – O, əlini döşünə döyə-döyə: – Müdirin ölməyib ha, bütün xərcini də özüm çəkəcəyəm.
Heydər gülümsünərək şəhadət və baş barmağı ilə ucları yeni-yeni burulan qara nazik bığlarını sığallaya-sığallaya dilləndi:
– Özümün varıma nə gəlib, düz bir ay kolxozun adamına yemək-içmək verib toy vurdura bilərəm.
Dadaş canıyananlıq göstərib:
– Ə, bilirəm ey, varındır. Amma niyə, balam? Atalar məsəlidir: "Bal tutan barmaq yalar". Qışın ayazında, yayın odlu istisində gecə-gündüz qarağac qabığı kimi yanıb, ilan tək dəridən çıxıb sürü bəsləyirik, yəni bunun bir beş-altısını sənin toyunda xərc eləsək, dünya dağılar?
Heydər, müdirin sözlərinə diqqətlə qulaq asdı. Onun sükutunu görən Dadaş isə bunun bir razılıq əlaməti olduğunu düşünüb, həvəslə davam edirdi:
– Bostançı – bostançıdı, o da qovunun yaxşısını özü yeyir. Sənin işin olmasın, böyük erkəklərdən beş-altısını sənin toyuna verəcəyəm, yerini də özüm düzəldəcəyəm. Mənim işçim gərək mən istəyən kimi dolansın, mən belə adamam ki, özümdən əvvəl yoldaşımın qeydinə qalaram. Dünya malı əl kiridir, bu gün var, sabah yox. Necə deyərlər: "Əl əli yuyar, əl də üzü!", "Xeyir-şər borc olar". Bu gün mən sənə, sabah da sən mənə, belədir, ya yox? Heydər, mən ölüm, düzünü de.
Heydər acı-acı gülümsündükdən sonra gözlərini qıyıb, qaşlarını çataraq:
– Əlin yağlıdırsa, öz başına çək, – dedi, – kolxozun malı yiyəsiz deyil ha, hər yetən istədiyi qədər götürə.
Dadaş Heydərin ciddiləşdiyini görüb:
– Sən də qəribə adamsan, – dedi, – mal kolxozundur, biz də kolxozçuyuq, demirəm ha oğurlayaq, sabah da tutsunlar boğazımızdan, xeyr a! Elə düzəldərik ki, sayı-sanlı qoz kimi yerində olsun...
Heydər Dadaşın sözünü kəsib onu ələ saldı:
– Mən ölüm, doğru deyirsən?
O, Heydəri yola gətirdiyini, erkəklərdən xərcləyə biləcəyini düşünüb ürəkdən and içdi:

– Sən öl, doğru deyirəm, Heydər, uşaqsan?!

Heydər:

– Vaxtım yoxdur, – dedi, – özciyəzin öləsən. Buradan elə get ki, izin-tozun görünməsin. Onun yiyəsi hələ ölməyib, çöl fındığı deyil ki, hərə bir xışma cibinə tökə.

Heydər baltanı kökündən vurdu.

Atdığı kəməndin boşa çıxdığını görən Dadaş, Heydərin şübhələnməməsi üçün sözü başqa səmtə yönəldərək vəziyyətdən çıxmağa çalışdı:

– Afərin, Heydər, – dedi, – səni sınayırdım, doğrudan da sən qiyamət oğlansan.

Heydər yenə də onun daxildə olan hər cür xəyanət hisslərini məharətlə gizlədə bilən sifətinə şübhəli-şübhəli baxaraq:

– Mən çoxdan sınaqdan çıxmışam, get özünü sına, – deyib üzünü Dadaşdan çevirdi və dişlərinin arasından fit verərək yatan qoyunları durquzub, otlağa tərəf yellədi.

Dadaş bir müddət tərpənə bilmədi. Kələyinin baş tutmadığını görüb yerində donmuşdu. O, Heydərin arxasınca xeyli baxıb dedi: "Sənə elə bir toy vurdurum ki, nağaranın səsi ölüncə qulaqlarından getməsin".

## 2

Fermanın yay binəsinə köçməsinin vaxtı idi. Lakin Dadaş özünə qəti söz vermişdi ki, Heydəri fermadan uzaqlaşdırmamış heç yana köçməyəcəkdir. "Mən Heydərlə işləyə bilmərəm, – deyə düşünürdü. – O, mənim fikrimə razı olmaz, bir də Maralı yola gətirmək üçün Heydər fermada qalmamalıdır".

Dadaş kolxoz sədrinin kabinetinə girərkən sədr o baş, bu başa gəzinir, altı aylıq qoyunçuluq kursuna göndərmək üçün münasib adam haqqında fikirləşirdi: "Elə adam olsun ki, gələndə təzə təşkil olunacaq zərif yunlu qoyun fermasına müdir qoya bilək". O, bu iş üçün Heydəri hamıdan çox münasib bilirdi.

Dadaş içəri girərkən Bəhmən onun ciddi bir vəziyyətdə olduğunu görüb soruşdu:

– Xeyirdirmi, Dadaş?

Dadaş özünü qayğılı göstərmək üçün daha da qaş-qabağını salladı və ağır yük altında qalmış kimi hıqqıldadı.

– Nə bilim, – dedi, – vallah, adamı göndərirsiniz bitməz işə, adını da qoyursunuz yarıtmaz.

– Yenə də gileylənmə, de görək, nə olub axı?

– Əşşi, bundan artıq nə olacaq, – deyə Dadaş dik-dik danışmağa başladı: – Heç bir soruşan yoxdur ki, ay Dadaş, ferma yay binəsinə köçür, kimlə işləyəcəksən? Fermada kadr işi necədir?

Dadaş, Heydərin haqqında uydurduqlarını: "Onun qoyunları hər gün "Qayışqıran" güneydə daşlığa yığmasından, can yandırmamasından, ferma qoyununun yunundan gündə bir cüt naxışlı corab toxutdurmasından, eşqbazlıq etməsindən sədrə danışmaq, onu fermadan uzaqlaşdırmaq istəyirdi.

Bəhmən onun sözünü kəsdi:

– Hə, – dedi, – bilirəm bu giley nə üçündür, Heydəri kursa göndərməyimizə razı deyilsən?

Dadaşın gözləri hədəqəsindən çıxdı.

Sədr davam edirdi:

– Heydərdən münasib adam yoxdur, Dadaş! Dörd-beş ildir fermada işləyir, savadı var, can yandıran oğlandır. Əli əyri deyil, əsil ferma adamıdır. Düzdür, sənin üçün də Heydərsiz çətin olacaq, amma zərifyunlu qoyun fermasına müdir hər kəsi qoymaq olmaz.

Dadaş məsələni dərhal anladı, Heydərin bunsuz da kursa göndərildiyini görüb, daha üstünü vurmadı. Hətta Heydərin getməsinə guya tərəfdar olmadığını bildirdi:

– Odur ki, düz eləmirsiniz də, – dedi. – "Məndən ötdü qardaşıma dəydi, elə bil saman çuvalına dəydi" eləyirsiniz. Bəs bu fermaya baş çoban kimi qoyacaqsınız?

– Müdirisən, sən də fikirləş, kim münasib isə onu qoyaq.

Sönməkdə olan lampaya neft töküləndə şölələnməyə başladığı kimi, Dadaşın da gözləri işıqlandı, məqsədinə çatdığı üçün içəridən sevindi, ancaq bu sevinci büruzə verməməkdən ötrü öz ciddiliyini saxlamağa çalışdı:

– İndi ki belədir, onda heç olmasa, Qulamı qoy, qol-qılçası möhkəm adamdır, həm də ki, cavandır.

Sədr bir qədər fikirləşdi. Qulam pis kolxozçu deyildi. Öhdəsinə götürdüyü işi yarıdan idi.

– Yaxşı, – deyə Bəhmən razılaşdı. – Ancaq, Dadaş, onu bil ki, fermanın bütün məsuliyyəti sənin üstündədir, birdən o yan-bu yan olar ha!

Bu sözlər Dadaşa toxundu, onun tükləri ürpərdi, bədəni uyuşan kimi oldu. Əvvəlcədən hazırladığı planı indi yadına salanda qorxdu, içəridən əsdi, ancaq bir az düşündükdən sonra ürəyində "birdən o yan-bu yan olar" sözlərinin qabağına belə bir cavab qoydu: "O yan-bu yan olsa da, elə edərik ki, səsi çıxmaz!"

O:

– Arxayın ol, Bəhmən qağa, – deyib otaqdan çıxdı.

Dadaş təcili olaraq Heydəri baş çobanlıqdan çıxarıb yerinə Qulamı qoydu, təhvil-təslim işinə başladı. O, təhvil verilən hər bir qoyunu nəzərdən keçirir, başı çıxan adam kimi yaşını, arıq-köklüyünü təyin edirdi. O çalışırdı ki, qoyunların qruplar üzrə sayını öz məqsədinə uyğun olaraq müəyyənləşdirsin, iki-üç illik erkəkləri toğlu, toğluları isə quzu qrupuna daxil etsin.

– Yox, yox, bu erkək deyil, görmürsünüz toğludur, onu heç vaxt erkək qrupuna yazmaq olmaz. Mən uşaq-zad deyiləm. Heyvanı beş barmağım kimi tanıyıram.

Heydər etiraz edərək:

– Ay Dadaş, niyə höcət eləyirsən, bu sarı kürəni çobanların hamısı tanıyır, qaytanlanmış kitabda doğum vaxtı yazılıb. İnanmırsan üç il bundan qabaq yazılmış doğum aktına bax, hansı qoyunun balası olduğu da məlumdur, – dedi.

– Əşi, nə kitab, nə akt, qoyunun içində yüz sarı kürən var, mənim gözüm görmür ki, toğludur?

– Elə isə mütəxəssis çağıraq, – deyə Heydər israr edirdi.

– Heydər, bilirsən nə var? Bu əmlaka cavabdeh mənəm, özüm də sənin mütəxəssisindən az bilmirəm, məni aldatmaq çox çətin olar; zəhmət çək, heyvanı düzgün, hər qrupu ayrıca təhvil ver, bildinmi?

Heydər özünə məxsus bir sadəlik və düzgünlüklə:

– Özünüz yaxşı tanımırsınız, mən deyənə də inanmırsınız, aktı-kitabı düzgün hesab eləmirsiniz. Mütəxəssis çağırmağa razı olmursunuz, bəs nə cür eləyək?

Qulam da Dadaşın qarşısında sakitcə dayanıb dillənmir, sonra özünün məsuliyyətdə qalacağından qorxurdu.

Ömrünün çoxunu çobanlıqda keçirən Əmralı kişi də işə qarışır, Heydərin dediklərini təsdiq eləməyə çalışırdı:

– Ə, bu boyda toğlu olar? Səhərdən bəri mən fikir verirəm. "O toğludur, bu quzudu" – deyə-deyə bu böyük sürünü toğlu-quzuya döndərmisiniz, canım!

– Sən öz işində ol, Əmralı kişi, qoyunu, toğlunu mənə tanıtdırmayacaqsan ki!..

– Yox ey, balam, saç-saqqal ağartmışam, günüm bu sürünün içində keçib, axı başım bir şeydən çıxır da, deyirəm ki, yanı nahaq yerə cəhd eləməyəsiniz.

Özü üçün xeyirli olmayan bu sözlərdən xoşu gəlmədiyinə görə Dadaş, Əmralı çobanın üzünə hirsli-hirsli baxıb, təhvil-təslim aktı yazan hesabdar Məmişə tərəf çevrildi:

– Niyə yazmırsan, yoldaş Məmiş, görmürsən ki, quzudu? Yaz, çal kərə quzu dörd aylıq.

Heydər Dadaşın atı yoxuşa sürdüyünü görüb:

– Bura bax, Dadaş, – dedi, – bir mənə de görüm bu qoyunların yaşını azaltmaqda məqsədin nədir?

– Məqsədim? Məqsədim odur ki, aldanmayam, bu bir; ikincisi, qoy camaat bilsin ki, həmişə sədaqətdən dəm vuran adamlar kolxozun sürüsünü dağıdıb, nər kimi erkəklərin yerinə toğlu-quzu yığıblar, məqsədim budur, bildinmi?!

Heydər dolmuş bulud kimi tutuldu, elə bil bütün aləm onun başına hərləndi. Ömründə belə bir şey heç ağlına da gəlməmişdi. O özündən arxayın olsa da, belə böhtan qarşısında sarsıldı. Dadaşa qarşı şübhəsi daha da artdı:

– Mən mütəxəssis və ağıllı bir komissiya olmasa, qoyunları təhvil verməyəcəyəm, – deyə Heydər qəti bildirdi. – Əgər mən doğrudan da Dadaş deyən kimi eləmişəmsə, qoy məni hər nə cür lazımdır cəzalandırsınlar.

Eynəyin altından gözlərini bərəldən Məmiş pərt olmuş halda:

– Ə, sözünə sərhəd qoy, – dedi, – bəyəm biz dəliyik? Ağıllı komissiya istəyirsən? Səhərdən iş-gücümüzdən avara olub, qızıl kimi vaxtımızı sərf eləmişik sənin təhvil-təsliminə, düz söz səni ağrıdır? Kişi doğru deyir də, heyvanı qruplara görə düzgün təhvil ver, çıxsın getsin, daha artıq-əskik danışmaq nəyə lazımdır?

Məmişin sözləri Heydəri təbii halından çıxartdı:

– Necə yəni düzgün təhvil ver, bəyəm aldadıram, əgər inanmırsınız, hesabdarsan aç kitabı, hər bir qoyunun yaşını göstər, biz də səninlə razılaşaq.

Dərin haqq-hesabla arası olmayan və düzgün hesab saxlamadığına görə belə dolaşıqlığa səbəb olan Məmiş:

– Lazım gəlsə, kitaba sənsiz də baxa bilərik, hələ bir sən təhvil ver, görək nə cür çıxır. Qalanı bizim öz işimizdir, – dedi.

Hesabdarın sözünü Dadaş da təsdiqlədi.

– Bəli, bəli, biz hesab-kitaba baxacağıq, hələ bir deyirik görək sən necə hesab verirsən, yoxsa elə bilirsən hesab-zad yoxdur?

– Xeyr, mütəxəssis olmasa, sürünü təhvil verməyəcəyəm, – deyə Heydər ayrılmış heyvanları sürüyə qataraq, qoyunları örüşə doğru fıştırıqladı.

Heydərin tələbi üzrə rayon kənd təsərrüfat şöbəsi baş zootexnikinin başçılığı ilə təşkil olunan komissiya sürünü təhvil verdi. Dadaş yenə təkid etdi ki, sürü komissiya vasitəsilə düzgün qruplarla hesaba alındı. Lakin Dadaş "gələcək üçün" kolxoz heyət idarəsinə bir izahat yazdı ki, "Komissiya birtərəfli hərəkət edərək, sürünü düzgün qruplaşdırmamışdır".

Dadaş, Heydərin fermadan getməsinin səbəbini soruşanlara: "Qovdum, can yandırmırdı, mənə də Dadaş deyərlər", – deyirdi. O, öz gücünü Marala bildirmək üçün daha da bərkdən səslənirdi.

Bu il ferma uzaq Mirov yaylağına deyil, yaxında, kolxozun öz torpağında olan on altı-on yeddi kilometr aralıdakı Qaraman dağına köçəcəkdi.

Mütəxəssislər və təcrübəli çobanlar müəyyən etmişlər ki, qoyunu 7-8 günlük yola aparmaq heyvanı üzür, ayaqdan salır, məhsulun daşınmasında çətinlik törədir; külli miqdarda artıq əmək sərf edilməsinə səbəb olur.

Dadaş, qoyunun yaxın yaylağa getməsinə narazı olsa da, şübhə olmasın deyə, dillənmədi, amma o, sədr barəsində xeyli götür-qoy elədi: "Bu kişi mən nə desəm onu eləyir, sözümü eşidir, çıxart deyirəm çıxardır, qoy deyirəm, qoyur. Məndə də bir qanacaq olmasınmı?" O, fermanı yola salmamış yorğa ürkək kəhər atı minib, idarəyə yox, düz Bəhmənin evinə yollandı.

Bəhmən səhər tezdən iş üstünə çıxmağa hazırlaşarkən, Dadaş onun üstünü aldı. Bəhmən, ferma müdirini həyət darvazasında qarşıladı.

– Salam, qağa, – deyə Dadaş, yaltaqcasına dişlərini ağartdı. Bəhmən onun salamını alıb evə dəvət etdi.

– Yox, Bəhmən qağa, elə burada sənə bir neçə sözüm var. Dadaş atdan düşdü. Bəhmən öz atını yedəkləyərək:

– Onda yavaş-yavaş iş üstünə tərəf çıxaq, həm də danışaq, – dedi.

Onlar kəndin içi ilə yedəklərində at, pambıq tarlalarına tərəf gedirdilər. Dadaş haradan başlamaq, fikrini ona necə bildirmək haqqında düşünürdü. Bir müddət hər ikisi dinməz-söyləməz irəlilədilər.

Birdən sədr soruşdu:

– Fermanı yola saldın, ya yox?

– Sağından sonra yığacaqlar, dedim bugünkü südü burada mayalayaq.

Sədr başını qaldırıb kolxozun məhsullu çöllərinə baxa-baxa:

– Heyvanı ləngitməyin, – dedi, – yığın getsin. Çatışmayan bir şey varsa, onu da de.

– Hələlik hər şey öz qaydasındadır, – deyə Dadaş udqundu...

Sədr soruşdu:

– Sürünü baytar həkimləri müayinədən keçiriblərmi?

Həkim, mütəxəssis, komissiya sözündən xoşu gəlməyən Dadaş, sir-sifətini acımış xəmir kimi turşudaraq:

– Əşi, nə müayinə, – dedi, – necə deyərlər, olan oldu, keçən keçdi. Heydər toğlu-quzunu yığdı erkək qoyun yerinə verdi təhvil, bundan sonra nə mütəxəssis, nə həkim?

Sədr Dadaşın həmişəki kimi giley-güzar edəcəyini görüb:

– Yenə başlama, – dedi, – həkim müayinəsi onun üçün deyil ki, qoyunun qrupunu müəyyənləşdirsin. Sürünün qrupları çoxdan müəyyən olunub, ona görədir ki, heyvanda xəstəlik varsa, aşkara çıxarsın, dərmanlansın, iynələsin.

Dadaş, Bəhməni pərt eləməmək üçün könülsüz də olsa məlumat verdi:

– Bəli, dünən rayon kənd təsərrüfat şöbəsinin baytar həkimi gəlmişdi, o da baş zootexnik kimi başdansovma baxıb getdi, dedi ki, adam göndərin dərmanlar var, rayondan gətirsin.

Dadaş, kim olur-olsun, fermaya kənar adamın gəlməsinə razı deyildi. Ona görə həkimin qoyunları müayinə etməsi üçün heç bir şərait yaratmamış və yarımçıq getməsinə səbəb olmuşdu.

Bəhmən dayanıb, yəhərin tapqırlarını bərkidə-bərkidə:

– Mənlə nə işin var idi? – dedi, – o biri briqadaya getmək istəyirəm.

– Heç, sənin sağlığın, qağa, – deyə Dadaş dilləndi, – dedim ferma gedir, bəlkə qonağın-zadın oldu, bir-iki yaxşı əmlik var, qoyum qalsın, bir dənə də üzlü motal, uşaqlar üçün...

Bu sözləri eşidən Bəhmənin sifəti qıpqırmızı qızardı. Əl-ayağı əsdi, dodaqları səyridi.

– Ferma bizim dədəmizin malıdır, balam, bağışlayasan?

Dadaş özünü itirdi:

– Dədəmin niyə, kolxozundur.

– Bəs əmlik, motal bağışlamağa sənə kim ixtiyar verib?

Dadaş yenə də süni bir gülüşlə:

– Əşi, deyirəm kolxozun qonağı gələr, məəttəl qalarsınız...

– Ağlın özgə adama getməsin, Dadaş, mənim dilimə haram tikə dəyməyib, haram tikə əgər doğma balamın da dilinə dəysə, onun dilini kökündən kəsərəm, yaxşı bil, – deyə Bəhmən atın üstünə qalxdı və qəzəbli bir nəzərlə Dadaşın arıq və uzun vücudunu başdan-ayağa qədər süzdükdən sonra atına bir qamçı vurub aralandı.

Dadaş bir müddət donmuş kimi yerindən tərpənmədi. Yanından atın getdiyini görən kəhər ürkə kişnəyib dartınır, yerə döydüyü ayağının zərbəsi ilə sıçrayıb qalxan kəsək və çınqıldan ürkürdüsə də Dadaşı fikrindən ayıra bilmirdi: "Boynu sınmış canım, nahaq dedim, indi məndən şübhələnəcəkdir".

Maral ferma yola düşməmiş ala tumanının balağını yığışdırıb, Sünbülün yanına gəldi. Fermanın olduğu "Güllütala" binəsindən Sünbülgilin obasına iki kilometr olardı.

Maral Dadaşın hərəkətlərinə əhəmiyyət verməsə də sonrasından qorxurdu. "Söz yayılar, gedib Heydərə çatar" – deyirdi. Ona görə Sünbülə açıb demək istəyirdi. "Necə olsa Dadaş, Sünbül bacının əridir. Sünbülün bütün bir aləm boyda hörməti var. Kolxozda onun xətrini istəməyən yoxdur. Özünə deyim, bəlkə bu arsız adama bir ölçü götürdü, – deyə düşünürdü. – Yoxsa, hər gün zəhləmi aparır".

Sünbül, Dadaş üçün yol ehtiyatı görürdü. Yenə də onun incə və gözəl əlləri cəld işləyirdi. Paltarlara ütü çəkib, səliqə ilə bir yana yığmış, yağlı, südlü şirin fətiri xına kimi qızardıb qar kimi ağ dəstərxanın üstünə sərmişdi. İndi də soyutma etmək üçün kəsdirdiyi çolpaları təmizləyirdi.

Maral içəri girdi. Sünbül ayağa qalxaraq çirməkli ağ qollarını açdı, onlar qucaqlaşıb öpüşdülər.

Ferma uzaqda olmasa da, onlar xeyli vaxt idi ki, görüşmürdülər. Sünbül tələsirmiş kimi işinə davam edərək soruşdu:

– Ferma tərpəndi, Maral?

– Sağın qurtaran kimi qoyunu yığdılar, indicə arabalar gəlib şeyləri yükləyirdi ki, mən bura gəldim.

– Dadaş da lap əldən düşüb, həftədə bir dəfə evə gələ bilmir, – deyə Sünbül çolpanın təmizlənmiş ağ döşünə vura-vura qayğı ilə

dilləndi. – Bərilərə gəlmir ki, heç olmasa özü ilə bir xırın-xırdanı götürə!

Maral, Sünbülün bu məsumluğuna və sadəliyinə acıdı.

– Arxayın ol, Sünbül bacı, Dadaş özünə çox da əziyyət verən oğlan deyil. O, nə ac qalar, nə də yuxusuz. Onun özgə dərdi var, – dedi.

Sünbülün yanaqları əvvəl qıpqırmızı qızardı, sonra ağardı, nazik dodaqları göyərib səyridi.

– Nə var, Maral, nə olub? – deyə təəccüblə soruşdu.

Maral yenə də açıb deməyə xəcalət çəkirdi, ancaq söz-sovdan və Heydərin bir xata çıxaracağından qorxurdu. O özünü soyuqqanlı göstərməyə çalışaraq:

– Bilirsən, Sünbül bacı, Dadaş mənim üzümün suyunu töküb, dinclik vermir, hər gün bir eşqnamə oxuyur.

Sünbülün bütün bədəni titrədi, canından güclü və soyuq bir üşütmə keçdi, qorxmuş adam kimi tükləri ürpərdi, əlində yolduğu çolpa tük yığdığı ələyin içinə düşdü. O, bir müddət mat-mat baxdı. Sonra Maralın qolundan yapışaraq:

– Bunları sən doğrumu deyirsən, Maral? – deyə o, titrək və pıçıltılı bir səslə soruşdu.

Maral daha artıq bir söz deyə bilmədi, o da doluxsunmuşdu. Ancaq bükülüb əzilmiş bir kağızı Sünbülə verdi. Sünbülün gözləri yaş gilələrindən torlanmış olsa da bir neçə sözü oxuya bildi: "Mən Sünbülə bağlana bilmərəm, axı mən də insanam, ata olmaq istəyi-rəm... Əgər "hə" desən, sabah Sünbülü boşamaq haqqında elanı qəzetdə görərsən..."

Sünbülün gözləri qaralıb başı gicəlləndisə də özünü ələ ala bildi. Bir müddət gözlərini bir nöqtəyə zilləyib düşündü. O, "ata olmaq istəyirəm" fikrinə haqq qazandırdı. "Məndə də az günah yoxdur. Nə üçün özümü müalicə etdirmirəm, o mənim başqa heç bir şeyim-dən şikayət eləmir, övlad istəyir, nə deyim? Axı mən ona müalicə haqqında çox demişəm, bəs nə üçün hər dəfə bir bəhanə gətirir?" – deyə şübhələndi. O, fikrindən ayrıldıqdan sonra Maralın üzünə mənalı-mənalı baxıb soruşdu:

– Bəs sən nə fikirdəsən?

– Mən o fikirdəyəm ki, – deyə Maral köksünü ötürdü, – heyif sənin kimi su sonasına ki, elə bir kəmfirsətin əlinə düşüb.

– Bəlkə doğrudan da uşaq istəyir, Maral?

Qız hələ bu suala cavab verməmişdi ki, həyət qapısından at ayağının səsləri eşidildi. Sünbül cəld pəncərənin tor pərdəsini yana çəkib baxdı. Dadaşın atdan endiyini görcək, həmişə olduğu kimi, indi də öz təmkinini saxlayaraq:

– Maral, mənə dediyini o bilməsin, – dedi, – sonra baxarıq...

Sünbül ürəyini ülgüc kimi kəsib keçən ağrını güclə boğub, yenə də ərini pis qarşılamadı. Dadaşın son zamanlar açılmayan qaşqabağı sədrlə görüşündən sonra daha da tutulmuşdu. O, Maralı görəndə gözləri lap kəlləsinə çıxdı:

– Bu köçhaköçdə yavanlığı-zadı qoyub, buralarda nə qayırırsan, ay qız?

Maral, Sünbülün tapşırığına əməl edib, başqa söz demədi:

– Dərzidə paltarım var idi, onu almağa gəlmişdim, döndüm bir Sünbül bacının halını soruşum.

Dadaş bunların hər ikisinin hərəkət və səslərinə dərindən fikir verdisə də, heç bir şey anlaya bilmədi: “Deyəsən bir söz deməyib”. Halı bir az yaxşılaşdı.

Sünbül çolpaları qazana salıb ocağın üstünə qoyduqdan sonra səliqəli bir süfrə açdı. Dadaşla Maralı stolun yanına çağırdı. Dadaş bu ara kənarda əyləşib, gah Marala, gah da Sünbülə baxır, hər ikisini müqayisə edirdi. Doğrudan da, insafla desən, hər sahədə Sünbül üstün idi. Gözəllikdə, səliqədə, təmizlikdə, bacarıqda, insanlıqda Sünbül kolxozda şöhrət qazanmışdı.

Onun qüsursuz görkəmi, dəyirmi cazibəli sifəti, iri qumral gözləri, hərəkət və səsindəki incəliyi qarşısında Maralın qəşəngliyi solğun görünürdü. Bir də Sünbülün səmimiliyi və doğruluğu kənddə bir misal olmuşdu. Dadaş da bunları görürdü. Ancaq yenə də o, “hər yeməyin bir dadı var” – deyə düşünürdü.

Sünbül də süfrəni aça-aça düşünürdü: “Dadaş məndən heç vaxt narazı qalmamışdır. Özü də məni istəyəndə nə qədər yalvardı, atama-anama minnətçi tökdü, düzü ki, bu üç ildə pis də dolanmamışıq... Bunun dərdi görəsən doğrudanmı övlad dərdidir?..”

Süfrəni düzəltməkdə Sünbülə kömək eləyən Maral da öz növbəsində yeni görürmüş kimi hərdən gözaltı Dadaşın nazik uzun boğazına, sivri sifətinə, uçmaq istəyən qarğa qanadlarına bənzər ətəkləri açılmış pencəyinin içərisində çöp kimi görünən bədəninə nəzər salır və Sünbülə də baxırdı. Hirs onun boğazını qovuşdururdu. Ürəyində

deyirdi: “Kül sənin başına, qanadı sınıq qarğa, barı bir yön-yöndəmi ola, bir insanlığı ola, heç adamı yandırmaz. Sünbül bacı kimi gözəl-göyçək gəlinlə yaşamasına gündə min kərə şükür eləmək əvəzinə, tanrısına təpik atır. Yaxşı deyiblər: “Fərənin yağlısı tülküyə qismət olar!”

Sünbüldə Dadaşa qarşı dərin məhəbbət olmasa da, onunla üç ildi yaşayırdı, ona öyrəşmişdi, özü dediyi kimi, papaq deyildi ki, başdan-başa qoyulsun.

## 3

Günbatan tərəfdən, Tərtər çayı boyunca gurultu ilə dəstələnib gələn qara bulud xatasız deyildi. Çoban Qulam o biri çobanları xəbərdar etdi ki, ayıq olsunlar. Bərk dolu, yağış gəlsə, qoyunu arxacdan bölükləyib aparar, ya selə verər, ya da canavara qırdıra bilər.

Gecə keçdikcə yerə vahiməli bir qaranlıq çökürdü. Hərdən göydə şimşək çaxaraq alovlu kösöv tək aləmi işıqlandırır, bir an keçməmiş nəhəng bir mərmi kimi partlayan ildırım, zülmət çökmüş yeri titrədirdi. Atlar qorxulu səslə kişnəşir, itlər vahimə içərisində zingildəyib ulaşır, qoyun sürüsü dəstələnib gələn bulud kimi açılıb-bükülürdü. Bir az keçməmiş xırda doluqarışıq elə bir yağış başladı ki, sanki bütün göy əriyib nəhəng bir şadaradan keçərək yerə süzülürdü. Yağış şəlalə tək töküldükcə, Qaraman dağının sinəsindəki cığırdan güclü bir çay axıb dərəyə tökülürdü, dərədəki sel, qoparıb apardığı iri qayaları bir-birilə döyüşdürürdü.

Ferma işçilərinin hamısı ayağa qalxmışdı. Kənddəki camaat, kolxoz sədri Bəhmən bərk nigaran olmuş, sanki yerlərinə qor dolmuşdu. On beş gündən artıq fermadan getmiş çoban Heydərin gözünə çimir gəlməmiş, bəslədiyi qoyunların dərdini çəkmiş, rayon mərkəzindən dönüb istirahət axşamı evlərində keçirdiyi bir gecəni belə rahat yata bilməmişdi. O bilirdi ki, belə gecə çox qorxuludur, bir göz qırpımında qoyun bölüklənər, arxacdan çıxıb ya qurda rast olar, ya da dərəyə dolub selə qərq ola bilər.

Gecə keçdikcə küləkli yağış daha da şiddətlənirdi, sanki qəsdi yeri bütünlüklə su altında batırmaq idi.

Birdən yerə gözqamaşdırıcı bir işıq çökdü, ardınca elə bir dəhşətli gurultu qopdu ki, elə bil Qaraman dağı yerindən qopub parçalandı,

alaçıqlarda nə qədər qab-qacaq vardısa, bir-birinə dəyib cingildədi, sürü ürküşüb arxacdan çıxdı. Ətrafı qurum iyi bürüdü.

Hamı səhərə qədər ayaq üstündə durub sürünü salamat saxlamağa çalışdığı halda, ferma müdiri Dadaş Qaraman dağından on-on iki kilometr aralıda olan Meydanbazarda müştəri axtarırdı...

Yay səhəri açılıb günəş üfüqdə güləndə, yer, altdan qızdırılmış kimi buğlanmağa başladı.

Qoyunlar arxacdan suyu süzülə-süzülə qalxır, dartınıb çırpınır və otlağa tərəf çəkilib gedirdi. Birdən hamının nəzəri gecəki ildırımın fermanın iki-üç yüz addımlığında açdığı bir uçuruma çevrildi.

İldırım Şişqaya adlanan, hündürlüyü yüz metrdən artıq olan qayanın təpəsindən düşüb onu tən iki yerə bölmüşdü. Uşaqlar ora tərəf yüyürərək, "o, o, o... Şişqaya çapılıb" deyə qışqırışırdılar. O gündən Şişqayanın adı Çapıqqaya oldu.

Çobanlar, ferma işçiləri, qoyunları və fermada başqa nə varsa hamısını yoxladılar. Hər şey salamat və öz yerində idi. Lakin bir Meydanbazarda kef çəkən müdir, gurultu zamanı qaçıb Şişqayaya dırmaşan və orada izini ildırım itirən ala təkə, bir də sürüdən ayrılıb tələf olan iki qoyun yox idi.

Günəş xeyli qalxmışdı. Dadaş kəhər ürkəni səyirdib böyürdən çıxdı. O özünü qayğılı göstərib atını aralıda qoyun otaran baş çoban Qulamın yanına sürdü:

– Qulam, nə var, nə yox, heyvan salamatdırmı? – deyə soruşdu.

Qulam hirsindən dil-dodağını gəmirirdi. O, əhli-kef müdirə kinayə ilə cavab verdi:

– Qoyun salamatdır, yoldaş müdir, biz səndən sarı nigaran olduq, üç gündür yoxsan.

Söz Dadaşı yaman tutdu. O:

– Dərdim-odum var, sənlə diz-dizə verib qoyun otarmayacağam ki... – deyib kəhərin başını fermaya tərəf döndərdi.

Qulam düz çıxıb gedən Dadaşın arxasınca deyindi:

– Özü də yekə-yekə söz verib: "Qoyunçuluq planını artıqlamasilə dolduracağam". Belə at belində avara gəzməklə plan yerinə yetməz. İndi tələf olan heyvanlar üçün nə cavab verək? Deyək ki, yağış oldu, özümüzü itirdik?

Dadaş ferma binasinə çatan kimi heyvanların tələf olmasını eşidib hirsləndi, Maralı görəndə daha da özündən çıxdı:

– Cərimәsini çobanların üstünә qoyacağam, – dedi. – Tәk bir gün olmamışam, mәni belә yarıdıblar. Sәhәrәcәn xorultularından qulaq tutulur, belә dә çobanlıq olar?!

Əlindәki bir torba pendir dәlәmәsini çәtәnin arasına atıb üstünә bir yastı daş qoyan Maral onun sözünü kәsdi:

– Sәn fermada olmursan ki, onların xorultusunu eşidәsәn.

Maralın söyüşü dә Dadaşa xoş gәlirdi. Xüsusilә Sünbüllә görüşündәn sonra ona olan ümidi daha da çoxalmışdı. "Nәm-nüm elәmәyinә baxma, – deyirdi, – әgәr könlü olmasa, Sünbülә açıb danışardı".

Maralın sözlәrini eşidәn kimi yumşaldı, sifәtinin ifadәsi dәyişdi, o irişdi, elә bil köpüb dağılmaqda olan tuluğun qulpunu açıb yelini boşaltdılar, o, zarafat qarışıq bir yaltaqlıqla:

– Mәnim hәrdәn fermada olmadığımdan darıxırsan, Maral? – deyә soruşdu.

– Sәni görәndә ürәyim qısılır, heç illәrlә üzünü görmәsәm yadıma da düşmәzsәn. Onu deyirәm ki, öz gözündә tiri qoyub, başqasının gözündә tük axtarmayasan. Buradakı adamların hamısı can yandırır. Amma heç bilinmir sәn haralarda itirsәn.

– Görünür dәrd әlindәn baş götürüb itirәm!

– Ferma müdirinin fermadan başqa nә dәrdi ola bilәr?

– Əgәr onun ürәyinә od salan, başına hava gәtirәn bir dәrd olmasa, havalanıb bu çöllәrә düşәrmi?

– Bir dәrdin-illәtin varsa, hәkimә get, yox, dәli olmusansa, dәlixananın qapısı açıqdır...

– Dәrdimә loğman lazımdı, ay zalım balası, loğman!

– Hәr kim lazımdır tap, axırı ki, ağlın başına gәlsin, bәlkә fermanın işlәrilә mәşğul olasan.

– Loğmanmı? Loğmanım sәnsәn, mәni Mәcnun tәki yuvasından ürküdüb dağa-daşa salan sәnin eşqindir, mәnim Maralım, köz kimi yanan ürәyimә bir damcı su at.

Maralın sifәti yenә dә qıpqırmızı qızardı.

– Bәsdir, Dadaş, yekә kişisәn, üzümüzün suyunu az tök, – dedi. O tutuldu, qәhәrlәndi vә uzaqlaşdı.

Dadaş qulaqlı meşin papağının dalını bir balaca yatırtdı. Onun ensiz alnının qırışıqlarında soyuq tәr damcıları durdu. O, xәstә adamlar kimi әllәrini güclә irәliyә uzatdı.

– Maral, hәr nә desәn qәbulumdur, – dedi, – ancaq dәrdimә әlac elә, axı ölürәm!..

Məhsul yığılmış alaçığa yanaşan at ayaqlarının səsi Dadaşın sözünü yarımçıq kəsdi. Əllərini tez yanına salıb, özünü düzəltdi. Fermanın qurdbasan itləri atlının ayağına dolaşa-dolaşa zingildəyirdilər. Dadaş başını məhsul alaçığının qapısından çıxarıb baxdı.

Atdan enən Heydər, onun gözünün qabağında bir dağ kimi dayandı. Nədənsə əziyyət çəkdiyi, ya da yuxusuz qaldığı onun kölgələnmiş qara gözlərindən, qayğılı baxışlarından, çox çətin hallarda görünən tökülü qaşqabağından sezilirdi. Xüsusilə Şişqayanın o hala düşməsi Heydərin qanını yaman qaraltmışdı. "Görəsən adamların, qoyunların başına bir xəta gəlməyib ki?" Bu fikirlərlə məşğul olan Heydər salamı da unutdu:

– Salamatlıqdırmı, Dadaş? Yaman nigaran olduq, – deyib Bəhmənin məktubunu ona uzatdı.

Heydərin gəlişindən narazı olan Dadaş, ağızucu cavab verdi:

– Salamatlıq olmayanda, nə olası idi ki, şəkər tayı deyilik ki, yağışdan qorxaq. Nahaq öz işinizi unudub bizdən narahat olursunuz.

Heydər salamatlıq olduğunu bilib, Dadaşın son sözlərinə fikir vermədi. Lakin Maralın içəridə çox qanı qara hərləndiyini görüb təəccübləndi.

Kolxoz sədrinin məktubunu oxuduqdan sonra Dadaş:

– Yoldaş sədrə de ki, nə qədər mən bu fermada müdirəm, arxayın olsun, bir çəpişin də burnu qanamayacaq...

Maral, yavanlığı lazımınca yır-yığış etdikdən sonra alaçığın qapısında duran Dadaşa:

– Qapıdan yana çəkil, bağlayıram, – dedi.

Dadaş qapıdan yana durdu, o gah Marala, gah da Heydərə baxa-baxa danışmaqda davam edirdi:

– De ki, Bəhmən, ağlın çaqqaldan qorxan adamlara getməsin, Dadaş ölməyib.

Bu ara o, Heydərlə Maralın hal-əhval tutduqlarını görüb:

– Maral, öz işində ol, – dedi, – qoyun bir azdan sonra sağına gələcəkdir.

Maral dinmədi, ona hirsli-hirsli baxdıqdan sonra Heydərdən ata-anasını soruşdu və baş barmağı ilə yan tərəfdəki ağ alaçığa işarə edərək:

– İşini qurtardıqdan sonra alaçığa gəl, sözüm var, – deyib emalçı qadınların yaşadığı alaçığa girdi.

Lovğa Dadaşın ürəyi üzülüb düşdü: “Bunu niyə çağırır, birdən zalım qızı açıb söylər?” – deyə düşündü və Heydəri tələsdirdi:

– Tez atını min, kişiyə xəbər apar, narahat olmasın, tez bir atına min...

Heydər ətrafa göz gəzdirdi. Qaraman dağının sinəsində selin açdığı saysız cığırlara, uçub tökülən qayaya, həm də yaxındakı dərədən gurultu ilə axıb-gedən qara çamır selə baxdıqdan sonra:

– Yaxşı ki, bu tufandan salamat qurtarmısınız, – dedi, – kəndin özündə bir neçə ağacı kökündən çıxarıb yerə yıxıb.

Dadaş boğazını arıtlayıb özünü çəkdi. Sarı papağını götürdü, əlini zəncir yemiş sağsağan boynu kimi lüt, qırmızı boynunda, tala-tala kəkili olan balaca, yumru başında gəzdirdi və:

– Ləngimə, – dedi, – kişiyə xəbər apar.

Heydər gülümsündü:

– Qonağı qovarlar, yoldaş müdir?

– Qovmuram, deyirəm kişi darıxar.

– Bu saat gedəcəyəm, – deyə Heydər çox qayğılı ifadə ilə dilləndi, – ancaq indi gələndə gördüm ki, uşaqlar qoruğu yaxşı otara bilmirlər...

Dadaş dərhal qaşqabağını tökdü. Xain xoflu olar, o, Heydərin öz yerinə keçən Qulamdan deyicilik etdiyini düşünüb:

– Onun sənə dəxli yoxdur, Heydər, atını min, hansı yolla gəlmisən, ora ilə də düz get, bildinmi? – dedi.

Heydər bir az duruxduqdan sonra:

– Mən deyirəm ki, əgər belə otarsalar, nə qoyun kökələr, nə də xam çatar.

Dadaş yenə də Heydərə öz fikrini axıra qədər söyləməyə imkan vermədi:

– Yaxşı, yaxşı, öyrətmə, – dedi, – atını min kişiyə xəbər apar, özün də düz get. Sən müdir olanda yaxşı otartdırarsan.

Dadaşın bu düyünlü sözləri Heydərə qəribə gəldi. Daha onunla “atı daşlığa sürməyib” Maralın olduğu alaçığa getdi.

Maral indiyə kimi dilinə belə gətirə bilmədiyi sözləri Heydərə söylədikcə gah onu sevindirir, gah da təəccübləndirirdi.

Maral deyirdi:

– Tez ol, Heydər, məni apar, evində qoy, sonra get kursunu oxu...

– Gözlə, Maral, qoy gəlim, arxayın, əməlli-başlı toy edək, – deyə Heydər onu sakitləşdirirdisə də, Maral sözündən dönmürdü.

– Axı nə olub? – Heydər təkidlə soruşurdu.

Maral Dadaşın hərəkətlərini açıb söyləmək istəyirdisə də bacarmırdı, “xata çıxar” – deyə düşünürdü.

Heydər, Maralın birdən-birə belə toy tələb etməsinin səbəbi haqqında düşünə-düşünə atını sürüb kəndə tərəf yollandı. O, birdən başını qaldırdı, dağın ətəyinə yayılıb şirin-şirin otlayan sürüdən xeyli aralandığını gördü. Başını döndərib sürüyə həsrətlə baxdı. İndi sanki iki yol arasında qalmışdı. “Özü bilər, necə otartdırar, otartdırsın, axırda deyərəm. Belə adamın işinə qarışmaq lazım deyil”, – deyib yola düzəlmək istədisə də bacarmadı. Elə bil yağışdan sonra parıldayan zümrüd çəmən, o tərəfdə dəcəl uşaqlar kimi atılıb-düşən əmlik quzular, səpələnən xına quyruq qoyunlar onu geriyə çəkirdi. “Yox, qayıtmalıyam, sürü onun deyil, kolxozundur, bizimdir. Əgər qoyuna bir zərər toxunsa, arıqlasa, ziyan kolxoza dəyər”. O, atın başını çevirib sürüyə tərəf yollandı. Qulamın yanına yetişib salamlaşdı və tez mətləb üstünə gəldi:

– Qulam, – dedi, – sənin də müdirin kimi xətrinə dəyməsin, qoruğu yaxşı otarmırsınız.

– Necə bəyəm, Heydər?

Heydər əlindəki qamçının sapını qarşıdakı qoruqlara tərəf uzadaraq:

– Odur ey, mən o tərəfdən ötüb keçəndə fikir verib gördüm ki, qoyunu başlı-başına buraxırsınız, otu dırmaqlayıb tərk edir. Bir də görəcəksiniz ki, otlaq döndü küləşə, qoyun qaldı mələşə-mələşə.

Qulam yuxudan ayılmış kimi oldu:

– Düz deyirsən, Heydər, əşi, lalın dilini anası bilən kimi, qoyunun dilini biləsən gərək, ay canım, nə mən yaxşı bilirəm, nə də müdirin başı çıxır.

– Burada elə çətin iş yoxdur, qoruğu bir tərəfdən otların, qoyunu örüşə yığanda, yaylıma aparanda, arxaca qaytaranda həmişə cəhlim düşmüş yerə yığın, – dedi. O, sol yana dönüb Qaraman dağının üçtəpəyə tərəf uzanıb gedən ətəyindəki çox da böyük olmayan otlağı göstərərək əlavə etdi: Oranı hələ ot körpə ikən otarın, – dedi, – bir azdan sonra pişpişi, pıtraq yetişəcək, ot da qılçıqlanacaq. Ondan sonra daha ora qoyun buraxmaq olmaz.

– Sən bələdsən, ay Heydər, qadan alım, hərdən bizə baş çək, görürsənmi, heç kəsin ağlına gəlmir, – deyə Qulam onun sözünü kəsdi.

– Bura aransovdur, Dəlidağ yaylağı deyil, hələ bax, o kollu güneydə tikan bərkiməmiş ara-bərəni otarın, sonra ora qoyun buraxmaq olmaz, bütün yun didilib kollarda qalar.

Bu ara bir sarı kərə qoyun qabaq ayağının birindən axsaya-axsaya gəlib Heydərin yanından keçdi, qoyun xeyli arıqlamışdı.

– Sarı kərə niyə axsayır, Qulam?

– Bilmirəm, üç-dörd gündür ayağını asıb boynundan.

– Bəs heç baxmamısan?

– Yox, baytar həkimini gözləyirəm, mənim başım çıxmaz.

Heydər Qulamın əlindəki koğanı aldı, sarı kərənin dal ayağına ilişdirib saxladı. Bir əli ilə qoyunun qabaq ayağından, o biri əli ilə dal ayağından tutub, yavaşca yerə yıxdı. Sol qılçasını onun boynunun üstündən uzatdı. Qoyunun şişib aralanmış dırnaqlarına diqqətlə baxdı, heyvanın ayağı od kimi yanırdı. Cibindən iti bıçağını çıxartdı, qoyunun dırnaqlarını ehtiyatla qaşıdı, arasına baxdı, bıçağın ucu ilə qurdaladı. Bıçağın ucu bərk bir şeyə toxundu və xırçıldadı. Qulam çox diqqətlə tamaşa edirdi. Heydər iki dırnağın arasına sancılmış bir daş parçasını iki barmağı ilə dartıb çıxartdı.

– Hər şeydən ötrü baytar həkimini gözləmək olmaz, gərək sənin də başın bir balaca həkimlikdən çıxsın, – deyə Heydər qoyunun yaralı ayağını təmizlədikdən sonra ciblərini axtardı. Başqa bir şey tapmadığı üçün əl dəsmalını dörd qatlayaraq, qoyunun ayağını sarıyıb buraxdı.

– Di get, sarı kərə, canın qurtardı, – dedi, – Qulam, qoyunun axsağına, yarasına özün bax, həmişə yanında yara dərmanı saxla. İndi arxaca gedəndə o qoyunun ayağını aç, dərman vur, yay günüdür, gözün üstündə olsun, xarab olar.

Qulam mat-mat baxıb: "Görəsən Dadaş, Heydər kimi çobanı niyə saxlamadı?" Heydər səpələnib xımırt-xımırt otlayan qoyunların arasında gəzir və nəzər salırdı.

O yenə üzünü Qulama tutub:

– O qumral küräni, o boz əbrəşi, o sarı kərəni, bax o cüt qara moçamlını görürsənmi? – deyə saydığı erkəkləri əli ilə ona göstərirdi, – onlara yaxşı bax, çox kökəldikdə ağırlaşırlar, bir azdan yerlərindən çətin qalxa biləcəklər, hərəsinin yetmiş-həştad kilo ağırlığı var, yatıb qalar, qurd-quş heyvanları tələf eləyər...

Bu ara bənövüş qulaqlı qoç təpəl alnını Heydərin qılçasına sürtdü. Onun bu hərəkəti Heydərə ala təkəni xatırlatdı. O, gözünü gəzdirib, həmişə onun dizinə, ağacına sürtünən ala saçaqlı təkəni axtardı, görə bilmədi, təəccüblə soruşdu:

– Qulam, təkə hanı?

Qulam köksünü ötürüb əlini dizinə vurdu:

– Ötən gecə ildırım vurub, Heydər, elə bil qolum sınıb, bilmirəm qoyunun qabağını nə çəkib aparacaq!

– Yox, əşi... – deyə Heydər çox heyifsiləndi. – Bəs müdir nə üçün mənə demədi? Qoyun erkəcsiz olmaz, keçilərin içindən bir təkə ayırıb gətirmək lazımdır, ancaq heyif, ala təkəyə, ağır sürünün qabağını çəkməkdə dil bilirdi. – O, qolbənd elədiyi atını tutdu, yüyəni onun dizindən açıb üstünə çevirdi və cəld atına mindi:

– Salamat qal, Qulam, – dedi, – amma camaatın heyvanından muğayat ol. Yatmaq qoyunu qurda verər, – deyiblər.

O, atını sürüb uzaqlaşdı. Qulam onun dalınca baxa-baxa:

– Haqq sözdür ki, çörəyi ver çörəkçiyə, birini də üstəlik.

* * *

Dadaş güneydə qoyun otaran Qulamın yanına çıxıb, ferma müdiri olmaq istədiyi gündən bəri hazırladığı planı ona söyləməyə başladı:

– Bilirsən, dayıoğlu, səni fermaya mən gətirdim. Bura elə yerdir ki, gərək özününkü olsun... O, kişi də – Bəhməni deyirəm, fermanın ixtiyarını verib mənə, deyir gərək sayı düz olsun, ölüm-itim olmasın, qoyun artsın. İndi gərək bir çarə tapaq.

Qulam dirsəkləndiyi daşa söykənib dikəldi:

– Çarəsi odur ki, salamat saxlayasan, gümrah olsun, qurd-quş aparmasın, yağışda-yağmurda gözün üstündə olsun ki, ala erkəc qaçıb daha çıxmasın, iki qoyunu canavar yeməsin. – O, qarşıda duran bir şeyi göstərirmiş kimi, əlini irəli uzatdı: – Odur, "Komsomol" kolxozunun ferma müdiri geroy Cavad, bax, ondan öyrənmək lazımdır. Hər yüz qoyundan yüz on-yüz iyirmi quzu alır.

– Qulaq as, dayıoğlu, – deyə Dadaş ona dinməmək işarəsi verdi. – Mən Cavaddan bəyəm əskik oğlanam ki, gedib ondan öyrənəm?!

– Xətrinə dəyməsin, bibioğlu, nə sən, nə də mən nəinki Cavadın, belə Heydərin bildiyinin yarısını da bilmirik.

Dadaş üz-gözünü turşutdu.

– Qoy görüm, sən də Heydəri alim eləmisən, mən deyənə qulaq as.

– Hə, de görüm.

– Bu nər kimi erkəkləri görürsənmi? Bunlar da hərəsi sayda bir başdır, xırda quzular da... planı bunlar doldurar...

– Başa düşmürəm, Dadaş.
– Niyə düşmürsən, bunun hər birini satsan üç-dörd toğlu, quzu eləyər, ölən-itənin yerinə, artığını da cibinə... sayı da sanlı qoz kimi yerində olsun. Elə ki payıza döndü, bir neçəsini də quzu ilə dəyiş, bu da olsun plandan artıq, əvəzinə mükafat, indi anladınmı?
Qulamın gözü kəlləsinə çıxmışdı:
– O ixtiyarı bizə kim verib?
– Özümüz, müdir, baş çoban.
– Ümumi iclasın qərarı olmasa, kolxoz qoyununu satmaq olmaz.
– Heyət idarənin sədri icazə versə, necə?
– İxtiyarı yoxdur, bu kolxoz malıdır, Dadaş!
– Bəs bu ölüb-itəni kimdən alaq?
– Müqəssirdən.
– Onda, ala erkəcin, bir də canavar yeyən iki qoyunun cəriməsi sənin boynunda!
– Mənim niyə, bibioğlu?
– Baş çobansan, bəs necə?
– İnsaf elə, fermaya gəldiyim üç həftədir, üç heyvan cəriməsi verim? İnsaf elə, bibioğlu.
– Ya belə, mən deyən kimi, ya da cərimə...
Qulam boynunu büküb yazıq-yazıq soruşdu:
– Yəni Bəhmən razıdır?
– Dedim razıdır.
Qulamın ürəyi yarpaq kimi əsdi, gözünə qaranlıq çökdü.

## 4

Qulam sürünü Heydərin göstərişi üzrə qoruğa yayıb, daşlardan yığıb düzəldilmiş yumru qalağın üstündə oturmuşdu. O, Dadaşın iki-üç gün qabaq alıb gətirdiyi ağ tüklü papağı sol dizinə keçirmiş, yaylıma götürdüyü, yenə də Dadaşın almış olduğu saçaqlı yapıncını hava boz olduğu üçün çiyninə salmışdı. O, düşdüyü vəziyyətin ağırlığı altında fikrə getmişdi. Satılmış beş erkəyin pulu hesabına alınan saçaqlı qara yapıncı, onun çiyinlərindən elə bil bir qurğuşun kimi asılmış, onu çəkib yerin dibinə aparmaq istəyirdi. Ağ, qıvrım tüklü papağı başına qoyanda sanki qaynar qazanı götürüb təpəsinə çevirirdi.

– Bu nə iş idi mən düşdüm, qəfildən gəlib yoxladılar, onda nə cavab verim? Barı, yerinə də almadı. Axı mən nə qələt elədim? Bu nə rüsvayçılıq idi?!

Bu zaman Dadaş öz alaçığında təzə paltarlarını geyinirdi. O, palıdı rəngli kabardindən tikilmiş qalife şalvarı, kiteli geydi, sarı xromdan tikilmiş uzunboğaz çəkməni güclə ayağına dartdı, gümüşü papağı başına qoyub bir az sol qaşının üstünə endirdi, belinə nazik, sədəfli bir toqqa çəkib, xış-xış xışıldayan qırmışı meşin pencəyi də əyninə geydi. Alaçığın yan çubuğundan asılmış xırda güzgünü götürüb gəzdirdi. Hər tərəfinə baxdı. Əllərini pencəyin çəp ciblərinə qoyub, alaçıq boyu gəzinməyə, təzə çəkmələri cırıldatmağa başladı.

– Qoy indi Maral məni bəyənməsin, görüm necə bəyənmir, arvadın ağzını gözəl geyim sulandırar, iki arvad bir yerə yığışan kimi geyimdən, libasdan danışarlar, – deyə Dadaş özünə ürək verirdisə də, amma bu geyimində bir darlıq hiss edirdi.

Dadaş bu geyimi ilə sanki elə indicə Qulamın gözlərinin qabağında durmuşdu. Qulam onu boğmaq istəyir, dartınır, ancaq Dadaşın qurduğu tordan çıxa bilmirdi.

Yanından quş kimi atılan və irəliyə cuman ala köpəyin səsi Qulamı fikirlərindən ayırdı. Başını qaldırıb bir atlının sürüyə yaxınlaşdığını gördü. Onun gözünə elə bir qaranlıq çökmüşdü ki, illərlə bir yerdə olduğu adamı lap yaxından belə tanıya bilmirdi. İti çağırmağı, gələni ötürməyi belə unutmuşdu. Atlı, kolxozun hesabdarı Məmiş Vəlixanov idi.

Qulam birtəhər qalxıb onun salamını aldı.

Atın üstündə çəpəki oturan hesabdar Məmiş:

– Qulam, – dedi, – o biri çobanlara da xəbər ver. Bu saat sürüləri bir yerə toplasınlar, hesabat vermək üçün qoyun sayılacaqdır.

Elə bil Qulamın ürəyi üzülüb düşdü, başı gicəlləndi. Bir an sükutdan sonra ancaq "yaxşıy" – deyə bildi.

Qulam o biri çobanları səsləyib papaq elədi ki, sürünü çəkib gətirsinlər, lakin öz-özünə:

– Yerə gir, Qulam, yerə gir, – deyirdi, – indi bil ki, camaatın, kolxozun malını yemək olmaz, onun min yiyəsi var. Götürəndə əlində tutacaqlar, olmasa ağzında, geciksə lap boğazından dartıb çıxardacaqlar. Di cavab ver görək, kolxozun beş baş erkəyi necə oldu? Yox, deyəcəyəm, qoy boğazını üzsünlər...

Hesabdarın gəlməsi xəbəri Dadaşa çatdı. Dərhal təzə çəkmələrini cırıldada-cırıldada sürünün içinə gəldi. Hesabdarla görüşüb zarafata başladı:

– Balam, buranın bir sahibi var, yoxsa yox, icazəsiz bu nə yoxlamadır?

Hesabdar Məmiş boğazını arıtlayıb:

– İşimiz çox tələsikdir, gərək sabah hesabatı rayona çatdıraq. Bəhmən tapşırıb ki, necə olsa bu gün qurtarın.

Dadaş onun qılığına girməyə başlayıb:

– Ə, bura bax, mən ölüm, bu tələsməyi-zadı bir yana qoy, balam, fermada neçə baş qoyun olduğunu bilmirsiniz? Gedək oturaq, bir-iki saat söhbətləşək. Özümün də bir əmliyim var, qoyaq sol gözü üstündə yerə, beşulduzun da ikisi...

Məmiş çeşməyinin üstündən həris bir nəzərlə Dadaşa baxdı. Ağzı sulandı, xüsusi bir iştaha ilə udqundu. Elə bil burnuna köz üzərində cızhacız qızaran kababın iyi gəldi. Amma tələsirdi, sədrin tapşırığı çox möhkəm idi.

– Çox sağ ol, Dadaş, bunları başqa vaxtda da eləmək olar. Ancaq indi gərək hökmən qoyunu sanıyam, mən kəndə qayıdam, – deyən hesabdar özünü güclə cəmləşdirib ciddi vəziyyət aldı.

“Qarayaxa oğlu qarayaxa, deyəsən əl çəkməyəcək” – deyə qət edən Dadaş, aralıda dayanan və hirsindən dil-dodağını gəmirən Qulama yanaşdı.

Qulam sanki Dadaşı boğazlamaq üçün barmaqlarını ov üstünə şığımağa hazırlaşan qaraquş caynağı şəklinə salmışdı. Dişlərini qıcıyıb:

– Di cavab ver, görək beş erkəyi nə elədin. Hamısını açıb deyəcəyəm, qoy səni də, məni də damlasınlar.

Dadaş gözlərini ağardıb dişlərinin arasında fısıldadı:

– Susss... Nəyi deyəcəksən? Üçünü öldürmüsən, beşini də itirmisən.

– Ədə, mən itirmişəm, namərd?

– Bəs kim?

– Sən satmısan, bu saat hamısını...

– Mən satdığıma, ya apardığıma sənəddən-sübutdan bir şeyin var?

– Sənəd... nə sənəd? – deyə Qulam udqundu. – Sənəd əynindəkilər.

Dadaş bunların heç birinə etina etmirmiş kimi acı-acı gülümsündü:

– Qoyunu sayıb aktla sənə təhvil veriblər. Sən də hər kimə versən, gərək akt olsun, qəbz olsun – bu bir, ikinci, qabaqca öz əyninə bax, sonra başqasına.

Qulamın demək istədiyi bütün sözlər tıxanıb boğazında qaldı, mat-mat Dadaşa baxdı və yalvarmağa başladı:

– Amandır, bibioğlu, bir çarə tap, yoxsa gedən yerimizdir.

– Hə, bax belə, yoxsa özündən niyə çıxırsan? Mənim sürüdə olan səkkiz qoyunumu qoy onların əvəzinə saysınlar, sonra yerini düzəldərik, sən ki bilirsən, necə düzəltmək lazımdır.

Qulamın rəngi bir az açıldı, ağlı başına gələn kimi oldu.

Qoyunun sayını güdən hesabdarın atüstü yoxlaması qurtardı, yekun vuruldu, təhvil aktı ilə yoxlama aktındakı rəqəmlər düz gəldikdə:

– Afərin, Dadaş, bir baş da ölüm-itim yoxdur, – deyən hesabdar məmnun halda ferma müdirinə baxdı.

Dadaş təzə gümüşü papağının dalını qaldırıb:

– Mən kişiyə söz vermişəm, – dedi.

* * *

Avqustun ortalarında aran yerlərdə günəş od ələdiyi halda, şır-şır bulaqlı, hələ çiçəkləri sovulmamış yaylaqlarda sərinlik, hətta səhərlər, axşamlar xoş bir soyuqluq hiss olunurdu. Güneydə otlar xına kimi qızarmışdı, çiçəklərin üstünə düşmüş muncuq kimi şeh damlaları buxarlanıb qalxdıqca, onun yerinə bal arıları vızıltı ilə qonur, şirə çəkirdi. Məşhur Çilgöz yaylağının qonaqları üç-dörd ay burada səfalı bir həyat sürüb, məhsuldarlığı artırır, qaralı-bozlu sürü yetişdirib, ağ üzlə geriyə dönürdülər.

"Komsomol" kolxozunun qoyunçuluq fermasının müdiri, Sosialist Əməyi Qəhrəmanı Cavad, buradakı fəaliyyəti nəticəsində şöhrət qazanmışdı.

Heydərgilin dəstəsi Ağcaqız gədiyindən aşarkən günəş üfüqdən baş qaldırır, Mıxtökən dağının üstünə doğru yüksəlirdi. Çilgöz yaylağında ferma binəsinə maili düşən günəş şüaları binənin üst tərəfindən qaynayıb süzülən qoşa bulaqda əks olunur, bulağın suyunu par-par parıldadırdı.

Ferma işçilərinin yaşaması üçün çiçəkli güneydə qurulmuş çadırlar, onlardan bir az aralı ağ daşdan tikilmiş süni mayalama məntəqəsinin binası sanki nura qərq olmuşdu. Təzə, boz çadırların

üstündə saç kimi hörülmüş əvəlik, qaymaqçiçəyi, qantəpər, dağ nanəsi, boyçiçəyi, kəklikotu, zirə və başqa dağ bitkiləri də sərilmişdi.

Binənin şərq tərəfində çox iri bir çadır qurulmuşdu, buradakı separatorun uğultusu, onun dəstəyini hərləyən qadının zümzüməsinə qarışırdı. Fermada bir canlanma görünürdü. Ferma işçiləri, qonaqları yaxşı qarşılamaq üçün hər cür hazırlıq görüb, bütün işləri qaydaya salmışdılar. Sürüləri dik daş şıranında yuyub güneyə vermiş, qırxım meydançasını hazırlamış, qonaqların istirahət etməsi üçün xüsusi bir çadır da qurmuşdular.

Rayon kənd təsərrüfat şöbəsi altı aylıq maldarlıq kursunda oxuyanların təcrübə məşğələlərini yaylaqda keçirməyi qərara almışdı. Heydər də burada olmaqla "Komsomol" kolxozuna gələn beş nəfərlik kursant dəstəsi qoyunların maşınla qırxılmasına, süni mayalama işlərinə yardım göstərəcək və özləri də mühazirələrdə eşitdiklərini, kitablardan öyrəndiklərini əyani olaraq müşahidə edəcəkdilər. Bundan əlavə, Sosialist Əməyi Qəhrəmanının iş təcrübəsi, məhsuldarlığın yüksəldilməsi sahəsində görülən tədbirlərlə tanış olacaqdılar.

Maşın asta-asta Ağcaqız gədiyindən binəyə doğru endikcə Heydər maşının kuzasında durub, dərhal gözə çarpan səliqəyə, binənin sağ tərəfindəki güneyə yayılmış gümrah sürüyə baxırdı...

Mator işə düşən kimi yunqırxan maşınları hərəkətə gətirmək üçün enerji verən dinamo gur bir səslə uğuldamağa başladı. Təcrübə keçirən tələbələrin və çobanların əlindəki maşınlar işlədikcə, qoyunların yununu səliqə ilə qırxıb aşırırdı. Hamıda bir sevinc, işə yeni və sağlam bir həvəs var idi. Fermanın işi mexanikləşdikcə, çobanların əməyi yüngülləşirdi. İndi onlar ağac nehrədə gecə-gündüz tər töküb ciyə çalxamır, paslı qırxıqla əlləri qabar ola-ola başıaşağı hər qoyunun üstündə bir saat çalışmırdılar. On çobanın qırxılıqla bir gündə gördüyü işi indi maşınla tək bir adam bir-iki saat içərisində görür, o qədər də əziyyət hiss etmirdi. Beş gün çəkmədi ki, beş minlik bir sürünün qırxımı başa çatdırıldı. İpək kimi yun, növlərinə ayrılıb kisələrə basılaraq qəbul məntəqələrinə göndərildi. Yenə də Cavad yun tədarükünü artıqlaması ilə ödəyirdi. Qırxım başa çatdırılandan sonra təcrübəyə gələnlər Cavadın çobanlıqdan ferma müdirinə qədər yüksəlməsini, hər il qazandığı nailiyyətin, nəhayət, Sosialist Əməyi Qəhrəmanı kimi şərəfli bir ada çatmasının sirrini öyrənmək üçün onunla söhbət eləmək istədilər.

Bu görüş söhbəti ferma binəsinin sol cınağında, ən görkəmli yerdə qurulmuş "Qırmızı çadır"da düzəldi.

“Qırmızı çadır” özünəməxsus səliqə ilə düzəldilmiş bir qiraət salonunu xatırladırdı. Bu çadır, yaşayış çadırlarından iki dəfə geniş idi. Ortada uzun stollar baş-başa qoyulmuş, yanlarda, hamar kəsilib yerə basdırılmış kötüklərin üstünə uzun taxtalar vurmaqla skamyalar düzəldilmişdi. Çadırın bayırdan dövrəsinə qırmızı parçaya yazılmış şüarlar, içəridən isə kağız plakatlar və şəkillər asılmışdı. Baş tərəfdən “Rodina” radioqəbuledicisi qoyulmuşdu, başqa bir stolun üstündə şahmat, dama, nərd vardı, bundan başqa, zootexniki, siyasi-bədii kitablar düzülmüşdü. Ferma işçilərinin özlərinin aldıqlarından əlavə, çadır üçün gündəlik yerli və mərkəzi qəzet və jurnallar alınırdı.

Rayon mədəni-maarif işçiləri tərəfindən təşkil edilmiş bu “Qırmızı çadır”ın iki nəfər işçisi var idi. Onlardan biri müdir, o biri kütləvi işçi idi. Fermanın “Sosialist qoyunçuluğu” qəzetinin redaksiya heyəti, özfəaliyyət dərnəyi və yığıncaqlar öz işini burada aparır, çadırın fəaliyyətinə kömək edirdi.

Heydərgil çadıra daxil olarkən içəridən Kəkliyin qaqqıltısı eşidildi. Kəkliyin redaktorluğu ilə “Sosialist qoyunçuluğu” qəzetinin növbəti nömrəsi yenicə çıxarılıb lövhəyə yapışdırılırdı. Kəklik orada çəkilən karikaturaya baxıb gülürdü. Şəkildə iki ayağından axsayan birisinin, iri və gümrah addımlarla irəliləyən başqasının ətəyindən yapışıb süründüyü təsvir olunurdu. Bu, gələnlərin nəzərini özünə cəlb edir, onlar da baxıb gülüşürdülər. Bu şəkil öz borcunu, öhdəçiliyini yerinə yetirməyən, başqasının ətəyindən asılan, onun kölgəsində sürünənləri ifşa edirdi.

Heydərin heyrət və sevincdən alışıb-yanan gözlərində böyük bir maraq ifadəsi gəzirdi. O, Cavadın qarşısında dayanıb hamını maraqlandıran bir sual verdi:

– Cavad əmi, xahişimiz budur ki, bizə ətraflı bir məlumat verəsən, görək bu şöhrəti nə ilə qazanmısan? Axı hər yerdə sənin barəndə danışırlar!

Cavad özünəməxsus təvazökarlıqla başını aşağı dikdi, mehriban baxışlarla onları süzüb gülümsündü. Sonra bütün ətrafdakıları, fermanın hamısını göstərirmiş kimi qollarını yana açıb:

– Şöhrəti bunlar qazanıblar, bunlarsız mən nəyəm ki?! – O, bir ata mehribanlığı və iftixar hissilə emalçı qız Kəkliyə baxdı: – İş bununkudur, – dedi, – özü həm təmiz, səliqəli yavanlıq becərir, kolxoza yağlı, üzlü motallar göndərir, həm də görürsünüzmü, qəzet çıxarır, enimizə-uzunumuza çəkir.

Bu zaman Heydərin xəyalı Çilgöz yaylağından qaranquş kimi uçub birbaş Qaraman dağına öz Maralının yanına getdi; ürəyi qəribə bir riqqətlə çırpındı... Onun Maralı da emalçıdır, yavanlığına söz yoxdur, ancaq görünür Kəklik fəaldır, çox diribaşdır...

Heydər Cavadın özü haqqında danışmağı sevmədiyini kəsdirib üzünü Kəkliyə çevirdi:

– Onda fermanın iş təcrübəsi haqqında bizə Kəklik bacı danışa bilərmi?

– Kəklik sizə bütün kolxozun işini danışa bilər, nəinki təkcə fermanın, – deyə Cavad bildirdi və Kəkliyi çadırdan bayıra çağırıb nə isə dedikdən sonra öz alaçığına tərəf yollandı. Kəklik içəriyə qayıdan kimi dərhal sözə başladı. Elə ağzını açanda bilindi ki, qəlbində böyük bir iftixar hissi vardır. O, müdir haqqında ürəkdən, çox təbii bir məmnuniyyətlə danışırdı:

– Cavad əminin həyat yolu çox sadədir. Fikri-zikri hər işi öyrənib bilmək, can yandırmaqdır. Özü də düzlüyü sevir. Fermada on ildən artıqdır ki, işləyir. Adicə çoban olmuşdur, gecə-gündüz çalışıb, hər qoyunun qeydinə qalmış, onları yağ içində böyrək kimi bəsləmişdir. Əvvəllər hər yüz qoyundan yüz-yüz on, sonralar yüz on beş-yüz iyirmi quzu almışdır.

– Əsil məsələ bunu necə etməkdədir, Kəklik bacı, o barədə danışa bilərsinizmi? – deyə təcrübə keçən tələbələrdən biri soruşdu.

– Cavad əminin savadı ali olmasa da o, çox çalışqan, bacarıqlı adamdır. Hər gün bax burada, – deyib Kəklik "Qırmızı çadır"ın içini göstərdi, – iki-üç saat radioya qulaq asar, aqrotexnikaya aid kitablar oxuyar, qəzetlərdə dərc olunan elə bir yenilik olmaz ki, onu gözdən qaçırsın. O günü qoyunların cinsləşdirilməsi barədə bizim ali savadlı zootexniklə yamanca bir mübahisəyə girişmişdi. Bir də görürsən ki, təcrübəli qoca çobanları yığıb başına. Elə hey danışır, soruşur. Deyir ki, qoyunun qış işini gərək yayda görəsən; əgər qoyunun qış yatağı, yemi, yoncası, hər cür ələfi yaydan hazırlanmasa, çoban ətirli-çiçəkli ala yaylağın sərin havasında yata bilməz. O, arandan bu yaxında gəlib. Hər şeyi öz gözü ilə görməsə, heç arxayın olmaz. Qoyunun payız otlağında qoruqçu qoyub, qış yemini artıqlamasilə hazırlayıb gəlibdir. Onun sürüsünün içində bir baş da arıq-aşqal qoyun olmaz. O, təkcə say güdən deyil, deyir ki, gərək qoyun, dəvə köşəyi kimi olsun. Onun sürüsünün içində cins olmayan heyvan görməzsiniz. Harada bir cins qoç tərifləsələr, onu gərək gətirsin bizim mayalama məntəqəsinə.

Kəklik ürəklə və çox coşqun danışırdı.

– Cavad əmi barədə o qədər, o qədər danışmaq olar ki... Mehribanlığına, adamlığına, qayğısına söz olmaz, bir çoban, bir işçi "başım ağrıdı" deyəndə, elə bil onun ürəyi on yerdən sancır. Ancaq bir balaca can yandırmamazlıq görəndə, qoçaqsan gəl dur qabağında. Çox tələbkar adamdır. O günü örüşdə bir hadisə olmuşdu: çobanın başı nəyə isə qarışır, iki qoç döyüşməyə başlayır: biri vurub o birisinin buynuzunu salır. Bunun üçün çobanı bərk danlayır. Hə, el malına can yandırmayanı görməyə gözü yoxdur. O, bax bu yolla da çobanlıqdan müdirliyə qədər gəlib çatmışdır.

Kəklik təmkinlə davam etdi:

– Fermanın quruluşu çox sadədir: müdir, baş çoban, briqadirlər, ferma hesablayıcısı, zootexnik, emalçılar, daşıqçılar. Başçı – ferma müdiri Cavad əmidir. Amma o, təklənmək, camaatdan ayrılmaq, özbaşınalıq nə olduğunu bilməz. Həmişə təcrübəli qoca çobanların məsləhətlərinə qulaq asır. Bizim fermanın işinin canı həmrəylikdə, bir də yarışdadır, – deyə Kəklik get-gedə səsinin ahəngini yüksəldən natiq kimi qızışıb danışırdı: – Cavad əmi deyir ki, fermamızı yüksəldən yarışdır. Odur ki, briqadalar, çobanlar, fermanın bütün işçiləri yarışır. Biz də hər mövsümün yarış nəticələrini tezcə müəyyənləşdirib göstəririk.

O, uzun kirpikləri arasından qaynar iri qara gözlərini dolandırıb, divar qəzetinə baxdı. Onun məqsədi, yun qırxımı nəticələri haqqında göstərilən rəqəmlərə dinləyicilərin diqqətini cəlb etmək idi. "1 nömrəli briqada 127 faiz, 2 nömrəli briqada 124 faiz".

– Sonra da, – deyə Kəklik sözünə davam etdi, – yığıncaqda, komsomol iclasında müzakirə edirik, hər kəsin nöqsanını üzünə deyirik. Kimisi tərləyir, kimisi də gülə-gülə çıxıb gedir.

– Görünür, Kəklik bacı, sənin tənqidlə aran çox sazdır, – deyə Heydər söz atdı.

– Tənqidsiz işləmək olmaz, tənqidlə arası olmayan adam, bir küncdə düşüb qalan dəmir parçası kimi paslanar. Hə, bir də nöqsanı, hər kəs olsa, onun lap gözünün içinə deyərik.

– Bəs fermanız hansı ferma ilə yarışır? – deyə soruşdular.

– Fermamız Stavropol ölkəsinin Apollon rayonundakı "Kommunizm mayakı" kolxozunun ferması ilə yarışır. Bilirsinizmi nə qədər səmimi adamlardır?! Onların qoyunçuluq sahəsində təcrübəsi daha çoxdur, məktublaşırıq, bu yaxınlarda üçüncü rübün yarış nəticələrini yoxlamaq üçün adamlarımız gedəcəklər.

Fermada görülən tədbirlər, əldə edilən nəticələr göz qabağında idi. Kəkliyin söylədiyindən daha artıq işlər var idi. Dinləyicilər öz razılıqlarını bildirdilər.

Heydər də razılığını bildirdikdən sonra üzünü yoldaşlarına tutub:

– Di, uşaqlar, yolçu yolda gərək, – dedi, – hazırlaşın çıxaq, indi Qaraman dağında bizi gözləyirlər. – Bunu deyərkən o, sanki Maralın süzülüb yol çəkən gözlərinə baxırdı...

Kəklik onların yola düşmək fikrini eşidib Cavadın xahişini onlara çatdırdı:

– Cavad əmi çıxanda xahiş elədi ki, söhbətimizi qurtaran kimi onlara gedək, yoxsa inciyər.

Hamı bir-birinin üzünə baxdı. Dəstə başçısı Heydər çiyinlərini çəkib dilləndi:

– Nə deyim, düzü, Kəklik bacı, ləngisək yaxşı deyil, indi onlar da bizi gözləyirlər.

– Xeyr, xeyr! – deyə Kəklik etiraz etdi. – Onda gedək, özündən icazə alın, hələ axşama da hazırlıq görmüşük! Özfəaliyyət dərnəyinin konserti olacaqdır.

Cavad kişi ağ çadırın qabağında dayanıb qonaqları qarşıladı. O, baş-başa söykədiyi çatmalardan yağlı bir qoyun cəmdəyi asmışdı. Təkcə Cavad deyil, onun bütün ailəsi: arvadı Sənəm, qızı Dürdanə, oğlu Qorxmaz da eyni hörmət və məmnuniyyətlə qonaqları qarşıladılar. İki yaşı hələ tamam olmamış Dilşad da inci dişlərini göstərə-göstərə gülüb, "xoş gəlmişsiniz" əlaməti olaraq tumbul əllərini yelləsaid. Heydərin ürəyi xüsusi bir arzu ilə – tez getmək, Marala çatmaq arzusu ilə döyünsə də daha bir söz deyə bilmədi. Cavad kişi cəmdəyi ortadan tən vurub süd kimi ağ, qalaylı teştə qoydu. O, əti xüsusi bir zövq ilə doğramağa başladı. Əvvəlcə xına quyruqdan bir qədər qıymalayıb qazana tökdü, qara ciyərdən, ağ ciyərdən, ürəkböykrəkdən iri-iri kəsib şartaşat qovrulan quyruğun içinə atdı, maçaları da dilim-dilim ora salmağı unutmadı. Təkə buynuzu kimi ağ, quru ulas odunu gurhagur yanır, qazanı dilə gətirirdi.

– Əlüstü bir şalampır olsun, – deyə Cavad bığının altından gülümsünürdü. O, qabırğaları qoz kötüyünün üstündə səliqə ilə çin-çin kəsib kabablıq hazırlayır, Sənəm də şişlərə çəkirdi. Ətin qalanı isə çoban bozartması olacaqdı.

Yan-yana düzülmüş qazanlar pıqhapıqla qaynayır, qapaqlarını qaldırır, şişlərdən süzülən yağ közləri alovlandırır, tikələr cızhacızla

qızarırdı. Ətrafa, adamın ağzını sulandıran bir iy yayılırdı. Çadırdan cəmi beş addım aralıda, daşdan tökülən bulağın suyu ahəngdar bir şırıltı ilə axıb gedirdi. Armudu ağ samovarı da Dürdanənin atdığı qırmızı közlər dilə gətirmişdi. Çadırın üst tərəfindəki çiçəkli yastanada döşənmiş allı-güllü xalçaların üstündə əyləşən qonaqlar, hər şeydən əvvəl, bu ailədəki səmimiyyətə heyran qalmışdılar.

– Qadan alım, Dürdanə, qızım, şişləri tez-tez çevir, kabab yaxşı bişsin, – deyən ataya qızı da eyni mehribanlıqla cavab verirdi:

– Baş üstə, ata, siz narahat olmayın, gözüm burdadır...

Cavad, əllərini bulaqda yuyub qayıdanda Sənəm şalampır qazanını yerə qoydu. Dürdanə qar kimi ağ, böyük süfrəni qonaqların qabağında açdı. Cavad kişi heç vaxt səliqəsindən qalmaz, hətta yaylağa da ehtiyatlı gedərdi. Süfrədə hər şey öz qaydasında idi. Zərli nimçələr, gümüş kimi parlayan çəngəl-bıçaq, saçaqlı salfetlər... Bir sözlə, nə lazımsa hamısı orada var idi. Varlığa nə darlıq. Cavad yeri gələndə süfrəyə ağ-qırmızı şüşələr qoymağı da unutmazdı. Bütün ailə qonaqlarla birlikdə süfrənin dövrəsində oturdular. Əzəl süfrəyə yağlı, qızarmış şalampır gəldi. Kabab, bozartma da öz qaydası ilə... Kəklik indi də yeri gəldikcə Cavad kişinin ailəsi barədə məlumat verirdi:

– Dürdanə tibb institutunda oxuyur, ikinci kursa keçib. Qorxmaz orta məktəbi bu il qızıl medalla qurtarıb, sənədlərini kənd təsərrüfatı institutunun baytarlıq şöbəsinə verib.

Cavad kişi əlindəki badəni qaldırıb Kəkliyin sözünü kəsdi:

– Bax, bu Kəkliyi görürsünüz? – dedi. – Bizim hamımızın istəklisi budur. Fermaya öz komsomolçular dəstəsilə birlikdə hamıdan çox kömək edir. Bu il onun iki xeyir işi var. Biri partiya üzvlüyünə namizəd keçməkdir, zəmanətinin birini də özüm verəcəyəm...

Kəkliyin gözləri sevinclə parıldadı. Öz daxilində böyük bir iftixar hissi duydu. "Görünür, mən partiyanın böyük adını daşımağa layiqəm!"

Cavad əlavə etdi:

– İkincisi də toyudur.

Kəklik uzun qara kirpiklərini aşağı endirib gözlərini yerə dikdi. Utandığından yanaqları qıpqırmızı qızardı.

– Hə, – deyə Cavad davam etdi: – İçək bizim bu Kəklik qızın sağlığına, onun arzuları başa gəlsin. Nişanlısı baş çoban Eldarı da ondan ayırmayaq, o da canlara dəyən oğlandır. Yəqin bu axşam yastıbalabanda çaldığı "Çoban bayatısı" ilə bizə ləzzət verəcəkdir.

Badələr xoş bir ahənglə səsləndi. Kəklik içməsə də xüsusi bir hisslə titrəyən barmaqlarının arasındakı badəni qonaqların badəsinə vurub cingildədirdi.

Bol süfrə, açıq ürək. Süfrə başında getdikcə adam çoxalır, hər kəs öz sözünü deyir, xoş diləklər, gözəl arzular üçün badə qaldırılırdı.

Günəş Mirov dağının üstünə əyiləndə məclis dağılırdı. Hamı razılıq edir, əziyyət verdikləri üçün üzr istəyirdi.

Üzrxahlıqdan xoşlanmayan Cavad səmimiyyətlə deyirdi:

– Çox xoşdur, heç bir əziyyəti yoxdur. – O, üzünü Heydərgilə tərəf tutaraq: – Bax, uşaqlar, ürəkdən deyirəm, hələ özümün beş baş da kök toğlum var, hamısı sizə qurbandır. İş vaxtı iş, kef vaxtı kef. Bucağım doludur. Otuz qonağım da olsa, əyər-əskik yoxdur. Hər zaman qulluğunuzda hazıram!

* * *

Qonaqlıq, axşamkı konsert nə qədər xoş keçsə də Heydər sıxılır, darıxırdı. O, bir quş kimi yox, bəlkə də bir xəyal kimi uçub Maralın yanına qonmaq istəyirdi.

Deyirlər ki, yuxu baldan şirin olar, amma deyəsən vüsal hər şeydən şirindir. Heydər o gecəni quş kimi yatdı. Tez-tez oyanır, səhərin açılmadığını görüb hiddətlənirdi.

Heydər gün çıxmamış durdu. Yoldaşlarını oyadıb tələsdirdi.

Maşın o qədər də hamar olmayan dar yollarla Qaraman dağına tərəf irəlilədikcə Heydərin nigarançılığı daha da artırdı: "Görəsən Dadaş qırxım üçün hazırlıq görübmü?.."

Dadaş, seyrə çıxdığı dağdan enərkən maşın artıq gəlib ferma binəsində dayanmışdı. Fermada olan uşaqlar onu əhatə etmişdilər. Təcrübəçilər maşından düşür, güneyə tərəf çıxıb ətrafa baxırdılar. Heydər də emal alaçığında Maralla görüşüb danışırdı. O, aldığı lak çəkməni, ətirli çiyələk sabını, qırmızı bəzəkli qutuda olan "Kreml" odekolonunu, saç darağını güllü yaylığa bükülü halda Marala verdi. Maral, Heydərin hədiyyə bağlamasını nazlana-nazlana götürdü və:

– Bununla mənim könlümü almaq istəyirsən? – dedi. – Bir aydan artıqdır ki, nə səsin var, nə də sorağın. Heç demirsən ki, axı Qaraman dağında bir adam atıb gəlmişəm... Xalqınkılar deyir: "Getmə gözümdən, gedərəm özümdən".

Onun səsində bir qəhər, bir kövrəklik hiss olunurdu. Bu sözlər Heydərə təsir etməmiş deyildi. O da istərdi ki, bir ovçu olub həmişə sevgilisi Maralın yanında dursun. Ona desin, ondan eşitsin. Yenə də qarşı güneydə oturub öz məhəbbət mahnısı ilə neyini dilə gətirsin! Ancaq kursu da buraxmaq olmazdı.

Heydər, alaçıqda Maralla söhbət edərkən lap onun yanında durmuşdu, burada onlar təkcə olduqlarından Heydər indiyə qədər yaşamadığı alovlu bir həyəcan keçirirdi. Onun ürəyi qeyri-müəyyən bir hisslə çırpınırdı...

– Doğru deyirsən, Maral, – deyə dilləndi. – Bu təcrübə başımı lap qarışdırıb, amma bir dəqiqə səni unutmamışam...

Onun gözləri dumanlandı. Dodaqlarından Vaqifin sözləri süzüldü.

Yenə məni yanar-yanar odlara
Dağılmış ayrılıq saldı, sevgilim!
Mən ha öldüm, həsrət ilə, dərd ilə
Can sənin yanında qaldı, sevgilim!

– Yaxşı, yaxşı. Oğlanların bu yağlı dilləri olmasa, görəsən başlarına nə gələrdi, – deyə Maral da bu yaxınlıqdan və təklikdən öz müvazinətini itirmiş kimi Heydərə tərəf meyillənib əyildi... Bəlkə də bunun necə olduğunu Heydər özü də hiss etmədi. Ancaq bir an içində Maral onun qüvvətli qolları arasına düşdü. Möhkəm birləşən dodaqlar ayrılarkən xəfif bir şıqqıltı alaçıqda gəzdi... Ehtiraslı bir məhəbbətin ən şirin və ilkin nemətini dadmış olan Maral, güclə özünü doğruldub istər-istəməz Heydərin qolları arasından çıxdı. Hər iki əli ilə pörtmüş sifətini örtdü və içini çəkib dodaqaltı mızıldandı:

– Başıma xeyir, mən nə etdim, yəqin görən oldu. Biabırçılıq...

* * *

Dadaş, qonaqların yanından çox qaşqabaqlı və etinasız keçdi. O, ağzındakı papirosun gilizini çeynəyə-çeynəyə öz alaçığına getdi. Heydər, Dadaşın gəldiyini bilmədi. O, Maralın xahişi üzrə yoldaşlarını Maralgilin alaçığına çağırdı.

Maral alaçığın qabağında samovara od salırdı.

Dadaş yarım saatdan sonra geyimli-kecimli, gümüşü papaq gözünün üstündə öz alaçığından çıxdı. Əllərini meşin pencəyinin ciblərinə qoyub, bir neçə baş gəzindi. O, savaşmaq üçün bir bəhanə axtarırdı. Heç bir şeydən xəbəri yoxmuş kimi:

– Qonaqların kimdir, Maral xanım, belə əl-ayağa düşmüsən? – deyə soruşdu.

Hələ Maral cavab verməmiş, Dadaşın səsini eşidən Heydər bayıra çıxdı. Ona salam verdi, kef-əhval soruşdu. Dadaş onun salamını çox soyuq aldı, bir qədər də o yan-bu yana baxdıqdan sonra onların gəlişinin səbəbini bilmirmiş kimi, amiranə bir səslə soruşdu:

– Xeyir ola, belə gəlməkdə?

– Kənd təsərrüfat şöbəsi sizə məlumat verməyib? Biz həm qırxımda sizə kömək edəcəyik, həm də təcrübə üçün fermanın işi ilə tanış olacağıq.

– Mən heç şey bilmirəm, bizim qoyun da hələ qırxılası deyil.

– Qırxımın vaxtıdır, Dadaş, özün bilirsən ki, yay qırxımını ləngidəndə həm yun tökülür, həm də qoyun qışa qədər lazımınca yunlana bilmir, soyuğa düşür.

– Xahiş eləyirəm, dəlləkliyi mənim fermamın başında öyrənməyəsən, qırxım adına nə işə gəlmisən bilmirəm, amma mən hələ qoyun qırxdırmıram. On-on beş gündən sonra, bir də mən deməmiş kənd təsərrüfat şöbəsi sizi buraya çox nahaq yerə göndərib. Buranın kolxoz sədri var, ferma müdiri var. Boyaqçı küpü deyil ki, hər ötən bir kələf sala?

Heydər öz fermalarında belə söz-söhbətin olması üçün yoldaşlarından xəcalət çəkdi. Dadaşı qızışdırmamaqdan ötrü ondan sakit olmasını xahiş etdi. Xeyr, Dadaş, yay günü qazanda qalmış ayran kimi qıcqırıb özündən çıxmışdı:

– Mənim icazəm olmadan heç kəsin ixtiyarı yoxdur mənim fermama ayaq bassın, vəssalam!

O, Heydərlə üz-üzə durub hirsli, ancaq pıçıltı ilə:

– Mən olan yerdə eşqbazlıq olmaz, – dedi, – mənim fermamda pozğunluq olmaz. Siz köməyə gəlməmisiniz, bu bir bəhanədir. Köməyə, təcrübəyə gələn adam müdirin yanına gələr... Bildinmi?

Heydər onu sakitləşdirmək və lazım olmayan ürəkbulandırıcı danışıqların qarşısını almaq üçün:

– Çox təvəqqe edirəm, Dadaş, ayıbdır, belə sözlər nəyə lazımdır, burada kənar adamlar var axı...

Dadaş, Heydərin vəziyyətini görüb ayağını lap yuxarı pilləkənə qoydu:

– Səssiz-küysüz dəstəni buradan çək, yoxsa pis keçər ha!

Heydər nə deyəcəyini bilmirdi: "Yazdakı kimi bu niyə yenə özündən çıxıb. Bu ədavət axı nədən ötrüdür?!"

Dadaş təcrübəçiləri qaytarmalı oldu. O bilirdi ki, Heydər qoyunlara baxan kimi hamısını tanıyacaqdır.

Maral, Dadaşı biabır edib hər şeyi açmaq istəyirdisə də, yenə həya edir, bir xəta çıxa biləcəyindən qorxurdu.

Heydər də Maralın yanında sıxılıb pərt olurdu.

Yoldaşları maşına yığışanda Heydər, Dadaşa bir neçə kəlmə dedi:

– Yaxşı iş görmədin, Dadaş, biz hələ bir yana, kənd təsərrüfat şöbəsinə də hörmətsizlik elədin.

Dadaş əlini ölçə-ölçə ona tərəf yeriyərək:

– Əyə, məni hədələyirsən? – dedi. – Get əlindən gələni beş qaba çək.

Heydər maşını qoyunların yanından sürdürdü. Müdirlə olan əhvalatı Qulama, çobanlara bildirmək istədi. Düzü, Qulam da onu yaxşı qarşılamadı. Lakin Heydər gözünü bircə dəfə dolandırıb sürüyə baxanda əyəc erkəklərdən bir neçəsinin yox olduğunu gördü.

O, indi başa düşdü ki, Dadaş böyür-başını nə üçün dalayır?

* * *

Sünbül, Dadaşı qarşılarkən başına örtdüyü ağ kəlağayının ucunu hərləyib döşündən aşağı salladı. Qar kimi ağ yanağına həyadan ani bir qızartı çökdü. O, ərinin qarşısına böyük bir analıq sevinci və iftixarı ilə çıxmışdı.

Dadaş da indiyə qədər görünməmiş bir mehribanlıq və sevinclə Sünbülə yanaşdı. Onun üzünə güldü, kefini-halını soruşdu. Hətta payız axşamının sərin mehi qarşısında dayanmağına da razı olmayaraq:

– Sünbül, – dedi. – Əynin nazikdir, soyuq olar, içəri keç, mən də atı rahatlayıb gəlim.

Dadaşın bu sözləri qarşısında Sünbül xəcalət çəkirmiş kimi, başını aşağı salladı. Fikri yenə də ani olaraq bir neçə ay bundan qabağa getdi. O, müalicəyə getməmişdən Maralın: "Dadaş mənə dinclik

vermir" – deməsi və kənddə camaatın: "Dadaş arvad çodarıdır, yazıq Sənəm qızı üç il saxlayıb boşadı, yalandan dedi ki, uşağı yanının altında qoyub, indi də gül kimi Sünbülü bəyənmir, adını da qoyubdur ki, uşağı olmur. Düşüb Maralın ardınca..." kimi ara danışıqları ona çox əzab-əziyyət vermiş, ürəyində ərinə qarşı bir nifrət hissi də duymuşdu. Lakin Dadaşa bu pıç-pıç haqqında heç bir söz deməmişdi.

Sünbül "Yalançını mənzilinəcən qov – deyiblər, qoy bir müalicə etdirim, görək sonra sözü nə olacaq" – deyə düşünmüşdü.

İndi isə Dadaşın göstərdiyi bu mehribanlıq Sünbülü arxayınlaşdırırdı: "Kişi doğrudan da övlad istəyirmiş".

Dadaş, yazdakına nisbətən indi bədəncə dəyişmiş, canlanmışdı. Arıq uzun sifəti ətlənib qızarmış, nazik uzun boğazı hinduşka xoruzunun boynu kimi qızarıb yoğunlaşmışdı.

Kəhər ürkənin tərkinə bağladığı iri dolu xurcunu güclə götürüb, sarı meşin pencəyini xışıldada-xışıldada pilləkənlə yuxarı çıxmağa başladı. Sünbül xurcunun ağırlığını görüb Dadaşa kömək etmək istədisə də Dadaş sol əli ilə onun qabağını kəsdi.

– Sənə olmaz, Sünbül, demişəm ki, özünü gücə salma, kənara dur. Özüm çıxardacağam.

Sünbül ərinin qayğısına qarşı minnətdarlıq əlaməti olaraq gülümsündü.

Kişi soyunub-yuyununcaya qədər Sünbülün şümşad barmaqları yenə də od parçası kimi hərəkət edərək xoş bir ahənglə səslənən ağ samovarı ortaya gətirdi. Altında yaz çolpası qızaran zəfəranlı plovun da xüsusi ətri ətrafı bürümüşdü... Dadaş ağappaq, yumşaq tüklü məhrəba ilə əl-üzünü quruladıqdan sonra razılıq əlaməti olaraq əlini əlinə şappıldatdı, dərindən "e...h!" eləyib əyləşdi. O özünü çox yaxşı aparırdı. Son vaxtlar evə gələrkən qaşqabağı açıq olur, deyibgülür, danışırdı. Yenə də hazırladığı fikri həyata keçirmək üçün ancaq belə hərəkət etməyi məqsədə daha uyğun sayırdı. Hətta qonşunun arvadı ona xəbər verib: "Gözün aydın, Dadaş qardaş, arzuna çatdın. Bu gün-sabah oğul atasısan" – deyəndə, Dadaş cibindən bir yüzlük də çıxarıb muştuluq vermişdi. İndi də gülməyi, mehribanlığı, özünün xoşbəxtliyindən söz açmağı adət eləmişdi. Ancaq "Sünbülün uşağı var" sözünü eşidəndən sonra daxildə ilan vurmuş kimi qıvrılıb açılır, içəridən yanıb-yanıb qaralırdı.

"Qızı yenicə yola gətirirəm, əyninə də bir paltarlıq almışam. Bilmirəm heç bu uşaq hayandan çıxdı!"

Xüsusilə, Maralın bu günlər açıq ürəklə verdiyi gözaydınlığı iti bir bıçaq kimi onun ürəyinə sancılmışdı.

İndi isə Dadaş öz hərəkətlərini məharətlə dəyişmiş, başqa bir dona girmişdi.

Sünbülün gözünü yüksək analıq hissi elə tutmuşdu ki, Dadaşın güldükcə qırışan arsız üzündə açıq sezilən xəyanət əlamətlərini və aydın bir məkri görə bilmirdi. O düşünürdü ki, "Adı hər sahədə təmiz saxlamaq və ailədə səmimiyyət yaratmaq lazımdır. Əgər kişi səhv eləyirsə, onu doğru yola çağırmaq, ona təsir göstərmək, nöqsanını düzəltməkdə ona kömək eləmək lazımdır. Kişinin arzularına əməl etməyi, bu arzuları düzgün yola yönəltməyi də bacarmaq gərəkdir". Sünbül belə də edirdi. Odur ki, ərinin "dəyişdiyinə" bu qədər sevinirdi.

Dadaş yemək-içməkdən, şirin-şirin söz-söhbətdən sonra, ürəkdən şad olduğunu təsdiq etmək üçün dolu xurcunu ortaya çəkdi. Xurcunun bir gözündən yağlı əmlik cəmdəyi çıxartdı.

– Məxsus sənin üçün bəsləmişəm, Sünbül, qoyarsan zirzəmiyə, hava da soyuyur, kabab, dolma eləyib yeyərsən. Gərək sən bir cana gələsən.

Sünbül xoşhallanıb gülümsündü.

Xurcunun o biri gözündə isə enli kağız torbaya yığılmış cürbəcür şirniyyat, sonra qırmızı qutuya qoyulmuş bir ətir şüşəsi, iri yarpaq butalı krepdeşin parça var idi. Üzü, qara mərmər kimi parıldayan çəkmələr də xüsusi kardon qutunun içindən çıxdı. Şeyləri bir-bir Sünbülə verdikcə Dadaş hırıldayır:

– Onun üçün... sənə peşkəş, – deyirdi.

Sünbül də şeyləri ərklə qəbul edir, baxır, bir tərəfə yığırdı. Arada bir zarafatla:

– Elə bil yaylaqdan, fermadan yox, şəhərdən gəlirsən, ay Dadaş, – deyirdi.

– Yaylaqda şəhər yoxdur? Meydanbazara məxsus sənin üçün getmişdim.

Sünbül, Dadaşın sovqatlarını yığışdıra-yığışdıra birdən duruxdu, nədənsə yenə düşüncəyə dalıb tutuldu...

Sünbülün düşünə-düşünə hərləndiyini, şeyləri yığışdırarkən duruxduğunu görən, ağırlaşıb əziyyət çəkdiyini düşünən Dadaş fürsəti fövtə verməyib mətləb üstünə gəldi.

– Görürəm, Sünbül çox çətin hərlənirsən, gündüzlər də bağça uşaqları səni lap əldən salırlar. Sənə bir köməkçi lazımdır, elə əl buyruqçusu...

– Deyirsən qulluqçu tutaq?

Dadaş boğazını arıtlayaraq:

– Elə belə də, Sünbül, elə əlinin altında bir adam olsun.

– Camaat dörd əllə kolxoza kömək eləyir. Biz də bir işçini çəkib özümüzə qulluqçu edək? Heç elə iş olar?!

– Demirəm ha, işləməsin, həm kolxozda öz işini görsün, həm də sənə qulluq eləsin, həmişəliyinə...

Bayaqdan fikri Dadaşın aldığı şeylərlə məşğul olan Sünbül, onun "canıyananlığına" tez məna verə bilmədi. O, çiyninin üstündən geriyə baxıb ərinin sözlərinə qulaq asır və düşünürdü: "Görəsən gündə daşıyıb gətirdiyi bu qiymətli şeyləri nəyin hesabına alır, axı kolxoz hələ pul verməyibdir?" Dadaş isə dilinin yağlı yerinə salıb, Sünbülü asta-asta dilə tuturdu:

– İstəyirsən, bizim fermada işləyən o Maral qıza deyim gəlsin, sənə kömək eləsin, onun səliqəsinə söz olmaz, hə, quş kimi bir şeydir...

Dadaş Maralın adını çəkdikdə, Sünbülün bədənindən bir gizilti keçdi, elə bil üşütdü. Dadaşın neçə gündən bəri tökdüyü dilin, əl-ayağa düşməyinin mənasını indicə dərk etdi.

– Dadaş, – dedi, – mənə qulluqçu lazım deyil, Maralın özü məndən cavan, nişanlısı da səndən bacarıqlı və min qat gözəl oğlandır.

– Yalan sözdür, – deyə Dadaş dilləndi. – Maral Heydərin nişanlısı-zadı deyil, indiyəcən bir qarış qədəyini də görməyib. Özü ilə danışmışam, sənə aldığım krepdeşindən ona da bir parça almışam ki, sənə yaxşı baxsın.

Sünbül bomba kimi partladı:

– Bir zəhmət olmasa de görüm, bu şeyləri hansı pulla almısan?

Dadaş gözlənilməyən bu sualdan özünü itirdi. Müstəntiq qarşısında dayanmış müqəssir kimi gözlərini döydü, udqundu, yerində qurcalandı, boş-boş ağzını açıb əsnədi, əlini sarı xrom çəkməsinin boğazında gəzdirə-gəzdirə tutulmuş halda dilləndi:

– Necə yəni haradan, mən kolxozçu deyiləm, mənə pul-zad düşmür?

– Düşən pullar məlumdur, özü də hamısını mən almışam, xərclənib, qalanı da buradadır.

Dadaş özünü toplayıb ciddiləşdi, qızarmış yanağı aşağı süzülən tərini silə-silə:

– Özüm ayrı avans götürmüşəm, – dedi, – oğurluq-zad eləməmişəm ki?!

Sünbül qaşlarını çatıb, ciddi halda soruşdu:

– Bəs o zirzəmidə qoyduğun beşközəmə taxıl, bir motal nədir? O gündən bəri soruşmaq istəyirəm, yadımdan çıxır.

Dadaş nə edəcəyini bilmir, hirsini boğmaq üçün dişlərini qıcayır, dodağını gəmirirdi: Sünbülün sorğu-sualına necə cavab verməkı?! Ona acıqlanıb susmağı tələb etməkmi? Yaxud yenə yağlı dilə tutub söhbəti Maralın üstünə gətirməkmi? Bu düşüncələr içində Dadaş yenə də çəkmələrini cırıldada-cırıldada gəzinməyə başladı. Atılıb kol üstə çıxan, tüklərini qabardıb kölgəsinə baxan, sanki "Məndən böyük kim var?" deyə lovğalanan bitdiyan quşu kimi özünü çəkə-çəkə əllərini şalvarının cibinə soxub onları var gücü ilə yanlara dartdı. Sağ tərəfdə yanan lampanın işığında sol tərəfə düşmüş kölgəsinə baxa-baxa dilləndi:

– Axı bu sorğu-sualın nə mənası var, ay Sünbül?

– Deyirəm, birdən... insan tamahıdır da... Fermanın qoyunundan... – Sünbülün sözlərinin axırı nədən ibarət olacağını anlayan Dadaş, onun sözünü ağzında qoydu, ciddi bir vəziyyət alıb xoruzlanmağa başladı:

– Bir də belə sözləri səndən eşitsəm, ayrı cür rəftar eləyəcəyəm. Arvadsan həddini bil, başa düşdünmü? Mən... – deyə Dadaş əlini döşünə döyə-döyə davam etdi, – mən bu altı ayda üç dəfə yoxlamadan çıxmışam.

Söhbətin ciddiləşdiyini görən Sünbül qətiyyətlə:

– Onu bil ki, hər şeyi udsam da, – deyə o, Maral əhvalatına açıq işarə etdi, – camaat malına olan xəyanəti uda bilmərəm.

Dadaşın dombalıb hədəqəsindən çıxan gözləri yavaş-yavaş solğunlaşır, çuxura düşürdü. İndi onun gözünün qabağında tək Sünbül deyil, sanki "Qızıl ulduz" kolxozunun bütün kolxozçuları durur, haqq-hesab istəyir, hələ şaxı sınmamış meşin pencəyin yaxasından tutub, Meydanbazarda kəsdirib satdığı erkəkləri tələb edirdilər. Onun bədənindən ani bir titrətmə, sonra isə qaynar bir istilik keçdi. İndi o öz-özünə ürəyində deyirdi: "Bu zalım qızı ilə heç mənimki düz gətirmir. Bu tərəfdən qol-qanadımı qırıb, qoymur ki, yaman günümə bir şey qoyam, o biri tərəfdən də Maral məsələsinə bir əngəl

olub. Axı deyəsən Maralın doğrudan da mənə meyli var. Aldığım butalı krepdeşini də tikib geyib əyninə, "hə" deməsə də tərpənişindən görürəm. Yox, belə olmaz. Mən nəfəs almalıyam, ya yox? Başqalarına prokuror nəzarət eləyir, mənə də arvad. Qəti olaraq bundan qurtarmaq lazımdır. Ancaq "necə qurtarım, bir tərəfdən uşaq, daha nə deyim, o biri tərəfdən də axmaq kimi əşyayi-dəlil gətirib tökdüm qabağa, necə qurtarım? Deyəsən, bu iş baş tutmayacaq; bölgüdən sonra boşamaq, vəssalam".

Sünbül dayanıb diqqətlə Dadaşa tamaşa edir, onun yalançı atalıq iddiasının quru bir söz olduğunu bütünlüklə başa düşürdü:

– Doğru deyiblər: "doğanaq sınar, ancaq düzəlməz."

* * *

Payızın dumanlı, çiskinli bir səhəri Dadaş evdən çıxdı, kəhər ürkəni yedəyinə alıb, fikirli halda fermaya yollandı. Boz duman, karvan kimi dəstə-dəstə gəlib keçir, novlu bulağın yanından dərəyə dolur və oradan burula-burula "Qayışqıran" güney yuxarı çəkilib gedirdi. Duman aralandıqca günəş görünür, gah da onun üzünə sarımtıl bir pərdə çəkilirdi. Hava belə tutulub-bozardıqca, ürkək kəhər ürkə xoflanır, adəti üzrə hər bir gələn hənirtiyə, görünən qaraltıya tərəf qulağını şəkləyir, fınxırır, gözləri kəlləsinə çıxır, diksinib dartınırdı. Ürkək atı belə günlərdə minmək qorxulu olduğu üçün Dadaş onu yedəyinə almışdı.

Dadaşın başı da göy kimi elə dumanlanmışdı ki, heç açılmaq bilmirdi. O nə qədər fikirləşirdisə də, amma heç bir çıxış yolu tapa bilmirdi. Elə bu zaman birdən at diksindi. Qabaq ayaqlarını yerə dirəyib geriyə dartındı. Dadaşı bir-iki addım dala atdı. Qarşıdan gələn qonşu kəndli Qara Cümşüd idi.

Atın ürkdüyünü görüb dayandı.

– Yaman ciyərini töksün! – deyə Dadaş ata təpindi. Cümşüd kişi ilə salamlaşıb keçdi. O, yenə də fikrindən ayrıla bilmirdi. İndi də onun xəyalı fermanın üstünə yönəldi. Satılan və dəyişilən 27 baş nər kimi erkək gözünün qabağına gəldi. Sünbülün ittihamnaməsi də bir tərəfdə dayandı.

Dadaş boz havada boğucu bir istilik duydu. Əl atıb kitelin düymələrini açdı, elə bil Sünbülün dediyi "el malı" sözləri onun başında

ildırım kimi partlayırdı. Bir müddət özünü ələ ala bilməyib duruxdu. Sanki qorxudan qurumuş gözlərini döyə-döyə tələbkarlar qarşısında dayanıb yalvarırdı...

Birdən dumanlı səhərdə o yan-bu yanına baxdı, heç kəsi görmədi, ürəkləndi. Əlini az qala yerindən çıxan ürəyinin üstünə qoyub sakit etməyə başladı: "Qorxma, canın çıxmasın, işi etibarlı tutmuşam, hamısı öz yerindədir. Üç dəfə də ağac atıb bir-bir sayıblar. Fermadan da qorxu yoxdur. Bəs nə qalıb? Bir Heydər, bir də Sünbül!"

Sünbül haqqında da az düşünmədi: "Əl-qolumu bağlayıb, heç bir şey eləmək mümkün deyil, başlayır haradan gəldi, haradan getdi... Bir də elə gərək dünyanın beş gününü onunla keçirim? Yox, boşamaq lazımdır. Bəs uşaq? Əşi, alimentin canı sağ olsun, vəssalam!" Qarşısına qoyduğu hər bir suala özü anladığı kimi cavab verdikcə dərindən nəfəs alır, öz-özündən razı qalırdı. – Görəsən Dadaşın dünyada bilmədiyi bir şey varmı?

Söz Heydərin üstünə gələndə Dadaş çox bərk tutuldu. Ağır yük altında qalmış kimi fısıldadı. Heydər onun üçün iki tərəfdən təhlükə idi. Çünki o kursu qurtarıb gəlmişdi. Zərifyunlu qoyun ferması hələ də təşkil olunmamışdı. Kurs qurtardığına görə də onu müdir qoya bilərdilər. Deməli, Dadaş üçün ciddi bir təhlükə yaranırdı. Satılan erkəklərin üstü açıla bilərdi. Digər tərəfdən, əgər Heydər fermaya gəlsə, Maral da onun əlindən çıxırdı.

"Onu nə ilə, necə aradan çıxarasan, axı hansı bəhanəni qoyasan?" O, yedəyində çəkdiyi kəhərin cilovunu qoluna keçirib əllərini düyünlədi, dişlərini qıcadı; fikrində sanki Heydərin üstünə atılmaq, onu parçalamaq və bu yolla ən güclü düşmənini aradan çıxarmaq istəyirdi ki, birdən ayağı yolun kənarında olan xəndəyə düşdü, üzü üstə yerə gəldi. Kəhər ürküb fınxırdı və qüvvətlə geriyə dartındı. Cilovu qoluna dolamış olan Dadaşı kəsəkli-daşlı yolla sürüməyə başladı. Dadaş nə qədər çalışdısa da dura bilmədi, ürkə-ürkə qaçan atın arxasınca vəl tayı kimi süründü.

Kursdan qayıdandan sonra tez-tez fermaya – Maralın yanına gələn Heydər, indi də orada sevgilisilə görüşüb geri dönürdü. O, "sarı aşacaq" deyilən bələndən aşıb kəndə doğru gəlirdi. Onun qulağına xırıltılı bir səs və at ayağının tappıltısı gəldi. Cəld atılıb bələndən aşdı, Dadaşı sürüyə-sürüyə ona tərəf qaçan ürkəni görüb qabaqladı. Şahə qalxan, gözləri çanağından çıxmaq istəyən ürkmüş atı fışqırıqlayıb dayandırdı. O, Dadaşın dolaşığını açdı. Onun üst-başında salamat yer qalmamışdı. Sarı meşin pencək, kabardin paltar, xrom

çəkmə cırıq-cırıq olmuşdu. Üz-gözü sivrilib yaralanmış, ağız-burnu qanla dolmuşdu. Əllərinin içi, dizinin qapaqları dəridən çıxmışdı. Kəhərin onun alnına vurduğu təpiyin yerindən qan fəvvarə vurub gözlərinə dolurdu. Heydər onun başını dizinin üstünə alıb cəld soruşdu:

– Ə, bu nə işdir, Dadaş, sənə nə olub?

Dadaş gözlərini açmaq istədisə də bacarmadı. Onun başı guruldayırdı. O özünü bilmir, xilaskarı olan adamı da tanımırdı. Bütün gücünü toplayaraq ancaq:

– Məni... Mənim evimi Heydər yıxdı, çoban!.. – deyib xırıldadı və səsi kəsildi.

Heydər mat-məəttəl qalmışdı. "Bu nə sözdür, mən buna nə elədim? Bunu ölümdən qurtardım. Bu niyə belə deyir? Nə iş idi düşdüm? Haqq gəlsin, nahaq gəlməsin – buna deyiblər, bax!" Elə bu zaman duman parçalanıb aralandı, çox da uzaqda olmayan qoyun sürüsü, yanında Qulam göründü. Yıxılan adamı, onunla əlləşən Heydəri açıq seçən Qulam tez özünü hadisə yerinə yetirdi. O, Heydərdən çox təəccüblə soruşdu:

– Kişiyə nə gəlib belə? Onu bu hala kim saldı?

Heydər özünü elə itirmişdi ki, nə edəcəyini bilmirdi. Dadaşın başından axan qan süzülərək, nəm torpaqlı yola tökülüb laxtalanırdı. Dadaş başı əzilmiş gürzə kimi qıvrılıb açılırdı. O, yenə də dili tutar-tutmaz:

– Məni Heydər öldürdü! – deyib yana-yana ufuldadı və susdu. Qulam da məəttəl qaldı. O gah qana batmış Dadaşa, gah özünü itirib saralmış Heydərə, gah da ov kimi kənarda dayanıb qulaqlarını şəkləyən ürkək kəhərə baxa-baxa qalmışdı.

Böhtan qarşısında özünü itirən Heydər, ancaq öz ürəyilə danışırdı: "Yaxşılıq elə, evinə salamat getmə. Bax budur ha!"

## 5

İri qar lopaları küləyə düşmüş mahlıc kimi göydə oynaşır, sakit-sakit yerə yatır, yer üzünü yorğan tək örtür, get-gedə qalınlaşıb tığlanırdı. Yuxarıya baxdıqca adama elə gəlirdi ki, göy aşağı enib, yerlə birləşməkdədir. Yarpaqsız ağacların budaqları qarla yüklənir, güclü bar tutmuş kimi aşağı əyilirdi. Bayırda vəhşi heyvanlardan və quşlardan başqa heç bir canlı qalmamışdı. Mal-qara, qoyun sürüləri yatağa çəkilmişdi.

Çoban Qulam, sürüləri tapana yığıb rahatladıqdan sonra, Dadaşın aldığı və həmişə çiynində ağır əziyyətlə gəzdirdiyi saçaqlı yapıncını çiyninə atıb, kolxoz idarəsinə tərəf yollandı. Saçaqlı yapıncının özü Qulamın üstünə qurğuşun kimi düşməklə kifayətlənməyib, hər saçağına bir topa qar yığır, çobanı hərəkət eləyən qar tayasına oxşadırdı. Ağır xəyal yükü altında əzilən Qulam, saçaqlı yapıncının ağırlığını daha çox hiss edirdi.

Dadaş xəstə yatdığından, ferma onun öhdəsində qalmışdı. Yeni il yaxınlaşır, qəti haqq-hesab vaxtı gəlib çatırdı. Qulam günlərlə fikirləşib düşündükcə də, ilişdiyi tordan çıxış yolu tapa bilməmişdi: "Axı bu rüsvayçılığı kimə deyəsən? Kim sənə "sağ ol" deyər, qolundan tutub çıxardar? Ataya desən, gözünün içinə tüpürər, "nankor övlad" deyib evindən bayıra qovar. Anaya desən, əlini döşünə gətirib: "Bax, döşümdən əmdiyin süd burnundan gəlsin, gedəndə sənə demədimmi camaatın varını ananın namusu kimi qoru!"; qardaş-bacı da "soruşun görək bunun nəyi çatmır, nəyə ehtiyacı var, kimdən oğurlayır, nə üçün oğurlayır?" – deyər. Bəs nə deyəsən? Camaatın qarşısına hansı üzlə çıxasan? Tfu, sənin murdar cəmdəyinə, Dadaş. Bu nə kələkdi məni saldın?"

Qulam ha çək-çevir edir, heç bir yol tapa bilmirdi. "İndi gedib sədrə nə deyim? Hamı gəlib öz qoçaqlığından, qazandığı müvəffəqiyyətindən, yüksək məhsuldan danışanda, mən nədən danışım? Başıma qoyduğum papaq oğurluq, əynimdəki yapıncı oğurluq, hansı sədaqətdən, qeyrətdən danışım? Nə deyim?"

Bəhmən qarşısındakı kağızlardan gözünü çəkmir, axırıncı yoxlamanın nəticələrinə baxırdı. Qoyunun sayı düz idi. Dadaşın xəndəyə yıxılmağından bir neçə gün əvvəl fermada tanıdığı erkəklərin yox olması haqqında Heydərin verdiyi məlumat təsdiq olunmurdu. Bu tərəfdən də Dadaşın yaralanmağı, Heydəri müqəssir sayması, sədri daha da şübhələndirirdi. "Qoyunun hamısı yerindədir. Demək, Heydər doğrudan da Dadaşla düşmənçilik etdiyi üçün yalandan material yazmışdır, sonra da verdiyi məlumatın düz çıxmadığını görüb Dadaşın canına qəsd eləmişdi. Böhtançı və cinayətkar cəzalandırılmalıdır" – deyə düşünürdü. Elə bu zaman Qulam yekə bir qar tayası kimi qapıdan içəri girdi.

O, başını aşağı saldı. Onun girdə qırmızı sifəti gah açılıb bozarır, gah da tutulurdu. Belə vəziyyəti görən sədr, ciddi bir hadisənin baş verdiyini zənn edib tez soruşdu:

– Qulam, nə olub, fermada bir hadisə-zad yoxdur ki?

Qulam suyu süzülmüş cücə kimi büzüşüb başını bir az da aşağı əyib dayandı. Sədr təlaş içində çobana yaxınlaşdı, qalın qaşlarını çatıb qəti bir ifadə ilə soruşdu:

– Ə, bir dillənsənə, yoxsa sürünü canavara qırdırıbsan?

Qulam güclə başını yuxarı qaldırdı, solğun gözləri ilə sədrin üzünə baxıb yalvardı:

– Çox xahiş edirəm, Bəhmən qağa, məni fermadan azad elə, mən bacarmıram!

– Axı bir de görək nə olub?

– Heç bir şey. Mən daha bacarmıram, mən fermada işləyə bilmirəm.

– Yəni qoyunlar salamatdırmı?

– Hələlik, bu günə qədər birtəhər salamat saxlamışıq.

Qoyunların salamat olmağını bilib arxayınlaşan sədr, iri addımlarla öz yerinə qayıdıb stolun arxasında dayandı.

– Bilirəm, – dedi, – Qulam, hamısını bilirəm. Ancaq... – O, Qulamın Dadaşdan sonra fermada qalıb əziyyət çəkdiyini demək istəyirdi. Lakin çoban öz ürəyindəkini düşündü. Elə bil Qulamın ürəyi üzülüb düşdü, o, sədrin sözünü yarımçıq kəsdi. Onun solmuş gözləri alacalandı, udquna-udquna dedi:

– Yaxşı ki, özün hamısını... bilirsən...

Qulamın yapıncısının üstündən su, bədənindən isə xəcalət təri üzü aşağı süzürdü.

– Mən xahiş edirəm, lap yalvarıram, məni fermadan çıxart, kolxozda ən çətin nə iş varsa, ora göndər, yoldaş sədr, aman günüdür!

– Dəli olma, Qulam, gül kimi ferma saxlamısınız, sağ-salamat. Dölü də başa vurun. Dadaşın da işi ayırd olunacaq. Əgər Heydər verdiyi məlumatı təsdiq edə bilməsə cəzalanacaqdır.

Bu vaxt Sünbül tövşüyə-tövşüyə içəri girdi. Onun gəlişi söhbəti dəyişdi. Bəhmən Sünbülü xüsusi bir hörmətlə qarşıladı. Ona yer göstərdi.

– Dadaş necədir, Sünbül bacı, bu gün xəbərin varmı?

– Var, bəli, elə indicə kənd sovetinin idarəsindən telefonla xəstəxanaya zəng vurub soruşdum, yaxşıdır, bir az vaxta çıxar.

Sədr gülümsündü, əlini Qulama tərəf uzadıb:

– Eşidirsən, ay etibarsız? Bir neçə günün əziyyətinə dözməyib, qaçmaq istəyirsən, budur Dadaş gəlir.

Qulamın canı daha bərk uyuşdu... "Dadaş gəlir" sözü onun başına bir daş kimi düşdü. Sanki körpə bir quzunun üstünə böyük bir əjdaha ağzını açıb gəlirdi.

– Yox, sədr, daha mən fermaya getməyəcəyəm, yox, qəti getməyəcəyəm. O ferma, o da sən, kimə istəyirsən təhvil ver.

– Yaxşı, yaxşı, uşaqlıq eləmə. Dadaş gəlsin, sonra özünüz bilin, – deyə sədr, Qulama sözünü qurtardığını bildirmək üçün üzünü Sünbülə tərəf tutdu:

– Sünbül bacı, bizə görə qulluq, – dedi, – belə əziyyət çəkib gəlməkdə, xeyir ola?

– Xeyir olmamış nə var, – deyə cavab verən Sünbül qumral gözlərini dolandırıb hesabdarın stoluna tərəf qalxdı.

– Məmiş qardaşla bir az işim var.

– İndi gələr, – deyə Bəhmən pəncərədən bayıra baxdı, sonra gözünü stolun üstündəki kağızlara zilləyib, başını qaldırmadan Sünbüldən soruşdu:

– Sünbül bacı, siz düşüncəli adamsınız, bu Dadaşın atdan yıxılmağından, yaralanmağından ağlınız nə kəsir? Heydər belə iş eləyərmi?

Sünbül də hələ bu bir aydan bəri həll eləyib qurtara bilmədiyi məsələ haqqında qəti bir fikir deyə bilmirdi. O, Maral əhvalatından xəbərdar idi. Ancaq onu da bilirdi ki, əvvəla, Heydər bu məsələni eşitməyib, ikinci, bilsə də, gərək elə iş görməsin. Üçüncü, adamı öldürmək istəyən onu yarımcan eləyib kəndə gətirməzdi ki, sonra da durub üzünə dirənsin!

– Mənə elə gəlir ki, Dadaşın başı özündə deyil, gözləyək düzəlsin, bir ağıllı-başlı danışsın görək bu necə işdir. Nahaqdan qaranlıq yerdə nə kösöv bulayaq?

Bu ara Qulam, "onu heç gəlməsin, yolu yumrulsun" – deyə ürəyindən keçirirdi.

Sədr söhbəti davam etdirmək istərkən, hesabdar içəri daxil oldu, qar basmış çeşməyini qaldırdı, onun xırda gözləri qara düşdüyü üçün bir müddət heç kəsi görmədi, cücə gözü kimi balaca gözlərini qıyıb, ətrafa baxa-baxa qaldı.

Sədr:

– Buyurun, Sünbül bacı, nə lazımdırsa, Məmiş düzəltsin!

Sünbül yenə də özünə məxsus bir təmkinlə dilləndi:

– Anbara gəlmişdim, taxılı alım. – O, günahkar kimi başını aşağı saldı. – Elə çoxdan gəlib haqq-hesaba baxıb bölünmüş məhsulu aparasıydım...

– Zərər yoxdur, – deyə sədr ağırlaşdığına görə onun gec gəlməsini üzürlü saydı. – Siz qol çəkin, mən uşaqlara deyərəm, məhsulu arabalara yığıb sizə gətirərlər.

– Çox sağ olun, Bəhmən qardaş, – deyə razılığını bildirən Sünbül üzünü Məmişə tərəf tutaraq:

– Məmiş qardaş, bir Dadaşın haqq-hesabına baxın, deyəsən düz yazılmayıb, yəqin yaddan çıxıb, hərçənd heç haqq-hesabına qarışmağa icazə vermir, – deyib gülümsündü.

Hesabdar Məmiş başını aşağı əyib boynunu uzadaraq çeşməyin altından Sünbülə tərəf təəccüblə baxdı:

– Necə, düz yazılmayıb? Ola bilməz, əlimi kəsərəm, – deyib sədrin yanında özünü çəkdi, – əgər bir dən taxıl, ya bir qəpik pul o yan-bu yan olsa. Nə varsa odur, – hesabdar narazı halda mızıldandı. O belə sözlərin sədrin yanında danışılmasını sevməzdi. Həmişə mübahisədə qalib gələndə əlini quru döşünə vurub: "Mənə Vəlixanov deyərlər, mənim də nə qələmimdən, nə də çötkəmdən çet də yayına bilməz", – deyərdi.

O, narazı halda soruşdu:

– Nəyi düz yazılmayıb?

– Aldığı avanslar, Məmiş qardaş.

Bu sözlər bayaqdan bəri ayaq üstə duran Qulamı dəhşətə saldı. O, tir-tir əsdi.

Məmiş dinər-dinməz Qulam kəkələdi:

– Sən kişinin işinə qarışma, Sünbül, – dedi. – Özü bu gün-sabah gələr, haqq-hesabını da çəkər.

Sünbül rəngi qaçmış Qulama baxıb:

– Mən də bilsəm pis olmaz, – dedi. – Bütün arvadlar ərlərinin gətirdikləri pulların, allı-güllü paltarların, bəzəklərin hansı pulla, hansı qazancla alındığını bilsələr, onda heç bəzi para kişi yolunu aza bilməz. Özü burada da olsa, mən gəlib öyrənəcəkdim.

Məmiş də Qulamın sözünə qüvvət verdi, o sədrin yanında pərt olmaq, etibardan düşmək istəmirdi.

– Qulam doğru deyir, – dedi, – hər kəs öz hesabını daha yaxşı bilər. Elə deyilmi, yoldaş Bəhmən?

Hələ Bəhmən dillənməmiş Sünbül təkid etdi.

– Xeyr, – dedi, – mən bilməliyəm, almağına etiraz etmirəm, gəlib özü alsın, ancaq mən bir ailə üzvü kimi bilməliyəm.

Əlacsız qalan Məmiş şəxsi hesab kitabını götürüb qoltuğuna vurdu və ayağa qalxdı:

– Gedək, – dedi, – anbara. Bu təhtəlhesab kitabı, o da bölgü cədvəli, yerindəcə yoxlayaq.

Sünbül ehtiyatla qalxdı, Məmişlə birlikdə anbara yollandı. Qulam özünü itirmiş halda:

– Amandır, əşi, qoyma Sünbül gedib yoxlasın, rüsvay olacağıq, qoyma!

Bəhmən Qulamın sərsəm danışığına heç bir məna verə bilmirdi. O iti, lakin qeyri-müəyyən bir baxışla Qulamı süzüb:

– Nə rüsvayçılıqdır, öz yoldaşının haqq-hesabını yoxlayır, bundan sənə nə? – dedi.

Qulam yaz günü köpürüb qıjıltı ilə gələn, qabağıalınmaz bir selə düşən, ancaq əlini atmağa bir şey tapmayan bir adam kimi fəryadla dilləndi:

– Tək mən yox, Dadaş da, sən də, hamımız rüsvay olacağıq, qoyma bu arvad Dadaşın hesabına qarışsın. Dadaş özü mənə dedi ki, çalış Sünbül mənim haqq-hesabıma qarışmasın, yoxsa hər şeyin üstünü açıb biabırçılıq edər...

Bəhmən mühüm bir məsələnin Dadaşın haqq-hesabı ilə bağlı olduğunu başa düşdü, özünü itirmiş Qulamdan hər şeyi ətraflı öyrənmək üçün ustalıqla sözə başladı:

– Yaxşı, Qulam. Axı Sünbül haqq-hesabı yoxlamaqla o işin üstünü necə aça bilər?

– İşin canı buradadır, ay Bəhmən qağa, bir onları geri çağır...

Bəhmən hər bir şeyi bilirmiş kimi təmkin və soyuqqanlılıq göstərərək soruşdu:

– Ə, bir özündən getmə, məni başa sal görüm, bu yoxlamanın nə dəxli var axı?

Boğazı tutulmuş çobanın iri gövdəsi gün qabağında qalmış alça tək bürüşmüşdü. O, isti peçin yanında, saçaqlı yapıncının içində çovğuna düşmüş kimi əsirdi:

– Əşi, – dedi, – Dadaş evə nə gətirsə, Sünbül sorğu-sual edir: “Haradan aldın, qiyməti neçədir, bəs bu qədər pulu sənə kim verdi, bəs o nədir, bəs bu nədir”. Daha səndən nə gizlətmək, sənin icazənlə əyər-əskiyi düzəltmək üçün bir neçə erkək satıb də, özün məndən yaxşı bilirsən. Artıq-urtuğundan özünə paltar, şey-şüy alıb...

Bəhmən, böyük bir sirri kəşf etməyə başlayan adam kimi son dərəcə dərin bir həyəcanla dinləyir, güclə özünü saxlayırdı.

– Sünbülə bildirməmək üçün, – deyə Qulam davam edirdi, – deyib ki, kolxozdan avans götürmüşəm, indi yoxlasaq avans almadığını bilib çəkəcək məhşər ayağına.

Eşitdiyi sözlərdən, açılan cinayətdən dəhşətə gələn Bəhmən içəridən üfürülmüş kimi şişib gərilir, partlamağa gəlirdi. Lakin işi ətraflı öyrənmək lazım idi. O, Qulamı arxayın salmaq üçün:

– Qorxma, – dedi, – Sünbüllə mən özüm danışaram. Mənim sözümdən çıxmaz. Bir de görüm neçə erkək satmısınız?

Qulam güclə dilləndi:

– Vallah, Bəhmən qağa, satmısınız deyəndə, mən nə qədər çalışdım mümkün olmadı. Dadaş dedi ki, Bəhmən tapşırıb, daha əlacım kəsildi. Bir iyirmi yeddisini satdı. Sonra daha qoymadım. Düzü, qorxdum, gördüm söz-sov çıxır. Heydər quzuları da tanıyır. Yaxşı ki, özgəsinə yox, sənin özünə yazıb verdi. “Filan-filan kərə erkək qoyunun içində yoxdur”, özgə adam olsaydı, indi dərindən yoxlatdırıb evimizi yıxardı.

Bəhmən mahir bir müstəntiq kimi öz soyuqqanlılığını saxlayıb:

– Elə iyirmi yeddicə baş erkək satılıb?

– İyirmi yeddi baş. Bir də... – deyə çoban aramla danışırdı. – Bir də yaylaqda doğulmuş iyirmi dörd quzuya doğum aktı yazmadı, vəssalam.

– Elə bucuğaz? – deyə çox yüngül bir şeymiş kimi Bəhmən guya əhəmiyyət vermədən soruşdu: – Bəs quzular necə oldu?

– Quzuları toğluya, toğlunun irisindən də erkəyə qatdı. Onların əvəzinə 24 erkək satdı ki, Bəhmən qağaya bir əl xərcliyi lazımdır...

– Dadaş sənə dedi ki, pulu mənə verib?

Qulam burada daha da bərk qızarıb pörtdü:

– İndi işin nə üzlü olduğunu bildinmi? Di qoyma Sünbül yoxlasın.

Bəhmən daha dözə bilməyib hövllə ayağa qalxdı, sağ əlini yumruqlayıb stolun üstünə elə çırpdı ki, stolüstü qalın şüşə çilik-çilik oldu.

– Xain, – dedi, – baxarıq!

Qulam yerindən dik atılaraq:

– Məndən qorxma, – dedi, – ağzımdan çıxmaz...

Bəhmən iri addımlarla yeriyib, qapıdan çıxdı və anbara yollandı.

## 6

Bu il Maral daha da gözəlləşmiş, daha da təravətləşmişdi. Boy atıb canlanmış, bir neçə ayın müddətində əməlli-başlı dəyişmişdi. Çin-çin qıvrım zil qara saçlarının hər biri qol yoğunluğunda olub, enli kürəyindən sallanaraq toqqaya qədər uzanırdı. Olduqca qəşəng ağ yanaqlarında çox zərif bir tor kimi görünən incə qan damarları onun sifətinə çəhrayılıq verirdi. Qaynar qara gözləri, uzun sıx kirpikləri və qələm kimi qara qaşları ona xüsusi bir gözəllik verirdi.

Son zamanlarda Heydər də fermaya tez-tez gəlir, gül kimi açılan Marala baş çəkir, onunla əylənirdi. Hələlik Heydər yaza qədər, zərifyunlu qoyun ferması təşkil olununcaya kimi kolxozun təsərrüfat işində çalışırdı. Qışın araya düşməsilə əlaqədar olaraq iş azalmış, Heydərin boş vaxtı çoxalmışdı. Hər bir görüş zamanı Maral ona daha gözəl görünür, məhəbbətini daha da artırırdı.

Maral da Heydərin iri sağlam bədəninə, onun enli kürəyinə, pəhləvan qollarına, həmişə sevinclə parlayan gülər qara gözlərinə, dolu və yaraşıqlı sifətinə, qara nazik bığlarına baxdıqca fərəhlənib sevinirdi.

Maral kənddə, qonşu kolxozlarda olan toylardan tez-tez söhbət salar, uzun-uzadı danışardı.

Heydər də toya hazırlaşdığını bildirər, öz ata-anasının toy üçün hazırladıqları şeylər barədə Marala məlumat verərdi. Daha nə almaq lazım olduğu haqqında məsləhətləşərdi...

Yaydan bəri hər dəfə Maralın tələsməsini görən, bəzən onun təkidini eşidən Heydər, buna məhəbbətdən başqa bir məna verə bilmirdi...

Maral, Dadaşın ona qarşı olan münasibətini Heydərə deməmişdi. Mənasız sözü deməyi lazım da bilməmişdi. Bu söz ferma işçiləri arasında az-çox danışılmış, hətta kəndə də gəlib çatmış, bəzi para pıç-pıç danışığa da səbəb olmuşdu. Lakin tezliklə bunu gah yalan zənn etmişlər, gah da elə işin mümkün olmayacağına inanıb Dadaşın axmaqlamasına əhəmiyyət verməmişdilər. Bu söz qova düşmüş qığılcım kimi oyalanmış, sonra isə havasız yerdə qalıb qaralmışdı. Dadaş şər atıb: “Heydər atı ürküdüb məni yıxdırdı, daşla başıma vurdu, öldürmək istəyirdi...” – deyə müstəntiqin yanında Heydərin üzünə durduqdan sonra belə, Heydər böhtandan sarsılmışdısa da,

Maralla görüşdüyü zaman hamısını unutmuş, Marala ürək vermişdi: “Qorxma, Maral, nahaq ayaqlanar, ancaq yeriməz!”

Lakin müstəntiqin bugünkü istintaqından, Dadaşın onunla üzləşməsindən sonra, sanki Heydərin gözlərinə qan dammışdı. Qulamın şahidliyi və Dadaşın dəlilləri əsasında, hətta müstəntiq Heydərin həbsə alınması haqqında qərar çıxarıb, prokurordan icazə istəmişdi. Prokuror, Heydərin həbs edilməsinə icazə verməyib zamınla məhkəməyə qədər buraxılması haqqında göstəriş vermişdi.

Heydər rayon mərkəzindən birbaş fermaya yola düşdü. Dadaşın son sözündən sonra Heydəri dəhşət götürmüşdü:

“Vətəndaş müstəntiq, Heydər məni ona görə öldürmək istəyirdi ki, mənim sevdiyim Maralı özü alsın”.

Müstəntiq aram-aram sual vermişdi:

– Bəs siz evli deyilsinizmi, vətəndaş Dadaş?

– Çoxdandır arvadımla yaşamaq istəmirəm, onu boşayacağam.

– Arvadınızı nə üçün boşamaq istəyirsiniz?

– Xasiyyətimiz tutmur, vətəndaş müstəntiq.

– Bəs hələ arvadı boşamamış necə sevişmisiniz?

– Qız özü məni sevməyə başlayıb, – demişdi.

Bu zaman Heydər özünü saxlaya bilməyib yerindən qışqırmışdı:

– Gözünün içinə qədər yalan deyirsən, utanmaz!

Müstəntiq onu sakitləşdirib, danışmamağa məcbur etmişdi.

Gödəkboy, seyrək çopuru olan müstəntiq sarımtıl qaşlarını çatıb qonur gözləri ilə Dadaşı süzərək soruşmuşdu:

– Maral Türbəndə qızının sizi sevməsini nə ilə sübut edə bilərsiniz?

– Əgər məni sevməsə, aldığım paltarlığı tikib geyməzdi.

– Deməli, siz Marala paltarlıq almısınız, o da tikib geyib, eləmi? – deyə müstəntiq Dadaşın dediklərini dindirmə protokoluna yaza-yaza soruşmuşdu.

– Elədir, bəli.

– Maral Türbəndə qızı bunları təsdiq edirmi, vətəndaş Dadaş?

– Necə yəni təsdiq eləməz, əyninə geydiyi butalı krepdeşini dana bilməz ki...

Heydər yolla irəlilədikcə eşitdiyi sorğu-sualları beynində təkrar edir, gah inanır, gah doğruluğuna şübhələnirdi. Butalı krepdeşin paltarında daha gözəl görünən Maralı gözlərinin qabağına gətirir, indi Maral o paltarın içərisində onun gözünə bir şeytan kimi görünürdü.

“Doğrudanmı Maral Dadaşa meyil göstərir? Doğrudanmı əynindəki butalı krepdeşini Dadaş alıb? Bəs nə üçün məndən əl çəkmir? Bəlkə Dadaş Marala da böhtan deyir?” Heydər bu düşüncələr içərisində irəliləyirdi. O, fermaya tez çatmaq üçün daha cəld və iri addımlarla gedirdisə, elə bil yol uzanır, tükənməz olurdu.

Maral da yeni xəbəri Heydərə çatdırmaq üçün tələsir, tez-tez rayondan gələn yola tərəf boylanır, qayıdır, hər bir dəqiqə onun üçün bir gün qədər uzun keçirdi. O yenə də ən çox sevdiyi güllü krepdeşin paltarı geymiş, sığallanıb düzəlmişdi. Sevən qızlara məxsus bir ürək döyüntüsü ilə Heydərin intizarını çəkirdi.

Qonşu kəndli Cümşüd kişinin sözləri onu arxayınlaşdırmışdısa da, ürəyi intizar və nigarançılıqla döyünür, Heydərin gec gəlməsinə görə çox darıxırdı...

Heydər duruxdu. O, fermanın yanından düz ötüb-keçmək, Maralla danışmamaq istədi. Amma ürəyilə bacarmadı, ayaq saxladı, onu çəkən bir qüvvənin təsirilə fermaya yönəldi.

Maral, Heydəri bəlkə də indiyə qədər belə qaşqabaqlı, hirsli görməmişdi. Heydər elə bil buz kimi soyumuş, onun mehriban gözləri qızarmış, güləş sifəti tutulub bozarmışdı. Qışın şaxtalı soyuğunda dizə qədər çıxan qalın qarı yara-yara gəldiyi və ağır, üzücü düşüncələr içində qovrulub yandığı üçün başından tüstü çıxırdı.

Bir müddət nə o Maralı, nə də Maral onu dindirə bildi. Heydər haradan başlamaq haqqında düşünür, Maral isə Heydərin belə payız səması kimi tutulmasının səbəbini özlüyündə aydınlaşdırmaq istəyirdi.

Həqiqətən bu müddət ərzində gedən istintaqın heç birində Heydər bu qədər sarsılmamış, Dadaşın sərsəmləməsinə elə dərindən əhəmiyyət verməmişdi. Çünki onun “Məni Heydər öldürmək istəyirdi” fikrini sübut etməyə heç bir əsası yox idi. Dadaş dəfələrlə göstərmişdi ki, məni Heydər ona görə öldürmək istəyir ki, onu fermadan qovmuşam. Ancaq bunu heç kəs təsdiq etmirdi. Deyirdi ki, Heydər mənlə düşmən olmasaydı, məndən material verməzdi. Bu, adam ölümü üçün əsas deyildi.

Lakin Maral haqqında olan bugünkü söz həm Heydərin mənliyini, hissiyyatını sarsıtmış, həm də müstəntiqi xeyli inandırmışdı.

Sükutu Maral pozdu. O, oynaq qaşlarını çatıb qayğılı bir görkəm aldı. Həmişə məhəbbət ifadə edən, indi isə kədər, intizar və qayğı bildirən bir səslə dilləndi:

– Bugünkü danışıq necə keçdi, Heydər? Dadaşın ağlı başına gəlibmi?

Heydər, Maralı sınayıcı bir nəzərlə təpədən-dırnağa qədər süzdü, butalı krepdeşin paltar onun varlığını və iradəsini sarsıtdı. O, narazılıq və təəssüf bildirən bir ifadə ilə:

– Niyə, pis keçmədi, kişi ona düşmən olduğumu tutarlı dəlillərlə sübut elədi.

Maralın qayğı çəkən ürəyi sanki gərildi, onun bütün bədənindən soyuq, ətürpərdici bir qorxu rəşəsi keçdi, gözlənilməz ağır xəbərdən özünü itirib duruxdu. Onun sifəti əvvəl gülümsər kimi oldu, sonra isə buludlu hava tək tutuldu:

– Nəyi sübut elədi, Heydər, nə danışırsan? – deyə yazıq və yalvarıcı bir səslə soruşdu.

Heydər çox sakit və hər şeyə əmin olan bir adam kimi cavab verdi:

– Sənin onun sevdiyini, buna görə də mənim düşmənçiliyimi...

Maral bu cavabı eşidərkən gülümsündü. O bu sözləri həm gülünc, həm də kinayəli bir zarafat kimi qəbul etdi. Ona elə gəldi ki, Heydər haradansa Dadaşın köhnə sayıqlamalarını eşidib, onu məzəmmət eləmək istəyir. Buna görə Maral yenə də əsil mətləb barəsində sual verdi:

– Eh, ay Heydər, zarafatı burax, hələ bir düzünü de görüm, danışıq necə keçdi?

Heydərin tutulmuş sifəti daha artıq ciddiləşir, iti və qaynar baxışlı qara gözləri zilləndiyi nöqtədən ayrılmırdı.

– Mən düzünü dedim, sabah müstəntiq kəndə gələcək, əyər-əskiyini də sən düzəldərsən, – deyə Heydər çəpəki baxışlarla Maralı süzdü.

Heydərin bu zəhmli və çox ciddi baxışı Maralı düşündürməyə bilməzdi. Maral sarsıldı. O, yalvarmaqla tələb etmək arasında olan bir vəziyyət aldı. Boz şinelin ətəklərini bükmələyib altına qoyaraq, məhsul dəyəsinin ortasında, gurhagur yanan dəmir peçin böyründə oturan Heydərin dizini əli ilə tərpədərək dilləndi:

– Dediklərini heç başa düşmürəm, bir açıq danış görüm!

Heydər dişlərini qıcayıb, təəssüf deyil, bəlkə də hirs və qəzəb ifadə edən bir qaydada dərindən köksünü ötürdü. Sözü uzatmayıb, müstəntiq qarşısında olan əhvalatı açıb söylədi. Deyəsən bu sözləri eşidərkən Heydərə Maral qədər təsir etməmişdi. Qəflətən bütün

varlığı od tutmuş və özünü itirmiş adam vəziyyətini alan Maral, gah yalvarıb and içmək, gah əynindəki paltarı parçalayıb oda atmaq, gah da birbaşa rayona qaçıb, oradaca Dadaşı didib-dağıtmaq istəyirdi. O dillənə bilmir, qəhərindən boğulurdu. O qışqırmaq, fermada nə qədər adam varsa, buraya töküb şahid çəkmək istəyirdi. Ancaq bacarmırdı. O heç vaxt ağlına belə bir şey gətirməzdi. Qız həmişə düşünürdü: "Yaxşı ki, Dadaşın axmaqlamasını Heydərə demədim, qanqaralıq olardı, bəlkə də dava-dalaş baş verərdi, özü mırıldadı-mırıldadı, səsini kəsdi. Yel qayadan nə aparar?!" İndi isə ona elə gəlirdi ki, böyük və keçilməsi çətin olan bir günah işləmişdi. O, dərindən gələn və kövrəklik bildirən bir səslə soruşdu:

– Sən bu böhtanlara inandınmı, Heydər?

Ağır xəyal yükünün altında mum kimi yastılanan Heydər:

– Mən inanmadım, Maral, – deyə təəssüflə dilləndi. – Ancaq əşyayi-dəlil inanmağa məcbur edir, – deyib baş barmağı ilə Maralın əynindəki güllü dona işarə etdi.

– Əşyayi-dəlil nədir?

– Əynindəki göz qamaşdıran gül-gül, par-par don.

Maral, indi-indi özünə gəlirmiş kimi nəfəsini dərib, quş kimi çırpınan ürəyini sakitləşdirməyə çalışdı. Dadaşın ona qarşı olan münasibətini və hansı məqsədlə açıb demədiyini, sadəcə olaraq əhəmiyyət vermədiyini söylədikdən sonra:

– Meydanbazardan iki parça alıb gətirmişdi. İkisi də bir topdan, – deyə krepdeşin əhvalatını aram-aram nağıl elədi, – özü hamıya üz tutdu ki, xoşuma gəldi, iki parça almışam, kim istəyir götürsün, pulunu versin. Ferma işçilərinin hamısı bilir, – deyə Maral bütün ətrafı göstərirmiş kimi hər iki əlini qaldırıb yarımdairə şəklində tovladı, – bax, yavanlıq becərən yoldaşlarım: Qızyetər xala, Sənəm bacı yaxşı bilirlər, mən dili qurumuş da onu insan bilib dedim, indi ki sənə lazım deyil, ver mənə, bölgüdə pulunu verərəm. Kül onun sarsaq başına.

Hər bir sözə, hər bir ifadəyə çox dərindən fikir verən, gözlərini qıyıb diqqətdə qulaq asan Heydər, Maralın sözünü kəsdi:

– Pulunu vermisənmi?

– Pulunu hələ verməmişəm.

– Əgər doğrudan da sən deyən kimisə, bəs niyə indiyə qədər pulunu verməmisən?

Maral heç də çətinlik çəkmədən:

– O yaralanıb xəstəxanaya gedənə qədər bölgü olmamışdı, indi də ki hələ gəlib bura çıxmayıb, – dedi.

Heydər Maralı həqiqətən çox sevirdi. O, çəmənlikdəki çiçəklərlə, bağlarda açılmış ətirli güllərlə, dağların qoynundan qaynayıb çağlayan durnagözlü bulaqlarla, qoyunun içində, anasının yanında bəslənib böyüyən körpə əmliklə, hətta nə qədər gözəl qız görsə, onunla Maralı müqayisə edər, Marala üstünlük verərdi. O, Vaqifin qoşmalarını, aşıq mahnılarını oxuyarkən çox zaman təriflənən sənəmlərin, pərilərin, gözəllərin adlarının yerində Maral sözünü qoyardı:

Olsalar yüz mələk, yüz huri-qılman,
Yüz mina gərdənli, zülfü pərişan.
Yüz lalə yanaqlı, ləbləri mərcan,
Könül dönməz səndən kimsəyə, Maral!

Aşiqin məşuqə olan böyük məhəbbətini, ürək çırpıntılarını ifadə eləyən bir qəzəl əzbərləyəndə yazan şairin əvəzində öz adını deyib oxuyardı. Adətən çobanlar gözəl ney çalmaqda məşhur olurlar, ancaq Heydər bir də şeri, qəzəli, mahnını sevər, özünə məxsus məlahətli səslə oxuyardı. Hər hansı yeni bir mahnını eşidən kimi öyrənər, əvvəlcə zümzümə edər, sonra da zilə çəkərdi. Lakin Maralla danışanda sanki bildikləri hamısı yadından çıxardı. Ya da o, Maralın şirin danışığına qulaq asmağı çox sevdiyi üçün özü artıq danışmazdı.

Heydərin həmişə saf və təmiz bir məhəbbətlə döyünən incə ürəyində indi kəskin bir sızıltı, bir göynərti vardı. Heydər ömründə belə ağır dəqiqələr keçirməmişdi. O, nəinki təkcə bir kənddə, bir kolxozda, hətta bir mahalda öz sənətilə məşhur olan dülgər Zamanın ən istəkli övladı olmuş, tək bacısı ilə birlikdə, necə deyərlər, yağ içində böyrək kimi bəslənib böyümüş, orta məktəbdə yaxşı oxumuş, fermada işlədiyi müddət ərzində təriflənmişdi. Həyatında heç bir korluğu olmamış, Maralı sevməyə başladığı gündən ömrünün ən gözəl çağları da başlanmışdı. İndi isə, bütün o sevinclər, o ürək döyüntüləri çarpaşıq bir şübhə ilə qarışıb anlaşılmaz olmuşdu.

Heydər yenə gözlərini zillədiyi nöqtədən ayırmamışdısa da, sanki sifətindəki ciddilik get-gedə çəkilir, onun yerində isə bir kədər əlaməti görünməyə başlayırdı. O, başını qaldırıb Marala baxdı. Qəzəbdən yanan və qan daman gözlərin iti baxışları, indi sanki anasını itirmiş və boynunu bükmüş bir körpə quzu baxışlarına oxşayırdı.

– Bilirsən, Maral, – o, qayğılı bir tövrlə dilləndi. – Biz bir-birimizi sevəndə heç kəs bizi məcbur etməmişdi. Deməli, cəbrən yox, könüllü sevişmişik. İndi də məni istəməsən ixtiyar özünündür. Səni heç kəs məcbur edə bilməz, – deyib qızı sınayıcı bir nəzərlə süzdü.

O, əlini qaldırıb Heydərin sözünü kəsdi:

– Sən bilirsən ki, mənim boş-boş danışıqlardan heç xoşum gəlməz, – deyə bozarmış və incimiş halda onu danlamağa başladı. – Sözün var, söz danış, mən aləmin içində onun abrını ətəyinə büküm, sən də bax.

Heydər nəzərlərini sərt bir baxışla Maralın gözlərinin içinə zillədi:

– Kişinin allı-güllü paltarını geyəndən sonra?!

– Sən məni təhqir eləmə, Heydər, – deyə Maral doluxsundu, onun çəhrayı sifəti alışıb-yandı, əl yaylığına bükdüyü pulu çıxarıb silkələdi, – budur, bir aydır gəzdirirəm, yolu yumrulmuş gəlib çıxmır verəm, adam adama borclu olanda onu bir bəzəyə-zada qoymaz ki? Bir də bu işlərin bütün təqsiri səndədir, – deyə Maral utana-utana davam edirdi. – Neçə dəfə dedim ki, apar qoy evində, sonra çıx hara istəyirsən get. Elə bildin gələndə ev-eşiyini yeyib dağıdacağam. – O qəhərləndi, yaşla dolan gözlərini yerə dikdi.

Özünün də günahkar olduğunu təsdiq edən Heydər, Maralın bu səmimi qəhəri önündə yumşaldı, başını aşağı saldı. Daha heç bir söz demədən, ayağa qalxıb dəyədən çıxdı. Tutulmuş Maral eşitdiyi yeni xəbəri, Cümşüd kişinin dediklərini belə Heydərə bildirməyi unutdu. O, Heydərin ona inanıb-inanmadığını, razı və ya narazı getdiyini də düzgün müəyyən edə bilmədi.

Günəşin ılıq nəfəsi, yerdə bərkimiş qarın buz sinəsinə toxunduqca qar göz-göz olurdu. Ağacların, kolların üstündə donmuş buzların donu açılıb yerə töküldükcə xəfif bir pıçıltını andırırdı. Güneylərdə tala-tala yer açılır, qarla yuyulmuş çınqıl daşlar gün altında şüşə qırıntıları kimi parıldaşırdı. Neçə gündən bəri davam edən çovğun tamamilə kəsmişdi, indi isə zəif bir sazaq əsirdi.

Çovğun müddətində tapandan bayıra çıxa bilməyən qoyunlar, bu gün dartınıb, gərnəşə-gərnəşə durna kimi qatarlaşıb gözləri qamaşa-qamaşa güneyə doğru çəkilirdi.

Başını qaldırıb adamların üzünə baxa bilməyən Qulam, hərdən alt dodağını üst dişlərinə söykəyib fit verir, əlindəki çomağı yerə döyərək qoyunları istənilən səmtə yönəldirdi. Heydər alıcı gözlərini sürünün içərisində gəzdirir, hərdən əlini uzadıb deyirdi:

– Bax, o sarı kərə toğlu təzədir, o, qara əbrəş də sürüyə təzə qoşulub.

Yoxlama komissiyası Heydərin göstərdiyi qoyunları tutub baxır, yaşını müəyyən edirdi. Ancaq bir məsələ Heydərə öz fikrini sübut eləməyə imkan vermirdi: qoyunların hamısı damğalı idi.

Kolxozun qoyunları ilin əvvəlində ayrılmış komissiya vasitəsilə damğalanır, damğa isə yalnız kolxozun kassasında saxlanılırdı.

Əgər Dadaş bu qoyunları alıb yenidən sürüyə qoşmuşdusa, bəs bu damğa haradandır?!

Cavab vermək çox çətin idi...

Əlacsız qalan Heydər, yenə də sürüyə göz gəzdirib soruşdu:

– Qulam, sarı kərə, qumral kürə, qara təpəl erkəklər hanı? O, Qaraman dağında sənə göstərdiyim və tapşırdığım öyəclər?

Qulam udqunub gözünü döydü. Dadaş irəliyə soxulub əllərinin ikisini də sağ tərəfdəki sürüyə doğru uzadaraq:

– Odey, hamısı sürünün içində, – dedi, – burada yüz sarı kərə, qara təpəl var, deyəsən sözün qurtarıb? Düşmənçiliyini elədin, bir şey çıxmadı, indi də gündə bir yalan material yazıb camaatın vaxtını alırsan. Sürünü qışın bu zalhazalında çıxarıb tökmüsən çovğunun qabağına, bu gündən daha mən hər yerə məlumat verib bu soyuğa düşmüş min-min qoyunu öhdəmə götürməyəcəyəm, sənin məqsədin aydındır, düşmənçiliyindən, paxıllığından düşübsən kolxozun canına. – O, get-gedə səsini ucaldır, ötkəm bir səslə danışırdı. – Dadaşın müdir olduğu gözünə niyə ox olub batır, balam. Sənin kimi qoyunun yununu tarac eləyib gündə bir naxışlı corab toxutdurmamışam, hər gün Qayışqıranın daşlı güneyinə yığıb qırmamışam, gecə-gündüz əlləşib salamat sürü saxlamışam, bir çəpişin də burnu qanamayıb, paxıllığın tutur? İndi bu böhtançı maddəsini də nallayarlar kürəyinə, ilim-ilim itərsən, onda görərsən ki, atı ürküdüb Dadaşı yıxmaq, onu öldürmək istəmək, ona böhtan atmaq nə imiş?

Heydər məəttəl qalmışdı. O, ağ bir cinayəti sübut edə bilmədiyi üçün hirsindən dil-dodağını çeynəyirdi. Qoyunların damğalı olması onu yaman şübhəyə salmışdı. O, Dadaşa gözlənilməz bir sual verdi:

– Bu il heç sürüdən xəstələnən, qurd dağıdan heyvan olmayıb ki?

Dadaş sarıqlı başını tərpədib:

– Bir baş da, elə ona görə də bəzi adamın paxıl qarnı yırtılır da.

Heydər işıq yolu tapmış kimi sevindi. O, kənarda durub, çomağın dəstəsinə qoyduğu yumruğuna çənəsini söykəyən Qulama müraciət etdi:

– Qulam ağ ərkəc hanı?

Qulam başını qaldırmadan, bəlkə də qeyri-iradi cavab verdi:

– Çapıqqaya ilə birlikdə ildırım vurdu.

Qulamın ağzından çıxan bu söz Dadaşın başında Çapıqqayaya düşən ildırım kimi partladı.

Heydər tələbedici bir səslə:

– Ağ ərkəcin ölüm aktı hanı, yoldaş müdir?

O hələ bu suala cavab almamış ikinci sualı verdi:

– Bəs həmin çovğun gecəsi canavar yeyən iki qoyun barəsində nə deyirsən?!

Dadaşın rəngi bir neçə dəfə tutulub açıldıqdan sonra, suallara cavab vermək əvəzinə çığır-bağır salmağa başladı:

– Ə, mənlə düşmənçiliyin var idi, öz canıma qəsd elədin bəs deyil, daha fermanın işini niyə çömçə kimi qarışdırırsan, balam? Ay camaat, ay yoldaş qəmisyə, xahiş edirəm, bu böhtanları da nəzərə alasınız. Yoldaş silisçi, xahiş edirəm bir klivit maddəsi də qoyasınız belinə...

Bu zaman başqa məsələlərdən o qədər də xəbəri olmayan qoca çoban Əmralı kişi irəli yeriyib üzünü komissiya üzvlərinə tutdu, ağ tükləri mor gözlərinin üstünə tökülmüş qaşlarını çataraq, şiş ot tayasına bənzəyən qara saçaqlı papağını əlinin arxası ilə geriyə itələyib gur səslə dilləndi:

– Erkək satılıb-satılmayıb, o barədə bir söz deyə bilmərəm. Özünüz bilən yaxşıdır. Ancaq ki, yoldaş Heydər, canavar yeyən qoyunlar barəsində, – o hər cümləni dedikcə nəfəsini dərir, dilini irəliyə verib, qabaq dişlərinin dibinə söykənir, sürtünərək keçən hava bir fışıltı əmələ gətirirdi. Sanki sulu xörək içirdi. – Bir də ildırım vuran ərkəc barəsində nahaq danışır...

Dadah, Əmralı kişidən belə cavab gözləmirdi. Çünki bir neçə dəfə o da eyham vurub demişdi: "Ay uşaq, bu dağ günündə erkəklər kökəlib yekəlmək əvəzinə, lap toğluya dönüblər. Bu nə sirridir, başım çıxmır?"

İndi isə Heydərin üzünə dururdu. Buna görə də Dadaşın qırışığı və qurumuş boğazı açıldı, gülümsünüb yaltaq bir görkəm aldı:

– Danış, Əmralı əmi, əlli ilin çobanısan, bu böhtanın bir tərəfi də sənə toxunur. Öz imanınla düzünü de.

Əmralı kişi yenə nəfəsini dərib davam edirdi:

– Nahaq yaxşı deyil, həmin qoyunları canavar yeyəndə, erkəci ildırım vuranda yazıq Dadaş heç fermada yox idi. O, Meydanbazara

getmişdi... – Bu sözləri deyəndə elə bil Əmralı iri və qüvvətli əlini qaldırıb, özünü unutmuş Dadaşın boynunun ardına elə bir yumruq vurdu ki, onun dişləri şaqqıldayıb kilidləşdi. Müstəntiq dərhal kişinin üstünü aldı:

– Deməli, vətəndaş Əmralı, siz də təsdiq edirsiniz ki, Qaraman dağındakı çovğun zamanı iki qoyunu canavar aparmış və erkəci də ildırım vurmuşdur, eləmi?

Əmralı təsdiq əlaməti olaraq başını silkələdi:

– Hə, başına dönüm, ancaq Dadaş orada olmayıb.

Müstəntiq üzünü Dadaşa tutdu:

– Əmralı Nəcəfəli oğlunun dedikləri düzdürmü?

Dadaş başını aşağı salıb dilləndi:

– Əmralı kişi doğru deyir, mən o çovğun gecəsi fermada olmamışam.

– Bəs heyvanların tələf olması barədə nə deyirsiniz?

Dadaş udqundu:

– Xəbərim yoxdur, mənə heç bir söz deməyiblər.

Müstəntiq kənarda dayanan Qulamı yanına çağırıb:

– Çovğun zamanı neçə heyvan tələf olub? – deyə soruşdu.

Qulam solmuş gözlərini Dadaşa zillədi. Sanki bu baxışlar Dadaşdan nicat istəyirdi.

Dadaş, Qulamın üzünə baxmadan, papiros qutusunu çıxarıb içərisindən bir dənə "Kazbek" götürdü, gilizini üfürüb damağına aldı və yandırıb tüstüləməyə başladı. Bu zaman Qulamın əvəzinə ferma işçiləri hər tərəfdən dilləndilər:

– Ə, sən oğurlamamısan, satmamısan, fəlakətə düşüb, hamı şahiddir, niyə qorxursan?

Daha çıxış yolu olmadığını görən Qulam dilləndi:

– Yoldaş qəmisyə, – dedi. – Üç heyvan tələf olub, necə ki, dedilər.

– Bəs bunların ölümü haqqında akt nə üçün tərtib olunmayıb?

– Onu müdir bilər.

Dadaş papirosa möhkəm bir qullab vurub Qulamın üstünə çımxırdı:

– Mən heç bir şey bilmirəm. Əgər ölübsə, məndən danmısan. İndi özün məsulsan, di cavab ver.

Artıq təngə gəlmiş Qulam, bərk üfürülən qovuq kimi partladı. O, bütün olub-keçənləri söyləməyə başladı. Hamı onun danışıqlarını dinləyir, Dadaş isə sancı tutmuş tülkü kimi qırışıb açılırdı.

Bu zaman Bəhmən və Sünbül də fermaya gəldilər.

Günortaya doğru günəş görünsə də soyuq bir sazaq əsirdi. Bu sazaq ülgüc kimi adamın üz-gözünü göynədirdi. Adamlar soyuqdan keyimiş ayaqlarını götürüb-qoyur, əllərini şalvar cibinə, gah da paltarının qoluna soxurdular. Dadaşın da buz kimi soyumuş sifətinin sarıqdan kənarda qalan yeri bozarmış, həmişə şux və lovğa görünən bədəni bükülmüş, boynu çovğuna düşmüş arıq qoyun boynu kimi əyilmişdi. O, heç kimin üzünə baxa bilmirdi, sədrin coşub qışqıra-qışqıra danışdığı hər söz sanki bir toxmaq kimi başına dəyib onu yerə sərirdi.

Soyuq hamını üşütsə də Bəhmənin sifəti pörtmüşdü. O, ağ iri yaylığını tez-tez çıxarıb boyun-boğazını silə-silə danışırdı.

O, Qulamın açıb ona söylədiklərini, Dadaşın Sünbül tərəfindən açılmış cinayətləri barədə yığılanlara məlumat verirdi.

Sünbülün göstərişləri müəyyən etmişdi ki, Dadaş, yay zamanı fermada olan itlər, ulaqlar və atlar üçün ayrılmış yarım ton arpanı öz anbarına yığmışdır. Bunu da eləmək onun üçün çətin deyildi. Özü dediyi kimi yay günü, yaylağın çiçəkli xamında at-ulaq arpanı neyləyir, itlər də elə sür-sümük, ayran-şor tullantısı ilə keçinər. Ona görə yem-məsarif cədvəlini səliqə ilə yazıb, özü atın da, itin də, ulağın da payını geri yanına ötürmüşdü.

"Daşdan keçən dokument olsun!"

Bunları eləməkdə Dadaşın heç bir çətinliyi olmamışdı. Bəs damğanı necə ələ keçirib təzə aldığı "erkəklərin" üzünə vurmuşdu?

Peşəkar üçün "sənəd" düzəltmək çox çətin şeydirmi? Yağlı vəzifə axtarıb tapan, oradan yağ çıxarmağın təhərini yaxşı bilər. Dadaş hələ fermanı yenicə təhvil götürəndə damğanı qızdırıb, üstünü qaşıyıb ağartdığı taxtaya basıb götürmüşdü. Meydanbazarda dəmirçi qəhətliyi deyildi ki...

Dadaş, işini ehtiyatlı görən adam idi. Ancaq bir şeyi unutmuşdu. Yəni heç ağlına gətirməmişdi ki, adamın arvadı üzünə durar, ondan, alıb gətirdiyi şeylərin hesabını çəkər. Heydər kimi "düşmənin" sözünə baxarlar... O deyəsən heç fikrinə gətirməmişdi ki, bu qoyunların hər birinin yüz sahibi, yüz gözətçisi var. Bəs Dadaş bunları necə edə bilmiş, bu cinayətlərə imkan verən səbəblər nədən ibarət olmuşdur? Yəqin bu suala hamı belə cavab verərdi: "Qohumbazlıq, dayıoğluluq, bibioğluluq".

Xeyr, buna, indi daha ətraflı başa düşən kolxoz sədri Bəhmən düzgün cavab verirdi. O, sonradan hər şeyi anladığı üçün içəridən alışıb-yanır, bu sazaqlı qış günündə təpəsindən tüstü çıxırdı.

İri addımlarla azca təpimiş palçığı ayaqlaya-ayaqlaya var-gəl eləyən Bəhmən, cinayətin səbəblərini belə izah edirdi:

– Müqəssir mənəm, camaat, hər nə tələbiniz var, məndən eləyə bilərsiniz. Bəli, belə biabırçılıq ancaq mənim kimi sədri olan kolxozda baş verə bilər. Mən hər adama bel bağlayıb, el malını tapşıranda, Dadaşın mənə əmlik, motal bağışlamaq niyyətini bilə-bilə üstünü vurmayanda, hər kəsin ağacatma yoxlamasına inananda bundan yaxşı heç bir nəticə gözləmək olmayacaq ki? – O boğulurdu. Hövlündən əl-ayağı, bədəni əsirdi. – Mən Dadaşa şəraiti onda yaratmışam ki, qoyunların qrupa, yaşa, rəngə görə düzgün uçotunu saxlamamışam. Mən Dadaşa onda şərait yaratmışam ki, kolxozda hesabat-uçot işi bərbad hala düşüb, Məmiş çeşməyinin üstündən boylana-boylana ancaq qoyunların sayı, bir də tərtib olunan saxta sənədlərlə kifayətlənmişdir.

Bir tərəfdə təkcə dayanıb boynunu bükən Dadaş, hamının nifrət edib iyrəndiyi, üfunətli, yaramaz bir şey kimi durmuşdu. O yenə də arvadı Sünbülə, Heydərə, Marala, Bəhmənə, yoxlama komissiyasına böhtan atmaq istədisə də, heç bir nəticə verməyəcəyini anladı. Gözlərini döyüb, tələyə düşmüş tülkü kimi qıvrıldı. Sünbül sübut etmişdi ki, o, kolxozun fermasından xəyanət yolu ilə müəyyən miqdarda pul və taxıl mənimsəmişdir. Cümşüd kişinin köməyi ilə sübut olunmuşdu ki, "Heydərin atı ürküdüb Dadaşı yıxmaq" məsələsi yalandır. Cümşüd kişi müstəntiqə bildirmişdi ki, Dadaş "sarı aşacaqdan" enərkən onunla qabaqlaşmış, o vaxt o atın üstündə deyildi. O, atı yedəyinə alıb gedirdi. Maral və ferma işçiləri onun üzünə durub isbat etmişdilər ki, Marala böhtan atmışdır. Komissiya isə Heydərin köməkliyi, Qulamın nəhayət dilə gəlməsi nəticəsində Dadaşın cinayətlərinin üstünü açmışdı.

Bəhmən bu ara daha qızışır, özünə divan tutmaq istəyən adam kimi bağırırdı.

– Mənəm, camaat, sizin varınızın dağılmasının səbəbi. Mən bilə-bilə qoyunu qurda tapşırmışam.

Dadaş başını qaldırmadan yaltaqlıq, yarı hiylə və acizlik bildirən bir ifadə ilə dilləndi:

– Bəhmən qağa, günahkar mənəm, səhv eləmişəm, qanmamışam, sizdən xahiş edirəm, mənim səhvimdən keçin, məni tərbiyə edin, səhvimi boynuma alıram, ay camaat...

Hələ Bəhmən dillənməmiş müstəntiqin səsi aydın və qəti bir hökm kimi eşidildi:

– Sən, vətəndaş Dadaş, səhv yox, cinayət etmişsən, cinayətkar isə qanun qarşısında cavab verir!

Səslər çoxalırdı:

– Oğrunu cəzalandırmaq lazımdır.

– Böhtançını məhkəməyə verin.

– Kolxozumuzun adını, camaatımızın, elimizin adını biabır etmək istəyən, xalq malına xain baxan adamı cəzalandırın!

Qaynar suya düşmüş cücə tək büzüşən Dadaş, özünə bir köməkçi, bir havadar axtarırmış kimi başını qaldırıb, solğun gözləri ilə hamıya baxdı. Onun nəzərləri, damalı yun bürüncəyə bürünərək, kəskin nifrət və xəcalət ifadə edən bir vəziyyətdə dayanmış Sünbülə zilləndi.

Bu baxışlar içəridə xəyanət və intiqam hissilə qaynasa da zahirən imdad ifadə edirdi. Sanki Dadaş deyirdi: "Məni bağışla, Sünbül, mənə kömək elə, axı sən mənim günahsız körpəmin hələ dünyaya gəlməmiş övladımın anasısan!" Sünbül, Dadaşın baxışlarını başa düşür, onun arvadı olduğu üçün xəcalət çəkir və ondan uşağı olduğuna görə utanırdı...

Dadaşın nəzərləri Qulama – xəcalətindən buz kimi donan, işlətdiyi cinayətin məsuliyyətini bütün ağırlığı ilə dərk edən "bibioğluna" çevrildi. Qulam çox kəskin bir baxışla onu süzüb, güclə eşidilən, ancaq çox dərindən gələn bir səslə dedi:

– Səni yerə girəsən dayıoğlu, məni yaxşıca el içində bədnam elədin...

Kolxozda baş vermiş bu xoşagəlməz hadisə hamıya təsir etmişdi. Ferma işçiləri binələrinə çəkilir, kolxozçular dinməz-söyləməz kəndə tərəf dağılışır, kolxoz sədri Bəhmən isə özünün soyuqluğu üzündən baş vermiş bu cinayətin ağır məsuliyyətinin yükü altında yerə girmək istəyirmiş kimi dizinə qədər qarlı palçığa bata-bata kolxoz idarəsinə tərəf gedirdi.

Hamı fermanın vəziyyətini yaxşılaşdırmaq və onu təmiz əllərə tapşırmaq haqqında düşünürdü.

Dadaş isə müstəntiqin göstərişi üzrə tək-tənha rayona yollanırdı. O, başını qaldırmadan, heç kimə, heç yana baxa bilmədən, ağır-ağır çəkilib gedirdi. Bir kölgə kimi aralanıb gözdən itməkdə olan bu tək adamın qara izləri görünürdü... Hələlik zamına verilən Qulam da boynunu büküb bu izlərə baxa-baxa qalmışdı...

*1956*

# İSMAYIL ŞIXLI

(1919-1997)

*İsmayıl Şıxlı Qazax rayonunun İkinci Şıxlı kəndində müəllim ailəsində doğulmuşdur. Kosalar kənd ibtidai məktəbini bitirmiş, sonra Qazax Pedaqoji Məktəbində* (*1933-1936*), *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində* (*1937-1941*), *həmin fakültənin aspiranturasında* (*1946-1949*) *təhsil almışdır.*

*Əmək fəaliyyətinə 1936-cı ildə başlamış, Kosalar kənd orta məktəbində tədris hissə müdiri işləmişdir* (*1936-1937; 1941-1942; 1946*)*. Böyük Vətən müharibəsi zamanı döyüşən orduda xidmət etmişdir. Aspiranturanı bitirdikdən sonra ADPİ-nin filologiya fakültəsində müəllim, baş müəllim, dosent, xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri vəzifələrində işləmişdir. Daha sonra o, Azərbaycan Yazıçılar İttifaqının katibi* (*1965-1968*), "*Azərbaycan*" *jurnalının baş redaktoru* (*1976-198*), *Azərbaycan Yazıçılar İttifaqının birinci katibi* (*1981-1987*) *vəzifələrində çalışmış, Azərbaycanın Xalq yazıçısı fəxri adı almışdır* (*1984*)*. Ədib 1997-ci ildə Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdu.*

*İ.Şıxlı nasir kimi ədəbi fəaliyyətə XX əsrin 40-cı illərində başlamışdır. Onun* "*Ayrılan yollar*", "*Dəli Kür*", "*Cəbhə yolları*" *adlı romanları Azərbaycan nəsrinin klassik nümunələri sırasına daxildir.* "*Kerç sularında*" *hekayəsi yazıçının ikicildlik "Seçilmiş əsərləri"nin I cildindən (B., Yazıçı, 1986) götürülmüşdür.*

## KERÇ SULARINDA

(*Hekayə*)

*Kerç uğrundakı vuruşmalarda həlak olub, Duzlugöl deyilən yerdə dəfn edilmiş cəbhə dostlarımın əbədi xatirəsinə ithaf edirəm.*

### 1

Ağxalatlı bir qız, cərgə ilə düzülmüş tibb çadırlarının arasından keçib, yenicə düşmüş cığırla sahilə yaxınlaşdı. Dənizdən əsən sərin külək onun başına bağladığı ağ qıymaça altından çıxıb yanaqlarında qıvrılan qara tellərini oynatdı. Bədəni üşürgələnən qız, bir anlığa dayandı. Sahilə cuman xırda ləpələr bunu gözləyirmiş kimi öz köpüklü dilləri ilə onun ayağını yaladı. O, narahat baxışlarla ətrafa

boylandı. İri qara gözləri geniş açılaraq, qaranlıqda kimi isə axtardı. Sahildə heç kəsi görmədikdə, "axı, o mənə söz vermişdi, nə üçün getdi?" – deyə öz-özünə düşündü. Sonra da köksünü ötürərək astadan pıçıldadı: "Yəqin mən çox ləngidim".

O bir daha ətrafa boylandı. Cənub gecələrinə məxsus qatı qaranlıq hər yeri bürümüşdü. "Yox, günah məndə oldu", – deyə düşünən qızın qolları boşaldı. Əlində tutduğu üçkünc məktubu ağ xalatının döş cibinə qoydu və könülsüz addımlarla sahildən uzaqlaşdı. Birdən kim isə:

– Zəhra, haradasan? Səni gözləyirik! – deyə çağırdı.

Qız səs gələn tərəfə cumdu.

O, körpüyə çatan zaman Leyla ilə xudahafizləşən matros, artıq balaca qayığın kəndirini açıb yola düşməyə hazırlaşırdı.

– Axır ki, sizi tapdım.

Zəhra həyəcandan titrədiyi halda xalatının döş cibindən məktubu çıxardıb qayıqda oturmuş matrosa verdi.

– Çox rica edirəm, bu kağızı ona çatdırasınız. Özünə də deyəsiniz ki, ondan çox incimişəm. Nə üçün mənimlə görüşmədi?

– Axı, o hardan bilsin ki, siz burdasınız?

– Düzdür. Ancaq onu xeyli vaxtdır görmürəm, ürəyim yaman istəyir.

Matros lövbərdə dayanan və qaranlıqda güclə seçilən gəmilərə baxdı. Sonra da köksünü ötürdü:

– Neyləyim, bacı, vaxt azdır, yoxsa sizi aparıb görüşdürərdim.

O, əlindəki avarı körpünün dirəyinə dayayıb qayığı itələdi. Sahildən aralanan qayıq ləpələri yarıb irəli şığıdı, avarlar suyu şappıldatdı...

– Mənim əvəzimdən onu çoxlu öpün! – körpünün üstündə dayanan Zəhra qışqırdı.

Onlardan xeyli aralanan matros gülümsündü:

– Yaxşı, ancaq siz də mənim əvəzimdən Leylanın başına həmin oyunu açın.

Qızlar gülüşdülər. Yerlərindən tərpənmədən qayığın arxasınca baxdılar.

Qayıq artıq görünmürdü. Ancaq matrosun oxuduğu nəğmənin ayrı-ayrı sözləri sahilə çatırdı: "Gözlə məni... bir səhər çağı... zəfərlə gələrəm..."

Bir azdan nəğmə də eşidilməz oldu. Gözlərini dənizdən çəkməyən Leyla astadan dilləndi:

– Quş kimi gəlib, quş kimi də getdi.

Onlar körpüdən aralanıb asta addımlarla qumlu sahildə gəzişməyə başladılar.

Dəniz iztirab çəkirmiş kimi narahatlıqla çırpınır, köpüklü suları ilə balıqqulaqlarını xışıldadırdı. Səyyar mətbəxin yanında oturub söhbət edən aşpazlardan və arabir gözə dəyən keşikçilərdən başqa sahildə kimsə yox idi. Onların ehtiyatla çəkdikləri papiros qaranlıqda köz kimi işıldayıb tez də sönürdü. Sanki sahil mürgüləyirdi. Halbuki bir az bundan əvvəl hər şey hərəkətdəydi.

Motorlu qayıqlar istehkamçıların tikdiyi kiçik körpülərə əhəmiyyət vermək istəmirmiş kimi birbaş sahilə yaxınlaşırdı. Piyadalar nazik bir taxtanı körpü edir, ağır pulemyotlarını qayıqlara yükləyir, atılıb gəmiyə mindikdən sonra isə istəkli "maksimlərini" qayığın burnunda möhkəmlədirdilər. Yükünü götürmüş qayıqlar ləngərlənir, işin qurtardığını görən matroslar sükanın arxasına keçirdilər.

İti burunları ilə dalğaları qılınc kimi yarıb ətrafa səpələyən katerlər körpüyə yaxınlaşır, əlində kəndir tutan matros:

– Palundra! – deyə qışqırırdı.

Kəmənd kimi havada fırlanan kəndir dirəklərdən birinin başına dolanırdı. Dalğalar gəmini yırğaladıqca, körpünün taxtaları cırıldayır, bəzən də ovxalanıb tökülürdü.

– Eh, sapyorlar, axı sizi dənizə kim buraxıb, sizin ki işiniz gölməçələrdə körpü tikməkdir, – deyə matroslar istehkamçılara sataşırdılar.

İstehkamçılar isə:

– Zolaqlı pələnglər, biz nə edək, körpünün üstünə əjdaha kimi gəlirsiniz, – deyə cavab verirdilər. Sonra isə baltalar taqqıldayır, uçub tökülən yer dərhal təmin edilirdi.

Öz toplarını sürüyüb gətirən və gəmiyə əvvəlcə minmək istəyən topçular piyadalarla sözləşir, bir azdansa köməkləşib topları dığırlayır və göyərtədə cərgə ilə düzürdülər. Mərmi qutularının ağırlığından körpü az qalırdı ki, çöküb yatsın. Arabir qazançalar səslənirdi.

– Ə, danqıltını kəs, sonra frisi duyuq salarsan.

– Qulaqlarının pərdəsini "Katyuşa" dağıdıb, heç nə eşitməzlər.

Zarafatlaşan əsgərlər gəmiyə doluşurdu. Komandiri əvəz edən miçmanlar sahildən aralanmaq üçün əmr verir, bosman kəndiri açır, bir azdan isə zəncirlər cingildəyirdi. Axında dayanan gəmilərin lövbərləri şappıltı ilə suya düşürdü.

Körpülər dolub-boşalır, ayaq tappıltısı, tüfəng dibçəklərinin səsi bir-birinə qarışırdı. Starşinalar ora-bura qaçışır, yola saldıqları əsgərlərə ərzaq və döyüş sursatı paylayırdılar. Əlində çömçə dayanan aşpazlar isə:

– Uşaqlar, kim yenə yemək istəyir? – deyə qışqırırdılar.

İndi isə hər şey sakitləşmişdi.

Axında lövbər salıb dayanmış saysız-hesabsız gəmilərin yanlarında atılıb-düşən ləpələrdən başqa heç nə dillənmirdi.

Sahildə bir xəyal kimi dayanmış ağ geyimli həkim qızlar darıxırdılar. Onlar burda tək qaldıqları, minlərlə qardaşlarından ayrıldıqları üçün kədərlənirdilər. Axı, onlardan geri qayıtmayanlar da olacaq. Qələbə ki itkisiz əldə edilmir.

Elə bu vaxt sahil xışıldadı. Bir-birini qovan xırdaca ləpələr özü ilə bərabər gətirdiyi dəniz küləyini onların üzünə çırpdı. Hansı gəmidə isə oxuyurdular:

Dostlar, yürüş var, dan qızaran zaman!
Gedək, çəkilməmiş üfüqdən duman.
Oxuyaq, bizimlə bahəm oxusun
Saçına dən düşmüş cəsur kapitan.

Ötkəm bir səslə oxunan bu nəğmədən sonra xor guruldadı:

Əlvida, ey doğma, sevimli şəhər,
Gedirik dənizə biz sabah səhər.
Arabir görünür gəmi dalından,
Mavi yaylıq tutan o tanış dilbər.

Dalbadal fişəng atıldı.

Sahildə, hündür yarğanın üstündə tikilmiş balaca müşahidə budkası bir anlığa işıqlandı. Gecənin qaranlığında əyri cizgilər çəkən qırmızı, yaşıl rəngli alovlar dəniz sularının üzərinə gümüşü pullar səpələdi. Axında dayanmış gəmilərin birindən cavab verildi. Yürüş vəziyyətində dayanmış gəmilər bir anlığa işığa qərq oldu. Motorlar guruldadı. Dəniz çırpınaraq çalxalandı. Sularda qaralan gəmilər sonsuz boşluqlarda yox oldu. Qızlar qıymaçalarını açıb yellədilər. Sahildə toplaşan aşpazlar, starşinalar və keşikçilər papaq elədilər.

Gəmilərin arxasınca göz işlədikcə uzanan gümüşü bir yol açıldı. Orda nə isə titrəyir, dairəciklər şəklində sayrışırdı.

– Zəhra, sizə soyuq olar, şinelinizi gətirmişəm.

O dönüb baxdı. Şəfqət bacısının gətirdiyi qara Kuban papağını qoydu, sarı şinelini geydi. Çiynindəki ensiz paqona yapışdırılmış dörd ulduz almaz kimi parıldadı. O, Leylanın qoluna girdi.

– Bu gecə səhərə qədər sahildə keşik çəkməliyik.

– Baş üstə.

Onların uzaqlara nüfuz edən gözləri yenidən ay işığında parlayan sulara zilləndi.

## 2

Ləpələr gəminin burnuna çarpılaraq parçalanır və ay işığında mirvari dənələri kimi ətrafa səpələnirdi. Suları hirslə yaran katerlər dağların ahənginə uyğun olaraq qalxıb-endikcə motor uğuldayır, özündən sonra köpüklü zolaqlar buraxırdı. Buludlar arasından boylanan ay isə aşağı enərək sulara qovuşmağa can atırdı.

Qabaqda minatəmizləyən katerlər gedir, onların ardınca da karvan hərəkət edirdi. Su sıçrantılarının yuduğu göyərtədə dayananlar gözlərini qaranlığa zilləyib irəli baxırdılar. Katerin kapitanı Aslan gəminin burnunda dayanmışdı. O tez-tez çənəsindəki qara, topa saqqalını tumarlayırdı. Əsən külək yaxasını açır, su sıçrantıları isə onun geniş köksünə dar gələn göy zolaqlı köynəyini isladırdı. Onun işarəsinə qulaq asan sükançının idarə etdiyi gəmi, karvanın sol cinahı boyu dövr edirdi.

Ekipaj öz yerində sakitcə dayanmışdı. Onlar nə edəcəklərini əvvəlcədən bilirdilər. Hələ yola düşməzdən əvvəl əməliyyata rəhbərlik edən general onlara demişdi:

– Siz düşmən projektorlarını məhv etməlisiniz. Onların, sahilə yaxınlaşan gəmilərimizi axtarıb tapmasına yol verməməlisiniz. Biz özümüzə döyüş meydançası əldə etməliyik. Düşmən isə bizə bu bir parça torpağı verməmək üçün saysız-hesabsız projektorlarını işə salacaqdır. Onun gözlərini kor etsəniz, gəmilərimiz qaranlıqdan istifadə edərək sahilə yan ala bilər.

Ekipaj, komandirləri ilə birlikdə susur və qarşıdakı döyüşü gözləyirdi. Ancaq topçu İlyas sakit ola bilmirdi. O, günahkar idi.

Axında dayanan kimi sahilə çıxıb quruda gəzməyi, rast gələnlərlə zarafatlaşıb gülməyi, yeri gələndə isə bir-iki yüz qram araq

içməyi xoşlayırdı. Gəmi dayanan kimi komandirin yanına gələr, “kapitan, icazə ver”, – deyə başı ilə sahilə işarə edərdi. “Olmaz” cavabını aldıqda isə köksünü ötürər və lentli matros papağını çıxardıb, “əlvida torpaq, görünür, sənə qovuşmaq çətindir!” – deyərdi. Onun belə kədərləndiyini görən kapitan özünü saxlaya bilməyib gülümsünərdi. İlyas bunu duyub şadlanardı: “Demək, razısınız, kapitan”. O, dərhal kiçik qayığa atılardı. Sahildən əliboş geri qayıtmazdı. Göyərtəyə çıxan kimi:

– Uşaqlar, sizə abi-kövsər gətirmişəm, gəlin dadına baxın, hava soyuqdur, – deyərdi.

Bu gün də elə olmuşdu.

İlyas sahildəki tibb çadırlarını, qaynayıb-qarışan insanları, ağ xalatlı qızları görən kimi gəmidə darıxdığını hiss etmişdi. “Yox, mütləq quruya çıxmalıyam”, – deyə qərara almış və komandirdən icazə istəmişdi.

Kapitan isə gülərək:

– Yox, İlyas, bu dəfə səni buraxmayacam. Əgər könlün abi-kövsər istəyirsə, gəmimizdə var. Miçmana tapşıraram, nə qədər lazımdır verər, – demişdi.

Komandirin cavabı onu kədərləndirmişdi.

– Kapitan, bir az gəzmək istəyirəm, ürəyim darıxır, xeyli vaxtdır quruda olmamışam.

İlyasın baxışlarındakı intizar və səsindəki titrəyiş komandiri yumşaltmışdı.

– Yaxşı, get, ancaq gecikmə!

– Baş üstə, yoldaş kapitan, – deyə hərbi qaydada cavab verən İlyas, gəminin yanına bağlanmış qayığa atılmışdı.

Ancaq İlyas sözünə əməl etməmişdi. O çox gecikmiş, komandiri və yoldaşlarını təşvişə salmışdı. Kapitan düşünmüşdü: “Yəqin qəsdən ləngiyir, əməliyyatdan qalmaq istəyir”.

Sahildən hərəkət siqnalı verildikdən, zəncirlər səslənərək lövbəri qaldırdıqdan sonra hamı İlyasın qayıtmayacağını zənn etmişdi. Elə bu vaxt o özünü yetirmişdi.

Ancaq kapitan onu dindirməmişdi. İlyası sərt baxışla süzdükdən sonra göyərtədən uzaqlaşmışdı. O isə sakitcə öz topunun arxasına keçmişdi.

Nədənsə yoldaşları da ondan üz çevirirdi.

İlyas əvvəlcə heç nə anlaya bilmədi. “Nə üçün uşaqların hamısı kədərlidir? Nə üçün onlar mənim üzümə baxmaq istəmirlər?”

Aradan xeyli keçdi. İlyas sakit ola bilmədi. Döyüşqabağı komandirin hirsinə səbəb olmaq, yoldaşları ilə danışmamaq ona çox ağır gəlirdi. Birdən İlyasın beynindən müdhiş bir fikir keçdi. Onun rəngi ağardı.

– Yoxsa...

Yerində dayana bilməyib sükançıya yaxınlaşdı. Həmişə zarafat edən və İlyası gördükdə “tütün ver, çəkək” – deyə trubkasını irəli uzadan Dmitriyev də onun üzünə baxmadı.

İlyas sükançıya heç nə demədən gəminin burnunda dayanmış kapitana yaxınlaşdı. Aslan özünü görməməzliyə vurdu.

– Kapitan, məni bağışlayın!

O cavab vermədi.

İlyas daha da tutuldu.

– Keçin günahımdan.

Aslan sərt bir hərəkətlə geri dönərək, düz onun gözlərinin içinə baxdı.

– Nə üçün gecikdin, yoxsa komandanın adını ləkələmək, bizi rüsvay etmək istəyirdin?

İlyas kapitanın səsindəki titrəyişin fərqinə vara bilmədi. Ağır zərbə almış kimi gözləri qaraldı:

– Kapitan?!

Əlini qoltuq cibinə saldı. Üçkünc bir kağız çıxardıb Aslana verdi.

– Bu nədir?

– Məktubdur, sizə çatacaq.

– Kimdən?

– Bacınızdan.

Aslan titrək barmaqlarla kağızı açdı, lakin qaranlıq olduğundan heç nə oxuya bilmədi. İlyasın çiyinlərindən yapışdı.

– Onu harda gördün?

İlyas Aslanın həyəcanlandığını sezib səsinə oynaq bir ahəng verdi:

– Kapitan, sizdən heç nə gizlətməyəcəm. Sahilə çıxan kimi bir qızla rastlaşdım. Onun qarabuğdayı çöhrəsi diqqətimi cəlb etdi. Yaxınlaşıb rusca “haralısınız?” – deyə soruşdum. O, dönərək mənə baxdı. Əli ilə küləyin oynatdığı ağ xalatının yaxasını düzəldib “azərbaycanlıyam” dedi. Mən sevinib, köhnə dost kimi ona dalbadal

suallar verdim: "Hansı rayondansan, həkimsənmi, adın nədir, çoxdanmı burdasan?" O mənim acgözlüklə verdiyim suallara gülümsünərək cavab verdi. Doğrusu, kapitan, hər şeyi unutdum. Axı çoxdandı onlarla deyib-danışmırdım...

– Yenə başladın hay-küyə. De görüm, Zəhranı harda gördün?

– Bu saat, kapitan, səbr edin. Mən Leyla ilə xeyli söhbət etdim. Bir-birimizə ünvan verdik. Sonra o dedi ki, mənim bir rəfiqəm var, onun qardaşı da matrosdur. Bunu eşidən kimi tez adını soruşdum. Dedi ki, Aslandır. Dedim: "Necə, yoxsa bizim kapitan Aslandır?" Sonra getdik Zəhranın yanına. Məsələni bilən kimi tez bu məktubu yazdı.

İlyas sözünü qurtarıb susdu. Gözlərini Aslana zilləyərək onun cavabını gözlədi:

– Demək, sən qəsdən ləngiməmisən?

Kapitan onu qucaqladı. Öz komandirinin boynuna sarılan matros, "mən ona söz vermişəm, gərək xahişini yerinə yetirəm", – deyə Aslanı dönə-dönə öpdü.

– Yaxşı, bəsdir.

– Yox, kapitan, mən sizi Zəhranın əvəzinə nə qədər çox öpsəm, o da mənim əvəzimə Leylanı öpəcək.

– Di qurtar, zolaqlı şeytan, – deyə Aslan özünü onun qollarından xilas etdi.

İlyas sükançının yanına cumdu.

Dmitriyev boş trubkasını hirsli-hirsli sorub fısıldadırdı.

– Ey, Yoska, qaşqabağın açılsın, o məni bağışladı.

– Doğrudanmı?

Dmitriyevin ağzındakı trubka yerə düşdü. O, trubkanı götürüb yenidən dişləri arasına sıxdı. Sonra da ciddi görkəm aldı. Lentli papağını gözünün üstünə basıb qamətini düzəltdi. Gözünü qabağa zilləyib:

– Sürəti artır, irəli! – deyə motoristlərə qışqırdı.

Gəmi birdən-birə silkələnib qabağa cumdu.

Məktubu oxumaq üçün kayuta enmiş Aslan tələsik bayıra çıxdı.

– Dmitriyev, yenə nə edirsən?

– Qorxaqlığı yadına düşüb.

Ekipaj gülüşdü.

– Yox, o günlər keçib getdi, – deyə Dmitriyev sükanı hərlədi. Odessada ilk dəfə döyüşə girdiyi günü xatırladı...

Bir dəfə onlara düşmənin qabağını kəsib sahilə yanaşmağa qoymamaq əmri verilir. Dmitriyev də birinci dəfə vuruş meydanına girir. Döyüş başlanan kimi o özünü itirir. Mərmilər başının üstündən uçduqca gözünü yumur, bir küncə qısılaraq nə olacağını gözləyir. Aradan xeyli keçəndən sonra özünü maşın hissəsinə salır və "geriyə!" – deyə əmr verir. Gəmi istiqamətini dəyişir. Kapitan, "irəli!" əmrini verir və matroslara acıqlanır. Bu hal bir neçə dəfə təkrar olunur. Sonra Dmitriyev öz günahını başa düşüb, üzr istəyir.

Dmitriyev bu döyüşü həmişə yoldaşlarına gülə-gülə nağıl edirdi. İndi də icazəsiz sürəti artırdığına görə yoldaşları ona bu əhvalatı xatırladırdılar.

Sahilə az qalırdı.

Düşmən susur, öz varlığını hiss etdirmirdi. Güclə seçilən təpələrdə, yarğanlarda canlılıq nişanəsi yox idi. Yürüş qaydasında düzülmüş müxtəlif biçimli gəmilər isə əzəmətlə irəliləyirdi.

Aslan öz katerini qabağa sürür, dördgözlə ətrafa baxırdı. Kapitan bu ağır sükutun arxasında gözlənilməz bir hücumun olacağına əmin idi. O bilirdi ki, düşmən gəmilərimizi yaxına buraxdıqdan sonra atəşə başlamaq istəyir.

Tez-tez durbinlə sahilə baxan Aslan, öz döyüş təcrübəsinə əsasən projektorların yerlərini müəyyənləşdirməyə çalışırdı.

Qırıcı katerlər onun yanından ötüb keçməyə başladı. İndiyə qədər ağır gəmilərin ətrafında dolaşan qırıcılar qabağa keçir və qəti sıçrayışa hazırlaşırdılar. Bunları görən miçman dilləndi:

– Kapitan, ovçular hərəkətə gəldi.

– Görürəm. İş vaxtı çatmışdır.

Aslan dönüb qısaboy, enlikürək oğlana baxdı. Birlikdə katerin göyərtəsinə gəldilər. Matroslar sakitlikdən yorulmuş kimi görünürdülər.

– Deyəsən, darıxırsınız, dostlar!

Bosman qaşqabağını tökdü:

– Bekarçılıq adamı yorur.

– Tələsməyin.

Aslan dönüb İlyasa baxdı:

– Bax, kələkbaz, bütün bu işlər səndən asılıdır. Gülləyə qənaət və sərrast atəş. Aydındırmı?

– Arxayın olun, kapitan, sınan projektorların şüşə cingiltisindən onlara vals çalmaq köhnə adətimdir.

Matroslar astadan gülüşdülər.

– Lap yaxından sürətlə ötən katerin dalğaları gəmini ləngərləndirdi.

– Hazır olun, hər kəs öz yerinə!

Aslan gəminin burnuna yenicə çatmışdı ki, yaşıl alov ətrafı bürüdü. Sularda ildırım işığı kimi göz qamaşdıran şəfəqlər oynadı. Ümumi bir gurultu sahil yarğanında səsləndi. Gəmilər yerində silkələndi. Gözləmədiyi gurultudan vahimələnən dəniz narahatlıqla çalxalandı. Düşmən tərəfdə partlayan mərmilərin alovu görünməyə başladı. Əvvəl tək-tək atılan topların səsi sonradan ümumi bir uğultu təşkil etdi. Sahildə partlayan mərmilər bir azdan uzaqlara, düşmənin arxasına səpələndi.

Atəşin getdikcə dərinliklərə keçdiyini görən katerlər hərəkətə başladı. Göyərtələrdəki rezin qayıqlar hava ilə dolduruldu. Öz yükünü götürüb barjlardan və katerlərdən ayrıldı. Onları mühafizə edən katerlər atəş aça-aça sahilə qədər getdi.

Aslan isə susurdu.

Düşmən tərəfdən səs-səmir çıxmırdı.

İlk qayıqlar sahilə yanaşdı. Elə bu vaxt gözlənilmədən sularda şəfəqlər oynadı. Qaranlığı qılınc kimi yaran çarpaz zolaqlar sahili işıqlandırdı. Bayaqdan susan düşmən dilləndi. Vəziyyətin birdənbirə dəyişdiyini görən Aslan əmr verdi:

– Hazır olun! Sürəti artır, irəli!

Kater suları yardı.

– Sola götür.

– Baş üstə, yoldaş kapitan.

– Qarşıdakı projektora atəş!

Toplar guruldadı. Barıt tüstüsü ətrafı bürüdü. Mərmilər hədəfdən solda partladı.

– Bir az sağa atəş!

Toplar yenə gurladı. Dənizdə oynaşan işıqlı zolaqlardan biri yox oldu.

– Afərin, İlyas!

İlk qələbədən sevinən sükançı "kaput" deyə qışqırdı və boş trubkasını sormağa başladı.

Sahildə əlbəyaxa vuruşma gedirdi. Bizimkilər düşmənin müqavimətini qırmaq üçün səngərlərə atılır, özlərinə mövqe tutmaq istə-

yirdilər. Düşmən isə quduzcasına müqavimət göstərir, qayıqlarımızı sularda qərq etməyə çalışırdı.

Lakin katerlər quruya yanaşaraq öz yüklərini boşaldır, ətrafa partlayan mərmilərə əhəmiyyət verməyən döyüşçülər isə suyun içində əlləşərək, kiçik topları sahilə çıxardırdılar.

Birdən gözqamaşdırıcı işıq göründü. Gəmilərin yan alması üçün körpü düzəldən istehkamçılar projektor işığında nəzərə çarpdılar. Altılüləli minasaçan uladı. Dalbadal partlayan minalar suları göyə sovurdu. Taxta parçalarına çevrilən körpü adamlarla birlikdə yox oldu.

– Atəş! – deyə Aslan qışqırdı.

Lakin işıq sönmədi. Kapitan sahilə yanaşmağı əmr etdi. Elə bu zaman başlarının üstündən vıyıltı ilə ötən mərmi gəminin dal hissəsinə yaxın yerdə partladı. Kater zərbədən silkələndi.

– Atəş!!!

Toplar yenə guruldadı.

Aslanın gözləri qamaşdı. Gəmini projektorlar tutmuşdular. İşıqlı güllələr aramsız olaraq onların üstünə uçuşurdu.

Aslan:

– Bizi tutan projektora atəş! – deyə əmr etdi.

Toplar yenə guruldadı.

– Pulemyotlardan da atəş!

Güllələr qatarlaşaraq havada süzdü.

Sahillə gəmini birləşdirən bu odlu yolla müxtəlifrəngli güllələr uçmağa başladı. Onlar sanki havada qabaqlaşaraq, əlbəyaxa olmaq istəyirdi.

Kater işıq zolağında çırpınır, özünü qurtarmağa çalışırdı. Düşmən isə əl çəkmirdi. Bu, Aslanı daha da hirsləndirdi.

– Tam sürətlə irəli, bütün silahlardan atəş!

Dmitriyev dişini qıcayıb sükanı hərlədi.

Ətrafında partlayan mərmilərə əhəmiyyət verməyən kater irəli cumdu. Top və pulemyot səsləri bir-birinə qarışdı.

– Kapitan, arxada düşmən var.

Aslan dik atıldı, sonra saqqalını tumarlayıb özünü doğrultdu.

– Həmləyə hazırlaş!

Elə bu vaxt fışıltı ilə ötüb-keçən mərmi maşın şöbəsində partladı. Gəmi özülündən sarsılmış kimi titrədi. Yanı üstə əyildi. Burnu yuxarı qalxdı. Havaya sovrulan sular şırıltı ilə göyərtəyə töküldü.

Aslan özünü itirmiş halda "Atəş!" – deyə qışqırdı. Ancaq haraya atəş açmaq istədiyini özü də bilmirdi.

Onun əmrinə təkcə İlyas cavab verdi.

Gəminin üstündə dalbadal üç şrapnel mərmisi partladı. Çarpanalar dolu kimi göyərtəyə səpələndi. Kimsə zarıdı. Sükan hissəsində nə isə tappıltı ilə döşəməyə düşdü. İlyas canını dişinə tutub son mərmini atdı. Sonra da ciliklənmiş qolunun ağrısına dözə bilməyib başını topun lüləsinə söykədi. Onun dizlərini bükərək yerə çökdüyünü görən Aslan özünü irəli atdı. Ancaq müvazinətini itirərək yıxıldı. Döşəmədə xeyli hərəkətsiz qaldı.

Maşın şöbəsi su ilə dolur, ağırlaşan gəminin göyərtəsində ləpələr oynaşırdı. Katerin dal tərəfi suya batdıqca dalğalar daha da irəli atılırdı. Kater qərq olurdu. Aslan gözlərini açdısa da, ətrafındakı hadisələrdən heç nə anlaya bilmədi. Onun qulaqları cingildəyirdi. Şiddətli başağrısı isə sərbəst nəfəs almasına mane olurdu. Başdan-ayağa islanmış Aslan ayağa qalxmaq istədisə də gücü çatmadı. Bütün qüvvəsini toplayıb süründü. Əvvəlcə topların yanına getdi. Gözünə heç kəs dəymədikdə qəlbini ağır bir kədər bürüdü. Lülədən yapışaraq ayağa qalxdı. Başı hərləndi, yıxılmamaq üçün kürəyini topa söykədi. Özünü tarazlayıb sükana doğru addımlamaq istədi. Ayaqları sürüşdü, az qaldı ki, ağzı üstə yerə dəysin: "Bu nədir? Nə üçün düz döşəmə yoxuşa dönüb?" Qaşlarını çatıb irəli baxdı və ancaq indi gəminin burnunun yuxarı qalxdığını gördü. "Yoxsa biz həlak oluruq?!" Bu fikir ildırım sürəti ilə onun beynindən keçdi. Aslan sükana doğru süründü. Heç kəs yox idi. O, "miçman!" – deyə pıçıldayıb sükandan yapışdı. Ayaqlarına nə isə dolaşdı. Aşağı əyilərək əli ilə qaranlığı axtardı.

Aslanın əli sükançının isti qanına bulaşdı, diksinərək onu silkələdi:

– Yoska, Dmitriyev! – Çağırışının cavabsız qaldığını gördükdə: – Demək, belə. Bəs qalanları hardadır? – deyə öz-özünə pıçıldadı.

Onun dodaqları səyridi. Qüvvəsini toplayıb yenə sükandan yapışdı. Onu hərlədisə də, kater yerindən tərpənmədi.

"İşləmir... Motor da susmuşdur... Biz həlak oluruq... Düşmən isə..."

Projektor yenə də havanı qılınc kimi yarırdı. Aslan yumruqlarını düyünləyərək:

– Atəş!!! – deyə qışqırdı.

Ona cavab verən olmadı.

– Nə üçün susursunuz? Mən əmr edirəm!

Aslan dəhşətə gələrək gözünü yumdu.

Bu vaxt bir nəfər sürünərək ona yaxınlaşdı.

– Miçman, miçman, söylə nə olmuşdur? Uşaqlar hanı?

Başı sarıqlı matrosu bağrına basdı.

– Hamı həlak oldu, kapitan... Gəmimiz batır. Siz yaralısınızmı?

– Yox... Bir az başım hərlənir.

Aslan diqqətini topladı. Gəmi ağır-ağır batırdı. Su burun hissəsində olan kayutlara yaxınlaşırdı. Cəld hərəkətlə Dmitriyevi yerdən götürdü və sürünə-sürünə kayuta yaxınlaşdı.

İçəridə işıq hələ sönməmişdi. Divardakı asma çarpayılar sahiblərini gözləyirdi. Aslan sükançının cənazəsini içəri saldı və öz çarpayısına uzandırdı. Geri qayıdarkən miçmanla qarşılaşdı.

– Abbas, tez ol, uşaqları tap. Onların meyiti sularda qalmamalıdır. Onları öz çarpayılarında rahatlandırmalıyıq.

Miçman sakitcə geri döndü.

Göyərtəyə uzanmış və bədəni yarıya qədər suda olan İlyasın qolundan tutub özünə doğru çəkdi. Lakin başı hərləndi, taqətdən düşüb yerə yıxıldı.

Aslan ona köməyə gəldi.

Miçman öz dostlarını son dəfə öpdü. Aslan gəminin döyüş bayrağını götürüb belinə doladı, sonra şinelinin yaxasını düyməlǝdi.

– Vaxtı itirmə, miçman!

Onlar kayutdan çıxan zaman Aslan bir daha dönüb geri baxdı. Çarpayılardan dördü boş idi. Dmitriyevin qaşları çatılmış, İlyas isə elə bil gülümsəyirdi. Aslanın gözləri yaşardı. O, hönkürtüsünü boğdusa da, yanaqlarından süzülüb axan yaşın qarşısını saxlaya bilmədi.

Kayutun qapısını möhkəm bağlayıb göyərtəyə çıxdılar. Qərq olan katerə son dəfə baxıb, özlərini suya atdılar.

Aslan huşunu itirmiş miçmanı sahildə yerə uzatdıqdan sonra dərindən nəfəs aldı. O, iliklərinə qədər islanmış olduğundan titrəyir, başı hərləndikcə soyuqdan göyərmiş dodağını çeynəyirdi.

Aslan bir neçə dəqiqə heç nə anlamırmış kimi ətrafa boylandı. Gözləri qaraldığından miçmanın yanında uzandı. Kimsə ona toxundu. Aslan ağır-ağır gözlərini açdı. Boz şinelli bir qız onun bədənini yoxlayırdı.

– Yox, mən yaralı deyiləm. – Aslan qalxıb oturdu. Yaxında partlayan mərmi torpağı onların üstünə sovurdu. Havada vızıldaşan çarpanalar ətrafa səpələndi.

– Siz onu xilas edin, o, ağır yaralıdır.

– Bəs siz?

– Hələlik mən dözərəm.

Qız miçmanı xərəyə qoyub yavaş-yavaş sürünməyə başladı.

Güllələr civildəşərək uçuşur, vıyıldayan mərmilər bəzən havada bir-birinə toqquşurmuş kimi şaqqıldayır və parça-parça olub ətrafa səpələnirdi.

Aslan onların arxasınca xeyli baxandan sonra dönüb dənizə tərəf boylandı. Haradan isə bir projektor suları yarıb, qaranlıqda gizlənmiş gəmiləri aşkara çıxarırdı. Onun yumruqları düyünləndi, gözləri ilə projektoru axtardı və birdən:

– Odur. Bizi həlak edəndir, – deyə qışqırdı.

Aslan gözünü yarğandan ayırmadan belindəki qumbaraları açıb bir-birinə bağladı. Gücünü toplayıb, yoxuşa dırmanmağa başladı.

O tələsir, təpəyə çatmaq və həyasızcasına ətrafı işıqlandıran bu odlu gözü yox etmək istəyirdi. Ancaq ayaqları sözünə baxmır, qolları taqətdən düşürdü. Aslan bir çuxura çatıb ağzı üstə uzandı və xeyli beləcə hərəkətsiz qaldı. Bir-iki dəfə tərpənmək istədisə də bacarmadı, hirsindən gözləri yaşardı. Dönüb aşağı, sahilə baxdı.

– Eh, Aslan, sən nə qədər acizsənmiş! – deyə öz-özünü danlamağa başladı.

Başının üstündən uzanıb dənizin içərilərinə soxulan işıq onu diksindirdi.

– Yox, mən səni söndürməli və yoldaşlarımın qisasını almalıyam. Yoxsa matros adı mənə haram olar.

Qüvvəsini toplayıb çuxurdan çıxdı. Əli ilə otlardan, daşlardan tuta-tuta xeyli süründü. Lap yaxında pulemyot taqqıldadı. Aslan bir az dayanıb torpağa qısıldı, sonra yenə hərəkət etmək istədi, bacarmadı. Əynindəki islanmış paltarına baxdı. Ona ağırlıq edən şineli çıxarıb atdı. Bir az yüngülləşdiyini görüb sürünməyə başladı. Sonra yol uzunu pencəyini, hətta ayaqqabısını da çıxartdı.

Təpəyə az qalmışdı.

Ətraf qaranlıq idi. Hər şey susmuş kimi görünürdü. Aslan tövşüyərək dayandı. Dərindən nəfəs aldı. Başını azacıq qaldırıb üfüqə baxdı. Dan yeri sökülürdü.

Lap yaxında, Aslanın gözü qarşısında parıldayan projektor tələsirmiş kimi sulara baş vurub tez də söndü. Aslan əlindəki qumbaraların dəstəyini sıxdı. Bir az da sürünüb ayağa qalxdı və son qüvvəsini toplayıb:

– Palundra, al payını! – deyə qışqırdı.

Atılan qumbara yaxında partladı.

Nə isə ovxalanıb cingilti ilə töküldü. Yaxındakı pulemyot taqqıldayıb tez də susdu. Aslan bir an yerində dondu. Dizi yavaş-yavaş büküldü, sonra da kökündən qopmuş qollu-budaqlı ağac kimi yerə sərildi.

* * *

Üfüqlərdə oynaşan şəfəqlər dənizi qızartdığı zaman desant əməliyyatının ilk mərhələsi başa çatdırıldı.

Sahildən qovulmuş düşmən on kilometrədək geriyə oturduldu. Əsas mövqeyi ələ keçirən hissələrimiz yerini möhkəmləndirdi. Sularda keşik çəkən katerlərdən başqa əməliyyatda iştirak edən gəmilərin hamısı geri qayıtmışdı. Onların çoxu boş idi. Bəzilərində isə ağır yaralılar yerləşdirilmişdi.

## 3

Şəfqət bacıları körpüyə yaxınlaşan gəmilərdən xəstələrin çıxmasına kömək edir, bəziləri yaralıların qoltuğuna girərək, çadırlara doğru aparırdılar. Yüngül yaralılar onları gözləmədən sahilə çıxır, bir-birinə söykənərək tibb məntəqəsinə gedirdilər.

Ağır yaralıları xərəklə daşıyırdılar. Ağrıdan üzlərini qırışdırıb ufuldayanlar olduğu kimi, gəmidən düşəntək rəngi düzələnlər, hətta zarafatlaşanlar da var idi.

Körpüyə yan almış bir qayığın içində enlikürəkli, genişkökslü, qarayanız bir oğlan oturmuşdu. Başında qara dəridən tikilmiş matros şlemi var idi. Əynindəki paltar, hətta qara, topa saqqalı belə yaş idi. Rəngi ağarmış, dodaqları göyərmişdi. O, iri və qüvvətli əlləri ilə qayığın yanlarından yapışmışdı. Tez-tez üzünü qırışdırırdı.

Deyəsən ağır yaranın əzabını çəkirdi. Hər şeyə sakitcə baxır və dodaqaltı nə isə oxuyurdu.

Onun bu hərəkəti ətrafındakıları təəccübləndirdi. Hətta şəfqət bacılarından biri hirslənərək:

– Görünür, kefiniz çox kökdür, oğlan! – dedi və tərs-tərs ona baxdı.

Matros gülümsündü:

– Mənə xərək gətirin.

Şəfqət bacıları bir-birinin üzünə baxdılar. Körpüdən qayığa endilər. Oturanın yarası olduqca ağır idi.

Onu xərəyə uzandırdılar. Matros onlara öz minnətdarlığını bildirmək istədisə də bacarmadı. Dodaqları titrəyib yumuldu. Ayağındakı yaradan qan açıldığından, bircə dəfə ufuldayaraq gözlərini qapadı.

Onu ağır xəstələrə məxsus çadıra gətirdilər. Baş həkim huşunu itirmiş matrosun yarasına baxdı. Onun dizi ovxalanmışdı.

– Cərrahiyyə masasının üstünə aparın. Zəhranı çağırın. Yaralının bədənindəki güllə və çarpanaları çıxartmaq lazımdır.

Şəfqət bacıları baş həkimin əmrini yerinə yetirdilər. Cərrahiyyə əməliyyatına lazım olan hər şeyi hazırladıqdan sonra Zəhranı çağırdılar. Başqa çadırlarda yara sarıyan Zəhra, xalatının qolunu bağlaya-bağlaya içəri girdi. Xəstəyə yaxınlaşıb yaraya baxdı.

– Alətləri hazırlayın, – deyə gözünü yaradan ayırmayan şəfqət bacısına müraciət etdi. Şəfqət bacısı nikelli dəmir qutunun içindəki müxtəlif alətləri cingildədərək həkimin yanında dayandı.

Zəhra ancaq bu zaman qarşısında huşsuz uzanmış xəstənin sifətinə diqqətlə baxdı. Onun üzündəki cizgilər kimi isə xatırladırdı. Əlləri titrəyən Zəhra xəstənin şlemini başından çıxartdı. Onun yumulmuş göz qapaqlarına, solğun çöhrəsinə, qara, topa saqqalına baxdı.

– Necə də oxşayır, ancaq onun saqqalı yox idi.

O, bir də xəstənin sifətinə baxdı. Ürəyi öz ahəngini itirdi. Əlindəki bıçaq cingilti ilə yerə düşdü. Gözləri qaraldı. Çadır başına dolandı.

– Aslan, qardaşım?!

Zəhra masanın qabağında diz çökdü. Bayaqdan Zəhranın hərəkətlərinə fikir verən, ancaq bir şey anlamayan şəfqət bacıları təlaşla onun qolundan tutub ayağa qaldırdılar.

Zəhra xəstənin üzərinə əyilib titrək səslə:

– Aslan! – dedi və onu bağrına basıb solğun yanaqlarından öpdü. İlıq göz yaşları xəstənin saqqalında parıldadı.

– Zəhra, özünüzü ələ alın, xəstəni incitməyin, – deyən ətrafdakı qızlar onu sakitləşdirmək istəyirdilər. O isə heç nə eşitmirmiş kimi yaralının başını sinəsinə sıxır, onu hey öpürdü.

Aslan ufuldayıb gözünü açdı.

Hadisəni eşidən baş həkim içəri girib, şahidi olduğu mənzərədən mütəəssir oldusa da, Zəhraya yaxınlaşdı və onun çiynindən tutub yavaşca kənara çəkdi.

– Qızım, özünüzü ələ alın, gedin bayırda gözləyin. Mən özüm xəstənin yarasına baxacam.

Zəhra getmək istəmədi. Onu güclə apardılar.

İçəridə cərrahiyyə əməliyyatı getdikcə, xəstə zarıyıb ufuldayır, bəzən də yarıhuşsuz halda sayıqlayırdı. Qardaşının iniltisini eşidən Zəhra dözə bilmirdi. Nəhayət, şəfqət bacısı çadırdan çıxdı:

– Qurtardı.

Zəhra içəri atıldı.

Çadırın ortasında ayaq üstə duran ucaboylu, saqqalına dən düşmüş həkimin gözlərinin içinə baxdı. Yalvarıcı səslə:

– Doktor, onu xilas edin, mən sizin qüdrətinizə inanıram, – dedi.

Baş həkim xeyli susdu.

– Yarası ağırdır. Həm də çoxlu qan itirmişdir. Ancaq çox sağlam ürəyi və möhkəm bədəni var. Ümidinizi kəsməyin.

O, cəld hərəkətlə çadırdan çıxdı.

Özünə gələn Aslan bir anlığına harada olduğunu anlamadı, ətrafa boylandı. Qulağına tanış bir səs gəldiyini hiss edib qalxmaq istədi. Zəhra onun çiynindən yapışıb qalxmağa qoymadı.

Aslan iri, qara gözlərini bacısına zillədi. Dodaqlarında solğun bir təbəssüm oyandı.

– Ağlama, ağlama, Zəhra, orada məndən daha yaxşı oğlanlar qaldı... Gəmim qərq oldu... Ancaq... Onun bayrağını düşmənə vermədim.

Aslanın paltarını yığışdırıb çadırdan çıxmaq istəyən şəfqət bacısı səs eşidərək dayandı. Nə isə tappıltı ilə yerə düşdü.

Qız əyilib iri matros trubkasını yerdən götürdü. Yavaş-yavaş bir-birini qucaqlayan bacı-qardaşa yaxınlaşdı. Heç nə demədən

əlindəki trubkanı irəli uzatdı. Aslanın dumanlanan gözləri şəfqət bacısına zilləndi. Qızın verdiyi trubkanı alıb gülümsündü.

Birdən ona elə gəldi ki, Dmitriyev qarşısında dayanmış və "kapitan, davay zakurim", – deyir. O isə iri kisəsini çıxardıb verir. Dmitriyev trubkasını doldurub çəkir. Göyümtül tüstü ətrafı bürüyür.

– Necədir, Yoska, xoşuna gəlirmi?

– Yakşi tyutun, – deyə Dmitriyev tüstünü udaraq öskürür. Aslan özünü saxlaya bilməyib gülür.

Göyərtədəki matroslar oxuyur, İlyas isə başı ilə sahili göstərir:

– Kapitan, icazə ver, darıxıram.

Aslan yerin içində dirsəklənərək qalxmaq istədi. Yumruğu düyünləndi. Gözlərini haraya isə zilləyib, xeyli baxdı və zorla gülümsündü...

Dmitriyevin trubkası getdikcə közərir, alovlanan məşəl kimi ətrafı işıqlandırırdı.

*1948*

# MƏMMƏD ARANLI

(1920-1950)

*Məmməd Aranlı Qarabağda – Ağcabədi kəndində əkinçi ailəsində doğulmuşdur. Doğma kəndlərində və Ağdam şəhərində ibtidai təhsil almış, sonra Bakı şəhər 6 saylı natamam orta məktəbini* (*1935*), *M.Ə.Sabir adına Pedaqoji Texnikumu* (*1938*), *Suxumi Hərbi Piyada Məktəbini* (*1942*) *bitirmiş*, *Azərbaycan Dövlət Pedaqoji İnstitutunun dil və ədəbiyyat fakültəsində oxumuşdur* (*1938-1941*). *Həmin institutun son kursunda hərbi səfərbərliyə alınaraq*, *Böyük Vətən müharibəsinə göndərilmişdir. 416-cı atıcı diviziyasında taqım və bölük komandiri olmuşdur. Mozdok uğrunda döyüşlərdə iki dəfə yaralanmış*, *hərbi xəstəxanada müalicə edildikdən sonra* "*Sovet döyüşçüsü*" *qəzetində ədəbi işçi və məsul redaktor vəzifəsində çalışmışdır. Ordudan tərxis edildikdən sonra ömrünün axırına qədər Bakı Hərbi Dairəsinin orqanı olan* "*Vətən şərəfi uğrunda*" *qəzetinin redaksiyasında işləmiş*, *1950-ci il oktyabrın 8-də vəfat etmişdir.*

*M.Aranlı ədəbi fəaliyyətə M.Ə.Sabir adına Pedaqoji Texnikumunda təhsil alarkən başlamış*, *şeir və hekayələri ilə oxucuların rəğbətini qazanmışdır. Onun bu cildə daxil edilmiş* "*Morava sahilində*" *adlı hekayəsi* "*Fırtına*" *adlı ilk kitabında* (*B.*, *Azərnəşr*, *1951*) *çap edilmişdir.*

## MORAVA SAHİLİNDƏ

(*hekayə*)

Ev sahibəsi qonşuya getdiyindən onlar otaqda yalqız qalmışdılar. Marika fizqarmonun yanındakı kürsüyə söykənərək, Yulanın ona verdiyi şəkilləri bir-bir gözdən keçirirdi. Sevgilisini həmişə sivil paltarında görməyə adət etdiyindən, onun hərbi geyimdə çəkilmiş şəkilləri Marikada qeyri-adi bir maraq oyadırdı. O, boynunda avtomat, kəmərində qumbaralar görünən yuqoslav xalq ordusu əsgərinin əksinə xeyli baxdıqdan sonra nəzərlərini fizqarmonun arxasında oturub, Şopenin romanslarından çalan oğlana çevirdi. O – Yulandır. Özüdür. Marikanın nəzərləri onun saçlarına dikilib qaldı.

Bahar mehi qədər zərif və xoş musiqi səsləri altında xəyal Marikanı qanadları üstünə alıb çox uzaqlara uçurtdu. Olub-keçənlər bir anda onun fikrində canlanmağa başladı.

...Alman təyyarələri Belqradı odlamağa başladığı günlər onların ayrılıq günləri olmuşdu. O zamanlar Marika Belqrad konservatoriyasının skripka şöbəsində oxuyarkən Yulan universitetin hüquq fakültəsini qurtarmaq üzrə idi. Lakin müharibə, alman işğalı onlara təhsili tamamlamağa imkan vermədi. Marikanın ata və anası bombalama zamanı həlak olmuş, evləri dağılmış, özü isə Morava sahilində kiçik qəsəbədə yaşayan xalasının yanına qaçmışdı. Yulan həmin günlərdə bir dəstə tələbə ilə Belqradı tərk etmişdi. Onun partizan dəstələrinə qoşulduğunu Marika çox sonralar öyrəndi. O zamandan bəri bir-birlərindən xəbərləri yox idi. Yalnız müharibə qurtardıqdan sonra Yulan Belqrada qayıtmış, Marikanı xeyli zaman axtarmış və nəhayət, onun bu qəsəbədə, xalasının yanında olduğunu öyrənib arxasınca gəlmişdi.

Gur akkord səsləri Marikanı düşüncələrindən ayırdı. Yulan yeni bir romans çalmağa başlamışdı.

– Necə də yaddan çıxarmamısan! Çal Yulan, neçə vaxtdır mən sənin çalmağına qulaq asmamışam...

Yulan Marikanın bu sözlərinə xəfif bir təbəssümlə cavab verdi. Marika baxdığı şəkilləri masanın üstünə qoydu. Axırıncı şəkli nəzərdən keçirərkən, orada əksi çəkilmiş bir dəstə döyüşçü arasında bir nəfər onun diqqətini cəlb etdi. O, qarabəniz, itibaxışlı bir əsgər idi.

– Yulan, bunu harada çəkdirmisən? Bu əsgər kimdir? – deyə, Marika şəkli onun gözləri qarşısında tutub, həmin əsgəri göstərdi. Yulan başladığı romansı kəsməyə məcbur oldu. O, şəklə diqqətlə baxıb:

– Bunu qələbə günü Zaqrebdə xatirə üçün çəkdirmişik, – dedi. – Bu oğlan qafqazlıdır.

– Sən onlarla bir yerdə olmusan? – Yulan gülümsündü.

– Əlbəttə, biz birlikdə vuruşmuşuq.

Marikanı birdən-birə qarışıq düşüncələr qoynuna aldı. O pəncərəyə yaxınlaşdı.

Pəncərədən baxarkən, onun hər gün seyr etdiyi mənzərə geniş bir tablo kimi yenidən gözləri qarşısında canlandı. Qayın ağaclarının arası ilə ilan kimi burula-burula axan Morava, yaşıl təpəciklər, bir

qədər uzaqlarda zirvəsini mavi buludlar qucaqlamış qarlı dağlar... Bütün bunlar Marikaya, həmin hadisəni xatırladırdı. Qeyri-ixtiyari olaraq onun nəzərləri yenə oraya, sahildəki təpəciyin döşündə görünən tənha məzara zilləndi. Marika günaşırı və bəzən hər gün bu tənha məzarı ziyarət edir, üzərinə yeni güllər, çiçəklər səpərdi.

– Bu qəsəbə mənim üçün nə qədər əzizdir! Hər səhər ziyarət etdiyim o tənha məzar mənim üçün necə də müqəddəs olmuşdur!..

Onun bu sözləri Yulan üçün çox gözlənilməz oldu. Lakin bunu hiss etdirməməyə çalışaraq:

– Hansı məzar? Kimin məzarı? – deyə soruşdu.

Marika Moravanın sahilində göy otlarla örtülmüş təpəciyin döşündəki qəbri göstərdi:

– Odur, görürsənmi? – dedi, – bütün varlığım o məzarda yatana borcludur. Ax, o necə də gözəl oğlan idi!..

Yulan bütün diqqətini toplayaraq Marikanın, haqqında danışdığı naməlum adamın məzarını gözləri ilə aramağa başladı. Lakin heç bir şey ayırd edə bilmədi. Qarşıda böyük bir qəbiristanlıq göründü.

Bu zaman qəsəbənin yanından keçən daş yoldan üstüörtülü bir maşın ayrılaraq, qəbirlərə sarı yönəldi. Marika diksinmiş kimi birdən:

– Aha, yəqin onlardır, yoldaşlarıdır, – deyib cəld otaqdan çıxdı. Yulan bir qədər də pərt olmuş halda yerində qaldı. Marika həyətdən ona:

– Yulan, sən də gəl, – deyə çağırdı və maşına sarı qaçmağa başladı.

Yulan, Marikanın şıltaqlığını və inadkarlığını uşaqlıqdan bilirdi. İstər-istəməz otaqdan çıxıb qızın arxasınca getdi.

Maşın qəsəbə qəbiristanlığının kənarında dolanaraq, Moravanın sahilindəki məzarın lap yaxınlığında dayandı.

Çayırlı təpəciyin döşündə qərar tutmuş həmin məzardan bir qədər aralı daha bir neçə qəbir vardı. Onların hamısında başdaşını ağac bir dirək və onun nazik ucuna bərkidilmiş qırmızı bir ulduz əvəz edirdi. Dirəyin ortasında, mıxlanmış dördbucaq bir taxta lövhəyə mərhumun kim olduğu yazılmışdı.

Əsgərlər bir-bir maşından yerə tullanaraq, üst-başlarının tozunu çırpıb, ehtiramla qəbirlərə yaxınlaşdılar. Kabinədən çıxan starşina ətrafa axtarıcı bir nəzər saldıqdan sonra tənha məzarın yanına getdi.

Üzərində göy otlar bitmiş qəbri görərkən o, qəlbinin qeyri-adi bir sıxıntı ilə çırpındığını hiss etdi. Əsgərlərə sarı dönərək:

– Uşaqlar, İsmayılın qəbri budur, – dedi, – buraya gəlin.

Əsgərlər bir-bir ona yanaşıb qəbri dövrəyə aldılar. Papaqlarını götürməklə silah dostlarının xatirəsini yad etdilər.

Araya dərin bir sükut çökdü. Dostlar dördbucaq taxta lövhədəki yazıları sükut içində məhzun baxışlarla dönə-dönə oxudular:

"Burada, Sovet İttifaqı və Avropa xalqlarının azadlığı uğrunda həlak olmuş İsmayıl Məmməd oğlu Əhmədov dəfn edilmişdir. 1921 – oktyabr – 1944-cü il".

Ötən günlər bütün əzəmətilə bir anlığa onların təsəvvürlərində canlanmağa başladı. Bir il əvvəl burada, kükrək Moravanın sahilində gedən arasıkəsilməz qanlı vuruşmalar, gecə ikən kəşfiyyatçıların çayı keçməsi, həmin gecə İsmayılın göstərdiyi fədakarlıq, qayıqda onun ağır yaralanması səhnələri bir-bir cəbhə dostlarının gözləri qarşısından gəlib keçdi.

– Yadınızdadırmı, uşaqlar, həmin yağışlı gecə? – deyə starşina sükutu pozdu, – almanlar az qalırdı ki, çaya od vursunlar. Ancaq İsmayıl kəşfiyyatı kişi kimi başa vurdu...

Starşina bu sözləri deyərkən onun bütün düşüncələri olub-keçmiş hadisələr ətrafında fırlanır, öz həmyerlisi və silah yoldaşı İsmayılın qəhrəmancasına ölümünü bütün təfərrüatı ilə xatırlayırdı. Ona elə gəlirdi ki, bütün bu vaqiələr sanki dünən olmuşdur.

O, dərindən nəfəs alaraq əlini günəşdən yanmış üzünə çəkdi. Müharibə yollarını birgə keçdiyi döyüş yoldaşını burada qoyub getməsi ona çox ağır gəlirdi. O indi hiss edirdi ki, bu itkinin ağrılarını İsmayıl ölən günü bu qədər dərindən duymamışdır. İndi, müharibənin qurtardığı, dostların vətənə qayıtdığı bir zamanda bu ağrılar qəlbə nə qədər nüfuz edir!

O, kədərli və mənalı baxışlarını məzardan ayıraraq, qayın ağaclarının arası ilə burula-burula axan Moravaya zillədi, sanki bu baxışlar: "Ax, Morava! Qoca Kürün oğlu sənin qoynunda həlak oldu, qanını sənin yolunda axıtdı. Sən də onu unutma!" – demək istəyirdi.

Starşina əsgərlərin ona baxdığını görüb, xəyaldan ayrılmış kimi oldu. O, ehtiramla əyilib məzarın nəmli torpağını sığallayaraq: "Rahat yat, dostum! Azərbaycan, qürbət torpaqlarda yatan oğullarını heç bir vaxt unutmayacaq!" – dedi.

O dikələrək maşına sarı getmək istərkən, “Starşina!” – deyən zərif bir qadın səsi onu saxladı. Starşina, Marikanı dərhal tanıdı. Bərk yüyürdüyündən qızın sinəsi Moravanın ləpələri kimi enib qalxırdı.

– Ay qız, haradan belə? – deyə starşina soruşdu.

– Evdən, maşını görüb buraya qaçdım.

– Siz demişdiniz ki, evimiz Belqraddadır, hələ getməmişsiniz?

– Yox. Şəhərdəki evimiz dağılmışdır. Niyə gedim? Nişanlım da elə bu gün gəlibdir, – deyə Marika gözü ilə yaxınlaşmaqda olan oğlanı göstərdi.

Morava sahilində vuruşmalar gedən zaman İsmayıl starşina ilə birlikdə Marikagildə gecələmişdilər. Az müddət ərzində onların arasında səmimi bir dostluq yaranmışdı.

– Buyurun, gedək bizə, – deyə Marika onu evə dəvət etdi.

– Çox sağ olun, biz getməliyik.

– Hara gedirsiniz?

– Vətənimizə, Azərbaycana, müharibə qurtarmış, bizi də ordudan buraxmışlar. Dostumuzla vidalaşmağa gəldik. Stansiyaya gedən yolun buradan keçməsi lap bəxtimizdən oldu.

Starşina bir anlığa susaraq nəzərlərini günəşin gizlənməkdə olduğu üfüqə zillədi. Sonra yenə qıza sarı çevrilərək sözünə davam etdi:

– Biz vətənimizə gedirik, o isə burada – sizə əbədi qonaq qalır. O, sizin Serbiya uğrunda həlak oldu. Terekin sahillərindən başlayaraq müharibə alovlarından keçən bu igidin son yatağı Moravanın sahili oldu... Biz onu sizə tapşırıb gedirik.

– O, bizim ürəyimizdə yaşayacaqdır. Biz sizi heç vaxt unutmayacağıq!

Əsgərlərin hamısı maşına minib starşinanın gəlməsini gözləyirdilər. Starşina əlini Marikaya uzadaraq:

– Əlvida, Marika! Yolumuz çox uzaqdır, – dedi. – Bu qərib məzarı unutmayın. Unutmayın ki, Şərqdə belə aslan ürəkli oğlanlar böyüdən Azərbaycan adlı bir ölkə var!

– Heç bir zaman, heç bir zaman unutmarıq. Biz sizi həmişə xatırlayacağıq. Uğurlu yol!..

Maşın qəbiristanlığın ətrafında dolanıb şose yoluna çıxdı və Şərqə doğru yollandı. Bir az sonra toz dumanına bürünərək gözdən itdi.

Bayaqdan bəri rus dilində gedən bu danışıqları dinləyən və bu mənzərəni seyr edən Yulan çaşıb qalmışdı. O, nəzərlərini uzaqlaşmaqda olan maşından çəkməyən Marikaya yaxınlaşaraq:

– Əzizim, axı bu məzarda yatan kimdir? – deyə soruşdu. – Sən onu elə əzizləyirsən ki!.. Mən heç nə başa düşə bilmirəm.

– Mən onu bütün həyatım boyu əzizləyəcəyəm, – deyərək Marika qəbirdən bir az aralı daşın üzərində oturdu və başı ilə Yulanı da oturmağa dəvət etdi. – Onun məni nə kimi fəlakətdən qurtardığını bilsən, sən də bu məzara səcdə edərsən... Ax, o gecə!

– Nə fəlakət! Nə gecə? – deyə Yulan şiddətli bir maraqla soruşdu.

Marika nəzərlərini məchul bir nöqtəyə zilləyərək fikrə daldı. Ötən hadisələr bir-bir gözləri qarşısında canlanırdı.

– O dəhşətli gecəni unutmaq olarmı?! Ax, o gecə...

Qız bir an xəyala gedib, sonra başına gələnləri həyəcanla nağıl etməyə başladı.

* * *

...Sanki yer üzünə qara bir örtü çəkilmişdi. Axşamdan başlayan yağış sakitləşmişdi. Buralarda insan yaşamırmış kimi bütün evlərin çırağı sönmüş, qapıları bağlanmışdı. Qaranlıq fəzada yanıb-sönən fişənglər və ara-sıra eşidilən pulemyot atəşləri cəbhə xəttinin qəsəbənin kənarında olduğunu hiss etdirirdi.

Belə qaranlıq, yağışlı gecədə qoşun hissələrindən göndərilmiş kiçik bir kəşfiyyatçılar dəstəsi düşmən arxasında axtarış aparırdı. Cəmisi dörd igiddən ibarət olan bu dəstəyə orta boylu, enli kürəkli, iti baxışlı bir serjant başçılıq edirdi. İlk baxışda bu adam hamıya əsəbi, kinli görünürdü. Lakin, yoldaşlarının dediyi kimi, ondan yerdə gəzişən qarışqalar da inciməmişdi, o, yalnız faşistlərin qənimi idi!

Müharibə başlanan zaman o, kolxoz hesabdarı idi. Rayonun gəncləri ilə birlikdə o da cəbhəyə könüllü getmişdi. Sadə kolxoz hesabdarı müharibə cəbhələrində tez zamanda böyük şöhrət qazandı. Cəbhəyə gəldiyi ilk gündən kəşfiyyatçılıq edən bu serjant bütün döyüş fəaliyyəti dövründə yüzdən çox alman zabiti və soldatını əsir almışdı. Ən mürəkkəb və təhlükəli tapşırığı yerinə yetirməyə gedərkən belə halını dəyişdirməzdi. Getdiyi yerdən də boş qayıtmazdı.

Lakin bu gecə o, öz kiçik dəstəsi ilə diri alman tutmağa deyil, düşmən cəbhəsini öyrənməyə gəlmişdi. Axşamdan qəsəbənin ətra-

fında gəzib-dolanırdılar. Kimsə onları görmürdü. İsmayıl tapşırılan yerləri yoxlayıb, gecədən xeyli keçmiş öz kiçik dəstəsilə geriyə döndü. Ancaq gəldiyi yolla deyil, tamamilə başqa yolla qayıtdı.

Qəsəbənin şimal-şərq qurtaracağına çatarkən, birmərtəbəli böyük bir evin pəncərəsindən gələn işıq serjantın diqqətini cəlb etdi. O, evdən təxminən yüz metrlikdə olan ağacın dibinə uzanıb ətrafa qulaq asmağa başladı. O biri kəşfiyyatçılar da onun arxasında və yanlarında uzanıb plaş-palatkaya büründülər. Yağış əvvəlki şiddətlə yağmaqda davam edirdi.

Bu ev nədir? İşıq gələn otaqda kim var? Serjantı bu suallar məşğul etdi.

Doğrudur, evin işıq gələn pəncərəsi cəbhə tərəfə deyil, düşmənin öz arxasına baxırdı. Bəs nə üçün örtülməmişdir? Bəlkə də arxadan gələn maşınlar üçün bu bir mayakdır? Onsuz da maşınlar hər cür qaydanı pozaraq işıq verə-verə hərəkət edirdi. Yoxsa əsgərlərin sadəcə səhlənkarlığı üzündən işıq açıq qalmışdır?..

Serjant bu fikirlərdə ikən onun qulağına musiqi səsləri gəldi. Ancaq səsləri ayırd edə bilmirdi. Gah ağız qarmonu səsi eşidirdi, gah da skripka səsi. Gecənin bu vaxtı bu nə konsertdir? Yoxsa alman zabitlərinin zövqünü oxşamaq üçün Berlindən buraya artistlər gəlmişdir? O gülümsəyərək yanındakı yoldaşlarına:

– Deyəsən, bu gecə konsertə qulaq asacağıq, – deyə pıçıldadı.

Bir az sonra otaqda qəhqəhə qopdu və kobud kişi səsi ilə oxunan anlaşılmaz bir mahnı eşidildi.

Serjant uzun müddət müşahidə edib fikirləşdikdən sonra, döyüşçülərə yaxın gəlməyi işarə etdi. Güclə eşidilən bir səslə:

– Çumakov, Vasya və Murad mənimlə gedəcək, Levon ilə Cahangir burada qalacaqlar. Yerinizi bildirməyin. Əgər biz gedən yerdə atışma olsa, demək, geri çəkiləcəyik. Avtomatdan atəş açmaqla bizə kömək edərsiniz. Əgər bu tərəflərdə bir şey hiss etsəniz, tez xəbər verin. – Serjant kəşfiyyatçılarına müfəssəl göstəriş verdikdən sonra üç nəfərlə evə tərəf hərəkət etdi.

Onlar evə yaxınlaşdıqca qarışıq musiqi və oxumaq səsləri daha da güclənirdi. Pəncərədə insan kölgələri görünməyə başladı. Bu nə əhvalatdır? Orada kimlər var?

Zil qaranlıq gecədə serjant və onun üç yoldaşı divarların dibi ilə hərəkət edir və tez-tez dayanaraq ətrafı dinləyirdilər.

Pəncərəsindən işıq gələn evə birinci olaraq serjant çatdı. Onun ardınca Çumakov və Murad yaxınlaşdılar. Vasya qarşı tərəfdəki divarın küncünə qısılaraq, onların keşiyini çəkməyə başladı.

Serjant bir neçə dəqiqə evdən gələn səsi dinlədi. Ona aydın oldu ki, orada kef məclisi qurulmuşdur. Danışanlar isə almanlardır. Lakin kobud kişi danışıqları içində onun qulağına çatan yalvarıcı qadın səsi serjantı daha artıq maraqlandırdı. Onlar kimdir? Evdə nə hadisə baş verir?

O, pəncərəyə yaxınlaşmaq istərkən evin həyətində ayaq səsləri eşidildi. Onlar tez divarın dibinə qısıldılar. Serjant hasara yaxınlaşıb, həyəti gözdən keçirdi. Uzun bir qaraltı evin qarşısında var-gəl edirdi. Serjant, Çumakova əyilib:

– Bu evdə deyəsən zabitlər olur, – deyə pıçıldadı. – Keşikçinin işini bitirmək lazımdır.

O bu sözü deyərək plaş-palatkasını boynundan açıb, divarın yanında yerə qoydu. Belindəki fin bıçağını qınından çıxarıb, hasarın uçulmuş küncündən həyətə keçdi.

Qaraltı qapı tərəfə gəlib, var-gəlini davam etdirmək üçün geriyə dönərkən, serjantın onu necə qucaqladığını görən Çumakov məsələnin nə yerdə olduğunu başa düşdü, o da həyətə keçdi.

Serjant, onun qucağına yıxılmış meyiti birtəhər divarın dibinə sürüdü. O, sol əlini hələ də onun ağzından çəkmirdi. Lakin, keşikçinin boynunun ardından sancılan bıçaq onun nəfəsini çoxdan kəsmişdi.

Serjant meyiti divarın dibinə uzadaraq, onun plaşını və avtomatını götürdü, içəridən qapının dartıldığını eşidərək o, cəld plaşı çiyninə saldı və avtomatı qolunun üstünə alıb, kölgəyə çəkildi. Qapı açıldı. Sərxoş bir zabit qapının kandarında əsnəyərək, almanca nə isə soruşdu. Serjant tez dabanlarını biri-birinə vuraraq:

– Hər şey öz qaydasındadır, cənab zabit! – dedi. (Bu dedikləri serjantın almanca əzbərlədiyi ifadələrdən biri idi).

Zabit əsnəyə-əsnəyə yenə nə isə mırıldandı və içəri girərək qapını örtdü.

Qapı örtülən kimi serjant, Çumakova yaxınlaşıb, plaşı və avtomatı ona verdi.

– Sən burada keşik çək, özünü bildirmə, – deyə tapşırdı, özü isə evin böyrünə keçdi. Çumakov öz işini yaxşı bilirdi. Murad bayaqdan evin tinində dayanıb ətrafı gözdən keçirirdi. Serjant ehmal addımlarla pəncərəyə yaxınlaşaraq, otağa nəzər saldı...

Evin ortasına qoyulmuş çox da iri olmayan masanın üzəri dolu və boş şərab şüşələri, kolbasa qabığı, boşaldılmış şirniyyat qutuları ilə dolu idi. Görünür kef məclisi axşamdan davam edirdi.

Masanın arxasında üç zabit oturmuşdu. Bir nəfəri isə çarpayıda yarı uzanmış halda siqar çəkirdi. Digər gənc bir zabit küncdə qoyulmuş qutunun üzərində əllərini tərpədərək nə isə çalırdı; çox küncdə olduğundan serjant onu yaxşı görə bilmirdi, ancaq sonralar o qutunun fizqarmon olduğunu öyrənmişdi.

Serjant masadan bir qədər kənarda əyləşib pərişan halda skripka çalan bir qız gördü. Qızın qara qıvrım saçları çiyinlərinə tökülmüş, düymələri qırılmış yaxasından açıq mavi döşlüyü görünürdü. Serjant onun serb qızı olduğunu dərhal bildi. Qızın daxilən böyük əzab keçirməsi, yorğun və üzgün olduğu sustalmış simasından aydın görünürdü. O, kimsəyə baxmadan çalırdı.

Serjant sərxoş zabitləri bir-bir nəzərdən keçirir, hansı qoşun növündən və nə rütbədə olmalarını təyin etməyə çalışırdı. Qarbit çırağın otağı bürümüş gur işığı ona bu işdə kömək etdi.

Onların hamısı piyada zabitləri idi. Yalnız arxası pəncərəyə sarı oturmuş zabitin poqonları onun topçu olduğunu bildirirdi. Serjant dərhal bu qərara gəldi ki, qəsəbədə ya top, ya da minaatan batareyası vardır. Böyrü üstə çarpayıya uzanmış zabit masaya əyilib, nə isə götürərkən kəşfiyyatçı onun mayor olduğunu gördü. O biri zabitlərin rütbəsi ondan aşağı idi. Demək, o ya batalyon komandiri, ya da polk komandirinin müavini idi. Serjant, zabitləri diqqətlə nəzərdən keçirir və müxtəlif nəticələr çıxarırdı.

Qız çalıb qurtardıqdan sonra skripkasını döşünə sıxıb yalvarıcı nəzərlərlə zabitlərə baxmağa başladı. Zabitlərdən biri qədəhi şərabla doldurub ona uzatdı, lakin qız qorxa-qorxa içmədiyini bildirdi. Zabit bir daha təklif edərək çımxırdı.

Elə bu zaman qonşu otaqdan zəng səsi, az sonra telefonla danışıq eşidildi. Bir dəqiqə keçməmiş otağa bir soldat daxil olaraq mayora müraciət etdi. Serjant mayorun telefona çağırıldığını dərhal başa düşdü.

Mayor ayağa qalxıb masaya yaxınlaşdı. O, üzünü turşudaraq bir neçə qəliz kəlmələrlə qızın üstünə bağırdı. Qızın əlindəki qədəhi alıb şərabı onun başına tökdü. Kimin isə kənardan atdığı bir şokolad parçası düz qızın üzünə dəydi. Sərxoş zabitlərin zəhərli qəhqəhələri otağı bürüdü.

Zavallı qız əli ilə saçlarını silkələyərək, kənara çəkildi. Onun iri qara gözlərindən süzülərək pörtmüş yanaqları aşağı diyirlənən göz yaşlarını serjant aydın görürdü. O, bir anlığa əsas işini unudaraq bütün varlığı ilə bu zavallının halına yandı. Qızın gözləri pəncərəyə dikilmişdi. Serjanta elə gəlirdi ki, ona baxır; lakin qızın simasında onu gördüyünü bildirən heç bir ifadə hiss edilmirdi.

Serjant xeyli düşündü. Öz mövqelərimizə qayıtmaq lazım idi. Lakin o, gördüyü bu vəziyyət haqqında polk komandirinə, yoldaşlarına danışdıqda ona nə deyəcəklər? Köməksiz bir qızı bu canavarların pəncəsinə buraxıb getməlimi? Onun qəlbi acı və həyəcanlı bir hisslə sıxıldı. Başqa cür etmək olmazmı?

O, əlini alnına çəkib saatına bir nəzər saldı. Səhərin açılmasına hələ üç saat var idi. O, Muradın yanına gəlib pıçıltı ilə:

– Murad, mən burada başqa cür hərəkət etmək istəyirəm, – dedi.

Murad yeni bir hadisə olacağını duymuş kimi daha maraqla dinləməyə başladı.

– Sən tez cəbhə xəttini keçməyə tələs. Polk komandirinə de ki, qəsəbədə alman batalyonu var. Qərargah bu evdədir. Zabitlər kefdədirlər. Hamısı sərxoşdur. Gördüklərimizi müfəssəl danışarsan, sonra bu vəsiqələri də komandirə ver, – deyə serjant öldürdüyü keşikçinin cibindən çıxartdıqlarını Murada uzatdı.

– Bəs özünüz nə edəcəksiniz, yoldaş serjant? – deyə Murad tələsik soruşdu.

– Qulaq as. Öz polkumuza çatmağın üçün sənə saat yarım vaxt verirəm. Saat yarımdan sonra mən düşmən qərargahına hücum edəcəyəm. Burada atışma eşidən kimi polkumuz hücuma keçsin. Gecə ikən qəsəbəni çox asan tutacağıq.

– Yoldaş serjant, birdən...

– Deyiləni yerinə yetir. Mənim sözlərimi olduğu kimi polk komandirinə çatdır. Sonrası ilə işin yoxdur. Haydı, tərpən!

Murad bir anda gözdən itdi.

Muradın bayaqkı sözü serjantın özünü də şübhəyə saldı. Birdən polk komandiri onun təşəbbüsünü bəyənmədi. Onda nə olsun? O, komandirinin onu həmişə düşmən arxasına yola salarkən dediyi bu sözləri xatırladı: “Unutma ki, bir çox hallarda döyüşün taleyini kəşfiyyatçı həll edir”. Serjant indi hiss etdi ki, üzərinə nə qədər ağır məsuliyyət götürmüşdür.

O yenə də pəncərəyə yaxınlaşdı. Hiddətinin sonu yox idi. Qızın parça-parça edilmiş paltarı çarpayının ayağına atılmışdı. Nazik alt köynəyində titrəyirdi. Mayor onu çarpayının üzərinə uzandırmaq istəyirdi. Lakin qız çarpayının başlığından bərk-bərk yapışaraq yalvarırdı. Onun yanaqlarındakı qırmızılıq çəkilmiş, sifəti ağappaq ağarmışdı. Gözləri dəhşətdən böyümüşdü. O biri zabitlər isə ona əhəmiyyət vermədən içir və gülüşürdülər. Dəqiqələr keçirdi...

...Hər şey serjant üçün aydın idi. Lakin gözləməyə məcburdu. O, pəncərədən ayrılıb, ətrafa bir nəzər saldı. Yağış get-gedə dayanırdı. O, saata baxdı: Muradın getməsindən bir saat keçirdi...

Serjant ağac dibində keşikdə qoyduğu kəşfiyyatçıların və sonra Çumakovun yanına gedib, vəziyyəti və nə edəcəyini onlara izah etdi.

O, yenə pəncərənin qarşısına gəldi. Zabitlər başlarını masaya dirəyib mürgüləyirdilər. Onun nəzərləri çarpayıya sarı çevrilərkən dodaqları dişləri arasında sıxıldı. Qızın əlləri çarpayının başlığından qoparılmışdı. O, çarpayının üzərində tora düşmüş quş kimi çapalayır, əli-ayağı, başı ilə müqavimət göstərirdi.

Mayor çarpayıdan geri çəkilərək var gücü ilə qıza bir sillə çəkdi. Sillənin səsindən mürgüləyən zabitlər də diksinib başlarını qaldırdılar, lakin əhəmiyyət verməyib, sərxoş halda başlarını yenidən masaya dirədilər.

Qız sillənin ağrısından əlləri ilə üzünü tutdu. Mayor onun üzərinə atılmaq istərkən qız ilan vurmuş kimi otağın ortasına sıçradı... O, həyəcanla pəncərəyə yönəldi. Sanki pəncərəni çırparaq küçəyə atılmaq istədi. Lakin qız pəncərəyə yaxınlaşan zaman şüşə arxasından iki iri qara gözün ona zilləndiyini gördü. O, bir anlığa özünü itirərək, təlaşla geriyə çəkildi. O, nə gözlərdir? O kimdir? Keşik çəkən alman əsgəridirmi? Yoxsa onu xilas etməyə can atan bir serbdir?..

Zabit qızın qolundan tutub çarpayıya sarı dartarkən o, başını çiyni üstə döndərib kömək istəyən nəzərlərlə pəncərəyə baxdı. Lakin qara gözlər şüşə arxasında görünmədi. Qızın qəlbi sıxıldı. Bəlkə o gözlər heç yox imiş. Onu qara basırdımı?

Mayor qızın müqavimətini qıra bilmədiyini gördükdə, masa arxasında mürgüləyən zabitlərdən birini qaldırdı. Mayor əsəbi halda ona nə isə əmr etdi. Zabit qızın əllərini burub kürəyinə sıxdı. Qız başına nələr gələcəyini duyub, çığırmağa başladı. Lakin kimsə onun dadına çatmadı. Zabit divara söykənərək onun əllərini arxadan

bərk-bərk tutmuşdu. Mayor sol əli ilə qızın sağ döşünü tutub, sağ əli ilə böyründən asılmış dəri çantadan iri ağızlı bir bıçaq çıxartdı. Serjantın bütün ömründə eşitmədiyi qeyri-insani bir səslə qızın dodaqlarından qopan “Ana!!!” nidası otağı titrətdi. Elə bu zaman pəncərədən alov püskürüldü. Avtomatın taqqıltısı ətrafı bürüdü. Mayor səndələyərək qızın ayaqları altına sərildi. O biri zabit qapıya qaçmaq istərkən kandarda payını aldı. Masa arxasında mürgüləyən zabitlər səksəkəli halda əllərini tapançaya atdılar. Lakin arasıkəsilməz avtomat atəşi onları da döşəməyə uzandırdı.

Serjant evdəki zabitlərin işini bitirdikdən sonra dərhal həyətə qaçdı. Eyni anda qonşu otaqda iki qumbara partlayışını eşitdi. Çumakov vaxtında hərəkət etmişdi.

Yolun o biri tayındakı kəşfiyyatçıların arasıkəsilmədən atdıqları işıq verən güllələr havada parıldayıb sönürdü. Qəsəbədə gözlənilmədən döyüş başlamışdı. Serjant ürəyində saniyələri sayırdı. Qoşunlar tərəfdən heç bir səs gəlmirdi. “Bəlkə Murad yolda ələ keçmişdir? Yoxsa mən tələsdim?” O, belə fikirlərdə ikən qəsəbədə mərmilər partlamağa başladı. Az sonra mərmilər çayın sahilinə düşməyə başladı.

Serjant lap yaxınlıqda əsəbi danışıqlar eşitdi. O diqqətlə baxdıqda məsələni anladı. Alman əsgərləri söyüşə-söyüşə qəsəbənin küçələri ilə çaya sarı qaçırdılar. Serjantla Çumakov uçulmuş hasarın arxasına uzanaraq, küçədən keçənləri vurub yerə sərirdilər.

Arxa hasardan kiminsə tullandığı eşidildi. Serjant cəld geriyə dönüb atəş açmaq istərkən Muradın səsini eşitdi.

– İsmayıl! İsmayıl! Haradasan?

– Qışqırma, bura gəl. Az qala işini bitirmişdim.

Murad serjantın yanına gələrək:

– Niyə uzanmısınız? Polkumuz qəsəbəni çoxdan əhatə edib. İndi sahilə çıxmışlar, – dedi. – Yoldaş serjant, polk komandiri səni elə tərifləyirdi ki... Ay zalım, ordenin biri də gəldi!

– Yaxşı, yaxşı. İndi belə söhbətin yeri deyil, – deyə serjant onun sözünü kəsdi. – Evin dal tərəfini, qonşu həyəti gözdən keçir.

O bu sözü deyərkən, küçədə öz əsgərlərimizin danışıqlarını eşitdi. Onlar dayanmadan çaya sarı hərəkət edirdilər. Qəsəbədə atışma kəsilmişdi. Ancaq toplar sahili hələ də atəş altında saxlayırdı.

Serjant, Çumakovu hasarın dibində qoyub, bir az əvvəl, atəşə tutduğu evə girdi. Otağın avadanlığı alt-üst olmuşdu. Qarbit lampa

isə hələ də yanmaqda idi. Lakin qız yoxdu. Serjant divardan asılmış şinellərdən birini götürüb, pəncərəni örtdü. Sonra çarpayının kənarında əyləşib tütün eşməyə başladı. Palçıqlı küçədə sahilə doğru hərəkət edən döyüşçülərimizin ayaq səsləri, bir az uzaqda isə arabir mərmi, mina partlayışları eşidilirdi.

O, bir-iki qullab vurduqdan sonra bədəninin sustaldığını hiss etdi. Ağrılar və yuxusuzluq özünü göstərirdi. Bir az əvvəl həmin çarpayının üzərində çırpınan qızın hara getməsi haqqında xeyli düşündü və "yəqin qorxudan zirzəmiyə qaçıb" – deyə fikrindən keçirdi. Bir istədi elə indicə axtarıb tapsın. Sonra fikrindən dönərək, səhər axtarmağı qərara aldı. O daha bir-iki qullab vurub getmək istərkən, kiminsə dərindən nəfəs aldığını eşitdi. Diksinərək bir-bir meyitlərin üzünə baxdı. Alman zabitlərinin sifəti göyərmişdi. Onlarda həyat əlaməti yox idi. O, nəfəsini boğaraq dinləməyə başladı.

Kimsə taxtın altında xısın-xısın nəfəs alırdı. Serjant aşağı əyilib çarpayının altına baxarkən, qızın orada küncə sıxıldığını gördü. O, yumşaq səslə:

– Ay qız, qorxma, çıx ordan! Frislər daha yoxdur, – deyib əlini ona uzatdı. Serjantın rusca, lakin serb ləhcəsi tərzində dediyi bu sözlər (Yuqoslaviyada vuruşduğu bir-iki ay ərzində o, serbcə bir neçə kəlmə danışmağı öyrənmişdi) qıza səmimi bir təsir bağışladı. Serjant onun əlindən tutub ayağa qaldırdı. Qız soyuqdan titrəyirdi. Serjant divardan asılmış alman şinelini alıb onun çiyninə saldı. Lakin qız şinelə baxıb geriyə atdı. Serjant gülümsəyərək, cəld öz şinelini çıxarıb ona uzatdı. Qız mehriban bir təbəssümlə başını əyərək öz təşəkkürünü bildirdi. Serjant böyrü üstə yıxılmış kürsülərdən birini qaldırıb:

– Oturunuz! – deyə təklif etdi. Qız oturdu, lakin baxışlarını ondan ayırmırdı. Şiddətli bir maraqla serjanta baxır və tez-tez nəzərləri onun qalın qaşları altında parlayan iri qara gözlərinə zillənib qalırdı. Bu gözlər ona çox tanış və mehriban görünürdü. O rusca:

– Pəncərə qarşısında duran siz idiniz? – deyə soruşdu.

– Bəli.

Qız serjantın sol əlini ovucları arasına alaraq, bağrına basdı. Onun əlini öpərək, taqətdən düşmüş kimi alnını qarşısında duran serjantın dizinə söykədi. O, cəld qızın başını qaldırdı və:

– Bunlar nə üçündür? – dedi, – mən ancaq öz vəzifəmi yerinə yetirmişəm.

Qız dinməz-söyləməz serjanta baxırdı. Gözləri yaşla dolub-boşalırdı. Bu şəffaf yaş qətrələri ardından bənövşəyi gözlərdə sevinc təbəssümləri görünürdü. Qız baxdı-baxdı və birdən-birə:

– Siz rus deyilsiniz? – deyə soruşdu.

Bu sualı serjanta Ukraynada, Moldaviyada, Rumıniyada, Bolqarıstanda da vermişdilər. O, həmişə verdiyi cavabı yenə təkrar etdi:

– Xeyr, mən azərbaycanlıyam.

* * *

Marika yaxın keçmişin xatirələri haqqında söhbətini bu sözlərlə tamamladı:

– Bəli, o azərbaycanlı idi. O, ruslarla birlikdə bizim ölkəyə azadlıq bayrağı gətirmişdi. Onun şən, lakin məğrur görünüşü, iti baxışları hələ də nəzərimdən silinmir. Ax, pərvərdigara... O olmasaydı, mənim varlığım bir heç idi... Morava sahilində vuruşmalar gedən zamanlar o, kəşfiyyatçı yoldaşları ilə bizim evdə qalırdı. O, həmişə kəşfiyyata gedib-gəlincə nədənsə, bilmirəm sonsuz intizar içində üzülürdüm. Bir neçə gün ərzində ona elə isinmişdim ki... Eh, insanın qara taleyi...

Bir səhər yoldaşları İsmayılın kəşfiyyat zamanı ağır yaralandığını mənə xəbər verdilər. Onların tibb məntəqəsi bizim qonşuluğumuzdakı evdə yerləşirdi. Tez oraya qaçdım. Artıq gec idi. Ölüm bizi vidalaşmağa qoymadı. Onun iri qara gözlərini bir daha görə bilmədim...

Marika boğazının quruduğunu hiss etdi. Kirpikləri arasından süzülən yaş yanaqlarına töküldü. Yulan bunu görmürdü. O, çənəsini sol ovcuna alaraq, baxışlarını məchul bir nöqtəyə zilləmişdi.

– Bəli, o bizim Serbiyanın azadlığı uğrunda həlak oldu. Dostları onu burada dəfn etdilər. Döyüş yoldaşları çayı keçərək şvabları qovdular. Onlar çox uzaqlara, Qərbə getdilər. Lakin İsmayılın məzarı burada bizimlə qaldı. Qəsəbənin əhalisi bazar günləri bu qəbirləri ziyarətə gəlirlər.

Marika susaraq başını çiyni üstə çevirib, yalqız məzara baxdı, baxdı... Yulanın da nəzərləri oraya dikilmişdi.

*1948*

# HÜSEYN ABBASZADƏ

(1922)

*Hüseyn Abbaszadə Bakı şəhərində fəhlə ailəsində doğulmuşdur. Burada orta təhsil almış, hərbi məktəbin kursantı olmuş və Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsini bitirmişdir* (*1950*).

*Bir müddət ixtisası üzrə işlədikdən sonra mətbuat aləminə gəlmiş*, "*Pioner*" *jurnalı redaksiyasında şöbə müdiri*, *məsul katib* (*1948-1958*), "*Göyərçin*" *jurnalının məsul katibi*, *baş redaktoru* (*1958-1966*), "*Ədəbiyyat və incəsənət*" *qəzetinin baş redaktoru* (*1972-1975*), *Azərbaycan Yazıçılar İttifaqının katibi* (*1975-1987*) *işləmişdir.*

*Ədəbi fəaliyyətə müharibə illərində cəbhə qəzetlərində çap etdirdiyi şeirlərlə başlamış*, *lakin ədəbiyyat tarixində nasir kimi məşhurlaşmışdır. Onun* "*General*", "*Burulğanlar*", "*Əlibalanın ağır səfəri*" *romanları çox populyardır. Yazıçısın bu cildə daxil edilən "Bağdadda bir gecə" hekayəsi* "*Haradansınız, müsyö Abel*" *kitabından (Bakı, Gənclik, 1972) götürülmüşdür.*

## BAĞDADDA BİR GECƏ

(*Hekayə*)

Qara geyimli, üz-gözünü tük basmış cavan bir oğlan soraqlaşa-soraqlaşa gəlib Bağdad şəhərinin şirvanlılar məhəlləsini tapdı. Sakit payız axşamı idi. Şəhər əhlini axşam ibadətinə çağıran azançılar məscidlərin minarələrindən təzəcə aşağı enmişdilər. Dar küçələrdən gediş-gəliş kəsilmiş, gün batan kimi dükan-bazarda əl-ayaq çəkilmişdi.

Oğlan bağlı qapı və darvazalara yaxınlaşanda addımlarını yavaşıdır, lakin onlardan birini döyməyə cəsarət etmirdi. O, bu qayda ilə bir az dolandı. Əgər xəstə olmasaydı, bəlkə də bir bağa girib ağac altında gecələyərdi. Ayaq üstə güclə duran oğlan nəhayət, alçaq barılı bir evin qapısını yavaşca döydü. Qapını tez açdılar. Elə bil ev sahibi nə vaxt idi ki, qapının dalında durub kiminsə gəlişini gözləyirdi.

Qapını açan ucaboylu, arıq, qarayanız, çal saqqallı kişi astanada duran oğlanı ötərgi süzüb soruşdu:

– Kimi istəyirsiniz?

Oğlan çəkinə-çəkinə dedi:

– Axşamın bu çağında sizi narahat etdiyimə görə mənim bağışlayın, əmi can. Qəribəm, uzaqdan gəlmişəm. Ayaq üstə durmağa taqətim qalmayıb. Nə olar, Allah eşqinə mənə yatmağa yer verin.

Ev sahibi qapıdan kənara çəkilib dedi:

– Buyurun, bu ev-eşik qərib oğlana qurbandır.

Qoca oğlanı içəri buraxdı. Onlar kiçik, güllü-çiçəkli həyətdən keçib eyvana qalxdılar.

Oğlan sıxıla-sıxıla otağın bir küncündə oturdu. Qoca yan otağa keçdi və tezliklə geri qayıtdı:

– Bu saat yemək hazırlayarlar. Yeyib-içib dincələrsiniz.

Qonaq dişi dişinə dəyə-dəyə arxasını divara söykəyib dərindən nəfəs aldı, titrəmə ona aman vermirdi, üzünün rəngi sapsarı idi, elə bil zəfəran çəkmişdilər.

Bir azdan oğlan aftafa-ləyəndə əl-üzünü yuyub, çörək yedi. Sonra iki piyalə dəmlənmiş zəncəfil içib yatağına girdi. Qoca onun üstünü bərk-bərk basdırdı:

– Yatın oğul, səhərə kimi üşütmə keçər.

Ev sahibi qonaq yatan otağın çırağını keçirib eyvana çıxdı. Onun iri gözlərində kədər, qırışlı üzündə xəfif hüzn kölgəsi vardı, fikri ilə məşğul idi. Qoca divar dibinə qoyulan piştaxtanın dalına keçib məxmər üzlü döşəkçənin üstündə əyləşdi, lələk qələmini mürəkkəbə batıraraq öz-özünə bir neçə dəfə nə isə pıçıldadı. Sonra azacıq qatlanmış qəddini piştaxtanın üstünə əyərək dayana-dayana yazmağa başladı.

* * *

Evdə hamıdan gec yatan qoca səhər hamıdan tez yuxudan oyanıb həyətdəki səliqə ilə becərilmiş bağın seyrinə çıxmışdı. O, hər gün obaşdandan yerindən qalxıb bağı gəzər, ağaclar və çiçəklər arasında vaxt keçirməkdən həzz alardı.

– Sabahınız xeyir olsun!

Qoca geri döndü, qonağın yuxudan oyanıb eyvana çıxdığını gördü.

– Aqibətiniz xeyir, oğul, nə təhərsiniz?

– Babatam.

Oğlan pillədən aşağı enib qocanın yanına gəldi. Axşam qonağın görkəminə yaxşı fikir verməyən qoca indi – səhərin aydın işığında

onun üst-başına, tük basmış üzünə diqqətlə baxdı. Dünya görmüş qoca qonağın görkəmindəki bu qeyri-adiliyin nə iləsə əlaqədar olduğunu duyub xəbər aldı.

– Oğul, soruşmaq ayıb olmasın, niyə belə süstsünüz? Axşam da mənə bir söz demədiniz. Çox əziyyət çəkmiş adama oxşayırsınız.

Qonaq əlini böyründəki qızılgül kolunun saralmış yarpaqlarına sürtə-sürtə dərindən ah çəkdi:

– Düz tapmısınız, əmi can, – dedi. – Çox əziyyət çəkmişəm. Mən çəkəni heç düşmən də çəkməsin. Bilmirəm bu nə müsibət idi bizim başımıza gəldi...

Oğlan doluxsundu, ağacdan qopardığı sarı yarpaq onun süstəlib yanına düşmüş əlindən yerə yuvarlandı.

Qoca ona təsəlli verdi.

– İgidin başı qalda gərək, oğul, axırı xeyir olsun. Yaman günün yarası tez sağalar.

– O, elə bir yaradır ki, tezliklə sağalmaz. Heç bilmirəm evimizə necə qayıdacağam... Anama, bacı-qardaşlarıma nə deyəcəyəm?!

– Haradansınız oğul, adınız nədir?

– Qafqazdan, Azərbaycanın Şirvan mahalından. Adım Kərimdir.

Qocanın yorğun baxışlarına fərəh çökdü.

– Demək, həmyerliyik ki... Mənim də dədə-babam Azərbaycan torpağındandır. Ordan bura köçüb gəliblər. Mən o yerləri görməmişəm. Rəhmətlik anam deyərdi ki, çox gözəl yerlərdir. Bəs siz Bağdadda belə nə eləyirsiniz, oğul, ticarətə gəlmişdiniz?

– Xeyr, ziyarətə gəlmişdik.

Qoca maraqla soruşdu:

– Kiminlə?

– Atamla.

– Bəs atanız hanı?

– Atamı Kərbəla yolunda qoyub gedirəm.

– Niyə? Vəfat edib?

– Xeyr, öldürdülər, – deyə oğlan qəhərdən tutulan boğazını arıtladı.

Qoca heyrətlə soruşdu:

– Kim öldürdü?

– Quldurlar!

– Necə oldu ki?

– Uzun əhvalatdır. Desəm, sizə başağrısı olar, əmican.

– Xoşdur, danışın.

Kərim dedi:

– Biz dədə-babadan şirvanlıyıq. Atamın Şamaxı şəhərində baqqal dükanı vardı. Son illərdə qazancı pis deyildi. Atam çoxdan Kərbəla ziyarətinə getməyi niyyət eləmişdi. Bu il yayda işlərini qaydaya salıb Kərbəla səfərinə hazırlaşdığını görcək məni də özü ilə götürməyi xahiş etdim. Mən, atam kimi Kərbəlaya ziyarətə yox, Bağdadda yaşayan əziz bir insanı görmək, ona çoxdan hazırladığım bir hədiyyəni vermək istəyirdim. Arzuma çatmaq üçün bundan gözəl fürsət ələ düşməzdi. Xülasə, biz ev adamları və qohum-əqrəba ilə halallaşıb yola çıxdıq.

İraq torpağına çatana kimi çox əziyyət çəkdik. Bağdadın yaxınlığında başqa ölkələrdən gəlib Kərbəlaya ziyarətə gedən bir dəstəyə qoşulduq. Karvanımız yola düşdü. Yolun ortasında mən xəstələndim. Qızdırmadan göz aça bilmədim. Yoldaşlarımız bizi yolda qoyub getdilər. Biz ata-oğul karvandan bir mənzil geri qaldıq. O günü səhrada gecələməli olduq. Obaşdana yaxın haradansa üç nəfər əli silahlı başımızın üstünü aldı. Onlardan biri atamı xırxalayıb, "Qızılları, pulları bəri ver!" – dedi. Atam müqavimət göstərdi, onu bıçaqla yaraladılar. Mən qızdırmadan göz aça bilmədiyimə baxmayaraq, birtəhər yerdən qalxıb atama kömək eləmək istədim. Hərarətdən başım gicəlləndi, yerə yıxıldım. Quldurlardan biri "Sən hara qalxırsan?!" – deyə təpiklə qarnıma, başıma vurmağa başladı. Özümdən getdim. Haçandan-haçana gözlərimi açıb atamı səslədim. O, böyrümdə yerə sərələnmişdi, zarıya-zarıya dedi: "Oğul, sən sağsan?! Şükür Allaha!" Mən səsindən atamın halının ağır olduğunu bilib onun yanına süründüm. Quldurlar var-yoxumuzu aparıb yazıq atamı ölümcül yaralamışdılar. Birtəhər kişinin yaralarını sarımaq istədim. O qoymadı. "Gərək deyil, Kərim, mənimki buracan imiş", – dedi. Bu onun son sözləri oldu. Bir azdan o, qucağımda keçindi. Qürbət torpaqda onu dəfn elədim. Qəbrinin torpağından bir ovuc götürüb geri qayıtdım...

Qoca, əllərini qoynunda çarpazlayıb qonağın qəmli hekayətinə qulaq asırdı. Onun gözlərindəki kədər buludları sıxlaşmış, alnındakı qırışlar daha da dərinləşmişdi. Kərim onun söhbətini dinləyəndən sonra qocanın pərişan olduğunu görüb təəssüflə dedi:

– Mənim sizə xeyli əziyyətim dəydi. Səhər-səhər də dərdimi söyləməklə kefinizi pozdum.

Qoca, Kərimin qoluna girib dedi:

– Ey xoş ol məst ki, bilməz qəmi-aləm nə imiş,
Nə çəkər aləm üçün qəm, nə bilir, qəm nə imiş.

* * *

Kərim günortaya yaxın özünü lap yaxşı hiss edirdi. O, qocanın təkidinə baxmayaraq yığışıb yola hazırlaşdı.

– Oğul, nahaq belə tez gedirsiniz, qalın yolun yorğunluğu canınızdan çıxsın. Bizə heç bir əziyyətiniz dəymir.

Qoca, Kərimi bir-iki gün də saxlamaq istədi. O, razı olmadı. Qonağı fikrindən döndərə bilməyən ev sahibi ona kiçik bir kisə uzatdı.

– Onda alın bu pulu, yol xərci eləyərsiniz, oğul, səfəriniz uzaq, cibiniz boşdur. Pulsuz-parasız hara gedə bilərsiniz?!

– Onsuz da mənim sizə çox əziyyətim dəyib, üstəlik, bir pul da verirsiniz.

Kərim pulu heç cür almaq istəmədi. Qoca əl çəkmədi, bildi ki, bu məğrur oğlan pulu ondan elə almayacaqdır. Bir az fikirləşəndən sonra dedi:

– Götürün bu pulları, yol xərcliyi eləyərsiniz. Azərbaycana qayıdanda bu qədər pul yoxsullara paylayarsınız, əvəzi çıxar. Daha buna nə sözünüz?!

Kərim tərəddüd edə-edə pulu alıb cibinə qoydu.

Gün günorta yerinə əyilmişdi. Kərim qoca ilə vidalaşanda dedi:

– Əmi can, sizdən bir xahişim də var. Bu mənim son xahişimdir. – O, tirməyə bükülmüş bir kitabı əlində tutub əlavə etdi: – Mən səhər sizə dedim ki, atama qoşulub Bağdada, dahi bir sənətkarı görməyə gəlmişdim. Qəza elə gətirdi ki, mən onu axtarıb tapa bilmədim. Bunu da özümlə geri qaytarmaq istəmirəm.

Kərim tirməni açıb kitabı qocaya göstərdi.

– Mən mahalımızda Füzulinin ağızlarda, dillərdə gəzən qəzəllərini toplayıb öz xəttimlə bu kitaba yazmışam. Bacardığım qədər onu yaxşı tərtib edib, səhifələrinə naxışlar vurmağa çalışmışam. Arzum bu idi ki, özüm Füzulini Bağdadda görüb, bu kitabı ona verim. Ancaq bu halda mən o böyük insanın yanına getmək istəmirəm. Yəqin siz Füzulini tanıyırsınız. Bu kitabı ona verib deyərsiniz ki, Şirvan mahalının camaatından sevimli və əziz şairimizə kiçik bir hədiyyədir.

Nurani qoca öz qəzəlləri toplanmış kitabı alıb bağrına basanda gözləri yaşardı...

*1958*

# FƏTHİ XOŞGİNABİ

(1922-1989)

*Fəthi Xoşginabi 1922-ci il mart ayının 22-də Cənubi Azərbaycanda Xoşginab kəndində doğulmuşdur. Təbrizdə ibtidai təhsil almış, sonralar Moskvada ali ədəbiyyat kursunu (1958) və İctimai Elmlər Akademiyasının aspiranturasını bitirmişdir (1967).*

*Əmək fəaliyyətinə 15 yaşında başlamış, İranın şəhərlərində fəhləlik etmişdir. XX əsrin 40-cı illərində siyasi hərəkata qoşulmuş, Cənubi Azərbaycanda Milli Hökumət qurulduqdan sonra ADR MK-nın orqanı "Azərbaycan" qəzetinin məsul redaktoru işləmişdir. 1946-cı il dekabrın 12-də siyasi mühacir kimi Sovet İttifaqına gəlmiş, burada "Azərbaycan" qəzeti redaksiyasında ədəbi işçi, məsul redaktor, Tacikistan Maarif Nazirliyində məmur, SSRİ EA Şərqşünaslıq İnstitutunda böyük elmi işçi vəzifələrində çalışmışdır. 1979-cu il İran inqilabından sonra Təbrizə köçərək, orada Azərbaycan şairlər və yazıçılar cəmiyyətini yaratmış, onun sədri seçilmişdir.*

*F.Xoşginabi ədəbi fəaliyyətə gənc yaşlarından başlamış, XX əsr Azərbaycan ədəbiyyatı tarixində görkəmli nasir kimi tanınmışdır. Onun əsərləri Cənubi Azərbaycan həyatından bəhs edir. Yazıçının bu cildə daxil edilən "Otaq" hekayəsi onun "Hekayələr" kitabından (Bakı, Azərnəşr, 1956) götürülmüşdür.*

## OTAQ

(*Hekayə*)

Rəşid anası ilə birlikdə enli daş pilləkənlərdən yuxarı qalxırdı. O arxasındakı şələnin ağırlığı altında əzildiyi halda, ilk dəfə gördüyü Tehran vağzalını çox maraqla seyr edir, bəzən də qoca anasına baxırdı. Nəhayət, onlar vağzalın qabağındakı geniş küçəyə gəlib çıxdılar. Bu zaman Rəşid bir qoca kişinin yüyürə-yüyürə gəlib onun qarşısında durduğunu gördü.

– Hambal lazımdırmı? Şeylərinizi haraya deyirsiniz aparım, – deyə qoca, Rəşidə müraciət etdi və öz əl arabasını irəli sürdü.

Qatarın gəldiyi vaxtı bilən bu qoca hərgünkü kimi bu gün də əl arabası ilə vağzala gəlib özünə bir müştəri tapmaq, onun yükünü daşımaqla gündəlik çörək pulunu çıxarmaq istəyirdi.

– Lazım deyil, atacan! – deyə Rəşid cavab verdi. Qocanın üzündə kədər və narazılığı andıran bir ifadə göründü. Ay əmi! Gecələmək üçün bizə bir yer göstərə bilərsənmi? – deyə Rəşid qocadan soruşdu.

Beli ikiqat olmuş qocanın mehriban, lakin bir qədər istehzalı baxışları Rəşidin arıq, sümükləri çıxmış sifətinə dikildi.

– Azərbaycanlısanmı, oğul?

– Bəli.

– Biz, bax, o xarabalıqda gecələyirik! – deyə qoca əli ilə vağzalın qarşısındakı açıqlığı göstərdi və sonra arabasını sürüyərək getdi. Onun ardınca baxan Rəşid:

– Xarabalıq!.. Tehranda bir otaq tapmaq olmazmı? Kişinin ağlı başında deyil, – deyə düşündü.

Rəşid anasına tərəf dönüb: "Ana, gedək!" – dedi. Qara çit çadrasını başına çəkərək soyuqdan titrəyən qoca arvad – Həlimə oğlunun şələ altında əyilmiş uca qamətinə ötəri bir nəzər salaraq oğluna ürəyi yandı, lakin heç bir söz demədən onun dalınca yeriməyə başladı. Ana güclə addımlayır, ayaqları gəlmirdi. Nə ətrafındakı hündür binalar, nə yel kimi sürətlə o yan-bu yana ötüb gedən avtomaşınlar və avtobuslar, nə də divar diblərində əllərini qoyunlarına qoyub soyuqdan, aclıqdan büzüşüb duran işsizlər onun nəzərini əsla cəlb etmirdi. Ana haraya getdiklərini bilmir, "Rəşid haradansa yer tapıb aparacaq" – deyə özünü qənaətləndirir, bu haqda fikirləşmək belə istəmirdi. Rəşid isə, o da anası kimi, haraya getdiyini bilmədən qeyri-iradi addımlayırdı. "Qoca bilmir, bəlkə də Tehrana təzə gəlibdir. Başqasından soruşmalıyam, İranın paytaxtı olan belə böyük bir şəhərdə qıraqdan gələn qəriblər üçün daldanacaq bir yer olmaya bilməz", – deyə o özünü inandırırdı. Ananın dabanı yatıq sürütmə başmaqları sırsıra bağlamış asfalta dəyib taqqıldayır, sürüşür və tez-tez ayağından çıxırdı. Buna baxmayaraq o, bütün qüvvəsini toplayır və oğlundan geri qalmamağa çalışırdı. "Görəsən tezliklə isti bir yer tapacağıq?" – deyə Həlimə arvad düşündükdə onun xəyalında isti bir otaq canlanırdı. Bu fikir ona qüvvət verir, bacardıqca o addımlarını yeyinlədir və başını aşağı salıb, onun qaydına qalmayaraq iri addımlarla yeriyən oğluna çatmaq istəyirdi. Ana oğlundan bir söz eşitmək, təsəlli tapmaq və otaq haqqındakı şirin xəyalının doğru olub-olmadığını, Tehranda otaq tapmaq mümkün olub-olmadığını öyrənmək arzusunda idi. O, nəhayət, özünə cəsarət verərək oğlundan soruşdu:

– Oğul, haraya gedirik? – Şaxtanın şiddətindən onun dodaqları bir-birinə dəyirdi.

Rəşid birdən yuxudan ayılıbmış kimi anasını xatırladı, geri döndü. O, arıq qırışıqlı və soyuqdan qaralmış barmaqları ilə çadrasını boğazının altına sıxmış, bükülmüş beli daha da bükülüb, az qala başı yerə dəyə-dəyə oğlunun dalınca sürünən anasına baxdı. Yazıq arvadın üzü şaxtadan göyərmiş, gözünün, burnunu suyu bir-birinə qarışmışdı. Rəşidin qonur gözləri qısıldı, alnında, gözlərinin kənarlarında qırışıqlar əmələ gəldi. Ürəyinə birdən-birə bıçaq soxulubmuş kimi onun arıq, uzunsov üzündə əzablı bir ifadə göründü.

– Bilmirəm! – deyə boğuq bir səslə cavab verdi.

– Axı, mən daha yeriyə bilmirəm, oğul!

– Ana, mən nə edə bilərəm ki... bəlkə bir tanışa, Allah adamına rast gəldik, o bizə gecələmək üçün bir yer göstərdi.

Rəşid susdu. Əli ilə geniş alnını ovuşdurdu. Bir anlığa gözlərini yumdu. "Anam taqətdən düşür, səhərə qədər küçədə gəzmək olmaz! Bəs mən nə etməliyəm! Kimdən soruşmalıyam!" – deyə düşündü. O yenə də anasına baxdı, yavaş addımlarla yoluna davam etdi. O nə qədər gedirdisə heç bir tanışa rast gəlmir, tanış olmayan adamlardan da soruşmağa cürət etmirdi. Bu zaman onun nəzərində kənddəki daxmaları canlandı. Bu daxmada o, anadan olmuş, orada boya-başa çatmışdır. Lakin, bu daxma həmin ailə üçün bir zindana çevrilmişdir. Onun qara divarları arasında onlar nə qədər də iztirab çəkmişdilər. Daxma bir məzar kimi vaxtilə üç nəfərdən ibarət olan bu ailənin bütün arzularını öz ağuşunda dəfn etmişdi. Buna baxmayaraq, indi Rəşid bu daxmaya da həsrət qalmışdır. Bir il əvvəl kəndin ərbabı bu daxmanı Rəşidin əlindən almış, onu kənddən qovmuşdu. Ancaq o vaxtdan bəri gah bu şəhərdə, gah başqa şəhərdə evsiz, işsiz gəzdiyi zaman Rəşid öz yoxsul, doğma daxmasının nə qədər əziz və qiymətli olduğunu başa düşmüşdü. İndi bu haqda fikirləşərkən onun ürəyi acı bir həsrətlə döyünür, şəhər yerində ən kiçik və rütubətli bir daxmaya malik olan bir adamı belə o, dünyanın ən xoşbəxt adamı hesab edirdi. "Yer üzündə bircə daxmaya da həsrət qalmışam!" – deyə Rəşid öz-özünə mırtıldandı və kimi isə hədələyirmiş kimi sol əlini silkələdi. "Mən anamı haraya aparıram? O ki taqətdən düşmüşdür. Məndən başqa onun kimi vardır? O kimə arxalana bilər? Bəs mən kimə arxalana bilərəm? Biz haraya gedirik?" – o düşünürdü.

Bu düşüncələr Rəşidi sarsıtdı. Onun iri qonur gözlərinə ümidsizlik dumanı çökdü. O sanki geniş sinəsində ürəyinin sürətlə döyüntüsünü eşidirdi.

– Oğul, yeriyə bilmirəm! – yenə ananın yorğun səsi eşidildi.

Bu sızıltılı və titrək səs Rəşidi öz düşüncələrindən ayırdı. O, yenə özündə dözülməz bir ürək sıxıntısı hiss etdi. "Mən ki özümü lap itirmişəm. Deyəsən, çətinlik məni əzir, mənə qalib gəlir... Mən nə qədər də acizmişəm. İndiyə kimi heç belə aciz olmamışdım... Anam əl-ayağıma dolaşır. Yoxsa mən heç kimdən yardım istəməz, lap küçədə gecələyə bilərdim!" – deyə Rəşidin fikrindən keçirdi.

– Oğul, gəl sən şeytan atından düş, gedək Musagilə!

– Eh, bu sözü demə, ana! – deyə Rəşid əsəbiliklə cavab verdi. Onun üzü qırışdı, üzündə sonsuz bir nifrət və qəzəb ifadəsi göründü. – Mən sənə dedim ki, oraya getməyəcəyəm!

– Bəs haraya getmək istəyirsən?

Rəşid anasını çoxdan bəri görməyibmiş kimi diqqətlə süzdü. Onun qaşları çatıldı. Ana tir-tir əsir, dişləri biri-birinə toxunurdu. Ananın soyuqdan taxtaya dönmüş ayaqları daha tərpənmir, hissiz əlləri sanki quruyub çadrasına yapışmışdı. Anaya elə gəlirdi ki, o, bu saat buradaca donub qalacaqdır. Şimran[1] dağlarından əsən və elektrik məftillərinə toxunaraq dəhşətli uğultular qoparan külək ananın lap iliyinə işləmişdi.

Öz taleyindən qəzəblənən Rəşid yenə də susdu və fikrə dalaraq qeyri-iradi yeriməyə başladı.

Rəşid cavanlığının ən coşqun çağını keçirməkdə idi. Onun ancaq iyirmi beş yaşı vardı. Lakin o bu az müddətdə yarım əsrin əzabını, işgəncəsini görmüşdü. Cənubi Azərbaycanda Milli Hökumət dağıldıqdan sonra Rəşid də minlərlə başqa kəndlilər kimi zindana salınmışdı. Zindandan xilas olduqdan sonra o, yenə də polis nəfərləri təqibinə məruz qalırdı. Rəşid öz doğma kəndindən qovulmuş, şəhərdə isə qara fəhləlik belə tapmırdı. O və qarı anası olduqca aclıq, yoxsulluqla yaşayaraq, bir tikə yavan çörəyə belə həsrət qalmışdı. Baş götürüb Tehrana gəlmiş Rəşid onu nələr gözlədiyini hələ bilmirdi. İndi o ancaq otaq, sonra da iş tapmaq haqqında fikirləşirdi. Onun cibində pulu da yoxdu...

– Oğul, ölürəm, daha gedə bilmirəm! – deyə şaxtadan büzüşmüş ana divarın dibində yerə çökdü.

---

[1] Tehranın şimalındakı dağlar

– Ana! Ana, dur ayağa! Necə deyirsən elə edim! Hara deyirsən aparım!

– Musagilə! – deyə ana dili tutar-tutmaz zəif bir səslə dilləndi.

– Ana, mən bir də o alçağın üzünü görmək istəmirəm! Sən ki hər şeyi bilirsən!

– Ay oğul, onda məni oraya apar, mən küçədə ölməli deyiləm ki!

Nə etmək olardı? Daha heç bir çarə yox idi. Rəşid itaətkar baxışları ilə ananı süzdü və onun qollarından yapışaraq qaldırdı. Sonra divar dibində duran bir kişiyə müraciət edərək soruşdu:

– Əmican, Mirfindriski küçəsinə necə getmək olar?

* * *

Musa çox bacarıqlı adam idi. Altı il idi ki, Tehranda yaşayırdı. Şüşə zavoduna işə düzəldikdə o, dərhal mühəndislə tanış oldu. Sonra onun evinə gedib, Tehrana gələrkən gətirdiyi 5 kilo sarı yağı və beş kilo balı ona hədiyyə verdi. Mühəndis də, əlbəttə ki, bu "hədiyyəni" əvəzsiz qoymadı. Bir az sonra Musa qara fəhlələrin başçısı – "sərəmələ" təyin oldu. O özü işləmir, lakin başqa fəhlələri söyür, bəzən döyür, onları dəm almadan həddindən artıq işləməyə məcbur edirdi. Beləliklə o, zavodun başçıları yanında özünə hörmət və etibar qazandırırdı. Yeni işə götürülən hər bir fəhlədən bir qayda olaraq əlli tümən, işə başladıqdan sonra hər ay bir neçə tümən alır, buna razı olmayan fəhlələri müxtəlif bəhanələrlə işdən qovur və onların yerinə başqa adamlar gətirirdi. Şüşə zavodu fəhlələri əmək haqlarının bir hissəsi yerinə zavodda istehsal olunan mallardan almalı idilər. Fəhlələr onlara verilən şüşə qab-qacaqları satıb maaşlarının yerini doldurmalı olurdular. Musa fəhlələrə verilən bütün bu malları ucuz qiymətə alıb qazancına satırdı. Bundan əlavə o, fəhlələrin iş günündən artıq işlədikləri saatlarına artıqlaması ilə əmək haqqı yazır, onun ancaq kiçik bir hissəsini fəhlələrə verirdi. Buna razı olmayan fəhlələrin isə adlarını siyahıdan çıxarırdı. O bu pulların bir hissəsini də mühəndisə verirdi.

Musanın bu kimi işlərdə təcrübəsi vardı. O, illərlə dəmir yollarında işləmiş, orada da "sərəmələ" olmuşdu. Hər dəfə kəndə qayıdanda əli dolu, pullu, sovqatlı qayıtmışdı.

– Pul adamın şərəfi, namusudur, – deyə o danışanda hər sözbaşı təkrar edərdi. – Pulun varsa, hörmətin də vardır. Pulsuz adamın salamını da almırlar. Pul allahın kölgəsi, bəlkə də özüdür, – deyə başqalarına öyüd-nəsihət verərdi.

Doğrudan da Musanın pula qarşı sonsuz bir ehtirası vardı. O, pul çıxıb çıxmayacağını, azmı, yoxsa çoxmu çıxacağını nəzərə almaqla və ancaq pulla başqalarına münasibət bəsləyirdi. Nədən və kimdən pul çıxacağını o özünə məxsus bir bacarıqla təyin etmək qabiliyyətinə malik idi. – Mənə pul ver, qabağında diz çöküm. Əgər pulun yoxdursa, sən özün diz çökməli olacaqsan. Pul sehrli bir şeydir. Hər şey puldan asılıdır, hətta insanın iradəsi də pula tabedir, – deyə o, həyatın sirrini tapıbmış kimi, özünü ən ağıllı və ən güclü bir adam sanırdı.

Pullu olmasına baxmayaraq, Musa yoxsullar kimi yaşayırdı. O, həmişə köhnə paltar geyər, özünə, ailəsinə bir şahı xərcləyəndə canı çıxardı. Tanımayan adamın ona yazığı gələrdi. Musa qarnını onun-bunun başına salardı. Şəhərdən kəndə getdiyi zaman qonşuların yemək süfrəsi döşənər-döşənməz o, ac pişik kimi nazil olardı. O, hamıya ərk edərdi. Qonşuların evində nə olub-olmadığını öz evindən yaxşı bilər, orada istədiyi vaxt özü tabaqdan çörək götürər, qatıq axtarıb tapar, hətta qaşıqların harada olmasını da bilərdi. Kənddə bayram günlərində, xırmansula zamanı əhali əriştəplov və ya xəşil bişirdikləri zaman Musanın işi səhərdən axşama qədər orada-burada yeməkdən ibarət olardı.

O ancaq arvadı Minaxatunu yaxşı geyindirər, hər dəfə kəndə qayıdanda ona müxtəlif çit parçalar gətirərdi. Arvadını heç bir zaman döyməzdi. Onu çöldə işləməyə də göndərməzdi. Bircə Minaxatun özünə göz-nəzər duası yazdırarkən bir və ya iki yumurta nəzir verdiyi zaman Musa ona acıqlanar: “Məni çapıb-talayırsan, ay qız! Yumurtanı özün ye, canına qut olsun”, – deyərdi.

1941-ci ildə Sovet Ordusu İrana gəldi. İlk vaxtlarda Cənubi Azərbaycan kəndlərində ərbablara qarşı qeyri-mütəşəkkil, lakin şiddətli bir hərəkat başlandı. Bu zaman Musanın yaşadığı kənddə də Rəşidin fəal iştirakı ilə bir təşkilat yarandı. Musa təşkilata soxuldu, təşkilatın katibi oldu. Son vaxtlar “yoldaş katibin” başqa kəndlərə gedib, təşkilatın adına kəndlilərdən pul alması məlum oldu. Bir neçə ay keçmədən ara sakitləşdi. Tehran məmurları yenə Azərbaycana qayıtdılar. Onlarla bərabər ərbablar da qayıdaraq kəndlilərə yenidən divan tutmağa başladılar. Bu zaman məlum oldu ki, Musa kənd

ərbabının öz məsləhətilə təşkilata girmişdir. O, tüfəng saxlayan kəndliləri jandarmların əlinə verirdi. O öz əmisi oğlu Rəşidi də unutmadı. Lakin, Rəşidi nə qədər döydülər, hətta altı ay həbsdə saxladılarsa da, o, gizlətdiyi tüfəngləri vermədi. O bu tüfəngləri 1941-ci ildə kəndlərdən qaçan jandarmlardan alıb gizlətmişdi. Ancaq 1945-ci ildə 21 azər qiyamında o, tüfəngləri aşkara çıxarıb, Təbrizi mühasirə edən fədailərə verdi, özü də onlara qoşuldu.

Rəşid altı ay həbsdə qalıb çıxdıqdan sonra Musa artıq kənddə qala bilməyəcəyini hiss etdi və sevimli arvadını götürüb Tehrana getdi. O vaxtdan bəri Rəşid onu görməmişdi. İndi məcburiyyət qarşısında qalaraq anasını onun evinə aparmalı olduğunu düşünən Rəşid daxili bir əzab çəkirdi. Anası Musanın arvadının doğma xalası olsa da, hətta Minaxatun xalasına və xalası oğluna heç bir zaman hörmətsizlik etməmişsə də Rəşid Musanın evinə getmək istəmirdi. Lakin...

Nəhayət, Rəşid Mirfindriski küçəsində Musanın evini tapdı. Qapını açan Minaxatunun gözü xalasına və xalası oğluna düşəndə sevindi və eyni zamanda təəccübləndi. Onları qucaqlayıb öpdü, ağladı.

Musa hələ işdən gəlməmişdi. Minaxatun, Həlimə arvadı evə aparıb isti kürsü başında oturtdu. Rəşid isə şələsini yerə qoyaraq ayaq üstə dayanmışdı. O, getmək üçün anası ilə hələlik vidalaşmaq istəyirdi. Lakin Minaxatun Rəşidi getməyə qoymadı.

– Otur canım! Vallah qoymaram gedəsən! Elə qəribsəmişəm ki, külli-aləm gözümə qaranlıq görünür.

– Musa haradadır? – deyə Həlimə arvad soruşdu.

– Bir az sonra işdən gələr.

Rəşid Minaxatunun təklifini rədd edə bilməyərək oturmağa məcbur oldu. Bir az sonra Musa da işdən gəlib çıxdı. Rəşidin gözü onun qarayanız sifətinə, ətli alnına və yekə burnuna sataşan kimi, yenə də özündə dərin bir nifrət hissi duydu. Musa isə hər şeyi unutmuş kimi, mehriban bir əda ilə ananı və Rəşidi dindirdi, sonra kürsünün tövüna oturdu. O, evin küncündə qoyulmuş şələyə baxaraq:

– Mina, Həlimə xalam deyəsən nazik çörək[1] də gətiribdir, – deyə gülümsədi. – Hə, Rəşid, de görək kənddə nə var, nə yox?!

– Kəndlilərin hərəsi bir tərəfə dağılıb, hərə baş götürüb bir diyara gedibdir.

---

[1] Süd və cürbəcür ədviyyə ilə hazırlanan kökə

– Sizin mərhəmətinizdən bizim kefimiz sazdır, birtəhər dolanırıq! – deyə Musa bığlarını tumarladı. – Düzdür, bir qədər bahalıqdır. Amma dolanırıq...

– Sənin üçün dolanmaq çətin deyil, – deyə Rəşid dilləndi. – Harada işləyirsən?

– Şüşə zavodunda. Sən özünə iş tapmısan, ya yox?

– Yox, biz indicə yoldan yetişmişik.

– Hmm! – deyə Musa hiyləgərcəsinə gülümsədi. Alnına tökülmüş saçlarını geri qatladı.

– Eybi yoxdur, Rəşid, mən sənə iş düzəldərəm.

Rəşid Musanın bu mehribanlığını görüb təəccübləndi. İşə düzəlmək Rəşid üçün ölüm-dirim məsələsi idi. O, “Musadan bu kəramət!..” – deyə öz-özünə düşünür, onun sözlərinə inanmırdı.

Musadan bu barədə xahiş etmək də ona ağır gəlirdi.

– Hə, düzəldərəm, – deyə Musa təkrar etdi.

Musa dikəldi, dirsəklərini kürsüyə dayayaraq üzünü ovuclarının içinə aldı. Kirpiklərini çalmadan Rəşidə baxa-baxa bir qədər qəmli səslə dedi:

– Ancaq bir məsələ var, əzizim! Mühəndisə əlli tümən pul vermək lazımdır.

– Mənim pulum yoxdu!

– Canım, indi yox ki, sonra. İşləyərsən, iki növbətlə verərsən: birini bu ay, ikincisini isə gələn ay! Qardaş, pul ki var, “həllali müşkülatdır”[1]. Mən özüm də işə girəndə əllicə tümən tərlədim. Əllicə tümən! Pul hər şeyə qalib gəlir. Pulun varsa, deməli, adamsan, pulun yoxdursa, səni adam yerinə qoymurlar.

– Səni guya adam yerində qoyurlar! – deyə Rəşid istehzalı bir ahənglə onun sözünü kəsdi.

Musa pərt olaraq:

– Canım, işə gəlibsən, ya mübahisəyə! Get bu sözü o it oğlu mühəndisə başa sal... İndi sənə pul lazımdırsa, onu da taparam. Zavodda bir tanışım var, faizlə pul verir. Mən sənə zəmanət edərəm, Rəşid!

Musa mənalı bir ifadə ilə arvadının üzünə baxaraq:

– Mina, yadımdan çıxdı, çay almadım! – dedi və Minaxatuna göz vurdu. Minaxatun onun məqsədini duydu. Musa “qonaqlara çay vermə” deyə ona andırırdı. Lakin ərinin belə sifətlərindən həmişə

[1] Bütün çətin məsələləri həll edən

narazı qalan, indi isə çoxdan bəri görməmiş xalası yanında xəcalət olmaq istəməyən Minaxatun özünü saxlaya bilməyərək:

– Nigaran olma! – dedi. – Çayımız da var, çörəyimiz də.

Musa sözünə davam etdi:

– Bu evi mən kirayə etmişəm. Həyətin o başında boş bir zirzəmi var. İstəyirsən, sən də onu kirayə et, ananla orada qal.

Rəşid onun bu sözlərindən "Mənim evimdə sənə yer yoxdur, buradan dur get!" deyə andırdığını başa düşür, hirsindən dişi bağırsağını kəsirdi. Lakin indi qalmaq üçün nə yeri, nə də pulu olmadığını düşünərək yenə qeyzini udurdu.

* * *

İkicə gün bundan sonra Rəşid işləməyə başlamışdı. Onun belə tez işə düzəlməsi bir təsadüf olsa da Musanın onda əli var idi. Bu, Rəşidi çox sevindirdi. İndi o, iki aya yaxındı ki, şüşə zavodunda işləyirdi. Musa mühəndisə "verəcəyi" 50 tüməni almışdı.

Rəşid bu müddət içərisində Musanın təklif etdiyi zirzəmidə 15 gün qalmışdı. Lakin bu zirzəmi o qədər qaranlıq, o qədər nəmli idi ki, burada qalmaq daha mümkün deyildi. Başqa bir otaq kirayə etmək lazımdı.

Rəşid başqa otağa köçmək üçün həm zirzəminin 15 günlük icarəsini, həm də təzə otağın qabaqcadan heç olmasa 15 günlük icarəsini verməli olacaqdı. Beləliklə o, aldığı maaşın yarısından çox bir hissəsini icarəyə ödəməli idi. Buna baxmayaraq, Rəşid "həm zirzəmidən, həm də Musanın üzündən qurtarmaq üçün "bir ay da aclığa qatlaşarıq" deyə Musagilə yaxın olan bir həyətdə başqa otaq kirayə etmişdi.

Rəşid bu evdən köçüb getdikdən sonra özünü bir qədər rahat hiss edirdi. Çünki o, zirzəmidə olarkən hər gün Musanın üzünü görməli, onun axmaq-axmaq söhbətlərinə, lovğalıqlarına qulaq asmalı idi. Musa daima müxtəlif bəhanələrlə bir qarın ac, bir qarın tox yaşayan Rəşiddən pul, heç olmazsa, bir şey qoparmaq istəyirdi. O neçə dəfə eyhamla Rəşidə demişdi:

– Cəmşid oğlan dünən yatmayıb, "Rəşid dayım mənə börk almadı!" – deyə səhərə qədər ağlayıbdı. Güc-bəla ilə dilə tutub yatırmışıq. Bilirsən səni nə qədər istəyir? Ona bir şey almasan, hücum çəkib yanına gələcəkdir!

İndi Rəşid belə sözləri daha eşitmirdi. Burada o və anası çətinliklə yaşayır, bir tikə yavan çörək ancaq tapırdılarsa, qulaqları Musanın lovğalığından dinc idi.

Yeni evdəki bu vəziyyət də davam etmədi. 15 gün başa çatdıqdan sonra evin sahibi artıq icarə almaq üçün bəhanə axtarırdı. O, Rəşidə "hər ayın icarəsini qabaqcadan verməlisən. Razı olmursansa, köçüb başqa yerə get" deyə elan etdi. Rəşid yenə də başqa bir otaq tapmalı oldu.

Rəşid yeni tapdığı otaqda 20 günə qədər otura bildi. Bu otaq həyətin bucaq tərəfində yerləşmiş kiçik, köhnə bir daxmadan ibarət idi. Görünür ev sahibi bu vaxta qədər həmin otaqdan odun anbarı kimi istifadə edirmiş. Otağın divarları çatlamış, damının bir tərəfi uçulmuşdur. Rəşid buraya köçdükdə palçıqla tavanda açılmış deşiyi tutmuşdu.

Qışın axırları idi. Tehranda şiddətli yağışlar yağmağa başladı. Belə yağışlı bir gündə daxmanın bir tərəfi uçuldu, qonşular Həlimə arvadı güclə palçıqdan çəkib çıxartdılar və onu ev sahibinin otağına gətirib yatırtdılar. Rəşid işdə ikən belə bir şiddətli yağışın yağmasından təşvişə düşmüşdü. O, işi qurtarar-qurtarmaz evə qaçdı. Ev cəhənnəmə, anasının salamat qurtarması bir qədər kədərini azaltdı.

Rəşid və anası ev sahibinin otağında gecələdilər. Sabahısı gün Rəşid işə gedə bilmədi. O, heç olmasa, kürsü üstünə döşədikləri çirkli yorğanı, bir də kürsü ilə manqalı lildən çıxarmalı, bundan başqa, yeni bir otaq tapmalı idi. Lakin Rəşid o gün nə qədər gəzdisə otaq tapmadı. Rəşid axşamçağı evə qayıtdığı zaman nə edə biləcəyini özü də bilmirdi. Ev sahibi anasını qova bilməsə də Rəşidə orada yatmaq icazəsi verməzdi... Rəşid o gecə səhərə qədər şaxtada eşikdə gəzməyə məcbur oldu.

Son iki gün Rəşid yenə bütün günü dolandı. Ancaq axşama yaxın Tehranın kənarında olan Əkbərabad məhəlləsində bir otaq tapa bildi. Rəşid yenə çul-palasını dalına ataraq yeni otağa köçdü. Keçmişdəki otaqlara görə bu otağın fərqi ondan ibarət idi ki, yeni otaq lap təzəcə tikilmiş, hələ onun divarları da qurumamışdı və ev yaxçal kimi soyuq idi. Birinci gecə Rəşid kömür almağa gedə bilmədiyi üçün onlar soyuqda yatmalı oldular. Səhər tezdən Rəşid kömür aldı, kömürü qızardıb manqala qoyduqdan sonra işə getdi. Anası isə kürsünü qurub yorğanı onun üstünə saldı. Həlimə arvad gecə səhərə qədər soyuqdan yatmadığına görə və daxma uçulduqdan sonra yatalaq xəstəliyinə

tutulduğuna görə tez yuxuladı. Lakin o, əbədi olaraq yuxuladı, evsizlik fikri bir daha onu narahat etmədi...

Hələ Rəşid təzə işə başlamışdı ki, Musa Rəşidin yanına gəldi. O, guya bir neçə gündən bəri Rəşidi görməmiş, ondan nigaran qalıbmış kimi qayğıkeşlik göstərdi. Həlimə arvadın təzə köçdükləri evdə özünü necə hiss etdiyini soruşdu. Rəşid isə srağagün kirayə etdikləri daxmanın yağışdan uçulduğunu, Həlimə arvadı ölümdən qurtardığını, Əkbərabadda təzə ev kirayə etdiyini və buna görə də iki gün işə gələ bilmədiyini izah etdi.

Musa əllərini ovuşduraraq sözə başladı:

– Rəşid, bilirsən nə var? Mühəndis srağagün gəlib səni soruşdu. İşə gəlmədiyinə görə sənə dörd günlük əmək haqqı cərimə yazdı. Ancaq dünən yenə işə gəlmədiyin üçün səni işdən çıxardıb. Nanəcib oğluna nə qədər yalvardımsa, qulaq asmadı.

Bu xəbəri eşidən Rəşidin rəngi ağappaq ağardı. Bəs o nə edəcək? Axı o bir də haradan iş tapacaq. Minlərcə Rəşid kimi işsiz adamlar küçələrdə qalmışlar. Hər yerdə yüzlərlə adamın aclıqdan, yersizlikdən ölmələri haqqında danışılır. Hətta qəzetlər bu barədə onlarla xəbərlər yazırdılar. İşıqlı dünya Rəşidin gözləri önündə zülmətə çevrildi.

– Bəs mən nə edim? – deyə Rəşid özünü itirmiş halda soruşdu.

– Ayrı bir çarə yoxdur, Rəşid. Mən o nanəcib oğluna olmazın dilini tökdüm. Qəbul etmədi ki, etmədi! Bəlkə ayrı yerdə özünə bir iş tapa biləsən!

Musa bu sözü deyib getmək istədi. Əslində isə o, Rəşidi özü işdən çıxarıb bir başqasından 50 tümən alıb işə düzəltmək üçün bəhanə axtarırdı. O, yaxşı bəhanə tapmışdı. Rəşid isə bunu duymuşdu.

– Deməli, heç bir çarə etmək mümkün deyildir? – Rəşid qeyzlə deyib, Musanın bir neçə gündən bəri qırxılmamış uzunsov sifətinə və balaca gözlərinə baxdı.

Musa çənəsini qaşıdı və sonra başını qaldırıb:

– Yox! – dedi. – Ancaq bir qədər mühəndisi sınayaram. İt oğlu it, bu dəfə yüz tümən istəyəcək, Rəşid! Pulsuz iş keçmir də!

Musa getmək istədi, Rəşid onun qabağını kəsdi.

– Dayan, mənim gözlərimin içinə bax!

– Tələsirəm, canım, qoy gedim görüm bəlkə mühəndisi tapıb, bir dəfə də ondan bu barədə xahiş etdim.

– Getmə, mən özümə iş tapa bilərəm.

– Canım, işə nə var ki, əlbəttə ki, tapa bilərsən. Hər şey puldan asılıdır, – deyə Musa baş barmağı ilə ikinci barmağını bir-birinə sürtdü. – Puldan, əzizim! Puldan asılıdır!

Rəşid onun yaxasından tutub:

– Hər şey puldan asılıdırmı? – deyə qışqırdı. O hirsindən titrəyirdi.

Musa qorxaraq dala çəkildi və bərəlmiş gözləri ilə Rəşidin üzünə baxdı. Rəşid onun başına bir neçə yumruq vuraraq:

– Hər şey bax, bundan asılıdır! İndi başa düşürsənmi? Alçaq, yaxşı başa düş! – dedi.

Musanın ağzı, burnu qanadı. O qışqırdı. Fəhlələr zavoddan çıxdılar. Bu, Musa üçün daha da dəhşətli idi. Fəhlələr hamısı Musaya qarşı ürəklərində kin bəsləyir, bir fürsət axtarırdılar. Bir neçə fəhlə Musaya tərəf yeriyə-yeriyə:

– Vurun bu alçağı! – deyə hirslə qışqırdılar, onun üstünə cumdular, onu araya alaraq döymək istədilər.

Musa özünü birtəhər fəhlələrin arasından qurtarıb direktorun kabinetinə doğru qaçdı.

Rəşid işin bu yerə gəlib çatdığını heç də gözləmirdi. O, Musaya yaxşı ibrət dərsi verdiyinə sevinirdi. Lakin bu macəradan sonra o burada daha işləyə bilməyəcəyini bilərək zavoddan çıxıb getdi. Yol uzunu bu hadisə haqqında düşünür, illərdən bəri ürəyində Musaya qarşı toplanan kininin azaldığını hiss edərək özündə bir rahatlıq və yüngüllük duyurdu. Lakin Musanı döyməklə onun dərdinə bir çarə olmazdı. O bu dözülməz vəziyyətə necə son qoyulacağını düşünürdü...

Bu gün axşama kimi Rəşid küçələri gəzir, kimə dərdini desin, kimdən iş istəsin, bilmirdi. Axşamçağı evə qayıtdığı zaman Rəşid anasının yatdığını görüb ayılmasın deyə o, səs salmadan aldığı çörəyi taxçaya qoydu. Sonra bir az dincəlmək üçün kürsüyə oturdu. Elə kürsünün yorğanını qaldırdıqda bir pis qoxu onun burnuna vurdu. O, əvvəl bu qoxunun rütubətdən əmələ gəldiyini düşünürdü. Bir az sonra başında bərk ağrı hiss etdi. Evdə dəm olduğunu başa düşdü. Anasını oyadıb bayıra çıxarmaq istədi. Lakin anasının ona cavab verməyərək ölü kimi düşdüyünü gördükdə onu birtəhər kürsüdən çıxardıb həyətə, açıq havaya sürüdü. Onun üzünə soyuq su çilədi. Ananın rəngi qapqara qaralmış, nəfəsi kəsilmişdi.

– Ölübdür! – deyə Rəşid dəhşətlə bağırdı. O özünü itirdi. Var gücü ilə anasını silkələdi, "ana, ana!" deyə səslədi. Lakin anasından bir daha cavab eşitmədi... O hönkür-hönkür ağlamağa başladı. İndi

qonşular da tökülüb gəlmişdilər və ananı araya almışdılar. Buradakı adamların hərəsi bir söz deyir: bəzisi "rütubətli, dəmli otaqda qoca arvadı tək qoymaq olarmı?" – deyə Rəşidi danlayır, başqaları isə Rəşidə yazığı gəlib, ona təskinlik verməyə çalışırdı. Rəşid bu sözlərin heç birini eşitmir, yerindəcə donub qalmışdı.

* * *

Vağzalın qarşısında yenə də gəl-get çox idi. Rəşid bir neçə ay əvvəl Tehrana gələrkən anası ilə durduğu yerdə dayanmışdı.

– Oğul, ev tapdınmı? – deyə bir səs dərin xəyala cummuş Rəşidi öz fikirlərindən ayırdı. O, başını döndərdikdə Tehrana gəldiyi gün gördüyü qocanı tanıdı. Qoca isə onu görcək tanımışdı. Qoca:

– Hə, oğul, sənsən? Otaq tapdınmı? – dedi. – Bax, biz o xarabalıqda yaşayırıq!.. Sən də bizimlə yaşamalı olacaqsan...

İşsiz, ac və xarabalıqlarda yaşayan minlərlə adamlara Rəşid də qoşuldu. Lakin o indi bir tək Musa haqqında yox, minlərlə istedadlı, işləmək istəyən insan qüvvəsini yaşayış haqqından məhrum edən, diri-diri xarabalıqlarda basdıran adamlar haqqında düşünür. Onlara qarşı getdikcə ürəyindəki kini, qəzəbi artır, intiqam odu alovlanır. O, intiqam gününün gələcəyinə inanır, hələ də o günün gəlib çatmasını səbirsizliklə gözləməkdədir.

*1956*

# SALAM QƏDİRZADƏ

(1923-1987)

*Salam Qədirzadə Bakı şəhərində doğulmuşdur. Burada 150 saylı orta məktəbi bitirmiş, sonralar ADU-nun filologiya fakültəsinin III kursundan Moskvadakı M.Qorki adına Ədəbiyyat İnstitutunun şeir bölməsinə köçürülərək ali təhsilini davam etdirmişdir.*

*Əmək fəaliyyətinə 1945-ci ildə Sumqayıt şəhərindəki 18 saylı fabrik-zavod təhsili məktəbində müdir müavini, "İnqilab və mədəniyyət" jurnalının redaksiyasında ədəbi işçi, məsul katib (1952-1953), "Kirpi" satirik jurnalı redaksiyasında məsul katib (1960-1966), baş redaktor (1976-1980) və s. vəzifələrdə çalışmışdır. O, 1987-ci ildə dünyasını dəyişmişdir.*

*Bədii fəaliyyətə İkinci Dünya müharibəsindən sonra başlayan S.Qədirzadə XX əsr Azərbaycan ədəbiyyatı tarixində istedadlı nasir kimi tanınmışdır. Onun bu cildə daxil edilmiş "Sarmaşıqlı aynabənd" povesti eyni adlı kitabından (B., Uşaqgəncnəşr, 1955) götürülmüşdür.*

## SARMAŞIQLI AYNABƏND

(*Povest*)

### 1

Kənd qırağında, iydə ağaclarının altı ilə uzanan ensiz cığırla iki qız gedirdi. Təxminən bir boyda görünən bu qızlar, öz aralarında nəsə danışaraq, arabir şadlıqla gülüşürdülər. Qızlardan iyirmi-iyirmi beş addım arxada ağ pencək, qara şalvar geymiş bir oğlan irəliləyirdi. Oğlan, qızların geri dönüb onu görəcəyindən ehtiyat etdiyindənmi, yoxsa nədənsə, ayaqlarının səsini onlara eşitdirməmək üçün otların üstü ilə addımlayırdı. Bəzən də qızlara yaxınlaşdığını görüb dayanır və onları bir qədər irəli buraxdıqdan sonra yenə yoluna davam edirdi.

Kəndin üstündə bədirlənmiş ayın ziyası iydə ağaclarının ətirli yarpaqları arasından süzülərək yolu işıqlandırırdı. Qarşıda, cığırın sağ tərəfində böyük bir həyətin darvazası görünürdü. Sol yanda isə, üstündə dolamaçarx olan su quyusu vardı. Bir qədər irəlidə, yaşıl otların arasilə burula-burula ilan kimi qıvrılaraq kiçik körpünün altından keçən arx par-par parıldayırdı. Elə bil kəndin qırağından işıq seli axırdı.

Qızlar darvazanın qabağına çatıb dayandılar. Bunu görən oğlan da ayaq saxladı. Sonra yana çəkilib, özünü iydə ağaclarından birinin arxasına verdi. Deyəsən indi o, bir qədər qızlara yaxınlaşmışdı. Buradan onların danışıqları apaydın eşidilirdi.

– Sağ ol, Möhtərəm, – deyə ağ paltar geymiş uzun hörüklü qız əlini rəfiqəsinə uzatdı. – Sabah söhbət edərik, mən gedim. Gecən xeyrə qalsın.

– Xoş getdin, Rayihə, xeyir qarşına çıxsın.

Qızlar ayrıldılar. Möhtərəm darvazanın qapısını açıb həyətə girdi və pəncərəsindən işıq gələn evə tərəf yüyürdü. Rayihə isə tələsmədən həmin cığırla körpüyə sarı getməyə başladı. Oğlan, ağacın dalından çıxıb arxadan qıza çatmağa tələsdi. Bu vaxt onun ürəyi elə həyəcanla, elə şiddətlə çırpınırdı ki... O, bir an dayanıb özünü ələ almaq istədi. Lakin bacarmadı.

Sanki bu dəqiqə qız onun ürək döyüntülərini eşidib geri baxacaqdı...

## 2

Zeynal, Rayihəni ilk dəfə iki il bundan qabaq, hələ Bakıya getməmişdən əvvəl görmüşdü. Onda qış idi, şaxtalı və küləkli bir qış idi. Neçə gün ara vermədən yağan qar yolları örtmüş, gediş-gəlişi çətinləşdirmişdi.

Zeynal kolxozun ikiatlı arabasilə rayon mərkəzindən kəndə gedirdi. O hələ səhər xoruz banında evdən çıxanda, havanın soyuğunu hiss edib, sırıqlı pencəyinin üstündən, atasının müharibədən qalmış uzun şinelini geymiş, başına da onun qulaqlı papağını qoymuşdu.

Atlar fınxıra-fınxıra addımladıqca, arabanın çarxları yolların buzlarını sındırır, arxada qarın üstündə paralel qara xətlər cızılırdı...

Zeynal rayon mərkəzindən xeyli uzaqlaşmışdı ki, qarşıda ağ şallı bir qızın dayandığını gördü. O, qıza çatanda atların cilovunu çəkib arabanı saxladı. Qız irəli gəldi; soyuqdan şalın altında gizlətdiyi burnunun üstünü açdı:

– Əmi, hayana gedirsiniz? – deyə soruşdu.

Bu, Zeynala heç də xoş gəlmədi; özü boyda bir qız ona "əmi" deyə müraciət edirdi.

– Qızım, Reyhanlı dərəyə gedirəm, keç əyləş.

Qız, Zeynalın bu cavabındakı eyhamı hiss etmədən tələsik arabaya mindi. Zeynal arxaya çevrilib bir daha diqqətlə ona baxdı. Qızın yumru yanaqları və yaraşıqlı kiçik burnu soyuqdan qıpqırmızı qızarmışdı. O, arabanın içinə səpələnmiş otları bir yerə yığıb onların üstündə oturdu. Sonra da küncdəki köhnə torbanı görcək, götürüb ayaqlarının üstünə saldı. Zeynalın hələ də ona baxmasına əhəmiyyət vermədən, öz-özünə: "Yaman soyuqdur" – dedi və donmuş barmaqlarını isitmək üçün ağzına aparıb üflədi. Sonra isə yerini rahatlayıb, dolğun sinəsini qucaqlayaraq, əllərini qoltuqlarında gizlətdi.

Bu, qonşu kənddəki xalasıgildən evlərinə qayıdan Rayihə idi.

Zeynal qızın üşüdüyünü görüb, içi tüklü dəri əlcəklərini ona uzatdı.

– Al! – dedi.

Rayihə Zeynalın üzünə baxmadan əlcəkləri alıb: "Çox sağ ol, əmi!" – deyərək balaca ağ əllərini onların içinə keçirtdi. Qızın yenə "əmi" deməsi bu dəfə Zeynalı daha artıq hirsləndirdi; az qala əlcəkləri geri istəyəcəkdi. O, üzünü Rayihədən çevirib, "biyə!" deyərək, qızın acığını əlindəki qamçıyla atların kürəyindən çıxdı.

Çox getməmişdilər ki, o özünü saxlaya bilməyib yenə geri döndü.

– Bağışlayın, soruşmaq ayıb olmasın, – dedi, – mənə neçə yaş verirsiniz ki, "əmi" deyirsiniz?!

Rayihə zərif qara qaşları altındakı uzun kirpiklərini yuxarı qaldırıb Zeynala baxdı; onun hələ qırışıq düşməmiş ensiz alnına, yenicə tərləmiş bığ yerlərinə və papağının qulaqları altından görünən təmiz üzünə diqqət yetirdi. Doğrudan da ona on səkkizdən artıq yaş vermək olmazdı. Lakin Rayihə yenə özünü sındırmaq istəmədi.

– Mən nə bilim! Soyuğun qorxusundan elə geyinmisiniz ki, ancaq iki gözünüzü görmək olur.

Zeynal sərt bir hərəkətlə şinelinin yaxasını endirib, papağının qulaqlarını yuxarı qaldırdı.

– Ala! Bu da mənim üzüm! Gör əmiyəm, yoxsa elə sən yaşdayam?!

Rayihə, Zeynalın sifətindəki ciddiyyəti və nahaqdan bu qədər hirsləndiyini görüb gülməkdən özünü saxlaya bilmədi, "mən nə qəribə adama rast gəldim!" – deyə düşündü.

Hələ əslinə baxsan, Zeynalın kobud yanaqları, muncuq kimi xırda qara gözləri və bir qədər enli burnu da ona gülməli göründü.

– Bağışlayın, bilməmişdik! – deyə Rayihə kəndlərinə çatdığını görüb, inciməyi bəhanə edərək, arabadan aşağı tullandı.

– Çox vacibmiş! Bu cür dava-dalaşla arabada getməkdənsə, piyada getmək yaxşıdır. Allaha şükür, ayaqlarımız ki protez-zad deyil!

O, bir daha arxaya baxmadan, hamar qarın üstündə ləpirlər salasala, tələsik addımlarla evlərinə tərəf yollandı...

Araba Reyhanlı dərəyə yenicə çatmışdı ki, Zeynal, qızın əlcəkləri də özü ilə apardığını xatırladı...

İndi o vaxtdan azı iki il ötmüşdü.

Lakin Zeynal, Rayihə ilə o cür rəftar etdiyinə görə indi də özünü danlayırdı: "Əmi deməklə mən qocalmadım ki! Nahaq yerə o vaxt Rayihəni özümdən küsdürdüm. O, yaxşı qıza oxşayırdı..."

Rayihənin qara cazibəli gözləri, uzun sıx kirpikləri, soyuqdan qızarmış yaraşıqlı yanaqları uzun zaman Zeynalın xatirindən silinmədi; onun məlahətli səsi xeyli vaxt qulaqlarından çəkilmədi. Zeynal hər dəfə İşıqlı kəndindən keçərkən Rayihəni düşündü, bir daha onu görməyi arzuladı. "Ancaq, deyəsən, Rayihənin xasiyyəti bir qədər tünd idi. Nə olar ki! Hər adamın bir təbiəti olar. Məgər Zeynala öz yoldaşları, azmı demişdilər: sən kobudsan, qızla incə rəftar edə bilmirsən, adamı özündən tez küsdürürsən...

Zeynal öz haqqında deyilən bu sözləri yoldaşlarının ağzından vurmuşdusa da, lakin Rayihə ilə o söhbətdən sonra səhvini anlamışdı; yoldaşlarına haqq vermişdi. "Kim bilir, bəlkə elə o vaxt Rayihə zarafat məqsədilə ona "əmi" deyərək sataşmışdı? Daha bunun üçün inciməyin nə mənası?"

...Zeynal Bakıya oxumağa getdikdən sonra, Rayihəni əvvəlki kimi tez-tez xatırlamamışdısa, unuda da bilməmişdi.

Günlər ötdü, həftələr, aylar dolandı. Zeynal Reyhanlı dərəyə məzuniyyətə gəldi. Bir gün İşıqlı kəndindən keçərkən, yenə o qız sanki qəsdən Zeynalın qarşısına çıxdı. Bu dəfə Rayihə ona əvvəl-

kindən daha gözəl göründü. Zeynalın qəlbindəki məhəbbət odu təzədən şölələnməyə başladı. Rayon mərkəzindən gələrkən Rayihə ilə arabadakı mübahisəli söhbət, qızın acıq edib getməsi və əlcəkləri aparması bir xatirat dəftəri kimi gözünün qabağında varaqlandı. O, üzr istəmək üçün Rayihəyə yaxınlaşdı. Lakin Rayihə Zeynala danışmağa imkan vermədi. Ondan üz döndərib uzaqlaşdı, getdi...

İki həftə sonra Zeynalın məzuniyyəti qurtarmışdı. O, yenə Bakıya yola düşmüşdü.

İndi isə Zeynal bir aydan artıq idi ki, həmişəlik olaraq öz kəndlərinə qayıtmışdı. O, neçə dəfə ancaq Rayihəni görmək, onunla danışmaq üçün Reyhanlı dərədən İşıqlı kəndinə gəlmişdi.

Lakin hər dəfə pərt olmuş və kor-peşman halda geri dönmüşdü. Rayihə bir dəfə, tək bircə dəfə, heç olmasa yarım saat onunla söhbət etsəydi, bəlkə də Zeynalın deyəcəyi sözlər qızın qəlbini yumşaldar, ürəyinə rəhm gələrdi.

Axı Zeynal neyləsin, neyləsin ki, Rayihə nə onu dinləmək, nə də ona cavab vermək istəyirdi.

Əgər ürəyi dillə yola gətirmək mümkün olsaydı, bəlkə də Zeynal əvvəlcə öz ürəyini Rayihəni unutmağa məcbur edərdi. Özgəsinin, Rayihə kimi bir qızın qəlbini ələ almaq isə onun üçün olduqca çətin idi.

Bu axşam da Zeynal, İşıqlı kəndinin klubunda konsert olacağını eşidib, Rayihəni görmək üçün bura gəldi.

O kluba girəndə, Rayihəni ön cərgədə bir qızla yanaşı oturmuş gördü. Zeynalın ona "salam" vermək istədiyini duyan Rayihə, rəfiqəsinə tərəf çevrilib, onunla danışmağa başladı. Zeynal keçib ondan bir qədər dalda, tanış cavanların yanında əyləşdi. Buradan Rayihənin yaraşıqlı çiyinləri və ağ paltarının üstü ilə kürəklərinə sallanmış yoğun, xurmayı hörükləri görünürdü.

...Çox çəkmədi ki, işıqlar söndü, səhnənin üstünə əlvan projektorlar salınmış qırmızı məxmər pərdəsi yanlara çəkildi. Konsert başladı. Rayihə gah sağ, gah da sol tərəfinə çevrilib yanındakı qızlarla pıçıldaşdıqca hörükləri ilan kimi arxasında qıvrılırdı. Zalda qaranlıq da olsa, Zeynal onun bir hərəkətini belə gözdən qaçırmırdı. Rayihə hansı tərəfə dönürdüsə, Zeynal da günəbaxan kimi üzünü o səmtə çevirirdi. Rayihə bütün bunları hiss edirdi, lakin insafsız qız bircə dəfə, göz ucilə də olsa, Zeynala nəzər yetirmirdi.

Bəlkə də Zeynalın yerində başqası olsaydı, özünə qarşı bu cür saymazyana rəftardan sonra bir daha onunla danışmaq istəməzdi. Ancaq Zeynal bunu bacarmazdı.

Bu gün Zeynal nə cür olursa olsun Rayihəni təklikdə tutub onunla danışacaqdı. Danışacaqdı, özü də bütün ürəyindəkiləri cəsarətlə ona deyəcəkdi!

Əgər Rayihə: "Vaxtım yoxdur, tələsirəm, sonraya qalsın", – deyəcək olsa, onda Zeynal hələ neçə gün bundan qabaq yazıb hazırladığı və o vaxtdan cibində gəzdirdiyi məktubu çıxarıb ona verəcəkdi. "Eybi yoxdur, evdə oxuyub sonra cavab verərsiniz", – deyəcəkdi.

Zeynal bu gün Rayihədən xoş bir cavab alıb, bütün yolu şadlıqla, oxuya-oxuya kəndlərinə gedəcəyini xatırladıqca, az qala qanadlanıb uçmaq istəyirdi.

## 3

Zeynal kiçik körpünün üstündə Rayihəyə çatdı; bir an dayanıb əlini sinəsinə qoyaraq, sanki ürək döyüntülərini dayandırmaq istədi. Nə vaxt "Rayihə!" deyərək onu çağırdığını özü də bilmədi. Zeynalın səsi titrədi. Qız diksinmiş kimi oldu. Kəskin bir hərəkətlə dönüb arxaya baxdı.

– Rayihə! Mənəm, Rayihə, qorxma!

Zeynal bir az da qabağa gəlib dayandı və susdu.

Rayihə sinəsi üstündə yatmış yoğun hörüyünü əlilə arxasına atdı:

– Yenə nə var, nə istəyirsən? – dedi və acıqla üzünü ondan çevirdi.

– Eşitdim bu gündən Bakıya oxumağa gedəcəksən...

Rayihə onu sona qədər dinləmək istəmədi.

– Bəli, gedəcəyəm, onun sənə nə dəxli?

Nədənsə Zeynala elə gəlmişdi ki, bu gün Rayihə onun qəlbini sındırmayacaq, axıra qədər onu dinləyəcəkdir. Buna görə də o, Rayihəyə çox cəsarətlə yanaşmışdı. Hətta Zeynal onunla "sən" deyə danışmağı da qanuni hesab etmişdi.

Lakin Rayihənin, bu dəfə də onu əvvəlki kimi etinasız qarşıladığını görən Zeynal sustaldı və ürəkdən qopan bir ahla köksünü ötürdü.

Rayihə elə bil böyümüş, kökəlmiş, daha da gözəlləşmiş və xeyli dəyişmişdi. Ancaq xasiyyətində zərrə qədər də dəyişiklik əmələ gəlməmişdi; yenə də əvvəlki inadkar, Zeynala qarşı laqeyd Rayihə olaraq qalmışdı.

Zeynal körpünün məhəccərindən tutub gözlərini, aşağıda şırıltı ilə axan parlaq suya dikərək susurdu. Rayihə isə hələ də kəskin baxışlarını ondan çəkmədən baxır, sanki yenə bir söz demək, onu taqsırlandırmaq istəyirdi. Zeynal isə qızın bu həyəcanından bir sirr duymuş kimi yenidən təskinlik tapdı:

– Rayihə, – deyə o, müqəssir bir görkəm alıb əsil mətləb üstünə gəlmək istədi, – mənim səndən bir xahişim var, Rayihə, çox demirəm, heç olmasa yarım saat, elə burada, bu körpünün üstündə mənimlə dayan. Sənə deyəsi...

– Xeyr, vaxtım yoxdur. Nə sözün varsa de, məni saxlama!

Zeynala elə gəldi ki, ürəyindəki sözləri bu tezliklə boşaltmaq ona mümkün olmayacaq. Heç olmasa fürsətdən istifadə edib yazdığı məktubu Rayihəyə versə, daha yaxşıdır.

– Əgər tələsirsənsə, mən səni çox saxlamaram, Rayihə, ancaq xahiş edirəm... – Zeynal əlini pencəyinin döş cibinə salıb üstü yazılmış bir zərf çıxartdı. – Al, bu məktubu oxu, cavabını sonra dillə də olsa mənə deyərsən. – Zeynal qorxurmuş kimi zərfi ehtiyatla ona uzatdı. – Ancaq Rayihə, xahiş edirəm, axıra qədər, diqqətlə oxu. Çalış bunu heç kəs bilməsin, nə sözün olsa...

– Mənim sözüm odur ki... – deyə Rayihə hirslə danışmağa başladı, – sən gəl nə öz vaxtını al, nə də məni narahat elə!

O, məktubu Zeynalın əlindən alıb acıqla körpüdən aşağı tulladı və heç bir cavab gözləmədən dönüb getdi. Getdi və bir dəfə də olsun dala baxmadı...

## 4

Kənd hələ yatmamışdı. Tək-tək evlərin pəncərəsindən işıq gəlirdi. Gecə aydın, sakit və sərin idi. Artıq ay kəndin üstündə nazlanırdı. Səmada ağır-ağır hərəkət edən bəyaz buludlar dəryada üzən nəhəng buz parçalarını xatırladırdı.

Arabir bulud karvanları ayın qabağını tutduqca, İşıqlı kəndinə qaranlıq çökür, bulud çəkildikdən sonra isə yenə yerə nur səpələnirdi.

Zeynal, məhəccərə söykənib körpünün üstündə dayanmışdı. O, Rayihənin yaxın həyətlərdən birinə girdiyini və azacıq sonra pəncərələrindən işığın kəsildiyini görəndə köksünü ötürdü:

– Yuxun şirin olsun, – deyə yavaşcadan pıçıldadı.

Arx yaşıl otları yalayaraq şırıltı ilə axır, ara vermədən axıb gedirdi. Haradasa radioda həzin bir musiqi çalınır, səs dalğa-dalğa lap uzaqlara yayılırdı.

Xanəndənin saf və məlahətli səsi sanki insanın ürəyindən keçir, canına sərinlik və rahatlıq süzülürdü:

"Hər gecəm oldu kədər, qüssə, fəlakət sənsiz,
Hər nəfəs çəkdim hədər getdi o saət sənsiz..."

Rayihə bəlkə də çoxdan yatmışdı. Zeynal isə gözlərini cilvələnən sulardan ayırmadan mahnını dinləyir və fikirləşirdi. Yenə əvvəlki vaxt, iki il bundan əvvəlki vaxt olsaydı, Zeynal Rayihəni unudardı. Bu, çətin də olsa, o buna çalışardı. İndi isə artıq gec idi. Zeynalın məhəbbətindən Rayihənin ürəyinə bir xal belə düşməmişdisə də, Rayihənin əksi əbədilik onun qəlbində həkk olunmuşdu. Bunu gizlətmək heç cür mümkün deyildi: Zeynal Rayihəni sevirdi. Təmiz ürəklə, odlu məhəbbətlə sevirdi!

O, Reyhanlı dərədən İşıqlı kəndinə qədər olan üç kilometrlik yolu, ancaq Rayihəni görmək üçün dəfələrlə gedib-gəlmişdi.

Düzdür, elə Zeynalgilin öz kəndlərində də gözəl-göyçək, ağıllı qızlar az deyildi. Ancaq Zeynalın gözü Rayihəni görmüş, könlü onu sevmişdi. Rayihə öz görkəmilə, şən və gülərüzlü olmasilə bütün kənd qızlarından fərqlənirdi. Onun titrək, məlahətli səsindəki musiqiyə bənzər ahəngi bəlkə də başqaları duymurdu. Lakin Zeynal bu səsdə nəsə bir doğmalıq, bir məhəbbət və sözlə deyilməsi mümkün olmayan bir gözəllik hiss edirdi.

Zeynal bu kəndə elə bağlanmışdı ki, onun yaşıl ağaclar arasında gizlənmiş kiçik, ağ evləri, yol qırağında iydəlik, Rayihənin, həmişə üstündən keçdiyi ensiz körpü, hər şey, hər şey ona ən əziz, ən doğma olmuşdu.

Zeynala elə gəlirdi ki, əgər İşıqlı kəndindəki bu arxın suyu Rehanlı dərədən keçsəydi, o hər gün bu suda əl-üzünü yuyar, sinəsini isladar, doyunca içər və bundan olmazın ləzzət alardı.

Əlbət ki, Zeynalın Rayihə haqqında nələr düşündüyünü, onun kimi ilk dəfə odlu məhəbbətlə sevən cavanlar daha yaxşı duyarlar...

İki həftə bundan qabaq anası Zeynala: "Oğlum, maşallah daha böyümüsən. Necə deyərlər, ayağın yorğandan çıxır. Mən də qocalmışam. Gərək bir hərəkətə gələsən..." – demişdi. Sonra o, üstüörtülü

sözlərlə Zeynala, öz bacısı qızını almaq istədiyini də bildirmişdi. Zeynal anasını bu fikirdən daşındırmaq istəmişdisə də, onunla açıq danışmağa utanmışdı. O öz sirrini bacısına demişdi. Yəqin ki, bacısı da Zeynalın sözlərini anasına çatdırmışdı. İkinci dəfə anası onunla bu barədə danışanda "ixtiyar səninkidir, oğlum, – demişdi, – kimi sənin xətrin istəsə, mən də ona qaynana olacağam. İstəyir qohum olsun, istəyir yad olsun, bu kənddən, ya başqa yerdən, mənim üçün fərqi yoxdur".

Rayihə isə Zeynalı sona qədər dinləmək belə istəməmişdi...

Artıq kəndin işıqları bir-bir sönür, açıq qapı-pəncərələr örtülürdü. Bayaqdan bəri uzaqlardan gələn musiqi səsi də kəsilmişdi. Gecənin sakitliyini ancaq körpünün altından keçən arxın şırıltısı pozurdu.

Zeynal birdən nə düşündüsə, əlini acıqla havada çırpıb cəld körpüdən uzaqlaşdı. İki saat əvvəl sevinə-sevinə gəldiyi yolları o, köksünü ötürə-ötürə geri qayıtdı.

## 5

Səhər tezdən Rayihəgilin qapısı döyüldü. Mehriban xala həyətdən evə aparmaq istədiyi samovarı yerə qoyub qapıya getdi.

– Ay kimsən?..

Qapının o tərəfindən Möhtərəmin səsi eşidildi:

– Mehriban xala, mənəm...

Möhtərəmin səsində bir həyəcan duyuldu. Bunu Rayihənin anası da hiss etdi.

– Xoş gəlmisən, qızım, bu tezliklə səndən nə əcəb? Xeyir olsun, – deyə Möhtərəm həyətə girən kimi, Mehriban xala sualedici nəzərlərlə ona baxdı.

– Heç, elə Rayihə ilə söhbətə gəldim. Yatıb, oyaqdır?!

Möhtərəm cavab gözləmədən evə tərəf getdi. Mehriban xala, qızın ondan nəsə gizlətdiyini başa düşdüsə də üstünü vurmadı. Samovarı götürüb dəhlizə keçdi.

Qızının axşam evə gec gəldiyini görən Mehriban, bu səhər onu tezdən oyatmağa ürək etməmişdi. Ona görə də samovara özü od salmışdı.

Rəfiqəsilə həmyaş olan Möhtərəm kənddə kitabxana müdirəsi idi. O, yeddinci sinfi qurtaranadək Rayihə ilə birlikdə oxumuş,

onunla möhkəm dost olmuşdu. Bu iki rəfiqənin bir-birindən gizlin sirri olmazdı.

Möhtərəm arıq sifətli, orta boylu, nazik bədənli bir qız idi. Onun sarıya çalan qıvrım saçları həmişə alnından aşağı sallanar, xırda qara gözlərinin üstünə tökülərdi. Zərif yanaqlarının, ensiz qaşlarının və nazik dodaqlarının əksinə olaraq, burnu bir qədər uzun və yaraşıqsız idi. Möhtərəm bu vaxta kimi ona elçi gəlməməsinin səbəbini burnunda da görsə, yenə qızlar arasında "hər gözəlin bir eybi olar", deyə özünə təsəlli verirdi.

O, səhərdən axşamadək kitabxanada olar, işlərini səliqəyə salar və vaxtının çoxunu mütaliəyə sərf edərdi...

Möhtərəm içəri girəndə, Rayihəni çarpayıda yastığa dirsəklənib uzanmış gördü. Rayihə hələ bayaq qapı döyüləndə səsə oyanmışdı.

– Nə var; ay qız, sözlü adama oxşayırsan? – deyə o gözləri gülümsəyən rəfiqəsinə baxdı. – Nə olub?

Möhtərəm ağ örpəyini başından əlilə çiyninə sürüşdürüb çarpayının qırağında oturdu.

– Nigaran qalma, ay qız, bir şey yoxdur, sənə məktub gətirmişəm...

– Məktub? – deyə Rayihə bir az da dikəldi, – kimdən?

Möhtərəm, Mehriban xalanın içəri girəcəyindən ehtiyat edərək, əvvəlcə qapıya tərəf baxıb, sonra əlini yaxasına saldı, çıxardığı zərfi Rayihəyə uzatdı.

– Al, oğlandandır.

Rayihə təəccüb etdi. Zərfi Möhtərəmdən alıb açmaq istəyəndə: "Yəqin yenə Zeynal yazıb göndərib", – deyə düşündü. Sonra acıqlı-acıqlı Möhtərəmə baxıb zərfi onun ətəyinə tulladı.

– Axı sən bunu nə üçün alırsan?! – dedi və sifətinə incik bir ifadə verib, yerinə uzandı.

– Kimdən almışam, ay qız? Mənə bu kağızı Cabir verib.

Rayihə diksinmiş kimi oldu, tez üzünü ona çevirdi.

– Kim? Cabir?

– Bayaq sənəyi götürüb, su doldurmağa arxa getmişdim, – deyə Möhtərəm məsələni yerli-yerində ona danışmağa başladı, – gördüm uzaqdan, Xoşqədəmin oğlu Cabir, əlində kitaba oxşayan ağımtıl bir şey, gülə-gülə mənə tərəf yaxınlaşır. O əndamı yanmış, bu gün iki həftədir kitabxanamızın qiymətli bir kitabını itirib: Anton Pavloviç Çexovun hekayələri, özü də rus dilində. Sevindim, dedim əlbət,

kitabı tapıb. Yaxına gəldim, gördüm yox... kitab deyil, kağıza oxşayır. Dedim, o nədir? Dedi, bunu indicə, işə gələndə arxın qırağından tapdım. Yəqin poçtalyon salıb itirib, üstündə Rayihə bacının adı yazılıb. Al dedi, verərsən ona. Dedim, Cabir, düzünü de, açıb oxumusan, ya yox?! And içdi ki, Möhtərəmin əziz canı üçün oxumamışam. Dedim, bax əgər sonradan bilsəm ki, oxumusan, o yalan deyən dilini kəsərəm! Dedi, istəyirsən lap başımı kəs, oxumamışam! – Möhtərəm nəfəsini dərib, sözünü davam etdirdi: – Dedim, bir açım oxuyum, görüm kimdəndir, məndən gizlin olmayacaq ki... Oxuyam, görəm Zeynal adlı bir oğlandan. Dedim, bıy, başıma xeyir, bu gədə kim ola? Sənəyi elə orada qoyub cumdum bura. Yazıq Cabirciyəz danışa-danışa qaldı...

Möhtərəm yenə bir qədər ara verdikdən sonra Rayihəni dümsükləyərək:

– Bir oxu gör nə yazır, – deyərək zərfi götürüb ona uzatdı. – Başın üçün, Rayihə, bunu yazan oğlan ya şairdir, ya da həkim...

– Daha həkim niyə, ay qız? – deyə Rayihə zərfin içindən məktubu çıxarıb oxumaq istədi.

– Çünki adamın lap ürəyinin...

Bu vaxt Mehriban xala içəri girdi.

Möhtərəmin sözü yarımçıq qaldı. Rayihə məktubu cəld yorğanın altında gizlətdi.

– Çay hazırdır, tez olun, süfrəni salmışam, – deyə Mehriban xala keçib bufetdən qənddanı götürdü. O, qızların susduğunu görcək, bayıra çıxanda gözucu onlara baxdı.

Anası getdikdən sonra Rayihə məktubu çıxarıb tələsik oxumağa başdadı:

“Əziz Rayihə!

Sizə başağrısı verəcəyim üçün əvvəlcədən üzr istəyirəm. Rayihə, bəlkə də siz bu məktubu oxuyub məni danlayacaqsınız. Ancaq, xahiş edirəm, hirslənməyin, axıra qədər oxuyun... (Məktub suda islandığından, bu sözlərdən sonrakı üç-dörd xətt bir-birinə qarışmış və oxunması mümkün olmayacaq bir hala düşmüşdü. “...Mən başqa cür edə bilməzdim...” Rayihə mürəkkəbi kağıza yayılmış sonrakı yazıları oxudu). Neçə dəfə sizi görüb ürəyimi açmaq istədim, ancaq siz mənə qulaq asmadınız. Rayihə, sözüm çox da olsa, bilmirəm nə yazım. Yəqin ki, siz hər şeyi çoxdan bilirsiniz. Ancaq sizi nə qədər sevdiyimi bilmirsiniz. İnanın ki, sizin bu məhəbbətiniz üçün bir

ürək mənə azlıq edir, Rayihə. Mən bəzi adamlar kimi ibarəli sözlərlə məktub yaza bilmirəm. Bu, mənim qıza yazdığım ilk məktubdur. Hələ heç kimə "sevirəm" sözünü deməmişəm. İnanın, Rayihə, əgər siz mənim bu arzumu ürəyimdə qoymasanız, mən özümü rayonumuzda ən xoşbəxt adam hesab edərəm. Rayihə, sizin Bakıya – ikiillik müəllimlər institutuna gedəcəyinizi də bilirəm. Bu bizim arzularımıza heç də mane olmaz, mən sizi gözlərəm..."

Zeynalın məktubu bu sözlərlə qurtarırdı: "...Əgər görüşmək bizə mümkün olsa, mən hər şeyi sizə danışaram...

Hörmətlə əlinizi sıxıb, cavab gözləyirəm.

*Zeynal*".

Rayihə məktubu sinəsinin üstünə qoyub gözlərini tavana zillədi.

Doğrudan da o, Zeynalın barəsində nə qədər insafsızlıq etmişdi! Oğlana bir dəfə də olsun xoş dillə cavab verməmişdi.

Rayihə Zeynalın onu sevdiyini yaxşı bilirdi. Ancaq ona nə deyəydi? Axı Rayihə hələ bu günə kimi bir dəfə də olsun heç kimlə o cür söhbətlər etməmişdi. Hətta o, bu məsələnin anasına çatacağından ehtiyat edərək, öz rəfiqəsi, yaxın dostu Möhtərəmə belə bu barədə bir söz deməmişdi.

– Nə var, fikrə getdin, Rayihə? – deyə Möhtərəmin səsi onu düşüncələrdən ayırdı. – İndi, gəl əyri oturaq, düz danışaq. Bəs belə şey vardısa... bu vaxta kimi məndən niyə gizlədirdin?

Möhtərəm bir an susdu. Sonra arıq sifətinə narazı bir ifadə verib Rayihəyə:

– Utanmaz! – dedi. – Mən səni heç belə bilmirdim.

Rayihə:

– Qoy anam getsin, hər şeyi sənə danışaram, – deyə məktubu dörd qatlayıb balışının altında gizlətdi.

Bu vaxt Mehriban xala pəncərənin şüşəsini döyüb onları səslədi:

– Samovar soyudu, ay qızlar, söhbətiniz nə uzun çəkdi...

Möhtərəmlə Rayihə həyətdə ağ tut ağacının altında salınmış süfrənin qırağına gəldilər.

Mehriban xala o biri uşaqları məktəbə yola saldıqdan sonra özü də xudahafizləşib getdi.

Rayihəgilin bir kiçik otaqdan və mətbəxdən ibarət köhnə evləri vardı.

Hələ Vətən müharibəsindən əvvəl onun atası kənddə təzə ev tikdirmək istəmişdi. Mehriban xala isə ərini bu fikrindən daşındırmışdı:

“Lazım deyil, elə bura yaxşıdır. Arx da evimizə yaxındır. Bir də ata-baba yurdundan ayrılmağa adamın ürəyi gəlmir”, – demişdi.

Mehriban xalanın əri müharibədə həlak olduqdan sonra qadın bütün məhəbbətini uşaqlarına bağlamışdı. İndi onun yaşı əlliyə çatmış, qara birçəklərinə dən düşmüşdü. On ildən artıq idi ki, kolxozda sağıcı işləyirdi. Üç məktəbli uşağın anası olan Mehriban xalanın ev barədə darısqallıq çəkdiyini kənddə hamı bilirdi.

Mehriban xalanın yumru, ətli yanaqları, çatma qaşları, iri ala gözləri, uzun sıx kirpikləri, bir sözlə, qadının sifətindəki bütün cizgilər eynilə Rayihəni xatırladırdı. Onun cavanlığını görmək üçün bircə dəfə qızına baxmaq kifayət idi. Hətta onların səsi də bir-birinə oxşayırdı.

Mehriban xala neçə gün idi ki, qızını şəhərə yola salmaq üçün hazırlıq görürdü. O, Rayihənin Bakıya oxumağa gedəcəyinə ürəkdən sevinirdi. Mehriban xalanın əri kənddə rus dili müəllimi olmuşdu. Onun vəfatından sonra qadın, qızını böyüdüb müəllimlik dərsi oxumağa göndərməyi arzu etmişdi. Elə bil Rayihə də anasının arzusunu ürəyində qoymaq istəməmişdi, özü üçün bu sənəti seçmişdi. Arvad şadlığından nə edəcəyini bilmirdi. Buna görə də o, ikinci gün idi ki, Rayihəni ev işlərini belə görməyə qoymurdu.

Qızlar çay içməyə oturduqdan sonra Rayihə, iki il bundan qabaq xalasıgildən kəndlərinə gələrkən yolda Zeynalla ilk dəfə nə cür görüşdüyündən tutmuş, ta dünən gecə körpü üstə olan əhvalata kimi hər şeyi yerli-yerində rəfiqəsinə nağıl etdi.

– Ay qız, sevir də... Sevməsə durub Reyhanlı dərədən bura piyada gəlməz ki... – deyə Möhtərəm Rayihənin bütün danışıqlarından nəticə çıxardı. – Yaxşı, bəs indi öz aramızdır, bu barədə sənin fikrin nədir?.. Daha məndən də gizlətməyəcəksən ki...

– Mənim bu barədə heç bir fikrim yoxdur!

– Bıy... Elə niyə, ay qız? Bəs sənin insafın hanı? O yazıq oğlanı nigaran nə üçün qoyursan. Düzü, bu kağızı mənə yazsaydılar, mən sənin kimi insafsızlıq eləməzdim. Onu uzaqbaşı iki-üç həftədən artıq süründürməyə ürəyim gəlməzdi. Yaxşı, bəs soruşmaq ayıb olmasın, axı o oğlanın taqsırı nədir? Niyə sevmirsən? Bəlkə bir səbəb var, mən bilmirəm, desənə...

Möhtərəm Zeynalı görməmişdi. Nədənsə məktubu oxuyanda ona elə gəlmişdi ki, bu sözləri yazan mədəni, yaraşıqlı və qanacaqlı bir oğlan olmalıdır. Lakin indi Rayihədən eşitdiyi cavab onu təəccübləndirdi:

– Kifir oğlandır, xoşuma gəlmir, özü də çox kobud adama oxşayır.

Ancaq bu sözlər yenə Möhtərəmi susdura bilmədi:

– Sən də söz danışdın da... İndi o vaxt deyil, ay qız, adamın qara qaş-gözünə aşiq olmurlar. Xasiyyəti yaxşı olsun. Sənəti nədir?

– Bilmirəm.

Rayihənin susduğunu görən Möhtərəm bir az ara verib yenə danışmağa başladı:

– Yaxşı, özün deyirsən ki, Bakıya oxumağa getmişdi, bir də iki ildən sonra qayıtdı. Yəqin ki, ikiillik müəllimlər institutunu qurtarıb da. Daha bu bilmirəm nədir?

Möhtərəm çox götür-qoy etdi. Lakin heç bir qərara gələ bilmədiklərini görüb ayağa qalxdı.

– Durum gedim, kitabxananı açım. İndi oxucularımın gələn vaxtıdır. Bu məktəb uşaqları elə öyrəniblər ki, səhər zəng çalınmamışdan qabaq, əvvəl gərək bir kitabxanaya gəlsinlər, sonra dərsə getsinlər. Ancaq o Xoşqədəmin oğlu altıbarmaq Cabir lap qanımı qaraldıb. Qırılmış iki həftədir kitabxanamızın qiymətli bir kitabını itirib: Anton Pavloviç Çexovun hekayələri, özü də rus dilində...

Möhtərəm getdikdən sonra, Rayihə evə keçdi. Balışın altından məktubu çıxarıb bir də oxudu.

– Yox, mən onu sevə bilmərəm! – deyib kağızı əzik-üzük edərək yerə çırpdı və üzüqoylu çarpayıya yıxıldı.

Neçə ay idi ki, İşıqlı kəndinin qurtaracağında bir-birinə oxşar təzə evlər tikilirdi. Hələ ata-baba vaxtından “samanlıq” deyilən bu yer son illər ərzində öz görkəmini dəyişmiş, xeyli gözəlləşmişdi. Yaz vaxtı arxın suyu kolxozun əkin sahələrinə azlıq etdiyindən, keçən il iki qonşu kəndin köməyilə burada kiçik bir göl düzəldilmişdi. İndi o “samanlıq” dərə öz adını dəyişmiş, kəndin sakinləri arasında Qızıl göl adını almışdı.

Uzaqdan nəhəng dairəvi aynaya oxşayan bu gölün dövrəsində sıra ilə söyüd ağacları əkilmişdi. Öz hüsnünə heyran olan, uzun saçları üzünə dağılmış gözəllər kimi bu söyüdlər də gündüzlər günəşin, gecələr ayın işığında Qızıl göldə əkslərinə baxırdılar. Hərdən meh əsdikcə söyüdlər nazla yellənir, göl cilvələnirdi. Bəzən də yağışdan sonra “qarı nənə örkən çəkir”, Qızıl göl tovuz quşunun lələkləri kimi min rəngə düşürdü... Gecələr təzə evlərin işıqları burada əks edir, göl çılçıraq kimi yanırdı... Son vaxtlar Mehriban da bu gölün kənarında ev tikdirmək fikrinə düşmüşdü.

Bu gün səhər Rayihə arxdan su gətirməyə gedəndə, uzaqdan Qızıl gölün yanında tikilən evlərə baxıb, həsrətlə köksünü ötürdü. "Əcəb gözəlləşib, adam ora baxanda canına sərinlik yayılır, – deyə düşündü. – Görəsən anam dediyini eləyə biləcəkmi?.."

Axşamüstü Rayihəni ötürmək üçün rəfiqələri onlara gəlmişdi. Qızlar həyətdə tut ağacının kölgəsində döşənmiş süfrə qırağında dövrə vuraraq oturmuşdular.

...Qaş qaralanda qızlar Rayihənin şeylərini götürüb evdən çıxdılar...

Bu gün səhər Rayihə pal-paltarını çamadana yığışdıranda Zeynalın əlcəkləri əlinə keçmişdi. İndi qız yol uzunu bu barədə düşünürdü. O, xeyli fikirləşdikdən sonra Möhtərəmin qolundan tutub astadan:

– Möhtərəm, – dedi, – işdir, əgər Zeynalı tapa bilsən, əlcəkləri bizdədir, ona qaytararsan. Özün də heç bir söz deməzsən. Başa düşdünmü? Birdən dilini saxlaya bilməzsən...

– Elə niyə danışırsan, ay qız, hələ bir onu görüm, tanıyım, sonra qalsın danışmağım...

Stansiyaya çatmağa az qalmışdılar ki, Möhtərəm qarşıda bir nəfərin dayandığını görüb ona yaxınlaşdı. Qaranlıqda diqqətlə sifətinə baxdı və sonra:

– Bağışla, qardaş, elə bildim Xoşqədəmin oğlu Cabirsən, – deyə üzr istədi. – Az qalmışdı səninlə kitab davasına başlayam. O qırılmış Cabir üç həftədir kitabxanamızın qiymətli bir kitabını itirib... Anton Pavloviç Çexovun hekayələri, özü də rus dilində. Bağışla...

Möhtərəm oğlandan ayrılıb, qızlara yaxınlaşdı və məsələni gülə-gülə onlara danışdı.

– Bəs o kim idi? – deyə Rayihə ancaq Möhtərəmin eşidə biləcəyi bir səslə soruşdu. Onun səsi titrədi.

– Tanımadım.

...Rayihə, o qaraltının Zeynal olduğunu düşünməkdə yanılmamışdı.

Vağzalda Rayihə Möhtərəmlə görüşüb ayrılanda, onu öpmək bəhanəsilə ağzını qızın qulağına yaxınlaşdırdı:

– Əlcəkləri Zeynala vermə! – dedi. – Qoy hələ qalsın. Başa düşdün?..

– Bıy! Burada başa düşməməli nə var ki? Deyirsən vermə, verməərəm də... İstəyir lap özünü yerə sürtsün...

O gecə qızlar Rayihəni ötürdükdən sonra hamıdan gec stansiyadan çıxan Zeynal olmuşdu...

## 7

Oktyabr ayı özü ilə xoş sərinlik gətirmişdi. Kənd qırağındakı yelpazə kimi yellənən iydə ağacları ətrafa xoş qoxu səpələyirdi. Uzaqlarda, qırmızı od parçası tək yavaş-yavaş boylanan günəş üfüqü qızılı bir rəngə boyamışdı. Səhər yeməyinə hazırlıq görən qızlar, gəlinlər bir-bir həyətlərdən çıxıb, əllərində su qabları arxa tərəf gedirdilər. Bayaqdan ağaclarda civildəşən xırda quşlar, indi kolxoz tarlalarında gurlayan traktorların gurultusundan qorxaraq səslərini kəsmişdilər...

Zeynal bu gün işə gedəndə istər-istəməz yolunu Rayihəgilin evlərinin qabağındakı körpü üstdən saldı. Onsuz da iş yerinə ən yaxın yol buradan idi. Lakin Zeynal, İşıqlı kəndinə təyinat aldıqdan sonra bir dəfə də bu tərəflərdən keçməmişdi. İndi isə, o arxayın idi, Rayihə getmişdi. Zeynalı isə buralarda tanıyan çox az idi. Heç kəs onun nə xəyalla bu arxa, bu körpüyə belə həsrətlə baxdığını anlaya bilməyəcəkdi.

Zeynal gəlib körpünün üstündə dayandı. Arx yenə əvvəlki kimi otların arasilə yavaş-yavaş axıb gedirdi. Lakin otların rəngi solmuş, əvvəlki yaşıllığını itirmişdi. Kəndin bu tərəfində bir sakitlik və kimsəsizlik nəzərə çarpırdı. Elə bil Rayihə gedəndə bu yerlərin səs-küyünü, şənliyini də yığıb özü ilə aparmışdı.

Zeynal burada çox dayana bilmədi, körpüdən uzaqlaşdı, iydə ağaclarının altı ilə uzanan ensiz cığırla iş yerinə tərəf getməyə başladı. Lakin onun ürəyi yenə rahat ola bilmədi. Zeynal bir dəfə arxasında gizləndiyi o iydə ağacını görəndə, elə bil, qəlbinə bir şey toxundu, diksinmiş kimi oldu. Sanki, ağaclar əsdikcə Zeynala o gecəki əhvalatı pıçıldayır, onun yarasını təzələyirdilər...

Zeynal Qızıl göl yanına iş yerinə çatanda öz məyusluğunu gizlətməyə nə qədər çalışdısa da bacarmadı. "Nə var, usta, deyəsən ovqatın təlxdir?" – deyə onunla işləyən cavanlar soruşanda, Zeynalın üzündə süni bir təbəssüm göründü.

– Heç, nə olacaq ki... Sizə elə gəlir, – dedi və üzünü onlardan çevirib işə başladı.

Daşlara çalınan baltaların cingiltisi yaxındakı həyətlərdə əks-səda verirdi.

Zeynal Bakıda fabrik-zavod təhsili məktəbini qurtardıqdan sonra şəhərdə, təcrübəli ustalarla böyük-böyük binaların tikilişində çalışmışdı. İl yarım sonra o, öz rayonlarına təyinat almışdı. Rayonda

qonşuluqda olan üç kənddən birini seçməyi onun öhdəsinə buraxmışdılar. Şübhəsiz ki, o vaxt Zeynal heç düşünmədən İşıqlı kəndində işləməyə razılıq vermişdi. Lakin məsələ sonradan Zeynalın arzu etdiyi kimi olmadı. O burada Rayihə ilə dostlaşıb tez-tez onunla görüşəcəyini fikirləşdiyi halda, hər şey əksinə oldu. Rayihə, onun sevgisini rədd etdi, özü isə oxumağa Bakıya getdi. İndi Zeynal ürəkdən razı olardı ki, İşıqlı kəndindən mümkün qədər uzaq, ən uzaq bir yerə göndərilsin, orada işləsin. Təki tez-tez keçmiş günləri xatırlayıb qəlbi ağrımasın. Lakin artıq gec idi.

Rayihə getdikdən bir ay sonra Zeynal, ona təhkim edilən üç nəfər köməkçisi ilə ikiotaqlı bir ev tikib təhvil vermişdi. Bu gün isə bir həftə idi ki, ikinci binanın bünövrəsini qoymuşdular. Yerdən cəmisi yarım metrə qədər qalxmış daşların düzülüşündən burada üç otaq tikiləcəyini indidən təyin etmək olardı.

Bünövrə qoyulan yerdən azacıq qıraqda taxta qutuda palçıq hazırlayan gödək boylu sarışın bir oğlan, yan-yörəsinə baxmadan dodaqaltı nəsə oxuyurdu. Arabir də gah yanındakı çəlləyin suyundan, gah da kağız kisədəki sementdən qutuya tökərək qarışdırırdı, hazırladığı palçığı təkçarxlı kiçik əl arabasına doldurub divar üstə işləyən Zeynalın yanına aparırdı.

Dülgərlik işlərini görə üçüncü fəhlə isə yerdə yan-yana uzadılmış təzə taxtaları bir-bir götürüb dəzgahın üstünə qoyur və rəndələyirdi. Evin tavanı və döşəməsi üçün ölçülərək yonulmuş taxtaların çoxu indidən hazırlanmışdı.

Heç kim danışmır, hərə öz işini görürdü.

Mehriban xala hər iki-üç gündənbir gəlib ustalara baş çəkir, işin gedişi ilə maraqlanırdı. Bəzən də dadlı yeməklər bişirib nahar vaxtında onlar üçün gətirirdi.

Bu gün də o, anac bir toyuğunu kəsib, ətini elə qızartdığı tava ilə süfrəyə bükərək ustaların yanına gedirdi. Qızıl gölə çatmağa az qalmışdı ki, kəndin poçtalyonu arxadan onu çağırdı.

– Qızından məktub gətirmişəm, Mehriban xala! – dedi.

Qadın sevincək zərfi alıb, poçtalyona təşəkkür etdi:

– Sağ ol, oğlum, sənin xəcalətindən toyunda çıxacağam, – deyib ustaların yanına gəldi. O, əlindəki bağlamanı Zeynalın yanında daşların üstünə qoydu.

– İşiniz irəli, ay oğlanlarım!..

Mehriban xalanın tanış səsini eşidən ustalar, işdən əl saxlayıb başlarını qaldırdılar:

– Yenə nə zəhmət çəkmisən, ay xala? – deyə sarışın oğlan dilləndi.

– Elə bir şey deyil, oğlum, nahara sizin üçün bir az toyuq əti qızardıb gətirmişəm, soyutmayın, yaxın oturun.

Zeynal hələ ilk dəfə Mehriban xalanı görəndə onun sifətində, gözlərində, hətta səsində belə nəsə özünə bir yaxınlıq duymuşdu. Elə bil bu qadın kiməsə oxşayırdı, danışanda kiminsə səsini xatırladırdı.

Yoldaşlarının süfrə qırağına gəldiyini görən Zeynal da əllərini yuyub onlara yaxınlaşdı. O, ətdən bir tikə götürüb ağzına aparanda Mehriban xala:

– Çörəyinizi yeyin, sonra qızımdan bir məktub gəlib, onu mənim üçün oxuyun. Gözlərim çeşməksiz yaxşı seçmir, – dedi.

Zeynalı elə bil ildırım vurdu. Geniş açılmış gözlərini tez Mehriban xalanın sifətinə zillədi. Tikə Zeynalın boğazında qaldı. O, Mehriban xalanın kim olduğunu ancaq indi bildi. Bu girdə sifət, bu qara qaşlar, bu ala gözlər, bu uzun, sıx kirpiklər, hamısı, hamısı Rayihənin idi! İndi Mehriban xala danışdıqca Zeynal, elə bil, Rayihənin səsini eşidirdi.

– Çörəyini ye, oğlum, qırağa niyə çəkildin? – deyə o, Zeynalın daxilən nələr keçirdiyini bilmədən, bir də Rayihənin səsilə dilləndi.

Zeynal tutulduğunu büruzə verməmək üçün qadının üzünə baxmadan məktubu ondan istədi:

– Ver məktubu oxuyum, – dedi və əlini ona uzatdı. Sonra özü də barmaqlarının əsdiyini görüb, tez əlini geri çəkdi.

Mehriban xala qoynundan kağızı çıxarıb ona verdi. Zeynal zərfin üstündəki yazıları görcək gözləri qaranlıq gətirdi, qəlbi elə şiddətlə və elə həyəcanla döyündü ki, sanki ürəyinə bir-birinin ardınca yumruqlar dəyirdi. Yaxşı ki yoldaşları, Zeynalın bu qəribə hərəkətlərini hiss etmədilər.

Zeynal həyəcanla zərfi açıb kağızı çıxardı.

Eh! O Rayihədən belə bir məktubun gəlməsini nə qədər arzulamışdı! Bunu heç kəs, Zeynaldan başqa heç kəs bilmirdi. Rayihə isə ona nəinki məktub yazmadı, hətta Zeynalın yazdığı kağızı alıb bircə dəfə oxumaq belə istəmədi...

– Niyə susdun, bala? – deyə Mehriban xala onun, hələ də məktubu əlində saxlayaraq, fikirləşdiyini görüb dilləndi, – Oxu, qulağım səndədir.

Zeynal kağızı qatlayıb qadının dizi üstünə qoydu.

– Qızının xəttini mən oxuya bilmirəm, xala, – dedi və cəld ayağa qalxıb Qızıl gölə tərəf addımladı.

Zeynal söyüd ağaclarından birinə söykənib yaxasını açdı. Köynəyinin içinə dolan sərin yel tərləmiş bədəninə bir üşütmə gətirdi. O nə haqda düşündüyünü özü də bilmədən gözlərini suya zillədi. Zeynalın söykəndiyi söyüdün dibində, oturmaq üçün kimsə iri bir daş qoymuşdu. (Kim bilir, bəlkə də elə bu daşın üstündə iki cavan bir-birinə ürəklərini açmış, məhəbbətlərini demişdir?!) Yel əsdikcə, Qızıl göl dalğalanır, xırda ləpələr irəli cumub, sahilin torpağını sığallayaraq geri çəkilirdi. Külək getdikcə şiddətlənirdi. Sanki ləpələr sahildə qoyulmuş bu daşı islatmağa can atırdı. Lakin heç biri ona yetişə bilmir, geri çəkilirdi. Zeynal hələ də gözlərini sudan ayırmadan, bir-birinin ardınca daşın üstünə cuman və ona çatmamış geri qayıdan ləpələrin hərəkətini izləyirdi. Bəli, Zeynalın məhəbbəti də belə idi! Bu dalğalar təkin Zeynal da Rayihəyə yetişməyə çox can atdı. Lakin Rayihənin sahildəki daş kimi möhkəm ürəyinə rəhm gəlmədi.

O gün, Mehriban xala məktubu gənclərdən birinə oxutdurub gedəndən sonra Zeynal nə cür işlədiyini bilmədi.

Deməк, Zeynal, daşlarının üstündə tər axıdıb tikdiyi bu evi, onun bütün ümidlərini boşa çıxaran, məhəbbətini rədd edib, arzularını ürəyində qoyan Rayihə üçün hazırlayırdı?!

Havalar getdikcə soyuqlaşırdı. Artıq evin tikilişi qurtarmaq üzrə idi. Üstü qırmızı kirəmitlə örtülmüş bu binanın divarlarına içəridən əhəng-mala çəkilir, qapı-pəncərələr salınır və döşəmənin taxtaları vurulurdu.

Ustalardan biri ancaq dülgərlik işlərini görürdü. İkinci nəfər isə evin yerdən bir qədər hündürdə olan kandarından həyətə çıxarılmış daş pilləkənə suvaq çəkirdi. Zeynal da o biri usta ilə içəridə işləyirdi.

Evin ortasında qoyulmuş ocağın istisi yenicə malalanmış divarları qurutduqca otaq işıqlanır, adamın üzünə gülümsəyirdi.

Həyətdən Mehriban xalanın səsini eşidən Zeynal, işdən əl saxlayıb qapıya tərəf baxdı. Mehriban xala, bayırda işləyən ustaya evə keçib qızınmağı təklif edirdi. Çox çəkmədi ki, o, kandarda göründü. Mehriban xalanın dalınca da Möhtərəm içəri girdi. O, dər-divara göz gəzdirərək:

– İşiniz irəli, qardaş! – dedi. – Əcəb qəşəng otaqdır!

Zeynal Möhtərəmi o dəqiqə tanıdı. O, bu qızı ilk dəfə klubda Rayihə ilə yanaşı əyləşən görmüşdü. Sonra isə Zeynal, Rayihənin Bakıya yola düşəcəyini eşidib, onu görmək üçün stansiyaya gedəndə də bu qız ona yaxınlaşmışdı.

Möhtərəm isə Zeynalı tək bircə dəfə qaranlıqda gördüyü üçün onu tanımadı.

– Mehriban xala, bax... burada Rayihənin çarpayısını qoyarsan. Burada da onun bəzək stolu olar, – deyə o, indidən evin şeyləri üçün yer ayırırdı. – Yemək stolunu da ortada. Sağlıq olsa, qıza bufet alsan... onu da aşağı başda, küncdə qoyarıq. Onda bura lap gəlin kimi bəzənər.

– Qızım, özü gələr, xətri necə istər, eləcə də evi bəzər, – deyə Mehriban xala əlcəklərini çıxarıb Zeynalın yanında pəncərəyə qoydu, sonra manqala yaxınlaşıb əllərini qızdırmağa başladı: – Yazır ki, ana, Bakıda təzə priyomnik çıxıb, pul göndər, gələndə birini alım, gətirim.

Zeynal bu söhbətləri eşitdikcə ürəyi döyünür, pəncərənin yan divarlarına nəqş vuran əlləri əsirdi. Sanki Möhtərəmlə Mehriban xala bilərəkdən söhbəti uzadır və qəsdən tez-tez Rayihənin adını təkrarlayırdılar.

Zeynal, Mehriban xalanın pəncərəyə qoyduğu əlcəklərin üstünə toz-torpaq töküldüyünü görcək, onları götürmək istəyəndə donub yerində qaldı. Bir an dayanıb diqqətlə bu köhnə əlcəklərə baxdı. Bəli, bu, vaxtilə qarlı bir gündə rayon mərkəzindən kəndə qayıdarkən arabada onun Rayihəyə verdiyi əlcəklər idi!..

Zeynal xəlvəti onları götürüb əllərinə keçirdi. Ona elə gəldi ki, bu əlcəklərin içərisindəki istilik, hələ də Rayihənin kiçik ağ əllərinin hərarətindən qalmışdır.

– Qızın nə yazır, ay Mehriban bacı? – deyə divar ağardan usta gur səslə soruşdu.

Mehriban xala ocağın gözünü qurdalayaraq dedi:

– Yazır ki, əvvəlcə məndən ustalara salam söylə, sonra deyir ki, onların xəcalətindən gəlib özüm çıxacağam. Bu saat deyir, imtahanlarım yaxınlaşır, gecə-gündüz dəftər-kitabla əlləşirəm...

– Mənə də dünən kağızı gəlib, – deyə Möhtərəm əlavə etdi. – Yazır, yay tətili başlayanda kəndə gələcəyəm. O vaxtdan, deyir, Möhtərəm, evin qabağını bağça qayır, mən qayıdanacan orada sarmaşıq ək, qoy qalxıb pəncərələrin qabağını tutsun...

Cavanların Mirzə adlandırdıqları kişi əlindəki uzun dəstəli fırçanı əhəng vedrəsinə batırıb divara çəkdi.

– Nə olar ki... Lap yaxşı! Ancaq, Mehriban bacı, görəsən qızınız gəlib bu evi bəyənəcəkmi?!

Mehriban xalanın əvəzinə Möhtərəm cavab verdi:

– Niyə bəyənmir ki... Elə bəyəm kəndin bu tərəfini gözəlləşdirən sizin tikdiyiniz bu yaraşıqlı evlər deyil?!

Zeynal bu söhbətlərə qarışmadan, onların danışıqlarını dinləyərək işləyirdi.

Əvvəlcə Mehriban xala, sonra da Möhtərəm xudahafizləşib getdilər. Möhtərəmin bayıra çıxmasilə otağa sakitlik çökdü. Sanki bayaqdan quru odunları çırtıltı ilə yanan manqal da sakitləşib söndü. Ancaq Zeynalın məhəbbəti bu gün də yenidən alovlandı...

## 8

O vaxtdan xeyli keçmişdi...

İsti yay günləri idi. Hər tərəf yaşıllıqla, gül-çiçəklə bəzənmişdi.

Mehriban xalagilin Qızıl gölə açılan sarmaşıqlı pəncərəsindən küçəyə musiqi səsi yayılırdı. Rayihənin gəlməsi münasibətilə təzə ev qonaqla dolu idi. Qarşıdakı hündür dağlardan qopub, Qızıl gölün sinəsini oxşayaraq açıq pəncərələrdən evə dolan sərin yel, krujeva pərdələri qanadlandırırdı. Mehriban xala mətbəxdə aş süzürdü. Möhtərəmlə Rayihə isə evə toplaşan qızlarla danışır, gülür və bəzən də zarafatlaşırdı.

Doğrudan da təzə evləri Rayihənin o qədər xoşuna gəlirdi ki, qız sevindiyindən nə edəcəyini bilmirdi. O, gah mətbəxə anasının yanına gedir, gah həyətə enib sarmaşıqlara baxır, gah da binanın dövrəsinə dolanıb dörd tərəfdən ona tamaşa edirdi. Hər şey onun ürəyindən idi. Elə bil ustalar bu evi, bu eyvanı tikəndə Rayihənin bütün istəklərini nəzərə almışdılar. Hələ böyük otaq! Bura o qədər gözəl görünürdü ki, adam baxmaqdan doymurdu. Ev tikilib qurtardıqdan sonra Mehriban xala döşəməni və divarları Zeynala rənglətdirmişdi. Zeynal Mehriban xalanın lap ürəyindən işləmişdi, təcrübəli bir rəssam kimi divarlara elə nəqşlər, elə güllər vurulmuşdu ki, sanki otaqlara bahar gəlmişdi. Lakin Zeynal, bu işinə görə ona verilən haqqı heç vəchlə almaq istəməmişdi. "Elə bil mən də sənin oğlun. Adam da anası üçün pulla işlərmi?" – demişdi. İndi Rayihə qızlarla söhbət etdikcə gözünü divarlardan ayırmırdı. O, geniş pəncərələrin qabağında, yerdən damın qırağına çəkilmiş paralel iplərə dolaşaraq

yuxarı qalxan sarmaşıqlara baxdıqca ürəyi iftixarla, şadlıqla döyünürdü. Rayihə belə bir otaqda yaşamağı nə qədər arzulamışdı! İndi hər şey onun arzu etdiyi kimi idi. Nədənsə Rayihə elə düşünürdü ki, əlindən belə incə, gözəl iş gələn bir ustanın özü də gözəl və incə qəlbli bir adam olmalıdır...

Deyəsən Rayihə öz fikirlərində yanılmırdı. Çünki dünən axşam Möhtərəm də ona evlərini tikən cavan ustanı dönə-dönə tərifləmiş, onun çox yaxşı oğlan olduğunu demişdi.

Bir azdan həmin usta onlara qonaq gələcəkdi. Rayihə ona öz təşəkkürünü, öz minnətdarlığını bildirəcəkdi.

– Möhtərəmi də təbrik edə bilərsən, Rayihə! – deyə evin ortasında açılmış yemək stolu ətrafında oturan qızlardan biri aralığa söz atdı.

Rayihə qaşlarını qaldırıb təəccüblə bir qızlara, bir də Möhtərəmə baxdı:

– Nə münasibətlə?

– Necə yəni nə münasibətlə? Ölmüş bu gün beş gündür nişanlanıb. Heç gör səsini çıxarır? – deyə bayaqkı qız sözünə əlavə etdi.

Rayihə qollarını yanında əyləşmiş Möhtərəmin boynuna dolayıb onun qızarmış yanaqlarından öpdü.

– Təbrik edirəm, ay qız! Bəs mənə niyə yazmamısan? Soruşmaq ayıb olmasın, oğlan kimdir?

– Xoşqədəmin oğlu, – deyə başqa bir qız ona cavab verdi.

Rayihə bir an fikrə getdi.

Sonra üzünü Möhtərəmə tutub maraqla soruşdu:

– Hansı oğlu, ay qız? Axı onun iki oğlu var.

Möhtərəm çiyinlərini oynada-oynada tərs-tərs Rayihəyə baxdı.

– Daha fikrə niyə gedirsən? – dedi. – Cabiri tanımırsan?

– Cabir? – deyə Rayihə təəccüblə soruşdu.

Möhtərəm:

– Bəli, Xoşqədəmin kiçik oğlu, altıbarmaq Cabir. Nə var, təəccüblənirsən? Kimdən əskik oğlandır ki! Söz-sözə qalanda, hələ bir barmağı da o biri oğlanlarınkından artıqdır, – dedi.

Qızlar ucadan qəhqəhə çəkib güldü.

Rayihə, ancaq Möhtərəmə eşitdirmək istəyirmiş kimi, yavaşcadan ona pıçıldadı:

– Demək, məsələ elə o kitabı itirməkdən başlanıb?

Möhtərəm də utancaqlıqla cavab verdi:

– Heç kitabı da itirməyibmiş. Sən demə, bunlar hamısı bəhanə imiş...

Rayihə qızlardan ayrılıb mətbəxə keçdi.

– Ana, xörəyin hazırdırmı? – deyə soruşdu.

Mehriban xala ocağın istisindən tərləmiş yanaqlarını silərək üzünü ona çevirdi.

– Qazan çoxdan dəm çəkib, qızım, ancaq kişi qonaqlarımız gəlib çıxmadı. Bir də şübhələnirəm, deyirəm, bəlkə heç gəlməyəcəklər.

– Axı niyə gəlmirlər ki?

Mehriban xala ağzına tava qoyulmuş iri qazanın üstünü əlindəki dəsmalla örtüb ayağa qalxdı.

– Dörd nəfərdilər. Üçü elə bilirəm gələr. Amma biri, o baş ustaları çox utancaq oğlandır. Nə qədər dedim, dedi ki, mən gələ bilməyəcəyəm. Neçə dəfə əvvəllər də iş üstünə nahar aparmışam, həmişə bir azca yeyib, çəkilib qırağa. Deyirəm şəhərdə oxumuş oğlandır, bəlkə bizim yeməkləri bəyənmir.

Mehriban xalanın qapıya gedib, yola baxdığını görən Rayihə də ona yaxınlaşdı.

– Ana, bu sarmaşıqları əkməkdə çox yaxşı eləmisən, – dedi.

– Bunları mən əkməmişəm, qızım! – deyərək Mehriban xala qızına cavab verdi. – Bunları da o utancaq usta özü əkib.

Rayihə uzun kirpiklərini yuxarı qaldırıb anasına baxdı.

– Usta əkib?

Mehriban xala qızına gizli bir söz deyəcəkmiş kimi, çevrilib ehtiyatla ətrafına baxdı.

– Bəli, deyəsən o əkib, qızım! Bir gün bu bağça-bağı düzəldəndə, gəlib beli əlimdən aldı. "Nə qayırırsan, ana?" – dedi. Dedim, bala, bu yaxınlarda Rayihə Bakıdan gələcək, evin qabağında hələ ağaclıq yoxdur. Qız tapşırıb bura sarmaşıq tumu səpim; o gəlincəyədək boy atıb, aynabəndə kölgə salsın. Beli məndən alıb buranı özü düzəltdi. Bu məhəccəri də o qayırdı. Bir on-on iki gün ancaq keçmişdi ki, gördüm torpağın altından sarmaşıqlar baş qaldırır. Əvvəl ha fikirləşdim ki, bunu kim eləyib, tapa bilmədim. Möhtərəmdən soruşdum, dedi, xəbərim yoxdur. Sonradan başa düşdüm ki, bu da o cavan ustanın işidir...

Rayihə istər-istəməz o gənc ustanı görməyi arzuladı. Axı o kim idi, nə üçün Mehriban xalaya bu qədər yaxşılıq və hörmət etmişdi?!

Rayihə bu anda nədənsə Zeynalı xatırladı. O vaxt Zeynal da ona çox hörmət etmək istəmişdi. Əvəzində isə Rayihə...

O, Bakıya getdikdən sonra Zeynala qarşı göstərdiyi hərəkətləri üçün az peşmançılıq çəkməmişdi. İnstitutda onun rəfiqələri hərəsi

bir oğlanı sevirdi. Hələ onların çoxu Rayihədən də kiçik idi. İndi də Möhtərəm nişanlanmışdı. Ancaq Rayihə bunu, anasından gizli edəcəyi üçün bir xəyanət saymışdı. Həmişə Zeynalı özündən rədd etməyə çalışmışdı. Hər dəfə Zeynal onunla qarşılaşanda qıza elə gəlmişdi ki, bu dəqiqə xəbər anasına çatacaqdır.

Rayihə, Bakıdan gələn günü anasından xəlvəti Zeynalın əlcəklərini axtarmışdı. Qız əlcəkləri tapcaq ürəyinə nə üçünsə bir təsəlli gəlmişdi: "Yaxşı ki, bunları Möhtərəm ona qaytarmayıb" – deyə düşünmüşdü... Lakin daha bu barədə heç kimə, heç bir söz deməmişdi.

İndi Rayihə Zeynalı görsə idi, bəlkə də lap əvvəlcə özü yaxınlaşıb onunla danışardı. Kim bilir, bəlkə o heç də Rayihənin düşündüyü kimi deyil?! Məgər danışmamışdan, dostluq etməmişdən adamı tanımaqmı olar?!

– Gedək, qızım, gedək süfrəni açaq, – deyən anasının səsi onu fikirdən ayırdı. – Deyəsən, daha bunlar gələsi olmadı...

Mehriban xala içəri keçdi. Elə bu zaman evin dalından kişi səsi gəldi:

– Ay Mehriban, qonaq istəmirsən?..

Rayihə, səsindən usta Mirzənin gəldiyini bilib qabağa getdi:

– Buyur, əmi, xoş gəlmisən, – deyə o evin yanına keçəndə, birdən mat qaldı: Mirzə ilə gələn üç qonaqdan biri də Zeynal idi!

Rayihə bu an nə edəcəyini, onlarla nə danışacağını bilmədi. Qaçıb evə girməkmi, yoxsa qonaqları ehtiramla qarşılamaqmı? Qız çaşdığından özünü itirdi.

Zeynal yenə də əvvəllər olduğu kimi durub sakit-sakit Rayihəyə baxdı və sonra başını aşağı salıb, gözlərini yerə dikdi.

– Xoş gəlmisiniz, – deyə Rayihə güclə eşidiləcək bir tərzdə dilləndi və qeyri-ixtiyari olaraq Zeynala baxdı. Zeynal ilk dəfə olaraq bu baxışlarda bir mehribanlıq, bir səmimiyyət duydu. Rayihə, əlini ona uzadanda, Zeynalın dodaqları əsdi:

– Necəsən, Rayihə? – dedi və köksünü ötürdü.

O axşam Rayihə ilə Zeynalın nə danışdığını heç kəs bilməmişdi. Ancaq o biri gecə Möhtərəmlə Cabir "Qızıl göl"ün qırağında, ağac altında qoyduqları daş üstə oturmağa gedəndə, öz yerlərinin tutulmuş olduğunu görüb geri qayıtmışdılar...

*1953*

# GÜLHÜSEYN HÜSEYNOĞLU

(1923)

*Gülhüseyn Hüseynoğlu Masallı rayonunun Mollaoba kəndində doğulmuşdur. 3-4 yaşlarında olarkən ailəsi ilə Bakıya köçmüş, burada orta və ali təhsil almışdır; o, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1952).*

*Əmək fəaliyyətinə ADU-da başlamış, Azərbaycan sovet ədəbiyyatı tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində işləmişdir.*

*G.Hüseynoğlu bədii fəaliyyətə XX əsrin 40-cı illərində başlamışdır. O, Azərbaycan ədəbiyyatında mənsur şeir ustadı kimi tanınır. "Məsələ aydındı..." hekayəsi də daxil olmaqla "Etiraf" kitabının müəllifidir.*

## MƏSƏLƏ AYDINDI...

(*Hekayə*)

Yaşarın atası körpü mühəndisidir. O bu il işinə görə kənddə çox qalacağından, ailəsini də gətirmişdi. İndi Yaşar kənd məktəbində oxuyacaqdı. Üçüncü rüb təzəcə qurtarmışdı. Şagirdləri yaz tətilinə buraxmışdılar.

Yaşar bu cür bağ-bağatlı kənd heç görməmişdi. Bir-birindən gözəl olan mənzərələr yaman xoşuna gəlirdi. Kəndin yaxınlığında böyük meşə vardı. Meşənin gözəlliyini baş-başa vermiş yoğun gövdəli, qollu-budaqlı ağacları, qaya dibindən axan qoşa bulağı seyr edən Yaşarın ağzı açıla qalmışdı. Hələ quşlar!.. Ağacdan-ağaca, budaqdan-budağa qonan quşlar onu lap çaşdırmışdı: "Ay aman, bu qədər də quş olar!.."

– Ata, nə yaxşı biz bu kəndə gəldik. Mənim buralar yaman xoşuma gəlir!..

– Bəs sən nə bilmişdin?!

Böyürtkən kollarının yanından keçərkən Yaşar soruşdu:

– Ata, buraya böyürtkən yeməyə gələrəm, hə?

Atası:

– Əlbəttə, oğlum, niyə gəlmirsən? – dedi. – Buralarda çiyələk də çox olur. Hələ çiyələk yığmağa da gələcəksən...

* * *

Tətil günləri elə tez qurtardı ki, Yaşar onların nə vaxt gəlib keçdiyini belə hiss eləmədi. Səhər durub məktəbə getdi. Beşinci sinif şagirdlərinin oxuduğu otağı axtarıb tapdı. İçəri girəndə oğlanlar başına toplandılar, onu sorğu-suala tutdular. O da dolu kimi üzərinə yağan sualların qabağında özünü itirmədi, bildiyindən cavab verdi. Bakıdan gəldiyi üçün ona dəniz haqqında çox sual verirdilər:

– Dəniz gözəldir?

– Bəs necə!

– Suyu şordur, hə?

– Şordur... Ağzına gedəndə elə bil duzlu su içirsən.

– Dərindir?

– Bəs necə!.. Ağzında dəniz deyirsən ey... Quruya yaxın yerləri dayazdır, bir az ki uzağa getdin, batırsan. Üzməyi bilməsən, işin şuluqdur.

– Sən üzməyi bilirsən?

– Bilirəm.

– Bəxtəvər.

– Aaa... Dayan, dayan!.. Sənin familin Kərimovdur? – yoldaşları içində hamıdan kiçik və arıq görünən Zakir mühüm şey tapmış kimi soruşdu.

– Kərimovdur, Yaşar Kərimov. Necə bəyəm?

– Keçən il məktəblilər arasında üzgüçülükdə birinci yer tutan sənsən?

– Mənəm.

– Bir bax, elə bil məlumat bürosudur. Hər şeydən xəbər verir, – Zakirdən boyca xeyli uca olan Kazım yoldaşlarına göz vura-vura özünü qabağa verdi.

Zakir də o dəqiqə deməyə söz tapdı:

– Sən ağaclara dırmaşıb quşların yuvasını eşələyirsən, mən də qəzetə, jurnala baxıram, təzə xəbərləri bilirəm. “Azərbaycan pioneri” qəzetini oxusaydın, sən də bilərdin.

– Eh, bu bir şey deyil. Hünərin var, mənim kimi ağaca dırmaş, qəzeti nənəm də oxuyar.

– Ağaca mən də çıxa bilirəm. Ancaq yuva dağıtmıram, quşların yumurtalarını götürmürəm.

– Yuvaya əlin çatır ki, yumurtaları da götürəsən?! Paxıllığımı çəkirsən, mən bilirəm.

Kazımın sözünə uşaqlar gülüşdülər. Kazım da şəhərdən gəlmiş təzə şagirdin yanında özünü sındırmamaq üçün onlara qoşuldu, qəhqəhə çəkərək əlini Zakirə uzatdı:

– Çək gəlsin!..

Zakir də var gücüylə əlini onun əlinə çırpdı. Uşaqlar bir az da bərk gülüşdülər. Ara sakitləşəndə Zakir yenə Yaşara müraciət etdi:

– Bu Kazım qəribə oğlandır, özün görəcəksən, ancaq bura gəlməyin nə yaxşı oldu... Üzməyi bizə də öyrədərsən?

Yaşar da fərəhlə cavab verdi:

– Öyrədərəm.

– Eh, bizdə ki dəniz yoxdur, – "Qəribə oğlan" yenə söhbətə qarışıb, özünü göstərmək istədi.

Uşaqlar ona etiraz etdilər:

– Çay ki var.

– Nə olsun ki var...

– Üzməyi öyrənərik. Azdır?!

O da böyük-böyük başını buladı:

– Bircə üzməyimiz çatışmır, onu da öyrənsək, hər işimiz düzələr!..

– Üzməyi öyrənmək lazımdır, – müəllimin təmkinli səsi eşidildi.

Onun nə vaxt içəri girdiyini uşaqlar hiss etməmişdilər. Bircə saniyənin içində hərə öz yerinə qaçdı. Rza müəllim sinfə oturmaq üçün icazə verib, bayaqkı sözünü davam etdirdi:

– Çox şeyi bilmək adama ziyan verməz. Əlbəttə, bütün bunları gündəlik dərsləri hazırlayandan sonra görmək olar.

Üzgüçülük dərnəyinə Kazımdan başqa sinfin bütün oğlanları yazıldı. Yaşar dərnəyin sədri, Zakir onun köməkçisi oldu. Sinif rəhbəri Rza müəllim və idman müəllimi Nuhəddin dərnəyin işinə kömək etməyi boyunlarına götürdülər.

Həftədə bir dəfə, istirahət günündə dərnəyin məşğələsi olurdu. Uşaqlar üzgüçülüyə aid kitablar oxuyur, üzmək qaydalarını öyrənirdilər. Su soyuq olduğundan çimməyə hələlik getmir, tətil günlərini gözləyirdilər. Nəhayət, dərs ili sona çatdı. Məşğələləri çay sahilində aparmağa başladılar. Həmin yay istirahətini kənddə keçirən Rza müəllim də tez-tez çay sahilinə gəlir, şagirdlərinin işi ilə maraqlanırdı.

Bir dəfə o yenə çay sahilinə gələrkən yolda Kazıma rast gəldi. Kazımın nəzərləri ağacların budaqları arasında gəzib-dolaşırdı. Rza müəllim hiss elədi ki, o, acgözlüklə quş yuvası axtarır. Yaxınlaşanda salamlaşdılar. Müəllim soruşdu:

– Dincəlirsən də, Kazım?

– Dincəlirəm, müəllim.

Rza müəllimin sualında eyham vardı. Kazım bunu duysaydı, yəqin müəllimə elə cavab verməzdi.

– Üzgüçülük dərnəyinə də getmədin ki, getmədin. Sözünün üstündə möhkəm durursan.

Kazım dinmədi. Rza müəllim sözünü davam etdirdi:

– Söz yox, Kazım, dərnəyə getmək könüllüdü, Nuhəddin müəllimin sözü olmasın, məcburi deyil. İndi özün bil də. Mən sənə nə deyim?! Tətildəsən, tətil ayları da dincəlmək üçündür, bilirsən.

Kazımın sıxıldığını görən Rza müəllim onu çox saxlamadı:

– Yaxşı, Kazım, mən uşaqların yanına gedirəm, baxım görüm neyləyirlər. Amma çimməli havadır ha!

Ayrıldılar. Müəllim çay sahilinə sarı yollandı. Şagird ağaclar arasına yönəldi.

* * *

Bürkü idi. Yaşar körpü inşaatçılarının yanından gəlirdi. O, meşəyə çatcaq, bir az sərinlənsin deyə kölgədə oturdu. Meşənin xoş ətrini duydu, sərin, ürəyəyatan havasıyla nəfəs aldı, oxuyan quşları dinlədi, dincəldi.

Sonra yenə yoluna davam etdi. Koldan-kola adlayaraq doyunca böyürtkən yedi. Qaralmış əllərini, ağız-burnunu yumaq üçün çaya doğru üz qoydu.

Çay meşənin ayağında idi. Bir az o yanda kəndin ucqar evləri ağarırdı. Yaşar əyilib əllərini yudu, sonra çimmək həvəsiylə paltarını soyundu, suya tullanmaq istəyirdi ki, havanın qaraldığını gördü, başını yuxarı qaldırıb, buludların hərəkətinə diqqət elədi. Hamısı bir yerə komalaşırdı. Bir saniyə keçməmiş göy guruldamağa başladı. Bunun ardınca ildırım çaxdı. Yaşar yağışın qoxusunu duydu. Bədəninə damcılar düşəndə paltarını geydi, çay boyunca üzüyuxarı kəndə doğru qaçmağa başladı. Yolu yarı etməmiş onu güclü yağış tutdu. Yaşar özünü ağacların altına verdi. Birdən haradansa qulağına qarışıq səslər gəldi:

– Köməyə... Kömək!.. Gəlin!..

O, səs gələn tərəfə qaçdı. Yağışın altında bir qədər getmişdi ki, sinif yoldaşlarından ikisi qarşısına çıxdı. Onlar tövşüyə-tövşüyə, həyəcanla:

– Kazım boğulur, – dedilər. – Biz üzə bilmirik. Yoxsa...

Yaşar onların göstərdiyi yerə cumdu. Burada çay burulur və üzüaşağı sürətlə axırdı. Burulğanda su köpüklənirdi. Yaşar Kazımın

suya batıb-çıxdığını gördü, bir göz qırpımında soyunub çaya tullandı, üzüb ona yetişdi, bir neçə təkanla burulğandan çıxartdı. Çay bu yerdə o qədər də enli deyildi. Sahildə irigövdəli qovaq ağacı vardı. Onun iki böyük budağı çayın üzərinə əyilmişdi. Yaşar təkan vura-vura Kazımı qovaq ağacının budaqları altına saldı və qışqırdı:

– Kazım, budaqdan yapış, qorxma, bərk yapış!.. Bərk!..

Ağzına su dolmuş Kazım budaqdan yapışanda, Yaşar ona yuxarı qalxmağa kömək etdi. Elə bu vaxt Rza müəllim, böyük-kiçik, hamı özünü yetirdi.

Kazımı sahilə çıxarıb yoğun gövdəli, qollu-budaqlı qarağacın altına gətirdilər, yerə uzadıb əl-qolunu ovmağa başladılar.

Rza müəllim əhvalatı soruşub öyrəndi: sən demə Zakirgil meşəyə böyürtkən yığmağa gəliblərmiş. Qayıdarkən səs eşidirlər. Səs, bütün gövdəsi ilə çaya doğru əyilmiş nəhəng ağacdan gəlirmiş.

Uşaqlar yaxınlaşanda Kazımın nazik bir budaq üzərində dayandığını görürlər. Ağacda bir neçə gün əvvəl sağsağan bala çıxartmışdı.

Yoldaşlarını görən Kazımın kefi kökəlir:

– Görürsüz də hara çıxmışam... Ancaq, uşaqlar, yuva yaman dərindir, əlim dibinə çatmır...

– Kazım, balalar yazıqdır, götürmə! – Yerdən Zakir qışqırır.

– Elə şey yoxdur. Heç əl çəkərəm?.. Sağsağan balası qəşəng olur, götürəndən sonra hamının paxıllığı tutacaq, görərsiz.

Aşağıdan da birağızdan cavab verirlər:

– İşimiz-gücümüz qurtarmışdı.

– Bura çıxın, bura çıxın, onda danışın... Hə, çıx...

Kazım sözünü qurtarmamış, sol əli ilə yapışdığı budaq qəfildən sınır və o, müvazinətini itirərək guruppultu ilə çayın dərin yerinə düşüb batır. Qalxanda ağzına çoxlu su dolur. Vahimədən özünü itirir, ikinci dəfə batır, qalxır, suyun güclü axını onu üzüaşağı aparır. Zakir xəbər üçün kəndə qaçır. Yoldaşları Yaşara rast gəlirlər.

Yağış dayanmışdı. Kazımın halı yaxşılaşmışdı. Rza müəllim Yaşara təşəkkür etdi, Kazıma isə mənalı-mənalı xeyli baxdı, ancaq bir söz demədi.

* * *

Səhər dərnəyin məşğələsinə gələn uşaqlar Kazımı orda görəndə müəllimləri kimi hərəkət edib, bir söz demədilər. Məsələ aydındı...

*1958*

# ETİRAF

(*Hekayə*)

– Arvad, deyəsən axı bu gecə qocalığımızı boynumuza alası olacayıq, hə?

– Deyəsən, kişi, deyəsən... Ağır da olsa, gərək boynumuza götürək. Başqa əlacımız yoxdur.

Onlar "arvad" və "kişi" sözlərini elə səmimiyyətlə, elə məzəli tələffüz etdilər ki, bu, ikisinin də xoşuna gəldi, gülümsədilər. Gülümsədilər və ilkin görüşürlərmiş kimi diqqətlə, qayğılı nəzərlərlə bir-birinin üzünə baxdılar; sanki nə qədər qocaldıqlarını öyrənməyə çalışdılar.

Onlar Azərbaycan Sənaye İnstitutunda oxuduqları zaman evlənmişdilər. Onda ər beşinci, arvad isə üçüncü kursda idi. Evlənəndən bir il sonra isə bir uşaqları da oldu. Adını Cəlal qoydular. Cəlal gənc ananın mərhum atasının adı idi. Gənclər onun xatirəsinə hörmət nişanəsi olaraq adını uşağa qoydular. İndi bu uşağın iyirmi üç yaşı tamam olurdu. İkicə gün əvvəl isə o, pedaqoji institutu qurtarmışdı. Buna görə də mehriban ər-arvad onun ad günüylə təhsilini başa vurmasını bu axşam qeyd etməyə hazırlaşırdı.

Ər-arvad "qocalıqları" barəsində zarafat edərkən Cəlal gəlib çıxdı, əlindəki narıncı rəngli kitabı anasına uzadıb dedi:

– Səninçün aldım, ana!

Ananın gözləri parıldadı: "Füzuli!.. Lirikamızın allahı..."

Ana sevinclə gülümsədi, ana nəvazişlə əlini kitabın üzərində gəzdirdi və titrək səslə dedi:

– Füzuli? Xoş gəlib səfa gətirmisən!..

– Bəli, Füzulini gördü, yenə hər şey yaddan çıxdı, – deyərək ata oğluna göz vurdu.

– Anam Füzulini çox sevir, ata!

– Oğlum yaxşı bilir mənə nə alır, – ana ərköyüncəsinə ərinə baxıb kitabın vərəqlərindən bir neçəsini tələsik çevirdi. – Bir görün nə yazır, necə yazır, – dedi və böyük şairin "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" misrası ilə başlayan qəzəlini oxumağa başladı.

* * *

Məclisin qızğın çağında ümumin tələbinə görə, əlli beş-altmış yaşlarında görünən qarsaçlı bir kişiyə söz verildi. Bu, Cəlalın, təkcə Cəlalın yox, onun indi stol ətrafında əyləşən tələbə yoldaşlarından bir çoxunun keçmiş orta məktəb müəllimiydi.

– Əzizlərim, bu unudulmaz gecənizdə mənim də danışmağımı xahiş edirsiniz. Etiraz edə bilmirəm. Bilmərəm. Körpə balalarını bəsləyib pərvazlandıran ana quşlar kimi mən də sizi kamala yetirib həyata uçurmuşam. İndi siz özünüz müəllimsiniz. Bir neçə gündən sonra hərəniz respublikamızın bir məktəbində dərs deyəcəksiniz... İndi fikirləşirəm, sizə nə deyim, nə ilə sizi xalqımızın bilik ocaqlarına yola salım.

O, bir anlıq nəfəsini dərib dayandı, məclisə göz gəzdirdi, milçək uçsaydı, səsi eşidilərdi. Nə qədər göz ona zillənmişdi. Hamısı da deyirdi: – "Danışın, müəllim, danışın! Beş ildir ki, söz-söhbətinizi eşitmirik..."

Müəllim ona zillənmiş baxışların altında daha da həvəsləndi, aramla sözünə davam etdi:

– Burada məni şagirdlərimin sevimlisi adlandırdılar. Dedilər ki, mən ögey-doğmalıq eləmədən onlara eyni qayğı ilə yanaşıram, biliklərinə düzgün qiymət verirəm... Düzgün qiymət! Bu, heç bilirsinizmi nə deməkdir, uşaqlar? (Mən sizə yenə "uşaqlar" deyib, müraciət edirəm, unuduram ki, siz artıq müəllimsiniz.) Məncə, bu müəllimin nüfuzu deməkdir!.. Bəli, nüfuzu! Müsaidə etsəydiniz, bir əhvalat danışardım. – O, məclisə sualedici bir nəzər saldı.

– Buyurun, buyurun, müəllim!

– Sizi dinləmək həmişə xoşdur! – yerlərdən səslər eşidildi.

– Müəllim, nəsihətiniz skamya arxasından yenicə durmuş gənclərimiz üçün həyat yollarında ancaq dayaq ola bilər. – Bu sözləri Cəlalın anası dedi. O, əri ilə yanaşı yuxarı başda əyləşmişdi. İkisinin də nəzəri qocaman müəllimdə idi.

– Cavan vaxtlarımdı. Üçüncü ildi müəllimlik edirdim. Onuncu sinfin rəhbəri idim. Uşaqlar xətrimi istəyirdilər. Səkkizinci sinifdən onlara dərs deyirdim, yanlarında hələ bir sözümün iki olmasını görməmişdim. Bu fikirdə idim ki, görmərəm də. Lakin... (Eh, bu "lakin"lər olmasaydı, nə yaxşı olardı!) Dərslər təzəcə başlanmışdı. Sinfimizə özgə məktəbdən qarayanız, arıq, balacaboy bir qız gəldi.

Bir-iki dəfə onu sorğu-suala tutdum, bilikli qıza oxşayırdı. Sonra nədənsə ona fikir vermədim; o mənim diqqətimdən kənarda qaldı, sanki əvvəlki şagirdlərim doğma idi, o ögey.

Bir gün yoxladığım inşa yazılarını uşaqlara paylayırdım. Onların keçirdikləri həyəcanları hiss etməmək mümkün deyildi. Baxışlarında oxuduğum "görən nə qiymət almışam?" sualı ilə hər biri dəftərini alan kimi vərəqləyirdi.

Dəftərləri paylayıb təzəcə yerimə qayıtmışdım ki, gözlərim yeni şagirdimə sataşdı. Onun sifəti qaralmışdı. Köksü aramsız qalxıb-enirdi. Tez-tez gah öz yazısına, gah da yanındakı yoldaşının (bu, sinfin yeganə əlaçısı idi) yazısına baxır, baxdıqca həyəcanlanırdı. Bizim nəzərlərimiz bir-birinə sancılanda o əvvəlcə özünü itirən kimi oldu, qarabuğdayı sifəti qızardı, sonra nə düşündüsə:

– Müəllim! – deyib ayağa durdu. – Mən qiymətimdən narazıyam... Siz mənə düz...

Üstünə necə qışqırdımsa, səsini xırp kəsdi, dərhal oturdu. Bərk hirslənmişdim. Axı mənim verdiyim qiymətə hələ etiraz edən olmamışdı? Dərsin ortalarına yaxın özümü güclə ələ aldım. Hirsim yavaş-yavaş soyuyurdu. Qızın etirazında həqiqət olduğunu duyurdum. Onun yazısına "4" vermişdim. Halbuki çox asanlıqla "5" də vermək olardı. Əlaçımızın isə işi "4"-ə layiq idi, "5" vermişdim. Bu mənim səhvim idi. Əhəmiyyət vermədiyim balacaboy qız bunu yerində tutmuşdu...

Lakin mən səhvimi boynuma alıb düzəltmək əvəzinə, bu qızla düşünüşdüm. Təsəvvür edirsiniz, müəllim şagirdlə düşünüşür. Təəccüb etməyin, sizə olanı danışıram... Görünür o da bunu duymuşdu. Dərslərinə hazır gəlirdi, gücüm ancaq ona çatdırdı ki, "5" əvəzinə "4" verim, o da heç bir söz demirdi. İstəyirdim etiraz eləsin, susurdu, bununla yəqin demək istəyirdi ki, qiymətini aşağı saldığım heç vecinə deyil. Bu etinasızlığı mənə daha çox yer eləyirdi.

Buraxılış imtahanları gəlib çatdı. O, inşa yazısını "5"-ə yazmışdı. Heç bir irad tutmaq mümkün deyildi. Ümidimi şifahi imtahana bağlamışdım. Çox arxayınlıqla bilet götürəndə düşünürdüm: "İndi Füzulidən bir şey düşsə, sənə deyərəm".

O, sualları gözdən keçirən kimi danışmaq istədiyini bildirdi, bu məni və imtahan komissiyasının üzvlərini təəccübləndirsə də, icazə verdik. Onun biletində "Füzulinin "Məni candan usandırdı, cəfadan yar usanmazmı?" misrası ilə başlayan qəzəlinin təhlili" sualının olduğunu biləndə, təəccübüm daha da artdı...

Qız bülbül kimi ötürdü. Əvvəlcə o biri iki sualını danışdı. Mənə elə gəldi ki, qəzəli yaxşı bilmədiyindən axıra saxlamışdır. Lakin o, qəzəli təhlil etməmişdən əvvəl onu əzbər deməyə başlayanda mənim bu təxminim də alt-üst oldu. O, qəzəli necə də rəvan oxuyurdu. Şerin ahənginə, vəzninə necə də riayət edirdi:

Məni candan usandırdı, cəfadan yar usanmazmı?
Fələklər yandı ahimdən, muradım şəmi yanmazmı?..

O, Füzuli sənətinin ecazkar qüdrəti ilə elə bil hamımızı əfsunlamışdı. Mən onun adının qabağından nə zaman "5" yazdığımı bilmədim. Komissiyanın digər üzvləri də ona eyni qiyməti vermişdilər. Sədr qızın əlini sıxıb qiymətini deyəndə o, təvazökarlıqla "sağ olun" deyib, iti gözlərini mənə zillədi. Doğrusu, bu gözlərə düz baxa bilmədim, başımı aşağı dikdim, bəli, mən məğlub olmuşdum. O, biliyi sayəsində buna nail olmuş, məni utandırmışdı. Ölümdən betər hala düşmüşdüm. Məni bu hala salan xudbinliyim idi. Yalnız və yalnız xudbinliyim! Müəllimlik hara, bu xəbis hiss hara!..

Onu da deyim ki, yeni şagirdimin qəzəli məharətlə oxuması məni lap çaşdırmışdı. Axı o qəzəli mən heç onun kimi oxuya bilmirdim. Bu nədir? Mən ki özümü fənnini yaxşı bilən müəllim hesab edirdim, bəs onda bu nə idi? Bəlkə mən öz üzərimdə daha işləmirəm? Bəlkə ilk müvəffəqiyyətlər başımı gicəlləndirmişdir?! Əgər belə deyilsə, niyə şagird qəzəli məndən yaxşı oxusun?..

İmtahanı necə başa vurduğumu bilmirəm. Evə gələn kimi otağıma qapandım. Füzulinin divanını axtarıb tapdım, məlum qəzəli oxumağa başladım. Öz-özümə məəttəl qalmışdım. Heç onunku kimi çıxmır. Mənə nə olmuşdur? Düşünürəm... Qəzəlin əruzun həzəc bəhrinin birinci növündə yazıldığını təyin edirəm: Məfailün, məfailün, məfailün, məfailün.

Sonra aramla, həmin ölçüyə uyğun bir ahənglə oxuyuram, yenə nəsə çatışmır. Onun oxumağı hara, mənimki hara?! Lakin inadımdan dönmürəm, misranı misra dalınca təkrar edirəm... Xülasə, başınızı nə ağrıdım, mən qəzəli ancaq onun kimi oxuya bildiyimə nail olandan sonra paltarlı-paltarlı çarpayıya uzandım. Nə vaxt yuxuya getdiyimi bilmədim.

Onunla bir də buraxılış gecəsində görüşdüm. Qonur gözlərini mənə dikərək mehribancasına salam verdi. Sonra tez də gözünü

aşağı dikdi. Bunun mənasını başa düşürdüm: o mənim vicdan əzabı çəkdiyimi baxışlarımdan hiss etmişdi. Məni pis vəziyyətdə qoymamaq üçün üzümə baxmaqdan çəkinirdi. Mən eyni mehribanlıqla onun salamını aldım. İmtahanda gözəl cavab verdiyi üçün onu ürəkdən təbrik etdim. Haraya daxil olacağı ilə maraqlandım. Cavabını eşidəndə, düzü, təəccübləndim. Çünki bu fikirdə idim ki, o gərək mütləq ədəbiyyatçı olsun. Bunu ona bildirəndə dedi:

– Ədəbiyyatı təkcə ədəbiyyatçılar deyil, hamı bilməlidir, müəllim, hamı onu sevməlidir. Mən də ədəbiyyatı bir oxucu kimi sevirəm. Arzum isə neft mühəndisi olmaqdır.

Ona ürəkdolusu müvəffəqiyyətlər dilədim, səmimiyyətlə əlini sıxdım, ayrıldıq. Lakin mən onu heç vaxt unuda bilmədim. Həmişə şagirdlərimin inşa yazılarını yoxlayanda, onlardan gündəlik dərslərini soruşanda, o gəlib gözlərimin önündə dayandı. Mən də bir daha səhv etməmək, bir daha şagirdlərimin qəlbini incitməmək üçün qiymət verəndə son dərəcə diqqətli oldum. Bir də özümdə olan xudbinlik hissini boğdum, sözün həqiqi mənasında müəllim olmağa çalışdım... İndi məni tərifləyirsiniz. Bunun üçün həmin inadkar şagirdimə borcluyam. Bu sizə qəribə görünməsin, mənə bu nüfuzu qazandıran onun "tənbehi" olmuşdur. İndi iyirmi yeddi il bundan əvvəl həyatımda baş vermiş bu hadisəni ilk dəfə etiraf edib sizə danışmaqda məqsədim odur ki, bundan özünüz üçün bir nəticə çıxarasınız, dərs deyəcəyiniz şagirdlərin biliyinə düzgün qiymət verməyi öyrənəsiniz.

– Müəllim, siz sonralar o qızı heç görmədiniz? – müəllimin oturduğunu görən Cəlal soruşdu.

– Niyə, mən ona tez-tez rast gəlirəm, onun nailiyyətlərini fərəhlə izləyirəm, o indi neft sahəsində görkəmli mütəxəssislərdən biri sayılır.

– O kimdir, müəllim? – Cəlal ikinci dəfə soruşdu.

Müəllim:

– Qoy bu sualın cavabını sənin anan versin, Cəlal! – dedi.

Hamının nəzərləri bir anda Cəlalın anasına doğru çevrildi. Onun qonur gözləri bu qədər baxışların altında istər-istəməz yerə dikildi.

*1959*

## MƏMMƏDRZA AFİYƏT

(1926)

*Məmmədrza Afiyət Qazax şəhərində anadan olmuşdur. Kiçik yaşlarında ailəsi ilə Cənubi Azərbaycanın Mərənd şəhərinə köçdüyündən ilk təhsilini orada, Xaqani adına məktəbdə almışdır. 1942-ci ildə ailə Təbrizə köçmüş, Afiyət burada sovet məktəbində oxumuşdur. 1946-cı ildə Milli Demokratik Hökumət onu Bakı Hərbi Piyada Məktəbinə göndərmişdir, Afiyət bu məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Pedaqoji İnstitutunun hazırlıq şöbəsində təhsil almışdır, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsini bitirmişdir (1953). Əmək fəaliyyətinə jurnalist kimi başlamış, "Azərnəşr"də redaktor, Azərbaycan Demokrat Firqəsi MK-nın orqanı olan "Azərbaycan" qəzetində baş redaktor vəzifələrində çalışmışdır.*

*Ədəbi fəaliyyətə XX əsrin 50-ci illərində başlamışdır. Əsərlərinin mövzusu Cənubi Azərbaycan həyatından alınmışdır. Yazıçının bu cildə daxil edilmiş "Biz yenə də qayıdacağıq!" hekayəsi onun "Alov" kitabından (Bakı, Uşaqgəncnəşr, 1959) götürülmüşdür.*

## BİZ YENƏ DƏ QAYIDACAĞIQ!

(*Hekayə*)

Mişov dağı ilə Sambran dağının arasında yerləşən Mərənd qəsəbəsinin dərdli günlərindən biri idi. Neçə gündən bəri yağmaqda davam edən qar xiyabanları, dar küçə və dərbəndləri doldurmuşdu. Axşamdan qəsəbəyə hücum çəkən külək xiyaban uzunu əkilmiş söyüd ağaclarının çılpaq budaqlarını bir-birinə çırpır, yalquzaq kimi ulayırdı.

Təbiətin amansız hədələrinə baxmayaraq, Mərəndin Xoy xiyabanında böyük bir izdiham var idi. Əmniyyə idarəsinin qarşısında iki böyük maşın durmuşdu. Maşınlar ağzınacan qoca arvad və kişilərlə, balaca uşaq və cavan qız-gəlinlərlə doldurulmuşdu; hərəsində də üç tüfəngli əmniyyə, şoferin yanında isə vəkilbaşılar oturmuşdu. Şimaldan əsən külək maşındakılarla yerdəkilərin vida səslərini, – kişi və qadınların, qız və gəlinlərin hıçqırığını, körpələrin ağlaşmasını – həzin bir xalq kədəri kimi Mərəndin ətrafına yayırdı.

Bunlar kimlərdi?

İranın ən fəlakətli yerlərindən biri olan Bəndərabbasa sürgünə göndərilən bu adamlar azadxahların ailələri idi.

* * *

Maşınlar iki saatdan artıqdı ki, yol gəlirdi. Öz doğma yurdlarından didərgin salınmış günahsız insanların həsrət dolu baxışları geriyə dikilmişdi. Hava getdikcə qaralır, Mərənddən yuxarı qalxdıqca yol çətinləşir və maşınların sürəti azalırdı. Soyuqdan bir-birlərini bərk-bərk qucaqlamış bu fələkzadələrin içərisində körpəsini bağrına basmış cavan bir gəlin də vardı. O, odlu nəfəsi ilə balasını qızdırır, onu soyuqdan qorumaq üçün var qüvvəsini sərf edirdi. Çünki bu körpə Yadigar, daim eşqi ilə çırpındığı və vəsiyyətini əziz saxladığı Muradının yadigarı idi. Fəridə indi bu çovğunda başlarına nə gələcəyini yaddan çıxararaq, hər an Yadigara baxır, onun incə, soyuqdan göyərmiş dodaqlarına, uzun kirpiklərinə, atası Muradı xatırladan çatma qaşlarına, yupyumru çənəsinə nəzər salır, yalnız və yalnız Yadigarı haqqında düşünürdü. Lakin isti kabinkada oturmuş, Üşnu siqarı bir-birinin ucuna calayan vəkilbaşı isə ancaq Fəridə haqqında – bayaq sürgün olunanları maşına doldurarkən rastlaşdığı bu gəlin haqqında fikirləşirdi. Birdən o, şoferə tərəf dönərək:

– Doğrudan da gözəldir! Heç əldən verməli şey deyil, – dedi.

Şofer onu başa düşmədi:

– Cənab vəkilbaşı, nə buyurdunuz? Nə gözəl? Hansı gözəl? Necə yəni "əldən verməli şey deyil"? Mən ki heç nə görmürəm.

– Gədə, sən elə bilirsən yolun üstünə gözəldən, ceyrandan-zaddan töküblər? Ay başa düşdün ha! – deyə vəkilbaşı damarları görünən göyərmiş əllərini bir-birinə sürtdü: – Gədə, yuxarıdadır ey, maşının üstündə!

– Hə, indi bildim, – deyə şofer, çəp Qurbanı başa düşdüyü üçün başını tərpətdi. Sonra da əlavə etdi: – Cənab vəkilbaşı, mən də onu fikirləşirəm ki, hava getdikcə xarablaşır, küləyin şiddəti artır, qorxuram gədikləri qar bassın. Belə olsa, bu gecəni, ya da bir neçə günü Küllüdə qalmalı olacağıq.

Vəkilbaşı bir qədər düşündükdən sonra:

– Əlbəttə, bu tufanda getmək olmaz, ancaq... – deyib dayandı. O, nəyi isə deməyi lazım bilmədiyindən "ancaq" sözündən sonra bir siqar da çıxarıb tüstülətdi. Vəkilbaşı demək istəyirdi ki, bir gecə olar, amma bir neçə gün qalmaq mümkün deyil. Əgər yol açılmasa, səhəri Yam stansiyasına qədər piyada getməlidirlər.

Onlar artıq Küllü stansiyasına çatmışdılar. Maşınlar dayandı, postda duran bir əmniyyə kabinkaya yaxınlaşaraq:

– Gədiklər bağlanmışdır, gedə bilməyəcəksiz, cənab vəkilbaşı, – dedi.

Çəp Qurban kabinkadan düşərək, zəif çıraq işığı gələn evə tərəf yönəldi. Vəkilbaşı tələsik özünü qapıdan içəri saldı. O, mizin arxasında oturmuş qarovul rəisinin qabağında dayanıb, ayaqlarını cütləyərək hərbi təzim etdi.

– Axşamın xeyir olsun, Həsən ağa!

– Xoş görmüşük, ağa Qurban. A kişi, sən hara, bura hara? Deyən, yaman yerdə axşamlamısız!

– Heç demə, Həsən ağa, bilmirəm bu yolu necə gedəcəyik. Zəhrimar dəmir yolu da bağlanmışdır. Özümüzü Yama salsaq, oradan o yana qatarla gedərik.

Çəp Qurban Həsən ağa ilə bir qədər söhbət edəndən sonra, sürgünə gedənləri çox da böyük olmayan bir otağa doldurtdurub, əmniyyələrdən birini də qapıda keşikçi qoydu. Məhbuslar gecəni əmniyyə postunda keçirməli oldular. Otağın pəncərələri həbsxananı xatırladırdı. Dörd pəncərənin hamısına dəmir tor vurulmuşdu. Otağın yuxarı divarındakı balaca taxçada isə onluq bir çıraq yanırdı. Çırağın işığı o qədər zəif idi ki, diqqətlə baxmadan yaxında oturan adamı seçmək olmazdı. Soyuqdan keyimiş uşaqların və qocaların sızıltısı, gəlin və qızların şikayət dolu danışıqları bir-birinə qarışdığından, otaq hər şeydən çox ağır xəstələrin yatdığı bir xəstəxananı andırırdı. Fəridə Yadigarı bərk-bərk qucaqlayaraq, xalqın ağır günlərinə dair söylənmiş bayatılardan birini həzin-həzin deyir, hərdənbir də özünü saxlaya bilməyib hıçqırırdı. Onun yanında bir ağsaqqal kişi oturub divara söykənmişdi. Bu, Polad əmi idi. Polad əmi belə günlərdən çox görmüşdü. Onun başı azadlıq üstündə hələ Xiyabani hərəkatı zamanı nələr, nələr çəkməmişdi! Qoca əlini Fəridənin çiyninə qoydu:

– Qızım, bu qəmli bayatılarla ürəyini sıxma! Yaman günün ömrü az olar. Sən Yadigardan hayan ol! Niyə ağlayırsan? Heç Murad dar ağacının altında ağladımı? Sən də onun arvadı deyilsənmi? Ağlama! Düşmən qabağında acizlik göstərmək bizlərə yaraşmaz!

Fəridə özünü saxlaya bilməyib, başını Polad əminin çiyninə söykədi:

– Polad əmi, canımı üşütmə bürüyür. Məni qorxudan təkcə bu körpədir. Axı o, Muraddan yadigar... – Burada Fəridə özünü saxlaya bilməyib yenə də yavaşca hıçqırdı. Anasının xəfif titrəyişindən ayılan Yadigar, ala gözlərini Fəridəyə dikərək, onun xurmayı qıvrım saçlarına, sıx qaşları altındakı qara, yorğun gözlərinə, yumru, ağ sifətinə baxır, elə bil anasının qəmginliyinin səbəbini bilmək istəyirdi.

* * *

Gecədən xeyli keçməsinə baxmayaraq yeyib-içmiş əmniyyələr qumara oturmuşdular. Otaq tamam tüstü dumanı içərisində idi. Taxtabəndin yuxarı başında döşəkçə üzərində oturaraq tiryək hoqqasını sümürən çəp Qurban zorla görünürdü. Əmniyyələrdən biri qoltuq cibindən çıxartdığı kartı vəkilbaşının qabağına ataraq:

– Qoy leylac bölüşdürsün, – dedi.

Qumarın başlandığını görə Həsən ağa öz otağında olan çırağın gətirilməsini əmr etdi. Çırağı gətirdilər. Otaq bir qədər işıqlandı. Kart bölüşdürülən zaman tək xal çəp Qurbana düşdüyü üçün bankı da o qoydu. Bir neçə dəqiqədən sonra qumar lap qızışdı.

Çəp Qurbanı Mərəndin özündən çox, ətraf kəndlərdə tanıyardılar. Mübaşirlərlə birlikdə kəndlərdən vergi yığmaqda ondan qəddarı yox idi. Qonaq düşdüyü evdə əvvəl içki gətirtdirər, sonra tiryək çəkərdi. Ayağı dəyən kəndi soymasa, geri dönməzdi. Onun gözləri bir qədər əyri olduğundan ona çəp Qurban deyirdilər. Çəp Qurban şəhər qumarbazları içərisində yaxşı qumar oynadığına görə "leylac" adı ilə də məşhurlaşmışdı.

Bu gecə də çəp Qurban qumarda udmuşdu. Kefi daha da saz olsun deyə, vafurun[1] deşiyinə bir noxud boyda tiryək qoyub, oda yaxınlaşdırandan sonra sümürdü. Əmniyyələrdən kimisi uduzduğundan üzüqoylu uzanmış, kimisi pərt olub şinelini çiyninə salaraq otaqda gəzinir, kimisi də məhbuslara baxan keşikçini əvəz etmək vaxtını gözləyirdi. Manqalın başında ancaq çəp Qurbanla Həsən ağa qalmışdı. Tiryək çəkib bir qədər nəşələnəndən sonra çəp Qurban ağzını Həsən ağanın qulağına yaxınlaşdıraraq yavaşca dedi:

– Həsən ağa, yaman dərdə düşmüşəm.

– Allaha şükür, sənə nə olub, kefin saz, damağın çağ, nəyin fikrini çəkirsən?

– Gədə, bu dərdi heç kəsə demək olmaz. Mən indiyəcən heç kimə belə vurulmamışdım. Onu bir dəfə görməklə, indi də əksi gözümün qabağına gələndə ürəyim nanə yarpağı tək əsir.

– Qurban ağa, nə danışırsan? Yuxu-zad görmürsən ki?!

– Bilirsən açığı nə demək istəyirəm?

– Yox, bilmirəm.

– Bu sürgünə gedənlərin içərisində Fəridə adlı gözəl-göyçək bir gəlin var. İstəyirəm onu çağırıb bir az dilxoşluq edəm.

---

[1] V a f u r – tiryək çəkmək üçün hoqqa

– Qurban ağa, indi səni başa düşdüm. Ancaq onu birdən-birə çağırsaq, camaat şübhələnər. Buna yol tapmaq lazımdır. – Həsən ağa bir qədər fikirləşəndən sonra: – Aha, tapdım! Bu cürə eliyək, – dedi.

– Nə cür, Həsən ağa?

– Biz çox vaxt burada düşüb qalan nabələd xanımları qorxudub, bığ yağı almaq, ya da onlardan istifadə eləmək üçün bir istintaq məclisi düzəldirik. Uzun-uzadı sorğu-sual aparırıq, görürsən ki, çox vaxt bir şey çıxır.

– Barakallah, Həsən ağa! Əcəb nəqşə çəkibsən! Amma burda bir şey var.

– O nədi?

– Bilirsən, indi izi itirməkdən ötrü əvvəl məhbuslardan bir neçəsini dindirmək bəhanəsi ilə sənin otağına çağırıb sorğu-sual eliyək. Sonra da Fəridəni gətirtdirək.

– Sən qabağına bir neçə kağız qoyarsan. Guya səhərə yaxındır, hər adamın pərvəndəsini[1] nəzərdən keçirirsən.

– Tamamən doğru buyurursan.

Onlar ayağa durub Həsən ağanın otağına getdilər. “İstintaq” başlandı. Rəisin otağına məhbuslardan bir neçəsi gəlib-gedəndən sonra növbə Fəridəyə çatdı.

Qapıda duran keşikçi:

– Fəridə Kərimi! – deyə çağırdı.

Fəridə mışıl-mışıl yatan körpəsini yanındakı Fatma qarıya verib, rəisin otağına getdi. O, içəri girən kimi çəp Qurban yerindən qalxıb:

– Buyurun, xanım, əyləşin, – deyə ona yer göstərdi.

– Mərhəmətiniz artıq, rəis! Mən sizi eşidirəm, – deyə Fəridə başını dik tutaraq mizin qarşısında dayandı.

– Çox gözəl, xanım. Mən sizi çox saxlamayacağam. Bu şərtlə ki, verdiyim suallara cavab verəsiniz.

– Mən sizi eşidirəm, ağa rəis! Çalışaram ki, cavab verəm.

– Xub, adınız, familiniz və atanızın adı?

– Fəridə Kərimi Əsgər qızı.

– Ərinizin adı nə idi?

– Murad.

– Milli hökumət dövründə nə iş görərdi?

– Fədai başçısı idi.

– Siz onu...

---

[1] Pərvəndə – iş (qovluq)

– Ağa rəis, bağışlayın, sözünüzü kəsirəm. Adamı neçə dəfə sorğu-suala çəkərlər? Məgər siz bunları bilmirsiniz? – deyə Fəridə bir qədər əsəbiləşdi. – Axı bir də gecənin bu vaxtı nə dindirmək?

– Xanım, dedim ki, suallarıma tez cavab verin. Mən sizdən nə soruşsam "bəli" deyin. Hə, bu istintaqdır. Sizin taleyiniz də məndən asılıdır.

– Mən öz taleyimi heç kəsin əlinə vermək fikrində deyiləm! – deyə Fəridə ani olaraq qəzəb dolu gözlərini çəp Qurbana dikdi.

Çəp Qurban Fəridə ilə daha açıq danışmaq üçün Həsən ağaya göz vurdu ki, bayıra çıxsın. Həsən ağa gedəndən sonra vəkilbaşı gülə-gülə Fəridəyə oturmağı bir də təklif etdi. Fəridə yenə də boyun qaçırdı.

– Fəridə xanım, siz məni başa düşürsünüzmü?

– Xeyr.

– Xanım, mən sizi görən kimi huşumu itirmişəm, inanız ki...

– Xeyr, cənab vəkilbaşı, siz səhv edirsiniz. Huşunuzu yox, bəlkə başınızı itirmisiniz!

– Xanım, onu da yəqin bilin ki, əgər siz mənim təklifimlə razılaşmasaz, körpənizi itirmiş olacaqsız!

Fəridə bu an çəp Qurbanın gözlərində bir məstlik və vəhşi ehtirasın qaynadığını gördü. O ürəyində: "Körpənizi itirmiş olacaqsız" – sözlərini bir neçə dəfə təkrar etdi. Birdən dəli kimi bərkdən çığırdı:

– Yox-yox! Heç kəs onu mənim əlimdən ala bilməz!

– Amma bu qorxulu yol, bu soyuq onu sizdən ala bilər.

– Siz soyuqdan özünüzü qorusanız böyük işdir!

– Fəridə xanım, gəlin höcət eləməyin, özünüzə, körpənizə yazığınız gəlsin, – deyə çəp Qurban mizin arxasından durub yavaş-yavaş Fəridəyə tərəf gəldi. O indi yəqin etmişdi ki, xoşluqla Fəridədən heç nə çıxmayacaq. Ona görə də onunla başqa cür danışmaq istəyirdi. Fəridə çəp Qurbanın irəlilədiyini görərək, bir addım geri çəkildi. Vəkilbaşının qısa, qalın qaşlarının altından işıldayan qıyıq gözlərində şəhvət duyulurdu. Acığından zəncir gəmirən çəp Qurbanın qara üzündəki şırımlar da titrəyirdi. O, hiyləgərcəsinə yalvarıcı bir sima aldı.

– Fəridə xanım, gülüm, heç olmasa bir busə!.. – deyə onu qucaqlamaq istədi.

Fəridə çəp Qurbanı var gücü ilə sinəsindən itələyib qapıya sarı qaçdı. Vəkilbaşı gözlənilmədən itələndiyi üçün, dalı-dalı gedib yerə

sərildi. Bu vaxt içəri girən Həsən ağa Fəridəni qapıdaca yaxalayıb qucaqladı. Fəridə çırpınıb onun əlindən çıxdı və ucadan:

– Alçaqlar! – deyə çığırıb yoldaşlarını haraya çağırdı.

Bütün post bir-birinə dəydi. Sürgünə gedənlər Fəridənin qışqırığını eşidərək, salındıqları otağın qapısına hücum çəkib, onun geri qaytarılmasını tələb etdilər. Bu biri otaqda isə Həsən ağa ilə çəp Qurban Fəridəyə yaxınlaşmaq istəyir, qadın da bir küncə qısılmış halda əlinə keçəni onların başına yağdıraraq özünü müdafiə edirdi. Bu vaxt lampa qırıldı. Fəridə, otağa çökən qaranlıqdan istifadə edib qapıya doğru qaçdı. Polad əmi onu qapıda qucaqlayıb otağa saldı. O:

– Qızım, bu əmniyyələrin əlindən cana gəldik, nə qədər çalışdımsa bayıra çıxmağa qoymadılar. Axı, biz əliboş, onlar yaraqlı! Eybi yoxdur, qızım, vaxt gələr əvəzini çıxarıq! – dedi.

Məhbusların hamısı Fəridənin başına yığışmışdı. Onun bədəni hirsindən əsirdi, gözləri yaşarmış, bət-bənizi qaçmışdı; dişlənməkdən qızarmış yerlər üzündə aydın görünürdü.

Gecə yarıdan keçmişdi. Hamı yorğunluğu, dərd və kədəri bir anlığa unudaraq yatmışdı. Fərid isə bu faciəli əhvalatı unuda bilmirdi. O, birinci dəfə idi ki, belə bir hadisə ilə üz-üzə gəlirdi. Hələ onu qabaqda nələr gözləyirdi.

Sabah açılmışdı. Gecədən əsən bərk külək hələ də davam edirdi. Oxu daşa dəyən vəkilbaşı səhər it kimi hamını qapırdı. O, qapıda duran keşikçiyə bağırdı:

– Gədə, nə ölüşgəmisən?! Xəbərdar dur! De ki, hazırlaşsınlar!

Əmniyyələr vəkilbaşının əmri ilə sürgünə gedənləri postun qabağındakı kiçik meydançaya yığdılar. Çəp Qurban soyuğun qorxusundan papağının qulaqlarını sallamış və şinelinin boynunu qaldıraraq üstündən də şal bağlamışdı. Bu gün o da bu qorxulu səfər haqqında düşünürdü. Ancaq vəkilbaşı tapşırıq almışdı ki, hər necə olursa olsun bu gün Yamda olmalı və sürgünə gedənləri qatara çatdırmalıdır. Əgər onun əlində ixtiyar olsaydı, bu boranda uzun yolu pay-piyada getməzdi.

Polad əmi bu xəbəri eşidəndə çox qəzəbləndi, vəkilbaşıya yaxınlaşaraq soruşdu:

– Ağa, deyən, bu camaatı piyada aparmaq fikrindəsiz?

– Bəli, piyada gedəcəyik. Camaat məndən artıq deyil ki!..

– Cənab vəkilbaşı, heç olmasa, bu uşaqlara rəhminiz gəlsin. Axı bu çovğunda necə getmək olar?

– Uzun müşərrəf eləmə! Sənin özünə yazığın gəlsin! Çox danışarsan, səni Yama qədər ayaqyalın apartdırram!

Polad əmi ağarmış qalın qaşları altından qəzəblə parlayan gözlərini vəkilbaşıya dikərək, deyəcəyi sözləri uddu.

Hərəkət əmri verildi. Dizə qədər yağmış qarı tapdalaya-tapdalaya çox çətinliklə irəliləyən dəstənin qabağında iki əmniyyə, sağ və solunda dörd əmniyyə, lap arxada isə vəkilbaşı gəlirdi. Onlar Küllü stansiyasından bir kilometr aralanıb, qara bürünmüş təpələrin döşünə çatarkən şiddətlə əsən külək daha da tüğyan etdi. Yol çala-çuxur olduğundan məhbuslar böyük çətinliklə addımlayır, tez-tez yıxılırdılar. Əmniyyələr isə Yama tez çatmaq istədiklərindən tüfəngin qundağı ilə geri qalanları vurub irəli itələyirdilər. Fəridə xəstələnmiş körpəsini Polad əminin verdiyi sırıqlıya bürüyərək, bərk-bərk sinəsinə basıb, dəstənin lap axırında addımlayırdı. Qarşıdan əsən külək qadının yeriməyinə mane olaraq sovurduğu qarı onun gözlərinə doldurur və çarqatının altından çıxan saçlarını dağıdırdı. Fəridə bəzən ayaq saxlayıb nəfəsini dərmək istəyəndə, vəkilbaşı tüfənginin qundağı ilə onu itələyirdi. Qadın getdikcə gücdən düşür, ağır-ağır addımlayaraq dəstədən dala qalırdı. Uşaq da onu yaman əldən-dildən salmışdı. Bu ara geriyə dönüb Fəridəni qar pərdəsi arxasından görə bilməyən yoldaşları və Polad əmi dəstədən ayrılıb qadının harayına çatmaq istərkən yanlarınca gedən əmniyyələr tüfəngin nizəsini onlara göstərir, qabağa getmələrinə işarə edirdilər. Beləliklə, heç kəs kömək əlini Fəridəyə uzada bilmir, əmniyyələr isə vəkilbaşı ilə onun qəsdən geri qaldığını fikirləşirdilər.

Şaxta Yadigarın incə dodaqlarını çatdaq-çatdaq etmiş, bədənini buza döndərmişdi. Körpə qırıq-qırıq zarıyırdı. Fəridənin gözlərindən axan yaş yanaqlarında donub qalmışdı. O birdən geriyə dönüb vəkilbaşıya baxdı. Fəridənin kəskin baxışları bir ox kimi çəp Qurbanın ürəyinə sancıldı: övladının can verməsini öz gözləri ilə görən bir ananın baxışlarındakı məna və intiqam odu yaman dəhşətli olur! Vəkilbaşı tüfəngin qundağını bir də Fəridənin böyrünə basaraq:

– Hə, nə qanlı-qanlı baxırsan? Qabağa yeri! – dedi.

Fəridə yerindəcə donub qalmışdı: Yadigarı onun qucağında getdikcə sozalır, can verirdi. Anaya belə gəldi ki, Muradın ona tapşırdığı Yadigar artıq yoxdur. Yadigar bir quş kimi anasının qucağından uçub harasa, uzaqlara getmişdir. Ana bir daha oğlunun üzünü görməyəcəkdir. O, bütün bu fəlakətlərin kökünün mövcud quruluşda və bu quruluşun mənfur müdafiəçilərində olduğunu indi daha artıq

hiss etdi. Fəridənin qəlbində belə bir duyğu baş qaldırdı ki, gecə onun namusuna toxunmaq istəyən bu alçaq vəkilbaşı, ərini əlindən almış, indi də oğlunu gözləri qabağında öldürmüşdür.

Fəridə Yadigarı yerə qoyaraq bayaqdan gözlərini ona zilləyib duran vəkilbaşının üstünə atıldı. Vəkilbaşı Fəridənin gözlənilməz zərbəsindən ayaq üstə dayana bilməyib yıxıldı. Onlar təpədən dığırlanıb aşağıdakı çalaya düşdülər. Fəridə çəp Qurbanın tüfəngini əlindən qapıb aldı və qundağı ilə onun təpəsinə-təpəsinə vurdu. Vəkilbaşı huşunu itirdi. Fəridə bütün gücünü biləklərinə toplayaraq, barmaqlarını vəkilbaşının boğazına keçirtdi. Vəkilbaşının gözləri hədəqədən çıxdı, üzündəki qırışıqlar daha da dərinləşdi, dodaqları və bütün sifəti qapqara qaraldı. O, qəzəbli bir pələngin pəncəsində didilib parçalandı. Fəridə ömründə ilk dəfə idi ki, düşməndən belə bir intiqam alırdı. O, ilk dəfə idi ki, belə bir dəhşətli ölümün şahidi olurdu. Qadının bərk-bərk döyünən ürəyinə bir qorxu, gözlərinə qatı bir qaranlıq çökdü, ayaq üstdə dura bilməyib səndələdi. Elə bu vaxt Muradla oğlu gözləri qarşısında dayandı. Ana körpəsini xatırlayan kimi cəld dikəlib yüyürdü. Təpənin döşündə qalmış Yadigarın ağlamaq səsini eşidərkən sevincindən nə edəcəyini bilmədi.

Onun: “Yadigar! Oğlum!” – deyə çığırması bir anlığa bütün ətrafa yayıldı. Ananın ürəyindən qopan bu səs bayaqdan hücum çəkən küləyin elə bil qarşısını aldı, ətrafı bürüməkdə olan qaranlıq elə bil çəkildi. Fəridə hündür təpəyə çıxdı, indi Yadigarını bağrına basmış ananın durduğu yerdən Küllü kəndi, ondan aşağıda isə Mərənd qəsəbəsi görünürdü. Fəridə son dəfə öz doğma elini, vətənini seyr etdi. Ağ pərdəyə bürünmüş Mərənd, qucağında yaşa dolduğu bu qəsəbə, tək-tük ağarıb seçilən bu evlər ona nə qədər də doğma gəlirdi! Öz vətəni ilə axırıncı dəfə vidalaşdığı üçün qadının gözlərindən yaş axırdı. Lakin bu həsrət dolu gözlərdə bir ümid var idi. Fəridə iki yolun ayrıcında dayanmışdı. O, geri dönə bilməzdi! Fəridə Yadigarı əlləri üstə yuxarı qaldıraraq:

– Əlvida, doğma Mərənd! Əlvida, ana Vətən! Biz uzaqlara getsək də, sürgünlərə göndərilsək də, həmişə sənin eşqinlə yaşayacağıq! Biz harada olsaq son damla qanımıza qədər sənin uğrunda vuruşub, yenə də sənin doğma qoynuna qayıdacağıq! Əlvida, ana yurdum! – deyib başqa bir səmtə üz qoydu.

*mart, 1956*

# VİDADİ BABANLI

(1927)

*Vidadi Babanlı Qazax rayonunun Şıxlı kəndində müəllim ailəsində doğulmuşdur. Həmin kənddə orta məktəbi bitirmiş, sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində (1944-1949), Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunun aspiranturasında (1952-1954) təhsil almışdır.*

*Əmək fəaliyyətinə universiteti bitirdikdən sonra başlamış, Sabirabad şəhər orta məktəbində müəllim (1949-1950), "Azərbaycan müəllimi" qəzeti redaksiyasında ədəbi işçi (1950-1951), "Ədəbiyyat qəzeti" redaksiyasında ədəbi işçi, şöbə müdiri (1954-1960), Sumqayıt şəhərində fəhlə yataqxanasında tərbiyəçi (1960-1961), "Azərbaycan" jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri (1961-1968), C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbəsində baş redaktor əvəzi (1974-1976), "Yazıçı" nəşriyyatında baş redaktor müavini (1978-1981) işləmişdir.*

*Bədii fəaliyyətə XX əsrin ortalarında şeir yazmaqla başlasa da, əsasən, nasir kimi tanınmışdır. Onun "Vicdan susanda", "Müqəddəs ocaq", "Gəlin" kimi romanları oxucular arasında dərin rəğbət qazanmışdır. Yazıçının bu cildə daxil edilən "Əmir dayının azarı" hekayəsi də daxil olmaqla "Tanışlarım və dostlarım" kitabından (B., Uşaqgəncnəşr, 1961) götürülmüşdür.*

## ƏMİR DAYININ AZARI

(*Hekayə*)

Gözümü açandan qonşumuz Əmir dayını məsul vəzifələrdə görmüşdüm. Balaca boylu, gülər üzlü bu adamın qohum-qonşu arasında pisliyini danışan, giley-güzarını eləyən tapılmazdı. Harada sözü düşsə hamı bir ağızdan: "Halal, tamahı özündə adamdır", – deyərdi.

Əmir dayının xətrini atam da çox istəyirdi. Hərdən evimizdə ondan söhbət düşəndə:

– Əmir mənim dostum, qapıbir qonşum olduğu üçün demirəm. Onun xasiyyətdə adamı anası bircə doğub. Eləsi bir də dünyaya gəlməz, çox yaxşı adamdır, – deyib Əmir dayını ağızdolusu təriflər,

sonra bir anlığa susub aram-aram əlavə edərdi: – Yaxşılığını sən elə ondan gör ki, heç vəzifəsiz, qulluqsuz qalmır. Bu vəzifədən götürəndə də tez aparıb qoyurlar o birisinə. Daha bir para adamlar kimi qolundan tutub biabırçılıqla atmırlar bayıra. Təmizliyinə, halallığına görə həmişə hörmətini saxlayırlar.

Əmir dayının yolu bizim həyətdən idi. O, səhər işə gedəndə, axşam işdən qayıdanda eyvanımızın qarşısında iki-üç dəqiqə ayaq saxlar, atamla salamlaşıb, anamdan hal-əhval tutar, sonra yoluna davam edərdi. Hər həftənin axırıncı günü isə işdən qayıdıb birbaş bizə gələr, təklif gözləmədən keçib eyvanda qoyduğumuz uzun yemək stolunun arxasında əyləşər, axşam sərinində anamın təzəcə dəmlədiyi xoş ətirli pürrəng çaydan tər tökə-tökə içər (o, anamın çayını çox bəyənərdi), olmuşdan-olacaqdan danışar, atamla bir-iki əl nərd atar, gün batıb hava lap qaralanda durub evinə gedərdi.

Amma bir dəfə kişi işdən qayıdanda əhvalını çox pərişan gördük. Ayaq saxlayıb bizə salam verməməyi bir yana dursun, başını qaldırıb heç üzümüzə də baxmadı. Təəccüb elədik. Olmayan iş! Görəsən nə hadisə üz verib ki, Əmir dayı salam-kalamını bizdən əsirgəyir?!

Atam səbir eləyə bilmədi.

– Axşamın xeyir, ay Əmir! Kefin niyə yoxdur? Xəstələnib-eləməmisən? – deyə arxadan onu səslədi.

Əmir dayı cavab vermədi. Ağır-ağır başını tərpədib, yoluna davam etdi. Atam heyrət içində gözlərini onun dalınca zilləyib qaldı. Həyətdəki sıx meyvə ağaclarının arası ilə qıvrılan cığırla ayaqlarını zorla sürüyən kefsiz qonşusunu baxışları ilə düz evinə qədər ötürüb təəssüflə dilləndi:

– Kişi xəstələnib.

Əmir dayı doğrudan da xəstəyə oxşayırdı. Həmişə qəddini düz tutub yeriyən bu gümrah kişinin beli koğa kimi əyilmiş, xırdaca başı boyunluğu qaldırılmış pencəyinin içində az qala itib-batmışdı. Onsuz da boydan balaca olan bu adam acı alma kimi bürüşüb, daha da balacalanmışdı.

Atam içəridə çay-çörək hazırlayan anamı çağırdı:

– Əmir burdan çox kefsiz ötdü. Get gör kişinin başına nə gəlib?

Anam tez qonşuya qaçdı.

Atam eyvanda narahat-narahat xeyli gəzindi, tez-tez cığıra baxdı. Anam görünmürdü.

– Anan da qayıtmadı. Görünür, qonşunun başında bir qaranlıq var. Dur gedək, – deyə atam daha dözməyib cəld həyətə düşdü.

Mən də aşağı endim, atamla bərabərləşəndə, anam qabağımıza çıxdı. O, həyəcanlı idi. Bizə yaxınlaşan kimi dedi:

– Tez gedin, Əmirin vəziyyəti ağırdır!

Atama elə hay gərəkmiş anamı axıra qədər dinləməyib yüyürdü. Biz dəhlizə girəndə Əmir dayının arvadı içəridən üstümüzə atıldı. Dili-dodağı təpimiş halda səsi titrəyə-titrəyə yalvardı:

– A başınıza dönüm, bir kömək eləyin. Bu nə işdi bizim başımıza gəldi? Kişi lal-kar olub, düşüb yatağa. Yüz söz soruşursan, birinə zornan cavab verir. Rəngi də qapqara, kömür kimi. Heç belə də xəstəlik olar? Onu ki mən səhər işə sappasağ yola salmışdım... Oy, ay Allah, bu nə işdi sən bizi saldın. Balanın qadası mənə gəlsin, Məhərrəm qardaş, durma, qaç həkimə. Mənim qılçalarım tutulub...

Atam bilmədi neyləsin. İçəri girib əvvəlcə xəstəyə baş çəksin, yoxsa elə burdan geri dönüb həkimə qaçsın. O hələ bir qərara gəlməmişdi ki, açıq qapıdan Əmir dayının zarıncı səsi eşidildi:

– Lazım deyil, heç nə lazım deyil! Mənim dərdimə yüz təbib yığıla, əlac eləyə bilməz!

Atam özünü tez qonşusunun yanına yetirdi. Evin yuxarı başında, yumşaq yorğan-döşəkli dəmir çarpayıda uzanıb üzünü əlləri arasında gizlətmiş Əmir dayının rəngi-ruhu qapqara qaralmışdı.

– Olmasın azar, ay Əmir! Bu nə işdir? – deyə atam onun biləyindən tutdu, nəbzini yoxladı.

Əmir dayı xeyli dillənmədi. Kəsik-kəsik inildəyib, dərindən nəfəs aldı, sonra zəif səslə:

– Oturun! – dedi.

Biz küncdən stul götürüb çarpayının böyründə əyləşdik. Əmir dayı əllərini üzündən çəkib astaca sağ böyrü üstə çevrildi. Baxışlarından hədsiz məyusluq oxunan qara muncuq gözlərini atamın üzünə dikib sızıldadı:

– Məhərrəm, sən dünya görmüş adamsan, eşidibsənmi günahı olmayan bir adamı işdən çıxartsınlar?

– Yox, Əmir, eşitməmişəm. Təqsirsiz adamı heç kim işdən çıxarda bilməz. İndiki zamanda belə şey olmaz.

– Hı, olmaz!.. – Əmir dayı qanı qaçmış dodaqlarının ucunda zorla gülümsündü. – Eh, Məhərrəm, sən görən babalar çoxdan ölüb. Məni... məni işdən qovdular.

– Necəəə?

Atam bu bir kəlməni elə hündürdən, elə heyrətlə söylədi ki, onun səsi, mən bir yana, heç Əmir dayının özünə də xoş gəlmədi. O, üz-gözünü turşudub:

– Elə eşitdiyin kimi! – dedi.

Atamın matı-qutu qurumuşdu. O, bir müddət söz tapmayıb gözlərini döydü. Axırda yenə heyrətlə soruşdu:

– Necə yəni “qovdular”? Səbəb nə oldu?

– Səbəb, elə səbəbsizlik! – Əmir dayı qurumuş dodaqlarını dili ilə yaşlayıb, danışmağa əziyyət çəkirmiş kimi sir-sifətini bir az da turşutdu. – Eh, ay Məhərrəm, bir adamın ki, qəsdinə durub işdən çıxartmaq istəsinlər, ona pulan-quşqun tapıb düzəltməyə nə var? Görürlər ki, heç bir cəhətdən ləkəli işim yoxdur, başlayırlar nalamıxa döyməyə ki, daha qocalıbsan, rəhbərliyi bacarmırsan, işçilərə nəzarət eləyə bilmirsən, mıxlanıb qalırsan bir yerdə. Təsərrüfatla, adamlarla canlı əlaqən olmur, işi ləngidirsən. Daha bəsdir, get dincəl. Təzə, ali təhsilli mütəxəssislərimiz var. Məsul vəzifələrdə qoy indi də onlar işləsinlər...

– Bəs sən nə iş görəsən?

– Mən də... – Əmir dayı sözünün dalını gətirə bilmədi. Qəhər kişini boğdu. Bir-iki dəfə udqunub ağlamsınmış halda dedi: – Mən də heç nə... Dedilər: “İndi də get yüngül işlərdə çalış. Onsuz da bu gün-sabah təqaüdə çıxacaqsan. Bildiyindən, bacarığından cavanların işinə kömək elə, məsləhət ver...” Guya Əmir daha ölüb, meyitini yerdən götürən gərək!

Əmir dayı burda yanıqlı-yanıqlı köksünü ötürdü, əlləri ilə üzünü yenidən qapayıb susdu. Atam isə dərin fikrə getmişdi. Bilmirdi nə desin, qonşusuna necə ürək-dirək versin. Nəhayət o, dilə gəlib məsləhət gördü ki, qəm eləməsin, düzələn işdir. Yorğan-döşəyə düşüb yatmaqdansa, sabahdan qalxıb geyinsin, lazımi idarələrə gedib danışsın, haqqını tələb eləsin.

Əmir dayı atamın məsləhətindən çıxmadı. O biri gün qalxıb geyindi və “haqqını” tələb etməyə getdi. Bu get-gəl bir neçə gün davam etdi. Bir axşam o, yenə həyətimizdə ayaq saxladı, atamla sevinə-sevinə salamlaşdı. Sonra köhnə qayda üzrə, eyvanımıza qalxıb üzünü anama tutdu:

– Ay Zəhra bacı, babanın ehsanına, mənə bir stəkan məxməri çay ver, neçə vaxtdır sənin çayını içmirəm, – deyib ərklə stolun arxasına keçdi, atamla üz-üzə əyləşdi.

Əmir dayının bu gümrahlığı atamı sevindirdi.

– Allaha şükür olsun, ay Əmir, deyəsən işin düzəlib, yenə üzün gülür?

– Oğlun sağ olsun, Məhərrəm, axır ki, daşdan bir çarpanaq qopartdım.

– Yenə öz yerinə?

– Xeyr, əşi!.. Tikiş artelinə müdir göndərdilər. Bu gün gedib idarəni təhvil almışam. Sabahdan işə başlayacağam. Hə, sən bir o nərdini bəri elə, bir-iki əl ataq. Çoxdandır dərsini vermirəm.

Mən qaçıb içəridən nərdtaxtanı gətirdim. Əmir dayı taxtanı açıb daşları düzə-düzə söhbətinə davam etdi:

– Hələ sənə nədən danışım. Axırda mənə nə desələr yaxşıdır? Bilməzsən, "durub-toxtamış adamsan. Hər gün gəlib-getməyinə qıymırıq. Hörmət eləyib sənə bir də məsul vəzifə veririk. İşində möhkəm ol. Əvvəlki səhvlərini bir də təkrar eləsən, bizdən küsmə..."

– Yaxşı, sən nə dedin?

– Mən? Heç nə. Razılıq eləyib çıxdım bayıra. Hə, əlində oynunu oyna, başın söhbətə qarışmasın. At görək!

Atam zərin birini götürüb taxtanın üstü ilə astaca diyirlədi.

– Yek!

– Ee... qonşu, elə birinci əldən korladın. Zərroo! – Əmir dayı da zərini atdı. – Şeş! Gördün? Mənimki bu gün elə şeşdən gətirib. Di möhkəm dur!

O, zərin hər ikisini götürüb gödək barmaqlarının uclarında qoşaladı və yenidən atdı. Oyun qızışdı. Lakin Əmir dayı sözünə ara vermədi. Gözü zərdə, əli işdə, ağzı isə söhbətdə oldu.

– Hə, Məhərrəm, bilirəm, üzdə mənə bir söz deməsən də ürəyində tikiş artelinə müdir getməyimdən narazısan. Əslinə baxsan, elə mənim özüm də bu işə müştəri deyildim. İndiyə kimi yaxşı-yaxşı vəzifələrdə çalışıb, birdən-birə artel müdirliyinə enmək, əlbəttə, ağırdır. Amma neyləyəsən? Əlacın nədir? Gedib başqasının əlinin altında sıravi bir işçi olmaqdansa, elə bu məsləhətdir. Özün bilirsən, mənim səndən gizlin bir sirrim olmayıb. Mən vəzifəni heç vaxt gəlir üçün, qazanc üçün gəzməmişəm. Yaxşı vəzifələrdə olanda da ayağımı yorğanıma görə uzatmışam. Dövlətin verdiyi halalca maaşla dolanmışam. Nə bir kəsdən rüşvət almışam, nə də bir kəsə rüşvət vermişəm. Fikrim-zikrim bir o olub ki, arxasında əyləşməyə

stolum, üstündə telefonum, cibimdə möhürüm olsun, bir də buyurub-çağırmağa beş-on işçim... Vəssalam! Çünki elə əvvəldən bu stol zəhrimar məni tanıyıb, mən də onu. O olmasa, bircə gün də yaşaya bilmərəm, bağrım partlar.

Atam qaşlarını çatıb, dinmədi. Onun zəri pis gətirdiyindən qanı qaralmışdı. Əmir dayı da daha danışmadı. Başları oyuna bərk qarışdı. Arabir bir-birinə hərbə-zorba gəlib höcətləşə-höcətləşə taxtanın qabırğasını xeyli döyəclədilər. Oyun bitən kimi, anam gətirib ortaya süfrə sərdi, hərəsinə bir stəkan çay süzdü. Əmir dayı çaydan isti-isti bir qurtum hortladıb birdən dikəldi, dönüb mənə baxdı. Elə bil o, mənim varlığımı ancaq indi hiss etmişdi.

– Qardaş oğlu, gəlsənə səni özümə katib götürəm, – dedi.

Mən utandığımdan başımı qaldırmadım.

Atam dilləndi:

– Yox, əmisi, onun hələ işləmək vaxtı deyil, qoy getsin dərsini oxusun. Bu il imtahanları ağırdı.

Əmir dayı çaydan iki-üç qurtum da dalbadal hortladıb gerçəklədi.

– Doğru sözümdür. Ağlıma lap yaxşı düşüb. Qısır inəyin dadamal buzovu kimi sənin böyür-başında gəzənəcən gedib xeyirli bir iş görər. İndidən idarə işinə alışar. Bunun dərsinə-zadına da ziyanı yoxdur... Neçəncidə oxuyursan, a bala?

– Doqquzuncuda.

– Dərsə nə vaxt gedirsən?

– İkinci növbədə.

– Çox gözəl, demək, sövdələşdik. Saat birəcən yanımda işlərsən, sonra çıxıb gedərsən dərsinə. Oldumu?

Mən dillənmədim. Atam yenə etiraz etmək istədi. Ancaq Əmir dayı bu dəfə onu danışmağa qoymadı. Üzünü bozardıb ərklə:

– Zəvzəklik eləmə, – dedi, – uşaq qoy indidən zəhmətə öyrəşsin. Orda elə bir çətin iş olmayacaq. İdarəyə gələn tək-tük dokumentləri dəftərə salacaq. Hərdənbir də işçilərə yoxlama-zad yazacaq, vəssalam. Sakit yerdir, qalan vaxtlar oturub dərsini hazırlar. Evdə qalıb neyləyəsidir?

Atam qonşunun sözünü yerə sala bilmədi, razılaşdı.

* * *

Ertəsi gün işə başladıq. İdarəmiz qəsəbənin lap ucqarında, iri iydə ağaclarının dövrəyə aldığı ikiotaqlı alçaq bir binada yerləşirdi. Dəhlizə girdik. Sol əldəki otaqdan ara-sıra sayğac səsləri gəlirdi. Əmir dayı sağ tərəfdə üstünə "müdir" sözü yazılmış otağın qapısına yanaşdı. Cibindən bir topa açar çıxarıb qapını açdı, özü içəri keçib, məni də çağırdı.

Otaq balaca və ensiz idi. Müxtəlif səmtlərdə qoyulmuş iki stol onun yarıdan çoxunu tutmuşdu. Üç yerdən pəncərəsi vardı.

Əmir dayı bəridə, qapının lap dibində qoyulmuş kiçik, köhnə stolu mənə göstərib:

– Bu stol səninkidir. Otur, işinlə məşğul ol! – dedi və özü irəli yeriyib, pəncərənin qənşərində qoyulmuş göy örtüklü, böyük stola yaxınlaşdı. Əyləşməzdən əvvəl örtüyün ora-burasını çəkişdirdi, qırışlarını əli ilə sığallayıb düzəltdi, yaylığını çıxarıb stolüstü şüşəni sildi, telefon aparatını küncdən götürüb stolun tən ortasına qoydu; mürəkkəbqabılarının, qələmdanın yerini dəyişdi, stolun siyirtmələrini bir-bir açıb təzədən örtdü, onların bağlanıb-bağlanmadığını yoxladı və nəhayət, meşin oturacaqlı kürsünü irəli çəkib şəstlə əyləşdi. Zəngi basıb mühasibi yanına çağırdı. İdarənin işi haqqında ondan bəzi şeylər soruşdu. Cavab almamış da "get işində möhkəm ol!" – deyib geri qaytardı. Mühasib qapı arxasında hələ gözdən itməmiş o, zəngi bir də basdı. Bu dəfə artelin baş ustalarını yanına çağırtdırdı, onlara da eyni tapşırığı verib yola saldı. Arxayınlaşıb əlini telefona yetirdi, dəstəyi ağır-ağır qaldırıb qulağına tutdu, iki-üç yerə zəng çaldı. Təzə vəzifəyə başladığı haqqında dost-tanışlarına car çəkdi. Bu da qurtarandan sonra mənə iri bir kağız üzərində basma hərflərlə: "Otağa icazəsiz daxil olmayın! Qəbul saat ikidən sonradır!" sözlərini yazdırdı, özü aparıb çöl tərəfdən qapıya yapışdırdı. Qayıdıb yenə də stolunun arxasında əyləşdi, əllərini çənəsinin altına dayaq verib, dərində işıldayan gözlərini otağın bir küncünə zillədi, fikrə getdi...

Birinci günü belə başa vurduq. O biri günlər də işimizdə elə bir dəyişiklik olmadı. Əmir dayı hər səhər işə gələn kimi sözsüz-söhbətsiz stolunun arxasına keçər, kiminləsə telefonla uzun-uzadı danışar, sonra dəstəyi yerinə asıb, poçtalyonun təzəcə gətirdiyi qəzetləri bir-iki dəqiqəyə gözdən keçirər, yazıların ancaq sərlövhələrinə

baxar və tezcə büküb bir kənara atardı. Əllərini üzünə söykəyib fikrə gedər, elə bu vəziyyətdə də onu mürgü tutar, başı asta-asta gedib-gələrdi.

Xoşbəxtlikdən tez-tez qapımızı açan, Əmir dayının bu rahatlığını pozan olmazdı. Yalnız iki-üç gündən bir mühasibimiz ehmalca içəri girər, əlində tutduğu bir qalaq kağızı Əmir dayının qabağına tökərdi. Əmir dayı səsə başını dikəldər, yuxulu gözlərini ovuşdurub könülsüz-könülsüz bu kağızların bir əvvəlinə, bir də axırına baxar, sonra birdən cana gəlmiş kimi əlini uzadıb qələmdandan yoğun qırmızı karandaşı götürər, kağızları cərgə ilə qabağına düzər, tələsmədən, böyük səy və həvəslə bir tərəfdən başlayıb qol çəkə-çəkə axıra çıxardı. Sonra möhürü hovxurub imzasının düz üstündən basardı...

İdarəmizə ara-sıra paltar sifariş verməyə, yaxud şikayətə gələnlər də olurdu. Əmir dayı belə vaxtlarda da xeyli dirçələr, yanına gəlmiş adamları çox işgüzarlıqla dinlər, lakin axırda hamıya eyni cavabı verərdi: “Get, arxayın ol, düzəldərik, tədbir görərik!” Lakin elə orada da hər şey unudular, nə sifarişçinin işi düzələr, nə də şikayətçinin ərizəsinə əncam çəkilərdi.

İlk günlər mən çox darıxdım. Bütün günü susmaq, heç bir iş görmədən Əmir dayının mürgüləməsinə tamaşa etməkdən yorucu nə ola bilərdi?! Amma çarə yox idi. Gərək dözəydim. Tezliklə şəraitə uyğunlaşdım. Daha heç nəyə fikir vermədən, sakitcə oturub dərslərimi hazırlayar, maraqlı kitablar tapıb oxuyar, elə ki, saat bir tamam oldu, dəftər-kitabımı yığışdırıb, ayağa qalxardım. Bir anlığa taqqıltıma oyanan Əmir dayı yuxulu gözlərini zorla açar, küt baxışlarını üzümə dikib yorğun-yorğun:

– Getdin?.. Yaxşı, get! – deyərdi.

Dörd ay bu qayda ilə işlədik. Bir gün günorta çağı idarəmizin qapısını kök bir arvad açdı. Bu, qəsəbəmizdə “Qoçu Balabəyim” ləqəbi ilə tanınan, heç nədən çəkinməyib hər kəsin nöqsanını üzünə deyən, kişixasiyyət bir arvad idi. Onun gəlişi Əmir dayının yerinə-yatağına su saldı. Arvadın baxışları elə sərt və qəzəbli idi ki, Əmir dayı Balabəyimin buraya boş-boşuna gəlmədiyini bu baxışlardan aydın başa düşüb, onu şirin dilə tutmağa, qabaqlamağa çalışdı. Lakin hirslənmiş arvad ona macal vermədi. Qapının ağzından var səsi ilə qışqırdı.

– Ə, nə kəndir olub keçibsən boğazımıza?! Bacarmırsan, işləmə, get otur xarabanda! Vəzifə sənin boynuna biçilib-eləməyib ki?! Bəyəm çox vacibdir ki, həmişə gərək stol başında olasan?

Əmir dayının boğazı qurudu. Ancaq özünü itirməyib, arvadı birtəhər sakitləşdirmək istədi. Mülayimliklə:

– Niyə qışqırırsan, ay Balabəyim, – dedi, – axı, nə olub?

Balabəyim arvad iti addımlarla qapının ağzından keçib irəli gəldi, mənim stolumun yanında dayanıb, əl-qolunu ölçdü:

– Bundan artıq nə olasıdır?! "Müdirəm" deyib özünü yıxıbsan bu stolun dalına. İşdən xəbərin yox, adamlardan xəbərin yox! İki-üç nəfər julik də əl-qol açıb bildiyini eləyir. Kiminin parçasını it-bata salırlar, kiminin zakazını korlayırlar. Ucundan-qulağından qırıb-qırtıb eləyirlər heç nə. Səni buraya yaraşığa-zada qoymayıblar ki? Niyə tədbir görmürsən?

– Daha qışqırmaq nə üçün, ay Balabəyim? Bunu elə sakit-sakit də deyə bilərdin... Baş üstə, tapşırıq verərəm, düzələr. Get, arxayın ol!

– "Tapşırıq verərəm, tapşırıq verərəm!.." Başına dəysin sənin tapşırığın!

Əmir dayı onu yumşalda bilmədi. Arvad qapını zərblə çırpıb getdi. Aradan bir saat keçməmiş haradansa idarəmizə zəng vurdular. Adəti üzrə mürgü döyən Əmir dayı yerindən dik atıldı, gözlərini ovxalayıb, dəstəyi götürdü. Telefonda ona nə dedilərsə, birdən-birə kişinin bənizi avazıdı. Qolları elə bil qırılıb yanına düşdü, iki-üç dəqiqə süst dayandı. Sonra dəstəyi asıb ölüm-zülm ayağa qalxdı, yazıq-yazıq:

– Xeyir olsun, icraiyyə komitəsinə çağırırlar, – deyib sürüngəl otaqdan çıxdı.

* * *

Şirin yuxuda kiminsə məni bərk-bərk silkələdiyini hiss etdim. Gözlərimi güc-bəla açıb anamı başımın üstündə gördüm.

– Dur, dərdin alım, sabah çoxdan açılıb.

Yuxudan doymamışdım. Odur ki, anamın təkidinə baxmayaraq, o biri böyrüm üstünə çevrilib gözlərimi yenidən qapadım. Ancaq anam əl çəkmədi.

– Dur, gecikirsən! – deyə yorğanı üstümdən götürdü. Qalxıb yerimin içində oturdum. Çarpayımın böyründəki stolüstü saata

baxdım. İş vaxtına hələ bir saatdan çox qalırdı. Məni yuxudan elədiyi üçün anama deyinməyə başladım.

– Yəqin saat geri qalıb, dərdin alım. Əmir dayın qapımızdan indicə gəlib ötdü. O kişi işə həmişə öz vaxtında gedir... Dur, gecikərsən, – deyib anam məni bir az da tələsdirdi.

Könülsüz-könülsüz geyindim. Yuyunub bir stəkan çay içdim. Anamın verdiyi yağ yaxmasını yolda gəvələyə-gəvələyə işə getdim. İdarəyə girəndə çox heyrətli bir hadisə ilə qarşılaşdım: idarəmizin xidmətçisi Şəkər xala astanada qabağıma çıxdı. Hər səhər bizi gülər üzlə qarşılayan, "sabahın xeyir" deyib mehribanlıq göstərən bu xoşxasiyyət arvadın baxışlarından indi dəhşət yağırdı.

Arvad dili-dodağı təpimiş halda əlini müdirin otağına tərəf uzadıb:

– Öldü... kişi keçindi! – deyə güclə dilləndi.

– Kim? – deyə heyrətlə soruşdum.

Şəkər xala cavab vermədi. Uzun donunun ətəklərini dəstələyib, tələsik haraya qaçdı. Mən içəri yüyürdüm. Əmir dayının başı stola düşüb qalmışdı. Tamam qızıl qana boyanmış stolüstü şüşə çiliklənmişdi.

Şəkər xala üç-dörd adamla qayıtdı. Adamlar Əmir dayının qollarından yapışıb yuxarı qaldırdılar. Onun başı üstündə durmadı, sallanıb sinəsinə düşdü. Gözləri qapanıb, bənizi sapsarı saralmış, dodaqları gömgöy kəsilmiş Əmir dayı çoxdan keçinmişdi.

Adamlar meyiti götürüb stolun üstünə uzatdılar. Qapının ağzındaca quruyub qalmış Şəkər xala bir adamlara, bir də stolun üstündə hərəkətsiz uzanmış Əmir dayıya baxıb uçuna-uçuna:

– Heç bilmirəm, bu nə olan işdir, – dedi, – indicə sappasağ gəlib yanımdan içəri ötdü, aradan heç bir dəqiqə keçməmiş otağa girdim, gördüm kişi məğmun olub. Belə də azar olar?

Şəkər xalanın sualına heç kim cavab verə bilmədi. Hamı məəttəl qalmışdı. Mən də heyrət içində susur, qonşumuzun halına ürəyimdə həm acıyır, həm də gülürdüm. Stol azarı, vəzifə düşkünlüyü onu gör hara gətirib çıxartmışdı?!

Əmir dayının isə bunların heç birindən xəbəri yox idi. O, həmişə dirsəklənib mürgü vurduğu stolun üstündə indi daimi yuxuya getmişdi. Qolları da açılıb yanlardan aşağı sallanmışdı. Sanki o, bu ölüm yuxusunda da "öz stolundan" ayrılmaq istəmirdi.

*dekabr, 1957*

# İSA HÜSEYNOV

(1928)

*İsa Hüseynov Qazax rayonunun Muğanlı kəndində müəllim ailəsində doğulmuşdur. Doğma kəndində orta məktəbi bitirib, 1945-ci ildə N.Nərimanov adına Azərbaycan Tibb İnstitutuna daxil olmuş, orada dörd ay oxuduqdan sonra təhsilini davam etdirməyib kəndə qayıtmışdır. 1946-cı ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuş, dörd il orada təhsil aldıqdan sonra Azərbaycan Yazıçılar İttifaqının zəmanəti ilə Moskvaya M.Qorki adına Ədəbiyyat İnstitutuna göndərilmiş və 1950-ci ildə oranı bitirmişdir.*

*Əmək fəaliyyətinə 1952-ci ildə başlayan İ.Hüseynov müxtəlif illərdə "Azərnəşr"in bədii ədəbiyyat şöbəsində redaktor, "Литературный Азербайджан" jurnalının redaksiyasında nəşr şöbəsinin müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, Azərbaycan Kinematoqrafiya Komitəsində baş redaktor vəzifələrində işləmişdir.*

*İ.Hüseynov ədəbi-bədii fəaliyyətə XX əsrin 40-cı illərində başlamışdır. İlk əsəri – "Anadil oxuyan yerdə" oçerki 1949-cu ildə "İnqilab və mədəniyyət" jurnalında (№5) dərc edilmişdir. Yazıçı "Bizim qızlar", "Dan ulduzu", "Yanar ürək", "Doğma və yad adamlar", "Teleqram", "Tütək səsi", "Kollu Koxa", "Məhşər", "İdeal" adlı roman və povestləri ilə geniş oxucu kütləsinin qəlbini fəth etmişdir. O, ədəbi-ictimai xidmətlərinə görə Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1976) və Xalq yazıçısı (1988) fəxri adlarına layiq görülmüşdür. Yazıçının bu cildə daxil edilmiş və ədibin ilk əsərlərindən olan "Başa düşə bilmirəm" hekayəsi "Kollu Koxa" kitabından (Bakı, Gənclik, 1969) götürülmüşdür.*

## BAŞA DÜŞƏ BİLMİRƏM

(*Hekayə*)

Mən qardaşımdan küsmüşəm. Özü də çox bərk küsmüşəm. Amma bu saat özüm də bilmirəm buna səbəb nədir? Vaqonda oturub, Bakıda – qardaşımın evində qaldığım yarım ayda olub-keçəni gözümün qabağına gətirirəm. Fikirləşirəm görüm, axı həmişə yadıma düşəndə ömrümü-günümü qurban dediyim, canım-ciyərim bircə

qardaşımdan birdən-birə niyə incimişəm? Qardaşım pis qardaşdırmı? Bunu deməyə dilim gəlmir. İkimiz də yetimliklə böyümüşük: Mustafa mənə həm ata olub, həm ana. Bir tikə vaxtından kotan məci tutub, boğazımın çörəyi, əynimin paltarı olub. Əgər Bakıya oxumağa getməsəydi, dünya dağılsaydı da, məni uşaq evinə verməzdi. Oxuyub qurtarıb, Kənd Təsərrüfatı Nazirliyində işə girəndən sonra dəfələrlə kəndimizə, xalamın yanına gəlib, "Xədicəsiz dözə bilmirəm, ver aparım, anamın iyini ondan alıram", – demişdi. Xalam isə inad eləyib bildirmişdi ki, "qızın kənddə nişanlısı var, onilliyi qurtarandan sonra ərə verəcəm, getsin ev-eşik, oğul-uşaq yiyəsi olsun". O gün indiki kimi yadımdadır!.. Mustafa hirsindən qapqara qaraldı. "Mən bacıma ali təhsil verəcəm! – dedi. – Azmı əziyyət çəkib ki, hələ dünyaya açıq gözlə baxmamış, xeyir-şərini qanmamış ailə qayğısı çəksin?!" Yadımdadır sevincimdən yaş məni boğdu. Onun üstünə atıldım: "Ömrüm-günüm, ay qardaş, mən sən deyən kimi eləyəcəm", – dedim. Qardaşım məni qucaqladı, mən də qardaşımı. Mən ağladım. Onun da gözləri doldu. Bilmirəm yetimliyimizdən, ürəyi sınıq olmağımızdandımı, ya nədəndi, bir-birimizi qucaqlayanda, bir-birimizə sığınanda ikimiz də kövrəlirdik. Sonralar başa düşdüm ki, bir-birimizi çox istəyirik, lap çox istəyirik, ona görə də gözlərimizin yaşına hökm eləyə bilmirik. Xalam deyərdi ki, "yetim quzu mələyən olar, yetim uşaq güləyən". Amma mənimki əksinə idi; Mustafanın qucağına sığınanda dərhal kövrəlirdim. Onda mən Mustafanın öz bacısını necə istədiyini onun ürəyinin döyüntüsündən bilərdim. O məni qollarının arasından buraxmaz, o qədər şirin-şirin söhbətlər eləyərdi ki!.. Axırda da deyərdi: "Səni oxudacam. Ali təhsil verəcəm". Mən onun bu sözlərini sırğa kimi qulaqlarımdan asmışdım. Məktəbdə oxuduğum zaman da, həmişə onun bu sözlərini yada salırdım. Qardaşım mənim ali təhsilli, dünyanın işlərindən baş açan bir qız olmağımı istəyirdi. Bu onun arzusu idi. Mənim qardaşım bax belə qardaş idi. Necə dilim gəlsin deyim ki, Mustafa pis qardaşdır?! Bəs indi ondan niyə incimişəm? Bəlkə ona görə ki, qardaşım Mina kimi arvad alıb? Bəlkə ona görə ki, bu gün o, heç vağzala məni ötürməyə də gəlmədi? Yox, yox, nazirlikdə müşavirəni buraxıb necə gələ bilərdi? Bəlkə ona görə ki... Yox, deyəsən mənim inciklimi belə asanlıqla, bir-iki kəlmə ilə deyib qurtarmaq olmaz. Ürəyim elə doludur ki, heç bilmirəm nədən başlayım. Yaxşısı budur, lap əzəldən başlayım.

* * *

Pilləkənlə ikinci mərtəbəyə qalxıb qardaşımgil olan otağın qapısına çatanda birdən-birə ürəyim çırpındı. Üst-başıma baxdım. Vaqonda təzə donumu geyməyi yaddan çıxartmışdım. Əynimdəki sətin don qırış-qırış olmuşdu. Ayaqqabılarım palçığa bulaşmışdı. Kəlağayımın örtüləsi halı qalmamışdı. Fikirləşdim ki, birdən qurbanı olduğun Mustafanın evində qonaq-qarası olar. Bu halda gözə görünsəm, onun adına çirkinlik gətirmərəmmi? Deməzlərmi: "Bir bu qızın geyiminə-keciminə bax. Yəqin heç Mustafa buna gözünün ucuyla da baxmır". Halbuki qardaşım hər il sinifdən sinfə keçəndə mənə bir dəst paltar almışdı. Bircə bu il, evlənəndən sonra bir şey almamışdı. Yox, yox, bu halda evində görünə bilmərəm, başım batsın mənim. Kəndçi qızı ki, kəndçi qızı. Pintiliyimi burda da bildirdim. Qoy o bacı ölsün ki, qardaşının adına pis söz dedirdir.

Tez-tələsik ayaqqabılarımın palçığını təmizlədim, təzə donumu çıxarıb əynimə geydim. Kəlağayımı örtmək istəyirdim ki, qapının dalından səs eşitdim. Mustafanın səsinə oxşadı. Ürəyim döyündü. "Səsinə qurban, ay qardaş!" Budur, ayaq tappıltısı eşidildi, indicə Mustafa görünəcək. Qollarım elə bil öz-özünə qalxdı. Bax, indicə onun boynuna sarılacam. Gəl, gəl, ay qardaş, neçə vaxtdır sənin boynunu qucaqlamıram! Öz aramızdır, arvad alanı məni yaddan çıxardıbsan, gəl, gəl, qədəmlərinə sədəqə olum!.. Gör bir mən nə huşsuz bacı imişəm, qardaşımın səsini gör kimin səsi ilə dəyişik salmışam! Qapı açılanda astanada hacıleylək kimi caydaq, kürəyi çıxıq, arıq, gözlüklü bir oğlan gördüm. Doğrusu, onun üzünə baxanda, ətim çimçəşdi. İnsan da bu qədər eybəcər olarmı? Gözləri ölü qoyun gözləri kimi. Sifəti uzun, sapsarı. Elə bil ömründə gün görməmişdi. Alt dodağı, lap xalamın söylədiyi nağıllardakı divlərin dodaqları kimi yer süpürürdü. Bu oğlanın dalınca ondan bir azca gödək, qırmızı dodaqlı, qırmızı şlyapalı, qırmızı donlu, qırmızı redikülllü, qırmızı tuflili... xülasə, başdan-ayağa qırmızı bir gəlin çıxdı. Məni görən kimi ikisi də dayandı. Gözlərini bərəltdilər. Elə bərəltdilər ki, elə bil ömürlərində özlərindən başqa adam görməmişdilər. Doğrusu, lap özümü itirdim. Dedim: "Yəqin düz gəlməmişəm. Əgər bura Mustafanın evidirsə, bu adamların burda nə işi var?" Lakin heç ağzımı açmağa imkan tapmadım. Onda gördüm, qırmızı qızın əlləri belinə gəldi:

– Ay qız, bura sənin üçün zibilxanadır? – Elə qışqırdı ki, bütün dəhliz guruldadı. – Bu saat yığışdır bu zir-zibili! Tez ol!.. Zəhləm getdi daha sizin əlinizdən! Adamın üzündə gərək abır-həya olsun!..

Qardaş da yaddan çıxdı, təzə paltar da, kəlağayı da. Özümü elə itirdim ki, nə cavab verəcəyimi də bilmədim.

– Eşitmirsən?.. Karsan?! – deyə qırmızı qız üstümə yeridi. Bir addım dala çəkildim, divara qısılıb qaldım. Bu qız məni kimə oxşadırdı? Mən nə vaxt onun zəhləsini tökmüşdüm?..

Birtəhər özümü yığışdırıb çamadanımı götürdüm.

– Ay bacı...

– Mən sənin üçün bacı deyiləm!.. – O dönüb uzun oğlana baxdı. – Dayıoğlu, bircə dəqiqə məni bağışla. Bunlarla başqa cür rəftar eləmək olmur, – dedi, hirsli-hirsli qapını itələyib açdı və mənim qolumdan çəkib içəri saldı, küncdəki dolu vedrəni və yaş əsgini göstərdi: – Götür!.. Necə zibilləyibsən, elə də təmizlə!

Donub qaldım. Dünyada nə cür adamlar varmış! Mustafanın canı üçün, bu qırmızı qızla onun bu eybəcər dayıoğlusu yol azıb bizim evə gəlmiş olsaydılar, qapı-bacamıza lap bir batman zir-zibil töksəydilər, üzlərinə də üfürməzdim. Ancaq bu gör məni nə günə salır!.. Məni yaş boğdu. Amma neyləyə bilərdim?.. Puçup-puçur tər tökə-tökə vedrəni, əsgini götürüb dəhlizi yuyub sildim. Qayıdıb çamadanımı götürdüm. Birdən... Nə eşitsəm yaxşıdır? Mustafanın səsini!.. Yox, yox, daha bu dəfə səhv eləmirdim! Bu onun səsi idi, hardansa, qapının dalından gəlirdi. Amma... Bəs mən yolumu azmamışdımmı? Mustafa burda, bu vicdansız bibiqızı ilə bu hacıleylək dayıoğlunun evində nə gəzirdi? Lakin sorğu-sual eləməyə vaxt harada idi? Budur, Mustafanın səsi lap qapının dalından gəldi:

– Ay qız, nə olub, yenə evi nə başına götürmüsən?

Can qardaş! Səsinə qurban olum!

Qapını necə itələdiyimi, özümü onun üstünə necə saldığımı bilmədim. Yəqin bu gözlənilməz görüşdən Mustafa da özünü itirdi. Çünki mən hey onun qaşından, gözündən, yanaqlarından, çənəsindən, boyun-boğazından öpür, boynuna sarılıb hönkürürdüm, o isə quruyub qalmışdı. Mən bayaqkı təhqiri də, qırmızı qızla onun hacıleylək dayısıoğlunu da unutmuşdum. Bu dəqiqə ancaq bircə şeyi hiss edirdim – bir ilin həsrətlisi qardaşıma qovuşmuşdum!

Axır ki, Mustafa da özünə gəldi.

– Xədicə!.. Bacım!.. Bəs teleqram niyə vurmayıbsan? – deyə məni öpə-öpə soruşurdu. Mənim cavab verməyə halım yox idi. Qardaşımı öpməkdən doymurdum.

Kənara çəkilib bir-birimizə baxdıq. Mustafa kökəlmişdi. Qardaşım daha da qəşəng olmuşdu. Onu təzədən qucaqladım.

– Gəl, gəl görüm...

Mustafa çamadanımı götürdü. Kiçik dəhlizdən içəri keçdik. Ora-bura baxdım. Ürəyim dağa döndü. Qardaşımın nə gözəl ev-eşiyi vardı! Üç otaq bir-birinin içinə açılırdı. Bufet, şifoner, divan, stol, yumşaq kürsülər, gül dibçəkləri, kitab rəfi... Qardaşımın nələri vardı!.. Ay aman, mənim şəklim! Qardaşım mənim şəklimi böyütdürüb divara vurub! Canım qurban, qardaş, varın-dövlətin başından aşsın!.. Elə bil birdən-birə dəli oldum. Qardaşımın evinin divarını, bufetini, şifonerini öpməyə başladım. Sonra yenə onun üstünə atıldım. Sevindiyimdən nə etdiyimi bilmirdim. O biri otağa yüyürdüm. Nə görsəm yaxşıdır?! Piano!.. Qardaşımın evində piano da vardı. Ancaq daha pianonu öpmədim. Öz-özümə dedim, qardaşım elə bilər bacısı doğrudan da dəli olub. Axır ki, bir az özümü ələ aldım. Biz divanda yanaşı oturub uzun müddət bir-birimizə baxdıq. Bilmirəm, o məndə bir dəyişiklik tapa bilirdimi... Nə tapacaqdı ki? Mən elə həmin balaca, arıqca Xədicə idim. Mənim qardaşım isə, xalamın sözü olmasın, lap kişi idi. Bədəndən də, sifətdən də dolmuşdu. Bıy... bığ da qoyub! Necə olub ki, bayaqdan bəri görməmişəm? Gör bir bu qara, nazik bığ qardaşımın sifətini necə gözəlləşdirir! Amma heyif ki, bir az qarnı irilənib. Mənim yekəqarın kişilərdən zəhləm gedir. Onlar iş-güc görmürlər, yeyib-yatırlar, qarınları şişir. Bıy, dilim qurusun! Məgər Mustafanı elələrinə tay eləyərəm?! Görünür, qardaşım kurorta gedibmiş, orda belə olub... Bir-birimizə baxdıq, baxdıq... Birdən mən güldüm. O da güldü. Niyə gülürdük? Heç özümüz də bilmirdik.

Mən onun işini-gücünü xəbər aldım. O isə xalamı, sonra onilliyi necə bitirdiyimi soruşdu. Xalamın xəstə olduğunu, buna görə də məni Bakıya tək buraxdığını eşidəndə, Mustafa kədərləndi. Onun ürəyinin xarab olmasına dözə bilmədim. Mənim kimi bacı ölsün, xalamın xəstələndiyini deməsəydim olmazdımı? Tez ona təskinlik verdim ki: "Qorxma, heç nə olmaz, bir az soyuq dəymişdi". Durub çamadanımı açmaq, attestatımı göstərmək istədim ki, qardaşım qiymətlərimə baxsın, könlü açılsın. Axı onun mənim yaxşı oxumağımdan böyük arzusu yox idi. Lakin... Bu gün məni nə qədər

gözlənilməz hadisələr gözləyirmiş! Çamadana doğru yönələndə birdən-birə donub qaldım. Qırmızı qızla onun hacıleylək dayısıoğlu qabağımda dayanmışdı. Yenə ikisinin də gözləri bərəlmişdi. Nədənsə qırmızı qızın sifəti də qızarmış, indi o, başdan-ayağa qıpqırmızı olmuşdu.

– Mən... mən elə bildim mənzil kirayələmək istəyir. Səhərdən üç-dörd dəfə... tələbələr... – deyə o, kəkələyirdi. Mən dönüb Mustafaya baxdım. Yenə çaşbaş qaldım. Bu eybəcər adamlar kimlərdi? Mənim qardaşımın evində nə gəzirdilər? Bu qızın məni təhqir etdiyi bəs deyildimi ki, indi də əl çəkmək istəmirdi? Yoxsa?.. Ağlıma gələn fikirdən elə birtəhər oldum ki, heç özüm də bilmirəm nədən, məni tər basdı. Yoxsa? Yenə Mustafaya baxdım. Qardaşım ayağa durdu.

– Bəs siz tanış olmamısınız? – deyə əvvəlcə mənim, sonra qırmızı qızın üzünə baxdı. Mustafanın canı üçün, bilsəydim ki, başıma belə iş gələcək, kənddən bəri heç ayaq da basmazdım. Qız əlini mənə uzadıb:

– Mina, – deyə səslənəndə elə bildim qırx arşın quyunun dibinə düşdüm. Mina? Qardaşımın arvadı? Budur? Hələ keçən il, nişanlı olduqları vaxt, Mustafanın mənə yazdığı məktublarında tərifədiyi Mina budur? Bəlkə bu başqa Mina idi? Yox, yox, bir talada iki axsaq ceyran olmaz. Bəs qardaşım bunun nəyini tərifləyirdi?.. Bir dəqiqədə insanın beynindən nə qədər fikir gəlib keçərmiş! Elə bil Mustafanın bütün məktubları bircə-bircə gözlərimin qabağında vərəqləndi. Mina ağıllı, dərrakəli qızdır; Mina təmiz ürəkli, geniş qəlblidir; Mina sadədir; Mina gözəldir... Bunları mənim qardaşım yazmışdı. Mənim nə haqqım vardı ki, qardaşımın yazdıqlarına şübhə eləyəydim? Ağıl, dərrakə, təmiz ürək, geniş qəlb, gözəllik... Mən şübhə eləmirdim ki, qardaşımda olan bu xasiyyətlər, mütləq onun ömür-gün yoldaşında da olmalıdır. Əvvəla, Mustafa başqa cür adamla yola gedə bilməz. İkincisi də, xalamın sözü olmasın, "gərək ərlə arvadın torpağı bir yerdən götürülsün". Belə olmasa, onlar bir ailədə kök sala bilməz, qol-budaq atıb bar verməz. Bəs, bəs?.. Yox, yox, qoy rədd olsun bütün bu şübhələr! Heç yarım saat deyil ki, qardaş evinə qədəm basmışam, ömrüm-günüm, canım-ciyərim Mustafaya şübhə eləyirəm, onun arvadına lap nifrətlə baxıram. Belə də şey olarmı? Mustafa mənə şərbət əvəzinə zəhər də versə içərəm. Bir də axı, Mina ilə mənim aramda nə olub ki?.. Bütün adamlar təmizlik sevir. Təqsir mən başı batmış kəndçi qızındadır ki, ayaq basan kimi, bircə

dəqiqənin içində, gül kimi dəhlizi zibillədim. Doğrudur, o, bir az ucadan danışdı, yaxşı-yaman dedi, ancaq... görünür haqlı imiş. Qaldı ki, onun belə başdan-ayağa qırmızı geyməsi. Bu nə üçün məndə pis fikir oyatsın? Ona qalsa, gərək bütün yer üzündə hamının bir-birindən zəhləsi getsin. Kimin xoşuna necə gəlirsə, elə də geyir...

Bu bir neçə dəqiqədə mən bax belə fikirləşdim və ürəyimdə öz-özümü danlamağa başladım ki, sənin kimi bacı ölsün, Xədicə, gör bir qardaşının aylarla, bəlkə lap illərlə sevib-seçdiyi, yəqin dəfələrlə sınaqdan çıxartdığı ömür-gün yoldaşına nə cür gözlə baxırsan! Mən nəinki Minanı qucaqlayıb üzündən öpdüm, hətta onun bayaqdan gözümə ilan kimi görünən dayısı oğluna da ürəkdən əl verdim. Doğrudur, bu dayıoğlunun qalın şüşə arxasından işıldayan gözlərinə baxanda mən yenə bir cür oldum; doğrudur, bu dayıoğlu mənimlə görüşəndə el qaydası ilə bir kəlmə də kəsməyib, dərhal dabanı üstə dönərək çıxıb getdi, ancaq, mən ona haqq vermək üçün bir şey tapmasam da, Mustafanın evinə qədəm basan bu adama pis nəzərlə baxmaq istəmədim.

Vaxtın necə gəlib keçdiyini bilmədim. Qardaşımın ev-eşiyinə, süfrəsinin bolluğuna baxdıqca, sevindiyimdən uşaq kimi atılıb-düşmək istəyirdim. Mina isə mənim nəzərimdə dünyanın ən nəcib, ən gözəl insanı olurdu. Mən hər şeyi yaddan çıxartmağa çalışırdım. Mina evdə hərləndikcə, onun boy-buxununa, yerişinə, oturuşuna-duruşuna müştəri gözü ilə baxır, elə bil qardaşıma bu qızı təzədən seçmək istəyirdim. Minanın uca boyuna, incə belinə, ağ maya kimi sinəsinə, buğumlu biləklərinə, şirmayı barmaqlarına, ayıb olmasın, topuqlarına da göz qoyurdum. Niyə gizlədim, mənim bəzəkli-düzəkli adamlardan xoşum gəlməz. Minanın par-par parıldayan qızıl boyunbağısı, qızıl bilərziyi, qızıl saatı, üzükləri məni o qədər açmırdı. Ancaq elə o dəqiqə ürəyimdə öz-özümü danlayırdım ki, yoxsa gözün götürmür, Xədicə! Ayıb olsun sənin üçün, Xədicə! Yoxsa, elə fikir eləyirsən ki, bu bir il müddətində qardaşın Minanın bəzək-düzəyilə məşğul olduğuna görə səni yaddan çıxardıb? Ayıb olsun sənin üçün! Çıxart beynindən bu fikirləri! Onsuz da deyirlər baldızla gəlin gəc olar. Ancaq sən Mina ilə canbir, qəlb bir olmalısan. Nə olsun ki, Mina belə qızıla bürünüb? Nə qədər paxılsan sən, Xədicə! Bu cür fikirlərlə oturub-dursan, elə birinci gündən qardaşın evinə üz-gözlük salacaqsan. Çıxart beynindən bu fikirləri! Gör bir səhərdən bəri qardaşın arvadı sənə nə cür can yandırır. O sənə çimmək üçün yer

göstərdi, dəyişək verdi, yemək otağına gətirib qabağına naz-nemət düzdü. Daha nə istəyirsən?

Özümü danladım. Bərk danladım. Ancaq... yenə ürəyimə bir xal düşdü. Biz süfrə başında oturanda elə mənim kimicə balaca, yumruca, qırmızı yanaqlı, döşü önlüklü bir qız gəldi, mənə əl verdi, bizə qulluq eləməyə başladı. Qardaşım əlini mənim başıma çəkdi, gülümsünüb öz kabinetinə getdi. Elə bu vaxt, bir də gördüm, yenə Minanın buğumlu biləkləri belinə dayandı, gözləri bərəldi.

– Zinnət, səhərdən yenə hansı cəhənnəmdə qalmışdın? Oğlanlarla gəzirdin?!

Qız gizlincə mənə baxdı. Yanaqları daha da qızardı. Mən hiss etdim ki, yazıq həyadan yerə girdi.

– Mən gəzəyən deyiləm, – deyə titrək səslə pıçıldadı, – anam xəstələnib.

– Yalan deyirsən!

– Mən ömrümdə yalan danışmamışam.

– Kəs kəsini! Elə bir o qalmışdı ki, üz-üzə durub mənimlə dilləşəsən? Həyasız!

Doğrusu, Zinnətin əvəzində məni tər basdı.

– Mina bacı...

– Sən qarışma! – Mina mənə elə sərt baxdı ki, dilləndiyimə peşman oldum.

Kabinetin qapısı açıldı. Qardaşım başını buladı.

– Mina!

– Nə var? Elə sənsən bunu başımıza mindirən də!

Bəli, ürəyimə xal düşdü. Mənə elə gəldi ki, Mina Zinnətə qəsdən qışqırır. Yəni, a qızım, sənə deyirəm, a gəlnim, sən eşit. Yəni "Xədicə, gəlmisən, yaxşı eləmisən, ancaq bəri başdan dərsini götür!.."

Zinnət qab-qacağı yığışdırıb mətbəxə getdi. Bir azdan onun gözləri yaşlı, dinməz-söyləməz çıxıb getdiyini gördüm. Heç "gecəniz xeyrə qalsın" da demədi.

Qanım elə qaraldı, elə qaraldı ki!..

Mənə elə gəldi ki, bura gəldiyim bir neçə saat deyil, bir neçə gündür; Minanın bu cür qışqırdığını, qardaşımın qapı arasından boylanıb "Mina!" – deyə bircə kəlmə dillənib başını buladığını, Zinnətin gözü yaşlı çıxıb getdiyini lap çoxlu-çoxlu görmüşəm. Bəs mənim ipək ürəkli qardaşım buna necə dözür? O, qapının dalına

çəkilib stolunun arxasında necə sakit otura bilir, necə işləyə bilir?.. Bayaq o öz işindən-gücündən danışanda dedi ki, Kür boyunda təzə elektrik stansiyası tikiləcək, gecə-gündüz layihə üzərində işləyir. İşi çox ağırdır. Layihəni başa çatdırmaq üçün ona sakitlik və rahatlıq lazımdır. Belə də sakitlik, belə də rahatlıq olar? Mustafa belə işlərə nə üçün yol verir?

Bu nədir! Mən qardaşımın barəsində də yaxşı-yaman fikrə düşürəm? Kül mənim kimi bacının başına, – dedim. – Bacı ürəyi hara, qardaş haqqında yaxşı-yaman fikir hara? Ağlını başına yığ, Xədicə! Bu gördüklərin təsadüfi şeylərdir. Sən ki qardaşını yaxşı tanıyırsan! Onun evində bu cür xoşagəlməz hadisələr həmişə olmaz. Zinnət qulluqçudur? Əlbəttə! Yoxsa, yad qızının sənin qardaşın evində nə işi var?

Heç özüm də hiss etmədən, fikrim uzaqlara getdi.

Hələ uşaq evində olarkən mən bir hadisənin şahidi olmuşdum – kök bir arvadla bizim müdirin söhbətini eşitmişdim. Arvad, müdirimizdən xahiş eləyirdi ki, bu kiçik qızlardan birini ver, aparım. Müdirimiz əvvəlcə elə bildi ki, arvad sonsuzdur, qızlardan birini övladlığa götürmək istəyir. Ancaq arvadın qulluqçu istədiyini eşitdikdə, müdirimiz dərhal ayağa qalxdı. Onun səsi indi də qulaqlarımdadır: "Biz bu qızları böyüdüb təhsil-tərbiyə verib cəmiyyətimizə yararlı adamlar eləmək istəyirik, siz isə görün nə xahiş edirsiniz! Buyurun çıxın kabinetdən!.."

Nədənsə bu hadisə mənə müdirimizdən heç də az yer eləməmişdi. Onda hələ uşaq idim, onca yaşım vardı. Ancaq çox şeylər fikirləşirdim. Düşünürdüm ki, ümumiyyətlə, bizim ailələrimizə qulluqçu saxlamaq yaraşarmı? Bəlkə mən səhv edirdim? Bəlkə qulluqçu saxlamaq o qədər də pis iş deyil? Bilmirəm, elə indi də bu barədə bir şey deyə bilmərəm. Ancaq bircə onu deyə bilərəm ki, özün candan-başdan saz ola-ola, bir idarədə, müəssisədə işləmədiyin halda, nə üçün qulluqçu saxlayasan? Minanın əndamına fikir verəndə, onun sağlamlığına, biləklərində, budlarına baxanda adam həsəd aparmaya bilmir. Fikirləşirsən ki, bu cür adam özünü işə versə, dağı dağ üstə qoyar. Bəs o, nə üçün belə eləyir? Bəs mənim qardaşım nə üçün buna yol verir?.. Zinnətin yaşlı gözlərini xatırladım. "Sən qarışma!" – deyə Minanın sərt səsi qulaqlarımda cingildədi. Bircə kəlmə "Mina..." – deyib qapının arxasına çəkilən qardaşımın məzəmmətli sifəti gözlərimin qabağına gəldi. Qardaşım niyə belə yazıq olmuşdu?

Yox, mən bir az da burda qalsam, mütləq bir iş açacam. Belə getsə, mütləq bir narazılıq salacam. Qardaşımın qanı qaralacaq, əlində işi yarımçıq qalacaq. Durub çamadanımı açdım, sənədlərimi götürüb instituta getdim. Yaxşı ki, getdim. Sən demə, bu gün sənədlərin qəbulu dayandırılırmış. O biri gün isə fizika-riyaziyyat fakültəsinə girənlər, riyaziyyatın şifahisindən imtahan verəcəkmişlər.

İşimi görüb evə qayıtdım. Səhər, hələ Mina ilə qardaşım yuxuda ikən durub yenə instituta qaçdım. İmtahan vərəqəmi götürüb, pillələrin üstündə, qapıların ağzında toplaşan oğlanlardan, qızlardan soraqlaşa-soraqlaşa ikinci mərtəbəyə qalxdım, riyaziyyat imtahanı gedən otağı tapdım. Mən daha burda növbəyə durub necə ürək çırpıntısı ilə gözlədiyimi, necə imtahan verdiyimi demirəm. Burda, müəllimin qarşısında bülbül kimi ötən qız-oğlanlardan, gözünü döyə-döyə "şparqalka" gözləyənlərdən söhbət açmaq istəmirəm. Mənim ürəyimi deşən başqa sözlərdir...

İmtahan vərəqəsi əlimdə, qan-tər içində, institutdan çıxanda fikrimdə tək bircə şey vardı: qardaşımın yanına yüyürmək!

Mən yüyürdüm. Xalam deyirdi ki, "ay Xədicə, bir hirslənəndə sənin üzünü görməyəsən, bir də sevinəndə". Yaxşı deyirmiş. Lap dəli kimi yüyürdüm. Mən hiss edirdim ki, izdihamlı küçədə hamı dönüb arxamca baxır. Yəqin ki, lap pörtmüşdüm. Bir yerdə az qala maşının altına düşmüşdüm. Şofer mənə acıqlandı. Eh, bu saat heç bir şey mənə təsir etmirdi. Bir yerdə də milisioner fit çaldı. Sağ olmuş, kim idi ona fikir verən!..

Mustafagilin dəhlizinə də birnəfəsə qalxdım. Zəngi bir neçə dəfə basdım. Mənə elə gəldi ki, içəridə çox ləng tərpənirlər. Əlimi yenə düyməyə uzatmaq istəyirdim ki, qapı açıldı. Zinnət təəccüblə mənə baxdı:

– Nə olub, ay bacı?

Mən, o cür təhqirdən sonra Zinətin yenə buraya qayıtması barədə nəinki fikirləşmədim, bu heç yadıma da düşmədi. Bununla ikinci dəfə gördüyüm və ağıllı-başlı söhbət etmədiyim bir qızın mənim sevincimə şərik olacağına şübhə etmədən, onu qucaqladım.

– Beş, beş!..

– Nə beş?

Lakin cavab verməyə vaxt harada idi?

– Qardaşım hanı? – deyə içəri yüyürdüm.

Rəngdən-rəngə çalan uzun ətəkli xara xalat geyinmiş Minanı görəndə bir az duruxdumsa da, dayanmadım. O biri otağın qapısına

doğru cumdum. Bax, indicə Mustafanın boynuna sarılacam. Arzun yerinə yetir, ay qardaş, bacın birinci imtahandan beş aldı, – deyəcəm. Qardaşım sevinəcək, ürəyi dağa dönəcək. Lakin... Qapının dəstəsindən tutar-tutmaz, Mina qabağımı kəsdi. Onun qırmışı dırnaqlı barmağı qırmızı dodaqlarının üstünə gəldi.

– Sss!.. Yatır.

Elə peşman oldum, elə qəmləndim ki!.. Mina məni otağa çəkib ara qapını bərk örtdü. Divanda oturub uzun, ətli qıçalarını bir-birinin üstünə aşırdı, xalatının ətəyini düzəltdi və gülümsündü.

– Mən bu gündən qardaşının rejimini dəyişdirmişəm, – dedi, – yoxsa, bu nədir, gecə səhərəcən işləyir, sən də tək otaqda qulağı batmış kimi qalırsan. Axşamdan uzansın, səhər də beşdə, altıda dursun işini görsün. Ayaq üstə niyə durursan?! Otur də!

Mən onun yanında oturdum, bir əlimdəki imtahan vərəqəsinə baxdım, bir də ona.

– Mina bacı, – dedim, – olmazmı Mustafanın rejimini sabahdan dəyişdirəsən? Sən doğru deyirsən, səhər-səhər adamın zehni açıq olur. Ancaq...

Lakin mən sözümü deyib qurtara bilmədim. Minanın qırmızı dırnaqlı şəhadət barmağı yuxarı qalxdı.

– Xədicə!.. Gəl bir şərt kəsək. Sən bizim kiçik bacımızsan. Ona görə də bizim işimizə qarışma. Yoxsa, savaşarıq.

O bu sözləri gülə-gülə, zarafatyana dedi. Ancaq mən hiss elədim ki, Mina bunu ürəkdən deyir, key deyildim ki, qanmayaydım. Mən səsimi daha da yumşaltmağa çalışdım:

– Mina bacı, bu saat bunu Mustafaya göstərməsəm, ürəyim partlar.

– Bu nədir?

– İmtahan vərəqəsi. Beş almışam, Mina bacı!

Onun gözləri genişləndi.

– Ay qız, bəs sən bunu səhərdən niyə demirsən mənə? Paho, paho... Təbrik eləyirəm səni. Təbrik eləyirəm!

Mina əvvəlcə əlimi sıxdı, sonra elə qucaqladı ki, mən onun doğrudan da sevindiyinə şübhə etmədim. İndi Mina, bayaqkı kimi təkcə dodaqlarının ucunda deyil, deyəsən, lap ürəkdən gülür, sevinirdi. Deməli, o mənim şadlığımın nə qədər böyük olduğunu başa düşürdü. Bununla belə, o, yenə də məni Mustafanın yanına buraxmadı.

– Zinnət! – Mina üzünü mətbəxə tutub qışqırdı. – Zinka!.. Bu yenə harda batdı qaldı?..

Zinnət qoftasının çirməkli qollarını aşağı sala-sala tələsik mətbəxdən çıxdı.

– Zinka!.. Deyəsən, mən yenə sənin dərsini verməsəm, ağıllanmayacaqsan. İndi də özünü karlığa vurursan?! Get bir tort al gətir!

Qız cəld geri qayıtdı. Minanın qəzəblə parıldayan gözləri birdənbirə güldü.

– Bu saat biz gərək sənin bu "beş"ini əməlli-başlı bayram eliyək, Xədicə xanım... Zinka! Tarixinə bax ha, köhnə tort olmasın.

– Mina bacı, nəyə lazımdır? Niyə zəhmət verirsən qıza?

– Nə? Zəhmət verirəm? Ayda üççə dənə şax-şax yüzlük qoyuram onun ovcuna. Burnundan gəlsin. Boğazının çörəyinəcən, əyninin paltarınacan verirəm. Əvəzində də gedib qulluqçuların arasında qeybət qırır ki, nə bilim, "mənim xozeykam paltarı düjün-düjün yığır, mənə isə köhnəsini qıymır". Qulluqçular da gedib tanış-bilişin arasında yayırlar. O gün bizim tanışlardan biri qabağımı kəsib guya zarafat eləyir ki, "Mina xanım, bu nədir, deyirlər ərinə göz verib işıq vermirsən". Mən ha! Mina! Hamısı bunun qeybətinin nəticəsidir. Qovacam onu... İndiyəcən bilməmişəm sənə bir məktub yazam, kənddən-kəsəkdən dilsiz-ağızsızın birini yollayasan.

Sözün doğrusu, lap məəttəl qaldım. Mina elə həmişəmi belədir? Bəlkə elə doğrudan da Zinnət onu yandırıb? Axı, mən görmüşəm ki, həmişə adam yanıqlı olanda, qabağındakının kim olduğuna o qədər də fikir vermir, ürəyi boşalana qədər danışır. Zinnət doğrudan da elə iş elərmi? Mən onun yaşlı gözlərini, necə fağır-fağır dilləndiyini, evdə necə asta-asta, ehtiyatla yeridiyini xatırladım. Minanın zabitəsinə fikir verdim. "Tanışlardan birinin" Mustafa ilə arvadı barədə dediyini beynimdə dolandırdım, ürəyimə xal üstündən xal düşdü. Lakin mən yenə hər şeyi unutmağa çalışdım. Daha doğrusu, Zinnət tort gətirib süfrə açdıqdan sonra, Mina yenidən deyib-gülməyə, mənim ilk müvəffəqiyyətimdən nə qədər sevindiyini söyləməyə başladı. Mina dedi ki, "Ümumiyyətlə, institutlara gələn kənd qızları şəhər qızlarının çoxusundan fərasətli olurlar. Gecə-gündüz fikir-zikirləri ancaq oxumaq olur. – Burada Mina qəhqəhə çəkib dedi ki, öz aramızdır, Xədicə, axı kəndli qızlarının başqa əlacları da yoxdur, indiki zəmanədə savadsız qışların müştərisi çox azdır, işə keçmək üçün kəndli qızlarının oxumaqdan başqa nə çarəsi var?"

Söhbətin bu yerində mən bərk tutuldum.

– Ay qız, yoxsa öz üstünə götürürsən? – deyə Mina yenə qəhqəhə çəkdi. – Ayıb deyilmi sənin üçün, Xədicə xanım, heç mən

səni elələrilə müqayisə elərəm? Əvvəla, budur ki, qəşəng ağca qızsan. Bir də ki, sənin arxanda Mustafa kimi qardaşın var. Mustafa proyekt üçün əlli min manata doqovor bağlayıb. Bu o deməkdir ki, sən karlı yerin qızısan, müştərin çox olacaq! Bəs nə! Bütün şəhər həsəd aparır sənin qardaşına!..

Minanın dediklərindən tək bir şey məni yaman maraqlandırdı: əlli min manat? Gör mənim qardaşım necə böyük iş görür ki, ona bu qədər pul verirlər. Ağlına, dərrakənə bacın qurban, qardaş, həmişə qələmin iti olsun!..

Mina ilə söhbətimiz xeyli çəkdi. O, arteldə yeni paltar sifariş etdiyindən, imtahanları qurtarandan sonra mənim üçün də paltar tikdirəcəyindən danışdı. Sonra mənə yer saldı. Mən oxumaq istədiyimi dedikdə, yanımda stulun üstünə göbələyə oxşar bir elektrik lampası qoydu. "Gecən xeyrə qalsın" dedi, gülümsünüb o biri otağa keçdi.

Mina məni ürəyinə yaxın hesab eləyib hər şeyi danışdı. O mənim sevincimə şərik oldu, qayğımı çəkdi. Bütün bunlar ürəyimi tel-tel elədi.

Lakin bircə məsələdən – Minanın Mustafa üçün qoyduğu rejimdən razı qalmadım. Çünki ikinci, üçüncü imtahanlarımı da "beş" verib hər dəfə qardaşımın yanına qanadlanıb uçanda, onu yenə yatmış gördüm.

Bakıya gəlişimin həftəsi tamam olmuşdu, ancaq hələ qardaşımla doyunca üz-üzə, diz-dizə oturub söhbət eləməmişdim. Doğrusu, hərdən ürəyimdə Mustafanı məzəmmət eləyirdim: "Arvadının sözü səndən ötrü əmrdirmi ki, bircə dəfə onun qoyduğu rejimi pozub, gündə min kərə canını sənə qurban eliyən bacının yolunu gözləmirsən, ay qardaş. Məni qınama, arvadın bu rejimi sənin işinin yaxşı getməsindən ötrü yox, başqa şeydən ötrü çıxardıb. Mənim üzüm gəlmir bunu sənə deməyə, bəs sən özün başa düşmürsən?"

Mən Minanı çox danışmaqda günahlandırırdım, amma özüm ürəyimdə nə qədər danışırdım. Yetim ki, yetim! Xırda bir əhvalatı ürəyimə salıb qovrulurdum. Ancaq umu-küsülər qardaşımın üzünü görənə qədər olurdu. Axşamlar institutdan tez gəlib hərdən Mustafanı oyaq tapanda, səhərlər, Mustafa işə getməzdən qabaq süfrə başında onunla qabaq-qabağa oturanda rəngim açılırdı. Belə vaxtlarda qardaşım mehribanca gülümsünüb əlini saçlarıma çəkir, "igid bacım, qoçaq bacım!" – deyə məni oxşayır, arabir də o yandan-bu

yandan, hətta institutu bitirdikdən sonra məni aspiranturaya qoyacağından danışırdı. Mən hələ instituta qəbul da olmamışdım, o isə aspiranturadan söhbət açırdı. "Qardaş – tikinti mühəndisi, bacı – alim-fizik!" – deyə o, daha uzaqlara gedirdi. Mən duyurdum ki, Mustafanın xəyalı gələcəyə uçur, o məni doğrudan da bir alim təsəvvür eləyir. Mən aydınca görürdüm ki, qardaşım bacısının fərsiz çıxmadığından fərəhlənir. Görürdüm ki, hər dəfə mənə baxanda qardaşımın yorğun sifəti işıqlanır, arzusunun yerinə yetəcəyinə heç bir şübhə eləmir. Yəqin buna Minanın da şübhəsi yox idi. Bəs birdən-birə ona nə olmuşdu? Mən ilk imtahanı verəndə həqiqətən sevindiyinə şübhə eləmədiyim Mina, yavaş-yavaş tutulmağa, qaşqabağını sallamağa başlayırdı. Niyə? Başım çıxmırdı. Mən ikinci imtahandan qayıdanda o, heç təbrik də eləmədi. Üçüncü imtahandan sonra Mina elə bil qara geyinib yasa batdı. Getdikcə hikkəli, qəzəbli olmağa başladı. Yerli-yersiz Zinnəti acılayır, hətta, qonaq olduğumu yaddan çıxarıb mənə də köntöy-köntöy sözlər deyirdi. Bunun hamısını Mustafa da görüb eşidirdi. Ancaq o, yenə qapının arasından boylanıb, bircə kəlmə "Mina!" – deyib başını bulamaqla kifayətlənirdi. "Kişisən, kişi işini gör, qarışma mənim işimə!" – deyə Mina onun üstünə qışqırır, Mustafa bir daha başını bulayıb qapının dalında yox olduqda Mina təkrarən bir bəhanə ilə yazıq Zinnətin üstünə düşürdü.

Bir səhər mən, instituta getməzdən əvvəl, kitabları götürmək üçün qonşu otağa girəndə, gözüm pianoya sataşdı, yaxınlaşıb qapağı ehmalca qaldırdım, çox sevdiyim "Sənsiz"i astadan çalmağa başladım.

Bir də gördüm Mina xalatının ətəkləri yellənə-yellənə, döşəməni titrədə-titrədə gəlib başımın üstünü aldı.

– Sən... çalırsan?!

Minanın heyrəti məni təəccübləndirdi. Axı söhbətlərimizdən hiss eləmişdim ki, o, kəndli qızlarını adam saymır. Dəyirmi, mühərrik stulun üstündə, ayaqlarımı yerdən üzüb ona tərəf fırlandım.

– Çalıram, – dedim.

– Harda öyrənmisən?

– Uşaq evində.

Mən gözlədim ki, indi Mina sevinəcək, "bir çal, çal görüm necə çalırsan", – deyib məni tələsdirəcək. Lakin o, qaşqabağını sallayıb geri qayıtdı, ara qapını örtdü. Bu nə iş idi?! Mənim bir-birinin ardınca imtahan verməyim, piano çalmağım, qardaşım arvadını niyə yasa

batırırdı? Dərd məni götürdü. Ağlıma min fikir gəldi. Doğruluğuna inana bilmədiyim bu qat-qarışıq fikri Zinnətlə söhbətimiz bir daha təsdiq etdi.

Bir axşam institutdan qayıdanda Zinnəti dəhlizdə döşəməni yuyan gördüm. Qıza yazığım gəldi. Onun qumral saçları dağılıb tərli alnına, yanaqlarına yapışmışdı. Kürəyinin arası su içində idi. Dizlərini döşəməyə qoyub, əllərini yaş əsgidən ayırmadan, başını qaldırıb mənə baxanda gözlərində yorğunluq, dərin bir kədər oxudum. Qızın gözlərinə baxanda elə bil ürəyimin başına köz yapışdı. Tez qollarımı çirmədim. Zinnət mənim fikrimi başa düşüb heyrətlə içini çəkdi.

– Yox, yox, Xədicə!

– Ay qız, bəri ver, – dedim, əsgini çəkib onun əlindən aldım.

Mən döşəməni silib qurtarana qədər o, azı beş-altı dəfə əsgini əlimdən almağa çalışdı. İş qurtarandan sonra kövrəlib mənim üzümdən öpdü.

– Sən yaxşı qızsan, Xədicə! – dedi. Sonra ara qapıya baxdı və əyilib qulağıma ömrümdə ondan gözləmədiyim sözlər pıçıldadı: – Ancaq sən burda qalma!

Onun üzünə baxdım.

– Niyə?

Zinnət qızardı. Nə isə demək istədi. Ancaq tərəddüd elədi, ora-bura baxdı, daha da pörtdü.

– Qorxma, Zinnət, nə sözün var, de, – dedim. – İndicə özün dedin ki, mən yaxşı qızam.

O yenə ara qapıya baxıb pıçıldadı:

– Keçən il Minanın xalası qızı gəlmişdi. O da sənin kimi imtahan verirdi. Verdi qurtardı, axırda Mina onu evdən qovdu.

– Qovdu?! Necə yəni qovdu?

– Dedi çıx get yataqxanaya.

– Sən buna qovmaq deyirsən? Nə olar ki? Yataqxana, əslinə baxsan, daha yaxşıdır. Kurs yoldaşlarının yanında adam oxumağa daha da həvəslənir...

Mən bu cür sözlərlə Minanın hərəkətinə haqq verirdim, ancaq hiss eləyirdim ki, Zinnət "evdən qovulmağın" əsil səbəbini hələ deməyib.

Nəhayət, dedi:

– Mina qısqanırdı.

– Nə?!

– Qısqanırdı.

– Kimə?
– Qızı... Mustafa qardaşa.
– Zinnət!.. Nə danışırsan?! Öz xalası qızını?!
Zinnət başını aşağı əydi.
– Əlbəttə, qısqanmırdı, – dedi.
Mən mat-məəttəl dayanıb ona baxırdım.
– Qısqanırdı, ya qısqanmırdı? Hansına inanaq?
O yəqin ki, mənim səsimdə məzəmməti başa düşüb qızardı.
– Hamısı bəhanə idi, – dedi. – Hamısı ona görədir ki, Mina bu evdə kənar adam olmasını istəmir... Səni də istəmir, Xədicə.
Bərk sarsıldım. Dünya gözümdə qaraldı. Demək, Mina instituta qəbul olduqdan sonra qardaşımın evində qalacağımdan qorxur? Demək, o mənim müvəffəqiyyətimdən buna görə dilxor olur?..
Zinnət qulağıma nə isə pıçıldayırdı. Lakin mənim ona qulaq asmağa halım yoxdu. Onun sözlərindən yadımda qalan bunlardır:
– Mustafa yaxşı adamdır. O vaxt Minaya dedi: "Sən necə insansan ki, doğma xalan qızıyla da yola getmirsən?" Mina bilirsən nə dedi? Başladı ki, "Xalam qızı mənim həyatıma zəhər qatır, öz evimizdə bizim ər-arvad kimi rəftar eləməyimizə mane olur". Elə sözlər dedi ki, eşitsəydin, qulaqlarını tutub qaçardın. Sənin qardaşın yaxşı adamdır, Xədicə, ancaq heyif ki, yazıqtəhərdir, öhdəsindən gələ bilmir onun... Sən yaxşı qızsan... O, yenə keçənilki kimi başlasa, Mustafa dillənə bilməyəcək. Mustafa ipək kimi adamdır, sərt söz nə olduğunu bilmir, bu əzazil də onun yumşaqlığından istifadə eləyir...
Zinnət çox şey danışdı. Ancaq mən tez-tez öz fikirlərimə qapılır, ona qulaq asa bilmirdim.
Birdən ara qapı açıldı. Elektrik lampasının işığında Minanın qızıl boyunbağısı, rəngdən-rəngə çalan xalatı parıldadı. O, bir mənim çirməkli qollarıma, yaş ayaqlarıma, bir də Zinnətə baxdı.
– Oho! – gözləri bərəldi. – Elə bir bu qalmışdı?! Qonağın əlinə əsgi verib, pol yudurdasan? Əclaf qızı, könlündən xanımlıq keçir?! Bir o qalmışdı ki, qonağımızın yanında bizi biabır eliyəsən?..
– Mən özüm elədim. Yazığı nahaq yerə danlama, – deyə onun sözünü kəsdim və qulluqçuya kömək eləyib döşəmə silməyin heç də qəbahət olmadığını başa salmağa çalışdım. Bu dəfə Mina onun işinə qarışdığım üçün nəinki mənə acıqlanmadı, heç bir köntöy söz demədi, əksinə, mənə qayğı göstərdi ki, nahaqca özünə əziyyət

verirsən, sən heç bir işlə məşğul olmamalı, bütün qüvvəni imtahanlara verməlisən...

Mən, üzümü divara çevirib gözlərini silən Zinnətə baxdım, onun dediklərini və neçə gündən bəri Minanın necə qaşqabaqlı, necə hirsli gəzib-dolandığını xatırladım. Quruyub qaldım. Heç nə başa düşə bilmədim. Lakin hələ bu az imiş.

Ailəliklə süfrə başında oturanda görüb-eşitdiklərim əl-ayağımı yerdən üzdü. Mina gülür, danışır, hətta mənim kimi baldızı olması ilə fəxr elədiyini söyləyirdi. Yenə çaş baş qalmışdım, fikir məni götürmüşdü. Bəlkə Zinnət elə doğrudan da dedi-qoduçu qızdır?..

Mina mənim axırıncı imtahandan, fizikadan kəsiləcəyimdən qorxduğunu söyləyir, bu imtahana möhkəm hazırlaşmağımı məsləhət görürdü.

Birdən o, üzünü Mustafaya tutdu:

– Bilirsən, neyləmişəm? – dedi və susdu.

Mustafa çəngəli havada saxlayıb başını qaldırdı. Qardaşım elə yorğun idi ki, deyəsən, dillənməyə də ərinirdi. Ürəyim titrədi: qardaşımın sifəti solmuş, gözlərinin altı kölgələnmişdi. Fikirləşdim ki, deyəsən o, "rejim"dən sonra axşamdan yerinə uzansa da, doyunca yata bilmir.

Fikrimi Mustafanın sualı qırdı. O elə bil sözü ağzından güclə çıxartdı:

– Neyləmisən?

– Zakiri qonaq çağırmışam. Bu saat gələsidir. Deyirəm, gəlsin dodağına bir şey sürtək. Qohumum olanda nə olar? Bu saat hər şey yeməklə keçir.

Mustafa çəngəli nimçənin kənarına qoydu.

– Heç nə başa düşmürəm.

– Sən elə köhnənin dilbilməzisən! – deyə Mina da çəngəli acıqlı-acıqlı boş nimçənin içinə itələdi, salfetlə dodaqlarını sildi. – Deyirəm belə, qızı tapşıraq, kəsməsin, başa düşdün? Doğma qardaşsan, ancaq bacınla maraqlanmırsan! Bu gün zəng vurmuşam instituta. Zakirlə əməlli-başlı danışmışam. Konkursun yekunudur. Axırıncı imtahandan tələbələrin çoxunu kəsib tökəcəklər. Bildinmi?

Mustafa mənə baxıb fəxrlə gülümsündü.

– Mənim bacımı heç kim kəsə bilməz! – dedi.

Məni tər basdı. Məni nə hesab eləyirdi? İndiyə qədər imtahanların hamısından "beş" almışdım, bu axırıncıdan da alacağıma şübhə

yox idi. Lovğalıq olmasın, mən fizikanı beş barmağım kimi bilirəm. Fizika-riyaziyyat fakültəsini nahaq yerə seçməmişəm ki!..

Mən fikirləşdiklərimi beləcə də dedim. Mustafa da sözümü təsdiq elədi. Eh, Minanın bir sözünü iki eləmək olar? Elə hirsləndi ki, ağzından nə çıxardığını da bilmədi. Əvvəlcə məni qanmaz adlandırdı, sonra da qardaşımın üstünə düşdü ki:

– Yəni sənin bu dünyadan qandığın bir şey varmı? Zakir özü mənə deyib ki, "beşin" biri mincə manatdır. İndi bilik-filan keçmir, başa düşdün? Kimin pulu, tanışı var, o da qəbul olunur.

– Bura bax, Mina! – deyə Mustafa yorğun-yorğun etiraz etdi: – Məsəl var ki, bir dana bir naxırın adını batırar...

Birdən qapının zəngi çalındı.

– Zinnət! – deyə Mina otaq dolusu qışqırdı.

Zinnət mətbəxdən çıxıb tələsik dəhlizə yüyürdü.

Gələn kim olsa yaxşı idi? Minanın hacıleylək dayısı oğlu! Mən bu adamla üz-üzə durub kəlmə də kəsməmişdim, bəs onu görəndə nə üçün ətim çimçəşirdi? Adətim üzrə, yenə özümü danlamağa başladım ki, sən də lap qəribə olubsan, Xədicə, adamlara xarici görkəminə görə qiymət verirsən.

Özümü danladım. Ancaq bu dayıoğlu ilə, ilk görüşümüzdə olduğu kimi, yenə də özümü sındırmadım. Onun Minanın dediyi Zakir müəllim olduğunu bildikdə elə bil ürəyimin bir teli qırıldı. Minanın dayıoğlusuna necə qonaqlıq eləyib, "dodağına nə sürtdüyünü" də, mənim haqqımda nə danışdıqlarını da bilmədim. Durub o biri otağa keçdim. Mən tək bircə şeyin fikrini eləyirdim. Yəni o qədər acizəm ki, müəllimə tapşırırlar?! Belə də çirkin iş olar? Görəsən Mustafa bu işə nə deyir? Mən nə üçün onların yanından qalxdım? Elə o Zakir müəllimin yanındaca deyə bilməzdim ki, mən fizika imtahanından qorxmuram, mən fizikanı beş barmağım kimi bilirəm, mən fizikanı sevirəm; mən heç bir tapşırığa ehtiyac duymadan instituta qəbul olunacam, institutu bitirəcəm, sonra da aspiranturaya girib alim-fizik olacam – bu, qardaşımla mənim arzumuzdur! Mən bunları deyə bilməzdimmi? Sabah bu müəllim imtahan götürəndə mənim haqqımda nə fikirləşəcək?.. Nə isə, olan olmuş, keçən keçmişdi...

Səhər imtahana gedəndə ürəyim çırpınırdı. İndiyə qədər imtahanların heç birində bu qədər sıxılmamışdım. Minanın dayısıoğlunun qalın şüşələr arxasından baxan gözləri gözlərimin qabağından getmirdi. Bu gözlər məni qorxudurdu, canıma üşütmə salırdı.

Biz imtahan otağının qabağına toplaşmışdıq. Bürkü idi. Pəncərə qabağına keçmək, institutun həyətindəki bağçaya çıxıb ağacların kölgəsində sərinlənmək olardı. Ancaq sərinlikmi yada düşürdü?! Yanımda mənim kimi balacaboy, ağ kəlağayılı bir qız dayanmışdı. Yazıq tir-tir titrəyirdi.

– Səhərəcən oxumuşam. Beynimdə hər şey bir-birinə qarışıb, – deyə pıçıldayırdı.

– Elə səhərəcən oxuduğun üçün qarışdırırsan da, – deyə ucaboy, qarayanız bir oğlan, arxasını divara söykəyib istehzalı nəzərlə kəlağayılı qıza baxırdı. – İmtahanqabağı gərək heç nə oxumuyasan. Bax, bu lələşin gecə saat on ikiyəcən dağüstü parkda gəzib, sonra kəlləni atıb yatıb. İndi gör necə bülbül kimi cəh-cəh vuracaq.

Oğlan qapının açar yerindən içəri baxdı.

– Eh, növbəmiz çatmaz ki! – deyib papağını əlində oynada-oynada bizdən aralandı. Bir az o yanda onun bir başqasına istehza elədiyini eşitdim: – Aya, Nyuton qanunu kimi məşhur bir şeyi bilmirsən? Bəs necə imtahana gəlibsən, balam! Oturaydın nənənin dizinin dibində!

Bu oğlan başqalarına yuxarıdan aşağı baxsa da, özünə inamı yaman xoşuma gəldi. Məktəbdə bizim fizika müəllimi belələrinə bircə kəlmə ilə qiymət verərdi: "Kəllədir!" Bir istədim onunla, müəllimimizin sözü olmasın, "kəllə kəlləyə gəlim", suallaşım, bir daha özümü yoxlayım, bəlkə bu ürək döyüntüsündən, bu sıxıntıdan qurtara bilim. Elə bu vaxt qapı açıldı, içəridə mənim ad-familimi çəkdilər. Mən, Zakir müəllimin gözlərinə baxmamağa çalışaraq, keçib bilet çəkdim. Əllərim titrəyirdi. Ancaq sualları oxuyar-oxumaz elə bil ürəyimə su səpildi. Suallarımın üçünü də bilirdim! Bundan da böyük xoşbəxtlik olarmı?! Fikirləşmək üçün ayrılmış stollara yaxın da getmədim. Hətta, bu dəfə, bədənimə lərzə salan o qorxunc gözlərə baxmağa cəsarətim çatdı.

İmtahan vərəqəmi müəllimin qabağına qoydum. Suallarımın üçünü də birnəfəsə danışdım. Susdum. Gözlədim. Müəllimin nəinki eyni açılmırdı, əksinə, gözləri daha da ölgünləşib qorxunc bir şəklə düşür, sallaq dodağı daha da sallanırdı. Birdən bu dodaqlar yavaş-yavaş, elə bil çətinliklə aralandı, mən xırıltılı bir səs, dəhşətli bir kəlmə eşitdim:

– Bilmirsən!

Gözlərimə qaranlıq çökdü. Qarşımda bu eybəcər adamın gözlüyünün şüşələrinin sönük parıltısından başqa heç nə görmədim. Ona nə dediyim, imtahan otağından necə çıxdığım yadımda deyil. Təkcə o yadımdadır ki, özümə gəlib yan-yörəmə baxanda özümü institutun qabağında, skamyada oturmuş gördüm. Axşam düşürdü. İnstitutun qabağında heç kəs yox idi, hamı çəkilib getmişdi. Məndə ayağa durmağa taqət qalmamışdı. Bu necə olan işdi? Mən niyə kəsildim? – deyə fikirləşirdim. Ancaq heç nə başa düşə bilmirdim.

Nə qədər vaxt keçdiyini hiss etmədim.

İnstitutun qabağında bir maşın dayandı. Qırmızı şlyapalı, qırmızı tuflili bir qadın maşından düşdü. Sonra institutdan uzun bir adam çıxdı. Onlar qarşılaşanda Mina ilə dayıoğlusu olduğunu gördüm.

– Hə, dayıoğlu, işlər necədir? – deyə Mina ucadan soruşdu.

Dayıoğlu iki barmağını yuxarı qaldırdı və xırıltılı bir səslə bərkdən güldü. Mən bu işarəni başa düşmədim.

– Qonaqlığın üstə sən istəyən qonaqlıq da gəldi, afərin! – deyə Mina onun qoluna girib maşına sarı çəkdi. Maşın tərpənəndən sonra, necə oldusa, mən yenə imtahan vərəqəmə baxdım, orda yazılmış "iki" sözü yanında dayıoğlunun iki barmağı gözümün qabağına gəldi. Dəli kimi ayağa sıçradım. Maşına tərəf yüyürdüm. Lakin o sürətlə uzaqlaşdı, arxasında qoşa qırmızı işıq...

Qapını Zinnət açdı. Sualı sual üstündən yağdırdı. Elə bil dilim-ağzım bağlanmışdı. Hey susur, qəhərimi boğa-boğa otaqdan-otağa keçir, qardaşımı axtarırdım. Ancaq, adamın işi tərs gətirəndə hər tərəfdən gətirirmiş: Zinnət dedi Mustafa nazirliyə, müşavirəyə gedib.

Taqətsiz halda divanda oturdum. Niyə otururdum? Mən daha bu evdə otura bilərdimmi? Yoxsa, qardaşıma şikayət eləmək, ondan kömək istəmək fikrində idim?..

Birdən, qardaşımın qapı arasından boylanıb bircə kəlmə "Mina!" – deyib başını buladığını, Minanın isə əllərini belinə qoyub qışqıraraq onun üstünə yeridiyini, Mustafanın dərhal qapı dalına çəkilib, öz stolunun arxasına qapılıb qaldığını xatırladım.

– Zinnət, bilmirsən Tiflis qatarı nə vaxt yola düşür? – deyə soruşdum.

Yarım ay əvvəl məhəbbətlə dolu bir bacı ürəyilə qapısını açdığım qardaş evini buz kimi soyuq ürəklə tərk elədim...

* * *

Qatarda oturub, çamadanımı dizlərimin üstünə qoyub kağız-qələm götürmüşəm. Yazıram, ürəyim boşalmır. Gözlərimin yaşı sətirləri bir-birinə qarışdırır. Ona görə ağlamıram ki, kəsilmişəm. Mən yenə qayıdacam, yenə imtahan verəcəm. İnstituta qəbul olunacam, gözəl şəhərimizdə doyunca gəzəcəm də. Mən ona görə ağlayıram ki, Mustafa kimi bir qardaş itirmişəm. Ağlayıram və düşünürəm: axı necə olub ki, Mustafa elə bir adamla ömür-gün sevdası eləyib? Təkcə zahiri yox, daxili də cəllad olan o adamla Mustafa necə yaşayır? Qardaşımın bu günə düşməsinə, elə yazıq, rəzil olmasına səbəb nədir? Mənim o evdən çıxıb getməyimi məsləhət görən Zinnətin özünün bu qədər məktəbləri, fabrikləri, zavodları, kolxozları, sovxozları qoyub o can sıxan, dörd divar arasında qalmasına səbəb nədir?.. Saysız-hesabsız suallar bir-birini əvəz edir, başa düşmək, yazıb ürəyimi boşaltmaq istəyirəm, lakin heç nə başa düşə bilmirəm.

Mənə elə gəlir ki, bizim şəhərdə Mustafa kimi qardaşı, Mina kimi qardaşı arvadı, Zinnət kimi tanışları olan təkcə mən deyiləm. Mən hələlik Bakıdan gedirəm. Qoy o bacılar öz qardaşlarına və onların arvadlarına yaxşı-yaxşı diqqət yetirsinlər, bəlkə onlar başa düşdülər.

*1953*

## SABİR ƏHMƏDOV

(1930)

*Sabir Əhmədov Cəbrayıl rayonunun Cəbrayıl kəndində doğulmuşdur. Həmin kənddə orta təhsil almış və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir (1951).*

*Əmək fəaliyyətinə ADU-nu bitirdikdən sonra başlamış, Cəbrayıl rayon məktəbində müəllim (1951-1954), Şükürbəyli kənd məktəbində direktor (1955-1956), "Ədəbiyyat və incəsənət" qəzetinin redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri və baş redaktor vəzifələrində çalışmışdır.*

*Bədii fəaliyyətə tələbəlik illərində başlamış, XX əsr Azərbaycan ədəbiyyatı tarixində böyük nasir-romançı kimi məşhurlaşmışdır. "Aran", "Görünməz dalğa", "Yamacda nişanə", "Yaşıl teatr", "Toğana", "Yasamal gölündə qayıqlar üzürdü", "Mavi günbəz", "Gedənlərin qayıtması" kimi povest, romanları və "Bir payız axşamı" hekayəsi də daxil olmaqla eyniadlı kitabı XX əsr bədii nəsrinin şedevrlərindən sayılır. Xidmətlərinə görə Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1984) və Azərbaycanın xalq yazıçısı (1992) fəxri adlarına layiq görülmüşdür. Yazıçının bu cildə daxil edilmiş "Bir payız axşamı" hekayəsi onun eyni adlı kitabından (B., Uşaqgəncnəşr, 1961) götürülmüşdür.*

### BİR PAYIZ AXŞAMI

(*Hekayə*)

**1**

O, mülayim bir oğlan idi. Maşının izi düşən kəndlərdə tanıyan-bilən hər kəs onu xoş üzlə qarşılayar, hamı ürəyi açıqlıqla salamını alar, evə təklif edərdilər. "Heç şoferə oxşamır, axı bu peşənin sahibləri ayrı tayfadandırlar", – deyə MTS-in direktoru da öz şoferi Mövlandan razılıq edərdi.

Səhərin gözü açılar-açılmaz, bəzən də lap sübhün ala-toranında idarədən çıxardılar. Yeddi para kənd gəzib, neçə kolxoz dolanıb, əkinə, biçinə, fermalara, traktor kolonlarına baş çəkib yoxlayırdılar. İş çox, qayğı çox. Bəzən görərdin ki, onları bir evə çörəyə dəvət

etdilər. Direktor gedər, Mövlanın da dalısınca bir uşaq yollayardı ki, maşını qapıya çəksin, özü də gəlsin. Di gəl ki, Mövlanı apara biləcəksən! İyirmi altı yaşına çatmış oğlan bir ata qədər pərdəli dolandığı direktoru ilə qabaq-qabağa oturub çörək yeməkdən həyalı qız kimi çəkinərdi.

O, evdə də belə idi. Səhərlər heç kimi oyatmadan çıxar, bir də qaranlıq çökəndə onun QAZ-69 markalı maşınının yumşaq tırıltısı qapıda eşidilərdi. Mövlanın qarayanız, sərt cizgilərlə ciddiləşmiş üzündə, səsində, danışığında yorğunluqdan əsər-əlamət görünməzdi. Maşının səsini eşidən kimi birlikdə yaşadıqları bacısı Qələmin iki balaca uşağı: "Dayım gəldi!" – deyə haray qoparıb həyətə qaçardı. Bəzən çöldən evə dönəndə Mövlan maşını təzədən işə salıb bacısı uşaqlarını yanında oturdar, kəndin arasından dəmir yoluna enən asfalt yolla birbaş üzü aşağı aparıb dairə vurar, bir maşını üzü yuxarı döndərib qayıdardı. Həyətdə saxlayıb:

– Di, düşün! – deyə uşaqların maşından düşməsinə kömək edərdi. On-on beş dəqiqəlik gəzinti, kənd axşamının yüngül havası uşaqları elə dirçəldər, ürəklərini elə sevindirərdi ki, elə bil onlara dünyanı bağışlayardın. Bəzən uşaqlar səhərdən axşama kimi bir yerdə qərar tuta bilməyib, gah yola qaçar, gah evə girib pəncərənin qabağını kəsdirər, dayıları üçün qəribsəyər, onun yolunu gözlərdilər.

Bəli, onların dayısı belə dayı idi. Sanki onlar bu dayılarını görəndə, atanı da, ananı da unudar və elə bilərdilər ki, "ətəyindən çay axan, kürəyində hündür dağlar dayanan bu böyük dünyada" bircə dayılarıdır, bircə onlardır, bir də üstü meşinli, quş kimi uçan maşın.

Son vaxtlarda isə Mövlan hər dəfə işdən evə dönəndə, bir qolunun üstə bacısının ərik kimi Sarı qızı, bir qolunun da üstə boynuna sarılıb qopmaq bilməyən balaca Tapdıq içəri girəndə Şəmkirlə Qələm baxışardılar. Elə bil ki, o anda ikisinin də ürəklərindən bir arzu keçər, gözləri də bir diləyin həsrətilə dilə gələrdi. Axır ki, bir axşam Mövlan o biri otağa keçəndən sonra Qələm ürəyindən keçəni Şəmkirə açdı:

– Bunun da ev qurmaq vaxtı çatıb. Cavan oğlandır. Qoy, savaya düşməsin.

– Di qoy, mən də öz könlümdən keçəni söyləyim, – deyə Şəmkir də Qələmin fikrinə şərik olduğunu bildirdi.

Mövlan üçün kimi seçməli? O özü bir gözaltı eləyibmi? Danışdığı, sözləşdiyi bir qız varmı? Çox güman ki, yox. Bəs

könlündən keçən kimdir? Heç olmazsa uzaqdan-uzağa qəlbinə yatan, ürəyinə istilik salan bir qızın həsrətini çəkmirmi? Bunu Mövlanın özündən soruşmaq olmazdımı? Çox çətin. Heç ağıl kəsməzdi ki, bu barədə Mövlandan bircə kəlmə qopara biləsən. Atalarının əziz yadigarı kimi öz canından da çox istədiyi təkcə qardaşı Mövlanın ev-eşikdə dolanmağına göz qoyan Qələm onu intizarda saxlayan sualına cavab verəcək heç bir iz-əlamət seçməmişdi. Mövlanın ailə qurmağına kömək etməyi öz ata-analıq borcları bilən Şəmkirlə Qələmin də işlərini çətinə salan oğlanın xasiyyətindəki bu qəribəlik idi.

Onlar müxtəlif tədbirlər düşünməkdə ikən bir axşam Mövlan evə təzə xəbər gətirdi ki, bəs, qohumları Cəbo onların kəndindəki məktəbə direktor təyin edilmişdir. Yolu rayondan düşən Mövlan Cəbo ilə görüşmüş və bu xəbəri də onun öz dilindən eşitmişdi. Hamılıqcan şad oldular. Şəmkir və Qələm isə lap sevindilər. İşığın ucu açılmışdı.

Mövlanla Cəbo kənddə bir böyümüşdülər.

Mövlan kolxoz şoferlərinin yanında hərlənmiş, maşın yumuş, açar silmiş, kamer yamamış, şoferlərlə bəhsə girib qolları keyiyənəcən nasos vurmuş, axırda da ki, müstəqil işləməyə başlamışdı.

Mövlandan bir neçə yaş böyük olan Cəbo isə ali məktəb qurtarmış, qayıdıb rayon mərkəzindəki orta məktəbdə müəllim olmuşdu. Cəbo Mövlanın üstündə hələ bir dəfə evlənmiş, gəlmə bir müəlliməni almış, ili başa çatmamış ayrılmışdılar.

Deyirdilər ki, Cəbo da təzədən evlənmək üçün qız axtarır.

İndi də Cəbonun yolunu gözləyirdilər: “Salarıq Mövlanın üstünə, ağzını arayar. Bilib görərik ki, ürəyinin dərdi nədir? Yəqin ki, Mövlan öz könlündəkiləri ondan gizlətməyəcək. Qohum-əqrəba yaxşı şeydir. Qol-qanaddır”, – deyə məmnun halda düşünürdülər.

İki gündən sonra isə dost-qohumlarının yaxınlıq əlaməti olaraq Cəbo deyə çağırdıqları Cahangirin özü də gəlib çıxdı. Kənddə ev tutana kimi o hələlik Şəmkirgilə düşdü. Otuz-otuz iki yaşlı, kişilik həddinə çatmış Cəbo deyib-gülən, söhbətcil bir oğlandı. Özünün zarafatla dediyi kimi, birdən kənd arasında elə asqırardı ki, itlər də diksinib hürüşərdilər.

Qələmgil elə bilmişdilər ki, ilk oxunun daşa dəyməsi Cəbonu məyus etmişdir. Amma yox, əksinə, Cəbonun kefi indi əvvəlkindən də kök idi. O, Şəmkirgilin evinə özü ilə bir səs-küy gətirdi. Dedilər-

güldülər. Yedilər-içdilər və bir gün Cəbo özü üçün kəndin lap baş tərəfində bir ev tutub köçəndə də:

– Üz-gözümüz öyrəşib, tək-tənha gedib orada nə qayıracaqsan? Qal bizdə. Mövlan da təkdir, – deyə Şəmkir təklif etdi.

– Təklik sultanlıq, bəylikdir, – deyə Cəbo dərdsiz, qayğısız güldü. – İsfahana köçmürəm ha. Aramız bir çatılıq yoldur. Hər axşam payımı saxlayın.

Cəbo getdi. Amma Qələmin təvəqqesini yadında saxladı. Bir görüşlərində Mövlanı dara qısnayıb ondan könlündən keçəni soruşdu. Mövlan da bir az tutulub-bozardı, utanıb-qızardı, yaz suları kimi çağlayaraq onu alıb aparan hisslərini sakitləşdirə bilmədi. Axır ki, qəlbinin sirrini qohumları Cəboya açdı.

Mövlanın qəlbini ömründə ilkin çalan o qız idi. Sanki ikicə yol rastlaşdığı bu qızdan savayı qız tanımırdı. Həmin qızın unudulmaz baxışları, dağ bulaqlarını andıran o sevdalı, arzulu baxışla oğlanın qəlbinə axmış, onun bütün varlığını oyatmışdı. Mövlan bu qızın nə adını bilirdi, nə də əslini-kökünü tanıyırdı.

Bir yay günü, şənbə axşamı Mövlan direktoru evinə gətirirdi. Maşın rayon mərkəzi olan qədim qəsəbənin arasından keçib çaylağa düşdü. Çaylağın o tayında tikan çəpərli bağ-bağatın üstündə, batan günəşin qızıl şəfəqləri parlayırdı. Qırmızı sırğalar təki yarpaqların arasından asılan topa-topa sulanmış gilənarlar da mənzərəli bağçanı lap behiştə bənzədirdi. Şaxların arasında çöhrəsi on dörd gecəlik ay kimi dəyirmi, qaşı-gözü kömür kimi qapqara cavan bir qız dayanıb üzü bəri tamaşa edirdi.

Maşın silkələndi və arxa düşdü. Direktor Mövlana baxdı. Çox təəccübləndi. Heç gözləməzdi. Mövlan ola, maşını arxa sala? Şofer qıpqırmızı olub gözlərini qabağa dikdi. O, qəribə hallar keçirirdi. Direktor onun görünüşündə nə isə heyrətəmi, fərəhəmi bənzər bir təbəssüm duydu. Özü də heyrətləndi. Altdan-altdan şoferə ha baxdısa, bir şey anlaya bilmədi. Amma bunu yəqin etdi ki, sakit, adəti üzrə sükanın dalında ciddi oturan, həmişə də fikri-zikri gedəcəyi yollarda olan şoferinin halında nə isə baş verdi. Direktor maşının yan şüşəsindən, qabaqdan ətrafa göz gəzdirdi. Amma arxın suyunda çapışan uşaqlardan və dalında səhəng kəhrizə gələn qoca arvaddan başqa, gözünə adam dəymədi...

Əgər Mövlan həyəcandan dili dolaşa-dolaşa, tər tökərək, bu hadisəni ala-yarımçıq nağıl edərkən Cəboya göz qoya bilsəydi, onun

necə rəng alıb rəng verdiyini görərdi. Cəbo söhbətin kimin barəsində getdiyini dərhal başa düşmüşdü. O, qızı tanımışdı. Bunu da Mövlandan gizlədə bilmədi. Soyuq və uzaq bir hisslə qızı belə nişan verdi:

– Hə, bildim kimi görmüsən. O qızın adı Cangülümdür. Hana artelində gözətçilik edən Bəşir kişinin qızıdır. Qız özü də xalça toxuyur.

Mövlan nəfəsini udub dərin bir maraqla Cəbonu dinlədi. Sonra, qızı ikinci dəfə necə gördüyünü danışdı.

Bu isə cəmisi bir həftə bundan qabaq olmuşdu. Mövlan direktoru evinə qoyub geri qayıdırmış. Kəhrizdən su götürüb üzü bəri gələn Cangülüm ayaq saxlayıb gözləyir ki, maşın ötsün. Mövlan da ixtiyarsız qalıb ayağını tormoza basır, maşını dayandırır ki, çiyni səhəngli qıza yol versin. Cangülüm maşının qabağından yeriyir və bircə dəfə səhəngin altından boynunu burub Mövlana baxır. Amma necə baxır? Qərib düşmüş maral kimi.

Cəbonun gözləri bir cüt qara muncuq kimi donmuşdu. Baxışları heç bir şey demirdi. O susurdu. Mövlanın qəlbini pərvazlandıran hisslər, həyəcanlar Cəbonun ağlına başqa xəyallar, ayrı niyyətlər gətirmişdi.

Ayrılarkən o, bir qədər düşünüb belə dedi:

– Nə deyim? Bəlkə də, heç sən gördüyün qız, mən tanıdığım Cangülüm deyilmiş.

Mövlan başını buladı, gülümsədi. Yox, onun ürəyinə dammışdı ki, elə o qızın adı Cangülümdür. Özü də xalçaçıdır.

Cəbo nanəciblik etmədi. Mövlanın söhbətlərindən çıxardığı nəticəni Qələmə dedi. Amma qızın adını çəkmədi. Çarəsiz halda qollarını açıb əlavə etdi:

– Qələm, oxunu atıb yayını gizlədir.

## 2

Mövlan son günlərdə evdə nə isə bir hərəkət, tərpəniş duyurdu. Şəmkirlə Qələm hazırlıq görürdülər.

İndi Mövlanın gününün hər dəqiqəsi, hər anı ürək çırpıntıları ilə keçir, xəyalı Cangülümün yanında qalır, ikicə dəfə gördüyü qızın baxışlarındakı məlahəti, çöhrəsindəki şirin təbəssümü unuda bilmirdi: “Barı, bircə kəlmə danışa bilsəydik”. Cangülümün bircə kəlməsini, onun səsini eşitmək üçün Mövlan nəyə hazır deyildir?

Direktor Mövlanı çağırıb:

– Rayona gedirik. Partiya bürosu var, – deyərkən Mövlanın bircə qanadları əskik idi ki, uçsun.

– Baş üstə, – deyə o, evə dönüb dərhal maşını işə saldı və MTS-in qabağına çəkdi. Yuxarıdan, yaşıl döşlü Ziyarət dağı tərəf-lərdən axıb gələn axşam sərini ətrafı bürümüşdü. Mövlan maşını tərpətdi. Baxışları hərdən yolu ötüb aralıda – dağ ətəyində görünən qəsəbəyə sataşarkən qeyri-ixtiyari qazı basır, maşını qovurdu. Sel kimi maşını qabaqlayıb, sel kimi də təkərlərin altından arxaya ötən yola baxdıqca direktoru:

– Yavaş, bala, yavaş, Mövlan, – deyə dillənir, yüngül maşın hər dəfə dərəli-təpəli yolların döngələrini şıdırğı burularaq götürülər-kən direktor narahat halda yerində qurcunur, Mövlana göz qoyur və düşünürdü: “Nə yaman od götürüb? Görəsən arğac kimdən keçib? Yox, balam, bu iş o işdən deyil!”

Əli sükan tutandan bircə dəfə də olsun heç kimi narahat-nigaran qoymayan Mövlan isə direktorun bu təşvişini duymur, eşitmirdi.

Raykomun qabağında direktor yerə düşüb üst-başını düzəldəndən sonra mənalı-mənalı baxıb:

– Maşın bərk qızıb, apar sərinlət, – dedi.

Maşın çaylağa dönərkən yay günəşi də üç armud ağacının başı üstdən o yana aşırdı. Dağ ətəyindəki qəsəbəyə bitişik Mirzəli kəndi gözəl mənzərə almışdı. Qürub edən günəşin sarı telləri uzanaraq bağ-bağatı zərrin şəfəqlərə boyamış, üfüqlər isə ətəklənərək qızıl-dan köbə bağlamışdılar. Mövlan gilənarlı bağçaya tərəf baxdı. Baş kəhrizdən şaqqıldayıb gələn su, çaylağın o yanı ilə, Cangülümgilin çəpərinin lap dibindən şırıldayıb bəri axırdı. Maşının motoru qızıb tövşüyürdü, təkərləri toz basmışdı. Mövlan çaylağın o yanına addayıb maşını üzü yuxarı suya vurdu. Dumduru kəhriz suyu təkərlərin altında yarılaraq mirvari çətir kimi yuxarı çilənir, ətrafa səpələnirdi. Quraqsımış torpaq sulanır, tozu yatır, yerdən xoş yanıq qoxusu qalxırdı. Gümüş qanadlı maşın suyu yara-yara irəliləyirdi. Çəpərin bərabərində Mövlan maşına bir az da güc verdi. Arxın suyu şırıltı ilə qalxıb alçaq tikan çəpərin o üzünə töküldü.

– Uy! – deyə kimsə həyəcanla səsləndi.

Bu səs Mövlanın ağlını apardı. Maşın sürətdən düşdü.

Əvvəlcə pənbə kimi ağ, iki əl göründü. Bu əllər gilənar budaq-larını araladı və Cangülümün üzü görsəndi. Yanaqlarından su damcıları

süzülürdü. Üst-başı islanmışdı. Səksənmiş ürəyini toxtatmaq üçün əlini sinəsinin üstünə basıb böyümüş gözlərilə ürkəkcəsinə baxırdı. O, başındakı ağ cunası ilə üz-gözünü silə-silə:

– Bir az yavaş sürə bilməzdin? – dedi və bilmədi ki, gülsün, yoxsa özünü hirsli göstərsin.

– Bağışla... mən nə biləydim ki, orda duran var. Ağaclarınız da elə sıxdır ki...

Cangülüm gözlərini ona dikmişdi. Oğlanın baxışları dərin bir könül intizarı, qəlb həsrəti ilə dolu idi.

Qız geri çəkildi. Qırmızı sırğalı budaqlar qovuşdu. Heç olmazsa bircə kəlmə də eşitmək həsrətilə Mövlan gözlədi. Budaqlar arxasından Cangülümün özü kimi göyçək səsi eşidildi:

– Gərək biləydin.

Otlar xırpıldadı, uzaqlaşan addımların tappıltısı cavan şoferin qəlbində əks-səda verdi.

Mövlanla Cangülüm bir dəfə də rastlaşdılar. Bu dəfə onlar çaylağın bərisində, bağlığın qırağındakı bulağın üstündə görüşdülər.

Cangülüm bir yığın paltarı suya çəkib qurtarırdı ki, Mövlan çatdı. O, maşına su götürməyə gəlmişdi.

– Olarmı, bu vedrə ilə maşına bir az su töküm, Cangülüm, – deyə icazə istədi.

Qız qıpqırmızı olub:

– Mənim adım Cangülüm deyil, – dedi.

Mövlan da başa düşə bilmədi ki, doğrudanmı onun adı Cangülüm deyil. Yoxsa, qız öz adını bir cavanın ağzından eşidərkən həya etmişdi. Deyəsən qızı pərt edən adındakı məna olmuşdu.

– Bəlkə, keçən dəfə məndən incimisən?

– Yox, inciməmişəm, – deyə o, əlindəki paltarı biləyinə dolayaraq sıxdı və kənara qoydu. Sonra dinməz-söyləməz vedrəni götürüb içindəkiləri boşaltdı, bulağın ağzına tutub doldurdu və Mövlana uzatdı.

Mövlan vedrəni alarkən maşına işarə ilə dedi:

– Savab elədiniz. Ürəyi yanırdı.

Cangülüm başını dikəltdi:

– Bax, Qələm bacıya sifariş göndərərəm ha, – deyə onu hədələdi, – yoxsa elə bilirsən səni tanıyan yoxdur?

Vedrə Mövlanın əlində qaldı. Qızın sözləri onu həm mat qoymuş, həm də məmnun etmişdi. Onlar tanış çıxmışdılar.

Cangülümgilin qonşuluğundan suya gələn bir gəlin xeylağı yaxınlaşan kimi onlar bir qədər də danışa bildilər. Ayrılarkən Mövlan:

– Bir gün də bu maşını qapınıza sürəcəyəm, – dedi.

Qız onun nəyə işarə vurduğunu anlayıb üzünü yana tutdu. Maşın aralanarkən Mövlan qızın allanmış çöhrəsində həyalı bir təbəssümün əks olunduğunu gördü.

**3**

Axı Cəbonun da gözü gəzirdi. Qulağı səsdə idi. O da evlənmək üçün qız axtarırdı. Mövlan Mirzəlidə gördüyü qızdan söz açarkən, elə bil, Cəbonu ayıltdılar. "Cangülüm elə əsil mənim adamımdır. Əlləri, dırnaqları qızıldır. Deyirlər ayda bir hana kəsir. Onun toxuduğu üçgül gəbələr bir evin yaraşığıdır. Cangülüm bir evin dirəyidir. Həm də arlı-abırlı. Üzü üz görməmiş, gözü gözə sataşmamış ev qızıdır". Cəbo marığa yatıb bərədə ov gözləyən bir acgöz ovçu kimi iştahlanaraq Cangülümün haqqında düşünərkən, Mövlan onun qabağını kəsirdi. O, şəksiz-şübhəsiz bilmişdi ki, Mövlanın gilənar bağçada gördüyü qız Cangülümün özüdür. İndi necə əməl qursun ki, nə şiş yansın, nə kabab? "O vədə elə onu yaxşı yanıldım. Əgər söz-söhbət düşsə, and-aman eləyərəm ki, mənim xəbərim olmayıb. Mirzəlidə qız çox, gilənarlı bağça çox. Mən münəccim olub ulduzlara baxmamışdım ha ki, biləm görəm Mövlan kimi görüb". İşi bu cür yoluna qoyandan sonra Cəbo öz-özünə deyirdi: "Çətini düzəlincədir. Daldan atılan daş topuğa dəyər, ölünün vəsiyyəti özünə qalar. Mövlana qız tapmaq nə çətin iş imiş. Papağını götürüb bircə yol fırlatsan, qız əlindən itib batarsan".

Bir axşam Qələm Mövlanı dilə tutub əl çəkmədi:

– Qağa, – dedi, – sənin ağbirçəyin, ağsaqqalın bizik. Gennən baxan bizi qınayar. Könlündən keçəni bizə de, Şəmkir dursun qabağa.

Mövlan başını dikəldib tərəddüd içərisində Qələmə baxanda:

– Qağa, kimdən utanırsan? Nədən utanırsan? – deyə Qələm onun dillənəcəyini duyub ürəkləndi.

Mövlan bir də Qələmə baxdı. Bir örtülü qapıya göz qoydu, baxışları uzaqlaşdı, gözləri yol çəkdi. "Görəsən onun adı Cangülümdürmü?" – deyə düşündü.

Qələmin gözləri onun ağzında qalmışdı.

– Cangülüm, – deyə nəhayət, Mövlan sevdiyi qızın adını çəkdi. Qələmin rəngi qaçdı. Nitqi tutuldu. Şübhəli nəzərlərlə Mövlana baxıb:

– Cangülüm? – deyə soruşdu.

Eşitdiyinə inanmaq istəməyərək bir də təkrar etdi:

– Cangülüm, Mövlan?

Mövlan bu dəfə ancaq başını tərpətdi. Qələm isə daha bir söz deməyərək onu otaqda tək qoyub getdi. Bacısının bu halı Mövlanın da qəlbini təşvişə saldı.

Yalnız sabahısı gün o, Qələmin nə üçün o kökə düşdüyünü anladı. Sən deməginən iş ayrı cürə imiş. Dünən yox, srağagün Cəbonun elçiləri Cangülümgilə getmişdilər.

## 4

Günlər ötür, il payıza dönür, işlər də öz qaydası ilə gedirdi. Yenə də Mövlan obaşdan durur, arxın suyunda əl-üzünü yuyur, maşını işə salıb direktoru sahələrə aparırdı. Payız əkini başlandığından onların yolu uzaqlara düşmüşdü. Bəzən heç gecələr də evə dönə bilmirdilər. Buralardan çox aralıda gecəli-gündüzlü xam Göyən torpaqlarını şumlayan traktorçuların köməklərinə çatmaq üçün Mövlan hər gün daşlı-kəsəkli yollarla əlli-altmış kilometr maşın sürməli olurdu.

Cangülümün adı isə unudulmaz bir xatirəyə dönüb onun qəlbindən çıxmırdı. Gilənarlar sovulmuş, yarpaqlar da saralmağa başlamışdı. Amma Cangülüm hər dəfə yadına düşərkən Mövlanın gözlərində ətraf öz mənzərəsini dəyişirdi. O, yaşıl bağı, tikan çəpərin üstündən bəri aşan cavan-tər budaqları görürdü. Bir qız da şaxları aralayaraq bədirlənmiş çöhrəsini göstərirdi...

Mövlanın gün-gündən tutulduğunu görən Qələm və Şəmkir evdə onu çox dindirib danışdırmırdılar, havalar sındığından sarı saçlı qızcığaz, balaca Tapdıq da əziz dayılarını qarşılamaq üçün əvvəlki həvəsdə deyildilər.

Mövlan gözləyirdi, eşitmişdi qız evi cavab verib: hələ Cangülüm hana qabağındadır. Möhlət istəmişlər ki, Cangülümün toxuduğu xalı yarımçıq qalmasın. Bəs Cangülüm özü nə deyib? Bunu Mövlan bilmirdi.

“Bəlkə, doğrudan da, heç o qızın adı Cangülüm deyil?” İndi heç özünün də inanmadığı bu şübhəli fikir, nə qədər kədərli olsa da, Mövlanın yeganə təsəllisi idi.

Bir axşamüstü Mövlan elə təzəcə evə gəlmişdi ki, onu səslədilər. Çıxıb gördü ki, çağıran Cəbodur. Onlar nə danışdılar, nə qoydularsa Mövlan ayrılıb ağır-ağır maşının yanına qayıtdı. O, bulud kimi qaralmışdı. Əgər başqa birisi, lap iki gözləri olsun, onun yanına belə bir xahişlə gəlsə idi, qətiyyən razılıq verməz: “İncimə, eloğlu, dövlət maşınıdır, belə şey mümkün deyil”, – deyib yola salardı.

O, bir neçə an lal kimi maşının yanında durdu və sonra maşına mindi, yola çıxartdı. Cəbonu da götürüb rayon mərkəzinə gedən yolla yuxarı tərpətdi. Maşın hiddəti özünə sığmayan bir canlı kimi nər-nər nərildəyərək yoxuşları dırmanır, yolun düzünə çıxır, görünməmiş bir sürətlə irəliləyirdi. Şoferin bomboz olmuş üzündə bircə əzələ də tərpənmirdi. O, ancaq qabağa baxırdı. Güllə vursan, bir damcı da qanı sızmazdı. O, nə edirdi? O, maşını haraya sürürdü? Bu sadəcə bir acıq idimi? Yox, bu məhəbbəti iztiraba dönmüş bütöv bir qəlbin anlaşılmaz hökmü, atəşlə sevən bir gəncin son ümidləri və bəlkə də ən alçaq rəqibə qarşı ağlasığmaz bir səxavət göstərmək idi.

Cəbo isə elə hey bığlarını əlləşdirir, Mövlana baxır, danışmaq, heç olmazsa bir söz demək istəyir, amma ürəyi gəlmirdi. İşlətdiyi hiylənin nə ilə bitəcəyini düşünərkən qorxurdu: “Bu qaradinməz şofer dərdini öz içində çəksəydi yaxşı olardı”. O bu işə qəsdən Mövlanı aparırdı. Qızın könlünü Mövlana verdiyini bilirdi. Cangülümü ora aparmaq üçün Mövlanın özünün getməsi qızın son ümidini qırmalı idi.

Nəhayət, onun dili açıldı:

– Qüvvətli maşındır ha. Lap elə bil ki, ildırımdır. Qaçarağına ceyran da çatmaz. Yaxşı düz ola, ceyran qovasan. Heç qoymaz ki, addımını tərpətsin.

Cəbo bir qədər susub, sonra dedi:

– Ayrı adama ağız açmadım, dedim elə özümüzünküsən. Qoy, belə bir xeyir iş sənin zəhmətinlə başa gəlsin.

Mövlanın əvvəlki şübhələri bir də təzələndi. O, Cəboya göz qoydu. Onun ifadəsiz baxışı Mövlanı bir də bu fikrin üstünə gətirdi: “Bəlkə, doğrudan da, Cangülüm ayrı qızdır?”

Onlar bir döngəni də burulub yoxuşun başına qalxarkən qarşıda Mirzəli kəndi göründü, Cəbo gözünü yollardan çəkib Mövlana yaxınlaşdı:

– Sənə açığını deyirəm. Qızın özü ilə danışmamışam. Düzdür, ümumi razılıqları var, amma işi uzadırlar. Bunu bilirəm ki, hər gün elə bu vədlərdə çaylağın yanındakı kəhrizdən su aparmağa gəlir. Elə biz də oradaca qabaqlaşırıq. Qoyduq maşına, qurtardı getdi.

Mövlan maşını alt yola burub bağların arasından keçən kəsmə yolla sürdü.

Yenə də batan günəşin saralmış işıqları Cangülümgilin bağçalarındakı ağacların yarpaqları ilə oynaşır, qısa ömrünü sona vurmaqda olan yarpaqlarla bir də sabah qayıdacaq günəşin şüaları biryolluq vidalaşırdı.

Maşın elə seyrəkliyə çıxıb bulağa yaxınlaşmışdı ki, Cəbonun səsi eşidildi:

– Yavaş, suda adam var.

Mövlan maşının səsini alıb bulağın üstünə sürdü. Xırda güllü, solğun parçadan kofta-tuman geymiş qız bəri çevrildi. Cəbo ağarmışdı. Qız da ilk dəfə maşının sükanı arxasında oturmuş şoferə baxdı. Sonra, bir qıçını çəkə-çəkə artıq ona çatmaqda olan Cəbonu görərkən nə isə başa düşdü. Qızın dəyirmi çöhrəsi birdən elə bozardı, elə sərtləşdi ki, Cəbo yerindəcə quruyub qaldı.

Bulağın üstə bir onlar idi, bir də Cangülüm. Düz vaxtında çatmışdılar. Cangülüm əlindəki dəsmalı sıxıb bürmələmişdi ki, dolu səhəngin ağzına tıxasın. Cəbo Cangülümə nə isə deyib geri çevrildi və əl etdi ki, Mövlan maşını yaxına çəksin. Maşın yanaşdı. Mövlan və Cangülüm baxışdılar. Oğlanın baxışları qışlayan sırsıralı dağlar kimi ağır, iztirab dolu, kədərli, həsrətli idi... Qızın gözləri doluxsunmuş, baxışları kövrəlmiş, çaşqınlaşmışdı...

– Kömək elə, Mövlan, – deyə Cəbo əli hər yerdən üzülmüş halda gözlərini ona dikdi. Mövlan maşından düşdü. Bulağın üstünə yeridi, qızın səhəngin qulpundan tutan əlindən yapışdı, Cangülüm də təpədən dırnağa titrəyən gərdənini düzəltdi.

– Gedirsənsmi? – deyə Mövlan soruşdu.

– ...

– Gedirsənmi? – deyə Mövlan bir də elə soruşdu ki, onun qəlbindəki ağrı, səsindəki məna və iztirab Cəbonu dəhşətə saldı. Amma Cangülüm qorxmadı. Əksinə, elə bil ki, Mövlanın səsindəki sarsıntı tükənməz bir cəsarətə çevrilib bu həlledici anda qızın qəlbinə qüvvət gətirdi.

O, bir neçə an Mövlana baxdı. Bir də balaca daş hovuza tökülən suyun şırıltısını dinlədi...

– Gedirəm, – deyə qız çevrilib tələsik addımlarla maşına tərəf yeridi.

İkicə dəqiqə sonra isə QAZ-69 markalı maşın Mirzəli bulağını və sahibsiz səhəngi çox-çox arxada qoyub asfalt yolla üzü aşağı irəliləyirdi. Yalnız Cəbonun səsi eşidilirdi. O, nə isə deyir, elə hey yalandan gülür, hırıldayırdı. Cangülüm isə elə bil heç maşında yox idi. Onun yerini qaranlıq və ağır bir sükut tutmuşdu.

Cəbonun dili açılmışdı:

– Şoferlik də bir sənətdirmi? Bütün ömrün boyu yollar yorğunu, illər zəvvarı. Bu kənd mənim, o kənd sənin, bu kolxoz mənim, o kolxoz sənin. Ağan deyir sür dərəyə, sür dərəyə. Amma bircə bu karınıza varam. Adamın yaman yerdə əlindən tutursunuz.

Mövlanın vəziyyətini siz özünüz təsəvvür edin. O susurdu. Bütün daxili təlatümə gəlib kökündən çalxalanan bir fırtınalı dənizə dönsə də, o dinmirdi.

Maşın diki sallanıb kəndin girəcəyinə çatarkən: – Saxla! – deyə Cəbo ucadan səsləndi.

Maşın yavaşca yolun kənarına dönüb durdu. Cəbo dərhal yerə hoppandı.

– Düş! – deyə qaranlıqdan səsləndi. Ay qız, səninlə deyiləm?

Yenə də səs gəlmədi. Cangülümün gözləri heykəl kimi qarşısında görünən şofer oğlana dikilmişdi. Elə bil ki, onun bütün həyatı bu adamın bircə tərpənişindən asılı idi.

– Kimə deyirəm? – Cəbo başını içəri soxaraq qollarını Cangülümə tərəf uzadarkən:

– Mövlan! – deyə qız həyəcan dolu bir səslə onu çağırdı. Şofer ayıldı. Düyməni basdı, başının üstündəki xırda lampoçka yanıb maşının içini işıqlandırdı.

– Niyə dayanmısan, Mövlan? Məni sən gətirmisən. Mən sizə gəlmişəm, – deyə qız son qüvvəsini toplayıb qəhərdən boğula-boğula düşünərkən Mövlan geri döndü. Cangülümün gözlərinə baxdı... baxdı... Gözündə dünya-aləm dəyişdi. O, qızın əlindən tutub yanına çəkdi...

Cəbo görünmürdü. O, sanki bu qaranlıq gecənin şərinə qarışıb yox olmuşdu...

*1957*

# İSİ MƏLİKZADƏ

(1934-1995)

*İsi Məlikzadə Ağcabədi rayonunda doğulmuşdur. Burada Xalfərəddin orta məktəbini bitirmiş, Azərbaycan Sənaye İnstitutunun neft-kimya fakültəsində ali təhsil almışdır. Əmək fəaliyyətinə 1957-ci ildə başlamış, Əzizbəyovneft Mədənlər İdarəsində operator, yerüstü avadanlıq ustası* (*1957-1961*), *Azərbaycan Kommunal Təsərrüfat Nazirliyi Bakqaz idarəsində böyük mühəndis, şöbə rəisinin müavini* (*1961-1966*), "*Ulduz*" *jurnalı redaksiyasında publisistika şöbəsinin müdiri, məsul katib* (*1966-1973*), *nəsr şöbəsinin müdiri* (*1980-1981*), "*Azərbaycan*" *jurnalı redaksiyasında nəsr şöbəsinin müdiri* (*1976-1980*), "*Mozalan*" *satirik kinojurnalı studiyasında böyük redaktor* (*1981-1983*), *C.Cabbarlı adına* "*Azərbaycanfilm*" *kinostudiyasında baş redaktor* (*1983-1985*) *vəzifələrində işləmiş, 12 may 1995-ci ildə dünyasını dəyişmişdir.*

*Bədii yaradıcılığa 1950-ci illərin sonlarında başlayan İsi Məlikzadə XX əsr Azərbaycan ədəbiyyatında istedadlı nasir kimi tanınmışdır. Onun* "*Alovlu qış*", "*Gümüşgöl əfsanəsi*", "*Özgə anası*", "*Yaşıl gecə*", "*Günəşli payız*", "*Evin kişisi*", "*Dədə palıd*", "*Qaranquş yuvası*", "*Küçələrə su səpmişəm*" *kimi povest və romanları oxucuların dərin rəğbətini qazanmış, ədəbi tənqid tərəfindən yüksək qiymətləndirilmişdir. Yazıçının bu cildə daxil edilmiş "Oxuma Cəmil" hekyəsi onun "Həsrətin sonu" kıtabından (Bakı, Azərnəşr, 1964) götürülmüşdür.*

## OXUMA, CƏMİL

(*Hekayə*)

Çahargahı Qarabağda Cəmil kimi oxuyan hanı? Onun səsində bir cazibə, ruhu oxşayan xoş bir ahəng vardı. Cəmili dinləyən bir də dinləmək istəyirdi. Qarabağın füsunkar gözəli Humayın qəlbini odlandıran, səbrini əlindən alan Cəmilin səsi deyildimi?..

Cəmilgilin eyvanından Səfər bəyin bağçası aydın-açıq görünürdü. O, həmişə burada durub ağacların arasında gəzən Humaya xəlvəti baxardı. Ancaq həm Səfər bəyin, həm də oğlu Cümşüd bəyin

qorxusundan qıza bir söz deməzdi. Humay isə eyvandan boylanan Cəmili görmürmüş kimi heç məhəl qoymazdı. Bu da Cəmilin ümidini qırar, qəlbini kədərlə doldurardı.

Axşam çoxdan düşmüşdü. Bəzi evlərin işığı sönmüş, adamlar yuxuya getmişdi. Cəmil sütuna söykənib gözlərini Humayın bağçaya tərəf olan pəncərəsindən çəkmirdi. O, xeyli baxdı. Pəncərədə heç kim görünmürdü. Birdən otaqda işıq söndü. Cəmil qüssələndi:

"İndi Humay arxayın yatacaq. Daha xəbəri yoxdur ki, mən yazıq yuxu nə olduğunu bilmirəm", – deyə fikrindən keçirdi.

Sevdiyi çahargah muğamını dodaqaltı zümzümə eləməyə başladı. Lakin səsini nə vaxt ucaltdığından özünün də xəbəri olmadı. O, gözünü qaranlıq otaqdan çəkmədən oxuyur, sanki gur səsi ilə pəncərə şüşəsini dəlib ürək sözlərini Humaya çatdırmaq, muğamın avazını onun qəlbinə işlətmək istəyirdi. Cəmil çahargahın "Balü kəbutər" hissəsinə keçdi. Bir neçə zəngulə vurdu. Humayın otağında işıq yandı. Cəmil daha da ürəklə oxudu. "Afərin, Balü kəbutər" – deyə fikirləşdi. Humay pəncərəni açıb başını çölə çıxartdı. Cəmil həyəcanını zorla boğaraq, qəzəlin sözlərini "Balü kəbutər"in xoş ahənginə uyğunlaşdırıb oxuyurdu:

"Pəmbəyi daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim".

Qız Cəmilgilin eyvanına tərəf boylanır, ay işığında oxuyan adamı axtarırdı. "Afərin Balü kəbutər, sən bülbülü yuvasından çıxartdın" – deyə Cəmil fikirləşdi. O, çahargahın "hasar" hissəsini də oxuyub qurtardı. Qız xeyli vaxt yerindən tərpənmədi. Sükuta qərq olmuş bağçanı seyrə daldı. Cəmilin daha oxumadığını görüb pəncərəni örtdü. Otaqda işıq sönəndən sonra da Cəmil uzun müddət hərəkətsiz durub gözlərini pəncərədən çəkmədi. Sonra sevincək gəlib yerinə girdi. "Balü kəbutər"i dönə-dönə ürəyində oxudu. Bu füsunkar gecənin ona bağışladığı şirin təəssüratın ağuşunda uzun müddətdən bəri birinci dəfə ağır yuxuya getdi.

Səhərisi gün Cəmil yenə eyvanda dayanıb fikrə getmişdi. O, üzünü döndərib Humaygilin bağçasına baxanda gözlərinə inanmadı. Qız əlində bir dəstə gül tutub hasarın yanında dayanmışdı. Başındakı ağ ipək kəlağayı arxaya tərəf sürüşmüş, şəvə kimi qara saçları üzünə tökülmüşdü. Cəmil ilə göz-gözə gələndə Humay gülümsədi. Cəmilin ürəyi titrədi. Qızın üzündəki mehriban

ifadədən, dodaqlarındakı təbəssümdən özünü itirdi. Ona elə gəldi ki, yuxu görür. Bütün cəsarətini toplayıb qıza tərəf addımladı. Cəmil elə düşünürdü ki, Humay onu görən kimi qaçacaq. Lakin Cəmil hasara yaxınlaşdıqca qız onu daha maraqla süzür, qara gözləri qaynayırdı.

– Dünən necə də yaxşı oxuyurdun, Cəmil. Yaxşı da sözlər deyirdin. Necədir, o? Yadımda qalmadı. Ölsəm kəfənim nə olsun?

Cəmil ürəkləndi:

– Sənin xoşuna gəldimi?

Qız gülərək başını tərpətdi. Cəmil qəzəli qızın yadına saldı:

– Diri olduqca libasım budur, ölsəm kəfənim. Bu, "Balü kəbutər"dir, Humay, çahargahın ən yaxşı yeridir.

– Cəmil, onu tez-tez oxu. Yaxşımı?

– Baş üstə, Humay.

Qız dönüb evə qaçdı.

Anasının oğluna yazığı gəlirdi. Bu işin axırından qorxurdu. "Allah eləməsin, – deyə fikirləşirdi, – Səfər bəy gözüqanlının birisidir. Uşağın başına iş gətirər. Hələ o od aparmış Cümşüd bəy bir şey başa düşsə, vay gədənin halına".

Ananın qorxusu əbəs deyildi. Axı Cümşüd bəydən kim qorxmurdu? Sənin baxışın xoşuma gəlmir deyə Qurbanın gözünü vurub çıxaran o deyildimi? Xırman üstündə ağsaçlı Niyazi ölənə qədər döyən o deyildimi? Bəs, beşyaşlı Səlimi atın ayaqları altında əzib şikəst edən kim idi? Əlbəttə, Cümşüd bəy! Ana ondan qorxmaya bilməzdi. "Heç bəy də öz qızını palançı oğluna verərmi?" – deyib Cəmildən xəlvət göz yaşları tökərdi.

Cəmilin səsi Səfər bəyin də qulağına çatdı. Bir gün Humay yenə pəncərənin qabağında oturub "Balü kəbutər"ə qulaq asırdı. Birdən pilləkənlərdə tıppıltı eşidildi. Sonra ayaq səsləri kəsildi. Deyəsən Səfər bəy dayanıb Cəmilə qulaq asırdı. Bir xeyli keçdikdən sonra pilləkənlərlə başqa birisi də yuxarı qalxdı. Humay qardaşı Cümşüd bəyi səsindən tanıdı. Qız atası ilə qardaşının danışığını aydınca eşidirdi.

Səfər bəy xırıltılı bir səslə oğluna deyirdi:

– Cümşüd, bu palançı Məmmədin qoduğu hər gecə nə bağırır? Bu it balasının səsini kəsmək lazımdır.

Atasının sözləri Humayın ürəyinə vəlvələ saldı. Qız səhərə qədər yerinin içində o yan-bu yana eşələndi. Yuxuda gah həzin-həzin oxuyan Cəmili, gah da gözlərinin yerində bir cüt məşəl yanan atasını görürdü.

Humay axşamın gəlməsini səbirsizliklə gözlədi.

Toran qarışandan sonra o, hasarın yanında dayanıb Cəmilə yalvarıb-yaxarırdı:

– Oxuma, Cəmil, yalvarıram, oxuma.

Cəmil heç nə başa düşmür, təəccüblə Humaya baxırdı. O, qızın bu təlaşının səbəbsiz olmadığını anladı.

– Humay, bir məni başa sal görüm axı, nə üçün oxumayım? De görüm nə olub?

– Heç nə, Cəmil, heç nə. Oxuma, qorxuram, Cümşüddən qorxuram.

* * *

Kənddə toy idi. Cavan oğlanlar dövrə vurub oturmuş, qızlar isə mağarın cırıq-sökük yerindən xəlvətcə içəriyə baxırdılar. Mağar ağzına qədər dolu idi. Çalanlar istirahət nə olduğunu bilmirdilər.

Birdən kim isə yerindən qalxıb çığırdı:

– Ay uşaqlar, Cəmil oxusun!

– Oxusun, oxusun! – deyə hamı bir ağızdan səsləndi.

Cəmili darta-darta çalğıçıların yanına gətirdilər. Adamlar yerdən çığırışdılar:

– Çahargah oxusun, çahargah!

Çalğıçılar "Balü kəbutər"in ilk xallarını vurdular. Cəmil dəfi qulağına qoyub oxuyurdu:

"Pəmbəyi daği-cünun içrə nihandır bədənim,
Diri olduqca libasım budur, ölsəm kəfənim..."

Cəmil "Balü kəbutər"i bu gün xüsusilə yaxşı oxuyurdu.

Qəfildən açılan güllə Cəmilin səsini kəsdi. Onun boğazında qaynayan sözlər xırıltıya çevriləndə Cümşüd bəy əlindəki tapançanı cibinə qoyub mağardan xəlvətcə uzaqlaşdı. Cəmil qıraqlarına sədəf çəkilmiş dəfi köksünə sıxaraq ağrıdan yumaq kimi büküldü. Yavaş-yavaş dizləri üstə düşdü. Sonra üzüqoylu yerə sərildi. Əlində tutduğu dəf qırmızı qan içində idi. Güllə düz onun ürəyindən dəymişdi.

"Balü kəbutər" əbədi susdu. Onun xoş səsini bir daha eşidən olmadı.

*1959*

# YUSİF SƏMƏDOĞLU

(1935-1998)

*Yusif Səmədoğlu Bakı şəhərində ziyalı ailəsində doğulmuşdur. Burada 44 saylı şəhər orta məktəbini bitirmiş, Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunda (1953-1957) və Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində (1957-1958) təhsil almışdır. Əmək fəaliyyətinə 1958-ci ildə "Kommunist" qəzeti redaksiyasında tərcüməçi-redaktor kimi başlamış, sonra "Azərbaycan" jurnalı redaksiyasında ədəbi işçi, nəsr şöbəsinin müdiri, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında ssenari redaksiya heyətinin üzvü, baş redaktor əvəzi, baş redaktor, direktor müavini, "Ulduz" jurnalının baş redaktoru (1976-1987), "Azərbaycan" jurnalının baş redaktoru (1987-1998), Azərbaycan Yazıçılar Birliyinin katibi (1991-1998) vəzifələrində işləmişdir. Ədəbiyyat qarşısında xidmətlərinə görə o, Azərbaycan Lenin komsomolu mükafatı (1970), Azərbaycan SSR Əməkdar incəsənət xadimi (1980) və Xalq yazıçısı (1998) fəxri adlarına layiq görülmüş, iki dəfə Azərbaycan Milli Məclisinin deputatı seçilmişdir.*

*1998-ci ildə uzun sürən xəstəlikdən sonra Bakıda vəfat etmiş, Fəxri xiyabanda dəfn olunmuşdur.*

*Y.Səmədoğlu bədii fəaliyyətə XX əsrin 50-ci illərində başlamışdır. "Qanlı çörək" adlı ilk hekayəsi 1953-cü ildə "Azərbaycan gəncləri" qəzetində çıxmışdır. "Qətl günü" və "Deyilənlər gəldi başa" romanları məşhurdur. Yazıçının bu cildə daxil edilmiş "220 №-li palata" hekayəsi onun eyni adlı kitabından (B., Gənclik, 1960) götürülmüşdür.*

## 220 №-Lİ OTAQ

(*Hekayə*)

Sizə əhvalatı olduğu kimi, – bir şey artırıb-əskiltmədən danışmaq istəyirəm.

Moskva. İyul ayının sonu.

Mənim kiçik otağımın pəncərələri taybatay açıqdır. Eşikdən içəri sərin meh vurur. Mən beş il yaşadığım bir otağı diqqətlə nəzərdən keçirirəm, elə bil ilk dəfədir ki, bu otaqdayam. Burada hər şey – kitab şkafının rəflərinə pərakəndə halda səpələnmiş kitablar,

arxasında yuxusuz gecələr keçirdiyim qəhvəyi stol, ağ nikeli qapqara qaralmış köhnə çarpayı, – hər şey, hər şey nə qədər mənə əzizdir!

Moskva. İyul ayının sonu.

Mən bu gün diplom almışam, qara cildli bir diplom. Mənim beş illik tələbəlik həyatım artıq arxada qalmışdır. Görən doğma Moskvada keçirdiyim bu beş ili mən unuda bilərəmmi? Bir gün də belə yox!

Moskva. İyul ayının sonu.

Axşam saat yeddinin yarısıdır. Mən tələsməliyəm. Çünki çoxdan bəri görüşmədiyim dostlarımın yanına gedəcəyəm.

Saat yeddiyə on beş dəqiqə qalanda pencəyimi geyib küçəyə çıxıram...

Bilmirəm, niyə tramvay o səkkizmərtəbəli binanın qarşısında dayanan kimi, ürəyim döyünməyə başladı. Bir müddət tramvaydan düşməyə belə tərəddüd etdim.

Binaya yanaşan kimi ilk andan nəzərimi qapıya vurulmuş enli qara lövhə cəlb etdi: "Tələbələr yataqxanası".

Bir il qabaq bu lövhə yox idi. Düz bir il idi ki, mən dostlarımı görmürdüm.

Qapını açıb içəri girdim.

Gününü görüb dövranını sürmüş qoca komendanta pasportumu təhvil verib gedəcəyim otağın nömrəsini dedim və altıncı mərtəbəyə qalxdım. Üstündə "220" rəqəmi yazılmış qapının qabağında dayandım. Qapını yüngülcə itələdim. Qapı cırıltı ilə açıldı.

220 №-li otağa girən kimi üstünə araq butulkaları, konserv qutuları, qədəhlər düzülmüş balaca stolun yanında çəngəl-bıçağı silən Elmarı gördüm. Ondan bir az aralı, stolun baş tərəfində İslam əllərini oynada-oynada sarısaçlı, sinəsi açıq, aşağıya doğru darlaşan qolsuz paltar geymiş bir qızla söhbət edirdi.

– Paho, gör bizə kim gəlib!.. Ay səni xoş gördük! Balam, bizi lap yaddan çıxarmısan ki? Axı, belə iş olmaz! – deyə Elmar əlini dəsmala silib üstümə yüyürdü, bərk-bərk məni qucaqladı, iki dəfə üzümdən, bir dəfə də dodaqlarımdan öpdü. Bizdən bir az kənarda, əlləri cibində dayanan İslam gülür, kirpiklərini tez-tez qırpırdı. Hələ də məni buraxmayan Elmarın qolları arasından birtəhər çıxıb İslama tərəf yönəldim, əlini bərk-bərk sıxdım, onu öpmək üçün özümü qabağa verdim. İslam mənim məqsədimi duyub geri qanrıldı, güldü, sarı dişləri göründü.

– Ay salam, salam! Nə əcəb səndən? – deyə birdən susdu, bizə yanaşan sarısaçlı qızın qolundan tutdu, məni ona ciddi bir görkəmlə təqdim etdi, elə bil dostunu yox, rəsmi bir adamı təqdim edirdi.

– Nika, tanış ol. Bizim azərbaycanlıdır, neftçilərdəndir.

Nika əlini uzatmadan adını dedi və incə bir səslə:

– Bəs sizin adınız? – deyə soruşduqdan sonra qolundan asılmış redikülündən yaylığını çıxarıb alnının tərini sildi.

Mən də adımı dedim. Nika isə daha danışmadı, susdu. İslamın üzünə baxıb nədənsə dodaqlarını marçıldatdı.

İslam qızın əlini əlləri arasına alaraq ona tərəf əyildi, qulağına nəsə pıçıldadı. Qız güldü. Araya bir neçə saniyəlik sükut çökdü. Sonra İslam qızın qolunu buraxıb stolun arxasında çörək doğrayan Elmarı çağırdı:

– Elmar, sən Nikayla stolu səhmanla, biz də bir az söhbət edək.

Nika Elmarın yanına getdi.

Biz İslamla çarpayının üstündə oturduq. Mən diqqətlə İslama fikir verdim. Adam da bu qədər kökələrmiş! Sizi inandırıram ki, əgər İslamı küçədə görsəydim tanımazdım. İndi yanımda oturan İslam mənim tanıdığım, iki yoldaş arasında "sümük kisəsi" çağrılan İslam deyildi!

İslam yerində qurcalandı, birdən "yaman istidir" deyə ayağa qalxdı. Pencəyini çıxartdı. Elə bil İslamın kök bədəni bunu gözləyirdi: o dəqiqə sinəsindən, qarnından, böyürlərindən xeyli ət pırtdadı; İslam tamam yumru bir şeyə döndü.

İslam mənim güldüyümü görüb, başını buladı, nəyə güldüyümü başa düşdü.

– Demə, demə. Yaman kökəlmişəm. Ancaq məndən asılı deyil. İştahamın qabağını ala bilmirəm. Boq dast, yayda özümü arıqladaram, – dedi və təzədən yanımda oturdu.

O məndən əhvalımı, dərslərimin necə getdiyini, anamı xəbər aldı. Mən institutu qurtarmağımı dedikdə İslamın gözləri böyüdü, yerindən durdu:

– Mən ölüm?!

– Sən öl, bu da diplom.

Diplomu cibimdən çıxarıb ona verdim. Elmarla Nika da bizə yanaşdılar. Hər üçü növbə ilə diplomu alıb oxudular, ora-burasına baxdılar. Elmar dodaqlarını büzüb çox mənalı tərzdə başını tərpətdi, sonra əlimi sıxdı:

– Təbriklər, min dəfə təbriklər, – dedi və stolun başına keçib hamımızın oturmasını xahiş etdi. Elmar qədəhləri doldurdu.

– Uşaqlar, bunu içək dostumuzun sağlığına! O gün olsun ki, aspiranturanı da qurtarıb olsun elmlər namizədi. Ura!

Hamı sağlığıma içdi. Elmar tez boşqablarımıza duzlu xiyar qoydu.

– İndi qoy hər kəs özü özünə qullaq etsin. Daha mənim təhərim yoxdur, – deyə o, qədəhləri təzədən doldurdu. Biz bir də içdik. Sonra bir də. Elmar nədənsə o saat kefləndi, dili dolaşdı, tez-tez gəyirməyə başladı.

İslam əlindəki duzlu xiyardan dişdəm vurub Elmara dedi:

– Ay-hay, nə tez gözlərin qızardı.

Elmar mənə göz vurdu, çiyinlərini əsdirə-əsdirə güldü.

– Təki gözlərim araqdan qızarsın!

Hamı gülüşdü. Sonra üç nəfər – İslam, Elmar və Nika öz aralarında danışmağa başladılar...

...Mənimsə yadıma orta məktəbdə oxuduğumuz vaxtlar düşdü. Mən onuncu sinifdə, İslamla Elmar doqquzda oxuyanda bizim dostluğumuzun bünövrəsi qoyulmuşdu. O zamanlar İslam özfəaliyyət dərnəyində tar çalır, Elmar isə oxuyurdu. Məktəbdə bir konsert olmurdu ki, bu iki nəfər orada iştirak etməsin.

Biz – üç dost vaxtımızın çoxunu kitabxanalarda keçirərdik. Həftədə bir-iki dəfə ya kinoya, ya da teatra gedərdik. İslam böyüyəndə tarixçi, Elmar isə ədəbiyyatçı olacağını söyləyərdi. Mən elə o zamandan, bəlkə də daha tez, lap uşaqlığımdan neftçilikdən yapışmışdım. Dənizdəki neft buruqlarında işləmək, üz-gözüm mazutun içində evə qayıtmaq mənim ən müqəddəs arzum idi.

Vaxt keçdi. Orta məktəbi bitirib Moskvaya getdim. Neft İnstitutuna daxil oldum. Bir ildən sonra Moskvada İslamla Elmarı qarşıladım. İkisi də Moskva universitetinin tarix fakültəsinə girdi.

Sonra tələbəlik illəri bir-birinin ardınca ötüb keçdi. Bir yerdə yatdıq, bir yerdə durduq, üçümüz bir papirosu çəkdik, bir yerdə səhərə qədər imtahanlara hazırlaşdıq. Hər dəfə təqaüd alan kimi bir yerə yığışıb şənlik düzəltdik, dostları başımıza topladıq, bəzən səhərə kimi kef elədik. Aramızda xırda inciklikler də baş verdi, amma yarım saatdan sonra öpüşüb barışdıq. Bu illər ərzində İslamın tarı da bir gün belə susmadı, güldü, inildədi, segah çaldı, şikəstə dedi, ürəyimizi döyündürdü, gözlərimizi yaşartdı, hər dəfə yadımıza Bakını saldı.

Belə günlərimiz çox oldu. Ancaq bir gün gəldi ki, bizim dostluğumuz soyudu, İslamla möhkəm sözləşdik, o mənə dedi, mən ona.

Əhvalat belə olmuşdu:

Günlərin birində yenə İslamın yanına – 220№-li otağa gəlmişdim. Qış idi. Otaqda istidən çox ürək sıxan bürkü vardı. Paltomu soyunan kimi İslamdan "tarı dınqıldatmasını" xahiş etdim. Əvvəlcə o boyun qaçırdı, dedi ki, çalmıram, kefim yoxdur. Mən bir də təkid etdim, zarafatyana ona "forslanma" dedim. O isə hirsli-hirsli üstümə çımxırdı:

– Sənin də bir tarın var, elə bilirsən ki, dünya sənindir. Tarın, kamançanın vaxtı keçdi.

Sözün düzü, məni gülmək tutdu. İslamın boynunu qucaqlayıb soruşdum:

– Bu fikirlər sənin başına haradan gəlib, ay İslam? Necə yəni tarın, kamançanın vaxtı keçdi?

– Heç hardan gəlməyib! Elə öz-özümə fikirləşib tapmışam, başa düşdün? – deyə o, kobudcasına məni itələyib çarpayısına uzandı.

Bu dəfə mən partladım. Deyəsən ona "əbləh" dedim. O isə məni "gic müsəlman" adlandırdı. Daha bir söz demədim, geyinib otaqdan çıxdım.

O gündən hər həftə onlara zəng vurar, bir-iki kəlmə ilə hal-əhvallarını xəbər alardım. Vəssalam.

Sonra vaxt gəldi, ali məktəbi bitirdim. Arada düz bir il dostlarımı görmədim. Çünki aramız soyumuşdu. Bir də başım qarışıq oldu. Gah imtahanlara hazırlaşdım, gah da diplom yazdım...

...Nəhayət, indi dostlarımın yanındaydım. İslam kökəlmişdi, Elmar arıqlamışdı. İkisi də Nikanın qolundan tutub bir-birinə aman vermədən ona nəsə deyir, üçü də şaqqıltı vurub gülürdü.

İslam mənə tərəf döndü, buxağının tərini silib bayaqkı gülüşün təsiri altında hıqqana-hıqqana soruşdu:

– Təyinatı hara almısan? – deyə o, yerindən qalxıb otağın o başına getdi, divardan asılmış aynada özünə baxdı, sualını bir dəfə də təkrar elədi.

Yerimdən qalxıb İslamın yanına gəldim.

– Necə yəni hara? Bakıya almışam.

– Haraya? Bakıya?! – deyə İslam təəccüblə soruşub Elmara tərəf döndü, qışqırdı. – Ey, eşidirsən? Deyir ki, işləməyə Bakıya gedəcəyəm.

Elmarın başı söhbətə çox qarışıq idi. O, Nikaya "bağışla" deyib bir anlığa bizə tərəf döndü və dedi:

– Hara? O xarabaya?

Mən Elmara cavab vermək istədim. İslam sözümü ağzımda qoydu:

– A kişi, Bakıda nə var? Ağlın olsun, gedib düşəcəksən müsəlmançılığın içinə, mədəniyyətsizlərin arasına. Gül kimi Moskvanı, restoranları, cananları qoyub hara gedirsən?

Bir söz deyə bilmədim. Nədənsə həm Elmarın "xaraba" kəlməsi, həm də İslamın son sözləri mənə həmin tar əhvalatını xatırlatdı. Bu iki şeyi bir-birinə bağlayan məna bədənimə üşütmə gətirdi.

– Əyə, İslam, Bakı sənə çörək verib. Elə danışma, – deyə mən fikrimi ifadə etmək üçün daha münasib sözlər axtarmağa çalışdım, ancaq sözümü qurtara bilmədim. Elə bu an Nika da bizə yanaşdı. İslamın qoluna girib yenə dodaqlarını marçıldatdı. Qız İslamdan soruşdu:

– Nə olub? Əgər gizlin deyilsə, mənə də deyin...

İslam güldü, əllərini bir-birinə vuraraq qəribə bir səslə qızı başa saldı:

– Nika, bir bunun dediyinə bax. İşləməyə Bakıya getmək istəyir.

– Aha, demək patriotdur... Vallah, ixtiyar məndə olsaydı, bu "patriot" kəlməsini birdəfəlik dilimizdən silib atardım. Canım, bu Qafqazda nə tapmısınız? Sizin Qafqaz əhli, bizim də Tambov mujikləri... Fu!.. – deyə Nika hıqqıldadı, dediklərinin təsdiqi üçün İslamın üzünə baxdı.

İslam:

– Düzdür, düzdür, – deyə Nikanın sözlərinə şərik olduğunu bildirdi. Özü də necə bir soyuqqanlılıqla!

Ürəyimi çırpındıran həyəcan elə bil dilimi, dodağımı qurutdu, bədənimi məngənə kimi sıxdı. Nədənsə İslamı ayağımın altına salıb əzmək istədim. Lakin özümü ələ aldım.

– İslam, – dedim, – sən həmişə tar çalardın, şikəstə deyərdin. Nizaminin, Füzulinin, Sabirin adı sənin dilindən düşməzdi. Yanında Azərbaycandan, Bakıdan danışanda gözlərin dolardı, "Vətənə qurban olum" deyərdin. Bəs indi? Axı, sənə nə olub?!

İslam məni dinləyir, təkəbbürlü görkəmlə başını bulayır, istehza ilə gülümsünürdü. O, mənim susduğumu görüb Nikadan aralandı, bir o başa, bir bu başa getdi, sonra dayandı.

– Hm... Nizami, Füzuli... – dedi. – Sənin dediklərinin hamısı düzdür. Mən Nizamidən də, Füzulidən də, Sabirdən də həzz alardım, gecə yarıya qədər onları oxuyardım. Düzdür, mən tar da çalardım, şikəstə də deyərdim. Bax, o tar mənim əlimdən yerə düşməzdi. – Burada o, sözünü kəsib divardan asılmış ağ sədəfli tarını göstərdi. Mən bayaqdan o tara fikir verməmişdim. İndi verdim. Tarın sədəfi qaralmış, simləri qırılmış, üstünü toz basmışdı. Demək, artıq İslam tarını əlinə almırdı, onun barmaqları o simlərə toxunmurdu. – Düzdür, sənin dediklərinin hamısı düzdür. Ancaq o vaxtlar keçdi. İndi o Nizami, o tar, o kamança, nə bilim, segahlar, zabillər nə sənə lazımdır, nə də mənə!

Dünya gözlərimdə qaraldı. Bu nə danışır? Axı İslama nə olub? Bunu kim, hansı şərait belə edibdir? Moskvamı? Moskvada aldığı təhsilmi? Yox! Yox! Moskvada yüzlərlə azərbaycanlı oxuyubdur, lakin heç kəs bunun kimi danışmayıb, öz xalqından, mədəniyyətindən üz döndərməyib!..

Nika stolun arxasında qədəhləri dalbadal boğazına boşaldan, artıq əməlli-başlı keflənmiş Elmara tərəf getdi. Mən onun səsini eşitdim:

– Elmar, mən yatmaq istəyirəm.

– Nə-ə... Ya-yatma-aq... – deyə Elmar kəkələdi. – Yatmaq olar, amma qorxuram ki, o dəfəki kimi ərin səni burada tapa... Atamıza od vura...

İslam susduğumu görüb güldü, deyəsən mənə təsəlli vermək fikrinə düşdü.

– Sən məndən incimə... Sən hələ çox şeyləri başa düşmürsən. İyirminci əsr hələ sənin beyninə girməyib, – dedi. – Əsr başqa əsrdir, mənim əzizim. Yeni gənclik meydana çıxıb. Bizi nə adlandırırlar, adlandırsınlar. Lakin biz varıq. Düzdür, çox azıq, amma varıq, yaşayırıq... İnsanın sərbəstliyini, azad təfəkkürünü əlindən alan milli hisslər, ailə, nə bilim, cürbəcür adət-ənənələr bizim ruhumuza yaddır. Biz yalnız yaşamaq, kef eləmək, bu dünyadan nə mümkündürsə qoparmaq istəyirik... İyirminci əsr saksafon, truba, trambon əsridir. Biz lirikadan, insanın gözlərini kor edən romantik xəyallardan, ülvi məhəbbət kimi yabançı hisslərdən çox uzağıq. İnsan bir dəfə yaşayır... Ona görə də biz öz hisslərimizi cilovlayırıq, bayaq dediyim kimi, həyatdan nə mümkündürsə qoparırıq... Əlbəttə, yəqin sən ürəyində bizə gülürsən. Haqqın da var. Çünki

sən həyatı başqa cür başa düşürsən. Yalnız sənin yox, milyonlarla sənin kimilərin bizi görməyə gözləri yoxdur. Hamı bizə nədənsə stilyaqa deyir, bizi hər yerdə biabır eləmək istəyirlər, bəzən lap üzümüzə də tüpürürlər. Amma biz məğlub olmuruq, yaşayırıq... Aydındırmı?

İslam susdu. Saatına baxıb gərnəşdi:

– Paho, saat on ikidir ki!

Bu, o demək idi ki, yəni çıx get.

Mənimsə elə bil dizlərim qurumuşdu, deyəsən gözlərim də yaşarmışdı.

– İslam, axı Azərbaycan...

İslam kobudcasına mənim sözümü kəsib qışqırdı:

– Rəhmətliyin oğlu, nə tapmısan ey bu Azərbaycandan! Cəhənnəmə qalsın sənin Azərbaycanın! Elə səhərdən tutuquşu kimi Azərbaycan, tar, kamança deyib ötürsən!..

O yandan Elmarın boğuq səsi eşidildi:

– A kişi, nə tar... sən saksafondan danış!

Mənsə yenə bir söz deyə bilmədim. Doqquz ay bətnində yatmış, aylarla südünü əmmiş, laylasını dinləmiş, xeyir-duasını eşitmiş bir ananın üzünə ağ olan oğula nə demək olardı?!

Mən yalnız qapıya atıldım, hirsimdən əsə-əsə var səsimlə:

– Tfu sizin üzünüzə! – deyə qapını çırpıb dəhlizə çıxdım. Dəhlizdə arxamca qışqıran kefli Elmarın səsini eşitdim:

– Bizdən Azərbaycana salam!

Komendantdan pasportumu geri alanda, o qoca kişi diqqətlə üzümə baxdı və soruşdu:

– Orada heç kim qalmadı? Yoxsa, gecdir, yatmaq vaxtıdır.

Mən nə etdiyimi bilmirdim. Yazıq qocanın üstünə qışqırdım:

– Xeyr, qaldı! Bir fahişə qaldı, bir də o fahişəyə oxşayan iki oğraş!..

* * *

Küçəyə çıxdım. Gecə zülmət kimi qaranlıq idi. Beynimdəki dəhşətli uğultu sanki başımı partlatmaq istəyirdi. Qulaqlarımda daim kefli Elmarın son sözləri səslənirdi:

– Bizdən Azərbaycana salam!

Necə? Sizdən salam! Azərbaycana?! Yox, yox! Mən sizinlə duz-çörək kəsdiyimə görə Azərbaycana çatan kimi üzr istəyəcəyəm.

Səhər-axşam başı dumanlı olan bizim dağlardan üzr istəyəcəyəm!

Bulaq başında səhəngini dolduran azərbaycanlı qızların utancaq baxışlarından üzr istəyəcəyəm!

Nizaminin, Füzulinin təlatümlü dəryalar keçən, qarlı dağlar aşan vüsətli şerindən üzr istəyəcəyəm!

Ələsgərin, Xəstə Qasımın, Abbasın yanıqlı sazından üzr istəyəcəyəm!

Gəncliyində beşik başında daima layla deyən, qocalığında isə daim xeyir-dua oxuyan bizim anaların ağ birçəklərindən üzr istəyəcəyəm!

Nəhayət, mən vicdanımdan, bir də anam Azərbaycanın torpağından üzr istəyəcyəm!

Sonra...

Sonra isə Bakıda, Azərbaycanın hər şəhərində, hər kəndində hər yoldan ötəni saxlayıb bu sözləri deyəcəyəm:

– Gedin, onları axtarın, tapın! Onlar 220 №-li otaqda yaşayırlar! Qorxmayın, onların üzünə tüpürün!

*1959*

# MÜNDƏRİCAT

*Azərbaycan nəsri XX əsrin ortalarında* . . . . . . . . . . . . . . . . . . . . . . . . .4

**Süleyman Rəhimov**

Küp qarısı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .13

**Qılman İlkin**

Həyat yollarında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .34

**Süleyman Vəliyev**

Dağlar ətəyində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .77

**Bayram Bayramov**

Tək adam . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .97

**İsmayıl Şıxlı**

Kerç sularında . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .161

**Məmməd Aranlı**

Morava sahilində . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .179

**Hüseyn Abbaszadə**

Bağdadda bir gecə . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .193

**Fəthi Xoşginabi**

Otaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .198

**Salam Qədirzadə**

Sarmaşıqlı aynabənd . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .211

**Gülhüseyn Hüseynoğlu**

Məsələ aydındı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .235
Etiraf . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .240

**Məmmədrza Afiyət**

Biz yenə də qayıdacağıq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .245

**Vidadi Babanlı**

Əmir dayının azarı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .254

**İsa Hüseynov**

Başa düşə bilmirəm . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .264

**Sabir Əhmədov**

Bir payız axşamı . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .285

**İsi Məlikzadə**

Oxuma, Cəmil . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .297

**Yusif Səmədoğlu**

220 №-li otaq . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .301

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Tərtibatçı-rəssam: | *Nərgiz Əliyeva* |
| Kompyuter səhifələyicisi: | *Aslan Almasov* |
| Korrektorlar: | *Leyla Hüseynova*<br>*Fəridə Səmədova* |

Yığılmağa verilmişdir 10.11.2006. Çapa imzalanmışdır 28.12.2006.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 19,5. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 274.

Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.